**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

**İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Əlizadə Əsgərli,**
**Elnarə Akimova, Aygün Bağırlı, Lalə Həsənova**

# ƏDƏBİYYATDA
# HEYDƏR ƏLİYEV OBRAZI
## TARİXİ GERÇƏKLİKDƏN İDEALA

**"Elm və təhsil"**
**Bakı – 2018**

***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 12 aprel 2018-ci il 5 saylı iclasının qərarı ilə nəşr olunur.***

Kitab akademik **İsa HƏBİBBƏYLİNİN** ideya müəllifliyi və ümumi redaktəsi ilə hazırlanmışdır.


Rəyçilər: **Məmməd ƏLİYEV**
filologiya elmləri doktoru, professor
**Məhərrəm QASIMLI**
filologiya elmləri doktoru, professor

Məsul redaktor: **Tehran ƏLİŞANOĞLU**
AMEA-nın müxbir üzvü


**Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala.**
Monoqrafiya. Bakı, "Elm və təhsil", 2018, 400 səh.

Ədəbiyyatşünaslıq elmində indiyədək görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsindəki rolu, yazıçı və şairlərin əsərləri vasitəsilə ölkəmizi tanıtması, yaradıcı simalara qayğı göstərməsi kimi məsələlərdən bəhs olunmuşdur. Təqdim edilən monoqrafiyada isə ilk dəfə olaraq Ulu Öndərin ədəbiyyatda bədii obrazının yaradılması məsələlərindən söz açılır. Kitabda görkəmli sənətkarların və yeni ədəbi nəsillərin ədəbiyyatın müxtəlif janrlarında bu istiqamətdəki yaradıcılıq axtarışları geniş tədqiq və təhlil olunmuş, elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

Monoqrafiyada həmçinin müasir şəraitdə ədəbiyyatda Heydər Əliyev ideallarının yaşadılmasının davam etdirilməsi və bədii obrazın yeni təfəkkür əsasında canlandırılması məsələlərinə də işıq salınır.

# ƏDƏBİYYATIN YÜKSƏK AMALI VƏ BÖYÜK BORCU

## GİRİŞ

Azərbaycan ədəbiyyatında şəxsiyyət problemi həmişə aktual olmuşdur. Ədəbiyyat və şəxsiyyət məsələsi bütün hallarda böyük ədəbiyyatın taleyi ilə bağlı məsələlərin həllində mühüm amillərdən biri kimi çıxış etmişdir. İlk növbədə ədəbiyyat konkret dövr üçün və ya ümumiyyətlə ictimai-estetik ideal baxımından xüsusilə fərqlənən, epoxa, məktəb yaratmış görkəmli siyasi və ədəbi şəxsiyyətləri vəsf və ya təqdim edərək əbədiləşdirmişdir. Böyük ümummilli ideallar şəxsiyyətlərin fonunda, ədəbiyyatın rübabında ilhamla səsləndirilmişdir. Bu halda ədəbiyyat şəxsiyyətə bir növ borcunu qaytarmışdır.

Bundan başqa, görkəmli şəxsiyyətlər cəmiyyətin və xalqın təkamül proseslərində böyük ədəbiyyatın rolunu və təsirini dərindən qiymətləndirdikləri üçün, yaşadıqları dövrün ədəbi prosesini ölkənin qarşısında duran böyük ideallara doğru istiqamətləndirmişlər. Bu halda şəxsiyyət xalqı oyatmaq, dirçəltmək, səfərbər etmək məqsədilə ümumiyyətlə ədəbiyyat faktorundan, ya da yazıçı amilindən düşünülmüş şəkildə istifadə etmişdir. Hər iki halda ədəbiyyat və şəxsiyyət münasibətlərindən yazıçılar da, ədəbiyyat da, hətta Zaman da qazanmışdır.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin simasında şəxsiyyət və ədəbiyyat münasibətləri bütün hallarda ədəbiyyatın xeyrinə olmuşdur. Bu məqamda ilk növbədə şəxsiyyət – Heydər Əliyev ədəbiyyatı, Azərbaycan ədəbi-ictimai fikrini xalqın böyük ideallarına doğru məharətlə istiqamətləndirmiş və inkişaf etdirmişdir. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində XX əsrin 70-80-ci illərindən Azərbaycan ədəbiyyatı milli-mənəvi dəyərləri vəsf etmiş və xalqın tarixi ilə bağlı mövzulara və şəxsiyyətlərə doğru böyük dönüş baş vermişdir. Bu isə nəticə etibarilə Azərbaycanda cəmiyyət həyatında ümummilli ideallar uğrunda mübarizənin böyük hərəkat səviyyəsinə qaldırılmasına gətirib çatdırmışdır. Haqlı olaraq deyildiyi kimi, tarixi mövzuda yazılmış bədii əsərlər "milli-tarixi özünüdərk proseslərinin dərinləşməsində əhəmiyyətli rol oynamışdır, ...proseslərin kütləviləşməsinə və miqyasının genişlənməsinə

özünün layiqli töhfəsini vermişdir”.[1]

Eyni zamanda, Azərbaycan ədəbiyyatı da öz növbəsində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük şəxsiyyətinə və tarixi xidmətlərinə həssas münasibət bəsləmişdir. Ona görə də Heydər Əliyevin müasirləri olmuş yazıçı və şairlərin əsərlərində bu böyük siyasi xadimin atdığı böyük tarixi addımlar özünün real bədii əks-sədasını tapmışdır. Daha doğrusu, ədəbiyyat Heydər Əliyevin fəaliyyətinə, xüsusən də bu çoxillik yorulmaz fəaliyyətin mühüm hadisələrinə aktiv reaksiya verərək, bu dahi şəxsiyyətə ümumxalq münasibətini və məhəbbətini ilhamla vəsf etmişdir. Müşahidə olunan cəhət budur ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev haqqında ən yaxşı bədii əsərlər, genişhəcmli ədəbi nümunələr daha çox onun hakimiyyəti dövründən sonrakı mərhələdə qələmə alınmışdır. Bu məqamda Azərbaycan ədəbiyyatı iki mühüm məsələni həll etmişdir. Əvvəla, Ulu Öndər haqqında yazılmış bədii əsərlərlə ədəbiyyat Azərbaycan xalqı və ədəbiyyatı qarşısında böyük xidmətləri olmuş dahi şəxsiyyətə öz borcunu yerinə yetirmişdir. İkincisi isə Azərbaycan ədəbiyyatı ölkəmizi və xalqımızı dövlət müstəqilliyinin inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsinə daim səfərbər etmək üçün müstəqil dövlətçiliyimizin banisini və onun əbədiyaşar ideallarını diqqət mərkəzinə çəkmişdir. Bu zaman Heydər Əliyev ideal şəxsiyyət, Ümummilli lider miqyasında təsvir və tərənnüm olunmuşdur.

Demək olar ki, Azərbaycanda ədəbiyyatın əksər növlərində və janrlarında görkəmli dövlət xadimi Heydər Əliyev haqqında yüksək ideya-bədii səviyyədə yaddaqalan təsirli əsərlər meydana çıxmışdır. Azərbaycan poeziyası Ulu Öndəri müstəqil dövlətçiliyin rəmzi kimi ürəklə vəsf etmişdir. Nəsrdə Heydər Əliyev epoxasının çətin və şərəfli yolu bədii lövhələr, səciyyəvi hadisələr, düşünülmüş obrazlar vasitəsilə təsvir edilmişdir. Azərbaycan dramaturgiyası və teatrı Heydər Əliyev obrazını ən çətin məqamlarda xalqa rəhbərlik etmiş qüdrətli xilaskar, müstəqil dövlətin əsaslarını yaradan və gələcəyinə yollar açan görkəmli dövlət xadimi kimi səhnəyə çıxarmışdır.

Oxuculara təqdim olunan bu kitaba qədər elmi ədəbiyyatlarda əsasən Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusu ətrafında

---

[1] İ.Həbibbəyli. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, “Əcəmi”, 2013, s.84

araşdırmalar aparılmış, Ulu Öndərin ədəbiyyatın inkişafındakı rolu və yeri məsələlərindən geniş bəhs olunmuşdur. Akademik Bəkir Nəbiyevin rəhbərliyi ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun müəlliflər kollektivinin hazırladığı «Heydər Əliyev və Azərbaycan ədəbiyyatı»[1] kitabı 2010-cu ildə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür. Tərlan Novruzovun «Heydər Əliyev və ədəbiyyat məsələləri»[2] kitabında tədqiqat materiallarından əlavə Ulu Öndərin ədəbiyyat sahəsinə dair nitqlərinin və həyata keçirdiyi genişmiqyaslı tədbirlərin də geniş icmalı verilmişdir. Vilayət Quliyevin tərtib edərək nəşr etdirdiyi «Ədəbiyyatın yüksək borcu və amalı»[3] kitabında Heydər Əliyevin 1969-cu ildən 1999-cu ilə qədərki dövrdəki çoxsaylı ədəbiyyat tədbirlərindəki nitqləri, bu istiqamətdə yazıçı və şairlərə ünvanladığı təbrik məktubları əhatə olunmuşdur.

İlk dəfə olaraq geniş ictimaiyyətə təqdim olunan «Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala» adlı kitabda ümumiyyətlə ədəbiyyatda, xüsusən də yazıçı və şairlərin yaradıcılığında görkəmli dövlət xadimi və böyük xilaskarın obrazının canlandırılması məsələlərindən bəhs edilir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun müəlliflər kollektivinin apardıqları elmi-tədqiqat işləri əsasında yazılmış bu monoqrafiyada ədəbiyyatda tarixi şəxsiyyətin obrazının yaradılmasının geniş imkanlarına elmi cəhətdən nəzər salınmış, yazıçı və şairlərin bu yollardakı yaradıcılıq axtarışlarından geniş söz açılmışdır. Əslində təqdim olunan monoqrafiya Azərbaycan yazıçı və şairlərinin qüdrətli dövlət xadimi və parlaq şəxsiyyət olan Heydər Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısındakı xidmətlərinin ədəbiyyatda bədii əks-sədası istiqamətindəki yaradıcılıq axtarışlarının elmi-nəzəri dərkinə həsr olunmuşdur. Bu, ədəbiyyatda Heydər Əliyevin bədii obrazı məsələsinə həsr olunmuş birinci monoqrafik tədqiqat əsəri kimi mühüm əhəmiyyətə malik olan elmi nəşrdir. Kitab Ulu Öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatında çoxcəhətli şəkildə təsvir və tərənnüm olunan parlaq bədii obrazı-

---

[1] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı (müəlliflər kollektivi). Bakı, "Şərq-Qərb", 2009

[2] Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, ADPU-nun nəşriyyatı, 2007

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı.(tərtib edəni V.Quliyev). Bakı, "Ozan", 1999

nı mühüm reallıqları və özünəməxsusluqları ilə birlikdə əks etdirir.

Ədəbiyyatda görkəmli dövlət xadimi Heydər Əliyevin bədii obrazı Azərbaycan xalqının son yarım əsrə yaxın tarixdə keçdiyi inkişaf və təkamül yolunun bütün çətinliklərini və mübarizəsini, böyük nailiyyətlərini özündə əks etdirir. Bu mənada Heydər Əliyevin obrazı Azərbaycanın dünəni, bu günü və sabahının ədəbiyyatdakı bədii inikası ilə bilavasitə bağlıdır. Azərbaycan yazıçı və şairləri böyük dövlət xadimi və qüdrətli şəxsiyyət Heydər Əliyevin ən möhtəşəm bədii obrazını yaratmaq üçün daim yeni yaradıcılıq axtarışında olmalıdırlar. Bu, Azərbaycan ədəbiyyatının yüksək amalı və şərəfli borcudur.

# BÖYÜK ƏDƏBİYYAT SİYASƏTİ
# VƏ
# MÖHTƏŞƏM BƏDİİ OBRAZ

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dünya şöhrəti qazanmış görkəmli dövlət xadimidir. Bu böyük dühanın adı son yüzilliyin ən görkəmli dövlət xadimləri və siyasi liderləri ilə bir sırada çəkilir.

Heydər Əliyev hələ sovet hakimiyyəti illərindən Azərbaycan xalqının dünyabaxışının vətənpərvərlik, millilik və müasirlik ruhunda inkişaf etdirilməsini ön mövqeyə çəkmişdir.

Ulu Öndər Heydər Əliyev müstəqilliyini elan etsə də, onu qoruyub saxlamaqda çətinliklər qarşısında qalan Azərbaycan xalqını siyasi-mənəvi böhrandan, müstəqil Azərbaycan dövlətini isə parçalanmaqdan və yox olmaqdan xilas etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və böyük qurucusudur.

Azərbaycan xalqının çoxəsrlik tarixində Azərbaycançılıq təlimini müstəqil dövlətin ideologiyası səviyyəsinə Heydər Əliyev çatdırmışdır.

Heydər Əliyev – Azərbaycan dövlətçilik tarixində ən yüksək zirvəni fəth etmişdir.

Azərbaycan Respublikasının siyasi-ideoloji və iqtisadi-mədəni inkişaf konsepsiyasının möhkəm əsaslarını Heydər Əliyev yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük sınaqlardan çıxmış və özünü təsdiq etmiş Heydər Əliyev dövlətçilik təlimini yeni tarixi epoxanın reallıqları ilə və daha böyük gələcəyə ünvanlanmış ideyalarla zənginləşdirərək müasir dövrün yeniləşən tələblərinin işığında uğurla və uzaqgörənliklə davam etdirir.

Siyasi-ideoloji baxışları, qətiyyəti və cəsarəti, müdriklik və uzaqgörənliyi ilə Prezident İlham Əliyev yeni dövrün müasir tipli Heydər Əliyevidir.

Ulu Öndər Heydər Əliyevin dünyada qəbul olunan böyük siyasi liderə, mənsub olduğu xalqın ən sevimli rəhbərinə çevrilməsinin, qüdrətli şəxsiyyətlə böyük dövlət xadimi miqyasını fəth etməsinin bir çox mühüm siyasi-ideoloji, ideya-mənəvi səbəbləri və mənbələri vardır.

Heç şübhəsiz, Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələri zəminində yetişib formalaşmış görkəmli dövlət xadimidir.

Tarixi və milli-siyasi təfəkkürlə bəşəri düşüncənin sintezi və vəhdəti Heydər Əliyevin əsl dövlətçilik bacarıqlarına və istedadına yiyələnməsində mühüm rol oynamışdır. Ailə və təhsil mühitinin dərsləri, dövlət orqanlarında keçdiyi çətin və şərəfli yol, onu əhatə edən fərqli insanların aşıladıqları bilik və dünyabaxışı Heydər Əliyev üçün son dərəcə əhəmiyyətli olmuşdur. Bunlardan hər birinin əhəmiyyəti barəsində Ulu Öndərin ayrı-ayrı vaxtlardakı çıxışlarında geniş söz açılmışdır.

***

Heydər Əliyevin dövlətçilik təfəkkürünün formalaşmasında, görkəmli dövlət xadiminin zəngin mənəviyyata və geniş dünyagörüşə malik nəhəng şəxsiyyət masştabını fəth etməsində ədəbiyyat və incəsənətin də böyük və xüsusi rolu olmuşdur. Heydər Əliyev dəfələrlə cəmiyyətin və şəxsiyyətin inkişafında bədii ədəbiyyatın mühüm əhəmiyyətini bəyan etmişdir. Ulu Öndər həmişə bu fikirdə olmuşdur ki: «Bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir».[1]

Həqiqətən, tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin, böyük siyasətçilərin və sərkərdələrin həyatında və fəaliyyətində mühüm yer tutmuş, böyük rol oynamışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş miqyası əhatə etmişdir. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindən biridir. Hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, hətta cavan yaşlarında tamaşalarda peşəkar teatr xadimləri ilə yanaşı, cəsarətlə səhnəyə çıxan Heydər Əliyevin dünyabaxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Müasirləri onun Naxçıvanın teatr

[1] Bax: Heydər Əliyevin ədəbiyyat haqqında kəlamları (tərtib edəni V.Məmmədov). Naxçıvan, 2013, s.22

mühitində yaxından iştirak etdiyini, "Vaqif" pyesində, "Qaralar ölkəsində" adlı dram əsərində əsas rolları məharətlə ifa etdiyini xatırlayırlar. Heydər Əliyevin teatr həvəskarı olmasına dair nadir fotoşəkillər görkəmli dövlət xadiminin Naxçıvan şəhərindəki muzeyində qorunub saxlanmaqdadır. Vaxtilə Heydər Əliyevlə Naxçıvan Pedaqoji Texnikumunda eyni sinifdə təhsil almış Firuzə Rzayeva Heydər Əliyevin ədəbiyyat dərslərində xüsusi qabiliyyət nümayiş etdirdiyini, onların ədəbiyyat müəllimləri olmuş Lətif Hüseynzadənin bu çalışqan və bacarıqlı gəncin istedadına yüksək qiymət verdiyini xüsusi olaraq vurğulamışdır. [1] Texnikumdakı daha bir tələbə yoldaşı Dövlət Məmmədov isə Heydər Əliyevin ədəbiyyata və teatra münasibəti haqqında aşağıdakıları yazmışdır: «Yadımdadır, Lev Tolstoyun «Hərb və sülh» romanını o vaxt rus dilində oxuyur, məzmununu bizə danışırdı… Bundan əlavə, həvəskar teatrda da çalışırdı. Tamaşalarda adətən baş rolları oynayır, özü də şah, hökmdar, xalq qəhrəmanı obrazını canlandırırdı».[2] Bütün bunlarla bərabər, bu görkəmli tarixi şəxsiyyət bədii ədəbiyyatın şəxsi taleyindəki böyük rolunu özü də nəzərə çarpdırmışdır. O, 1997-ci ildə, müstəqillik dövründə keçirilən Azərbaycan Yazıçılarının X Qurultayındakı nitqində bu gerçəkliyi aşağıdakı kimi etiraf etmişdir: «Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu, «oxumuşam, unutmamışam» sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam».

Azərbaycan ədəbiyyatını və dünya ədəbiyyatı klassiklərini mütaliə etmək, dərindən bilmək və yadda saxlamaq baxımından Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevlə müqayisə edilə biləcək dövlət başçısı göstərmək çətindir.

---

[1] Bax: Heydər Əliyev mənim həyatımda, 2 clddə, I cild. Bakı, "Azərbaycan", 2013, s.151

[2] Yenə orada, s.140

Çoxcildlik siyasi irsinə, ədəbiyyat haqqında nitqlərinə, çıxışlarına, yazıçılara ünvanladığı təbrik məktublarına əsaslanaraq, belə bir nəticə çıxarmaq mümkündür ki, Heydər Əliyev Azərbaycanın qədim dövrlərdə və ya öz dövründə yaşayıb-yaratmış görkəmli yazıçı və şairlərinin demək olar ki, mütləq əksəriyyətinin əsərlərini diqqətlə oxumuş, özü üçün konkret nəticələr çıxarmışdır. O, dünya ədəbiyyatının, xüsusən rus ədəbiyyatının şedevrlərinə də yaxından bələd idi. Bu dahi şəxsiyyət söz sənəti dühalarının əsərlərini və ideyalarını dərindən mənimsəmişdir. Akademik Bəkir Nəbiyevin vaxtilə yazdığı kimi, «bunun birinci səbəbi özünün də dəfələrlə etiraf etdiyi və konkret əməllərində sübuta yetirdiyi məhəbbətdir: ədəbiyyata, sənətə, mədəniyyətə sonsuz məhəbbət. Digər bir səbəb Heydər Əliyevin klassik irsimizə və çağdaş ədəbi-mədəni prosesə bələdliyidir».[1] Bu səbəbdəndir ki, Heydər Əliyevin ümumiyyətlə ədəbiyyat haqqında, yaxud da ayrı-ayrı yazıçı və şairlər haqqındakı nitqləri və çıxışları yüksək professional şəkildə səslənmişdir. Bu dahi şəxsiyyətin ədəbiyyata, konkret olaraq sənətkarların yaradıcılığına verdiyi qiymətlərdə bədii yaradıcılığa ictimai baxışla müasirlik anlayışı həmişə biri digərini izləmiş və tamamlamışdır. Azərbaycan Yazıçılarının 1971-ci ildə keçirilmiş V qurultayından 1997-ci ildə keçirilən X qurultayınadək bütün mötəbər tədbirlərində iştirak və çıxış edən Heydər Əliyevin nitqlərində ədəbiyyatın cəmiyyətin və mənəviyyatın inkişafındakı rolu ilə eyni səviyyədə müasir həyatın inkişafındakı borcu və vəzifələri də ən zəruri məsələlər sırasında xüsusi yer tutmuşdur. Xüsusən, Azərbaycan yazıçılarının qurultaylarındakı tarixi nitqlərində o, klassik ədəbi irsə də, müasir ədəbi prosesə də respublikada dövlət səviyyəsində apardığı işlərin üzvi tərkib hissəsi kimi baxmışdır. Ədəbiyyatşünasların da doğru müşahidə etdikləri kimi «Heydər Əliyev… Azərbaycan ədəbi prosesini respublikanın ictimai-siyasi və mənəvi dəyişiklikləri ilə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmaq istiqamətində aparılan irimiqyaslı vəzifələr və fəaliyyət proqramı ilə əlaqədə nəzərdən keçirir, bunların ədəbiyyata, bədii fikrə müsbət, dəyişdirici təsirini göstərirdi».[2]

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev. Prezident haqqında etüdlər. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Elm”, 1998, s.12

[2] Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, ADPU-nun nəşri, 2007, s.67

Əlbəttə, görkəmli dövlət xadimi Heydər Əliyevin xüsusi rəğbət bəslədiyi yazıçı və şairlər, ayrıca fərqləndirdiyi, üstünlük verdiyi bədii əsərlər olmuşdur. Bu məqamda dövlət xadimi səviyyəsində onun şəxsi ədəbi zövqü və maraqları, ədəbiyyatda izlədiyi qayədə qabarıq şəkildə ifadə olunur. Görkəmli dövlət xadimi Heydər Əliyev qəti olaraq bu fikirdə idi ki: «yalnız o yazıçıların insanın zəkasına və qəlbinə təsir göstərmək kimi böyük mənəvi hüququ var ki, o, ictimai həyatda da, şəxsi davranışı ilə də öz oxucusuna doğrudan da nümunə ola bilir, yəni xalq qarşısında öz mənəvi məsuliyyətini bütün dərinliyi ilə dərk edir».[1] Müşahidələr göstərir ki, böyük siyasi xadim Heydər Əliyev dram əsərləri içərisində Cəlil Məmmədquluzadənin «Ölülər» tragikomediyasına, şairlərdən xalq şairi Səməd Vurğunun «Azərbaycan» şeirinə, poema janrı baxımından Məhəmmədhüseyn Şəhriyarın «Heydərbabaya salam» əsərinə, milli mətbuat sarıdan «Molla Nəsrəddin» jurnalına, opera üzrə Üzeyir Hacıbəyovun «Koroğlu»suna, mənzum faciələrdən Hüseyn Cavidin «İblis»inə... xüsusi önəm verdiyini və bu ədəbi nümunələri xüsusilə fərqləndirdiyini dəfələrlə nəzərə çarpdırmışdır. Diqqət edilsə, bu ədəbiyyat faktlarının hər birində yüksək bədiiliklə yanaşı, xalqın milli-mənəvi özünüdərk məsələləri və böyük ictimai idealları özünün parlaq əksini tapmışdır. Ona görə də Heydər Əliyevin bədii ədəbiyyata münasibətdə şəxsi maraqları ilə dövlətçilik düşüncəsinin üst-üstə düşdüyü, bir-birini üzvi surətdə tamamladığı aşkar müşahidə olunur.

Bütövlükdə isə Heydər Əliyev ədəbiyyata xalqın milli-tarixi varlığının, mənəviyyatının üzvi tərkib hissəsi kimi baxmış, ədəbiyyatı cəmiyyəti və insanı dəyişdirib inkişaf etdirən bilik və hikmət xəzinəsi kimi dəyərləndirmişdir. Heydər Əliyevin ədəbiyyat sevgisi Vətən və xalq sevgisinin, milli dövlətçilik baxışlarının əsas göstəricilərindən, zəruri amillərindən birini təşkil edir. Görkəmli dövlət xadimi hələ 1971-ci ildə Azərbaycan Yazıçılarının V Qurultayındakı tarixi nitqində məsələnin bu cəhətini ön mövqeyə çəkərək demişdi: «Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini ədəbiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır».[2]

---

[1] Heydər Əliyev. Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidirlər (Azərbaycan Yazıçılarının V Qurultayında nitq). "Ədəbiyyat və incəsənət" qəzeti, 5 iyun 1971-ci il

[2] Yenə orada

***

Ədəbiyyata xalqın keşməkeşli taleyinin, tarixi yaddaşının, müasir həyatının və inkişafının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Bu baxımdan millilik, tarixilik və müasirlik Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edir. Əslində bu prinsiplər qüdrətli dövlət xadimi Heydər Əliyevin dövlətçilik təliminin və siyasi fəaliyyətinin də təməl şərtlərindəndir. Həmin prinsiplər Heydər Əliyevin dövlətçilik təlimində və ədəbiyyat siyasətində sadəcə yanaşı mövcud olan amillər deyildir. Əksinə, qeyd olunan istiqamətlər Heydər Əliyev təlimində dövlətçilik fəaliyyəti ilə ədəbiyyat işinin vəhdətində, üzvi sintezində tam məna tapa bilir. Görkəmli dövlət xadimi Heydər Əliyev dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsipini ardıcıl olaraq həyata keçirmək yollarındakı mübarizəsində köklü ənənələrə malik olan həmin amillərdən yerli-yerində, əsaslı şəkildə faydalanmaqla daim özünün ali məqsədinə nail olmağa çalışmışdır. Bu yüksək ali qayə isə sovet rejimi çərçivəsində olsa belə, nəticə etibarilə Azərbaycanda möhkəm milli əsaslara malik olan, davamlı tarixi ənənələri qoruyub saxlayan və müasir inkişafın önündə gedən dövlət hakimiyyətini formalaşdırmaqdan və möhkəmləndirməkdən ibarət olmuşdur. Müşahidələr və təhlillər göstərir ki, hələ sovet hakimiyyəti illərində Heydər Əliyevin bu istiqamətdə apardığı ardıcıl və düşünülmüş siyasət ölkədə tarixi yaddaşın oyanışı milli-mənəvi dəyərlərin, inkişaf etdirilməsi mənasında özünün böyük bəhrələrini vermişdir.

Azərbaycanda 1969-1982-ci illərdə milli mədəniyyət və ədəbiyyat böyük sürətlə inkişaf etdirilmiş, yaradıcı qüvvələrin qarşısında geniş üfüqlər açılmış, onların keçmiş Sovetlər İttifaqı miqyasında tanıdılması və qiymətləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Görkəmli ədəbiyyat və incəsənət xadimləri Qara Qarayevin, Rəsul Rzanın, Tahir Salahovun, Mirzə İbrahimovun, Rəşid Behbudovun, Süleyman Rəhimovun dövrün ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmələri görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətinin birinci mərhələsinin ən mühüm hadisələridir. 1972-ci ildə böyük dövlət xadimi və görkəmli yazıçı Nəriman Nərimanovun anadan olmasının

100 illik yubileyinin keçirilməsi və Bakı şəhərində ona əzəmətli heykəl ucaldılması dövrün tarixi hadisəsinə çevrilmişdir. Məlum olduğu kimi, sovet rejimi qeyri-rəsmi şəkildə milliyyətçi hesab edərək onu ictimai-ədəbi mühitin arxa planına keçirdiyinə görə, Heydər Əliyev bu böyük şəxsiyyətin yubileyini keçirmək və heykəlini qoymaq üçün Moskva-Kreml səviyyəsində iş aparmalı olmuş və mühüm əhəmiyyətə malik olan həmin tədbirləri həyata keçirməyə nail ola bilmişdir. Beləliklə, Nəriman Nərimanov yenidən Azərbaycan xalqına qaytarılmışdır.

Məhz buna görə, Heydər Əliyevin Nəriman Nərimanovun heykəlinin açılışı mərasimində dediyi aşağıdakı fikirlər böyük ictimai-siyasi məna daşıyır: «Azərbaycan paytaxtında bütün ömrünü zəhmətkeşlərin azadlığı və səadəti uğrunda mübarizəyə həsr etmiş insanın, SSRİ Mərkəzi İcraiyyə Komissarlığının ilk sədrlərindən biri Nəriman Nərimanovun abidəsinin ucaldılmasının dərin rəmzi mənası vardır.

… Nəriman Nərimanov bu gün bizimlədir. O özünün nəhəng qaməti ilə burada, qocaman Xəzərin dalğaları üzərində, …Bakıda ucalır və sovet hakimiyyəti illərində tanınmaz dərəcədə dəyişilmiş respublikamıza elə bil iftixarla nəzər salır, xalqın səadəti uğrunda çarpışmış mərd mübarizlə görüşə gəlmiş zəhmətkeşlərin çoxmillətli dəstələrini diqqətlə nəzərdən keçirir».[1]

Heydər Əliyevin sovet hakimiyyəti illərində həyata keçirdiyi məqsədyönlü ümummilli siyasət Azərbaycanın dövlət müstəqilliyi dövründə dövlətçilik işinin möhkəm bünövrəsini təşkil edir. Ulu Öndər müstəqil Azərbaycan dövlətinin qurulub möhkəmləndirilməsində, milli ideologiyanın formalaşdırılmasında ədəbiyyat faktorundan geniş istifadə etmişdir. Bu mənada Heydər Əliyevin dövlətçilik təlimində müxtəlif dövrlərdə həyata keçirilmiş ədəbiyyat siyasəti bir-birini tamamlayır.

***

Heydər Əliyevin  ədəbiyyatda apardığı millilik siyasəti özündə xəlqilik, vətənpərvərlik, adət-ənənələrə dərin ehtiram, ana dilinin mövqeyinin genişləndirilməsi və sair kimi məsələləri əhatə etmişdir.

---

[1] Bax: "Ədəbiyyat və incəsənət" qəzeti, 9 iyun 1972-ci il

Bunlar keçmiş sovet ideologiyası ilə səsləşməyən, ədəbiyyat vasitəsilə xalqın milli-mənəvi dəyərlərinin dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edən mühüm addımlar idi. Bu istiqamətlərin hər biri üzrə ədəbiyyat sahəsində aparılan siyasət geniş mənada incəsənətin bütün sahələrini də əhatə etmiş, beləliklə, ümumdövlət siyasətinin əsaslarına çevrilmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə başlanan bu siyasi xətt müstəqillik dövründə də davam və inkişaf etdirilərək vahid bir dövlətçilik təlimi səviyyəsinə çatdırılmışdır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin ana dilinin dövlət dilinə çevrilməsi və imkanlarının genişləndirilməsi uğrunda apardığı mübarizədə ədəbiyyat faktorundan istifadə, həm də bu siyasi xəttin sovet hökumətinin diqqətindən yayındırmaq məqsədi daşımış, bütün sahələrdə aparılan milliləşdirmə tədbirlərinə zəmin hazırlamaq niyyətini izləmişdir. Əslində isə ana dili uğrunda mübarizə geniş mənada milli istiqlaliyyət yolunda addım-addım irəli getmək demək idi.

Diqqət edilsə, XX əsrin 70-80-ci illərində Azərbaycan ədəbi-ictimai mühitində ana dili məsələləri geniş yer tutmuşdur. Xalq şairləri Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, bir qədər sonra Anar və Sabir Rüstəmxanlı kimi sənətkarların ana dili uğrunda apardıqları milli mücadiləyə dövlət səviyyəsində müəyyən üsullarla meydan açılmış və bu, mahiyyət etibarilə xalq arasında və Mərkəzi hökumətdə Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması üçün ictimai rəyi hazırlamışdır. Dilçi alimlər də belə qənaətlərində haqlıdırlar ki, «Heydər Əliyev… Moskva ilə ən uğurlu kompromis şəraitində özünəməxsus «dil siyasəti» yürüdürdü ki, həmin siyasətin başlıca məqsədi ana dilini daha da inkişaf etdirmək, … müstəqil dövlət dilinə çevirmək idi».[1] Doğrudan da cəmiyyətdə ana dili uğrunda gedən prosesləri zaman-zaman Mərkəzi hökumətin diqqətinə çatdırmaqla və məsələyə Siyasi Büro səviyyəsində aydınlıq gətirməyi bacarmaqla, Heydər Əliyev hələ sovet hakimiyyəti illərində, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi ölkənin Konstitusiyasına ayrıca maddə kimi daxil edilməsinə nail olmuşdu. Bununla yanaşı, milli mücadiləyə könül vermiş, ömür sərf etmiş yazıçı və şairlər isə deputat seçilmək, fəxri adlar və dövlət mükafatları almaqla həm rəğbətləndirilmiş, həm də etibarlı şəkildə müdafiə

---

[1] Nizami Xudiyev. Heydər Əliyev və Azərbaycan dili. Bakı, "Təhsil", 1997, s.13

olunmuşlar. Əslində, bu yolla Heydər Əliyev həm də onların fəaliyyətinə dəstək verdiyini göstərmiş, həmin yazıçıların toxunulmazlığına real təminat yaratmışdır. Keçən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın bir qrup tanınmış dilçi alimlərini – Muxtar Hüseynzadəni, Əlövsət Abdullayevi, Yusif Seyidovu, Ağaməli Həsənovu çoxcildlik "Müasir Azərbaycan dili" dərsliyinə görə respublikanın Dövlət Mükafatı ilə təltif etməsi də elmi-ictimai və ədəbi-mədəni mühitdə ana dilinin mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Bununla Heydər Əliyev hələ XVI əsrdə Şah İsmayıl Xətai ilə başlanan, zaman-zaman qabarıb-çəkilən ana dili siyasəti məsələsini ilk dəfə tam rəsmi olaraq böyük qətiyyətlə dövlət siyasəti səviyyəsində həyata keçirməklə tamamlamışdır. Ana dili uğrunda aparılan mübarizə öz növbəsində Azərbaycan cəmiyyətində və ədəbiyyatında millilik məsələsini diqqət mərkəzinə çəkmək, geniş mənada milli azadlıq mövzusunu dəstəkləmək demək idi. Bu proses Azərbaycan ədəbiyyatında ölkənin və xalqın taleyi, milli-mənəvi dəyərlərin əhəmiyyəti kimi mövzuların meydanının genişlənməsinə şərait yaratmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin ana dili uğrunda apardığı siyasətin miqyası daha da genişlənmiş, bir çox ümummilli məsələlərin dövlət siyasəti səviyyəsində həll edilməsi ilə başa çatdırılmışdır. Bu zaman da Heydər Əliyevin istinad etdiyi əsas qüvvə yazıçı, ədəbiyyat faktoru və şairlər, yaradıcı ziyalılar olmuşdur. Bu baxımdan böyük demokrat Cəlil Məmmədquluzadənin 1994-cü ildə keçirilmiş 125 illik yubileyində ana dili məsələlərinə göstərilən xüsusi diqqət həmin sahədəki digər böyük tədbirlərin başlanğıcına çevrilmişdir. Heydər Əliyev görkəmli yazıçı haqqındakı nitqində «Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyət, …ədəbiyyatımızın klassiki» kimi çox yüksək qiymətləndirdiyi Cəlil Məmmədquluzadənin ana dili uğrunda mübarizəsini müasir dövr üçün də zəruri hesab etmişdir: «Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi «Vətən, Vətən, Vətən! Millət, millət, millət! Dil, dil, dil!» sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yer-

də hökm sürməsi zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün üçün də çox aktualdır. «Anamın kitabı» Azərbaycan üçün çox dahiyanə əsərdir. Çünki … əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur… Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini, Azərbaycan milliliyini yaşadıb, milli şüurunu, milli məfkurəsini daim yaşatmışdır».[1]

Ümummilli lider Heydər Əliyevin xalqımızın ana dilinin necə adlandırılması uğrunda apardığı mübarizə dövlətimizin maraqlarına, respublikamızın reallıqlarına tamamilə uyğun idi. Bu sahədə də qəti fikrə, yekun qənaətə gəlmək üçün Heydər Əliyev Azərbaycan ziyalılarının, o cümlədən ədəbiyyat xadimlərinin dəstəyindən istifadə etməyi zəruri saymışdır. Onun 31 oktyabr 1995-ci ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı irəli sürdüyü Azərbaycan Konstitusiyasında dövlət dili kimi Azərbaycan dilinin təsbit edilməsi geniş mənada cəmiyyətin marağına, ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların maraqlarına uyğundur. Azərbaycan dili ideyası Azərbaycanda yaşayan bütün etnik qrupları öz ətrafında birləşdirən bir faktor kimi Azərbaycan yazıçıları tərəfindən müdafiə olunmuşdur.

Müzakirələrdə çıxış edən Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Qabil, Ağamusa Axundov, Hüseyn Abbaszadə, Sabir Rüstəmxanlı və başqaları müxtəlif fikirlər bildirsələr də, son nəticədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin meydana qoyduğu Azərbaycan dili anlayışına üstünlük vermiş, haqq qazandırmışlar. Heydər Əliyev ölkə miqyasında ictimai rəyin formalaşdırılmasında yazıçı, ziyalı mövqeyinin əhəmiyyətini əsas götürməklə, müzakirələrdə həmin faktordan geniş istifadə ilə ən məqbul azərbaycançı qərarı formalaşdırmağa nail olmuşdur. Azərbaycan dili ölkə coğrafiyasında yaşayan bütün xalqların vahid danışıq və ünsiyyət vasitəsi, müstəqillik qazanmış Respublikanın dövlət dilinin adı kimi qəbul edilmişdir. Bütün bunlar cəmiyyətdə və ədəbiyyatda Azərbaycançılıq amilinin, ümummilli düşüncənin daha da qüvvətləndirilməsinə səbəb olmuşdur.

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, “Ozan”, 1999, s.243

***

Azərbaycan xalqının və ölkənin bütövlüyü düşüncəsinin cəmiyyətdə formalaşdırılmasında da Heydər Əliyev ədəbiyyat faktorundan məqsədyönlü şəkildə faydalanmışdır. Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyevin 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində Cənub ədəbiyyatı ilə əlaqədar söylədiyi aşağıdakı fikirlər sovet dövründə dəmirdən də möhkəm olan prinsiplər əsasında formalaşdırılmış məhdudiyyətlərin aradan qaldırılmasına, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin formalaşdırılmasına münasib şərait yaratmışdır: «Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır».[1]

Bu, təkcə Azərbaycanda yox, geniş mənada sovet dövlətində həmin mövzuda açıq ifadə edilən ilk mühüm tezislər idi. Bu tezislərin işığında səksəninci illərdən etibarən elmi-ədəbi mühitdə Azərbaycan ədəbiyyatının bütövlüyü və Cənubda yaşayan yazıçılarla əlaqələrin yaradılması istiqamətində mühüm addımlar atılmağa başlanmışdır. İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkarı Azərbaycanın dövlət səviyyəsində səslənən bu cür bəyanatlarından sonra geniş dairədə tanımağa başladılar. Xalq şairləri Süleyman Rüstəmin və Məmməd Rahimin Məhəmmədhüseyn Şəhriyarla şeirləşmələri, xalq şairləri Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin ustad şairlə telefon danışıqları ictimai-ədəbi mühitdə ildırım kimi çaxmışdır. Yaxud əslən cənublu olan, lakin taleyin hökmü ilə Azərbaycanın şimalında yaşayıb-yaradan Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, Söhrab Tahir, Əli Tudə və başqaları kimi görkəmli söz ustlarının əsərləri ilə Cənubi Azərbaycanda əsaslı tanışlıq keçən əsrin səksəninci illərindən etibarən baş verdi. Eyni zamanda, bu dövrdən başlayaraq Cənub mövzusun-

[1] Yenə orada, s.146

da yeni əsərlər meydana qoyuldu. Azərbaycan Yazıçılar Birliyində və Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbələrinin təşkili və çoxcildlik Cənubi Azərbaycan ədəbiyyatı antologiyalarının hazırlanıb nəşr edilməsi, ədəbi ictimaiyyətə çatdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin atdığı qətiyyətli addımların, açdığı yeni üfüqlərin sayəsində mümkün olmuşdu. Bütün bunlara görə heç tərəddüd etmədən belə demək mümkündür ki, görkəmli dövlət xadimi Heydər Əliyev hələ sovet rejimi dövründə İran İslam Respublikası ilə, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasının əsasını qoymuş, qarşılıqlı münasibətlərin möhkəm təməlini atmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə Prezidenti Heydər Əliyevin yeni tarixi epoxada apardığı məqsədyönlü siyasət nəticəsində bu sağlam əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin «Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında»kı 29 oktyabr 1997-ci il tarixli sərəncamı xüsusi əhəmiyyətə malikdir. Həmin dövlət sərəncamı əsasında qüdrətli sənətkarın yubileyi ilə bağlı Bakıda, Tehranda və Təbrizdə keçirilən genişmiqyaslı tədbirlərlə ölkələrarası ədəbi-mədəni əlaqələr yeni və daha yüksək səviyyəyə qaldırılmışdır.

***

Heydər Əliyevin ədəbiyyat siyasətinin əsasını təşkil edən ən mühüm amil geniş mənada Azərbaycançılıq məfkurəsinin cəmiyyətdə geniş yer tutmasından ibarət idi. Böyük dövlət xadimi özünün bütün fəaliyyəti boyu Azərbaycançılıq idealını həmişə ön mövqedə saxlamış, ədəbiyyat sahəsində də Azərbaycançılıq idealına xüsusi diqqət yetirmişdir. O, bu böyük ümummilli qayəsini həyata keçirmək üçün ən müxtəlif vasitələrdən, o cümlədən ədəbiyyat amilindən məharətlə istifadə etmişdir.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 600 illik yubileyi hadisəsindən istifadə edərək Heydər Əliyev əvvəla, onun mənşə etibarilə azərbaycanlı olması fikrini möhkəmləndirmiş, ikincisi isə orta əsrlərdə azərbaycanlıların geniş ərazilərdə, müxtəlif Şərq ölkələrində yaşayıb-yaratdıqlarını gündəmə gətirmişdir. Sovet cəmiyyətində bu mövzuda açıq danışmağın böyük çətinliklərinin olduğu bir vaxtda Azərbaycan Sovet Respublikası rəh-

bərinin «mühacirətdə» yaşamış sənətkarın ölkədə yubileyini keçirməsi, Bakıda heykəlini ucaltması, adının rayona, metro stansiyasına, məktəbə verilməsi qəhrəmanlıq hadisəsi idi. Sonralar Heydər Əliyevin xatırlatmasından aydın olur ki, uzaqgörən rəhbər İmadəddin Nəsiminin 600 illik yubileyi hadisəsini daha çox Azərbaycanı tanıtmağa və böyük söz ustasının Azərbaycan şairi olduğunu diqqət mərkəzinə çəkməyə istiqamətləndirmişdir: «Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada böyük əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı. Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir».[1]

Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi də türk dünyasının ortaq sənətkarlarından biri kimi qəbul edilən bu böyük sənətkarın milliyyətcə azərbaycanlı olmasına dair reallığı möhkəmləndirməklə bərabər, həm də Azərbaycanı tanıtmaq, Azərbaycançılıq ideyasının, milli-mənəvi dəyərlərimizin tarixi-ədəbi köklərini cəmiyyətə çatdırmaq məqsədini izləmişdir: «Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında, bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir. Eyni zamanda, həm də mədəniyyətimizi, tariximizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və biz bundan hərtərəfli istifadə etməliyik».[2]

Göründüyü kimi, Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə Azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da Azərbaycançılıq Heydər Əliyevin apardığı ümummilli siyasətin lokomotividir. Ədəbiyyat siyasəti görkəmli dövlət xadiminin bu istiqamətdə apardığı geniş siyasi-ideoloji və təşkilati işin özülünü təşkil edir. Azərbaycan ədəbiyyatı klassiklərindən Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Molla Pənah Vaqifin, Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, həmçinin yeni dövr bədii fikrimizin Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul

---

[1] Bax: Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan" 1999, s.185
[2] Yenə orada, s.201

Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Anar, Elçin, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi, Sabir Rüstəmxanlı və başqaları kimi onlarla nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, bu yaradıcı şəxsiyyətlər haqqında aparılan tədqiqat-təbliğat işləri bu sənətkarların mənsub olduğu xalqa daha yaxından tanıdılması ilə bir sırada, həm də Azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə uğurla xidmət etmişdir. Heydər Əliyev keçmiş İttifaq səviyyəsində ən yüksək siyasi dairələrdə böyük cəsarətlə bəyan etmişdir ki: "Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Nizami Gəncəvinin yubileyi bu böyük sənətkarın timsalında Azərbaycanın əvvəlcə keçmiş Sovetlər İttifaqında, daha sonra isə bütün mədəni dünyada tanıdılması missiyasına uğurla xidmət etmişdir. Məsələnin bu şəkildə qoyuluşu həm Nizami Gəncəvinin, həm də onu yetirən xalqın mənəvi zənginliyinin, bəşəri dəyərlərinin də təqdim olunmasına meydan açmışdır. Dahi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə yubileyi keçirən Təşkilat Komitəsinin 1 avqust 1994-cü il tarixli yığıncağındakı Heydər Əliyevin böyük əks-səda doğurmuş nitqində yeni tarixi epoxada səslənən mülahizələr də Azərbaycanın, xalqımızın ədəbi şəxsiyyətlər vasitəsilə tanıdılmasının qayğılarını aydın surətdə əhatə edir: «Bu yubileyi keçirərkən, biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə neçə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir».[1]

Uzaqgörən dövlət xadimi Heydər Əliyev azərbaycançılıq məfkurəsini milli istiqlal mücadiləsi miqyasınadək inkişaf etdirmişdir. Ölkəmizdə azərbaycançılar həm də milli istiqlalçılar kimi tanınmış və müxtəlif vasitələrlə müdafiə olunmuşlar. Bütün faktlar və hadisə-

---

[1] Bax: Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan" 1999, s.185

lər sübut edir ki, «Heydər Əliyev keçmiş sovet rejimi dövründə bütün çətinliklərə baxmayaraq, milli istiqlal, düşüncəsinin əsaslarını formalaşdırmaq kimi məsuliyyətli və şərəfli bir vəzifəni böyük bacarıqla həyata keçirmişdir. Sovet dövləti ilə münasibətləri tərs gələn milli istiqlalçıların – Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun, xalq yazıçısı Mirzə İbrahimovun, böyük vətəndaş alim, professor Abbas Zamanovun, xalq şairləri Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının böyük dayağı ölkə rəhbəri Heydər Əliyev olmuşdur».[1] XX əsrin 70-80-ci illərində baş verən əsas ictimai-siyasi, ədəbi-mədəni hadisələrinin, görünən və görünməyən proseslərinin mahiyyətində millilik amili, müstəqillik düşüncəsi, milli dövlətçilik qavrayışı dayanmışdır.

Deməli, ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk proseslərinin daha da dərinləşdirilməsi, Azərbaycançılıq məfkurəsinin mənimsədilməsi və istiqlalçılıq miqyasına çatdırılması Heydər Əliyevin ədəbiyyat siyasətinin əsas prinsiplərindəndir.

Ulu Öndər həmişə bu fikirdə olmuşdur ki, "bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçibdir".[2] Buna görə də, Heydər Əliyev üçün ədəbiyyat milli-mənəvi özünüdərketdirmə siyasətinin əsas hərəkətverici qüvvəsi olmuşdur. Dövlət rəhbərinin Azərbaycan yazıçı və şairlərinə göstərilən diqqət və qayğının ətrafında da ədəbiyyatın milli-mənəvi özünüdərk, vətənpərvərlik, Azərbaycançılıq ideyalarının həyata keçirilməsində ədəbiyyatın xüsusi roluna və əhəmiyyətinə bəslədiyi yüksək münasibəti dayanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycançılıq ideyasının həyata keçirilməsində ədəbiyyat faktorundan istifadə etmək vəzifəsini həm ölkə daxilində, həm də Azərbaycandan kənarda böyük bacarıqla həyata keçirmişdir. Böyük ədəbiyyat Heydər Əliyevin Azərbaycanı dünyada tanıtdırması baxımından mühüm vasitələrdən birinə çevrilmişdir. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəm-

---

[1] İ.Həbibbəyli. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi", 2013, s.34

[2] Bax: Nazim İbrahimov. Azərbaycan Yazıçılar Birliyi–75. Bakı, "Litterpress", 2009, s.107

məd Füzuli kimi qüdrətli sənətkarların yubileylərinin, «Kitabi-Dədə Qorqud» dastanlarının yaranmasının 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi görkəmli dövlət xadiminin Azərbaycan xalqını və ölkəsini dünya səviyyəsində tanıtmasına, dövlətimizə və xalqımıza etibarlı tərəfdaşlar qazandırmasına doğru istiqamətləndirilmiş və müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Bundan başqa, müxtəlif bəhanələrlə Azərbaycan xalqına mənsub olmasına şübhə ilə yanaşılan, ətrafında yersiz və haqsız mübahisələr açılan ədəbiyyat xadimlərinin yubileylərinin keçirilməsi həm də həmin yanlış mülahizələrin, məqamların, iddiaların aradan qaldırılmasına, Azərbaycan gerçəkliyinin daha dərindən əsaslandırılıb təsdiq olunmasına hesablanmışdır. Nizami Gəncəvinin 840 illik, Məhəmməd Füzulinin 500 illik, «Kitabi-Dədə Qorqud» dastanlarının beynəlxalq miqyasda böyük təntənə ilə keçirilən 1300 illik yubileyləri prosesində aparılan məqsədyönlü elmi-ideoloji işin sayəsində ortaq cəhətləri ilə yanaşı, bu sənətkarların və ədəbi abidələrin Azərbaycan xalqına məxsusluğu nəinki möhkəm surətdə əsaslandırılmış, hətta bütün dunyaya bəyan edilmişdir. «Kitabi-Dədə Qorqud» dastanlarının 1300 illiyinin qeyd olunduğu Türkdilli Dövlətlər Birliyi Zirvə toplantısının iştirakçıları olan Dövlət Başçılarının qatılması ilə keçirilmiş yubiley mərasimində müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi Heydər Əliyevin nitqində ifadə olunan aşağıdakı fikirlər müasir dövr üçün bir çox cəhətdən əhəmiyyətli olan bəyanat kimi səslənmişdir: «Kitabi-Dədə Qorqud» bizim ana kitabımızdır. Biz fəxr edirik ki, Dədə Qorqud bizim əcdadımızdır. Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi abidəmiz vardır. Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi ulu əcdadımız vardır».[1]

Görkəmli dövlət xadimi Heydər Əliyevin meydana qoyduğu aşağıdakı düşünülmüş format «Kitabi-Dədə Qorqud» dastanlarına münasibətdə obyektiv reallığı əks etdirən və bütün mövcud olan və ola biləcək mübahisələrə son qoyan siyasi-elmi düsturdur: «Kitabi-Dədə Qorqud» bütün türk dünyasına məxsusdur. Onun Vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir».[2]

---

[1] Heydər Əliyev. Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət və ehtiram bayramı. Bax: "Ədəbiyyat qəzeti", 14 aprel 2000-ci il

[2] Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı. Bax: "Kitabi-Dədə Qorqud" ensiklopediyası, I cild, (Müqəddimə). Bakı, "Yeni Nəşrlər Evi", 2000, s.12

Dünya şöhrətli böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin qeyd olunması ilə də Heydər Əliyev ilk növbədə bu qüdrətli sənətkarı lazımi səviyyədə öz ölkəsi olan Azərbaycanda, daha çox isə bəşəri ideallar carçısı olan qüdrətli Azərbaycan şairi kimi dünyada tanıtmaq vəzifələrini yüksək səviyyədə həyata keçirmişdir. Bütün yubiley tədbirlərində, o cümlədən də Nizami Gəncəvinin 840 illiyinin qeyd edilməsində xalqımızın milli iftixar hissinin qüvvətləndirilməsi də dövlət səviyyəsində daim diqqət mərkəzində olmuşdur. Etiraf etmək lazımdır ki, qeyd olunan böyük yubiley mərasimlərində Heydər Əliyevin parlaq nitqlərində öz əksini tapan düşünülmüş fikirlər, milli ideyalar, ədəbi şəxsiyyətə qlobal baxış, ədəbiyyata dərin bələdlik və yüksək vətəndaşlıq mövqeyi sözün əsl mənasında cəmiyyət üçün milli iftixar mənbəyi funksiyasını yerinə yetirmişdir. Bu yubileylərin hər biri Heydər Əliyevin Azərbaycan ədəbiyyatı, görkəmli ədəbi şəxsiyyətlərimiz uğrunda mübarizə marafonu olmuşdur. Məsələn, Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin keçmiş Sovetlər İttifaqı miqyasında keçirilməsi üçün Kreml rəhbərliyindən razılıq əldə olunması yolunda dövlət rəhbərinin apardığı məqsədyönlü işin özü də vətənpərvərlik və iftixar düşüncəsi üçün örnəkdir. Ulu Öndərin Nizami Gəncəvinin 840 illik yubiley mərasimi ilə bağlı söylədiyi aşağıdakı sözlər hər bir azərbaycanlıda dərin vətənpərvərlik duyğuları oyatmağa xidmət edir: «Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə, bizə çox yerdə irad tuturdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər».[1]

Bunlar Heydər Əliyevin ədəbiyyat siyasətində həm də Azərbaycanın mənafeyinin qorunması, müdafiə edilməsi kimi məsələlərin də əhatə olunduğunu qabarıq surətdə nəzərə çarpdırır. Bütövlükdə Azərbaycançılıq Heydər Əliyevin milli dövlətçilik təliminin ana xəttini təşkil edir.

[1] Bax: Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s.184

***

Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətində tarixilik prinsipinin də özünəməxsus yeri vardır. Əslində bu amili ədəbiyyatda tarixi dərk prinsipi də adlandırmaq olar. Böyük dövlət xadimi Heydər Əliyev bu fikirdə idi ki, «Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də... respublikamıza maraq göstərən adamlara tanıtmaq lazımdır». Heydər Əliyev Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri saymışdır.

Müxtəlif əsrlərdə yaşayıb-yaratmış Azərbaycan yazıçılarının möhtəşəm yubiley tədbirlərinin keçirilməsi həm də ədəbiyyat vasitəsi ilə xalqımızın qədim tarixə malik olduğunu mənimsəməyə xidmət etmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin keçirilməsində də əsas məqsədlərdən biri də Azərbaycançılıq və milli-mənəvi özünüdərk proseslərinin genişləndirilməsi və dərinləşdirilməsi ilə bərabər, həm də xalqımızın qədim tarixi köklərə və böyük ənənələrə malik olduğunu dünya ictimaiyyətinə və xalqımıza bəyan etməkdən ibarət idi. Böyük dövlət xadiminin aşağıdakı fikirlərində həmin mühüm məntiqi mühakimə aydın surətdə ifadə edilmişdir: "Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanının yaranması üçün xalqlarımızın nə qədər səylər göstərdiyini və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi kökləri və zəngin mədəniyyəti vardır".[1]

Bu isə həm də o deməkdir ki, "Kitabi-Dədə Qorqud" dastanları Heydər Əliyev üçün "azərbaycanlıların tarixi köklərini, genezisini, dövlətçilik ənənələrini"[2] müəyyən etməyə xidmət edən mötəbər bir mənbə rolunu oynamışdır.

Heydər Əliyev epoxasında dövlət səviyyəsində təşviq edilən tarixi mövzulara müraciət siyasətinin işığında görkəmli Azərbaycan yazıçıları İsmayıl Şıxlının, Anarın, Elçinin, İsa Hüseynovun, Yusif

---

[1] Bax: "Ədəbiyyat qəzeti", 14 aprel 2000-ci il

[2] Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, 2007, s.42

Səmədoğlunun, Əzizə Cəfərzadənin, Hüseyn İbrahimovun, Fərman Kərimzadənin, Əlisa Nicatın, Həmid Arzulu və başqalarının tarixi mövzularda yazdıqları bədii əsərlər Azərbaycan xalqının milli-tarixi özünüdərk proseslərinin dərinləşməsində əhəmiyyətli rol oynamışdır. Dövlət dəstəyi sayəsində ölkədə tarixi mövzularda yazılmış bədii əsərlərin əsasında filmlərin çəkilməsi, teatr tamaşalarının hazırlanması, bu əsərlərdən bəzilərinin rus dilinə tərcümə olunması, xarici ölkələrdə nəşri prosesinin kütləviləşdirilməsinə və miqyasın genişlənməsinə özünün layiqli töhfəsini vermişdir. Beləliklə, Azərbaycan təkcə müasir inkişaf səviyyəsi ilə deyil, həm də zəngin tarixi ənənələri ilə dünyada tanıdılmışdır.

Tarixilik prinsipini önə çəkərkən Heydər Əliyev klassik ədəbi ənənədən yaradıcı şəkildə istifadə etməyi ən zəruri amillərdən biri saymışdır. O, böyük uzaqgörənliklə və sanki mahir bir ədəbiyyatşünas dəqiqliyi ilə mükəmməl bədii əsərlər yazmaq üçün klassik ədəbi ənənədən yaradıcı istifadə ilə müasirliyin vəhdətinə nail olmağı yaradıcı qüvvələrin əsas vəzifələrindən biri hesab etmişdir. Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilmiş VII qurultayındakı tarixi nitqində səslənən aşağıdakı fikirlər yazıçı və şairlər üçün çox əhəmiyyətli sənət direktivləridir: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən,... əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz. Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən, şüurları və həyat mövqelərini formalaşdırmaq vasitələrindən biridir. Mədəniyyətin milli sərvətlərinin demək olar əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir".[1]

Heydər Əliyevə görə, tarixi mövzuda yüksək bədii səviyyədə əsər yazmaq yazıçıların Vətən və xalq qarşısındakı ən məsul vəzifələrindəndir. Belə əsərlərdə tarixiliklə bədiiliyin və müasirliyin vəhdət daşımalı olduğunu da görkəmli dövlət xadimi diqqət mərkəzinə çəkmişdir: «Tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bi-

---

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s.139

likli sənətkarlar gələ bilərlər». Buna görə də tarixi mövzular əsərlər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür-qoy etməli, böyük və ciddi hazırlıq işi aparmalıdır.[1]

İctimai-siyasi istiqaməti ilə yanaşı, elmi cəhətdən də əhəmiyyətli olan yuxarıdakı mülahizələr tarixiliklə bədiiliyin sintezinə dair Heydər Əliyev tezisləri kimi səslənir. Bu cür aydın və konkret tələblər tarixi mövzuların meydanını genişləndirmiş, həmin mövzuda layiqli bədii əsərlərin yazılması ilə nəticələnmişdir. Bu isə öz növbəsində ölkəmizdə milli-tarixi dərk proseslərinin dərinləşdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Bütün bunlara görə Azərbaycan tarixinin Heydər Əliyev epoxası milli ədəbiyyatımızın tarixə qayıdış mərhələsi kimi xarakterizə olunur.

***

Heydər Əliyevin ədəbiyyat siyasətində müasirlik meyarının özünəməxsus rolu və yeri vardır. Böyük siyasətçinin nəzərində müasirlik genişmiqyaslı bir kateqoriya kimi həm çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, həm də müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsi vəzifələrini əhatə edir. Ona görə də Heydər Əliyev həmişə «öz dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişafın dialektikasını bədii formada canlandırmağın, onun ən mühüm meyillərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu hər bir sənətkarın dərk etməsi çox böyük vəzifədir»[2] qənaətində olmuşdur. Bu böyük dühanın fikrincə, müasir həyatdan söz açan əsl sənətkar ötəri, keçəri meyilləri deyil, «ictimai inkişafın müqəddəratını müəyyən edən prosesləri və hadisələri ilk növbədə təsvir etməlidir».[3] Heydər Əliyev hesab edirdi ki, "bizim zəmanəmiz və müasirlərimiz haqqında gözəl əsərlər yaratmaq Azərbaycan yazıçılarının əsas qayğısı olmalıdır."[4]

Həm keçmiş sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan yazıçılarının qurultaylarındakı dərin məzmunlu məruzələri müasir ədə-

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s.140
[2] Göstərilən mənbə, s.140
[3] Yenə orada, s.136
[4] Yenə orada, s.137

biyyatın, yaxud da ki, ədəbiyyatda müasirlik məsələsinin bədii əksinin proqramına çevrilmişdir. Onun müasiri olduğu sənətkarların yubiley mərasimlərindəki çıxışları müasir həyat və çağdaş ədəbiyyat münasibətlərinin əsas ana xətləri ilə açılmasına aydınlıq gətirmişdir. Beləliklə, cəmiyyətdə və ədəbiyyatda müasirlik anlayışının Heydər Əliyev konsepsiyası formalaşmışdır. Fikrimizcə, XX əsrin altmışıncı illərindən sonra yaranan müasir Azərbaycan ədəbiyyatı ən yaxşı nailiyyətlərini həmin müdrik konsepsiyanın işığında qazana bilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin XX əsrin ikinci yarısında yaşayıb-yaratmış yazıçı və şairlərin yubileyləri haqqında imzaladığı sərəncamlarda, sənətkarlara ünvanladığı təbrik məktublarında, onlardan bir çoxunu həsr edilmiş, təntənəli mərasimlərdəki nitqlərində həmişə geniş mənada ədəbiyyatda müasirlik mövqeyindən çıxış edərək, ədəbi prosesi bu istiqamətə doğru yönləndirmişdir. Xalq yazıçısı İlyas Əfəndiyevin anadan olmasının 80 illiyi münasibətilə yazılmış təbrik məktubunda onun «xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq, …xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmək» kimi keyfiyyətlərin diqqət mərkəzinə çəkilməsi bədii sənətin müasirlik kateqoriyasına bəslənilən münasibətin əks-sədasıdır. Dövlət başçısının Məmməd Araza 60 illiyi ilə əlaqədar göndərdiyi təbrik məktubunda vətəndaşlıq mövqeyi və mənəvi təkamül məsələlərinə xüsusi fikir verilmişdir. Heydər Əliyevin XX əsrin sonlarına doğru yaşayıb-yaratmış yazıçı və şairlərin yaradıcılıq fəaliyyətini qiymətləndirərkən, onların cəmiyyətdə baş verən ictimai-siyasi proseslərdəki iştirakını, əsərlərindəki mübarizə və azadlıq ruhunu önə çəkməsi də sənətkar və zaman münasibətlərinə müasir dövrün meydana çıxardığı ümummilli ideallar baxımından yanaşmasından irəli gəlmişdir. Xalq şairi Xəlil Rza Ulutürkün vəfatı ilə əlaqədar 24 iyun 1994-cü il tarixdəki vida mərasimində deyilmiş aşağıdakı fikirlər müasirlik düşüncəsinə yeni tarixi dövrün axarında işıq salmağın ifadəsi idi: «Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgəsində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm də şair kimi… örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hisəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. …Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, əyil-

məzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm».[1]

Müstəqillik dövrünün çətin və məsuliyyətli illərində deyilmiş bu fikirlər Azərbaycan xalqının azadlıq mübarizəsində yüksək vətəndaşlıq mövqeyi və cəsarət nümayiş etdirmiş Xəlil Rza Ulutürkün ədəbi-ictimai xidmətlərinə verilmiş yüksək qiymətin ifadəsi olmaqla bərabər, həm də yazıçı və şairlərə ünvanlanmış çağırış kimi səslənmişdir. Heydər Əliyev bu imkandan da yazıçıları çətinliklə qazanılmış dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi uğrunda mübarizəyə səfərbər etmək üçün istifadə etmişdir.

Deməli, Heydər Əliyevin ədəbiyyatda müasirlik məsələsinə baxışı cəmiyyətdə gedən ictimai-siyasi və mənəvi proseslərlə bağlı olub, xalqı və ölkəni daim irəliyə aparmağa, yeniləşdirməyə xidmət etmişdir.

Heydər Əliyevin ədəbiyyat təlimi sözün həqiqi mənasında əsl professionallığa əsaslanır. Görkəmli dövlət xadiminin ayrı-ayrı sənətkarlar, konkret bədii əsərlər, teatr tamaşaları haqqındakı baxışları və mülahizələri ədəbiyyatşünaslıq və sənətşünaslıq elmlərinin ən yüksək tələbləri və prinsiplərindən ucada dayanır. O, yazıçılara və əsərlərə qiymət verərkən ədəbiyyatşünaslığın, yəni elmin tələblərindən deyil, ədəbiyyatın daxili məntiqindən çıxış etmişdir. Heydər Əliyevin ədəbiyyat təlimi ədəbiyyatşünaslıq və sənətşünaslıq, tarix və dilşünaslıq elmlərini də zənginləşdirmiş və inkişaf etdirmişdir. Azərbaycanda professional milli dövlətçilik siyasətinin banisi olan Ümummilli liderimiz Heydər Əliyev ədəbiyyat haqqında elmdə də professionallıq meyarının böyük müdafiəçisidir. Bədii ədəbiyyatla bir sırada ədəbiyyatşünaslıq, sənətşünaslıq, teatrşünaslıq, dilşünaslıq kimi elm sahələri də Heydər Əliyevin ədəbiyyat siyasətinin işığında yeni inkişaf səviyyəsinə yüksələ bilmişdir.

Müasir ədəbiyyatdan və ya ədəbiyyatda müasirlik məsələsindən danışarkən Heydər Əliyev ədəbi tənqidin rolu və vəzifələri məsələsinə xüsusi diqqət yetirmişdir. O, ədəbi-ictimai proseslərdə tənqid və ədəbiyyatşünaslığın rolunun artırılmasının, ümumi inkişafın və yaradıcılıq proseslərinin düzgün istiqamətləndirilməsi və qiymətləndirilməsinin əsas vəzifələrindən biri hesab etmişdir: "Müasir ədəbi-bədii prosesi tənqidçilərin, ədəbiyyatşünasların fəal və faydalı işi

[1] Yenə orada, s.196

olmadan təsəvvür etmək mümkün deyildir. Onlar bədii həyatımızın mürəkkəb, bəzən ziddiyyətli proseslərini dərindən təhlil etməyə və ümumiləşdirməyə borcludurlar... Tənqidi fikrin üfüqləri hələ də nəzərəçarpacaq dərəcədə genişlənməmişdir... Azərbaycan ədəbiyyatşünaslığının və tənqidinin vəzifələri geniş və çoxcəhətlidir. İctimai, bədii-estetik zövqləri formalaşdırmaq, incəsənətdə sönüklüyə, durğunluğa, xalturaya, yabançı baxışlara qarşı mübarizə aparmaq işində ədəbiyyatşünaslığın və tənqidin rolunu gücləndirmək lazımdır”.[1]

Məhz dövlət səviyyəsində qarşıya qoyulan aydın və konkret vəzifələrin nəticəsində XX əsrin səksəninci illərində respublikada tənqid və ədəbiyyatşünaslıq sahəsində böyük canlanma əmələ gəlmiş və yeni tənqidçilər nəsli yetişib formalaşmışdır.

Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanları olan «Ədəbiyyat qəzeti»nin, «Azərbaycan», «Qobustan», «Ulduz» və «Literaturnıy Azerbaydjan» jurnallarının nəşrinin dövlət tərəfindən maliyyələşdirilməsi də Heydər Əliyevin çətin keçid dövrü proseslərində milli ədəbiyyatın və ədəbi prosesin inkişafına göstərdiyi böyük qayğının əməli təzahürüdür.

Sözün həqiqi mənasında Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər milli ədəbiyyatın və incəsənətin inkişafında müasir intibah dövrü adlandırılmağa layiqdir. Bu, ölkəmizdə azərbaycançılıq məfkurəsinin, böyük ədəbiyyatın və milli ziyalılığın böyük dirçəliş dövrüdür.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsaslandığı Azərbaycançılıq siyasətinin ideoloji özülü görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat və mədəniyyət təlimindən yoğrulmuşdur. Prezident İlham Əliyev bu əbədiyaşar təlimi yeni epoxanın prinsiplərinə uyğun olaraq əlavə müddəalarla daha da zənginləşdirərək, müasir dövrün ədəbiyyat siyasətini müəyyən etmişdir. Azərbaycançılıq və müstəqil dövlətçilik ölkəmizin ədəbiyyat siyasətində Heydər Əliyev – İlham Əliyev epoxasının ortaq ana prinsipidir. Bu baxımdan yanaşdıqda, görkəmli dövlət xadimi Heydər Əliyevin “Dədə Qorqud” dastanlarına münasibəti ilə Prezident İlham

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, “Ozan”, 1999, s.147

Əliyevin bu möhtəşəm ədəbi abidəni qiymətləndirməsi biri digərini tamamlayan vahid təlimdir. Məlum olduğu kimi, Vaxtilə "Dədə Qorqud" dastanlarının 1300 illiyinin qeyd olunması haqqında fərman imzalamış və möhtəşəm yubiley tədbirləri keçirmiş Heydər Əliyev bu dastana mühüm azərbaycançılıq hadisəsi kimi baxmışdır: "Kitabi-Dədə Qorqud" dastanlarının fövqəladə əhəmiyyəti ondadır ki, o bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir".[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 dekabr 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud parkının və Dədə Qorqud heykəlinin açılışı mərasimindəki çıxışında da dastana münasibətdə Azərbaycançılıq ön mövqedə dayanmışdır: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Dastanın qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar... Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan oğuznamələrini əhatə edir."[2]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında"kı 28 dekabr 2013-cü il və "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" verilmiş 20 fevral 2015-ci il tarixli sərəncamların ruhunda, mahiyyətində müasir dövrdə Azərbaycançılıq faktorunun əhəmiyyəti məsələsi üstünlük təşkil edir. Yeni dövrün ədəbiyyat siyasəti ölkəmizdə uğurla həyata keçirilən multikulturalizm və tolerantlıq siyasəti ilə daha da zənginləşdirilmişdir.

Azərbaycanın bir çox görkəmli sənətkarları ilə əlaqədar dövlət tədbirlərində, o cümlədən xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyi haqqındakı 14 yanvar 2015-ci il tarixli sərəncamında da ümummilli ideallarn diqqət mərkəzinə çəkilməsi Prezident İlham Əliyevin ədəbiyyat siyasətində Azərbaycançılığın davamlı xətt təşkil etdiyini göstərir: "Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarından-

---

[1] Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi mərasimində nitqi. "Azərbaycan" qəzeti, 10 oktyabr 2000-ci il

[2] https://www.president.az/articles/10491

dır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaş ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır."[1]

Yeni tarixi epoxada görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat siyasətinə dair formalaşmış ənənələr ardıcıl olaraq yaradıcı şəkildə davam etdirilməkdədir. Ölkəmizdə hazırkı şəraitdə adlı-sanlı sənətkarların dövlət səviyyəsində yubileylərinin keçirilməsi, onların əsərlərinin sanballı yubiley nəşrlərinin hazırlanaraq geniş oxucu auditoriyasına təqdim edilməsi bədii yaradıcılıq fəaliyyətinin daha da inkişaf etdirilməsinə təkan verir. Həmçinin böyük xidmətləri nəzərə alınmaqla tanınmış yazıçılara fəxri adların, fərdi təqaüdlərin və yaradıcı gəncliyin istedadlı nümayəndələrinə Prezident mükafatlarının verilməsi də Ulu Öndər tərəfindən əsası qoyulmuş yazıçı zəhmətinin və ədəbi prosesin stimullaşdırılması siyasətinin konkret davamından ibarətdir. Bundan başqa, uzun illik fasilədən sonra Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikası Dövlət Mükafatının verilməsinin yenidən bərpa edilməsi də ədəbiyyat siyasəti sahəsindəki varisliyin əməli ifadəsidir.

Bütün bunlarla bərabər, hazırda cəmiyyətin inkişaf xüsusiyyətlərinə, ölkəmizin artan iqtisadi imkanlarına uyğun olaraq ədəbiyyat siyasəti sahəsində bir sıra yeni tədbirlərin həyata keçirilməsi də müşahidə olunmaqdadır. Ədəbiyyat və incəsənət sahəsində Heydər Əliyev mükafatının müəyyən edilməsi və həyata keçirilməsi, hər şeydən əvvəl, Azərbaycan dövlətinin ədəbiyyat siyasətini müəyyən edən görkəmli dövlət xadiminin xatirəsinə böyük ehtiramın ifadəsidir. Heydər Əliyev mükafatının təsis olunması ədəbiyyat və incəsənətin Ulu Öndərin ümummilli ideallarına layiq şəkildə inkişaf etdirilməsi ənənəsinin yaşadılması deməkdir. Eyni zamanda, son vaxtlarda «Qızıl çinar», «Buta» kimi yüksək səviyyəli mükafatların meydana çıxması, Heydər Əliyev fondunun mükafatları və təqaüdlərinin yaradılması və təqdim olunması mövcud siyasətin işığında formalaşan yeni və əhəmiyyətli ənənələrdir. Bakı şəhərində Dədə Qorqud abidə kompleksinin yaradılması, xalq qəhrəmanı Koroğlunun abidəsinin ucaldılması müstəqillik dövrü ədəbiyyat epoxasının möhtəşəm hadisələridir. Son illərdə ölkədə aparılan böyük qurucu-

[1] Bax: "Azərbaycan" qəzeti, 15 yanvar 2015-ci il

luq proseslərinin tərkib hissəsi kimi Azərbaycan Yazıçılar Birliyinin, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin, Azərbaycan Dövlət Milli Dram Teatrının, Opera Teatrının, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Sumqayıt və Şəki teatrlarının, Naxçıvan Yazıçılar Birliyinin və ölkəmizin digər ədəbiyyat və mədəniyyət ocaqlarının, görkəmli yazıçıların ev muzeylərinin əsaslı şəkildə yenidən qurulması, yeni texnologiya və müasir avadanlıqlarla təchiz edilməsi ölkəmizdə ədəbiyyata və incəsənətin inkişafına göstərilən dövlət qayğısının əməli ifadəsidir. Bakı şəhərində Muğam Mərkəzinin yaradılması, Gəncədə Mirzə Şəfi Vazeh, Şəkidə Bəxtiyar Vahabzadə və Şahbuzda Məmməd Araz, Kəngərli rayonunda Şahtaxtlılar, Ordubadda Məhəmməd Tağı Sidqi muzeylərinin, Gədəbəydə Ozan evinin tikilib istifadəyə verilməsi ölkəmizdə bədii ədəbiyyatın, söz sənətinin inkişafında mühüm rol oynayır. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ədəbiyyat və mədəniyyət işinin müstəqillik dövrünün yüksək tələblərinə və templərinə uyğun şəkildə inkişaf etdirilməsi tədbirlərini yeni səviyyəyə qaldırdığını qabarıq şəkildə nümayiş etdirir. Beləliklə, möhtərəm Prezidentimiz İlham Əliyev yeni tarixi epoxanın ədəbiyyat siyasətini formalaşdırır və ardıcıl olaraq yaradıcı şəkildə inkişaf etdirir. Müstəqil Azərbaycanda uğurla həyata keçirilən ədəbiyyat siyasəti yeni ədəbiyyat axtarışlarının və çağdaş ədəbi nəslin meydana çıxması, ərsəyə gəlməsi və inkişaf etdirilməsi ilə nəticələnir. Müasir dövrün ədəbiyyat siyasəti respublikamızda Azərbaycançılıq məfkurəsinin daha da zənginləşdirilməsinə və möhkəmləndirilməsinə uğurla xidmət edir.

Ədəbiyyatda Azərbaycançılıq – ölkəmizdə müstəqil dövlətçilik siyasətinin əsas hərəkətverici amili, milli-mənəvi dəyərlərinin məhək daşıdır.

Cəmiyyətdə Azərbaycançılığın formalaşması və inkişafında ədəbiyyatın xüsusi rolu və təsiri vardır.

***

Böyük ədəbiyyatın həyatı və insanı yüksək ideyalılıq uğrunda, obrazlı, bənzərsiz, canlı bədii vasitələrlə ifadə etməsini zəruri hesab edən və diqqət mərkəzinə çəkən Heydər Əliyevin obrazının yaradılması ən yeni dövr Azərbaycan ədəbiyyatının baş mövzusuna çevril-

mişdir. Azərbaycan ədəbiyyatının görkəmli simalarının yaradıcılığında Heydər Əliyevin bədii obrazı xalqımızın ən yüksək milli dövlətçilik ideallarını təsvir və tərənnüm etməyə xidmət göstərir. Sovet hakimiyyəti illərində Azərbaycan yazıçıları Heydər Əliyevin simasında mənsub olduğu xalqın milli iftixar mənbəyi olan, ölkəni tanıdan və inkişaf etdirən görkəmli dövlət xadiminin obrazını canlandırmışlar. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında isə Heydər Əliyevin xilaskar obrazı yaradılmış, böyük ədəbiyyat onun milli dövlətçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsindəki rolunu bədii sözün bütün vüsəti ilə təsvir və tərənnüm etməyə səfərbər olmuşdur. Heydər Əliyev mövzusu ədəbiyyatda Azərbaycan xalqının siyasi və milli-mənəvi təkamülü, azadlıq və dirçəlişi məsələləri ilə üzvi surətdə əlaqədar olub, ümummilli ideallarınəks etdirilməsinə meydan açmışdır.

Azərbaycan poeziyası sovet hakmiyyəti dövründə Heydər Əliyevin simasında xalqımızı o dövrün ən yüksək dövlət qurumu olan Sovetlər İttifaqının Siyasi Bürosu səviyyəsinə yüksəldən qüdrətli dövlət xadimi kimi ilhamla vəsf etmişdir. Müstəqillik ərəfəsində və dövlət müstəqilliyinin başlanğıc illərində ölkəmizdə baş verən ictimai-siyasi və iqtisadi böhranlar dərinləşməkdə olduğu zaman poeziya «Allahım bizə bir ağsaqqal yetir», – deyə Heydər Əliyevə böyük xilaskar kimi üz tutmuşdur. Azərbaycan xalqının çağırışı və tələbi ilə Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra isə siyasi lirika müstəqil dövlətin və xalqın sabahına böyük inam duyğuları ifadə etmiş, qəhrəmanlıq notları üstündə köklənmişdir. Xalq şairi Zəlimxan Yaqubun aşağıdakı ilhamlı və sərrast misraları xalqın həmin dövrdəki sarsılmaz inamını bütün ruhu ilə ifadə edir:

*Qoy səsi guruldasın bu gün altı qitədə,*
*Odur məndən ötəri ATƏTdə, BMTdə!*
*Gəlib, o kişi gəlib!*
*Xalqın xeyrinə sarı çarxın gərdişi gəlib.*
*Millətinə, xalqına birləş deyir, qalx deyir!*
*Öz xalqına güvənir, haqq danışır, haqq deyir.*
*Əlli milyona çatmış Azərbaycan dünyası,*
*«Qurtuluş nəğməsi»ni oxuyur bir himn kimi!*
*Bir səslə, bir avazla «Heydər» deyir, «Xalq» deyir.*

Müstəqilliyin ilk illərin poeziyasındakı «Sən qalib gələcəksən» (Zəlimxan Yaqub) nidasını az sonra ölkənin xilasına inamdan yorğulmuş «Millətin yolunda əsgərə bənzər», «Dağlar vüqarında rəhbərə bənzər», (Məstan Günər) poetik sədaları əvəz etmişdir. Əbədiyyətə köçməsi ilə Ulu Öndərə həsr olunmuş əbədiyyət nəğməsi – «Xalq Heydər söyləyəcək» epitafiyası (Baba Vəziroğlu) eyni anda doğulmuşdur:

*Sən elə bir zirvəsən, küləklər neyləyəcək,*
*Dünənim, bu günümsən, səninlədir gələcək!*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var,*
*Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!*
*Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!*

Ulu Öndər Heydər Əliyev yolunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsini poeziya «Ölkə əmin əllərdədir, davam edir mübarizə» (Vahid Əziz) kimi inamla və İlhamla vəsf etməkdə davam edir.

Azərbaycan bədii nəsrində Heydər Əliyev obrazı müstəqillik uğrunda və milli dövlətçiliyin möhkəmləndirilməsi yollarındakı çətin və şərəfli mübarizənin fonunda canlandırılmışdır. Elmira Axundovanın «Heydər Əliyev: şəxsiyyət və Zaman» adlı Respublika Dövlət Mükafatına layiq görülmüş 6 cildlik roman-tədqiqatı görkəmli dövlət xadiminin keşməkeşli həyatı və mübarizəsinin mükəmməl sənədli-bədii epopeyasıdır. Xalq yazıçısı Anarın «Unudulmaz görülər» publisist-romanı Heydər Əliyevin şəxsiyyətiin miqyasını əks etdirən qiymətli ədəbi əsərdir. Xalq yazıçısı Elçinin «Dünya axirət əkini» essesi Heydər Əliyevi real və canlı hadisələrin axarında oxucuya təqdim edir. Hüseynbala Mirələmovla Viktor Andriyanovun dünyanın bir çox dillərində nəşr olunmuş «Heydər Əliyev» kitabı Ulu Öndərə həsr olunmuş ciddi və əhəmiyyətli bir JZL-dir. Bu, böyük ömrün böyük romanıdır. İsa Muğanna, Hidayət, Mövlud Süleymanlı, Vidadi Babanlı, Əjdər OL, Afaq Məsud, Tofiq Abdin və başqalarının nəsr əsərlərində və publisistikasında Heydər Əliyev mövzusu Azərbaycanın taleyi və müqəddəratı ilə bağlı hadisələrlə birlikdə canlandırılır. «Heydər Əliyev mənim taleyimdə» motivi bu əsərlərin əksəriyyətinin əsas mövzusunu təşkil edir. «Azərbaycan» qəzeti redaksiyasının hazırladığı «Heydər Əliyev mənim həyatım-

da» ikicildliyi Ulu Öndəri yaxından tanıyan müasirlərinin xatirələri və məqalələrinin mənalı bir külliyyatıdır.

Azərbaycan dramaturgiyasında Heydər Əliyev mövzusu iki əsrin qovşağında ölkəmizdə cərəyan edən dinamik hadisələrin əsasında görkəmli dövlət xadiminin həyatından alınmış ibrətamiz dramatik hadisələrin səhnələşdirilməsi yolu ilə real şəkildə əks etdirilir. Hidayətin İrəvan Azərbaycan teatrında tamaşaya qoyulmuş «Burdan min atlı keçdi» pyesi həm də Ulu Öndər Heydər Əliyevin bədii obrazını səhnədə canlandıran ilk və əhəmiyyətli dram əsəri kimi mədəniyyət tariximizin hadisəsinə çevrilmişdir. Adil Babayevin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında uğurla səhnələşdirilmiş «Koroğlunun Çənlibelə qayıdışı» tamaşasında isə Heydər Əliyev Böyük Xilaskar miqyasında təqdim olunur. Aqşin Babayevin «Xilaskar» tamaşasında da Heydər Əliyevin simasında xilaskarlığa gedən yolun dərsləri və şərəfi öz əksini tapmışdır. İftixar Piriyevin «Qurtuluş dastanı» dramı Ulu Öndərin mübarizə yolunun realist mahiyyətini açmaqla bərabər, həm də romantik ruhunu da ifadə edir.

Bütün bunlarla bərabər, Azərbaycan ədəbiyyatı, yazıçı və şairlərimiz Heydər Əliyev mövzusunda daha parlaq əsərlər yaratmaq üçün özlərini daha çox səfərbər etməlidirlər.

***

Göründüyü kimi, ən yeni dövr Azərbaycan ədəbiyyatının inkişafında Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətinin böyük rolu və təsiri olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətinin ədəbiyyat siyasətinin banisi və yaradıcısıdır. Əslində Azərbaycan xalqının son əlli ildəki ədəbiyyatı Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik dövrünün ədəbiyyatı haqqında Heydər Əliyev təlimini yeni müddəalarla zənginləşdirərək yaradıcı şəkildə inkişaf etdirir. Hesab edirik ki, ən yeni dövr Azərbaycan ədəbiyyatının qarşısında duran bir məsul vəzifə də yeni tarixi epoxanın fonunda görkəmli dövlət xadimi Heydər Əliyevin mükəmməl, hərtərəfli şəkildə işlənmiş, ciddi ədəbi-tarixi meyarlara cavab verən ümumiləşmiş parlaq bədii obrazını yaratmaqdan ibarətdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin bədii obrazını yaratmaq xalqımızın qəlbində Azərbaycana möhtəşəm heykəl ucaltmaq deməkdir.

Ədəbiyyatda Heydər Əliyevin bədii obrazı geniş mənada bədii düşüncədə müasir Azərbaycanın obrazını əks etdirir.

# POEZİYADA HEYDƏR ƏLİYEV İDEALI

## Milli məfkurəli dövlət qurucusu

Hər liderin siyasəti ədəbiyyatla uzlaşmaya, kəsişməyə, ortaq müstəvidə görüşməyə bilər. Heydər Əliyev siyasəti ədəbiyyatdan başlayır. O, əvvəl milli məfkurəni, sonra müstəqil dövləti yaratdı. Bu baxımdan minillik dövlətçilik tariximizə milli məfkurəyə istinad edən ilk və yeni Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu. Heydər Əliyev Azərbaycanı Azərbaycanlıların ixtiyarına verən və Azərbaycan xalqı «öz taleyinin sahibidir», – deyən ilk böyük dövlət xadimimizdir. Ona qədər Azərbaycan tarixində belə bir siyasi kontekstin olmadığı hər kəsə bəllidir.

Heydər Əliyevin həyata keçirdiyi siyasət qlobal mahiyyətinə görə bənzərsiz tarixi mərhələdə Azərbaycanın gücünə və Azərbaycan ictimai fikrinin təməl daşına çevrildi. XX yüzilliyin sonunda Ərəbistandan Qafqaza qədər dalğalanan siyasi ziddiyyətlərin Azərbaycana yansımaması, Azərbaycanın Şərqdə də, Qafqazda da müstəsna bir dünya dövləti kimi öz sabitliyini və hər mənada müstəqilliyini qoruyub saxlaması, Azərbaycanın Şərqdə unikal, tolerant bir Avropa dövləti kimi təzahür etməsi Heydər Əliyev tərəfindən irəli sürülmüş milli məfkurənin ümummilli mahiyyətinə ən mükəmməl və etibarlı sübutdur.

Ümummilli dəyərləri ideoloji baxımdan ilk dəfə o təsbit etdi. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirdi. Azərbaycanın qapılarını Dədə Qorqudun, Babəkin, Nizaminin, Nəsiminin, Hüseyn Cavidin, Şəhriyarın üzünə taybatay açmaqla, əslində, Azərbaycanın məfkurəvi necəliyini müəyyənləşdirdi. 1993-cü ildə isə Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə təkcə Azərbaycanı hərbi-siyasi böhrandan qurtarmaq üçün deyil, həm də Ümummilli liderin 25 il əvvəl başladığı Azərbaycançılıq əsərinin ən ciddi səhifələrini yaratmaq üçün dəvət edirdi. Çünki bu mənəvi abidənin – siyasi Azərbaycanın sirri 1969-cu ildən başlayaraq Heydər Əliyevin üslubunda kəşf olunmuşdu.

***

Dünya tarixi hökmdar və sənətkar münasibətlərinin sonsuz sayda nümunəsini tanıyır. Əlahəzrət Zamanın insana xidməti o andan başlayır ki, onun sükanını idarə edən şəxs zamanla yol getməyi bacarır. Milli müstəqillik qazandığımız 1990-cı illərdə milli insanla bahəm milli ədəbiyyatın da bəxti onda gətirdi ki, həmin dönəmin "idarəetmə funksiyası"nı Əlahəzrət Zaman Heydər Əliyevə həvalə etdi.

Müstəqillik illərinin əvvəllərində – həmin o qarışıqlıq və xaos dövründə Heydər Əliyevin söylədiyi bir ibrətamiz fikir onun bütün fəaliyyət xəttini dəqiq xarakterizə edir: "Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz"/ Heydər Əliyev yalnız milli müstəqilliyi qazandığımız 1990-cı illərdə deyil, eləcə də hakimiyyətdə olduğu sovet epoxası daxilində ədəbiyyatı nəinki iqtisadiyyatın, eləcə də siyasətin, gücün ayağına vermədi. "...vaxtilə Lenin ədəbiyyatı partiya işinin "təkərciyi", "vintciyi" adlandırırdı və ədəbiyyatın təbliğində, ümumiyyətlə təbliğatda bundan geniş istifadə etməyi məsləhət bilirdi. Lakin ədəbiyyat və mədəniyyət Heydər Əliyev üçün heç vaxt "təkərcik" və "vintcik" rolunu oynamamışdır. Əksinə, - Heydər Əliyevə görə, - ədəbiyyat cəmiyyəti irəli aparan, milli hiss və duyğuları qüvvətləndirən, daim fəalliyyətdə olan lokomativ rolunu oynamışdır".[1]

Bütün fəaliyyəti dövründə ədəbiyyata, onun müxtəlif dövrlərində yaşayıb-yaratmış ədiblərinə qədirşünas mövqedən yanaşan Heydər Əliyevin rəhbər kimi özəlliyi bəlkə də elə buradan başlayır. Çünki ədəbiyyat insanşünaslıq, insanı sevmək, ona dəyər vermək deməkdir. Zaman-zaman dünya müdriklərinin meyara çevirdiyi ali missiyanın daşıyıcısı olaraq Heydər Əliyev də qazandığı həyat təcrübəsindən sonra o qənaətdə və mövqedə dayanırdı ki: "Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur, / Bəli, hürriyyət olan yerdə də insanlıq olur!" (Mirzə Ələkbər Sabir). Bu mövqe Heydər Əliyevin ədiblərlə şəxsi görüş və söhbətlərində, onlar haqqında imzaladığı fərmanlarda, təşkil etdirdiyi yubiley tədbirlərində, ucaltdığı abidələrdə,

[1] Xalqımızın milli özünüdərkinə, ədəbiyyatımızın inkişafına sanballı töhfə. // "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı" kitabının təqdimat mərasimində Nizami Xudiyevin çıxışı. "Ədəbiyyat qəzeti", 6 avqust 1999

açdığı ev muzeyləri, nəşriyyatlar və yaradıcılıq evlərində sərgilənməklə mənalanmır, həm də onlara can yanğısının izharında özünü göstərirdi. Yazıçı Anar "Unudulmaz görüşlər" kitabında bu məqamı xüsusi vurğulayır: "Respublikada elə ab-hava yarandı ki, sənətə sənət meyarlarıyla qiymət verilməyə başlandı və bizdən yaşlı nəsil artıq müəyyən dərəcədə özünü təsdiq edib qoruya bilirdisə, bizim nəslin – 60-cı illər nəslinin də ədəbiyyata, kinoya, teatra, sənətimizin başqa sahələrinə gəlib öz sözünü demək imkanı yaranmışdı. Bu imkanı bizə Heydər Əliyev yaratmışdı və onun dəstəyini, yardımını başqa nəsildaşlarım kimi mən də daima hiss etmişəm".[1]

Bu sevgini Heydər Əliyevin özü də daim, dönə-dönə qeyd etmişdir: "... ədəbiyyatı o qədər sevirəm ki, ədəbiyyatla, şeirlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur." Ona görə də ədəbiyyat məsələləri bu şəxsin apardığı siyasi xəttin tərkib hissəsi olmuş, onun ədəbi-tarixi yaddaşı qorumaq amalı bütün fəaliyyəti dövründə funksionallığını itirməmişdir. Akademik Nizami Cəfərovun təbirincə desək, "Heydər Əliyevin ziyalı siyasəti onun siyasətindəki ziyalılığın birbaşa davamı idi…"[2]

Heydər Əliyevin poeziyada obrazı hansı ştrixlərlə seçilir? Bu suala cavab vermək Heydər Əliyevin tərcümeyi-halının bütün incəliklərinə varmağı tələb edir. Çünki hakimiyyətdə olduğu dönəmlər onun poeziyaya, şeirə, sənətə olan sevgisi kimi daha qabarıq önə çıxır. Və yalnız təzahür olaraq hasilə gəlmir. Bu sevgi Heydər Əliyevdə konsepsiya, təlim səviyyəsində gerçəkləşir. Millət və dövlətçilik amilinin daha böyük rolu var bu işdə. Heydər Əliyev xalqı və dövləti qorumağın, uca tutmağın, onun milli kimlik və mənlik qürurunun gizləndiyi, ehtiva olunduğu məqamların nələrdə, hansı dəyərlərdə ehtiva olunduğunu bilirdi. "Ən çox sevdiyin şair kimdir?" sualına Şəhriyar, "ən çox sevdiyin şeir hansıdır" sualına isə Səməd Vurğunun "Azərbaycan" şeiri deyə cavab vermişdir.[3] Əslində,"Azərbaycan" deyə cavab vermişdi Heydər Əliyev. Çünki onların hər ikisi böyük öndər üçün Azərbaycan demək idi. Onun Şəhriyar sevgisi də, Səməd Vurğunun "Azərbaycan" şeirinə kövrəlib ağlaması da, Hüseyn Cavidin nəşinin vətənə qaytarılma fədakarlığı, onlarla şairimi-

---

[1] Anar."Unudulmaz görüşlər". Bakı: Təhsil, 2009, s.37
[2] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 2002, s.78
[3] Bax: Fəttah Heydərov. Heydər Əliyev böyük sənət hamisi idi. "Xalq qəzeti", 17 iyun 2009

zə qoydurduğu abidələr, keçirtdiyi yubiley tədbirlərinin də əsas xətti millətə yönəlik olan sevginin gücünə söykənirdi: “Heydər Əliyev Azərbaycanın gücüdür. Rəmz və əks deyil. Gücün özüdür”.[1] Bəli, Heydər Əliyev Azərbaycanın gücüdür, amma onun da gücü xalq idi. O, millətini sevir, dünyaya tanıdıb sevdirir, azərbaycanlı olmasını fəxrlə bəyan edirdi. Mübadilə qarşılıqlı idi əslində. Dövr, zaman ona görə böyük oğlunu Seçilmişlərdən etmişdi ki, məqamı gələndə o da millətinin imzasını imzalar içrə yazmağa hünər göstərsin!

***

Heydər Əliyevin poeziyada obrazı hakimiyyətdə olduğu iki fərqli mərhələdə fərqli statuslarda poetik dövriyyəyə gətirilir. Birinci mərhələdə Heydər Əliyev daha çox siyasi xadim olaraq quruculuq lideri, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi olaraq irəli çəkilir. Bunu görkəmli liderin fəaliyyətindən bəhs edən bütün müəlliflər birmənalı şəkildə vurğulayırlar: “Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Bu möhtəşəm əsərin möhkəm əsaslarını o, hələ keçmiş sovet hakimiyyəti illərində formalaşdırmışdı.

Zəngin dövlətçilik təcrübəsi və geniş milli dünyagörüşə malik dövlət xadimi olması, cəsarətli ideyaları, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörənliyi hələ Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövründə Heydər Əliyevin siyasi liderlik istedadını Azərbaycan cəmiyyətinə və dünyaya təqdim etmişdir”.[2]

Bu dövrdə Heydər Əliyevin obrazı ondan hansı məzmunda danışmağa əsas verir? Zənnimcə, daha çox xalqın itirilmiş intellekt və emosiya potensialının geri qayıdışında, ondakı milli müəyyənlik və özünüifadə imkanlarının bərpa olunmasında siyasi iradə nümayiş etdirən lider olaraq. 1969-1982-ci illər sovet imperiyası daxilində həm də milli varlığın idrak məqamıdır: “Bu gün milli həyatımızda nə varsa da, əsasları artıq o zamanlarda qoyulmuş, bunu biz bilirik; milli varlığın- yaşamın-iqtisadiyyatın-sənayenin-təsərrüfatın... çağdaşlaşmağı artıq o zamanlarda da var; milli şüurun-ideologiyanın-tarixin-adət-ənənə-zəminin-mədəniyyətin-elmin-sənətin-təhsilin-düşüncənin... üstdə aktuallığı, alt qatda diriliyi gəlişir... Heydər Əliyev

[1] Azər Turan. Azərbaycanın gücü. “Yeni Azərbaycan” qəzeti, 26 yanvar 2000

[2] İsa Həbibbəyli. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, “Əcəmi”, 2013, s.13

və Ədəbiyyat mövzusu kolossal sıradan ibarət; bu gün bu barədə kitablar yazılır, çözümlər, açımlar verilir..."[1]

Zəlimxan Yaqubun "Əbədiyyət dastanı"nın "14 iyul bayramı" bölümündə Ümummilli liderin hakimiyyətdə olduğu birinci mərhələnin poetik vəsfi yer alır:

*14 iyul – on dörd illik rəhbərliyin özül daşı,*
*O tarixdən işıqlandı gözlərimiz,*
*O tarixdən qanadlandı sözlərimiz.*
*O tarixdən dil duruldu, təmizləndi,*
*O tarixdən ana dilim anam kimi əzizləndi.*
*Səsim çatdı hər ölkəyə, hər diyara,*
*O zamandan qanadlandı*
*Fikrət, Qara,*
*Həmin tarix üfüqlərə çatan əldi,*
*Yaddaşımda bir heykəldi.*
*Həmin tarix düşmənlərin*
*Ürəyini yaran gündür,*
*Nərimanı ikinci yol*
*Bizlərə qaytaran gündür,*
*Maqadandan Naxçıvana*
*Cavid uçub gələn gündür,*
*Yağıların ayaq üstə*
*Diri-diri ölən gündür.*
*Həmin tarix Cabbarlıya*
*Məğrur heykəl yapan gündür.*
*Həqiqətin öz yerini tapan gündür.*[2]

Musa Qasımlı "Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər)" kitabında yazır: "Azərbaycan ədəbiyyatı bütün sovet tarixi ərzində heç vaxt 70-80-ci illərdəki kimi qayğı ilə əhatə olunmamışdı. Bu dövr Azərbaycan ədəbiyyatının ölkədə və dünyada tanınması, yüksəlişi, tərəqqisi illəridir".[3] Bu illərdə tək poeziyanın inkişafı, şairlərə münasibət, klassik və müasir ədəbiyyatımızın təbliği,

---

[1] Tehran Əlişanoğlu. Azərbaycan, Azərbaycan. Bakı: "Nurlan", 2005, s.89
[2] Zəlimxan Yaqub. Seçilmiş əsərləri, 13 cilddə. XI cild, Bakı: Şərq-Qərb, 2013, s.35-36
[3] Musa Qasımlı. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, s.109

tədqiqi və dəyərləndirilməsi yönündə atılan addımlar görülən işin miqyasını təsəvvür etməyə imkan verir: 1970-ci ildə Rəsul Rzanın anadan olmasının 60, 1980-ci ildə isə 70 illiyi qeyd edilir. 1973-cü ildə Nigar Rəfibəylinin anadan olmasının 60 illik yubileyi, Nəbi Xəzrinin 50 illiyi təntənə ilə qeyd edilir. Heydər Əliyev Məmməd Rahimin Oktyabr İnqilabı ordeni ilə təltif edilməsi haqqında 1977-ci ildə məktubla Sov. İKP MK-ya müraciət edir. 1982-ci il 12 iyulda Mirvarid Dilbazinin anadan olmasının 70 illiyinin keçirilməsi və təltif olunması barədə qərar qəbul edir. O, şairənin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi barədə məsələ qaldırır və istəyinə nail olur.

Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında Qazaxda Molla Pənah Vaqifin ev muzeyini yaratmaq barədə qərar qəbul edilir. Doğulduğu rayonda Vaqifin xatirə muzeyi yaradılır. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1978-ci il 9 iyun tarixli iclasinda Şamaxıda Ədəbiyyat muzeyi yaratmaq barədə qərar qəbul olunur və reallaşır. MK bürosunun 1980-ci il 11 dekabr tarixli iclasinda Naxçıvan şəhərində Hüseyn Cavidin ev muzeyinin yaradılması barədə qərar qəbul edilir və həyata keçirilir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1980-ci il dekabr ayının 12-də keçirilən büro iclasında görkəmli Azərbaycan şairi Xaqani Şirvaninin anadan olmasının 850 illiyinin keçirilməsi barədə qərar qəbul edilir. 1981-ci ilin iyun ayında Mirzə Şəfi Vazeh, 1976-cı il 10 sentyabrda isə Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbər Sabir irsinin öyrənilməsi haqqında qərar qəbul edildi. Onu da deyək ki, verilən qərarlardan sonra yubileyləri keçiriləcək şəxslərin əsərləri nəşr olunur, yaradıcılığı haqqında mətbuatda silsilə məqalələr dərc edilir, radio və televiziyada proqramlar hazırlanırdı. Məsələn, Sabir haqqında verilən qərardan sonra şairin Şamaxı və Bakıda qoyulmuş, lakin baxımsız qalmış abidələrinin ətrafı abadlaşdırıldı. 1982-ci ildə Mirzə Ələkbər Sabirin anadan olmasının 120 illiyi qeyd edildi. Əsərləri təkrarən nəşr olundu. Bakıdakı küçələrin birinə şairin adı verildi. Böyük satirik şairin adını daşıyan Sabirabad rayonunda mədəni quruculuq işləri genişləndirildi.

MK bürosunun 1975-ci il 27 iyun tarixli iclasında görkəmli Azərbaycan şairi Səməd Vurğunun anadan olmasının 70 illiyinin keçirilməsi haqqında qərar qəbul olundu. Bu qərar uğurla, böyük təntənə ilə həyata keçirildi. Şairin şeirlərinə mahnılar bəstələndi, te-

atrlarda əsərləri daha çox oynanılmağa başlandı. Bakıda Səməd Vurğunun övladları yaşadığı mənzildən köçürülərək yeni mənzillə təmin edildikdən sonra şairin ev-muzeyi yaradıldı.1976-cı ildə böyük yubiley tədbirləri Bakıda və Moskvada keçirildi. Heydər Əliyevin sədrliyi ilə büronun 1979-cu il 25 may tarixli iclasında Məhəmməd Hadinin 100,1980-ci il oktyabr ayının 17-də Əliqulu Qəmküsarın 100, 1974-cü ildə Hüseyn Cavidin anadan olmasının 90 illiyi qeyd edildi və s. və i.

Heydər Əliyevin həmin dövr fəaliyyətinə həsr edilmiş bir çox yazılarda bir məsələyə aydın işarələr var. 1970-ci illərdə Moskva siyasi dairələrində kifayət qədər nüfuz sahibi olan Heydər Əliyev bu nüfuzdan xalqının milli kimliyinin və müəyyənliyinin dərki üçün yararlandı. Bütün siyasi fəaliyyəti boyu əsas diqqətini xalqın tarixi şəxsiyyətlərinin yaradıcılığının poetik dövriyyəyə gətirilməsinə, yaddaş faktına çevrilməsinə, milli genefondun varlıq göstəriciləri olmaları işinə sərf elədi. Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Molla Pənah Vaqifin, Mirzə Şəfi Vazehin, Nəriman Nərimanovun heykəllərinin qoyulması, onların irsini dirçəltmək imkanları sovet epoxası daxilində ağlasığmaz əzmkarlıqdan hasilə gəlirdi və siyasi lider olaraq Heydər Əliyevin bütün fəaliyyətinin prioritet istiqamətini təşkil edirdi. Mədəniyyətin, elmin və ədəbiyyatın yenidən qurulması prosesi başlanmışdı. Əbəs deyil ki, Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi 1990-ci illərdə ondan bəhs edilən məqamlar məhz liderin hakimiyyət dövrünün birinci mərhələsindəki quruculuq proseslərinə dayaqlanırdı."Ölkə həyatının elə bir sahəsi yox idi ki, 1969-cu ilin iyulundan sonra ciddi dəyişikliklərə məruz qalmasın, sözün həqiqi mənasında yenidən qurulmasın, möhtərəm Prezidentimizin müdrik dövlətçilik təfəkkürü süzgəcindən keçirilərək millətin və dövlətin tələblərinə cavabverici bir şəklə salınmasın. Gözlərimiz qarşısında keçən bu otuz ildə Heydər Əliyevin yaradıcı zəkasının Azərbaycanın bütün sahələrinə bir meteor kimi nüfuz edərək onu işıqlandırdığını, istənilən sahədə meydana çıxan problemi öznəməxsus qətiyyət və prinsipiallıqla həll etdiyini, nəyə daha çox ehtiyac duyulursa, ona diqqət yetirdiyini görmüşük".[1]

Necə ola bilirdi ki, Heydər Əliyev sovet hakimiyyətinin rəsmi

---

[1] Xalqımızın milli özünüdərkinə, ədəbiyyatımızın inkişafına sanballı töhfə. "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı" kitabının təqdimat mərasimində akademik Ramiz Mehdiyevin çıxışı. // "Ədəbiyyat qəzeti", 6 avqust 1999

tribunasından sözünü öz xalqına ünvanlayırdı, onun dəyərlərini qoruyurdu, milli heysiyyatını uca tuturdu?! Axı kim dana bilər, toxunduğu bütün məsələlərdə liderin fəaliyyəti poeziyanın o zamankı dalğasından azadlıq anlayışının oyanışı kimi keçir. Bu dövr poeziya nümunələrində Heydər Əliyev obrazı hələ o qədər də qabarıq deyil. Əvəzində onun poeziyaya gətirdiyi yenilik ab-havasının, azadlıq duyğularının təzahürləri var. Bunlar daha çox Heydər Əliyev obrazıdır. Şeirə bütöv Azərbaycan obrazının gətirilməsi, Allah obrazının poetik dövriyyəyə qatılması, milli istiqlal, vətən, dil anlayışlarının uca vurğu ilə səsləndirilməsi, cəmiyyət ziddiyyətlərinin, sosial hərcmərcliyin açıq dillə, çəkinmədən poetik təsvirə gəlməsi, ifşa olunması və s. – hər biri Heydər Əliyev dühasının sayəsində ərsəyə gələn müstəsnalıq idi. Bu azadlıq ab-havasını poeziyaya Ümummilli lider bəxş etmişdi.

Bəxtiyar Vahabzadənin 1958-ci ildə yazdığı "Gülüstan" poeması dünyanı olmasa da, özünü dünyanın məhvəri sayan nəhəng Sovetlər İmperiyasını silkələyəməyə müvəffəq oldu. Ona qədər heç bir əsərdə milli dil, milli varlıq və kimlik məsələsi bu qədər kəskinliklə qoyulmamışdı, bu qədər cəsarətlə sərgilənməmişdi. Bu əsərdə yaddaşı oyatmağa yönəlik olan missiya vardı və bu missiya XX əsrin birinci yarısının aydınlarının əsərlərindən sonra ilk dəfə məhz Bəxtiyar Vahabzadə poeziyasında bu çalarda, bu miqyasda şeirə gətirilirdi. Amma bir anlıq düşünək, "Gülüstan" poeması yalnız daxili azadlığın təzahürü idimi? Düşünmürəm. Poema 1958-ci ildə yazılmışdı. Heydər Əliyev bu zaman Dövlət təhlükəsizliyi orqanlarında çalışırdı. Vəzifəsindən irəli gələn səlahiyyəti isə millətin milli-mənəvi dərdlərinin tərcümanı olmağa, onun ehtiva olunduğu məqamları qorumağa imkan verirdi. Onun çıxışlarında bu məqamlara aydın işarələr kifayət qədərdir: "Mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. "Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı".

Bu fikirlər həm də Heydər Əliyev şəxsiyyətinin bütövlüyünə

dəlalət edir. O, yaxşı bilirdi ki, müasirliyin dərkində keçmiş bilavasitə iştirak edir, klassikanın əsrlərin sınağından çıxmış qanunauyğunluğu yeni zamanın kardinal problemlərinin həlli üçün açar olur. Bu mənada sovet epoxası daxilində Heydər Əliyevin üzünü yaddaşa çevrilən tarixə – özündə xalqın milli kodunu və möhürünü əbədiləşdirən söz sənətinə tutması ilk növbədə onda çağdaşlıq faktı aramaq, bu yolla ədəbi prosesə, yeni düşüncəyə təsir etmək niyyətindən irəli gəlirdi. 1976-cı ilin mayında Azərbaycan yazıçılarının VI qurultayında deyirdi: "Azərbaycan ədəbiyyatı... çoxəsrlik tarixi «Kitabi-Dədə Qorqud» kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişəcanlı nümunələri ilə zəngindir".

Xalqın milli dəyərlərinin dirçəlişindən başlayırdı Heydər Əliyev və bu istiqamətdə seçdiyi hədəflər, ünvanlar da dəqiq, çəkili və sərrast idi. Böyük sənət abidələri, böyük söz ustadları, böyük söz sərrafları... Bütöv Azərbaycanı yaratmaq, qurmaq missiyası bu "güc"lərin birliyindən, xalqa qayıdışından başlayırdı. Və bir də bütöv, yekparə Azərbaycan ədəbiyyatı anlayışının özündən... Heydər Əliyevin Cənub ədəbiyyatı mövzusuna həssaslığının mayası bu amaldan nəşət tapırdı. Onun təşəbbüsü ilə Yazıçılar İttifaqında Cənubi Azərbaycan üzrə katiblik yaradılmış, Balaş Azəroğlu da bu sahəyə rəhbərlik etmək üçün Yazıçılar İttifaqının katibi seçilmişdi. Eləcə də ilk dəfə olaraq Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə açılmış, Cənubi Azərbaycan ədəbiyyatının araşdırma mərkəzinin təməli qoyulmuşdur. "Cənubi Azərbaycan ədəbiyyatı milli sərvətimizdir" məqaləsində Teymur Əhmədov yazır ki, "Mirzə İbrahimovun ürəyində bəslədiyi nisgilli arzusunu rus sovet imperiyasının hakimiyyəti dövründə demokratik ab-havanın hiss olunduğu 70-80-ci illərdə rəsmi qadağaların mövcud olduğu şəraitdə həyata keçirmək olduqca müşkül idi. Lakin ölkə başçısı Heydər Əliyev müdrik alim-yazıçı Mirzə İbrahimovun təşəbbüsünü bəyənib, onun Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərkibində Cənubi Azərbaycan şöbəsini yaratmasına rəsmi göstəriş verdi".[1]

---

[1] Teymur Əhmədov. Cənubi Azərbaycan ədəbiyyatı milli sərvətimizdir. // "Respublika" qəzeti, 2017, 3 dekabr

Azərbaycan Milli Məclisinin deputatı, yazıçı-publisist Elmira Axundovanın altıcildlik "Heydər Əliyev: Şəxsiyyət və zaman" adlı kitabının ikinci hissəsində Azərbaycanın keçmiş xarici işlər naziri Vilayət Quliyevin də xatirələrinin yer aldığı belə bir epizodla qarşılaşırıq: "...Ali dini rəhbər Heydər Əliyevi mərasim zalının girişində qarşılayıb, ikiəlli görüşdü. Aralarında Azərbaycan dilində söhbət başlandı. Həm İran nümayəndə heyəti, həm də biz sakitcə dayanıb söhbətə qulaq kəsilmişdik.

Hal-əhval tutandan sonra Heydər Əliyev Xamneyidən soruşdu:

- Yaxşı, Xamnədə (Təbriz yaxınlığında, Xamneyinin doğulduğu kənd – red.) nə var, nə yox?

- Sən Xamnəni də bilirsən? – deyə İranın ali dini rəhbəri təəccübləndi.

- Əlbəttə, tanıyıram. Xamnə çox məşhur yerdir".

Maraqlıdır ki, Heydər Əliyev haqqında ilk şeiri Cənublu şair Bulud Qaraçorlu Səhənd yazmışdır. Heydər Əliyevin SSRİ dövründə təhlükəsizlik orqanlarında çalışan zaman Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi istiqamətində və orda milli qüvvələrlə birgə işi barədə məlumat o qədər də geniş yayılmamışdır. Hər halda 1944-1945-ci illərdə Cənubi Azərbaycanda baş verən milli azadlıq hərəkatında, siyasi və ictimai təşkilatların yaradılmasında, müstəqillik ideyalarının formalaşmasında bu zaman artıq dövlət təhlükəsizliyi sahəsində çalışan gənc Heydər Əliyevin iştirakı bioqrafları tərəfindən qeyd olunur. Marağalı şair Bulud Qaraçorlu Səhəndin (1927-1979) 1974-cü ildə Heydər Əliyevə ünvanladığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" adlanan şeir məktub formasında yazılıb:

*Ustadım Vurgundan söz dilənərək*
*Qoy belə başlayım şerimi, nolar,*
*O dahi sənətkar söylədiyitək*
*"Mən çocuq deyiləm, xeyli yaşım var".*
*Ömrümdə çox isti-soyuqlar görüb,*
*Başımda bostanlar əkərkən həyat,*
*Çətinliklər mənlə bacarammayıb,*
*Yolumu kəsəmməz qara zülumat.*
*Hər ağır dəhşətə mən dözə-dözə,*
*Məsləkdaş, vətəndaş deyibən gəldim.*

*Ürək sandığını açmaqçın Sizə*
*Səfər yarağımı geyibən gəldim.*
*Dağlar boyda ağır dərdi özümnən*
*Təbrizdən Bakıya daşıdım, ancaq*
*Kimsəyə açmadım, ağır dözümnən*
*Hələlik lazımdır geri qaytarmaq.*
*Taledən gileyli olmayam gərək,*
*Ellərimi gördüm, gözlərim aydın!*
*Nəsibim olmadı, ancaq nə etmək?!*
*İstərdim Bakıda SƏN də olaydın.*
*Hamıdan dinlərkən vəsfini Sənin,*
*Heyf ki, görüşmək qismət olmadı.*
*Bisütunlar çapdım mən Fərhad təkin,*
*Ancaq ki, su gəlib arxa dolmadı.*
*Mən istərdim doğma bir qardaş kimi*
*Oturub, əyləşib danışam Sənlə*
*Bir məsləkdaş kimi, bir yoldaş kimi*
*Söz-söhbət açaydım ana Vətəndən.*

1970-ci illərin ortalarında yazılan bu məktub-şeir Cənublu şairin Heydər Əliyevin şəxsində öz məsləkdaşını görməsi ilə əlaqədar idi. Ən azı məlum idi ki, Heydər Əliyev sovet vətəndaşı olmaqdan çox, bir azərbaycanlı olaraq fəaliyyət göstərirdi. Bu istiqamətdə onun fəaliyyətinin əsasını Cənubda yaşayan azərbaycanlıların milli kimlik şüurunu oyatmaq, Cənubi Azərbaycanın problemlərinə nüfuz etmək, ana dildə dərsliklər nəşr etmək, Azərbaycan dilində qəzetlər çap etmək, milli dildə şeirlər və əsərlər yazan yerli ziyalıları dəstəkləmək və s. məsələlər təşkil edirdi. Cənubi Azərbaycan problemi Heydər Əliyev üçün daim prioritet məsələ olmuşdur. 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində Cənub ədəbiyyatı ilə bağlı məqamları həssaslıqla ədəbi yaddaşın dövriyyəsinə daxil edirdi: "Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

Hakimiyyətdə olduğu zaman kəsimlərində Heydər Əliyev Azərbaycanın mənəvi reallığı üçün böyük siyasətçi, dövlət adamı olaraq həm də ədəbiyyatlaşan obrazı ilə göz önünə gəlir. Bu obraz

ədəbiyyat üçün konkret nəyi ifadə edir? İlk növbədə, ədəbiyyata, poeziyaya sevgini. Onun çıxışlarında milli ədəbiyyatımızı gərəyincə bütöv duyub anlamaq səriştəsi vardı, prosesə yanaşma strategiyası heyrət doğururdu, bəhs etdiyi mövzularda problemlərin dərkini bilavasitə səmtləndirirdi. Və ən əsası, Azərbaycan ədəbiyyatı haqqında öz anlayışı, müşahidəsi, elmi qənaətləri olan bir şəxsin prosesə konseptual yanaşmaqdan hasilə gələn məntiqi ehtiva olunurdu. Heydər Əliyev ədəbiyyatın keçdiyi inkişaf qanunauyğunluğunu bilərək onun üzərində özünəxas konsepsiya qururdu. Bu çıxışlarda ədəbiyyatı həm tarixi inkişaf kontekstində, həm nəzəri prizmadan, həm də real nəticələrində dəyərləndirə, aparıcı ədəbi tendensiyalar işığına tuta bilirdi. Heydər Əliyev eyni zamanda ədəbiyyatda, poeziyada milli ahəng yaratmaqla bahəm, ümumbəşəri dəyərləri bir müstəviyə gətirmək kimi ümumfəlsəfi prizmadan çıxış edirdi. Çünki bilirdi, dilindən, dinindən, irqindən, təmsil elədiyi ictimai qurumdan asılı olmayaraq, hamını bir yerə toplayan bir ünvan var: Ədəbiyyat!

Maraqlı bir qanunauyğunluğa diqqət kəsilməyə ehtiyac var: ayrı-ayrılıqda bütün ədiblər, söz adamları ədəbiyyatda öz üzərinə düşən irili-xırdalı missiyanı realizə etməklə məşğuldurlar, amma ədəbiyyatın da öz növbəsində onu yaradanlar qarşısında öz öhdəliyi var sanki... Lazım olan məqamlarda o da bizləri bir yerə toplamağı bacarır. Və o şeyi ki, yazarlar əsrlər boyu mənəviyyat məsələsi kimi ədəbiyyatda daim önə çəkir, yəni insanların, Nazim Hikmət demiş, "bir orman gibi kardeşcesine" yaşamasını, çalışmasını təməl prinsipi kimi qabardır, ədəbiyyat bu işi səssizcəsinə yerinə yetirir. Uzaqdan-uzağa sözə simsarlıq edənləri başına cəm edib onlara Vətən olmağı bacarır. Bu mənada 1980-cı ilin 27-31 oktyabrında yazıçıların "Ədəbiyyatların dostluğu – xalqların dostluğudur" adı ilə keçirilən Ümumittifaq konfransında Heydər Əliyevin bütün dünyanı Bakıya cəm etməsi, onu hamı üçün Vətənə – ədəbi-bədii fikir məbədinə çevirməsi daha bir ali niyyətin göstərisi idi: “Dünya miqyaslı ədəbiyyat xadimlərinin 1980-cı ilin 27-31 oktyabrında keçirilən Bakı konfransı o vaxtlar üçün ənənəvi sayılan bir deviz altında təşkil olunmuşdu: “Ədəbiyyatların dostluğu – xalqların dostluğudur”. Məruzəçi Heydər Əliyev idi. Məhz həmin konfransdakı nitqi ilə Heydər Əliyev etnos-millət-bəşəriyyət bağlılığının harmoniyasına yeni istiqamətdə aydınlıq gətirdi. O, sadəcə nitq söyləmədi, Şərq – Azərbaycan mədəniyyətinin dünya üçün nadir sərvət olduğunu, mənəvi missiya da-

şıdığını qonaqlara məharətlə aşıladı. Mirzə Fətəli Axundzadənin "Şərq poeması"ndan, Səməd Vurğunun "Zamanın bayraqdarı" əsərindən parçalar söylədi – həm azərbaycanca, həm də rusca. Vyaçeslav Sukaçev, Aleksandr Smerdov, Vasili Bıkov, Aqniya Barto, Zoya Kedrina, kubalı və hindistanlı qonaqlar salondakı təntənəli sükutdan, tükənməz alqışlardan heyrətə düşmüşdülər. Yanaşı əyləşdiyim hindistanlı yazıçı Prakaş Bharti çətin danışdığı rus dilində mənə qəribə sual verdi:

- Vaş rukovoditel poet, ili prozaik?

Qonaq, ölkə rəhbərinin yazıçı olduğuna tam inanmışdı, indi isə onun hansı janrda yazıb-yaratdığını bilmək istəyirdi.

Heydər Əliyevdən sonra çıxış edən SSRİ Yazıçılar İttifaqının sədri Georgi Markov, daha sonra Rəsul Həmzətov, David Kuqultinov Heydər Əliyevin düşüncə, ümumiləşdirmə və natiqlik mədəniyyətindən fövqəladə məhəbbətlə danışdılar”.[1]

SSRİ xalqlarının 77 dildə yaranan ədəbiyyatının xadimləri və Asiya, Afrika, Latın Amerikası ölkələrindən gəlmiş görkəmli söz ustaları ilə birlikdə keçən bu görüş əsl ədəbiyyat bayramı kimi yaddaşlara həkk olunur. Məruzəni Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev özü edir. Xalqları bir-birinə yaxınlaşdırmağın, qardaşlaşmağın yollarından danışır. Jan Kozak (Çexoslovakiya Yazıçılar İttifaqının sədri), Pənçşiri Qulam Dəstəgir (Əfqanıstan XDP Siyasi Bürosunun üzvü, yazıçı), Beynəlxalq Lenin mükafatı laureatı Əbdürrəhman əl-Xamisi (Misir), Məhəmməd İbrahim əş-Şair (Fələstin), Anxel Auxyer (Kuba), Nquyen İqon (Vyetnam), Cay Prakaş Bhartn (Hindistan), Lenin Mükafatı laureatı Aqniya Barto, digər rus şairləri Roman Solntsev, A.L.Barton, yazarlar Aleksandr Smerdov və Vyaçeslav Sukaçev kimi ciddi imzaların iştirak etdiyi bu konfrans elə adından da məlum olduğu kimi, xalqların və ədəbiyyatların dostluq rəmzinə çevrilir. Nə olsun ki, ayrı-ayrı dillərdə baş tutdu bu təmas. Əsas olan ruhların ortaq müstəvidə kəsişməsi, bir-birindən ilham alması idi.

Həmin tədbirin iştirakçısı olmuş ədəbiyyatşünas-alim İmamverdi Əbilovun 1980-ci ildə çap olunmuş “Könüldən könülə yollar

---

[1] İmamverdi Əbilov. “Dünənin... sabahın... çağdaş dahisi”. Bakı: “Nurlar” nəşriyyatı, 2007, s.19-20

görünür" məqaləsində oxuyuruq: "Konfrans iştirakçıları bir nəfər kimi az istirahət edib çox işləmək, yəni gəzmək, görmək, danışmaq, eşitmək istəyirdilər. Çünki hamı ev sahibinə dönmüşdü. Planetimizin üç qitəsindən gələn söz sərraflarının ifadəsi ilə bu xoş səlahiyyəti onlara ədəbiyyatımızın ürək dostu Heydər Əliyevin məruzəsindəki güclü məntiqlə zəngin mündəricə, bir də Azərbaycan xalqının oyatdığı emosiya bəxş eləmişdir. Ümumittifaq konfransı münasibətilə partiya və hökumət rəhbərliyinin «Gülüstan» şadlıq sarayında düzəltdiyi qəbul ünsiyyət, məhəbbət, dostluq və qardaşlığın real təntənəsinə çevrildi. Georgiy Markovun səsində ehtiramdan vəcdə gəlmiş nəcib adamlara məxsus bir titrəyiş vardı. Qonaqpərvərliyə, mehribanlığa və ali ədəbi məclisin gözəl təşkili üçün dərin təşəkkür yetirən G.M.Markov həyatdan doğan ədəbi problemlərin müzakirəsinə yüksək qiymət verib dedi:

- ...Bizə Azərbaycanın gözəl xalqı, qəhrəman əməkçiləri ilə görüşmək səadəti nəsib oldu. Bu görüşlər hafizəmizdən və qəlbimizdən uzun müddət silinməyəcəkdir. Sizin xeyirxahlığınız, səmimi qonaqpərvərliyiniz hamımızı ruhlandırdı. Mən əminəm ki, bir çox yazıçılar bu hisslərə qəlblərinin hərarəti ilə, özlərinin yaradıcılığı ilə cavab verəcəklər.

Qəbulda hamı tərəfindən mehribanlıqla, hərarətlə qarşılanan Heydər Əliyev yoldaş mənalı çıxışla Bakı konfransının rol və məzmunundan, beynəlxalq əhəmiyyətindən danışdı. Onun çıxışı yazıçılar, xarici qonaqlar, mədəniyyət və elm xadimləri tərəfindən böyük maraqla qarşılandı. Heydər Əlirza oğlu Əliyev yoldaşın mehribanlıqla dediyi sözlər bütün iştirakçıları əfsunlamışdı".[1]

Bütöv ədəbiyyat kontekstindən baxanda əsl sənətin və sənətkarın vətəni olmur. Çünki harda yaranmasından asılı olmayaraq, bütün ədəbiyyatları eyni hiss, duyğu birləşdirir, əsl ədəbiyyat həmişə bəşəridir, ümumi maraqların, ortaq mədəniyyət və mənəviyyatların kəsişdiyi yerdədir. Bu konfrans həm də taleyin bizim üçün ayırdığı bir şans idi, Azərbaycanın beynəlxalq aləmə çıxışında, dünyaya tanıdılmasında, onunla başqa dövlətlərin arasında, çoxcəhətli elmi-ədəbi, mədəni əlaqələrin inkişafında böyük önəm daşıyırdı. Söhbət dünya ilə qurulan ünsiyyət və təmas körpüsündən, Bakını cari ədəbi-mənə-

---

[1] İmamverdi Əbilov. Könüldən könülə yollar görünür. // "Azərbaycan müəllimi" qəzeti, 21 noyabr 1980

vi məkana çevirmək amacının gerçəkləşməsindən gedir. Onun baş tutması, gerçəkləşməsi birbaşa Heydər Əliyevin ədəbiyyat sevgisinin gücü idi. Ədəbiyyata, poeziyaya bəslədiyi dərin münasibət, onu xalqın və dövlətin inkişafında əsas oriyentir hesab etməsi nəticə olaraq bu sahələrin də təşəkkülünə böyük stimul verirdi. Ədəbiyyatda əbədiləşən etnik kodun və psixoloji arxetiplərin üzə çıxarılması, dəyərləndirilməsi davamını çağdaş əxlaqa, mənəviyyata xidmət edən sənətdə tapır, bu dövr ədəbiyyatında yazıb-yaradan qələm sahiblərinə ruhsal-mənəvi enerji aşılayırdı. Ona görə Heydər Əliyev epoxasında yaşayıb-yaradan şair və yazıçılar birmənalı şəkildə böyük lideri ədəbiyyatın hamisi sayır, Heydər Əliyevin siyasətdən başqa bir də ədəbiyyatlaşan obrazını fakt olaraq etiraf edirdilər:

"Bu imkanı bizə Heydər Əliyev yaratmışdı və onun dəstəyini, yardımını, başqa nəsildaşlarım kimi mən də daima hiss eləmişəm" – bu sözləri Anar 18 may 1998-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Şəxsiyyətin miqyası" adlı məqaləsində yazır.

Elçinin 1995-ci ildə qələmə aldığı "Tarixlə üz-üzə dayanmış adam" məqaləsində oxuyuruq: "...altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin bir qələm sahibi kimi formalaşması yetmişinci illərə təsadüf etdi və bütün bu illərdə Azərbaycan ədəbiyyatı və ümumiyyətlə, Azərbaycan mədəniyyəti ilə bilavasitə Heydər Əliyev arasında mənəvi və mən deyərdim ki, məhrəmanə bir körpü yarandı.[1]

Şair Nəriman Həsənzadənin xatirələrində dönə-dönə vurğulanır: "Heydər Əliyevin adı bizim üçün ilk növbədə ədəbiyyata sevgini, qayğını ifadə edir. Onun ədəbiyyatdakı xidmətini saymaqla qurtaran deyil. Yazıçılar, şairlər onun həmişə diqqət mərkəzində, himayəsində idilər. Yubileylər, mükafatlar, yazıçını şərdən, böhtandan qoruma halları, istedadlı hər kəsin dəyərini vermək kimi cəhətlər Heydər Əliyevin xarakterində başlıca yer tuturdu. Yazıçı hiss edirdi ki, onun yiyəsi var. Çünki Heydər Əliyev xalqın yiyəsi idi. Və bu xalqın heç bir istedadlı sənətkarı onun diqqətindən kənar qalmırdı".[2]

İsmayıl Şıxlının çıxışlarında Heydər Əliyevin ədəbiyyat sevgisinə heyrəti yer alır: «Heydər Əliyev yoldaşın bizə, Azərbaycan yazıçılarına, klassik irsimizə xüsusi qayğı ilə yanaşması, Nizami, Mirzə Şəfi irsinin öyrənilməsinə, Nəsimi, Səməd Vurğun kimi sənət us-

---

[1] Elçin. Tarixlə üz-üzə dayanmış adam // "Tənqid.net" jurnalı, 2013, № 10, s.15

[2] Nəriman Həsənzadə. Mənim ədəbi taleyim (Zamanla, tarixlə görüş). Bakı: 2013, s.23-25

talarımızın geniş yubileylərinin keçirilməsinə xüsusi əhəmiyyət verməsi bizi sevindirməyə bilməz. Heydər Əliyev yoldaş düz bir həftədir ki, böyuk dövlət və təsərrüfat işlərindən ayrılıb ancaq bizlə – yazıçılarla məşğul olur, – desəm, mübaliğəyə yol vermiş olmarıq».[1]

Nəbi Xəzri poeziyanın üfüqlərini Heydər Əliyevin qayğı və himayəsində aradığını bəyan edir: "Şüvəlandakı yaradıcılıq evinin açılışında Heydər Əliyev yoldaşın yüksək qayğı və humanizmin təzahürü olan açıq, mehriban, səmimi, prinsipial söhbətini, tövsiyələrini, məsləhətlərini xüsusi qeyd etməliyik. Heydər Əliyev yoldaşın sadəliyi və müdrikliyi, dözümü və səbri, valehedici yaddaşı, ürəklərdən keçənləri mahir bir sənətkar duyğusuyla oxumaq məharəti hamımızı qanadlandırır və ruhlandırır".[2]

Heydər Əliyev bu qayğı və diqqətini elə sovet imperiyasının daxilində – ən yüksək postda əyləşərək, ən əzəmətli kürsüləri bölüşərək, ən mötəbər tribunalardan səslənərək gerçəkləşdirirdi. Xalqın itirilən milli-mənəvi yaddaşını özünə qaytarmaq məramı uğrunda vuruşurdu. Heydər Əliyev sovet ideologiyasının müdaxilə etdiyi, incə bir siyasətlə həyata keçirdiyi məsələlərin – xalqın öz soy-kökündən, milli müəyyənliyindən, inancından qoparılması kimi gerçəklərin mahiyyətinə enir, buna qarşı elə həmin siyasətdən istifadə edərək, əksinə, milliləşmə strategiyasını həyata keçirirdi.

## Heydər Əliyevlə əbədiləşən klassika

Heydər Əliyev elə bir zamanda hakimiyyətə gəldi ki, aldanış, sovet hökumətinin şirin yalanlarının üzə çıxması prosesi başlamışdı. 1960-1970-ci illər bu mənada həm də sənətdə dekadans çalarların önə keçdiyi mərhələdir. Yazıçı üçün sənətlə özü arasındakı yalan səddi aşınmaya doğru yol almaqda idi, uzun illərin susqunluğundan sonra ədəbiyyatda fərdi insan amili ədəbi dövriyyəyə gətirilirdi. Bunlar Heydər Əliyevin ədəbiyyata, sənətə münasibətinin bəhrəsi idi, yazıçı onun sayəsində özünü güvənli, arxalı hiss edirdi, hiss

---

[1] Bax: Yaşar Qarayev. "Müstəqillik dövrünün milli öndəri"// Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Elm,1998, s.149

[2] Fitri istedadı fədakarlıqla, xalqına, millətinə sədaqətlə birləşdirən sənətkar yüksək zirvələr fəth edir. Xalq şairi, görkəmli ictimai xadim Süleyman Rüstəmin 90 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Xalq şairi Nəbi Xəzrinin çıxışı. // "Ədəbiyyat qəzeti", 3 aprel 1998

edirdi ki "ədəbiyyatın yiyəsi var", bu əminlik ona cəsarət və həqiqət hissi aşılayırdı.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başladı. Həmin mərhələ bilavasitə xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Adil Babayev yazır ki, "Şərqin ən böyük dastanı olan "Kitabi Dədə Qorqud"u adi döyüş əsəri kimi qiymətləndirirdilər və onun araşdırılmasının qarşısını alırdılar. Amma milli-mənəvi dəyərlərimizi, dilimizi sovet dövründə tamamilə sıradan çıxarmaq məqsədi qoyulsa da, reallaşdıra bilmədilər. Heydər Əliyev abidənin millətə qaytarılmasında böyük işlər gördü".[1]

Eləcə də böyük Azərbaycan şairi İmadəddin Nəsimi ilə bağlı Heydər Əliyevin gerçəkləşdirdiyi işlər bu şairin irsinin yeni təfəkkür qatına, milli şüur və yaddaşa bədii-estetik çalar qatmasını izləməyə imkan verir. Həmin vaxta qədər Nəsimi "Divan"ı yalnız bir dəfə, görkəmli ədəbiyyatşünas Salman Mümtaz tərəfindən, 1926-cı ildə ərəb əlifbası ilə çap olunmuşdu. 1972-ci ildə türkmən ədəbiyyatşünası Qullayev həmin "Divan"ın dili üzərində müəyyən türkmənləşmə əməliyyatı apararaq yenidən çap etdirmiş, şairi türkmən ədəbiyyatının klassiki kimi təqdim etmişdi. Ancaq Heydər Əliyevin müdaxilə və müqaviməti nəticəsində bu saxtalaşdırma siyasəti uzun çəkmir, rəsmi dairələrdə tanınmasına yol verilmir və şairi Azərbaycan ədəbiyyatının dəyərli klassiki kimi tanıtmaq, təbliğ etmək yönündə davamlı tədbirlər planı start götürür. Heydər Əliyevin sərəncamı əsasında 1973-cü ilin 13 sentyabrında İmadəddin Nəsiminin 600 illik yubileyi keçirildi. Elə həmin il Həmid Araslının tərtibatı ilə Nəsiminin divanı çap olundu. Bütün ölkə Nəsimi əhval-ruhiyyəsində oldu, şairin şəkli həmin dövrdə çap olunan bütün ölkə qəzetlərinin loqosuna çevrildi. Nəsimi haqqında verilən bu sərəncam Nəsiminin ölkə miqyasında tanınmasına və təbliğinə yol açdı. Şairin əsərləri ingilis və fransız dillərinə tərcümə edildi, haqqında xarici ölkələrin və beynəlxalq təşkilatların mətbuat orqanlarında bir neçə məqalə çap olundu. YUNESKO-nun «Kuryer» jurnalında Nəsimi haqqında məqalə dərc edildi. Heydər Əliyev Nəsiminin yubileyinin təkcə Bakıda deyil, Moskvada da keçirilməsinə nail oldu. 1980-ci ilın fevral ayında Bakının mərkəzi parklarından birində Nəsiminin abidəsi qo-

[1] Bax: Repressiya: gizlin və gerçəkləri ilə. // "Ədəbiyyat qəzeti", 20 yanvar 2018

yuldu və heykəlin açılış mərasimində şəxsən özü iştirak etdi. Beləcə, Nəsimini milli ədəbi-tarixi yaddaşdan çıxdaş etmək niyyətinin qarşısı böyük siyasətçi tərəfindən alındı.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin irsinə də Heydər Əliyev münasibəti konseptual səciyyə daşıyırdı. Məhz onun təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə kompleks vəzifələr irəli sürərək, Nizami irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri ustad sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan verməmişdir.

Nizami Gəncəvi ilə bağlı zamanında atılmış mütərəqqi addımlar yalnız Heydər Əliyev siyasətinin layiqli davamçısı, ölkə prezidenti İlham Əliyev tərəfindən davam etdirilmişdir. 23 dekabr 2013-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək, yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması, dövrü, ədəbi irsi və məktəbi problemlərinin müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiq olunması məqsədilə Nizami Gəncəvinin 870 illik yubileyinin layiqincə keçirilməsi haqda sərəncam imzalamışdır.

Heydər Əliyevin gerçəkləşdirdiyi əməllər sırası birbaşa insan amilinin önə keçməsinə xidmət edirdi. Poeziyaya münasibətdə də böyük liderin amalı məhz insanı, xalqı, toplumu özünə qaytaran, onun tarixdə, dünya prosesləri içində görünməsinə, var olmasına xidmət edən əməlləri ilə ölçülməlidir. Heydər Əliyev Nizaminin yubileyinin keçirilməsi haqqında sərəncam verirdi, müxtəlif tədbirlər keçirilirdi, tədqiqatlar meydana çıxırdı. Qərb ədəbiyyatında XV əsrdə qabaran insan amili bizim milli ədəbiyyatımızda hələ XII əsrdə Nizaminin poemalarında konsepsiya səviyyəsindədir. 1980-ci illərdə – ədəbiyyatın Nizami irsinə müraciətinin zəminində şairin yara-

dıcılığında ehtiva olunan insan konsepsiyasının bütövlüyü dururdu. Heydər Əliyevə görə, Nizami Gəncəvi böyük şairdir, ona görə ki, yaradıcılığında lokal xarakterli məsələləri deyil, bütün bəşər miqyasında düşündürən problemləri ehtiva edə bilmişdir. Bədiiyyatın daim aparıcı mövzusu olan insana, onun daxili aləminin təkamülünə vara bilmişdir. O, Nizami yaradıcılığına özünü idraka, qlobal rifaha aparan müqəddəs, mənəvi mehrab kimi yanaşmışdır. Heydər Əliyevi o zaman düşündürən bütün məsələlərin – əqli-mənəvi intibahın, milli-bəşəri dəyər və beynəlmiləl sərvət axtarışının müasir mərhələsi Nizami əsərlərində miqyas və məzmun gerçəkliyi ilə təsdiqini tapırdı. Bu məqamla bağlı Xəlil Rza Ulutürkün "Gündəliyində" əhəmiyyətli bir epizod yer alır:

"Xəmsə" yaradıcısının anadan olmasının 840 illiyi bayramı keçiriləndə böyük qazax şairi Oljas Süleymenovun verdiyi sual yadımdadır:

- Ustad, axı 840 yuvarlaq rəqəm deyil, niyə tələsirsiniz?

- Tələsməyimiz əbəs deyil. Biz Nizami ilə bəşəriyyəti qovuşdurmağa tələsirik. Nizami elə bir sənətkardır, elə bir dahidir ki, hər il bayramını keçirməyə dəyər".[1]

1982-ci ilin 15 yanvarında Şuşada Molla Pənah Vaqif məqbərəsinin açılışı Heydər Əliyev üçün əbədiləşən tarixi yaddaş baxımından əhəmiyyətli idi: "Heydər Əliyev 1982-ci ilin 15 yanvarında Şuşada Qarabağ torpağının bağrına Vaqif məqbərəsini Azərbaycanın daş pasportu olaraq sancmışdı. Azərbaycan tarixi ilə Şuşanın daşlaşmış, mərmərləşmiş, əbədiləşmiş irtibatı idi Vaqif məqbərəsi".[2]

Heydər Əliyev milli varlıq üzərində daha çox düşünürdü, milli statusu əlindən alınmış xalqın özünəqayıdışının yollarını arayırdı. Üzərinə düşən missiya çətin idi. O, fəaliyyətinə qırılmış xəttin, güdaza verilmiş dəyərlərin, itirilən meyarların bərpası kontekstində başladı. Ona qədər mövcud olan xaotik durumun rəvac verdiyi neqativlər sonucda ən böyük zərbəni insana vurmuş, onunla zamanın, mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasındakı əlaqənin pozulmasına gətirib çıxarmışdı: qlobal tənhalıq insanın özgələşməsini, özündən ayrılmasını, yadlaşmasını şərtləndirmişdi. Bu mənada, sovet rejiminin İnsanı yalnız müharibələrin əzdiyi insan deyildi, o, həm də tək

---

[1] Xəlil Rza. "Gündəlik". 2 may 1993-cü ildə Heydər Əliyev haqqında yazdığı bir parça.// "Ədəbiyyat qəzeti", 9 oktyabr 1998-ci il

[2] Azər Turan. Azərbaycanın gücü. // "Yeni Azərbaycan" qəzeti, 2000, 26 yanvar

qalmış, təcrid olunmuş, cəmiyyət tərəfindən sıxışdırılmış, yadlaşmış, çarəsiz insan idi. 1970-ci illərdən başlayaraq, baş verən proseslərin mahiyyəti, yaddaş strukturunda yer almış görüntülərin bərpası ilə çağın insanının düşüncəsi arasında dialoq bədii təfəkkürə yansımaya bilmədi. Bu illərdə yaranmış əsərlər artıq cəmiyyət həyatına oppozisiyada meydana gəlirdi. Sənət artıq həqiqətlərin yaşamını verməyə, bədii qəhrəmanın mənəvi dünyasına varmağa çaba göstərirdi. Sovet dövrünün tələbləri tamam özgə hava-havacat üstə köklənsə də, 1960-1970-ci illərdə artıq sosial gerçəklərin təsviri əks qütbdə meydana çıxırdı. Bu toqquşma əsərlərin forma və məzmununda çoxqatlılığa gətirib çıxarırdı. Əsərlərdə bədii ideoloji rakurs öz yerini daha çox insanın və onun həyatının dərinliklərinə varan süjetlərə verir, bununla da sənətin neçə onillik ərzində qurama illüziyalar içrə aldanışı üzə çıxırdı. 1970-ci illərdən başlayaraq ümidlərin yalanlar önündə fiaskosu nəticələrini verdi: milli ədəbiyyat, milli dil məsələləri önə keçdi, elm və ədəbiyyat xadimləri daha çox milli maraqlar üzərində köklənməyə cəhd göstərdilər.

Bu təbəddülatı ədəbiyyata Heydər Əliyev qazandırmışdı. Onun ədəbiyyatda gerçəkləşdirdiyi işlər, klassiklərə qayıdış, milli ədəbiyyata güvənc hissinin qabarıqlığı sistemin yaratdığı Mif anlayışını yazıçı düşüncəsində heçə endirir, onun tənəzzülünü labüdləşdirirdi. İslahatlar ədəbi-mədəni həyatımızın bütün sferalarına sirayət etdikcə, milli mənlik şüuru önə keçir, milli məfkurə işığı dalğalanmağa başlayırdı. Bu mənada, 1990-cı illərdə insanların öz azadlığını qazanması üçün meydana axışması, haqqını geri almaq təşnəsi birmənalı təfsirə gəlmir, onun kökləri bir qədər dərinlərə işləyib mövcudluğunu iki onillik əvvəldə, Heydər Əliyev dühasının imkan verdiyi azad söz zamanında, sovet ədəbiyyatı daxilində yaranmağa cəsarət etmiş hürr duyğulu, millət problematikalı poeziya mətnlərində tapır. Bunu meydanda olan faktlar deyir: Nəriman Həsənzadə "Heydər Əliyevin şəxsində mən "Bütün Şərq bilsin" pyesinin qəhrəmanını, Nəriman Nərimanovun prototipini görürdüm", – yazır,[1] Qabil qeydlərinin birində "Ömür həbləri" romanında Heydər Əliyevin də obrazını düşündüyünü bildirir. Mövlud Süleymanlı "Dəyirman" povestinin 70-ci illərin sağlam, duru, doğma ab-havanın məhsulu kimi meydana çıxdığını və üstəlik əsərlə bağlı "Azərbaycanı bürüyən"

[1] Nəriman Həsənzadə. Mənim ədəbi taleyim. Bakı, 2013, s.12-13

hücumdan onu Heydər Əliyevin qoruduğunu dilə gətirir.

"Yaxud "İdeal" müəllifi İsa Hüseynovun mətbu etirafı yadıma gəlir; İdealı yazanda Heydər Əliyevi düşündüyünü söyləyir. Bu məqam Bəxtiyar Vahabzadənin Şair mövqeyində dönə-dönə, habelə Məmməd Arazın etirafında var; Xəlil Rza şeirinin odlu nəfəsi bu məqama toxunur... Maqsud İbrahimbəyov xalqın xilaskar oğlu haqqında hələ dünən mətbuat bataliyalarına girmiş... Elçinin televiziya ilə il öncəki müsahibəsi "mənim tanıdığım Heydər Əliyev" məxrəcində isti təəssürat və müşahidələrini bizimlə bölüşür... Yaşar Qarayev son yazılarından birində tarixi həqiqətləri ümumiləşdirərək: Dədə Qorqudun, Nizaminin, Füzulinin, Ələkbər Sabirin, Mirzə Cəlilin, Əli bəy Hüseynzadənin, Hüseyn Cavidin ... gördüyü işlərin vəhdətini, əməli gerçəkliyini Heydər Əliyev dühasında tapır. Bütöv bir epoxa Azərbaycan ədibləri bunu deyir; bu məqamdan keçib durulur, özü olur; söhbət ötən əsrin ikinci yarısı, 60-cılar, neomaarifçilər Zamanından gedir..."[1]

## Poeziyanın Allaha dönüşündə Heydər Əliyev məqamı

Bu gün poeziyada etiraf ediləsi bir məqam var. Ədəbiyyatın, poeziyanın Allah obrazına qayıdışı, onu dərin çalarlıqda mətnə gətirmək meyilləri məhz Heydər Əliyev siyasətinin gücüdür. Bildiyimiz kimi, sovet ideologiyasının hökmfərma olduğu illərdə, özəlliklə 1920-1930-cu illərdə Tanrıya, dinə, müqəddəs kitaba münasibətdə nihilist mövqe sərgiləyən mətnlər, yanaşmalar ortaya qoyulurdu. Dünya kontekstindən yanaşanda bu, Qərb düşüncəsində mövcud, getdikcə möhkəmlənən Tanrısızlıq, insanın fərdi duyğularının önə çəkilməsi, yalnız özünə istinadetmə dalğasının bir təzahürü olaraq qabarırdı. Lakin 1920-1930-cu illərdə Tanrıya qarşıçıxma ədaları yalnız bununla bağlı deyildi, proletkultçuluğun yarıtmaz tələblərindən biri idi. Dinin tiryək kimi qadağasına başlanmışdı və proses yalnız islam dini ilə bağlı aparılmırdı, rus xalqının özünün dini dünyagörüşünə də qarşı çevrilmişdi. Sovet rejimi Allahı, dini ironiya, inkar predmetinə çevirməklə guya ki, mövhumatın kökünü kəsməyə cəhd edir, maarifləndirici təbliğat aparırdı. Əslində, səbəb başqa idi. Deyək ki, Şərq insanı üçün Allah məfhumu möhkəm özüllü istinad-

---

[1] Tehran Əlişanoğlu. Azərbaycan, Azərbaycan. Bakı: "Nurlan", 2005, s.88-89

gahlardan biri sayılırdı və ona qarşı çıxmaq tələbi xalqın milli-mənəvi dəyərlərinə, “Quran”ına, “Kitabi-Dədə Qorqud”una, əlifbasına, milli kimlik və keçmişinə atılan daş qədər vacib sayılırdı. Tanrısından, müqəddəs kitabından və keçmişindən qoparılan xalqı və milləti isə diz çökdürmək asan idi. Milli poeziyada bu tendensiyanın əlamətləri 1940-cı illərə qədər davam etdi. Düzdür, o zamana qədər də müəyyən istisnalar nəzərə çarpırdı. Deyək ki, 1937-ci ildə yazdığı “Səadət nəğməsi” şeirində “Xəbərdar eyləyin Ərəbistanı/ Ocaqda yandırdı anam Quranı”, yaxud “Ayrılmış qoca Şərq təvəkkülündən...”, – yazan Səməd Vurğun eyni ildə yazdığı “Vaqif” dramında Vidadinin dili ilə Allaha səslənir, insanlığın düçar olduğu fəlakətlərdən qurtuluş üçün ona üz tuturdu: “Xudaya! İnsanın halı yamandır/ Nələr çəkdiyimiz sənə əyandır!”. Qırıq-qırıq gözə dəyən belə münasibətlər 40-cı illərin sonlarından başlayaraq poeziyada nəzərə çarpmağa başladı. Bu qorxunun aradan çıxmasında müharibə amilinin böyük rolu oldu. Müharibəyə yaxınını yola salan, yaxud onun itkisi ilə üzləşən insan Allaha ümidini, duasını, yalvarışını ünvanlayır, onda ovunur, təsəllisini tapırdı. Artıq ümumxalq etiqad səciyyəsi daşıdığından dövlət bu münasibətə o qədər də dərindən nüfuz edə bilmirdi. Amma bu, insanla Tanrı arasında fərdi hisslərin önə keçdiyi zaman deyildi. Şairlərin Tanrı ilə münasibətlərinin məhrəm müstəviyə adlaması prosesi sonrakı onilliklərdə – 1960-1980-ci illər poeziyasında mümkün oldu. Bunun üçün bircə səmimi müraciət kifayət etdi: “Mən burdayam, İlahi!” (Vaqif Səmədoğlu).

1960-cı illərin sonlarından başlayaraq poeziyanın Allaha münasibətində cəsarət və doğmalıq, ərk və məhrəmlik önə keçir. Bəxtiyar Vahabzadənin hələ 1969-cu ildə yazdığı “Ay Allah” şeirində oxuyuruq:

*Mən ki deməmişəm heç «mənəm-mənəm»,*
*Allah, mən ki sənin aciz bəndənəm.*
*Çəkmə nəzərini bir an üstümdən*
*Fikrim düyün düşüb dolaşmışam mən*
*Bu müşkül düyünü vuran sən oldun.*
*Qaranlıq könlümə işıq saç, Allah,*

***

*Əgər qar yağırsa...*
*Yaxşı bax ona.*

*O, yerdə qar olub, göydə qar deyil.*
*Nadan nə bilsin bu dünyamızda*
*Hər gözə görünən hələ var deyil.*
*Bir nöqtəyə dönür ötəri qəm də*
*Bəzən bu dünyanın uzunu, eni.*
*Özümü tanıya bilməməyimdə*
*Tanıdım, ey Allah, tanıdım səni!*

***

*Niyə çağırıram mən səni tez-tez*
*Sən ki, içimdəsən hər zaman, Allah.*
*Ağıldan xəbərsiz, başdan xəbərsiz*
*Yuxumda danışan ağlımsan, Allah.*

Yaxud 1980-ci illərin əvvəllərində Bəxtiyar Vahabzadənin yazdığı "Fəryad" pyesində Allaha müraciətin xəfif qatına keçilir, Tanrı ilə bağlı hər cür sakral düşüncələr praqmatik müstəviyə adlayır, öz motivasiyasını şairin "insanlıq" fəlsəfəsində tapırdı.

*İdrakda yol açmış gecədən gündüzə Allah!*
*Güldürməsən öz könlünü gülməz üzə Allah!*
*Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş.*
*Qəlbin gözü yanmazsa görünməz gözə Allah!*

Bu düşüncə poeziyasının intişarına imkan verən Heydər Əliyev idi. Tanrısını tanıyan millətin özünü tanıması, milli azadlığını təmin etməsi daha asan reallaşa bilərdi. Ona görə Heydər Əliyevin bu dönəmdəki fəaliyyətindən heyrətlənmədən bəhs etmək olmur. Milli siyasi lider bir tərəfdən şairləri qadağan olunmuş mövzularda yazmağa, əsərlər meydana qoymağa ruhlandırır, digər tərəfdən onları sovet ideologiyasının həmlələrindən qoruyurdu.

Türkiyənin tanınmış ictimai xadimi Kamal Akın qeyd edir ki, "Heydər Əliyev Sovet İttifaqının tarixində uzun illər sovetlər rejiminin, Kremlin zirvəsində oturmuş yeganə türkdür". Bir aydınlatmaya ehtiyac var, zənnimcə: həm də türk kimi türk olub Heydər Əliyev. Milli müstəqillik dönəmində bu, bəlkə o qədər də cəsarət tələb edən nəsnə deyildi. Amma sovet epoxası daxilində bu mövqenin özündə böyük millət sevdası, vətən fədailiyi ehtiva olunurdu. Həmin illərdə Heydər Əliyevin həyata keçirdiyi çoxyönlü gerçəklər sırasını, həmin

fədailiyin miqyasını bu böyük şəxsiyyətdən bəhs edən bütün şəxslər etiraf etmişlər. Hüseynbala Mirələmovun "İşığın izi ilə" tarixi-ədəbi essesində oxuyuruq: "Heydər Əliyev Azərbaycanın mənəvi dünyasında doğulmuş, bu aləmi öz işığı ilə nura boyamış XX əsrin ikinci yarısında – bütün 50 il ərzində Azərbaycan xalqının tarixi taleyində çox böyük və əzəmi dərəcədə əhəmiyyətli rol oynamışdır. Ömrü boyu sərt və prinsipial mövqeyindən çəkinmədən sovet qoşunlarının diktaturası şəraitindən özünəməxsus ustalıqla bəhrələnərək xalqını qorumaqla onu dirçəltmək, onun inkişafını təmin etmək yolu tutmuşdur. Əslində, qeyri-real kommunizm ideallarının uğrunda mübarizəni real Azərbaycan uğrunda mübarizəyə çevirmişdir".[1]

Önəmli bir faktın – 1978-ci ildə Heydər Əliyevin səyi nəticəsində dəyişdirilmiş Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himni məsələsi üzərində dayanmaq istəyirəm.1945-ci ildə Səməd Vurğun və Süleyman Rüstəmin müəllifliyilə yaradılmış Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himninin sözlərinin müəllifləri cərgəsinə Hüseyn Arifin də qoşulmasıyla 1978-ci ildə yeni redaksiyada işlənildi. Qəribədir, Stalinin adı Azərbaycan himnindən məhz 1978-ci ildə çıxarıldı. "Rəhbərimiz Stalindir – bizim həyat növrağımız" – misrası Azərbaycan himninin mətnindən Stalindən 25 il sonra məhz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə çıxarıldı ki, bu da tarixi bir zərurətin göstəricisiydi. Təbiidir, əgər himnin sözlərində Stalinin adı keçirdisə demək ki, himnimiz 1956-cı ildən, Stalinin şəxsiyyətə pərəstişi ifşa ediləndən sonra oxunmayıb. Stalinin adının himndən çıxarılması ilə Himn yenidən dövriyyəyə qaytarılırdı və bu da müstəqil olmasa da, hər halda, respublika şəklini qoruyub saxlayan Azərbaycan üçün mühüm mənəvi əhəmiyyət kəsb edirdi.

Heydər Əliyevin bu illərdəki fəaliyyəti, gördüyü işlərin çəkisi və miqyası sonrakı dövrün poeziyasında daha aydın boyalarla poetik müstəviyə gətirilir. Şair Səyavuş Məmmədzadənin aşağıda misal gətirilən şeirlərində Heydər Əliyevin çəkdiyi əziyyətlər, rus siyasəti qarşısında nümayiş etdirdiyi əzmkar ruhun ifadəsi əksini tapıb:

[1] Hüseynbala Mirələmov. İşığın izi ilə (tarixi-ədəbi esse) Bakı, "Azərbaycan nəşriyyatı", 2004, s.13

*...O azman qamətlə yaz yaşa, nə var,*
*Olmaya dünyanın dünyaca dərdi,*
*Olmaya vurduğu saysız yaralar,*
*Olmaya demokrat donu geyənlər*
*Qorbaçov kimilər, çürük zatlılar,*
*Sapı özümüzdən olan baltalar,*
*Olmaya əzilən, inləyən Vətən...*

Yaxud:

*Neçə tufanlara sinə gərdiniz,*
*Can deyən, can verən Azərbaycana.*
*Ləyaqətinizlə bənzəyirsiniz*
*Sinəsi yaralı Koriolana...*

Eləcə də Söhrab Tahirin yaradıcılıq bioqrafiyasında Heydər Əliyevin obrazı işıqlı və əzəmətlidir. Şairin 1972-ci ildə Heydər Əliyevə ünvanlayıb oxuduğu "Birinci" şeri var:

*Düşünən bəşəri qoca dünyanın,*
*Hərlənən təkəri birincilərdir.*
*Güllə sıxımının asan hədəfi*
*Filin yük çəkəri birincilərdir...*

*Birinci intihar, birinci ölüm,*
*Birinci ölümün ağzından dönüm.*
*Ömrün gödəkliyi, yolun təkliyi,*
*Böhtan kələfçəsi, yalan yumağı,*
*Başının üstündə dövrün çomağı*
*Birinci olmağın yol yoldaşıdır.*
*Birinci dünyanın vətəndaşıdır.*

Şairin "Yaxşılıq" şeirində də öndərin şəxsiyyəti, gördüyü işlər böyük lütf və minnətdarlıqla anılır.

*Mən rəhbərdən çox yaxşılıq görmüşəm,*
*Verdiyindən hamıya pay vermişəm.*
*Yaxşılıqdan qızıl saray hörmüşəm,*

*Qal baxtımın sarayında, yaxşılıq,*
*O tayımda, bu tayımda yaxşılıq.*
*Yaxşı olma, yaxşılıqdan ötəri,*
*Yaxşılıq et qoy olmasın xəbəri.*
*Qızıl taxıl dənəsidir yaxşılıq,*
*Kimə versən, dönəsidir yaxşılıq.*

Heydər Əliyev imperiya siyasəti ilə çarpışırdı. Elə imperiya ki, vaxtilə "parçala, hökm sür" tezisi üzərində qurulmuşdu. Elə hakimiyyət ki, varlığı millətlərin, xalqların milli kimliyini əlindən almaq, yadlaşdırmaq, manqurtlaşdırmaq məqamı üzərində bərqərar olmuşdu. Heydər Əliyev isə içindən çıxdığı xalqın öz dəyərlərinin böyüklüyünə əmin idi, onların nədə ehtiva olunduğunu bilirdi. Şəxsiyyətlərini tanıyırdı. Dövləti güclü edən amillərin söykəndiyi bütün çıxış nöqtələri ona məlum idi. Eləcə də bilirdi ki, bir xalqın müstəqilliyinin qazanılması, öz mövcudluğunu sürdürə bilməsi bir tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu ola bilməz, o həm də milli siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsi kimi hasilə gəlməlidir, milli mənlik şüurunun yaranmasının aspektləri bədii düşüncəyə söykənməlidir. Digər tərəfdən, Heydər Əliyev dünya mədəni sferasına inteqrasiyanın da zəruriliyini duyurdu. Ona görə milli varlığın idrakı məsələsinə bu qədər həssas yanaşırdı, fəaliyyətinin əsas istiqamətini milli ruhun oyanışı və ona qayıdış əzminin qorunub saxlanması təşkil edirdi.

Ədəbiyyatşünas Azər Turan 2000-ci ildə "Azərbaycanın gücü" məqaləsində yazır: "İndi çox höcət açırıq. Bizdə dissident ədəbiyyatı olmuşdurmu? – deyə bu höcətlərdə bəzən ifrata varırıq. Bu, əlbəttə, ayrıca bir söhbətin mövzusudur. Amma bütün bu heç də hər zaman birmənalı cavablandırılmayan sorğuları, mübahisələri bir kənara qoyub deməyə borcluyuq: o illərdə Azərbaycanda hadisənin daha başqa və bənzərsiz forması təzahür etmişdi. *Azərbaycanda mövcud ictimai şəraitə, sistemə, quruluşa rəğmən, dissident siyasəti tətbiq olunurdu* (kursiv mənimdir – E.A.). Cəmiyyət həmin siyasətlə idarə olunurdu. Tabular və bütlər, ehkamlar və sxolastika hər gün zərər çəkirdi: Nərimanov Lenini, Mustafazadə Xrennikovu, Bəhlulzadə Deyneykanı… əvəz edirdi. Anar "Yaxşı padşahın nağılı"nı, Vahabzadə isə:

*Alçalmaq ucalmaqdı, bu dövrana təşəkkür,*
*İnsana verilmiş bu şərəf, şana təşəkkür –*

misralarının da yer aldığı «Fəryad»ı yazırdı.

Kütlənin ümumi rəyi formalaşdırılırdı. Moskva Azərbaycana uzaqdan baxmağa və köks ötürməyə məcbur edilmişdi”.[1]

## Dissident siyasəti

Heydər Əliyevin 1969-1982-ci illər ərzindəki fəaliyyətini bu iki sözün birləşməsi uğurlu və dəqiq ifadə edir. Azərbaycanın dəyərlərini ona tanıtdırmaq və 1937-ci ildə ziyalılığın sındırılmış vüqarını dirçəltmək, reabilitasiya etmək Heydər Əliyev diplomatiyasının çıxış nöqtəsini təşkil etmişdir. Nə qədər gerçəkləşə bildi bu missiya? Zənnimizcə, bütün hallarda bənzərsiz fədakarlıq nümunəsi meydana qoyuldu. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı kimi klassik sənətkarlarımızın keçirilən yubileyləri, onlara qoyulan abidələr, barələrində yazılan kitablar, tədqiqat əsərləri, həmmüasiri olduğu şair və yazıçılara rəğbəti, onlarla ünsiyyəti, qayğısı, məhrəm rəftarı bu böyük missiyanın, bu böyük islahat dalğasının əsas təzahürləri idi. Hər halda istər ölkə daxilində gedən siyasi proseslərə, məhəlli ziddiyyətlərə, istərsə də dünya siyasətində Azərbaycana qarşı aparılan əks təbliğatlara, mürəkkəb diplomatik çəkişmələrə baxmayaraq və onlara önəm verməyərək, Heydər Əliyev “bütün onilliklər boyu gözlədiyi tarixi məqama doğru tərəddüdsüz, həm də inamla addımladı, ən başlıcası, həmin tarixi mərhələni hazırlayan müəlliflərdən biri kimi, vaxtın özü ilə hesablaşdı. O, SSRİ adlanan nəhəngin bətnində müstəqil Azərbaycanı yaratdı”.[2]

Hakimiyyətinin birinci dönəmində Heydər Əliyevin irəli sürdüyü nəzəri-ideoloji prinsiplərin şairlərin yaradıcılığına bilavasitə təsiri olmuşdur. Şairlər, yaradıcı adamlarla tez-tez görüşən Heydər Əliyevin onlarla ünsiyyət zamanı səsləndirdiyi hər hansı fikirlər şairlər üçün enerji və güc mənbəyinə çevrilmiş, impuls yaradan qüvvə olmuşdur. Məsələn, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məm-

---

[1] Azər Turan. “Azərbaycanın gücü”. “Yeni Azərbaycan” qəzeti, 26 yanvar 2000

[2] Hüseynbala Mirələmov. İşığın izi ilə (tarixi-ədəbi esse) Bakı, “Azərbaycan nəşriyyatı”, 2004, s.69

məd Araz poeziyasının oynaq ritmi, həyəcan, çağırışa köklənən üslubu Heydər Əliyev siyasətinin poeziyaya qazandırdığı cəsarət ruhu üzərində qərar tuturdu. Milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində bu şairlərin böyük rolu olmuşdur. Həmçinin tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması onların fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi. Akademik İsa Həbibbəyli "Milli istiqlal şairi Bəxtiyar Vahabzadə haqqında söz" məqaləsində yazır: "Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri kimi azərbaycançılıq istiqamətində dövlət səviyyəsində həyata keçirdiyi genişmiqyaslı tədbirlər ölkədə milli-mənəvi özünüdərkə və bu ideala xidmət edən ədəbiyyata geniş meydan açmışdır. Fikrimizcə, həmin dövrdən, yəni XX əsrin yetmiş-səksəninci illərindən etibarən Azərbaycanda milli istiqlal ədəbiyyatının yeni mərhələsi yaranmışdır. Xalq şairi Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanlı və başqaları yeni dövr Azərbaycan milli istiqlal ədəbiyyatının yaradıcıları kimi meydana çıxmışlar. Bu sahədə Bəxtiyar Vahabzadənin özünəməxsus böyük xidmətləri vardır".[1]

Diqqət eləsək, Bəxtiyar Vahabzadənin bütün yaradıcılığından bir xarakterik obraz keçir – üsyankar, çılğın, mübariz, vətən sevdalı, dil aşinası, həyat mücahidi... Hətta sovet dönəmində yazdığı ilk poemalarında belə dinə, cəhalətə, istibdada qarşı kəskin üsyan var. "Mərziyə", "Bağışlayın, səhv olub" poemalarında daha çox dini xürafatın, mövhumatın tənqidi, dil məsələlərinin aktuallaşması əsas yer tutur ki, bu da şairin maarifçilik ideallarından zəmin alırdı. Şairin 1970-ci illərdə yazdığı "XX əsrin adamı" şeirində isə sovet ideologiyasına açıq-aşkar üsyan qaldırılır və etiraf edək ki, ancaq o dövrdə özünü arxalı, güvənli hesab edən şair qələminin gücü yetərdi bu şeirləri yazmağa:

*Gözüm şüşə, dişim qoyma,*
*Qıçım taxta,*
*Arzuları vurdu şaxta,*
*Qanım qara laxta-laxta*

---

[1] İsa Həbibbəyli. Milli istiqlal şairi Bəxtiyar Vahabzadə haqqında söz // Bəxtiyaram Mən. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə. Tərtibçi və ön söz: Elnarə Akimova. Bakı: Çaşıoğlu, 2016, s.34

*Kişilikdən bir əsər yox,*
*Özüm axta*
*Sözüm saxta.*
*Yalanlara əl çalıram.*
*Alçaldıqca ucalıram.*
*Sözüm iki,*
*Üzüm iki.*
*Mən əyriyə düz deyirəm,*
*Gecəyə gündüz deyirəm.*
*...Əməlsiz də keçib gedər*
*Təki bollu sözün olsun.*
*Ağ yalanı qıpqırmızı*
*Demək üçün sözün olsun*
*Protokol, söz oğluyam*
*Mən əsrimin öz oğluyam.*

Yaxud Xəlil Rzanın "Afrikanın səsi" şeirində estetik ovqatın çaları artıq dəyişmişdi. Bu poeziyadan ətrafa kükrəyən, püskürən odlu nəfəsin enerjisi yayılırdı:

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!*
*Qolumdakı zəncirləri qıram gərək! Qıram! Qıram!*
*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,*
*İstəyirəm Səma kimi, Günəş kimi! Cahan kimi!*
*Çəkil, çəkil, ey qəsbkar!*
*Mən bu əsrin gur səsiyəm;*
*Gərək deyil sısqa bulaq,*
*Mən ümmanlar təşnəsiyəm!*

Şairin tədqiqatçıları dönə-dönə qeyd etmişlər: şeirin ilkin adı "Azadlıq" olub və milli varlığın ağrılarından qurtulmaq üçün haray çəkən şairin düşüncələrini ifadə edir. Xəlil Rzanın sovet dövründə yazılan əksər şeirləri millilik, türklük ruhu üzərindədir və təsadüfi deyil ki, şairin müstəqillik illərində yazdığı şeirlərdən poetik ovqat baxımından fərqlənmir. Bu ovqatı poeziyaya qazandıran Heydər Əliyevin dissident siyasətinin gücü idi. Yaşar Qarayev doğru yazır ki, "60-cı illərə qədər Azərbaycanda da şairlərin "dissident" olmaq "imkanları" var idi. 1969-cu ildən sonra bu imkan aradan qaldırıldı.

Bəziləri təəccüb edir ki, niyə Azərbaycanda "altmışıncıların" sandıqdan, yasaqdan çıxan əsərləri olmadı? Çünki sandığa ehtiyac olmadı. Hətta Moskvada, mərkəzi jurnallarda çap edə bilmədikləri əsərlərini yazıçılar Bakıda çap edirdilər..."[1]

Anar "Şəxsiyyətin miqyası" məqaləsində yazır: "Xatırlayıram ki, yalnız Moskvanın deyil, hətta Pribaltika kimi sərbəst, müstəqil fikrə alışmış regionların belə ziyalıları bizim bəzi kitabları oxuyanda, tamaşa və filmlərimizi görəndə onların yasaqlanmamasına təəccüb edirdilər".[2]

Nəriman Həsənzadənin "Mənim ədəbi taleyim" kitabında oxuyuruq: "Akademik Milli Dram Teatrında "Bütün Şərq bilsin" pyesimin tamaşasıydı. Teatrın baş rejissoru və tamaşanın rejissoru Mərahim Fərzəlibəyovla yanaşı oturmuşduq. Azərbaycan KP MK-nın Büro üzvləri Ulu Öndər başda olmaqla tamaşaya baxmağa gəlmişdilər. Nərimanov rolunda çıxış edən xalq artisti Məlik Dadaşov monoloq dediyi yerdə, birdən "yaşasın, böyük rus xalqı", "böyük rus xalqına eşq olsun" kimi pyesdə olmayan sözlər işlətdi. Mərahimlə mən bir-birimizin üzümüzə baxdıq və heç bir söz demədik. Tamaşadan sonra Məlik müəllimdən soruşdum ki, niyə belə dedin? Axı əsərdə elə sözlər yox idi. Cavab verdi ki, səhnənin ortasında Azərbaycan, azadlıq, neft, millət haqqında misraları deyəndə, Büro üzvlərindən ikisi üzümə elə sərt baxdı ki, özümü itirdim, dediyim misralar ağzımda yarımçıq qaldı. Tez özümdən əlavələr etdim. Belə bir mühitdə Heydər Əliyev həm özü cəsarət göstərirdi, həm də bizi cəsarətə səsləyirdi.

Bu mənada, haqlı səsləndirilən bir fikirlə razılaşmamaq olmur: "Keçmiş sovet məkanında "dissident ovu" aparıldığı illərdə əslində ən böyük dissident Azərbaycanın rəhbəri Heydər Əliyev olmuşdur".[3] Bunu Heydər Əliyevin özü də bilirdi və bəyan etməkdən çəkinmirdi. Xalq yazıçısı Anarın "Azərbaycanın ədəbiyyatı, incəsənəti, mədəniyyəti" kitabında belə bir epizod yer alıb: "Qurultayda Heydər Əliyevin çıxış etdiyi iclası mən aparırdım və belə bir replika

---

[1] Yaşar Qarayev. Müstəqillik dövrünün milli öndəri // "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". Bakı: Elm, 1998, s.150

[2] Anar. "Şəxsiyyətin miqyası". 18 may 1998-ci il

[3] Xalqımızın milli özünüdərkinə, ədəbiyyatımızın inkişafına sanballı töhfə. "Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı" kitabının təqdimat mərasimində Nizami Xudiyevin çıxışı.// "Ədəbiyyat qəzeti", 6 avqust 1999

atdım:

- Heydər müəllim, bir dəfə "Ən böyük dissident elə mən özüm olmuşam" dediniz.

- Tamamilə doğrudur, – dedi Heydər Əliyev və: - Düzdür, mən şeir yazmıram, roman və ya hekayələr yazmıram. Ancaq 1969-cu ildən başlayaraq 1987-ci ilə qədər Kommunist Partiyasında ən böyük dissident mən idim, – deyə əlavə etdi".[1]

Heydər Əliyevin qoruduğu, arxasında dayandığı işlərin, əsərlərin yaddaş və tarixlə bağlı hər qatında milli tariximizin, milli varlığımızın nəfəsi duyulurdu. Bu qatlar tarix, dil, azadlıq idealları, istiqlal vuruşu idi. O səbəblər ki, Heydər Əliyev onlarda insan, zaman, torpaq, yaddaş, əxlaqla bağlı çeşidli, milli-mənəvi məsələlərin bədii təcəssümünü görürdü, onları qoruyurdu, hər yerdə və həmişə humanist başlanğıcdan çıxış edərək dünya nizamına aparan yolları ayırd etməyə, onları insanlara nişan verməyə çalışırdı.

Fransız politoloqu Aland de Eskarın Heydər Əliyevə ünvanladığı bir fikri var: "Cənab Əliyev! 1982-ci ildə Sizin Kremlə gəlişinizlə Sovetlər Birliyinin Yaxın Şərqdəki siyasəti kökündən dəyişdi, ona yeni impuls verildi". Bu, bir qərblinin qurucu lider haqqında söylədiyi həqiqətdir. Belə ki, Heydər Əliyev tarixə adını bu dönüşün müəllifi kimi yazdıra bildi. Mədəniyyət və Ədəbiyyatda yeni mərhələ yaratmağı bacardı. O, ilk növbədə, ədəbiyyatı sxolast bolşevik şüurun və vulqar sosioloji psixologiyanın məhvərində fırlanmaqdan azad etdi. Xalq şairi Zəlimxan Yaqubun "Əbədiyyət dastanı"ında Heydər Əliyevin həmin dönəmdə sovet imperiyasının daxilində apardığı mücadilə poetik əksini tapıb:

*İlahi! Gör bu yerdə*
*O kimlərlə döyüşüb,*
*Çox əliqanlılarla,*
*Hakimlərlə döyüşüb.*
*Cavidi sərt Sibirin*
*Şaxtasında çürüdən,*
*Böyük Əhməd Cavadı*
*Gilə-gilə əridən,*

[1] Анар. Литература, Искусство, Культура Азербайджана. Том III, Баку, 2013. с.287-289

*Başımızın üstündən*
*Göydən odlar ələyən,*
*Müşfiqi bir gecədə*
*Al-qanına bələyən...*
*Zalım, qan ocağının dağıtdı yuvasını,*
*Təmzilədi ruhunu,*
*Dəyişdi havasını.*
*...Qan tökənin gözləri*
*Oyum-oyum oyuldu,*
*Bügünkü dövlətinin*
*Sağlam özül daşları*
*O kişinin əliylə*
*Bax o zaman qoyuldu!*[1]

Bu məqamda bir məsələni də vurğulamağa ehtiyac var. Heydər Əliyev yalnız qorumurdu, yalnız himayə etmirdi, yalnız cəsarət aşılamırdı. O, həm də sahib çıxmağı bacarırdı. Gücünün yetdiyi qədər milli-mənəvi dəyərlərin qorunmasına çaba göstərirdi. Bu barədə əlbəttə, "kifayət qədər təcrübə və bacarığı vardı" (Anar), amma onlarla bahəm (və daha əsas!) millətinə və xalqına can yanğısı vardı. Böyük şairimiz Məhəmməd Füzuli ilə bağlı Heydər Əliyevin qatlaşdığı çətinliklər və onun bu istiqamətdə əzmkar fəaliyyəti fikirlərimizə əyani sübutdur. Heydər Əliyevin böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilməsi ilə bağlı gördüyü çöxyönlü işlər bu siyasi liderdən hər cür yüksək məzmunda danışmağa əsas verir. Bu barədə geniş məlumatı Musa Qasımlının "Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər)" kitabında oxuyuruq: "Heydər Əliyev hakimiyyətə gəldikdən sonra MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdirinə Məhəmməd Füzuliyə İraqın Kərbəla şəhərində məqbərə tikilməsi imkanlarını öyrənmək barədə tapşırıq vermışdir. Sov. İKP MK-nın müvafiq şöbəsi ilə məsələni müzakirə edən şöbə müdiri, Heydər Əliyevə 1977-ci il 2 sentyabr tarixli geniş arayış təqdim etmişdir. Arayışda deyilirdi: "Sizin tarşırığınıza əsasən böyük Azərbaycan şairi və mutəfəkkiri Məhəmməd Füzulinin məqbərəsinin Kərbəlada tikilməsi mümkünlüyü

---

[1] Zəlimxan Yaqub. Seçilmiş əsərləri, 13 cilddə, XI cild. Bakı: Şərq-Qərb, 2013, s.28

haqqında məsələ öyrənilmişdir...” Məlum olur ki, İraqın əlverişsiz daxili vəziyyəti ucbatından Füzulinin məzarının tikintisi məsələsini İraq hökuməti qarşısında qaldırmaq üçün şərait əlverişsizdir. Bundan sonra Heydər Əliyevin təklifi ilə məsələnin həllinə Azərbaycanın Xarici İşlər Nazirliyi və Elmlər Akademiyası cəlb edilmişdi. Məsələ, SSRİ XİN qarşısında qaldırılmışdı. Lakin SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri, nazirliyin kollegiya üzvü Sıtenko Sovet İttifaqının Bağdaddakı səfirinə istinadən Füzulinin məzarının bərpası fikrindən vaz keçməyi tövsiyə etmişdi. Motiv yenə də eyni idi: əlverişsiz siyasi şərait. Bundan sonra Heydər Əliyevin tövsiyəsinə uyğun olaraq Azərbaycan Elmlər Akademiyasının prezidenti Həsən Abdullayev İraqın Bakıdakı baş konsulu Ədnan Qaydan Məhəmmədlə görüşərək Azərbaycan ictimaiyyəti və alimləri adından məsələnin müsbət həll olunması üçün hökuməti qarşısında vəsatət qaldırmasını xahiş etmişdi. Məsələni araşdıran İraq konsulu 1976-cı il iyul ayının 21-də Azərbaycanın Xarici İşlər Nazirliyinə cavab notası göndərmişdi. Notada deyilirdi: «İraq prezidenti dəftərxanasının rəhbərliyi bildirir ki, İraq ərazisində dəfn olunduğundan, şair Füzulinin mavzoleyinin bərpası üçün hökumət məsuliyyət daşıyacaqdır».

Notadan aydın olurdu ki, diplomatik kanallarla məsələnin həllinə cəhd edilməsi artıq heç bir nəticə verməyəcək. Çünki İraqın baş konsulu hökumətində kifayət qədər nüfuz sahibi idi və BƏƏS partiyasının rəhbər dairələri ilə sıx əlaqələr saxlayırdı. Onun fikri məsələnin həlli barədə İraq hökumətinin yekun rəyi kimi də qəbul edilə bilərdi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev bu istiqamətdəki fəaliyyətini inadla davam etdirirdi. Onun təklifi ilə füzulişünasların beynəlxalq simpoziumlarının keçirilməsinə təşəbbüs edildi və buna uğurla nail olundu. Bu isə məsələnin unudulmadığını, Azərbaycan tərəfini daim narahat etdiyini göstərirdi. Heydər Əliyev İraqdan SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətləri qarşısında həmin məsələni cəsarətlə qaldıraraq həllinə çalışırdı. Dövlətlərarası münasibətlərdə Heydər Əliyev Azərbaycan şair və yazıçılarının diqqətini həmin məsələyə cəlb edərək məqsədə çatmaq üçün çalışırdı. O, məsələnin müzakirəsini hətta yazıçıların VII qurultayında da qaldıraraq nəinki ziyalıları, həmçinin ictimaiyyəti agah etdi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev qurultay ərəfəsində Azərbaycan yazıçılarına böyük bir hədiyyə verdi. Onun Azərbaycan

ədəbiyyatına və ədəbi irsə münasibətinin, qayğısının daha bir təzahürü yazıçılar üçün Xəzər dənizi sahilində – Şüvəlanda Yaradıcılıq evinin istifadəyə verilməsi oldu. Heydər Əliyev nitqində ədəbiyyatın qayğısına qalan, bütün buxovları, əngəlləri qıraraq nəinki yazıçıların himayəçisi olduğunu göstərir, eyni zamanda onları xalqı düşündürən Cənubi Azərbaycan məsələsindən, tarixdə muhum rol oynamış ziyalılardan yazmağa, tarixi romanlar yaratmağa, Məhəmməd Füzulinin məqbərəsinin keşiyində durmağa, qorxmamağa, çəkinməməyə səsləyirdi. O deyirdi: "...milli mədəniyyətimiz dirçəlmişdir ", "Azərbaycanın yaradıcı ziyalılarının xoşbəxt taleyi onların xalqla qırılmaz birliyindədir, xalq mənafeyinə fədakarlıqla xidmət etmələrindədir", "poeziyamız Azərbaycan klassik lirikasının ən yaxşı ənənələrini davam etdirərək, fəal vətəndaşlıq mövqeyində dayanmaqdadır». O, daha sonra qeyd edirdi: "Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir, Azərbaycan tarixinin, mədəniyyət və elminin görkəmli xadimlərinin bədii obrazlarını gözləyir", "...tarixi simaların obrazları yaradılan və tariximizin mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır".

Heydər Əliyev qurultaydakı nitqində Məhəmməd Füzulinin qəbrinin bərpası məsələsini butun kəskinliyi ilə açıq şəkildə qaldırmağı yazıçılara tövsiyə etdi. Füzulinin məzarının vəziyyəti barədə danışan şair Bəxtiyar Vahabzadəyə müraciətlə Heydər Əliyev deyirdi: "Bir neçə il bundan qabaq bizə məlum oldu ki, Kərbəlada Füzulinin qəbrini doğrudan sökublər və onun sümüklərini bir qutuya yığıb hansı bir məscidin zirzəmisində saxlayırlar. Biz öyrəndik ki, həqiqətən oranı söküblər, bu, plana düşübdür, başqa bir yerdə qəbri bərpa edəcəklər. Biz dövlət orqanları vasitəsi ilə müəyyən tədbirlər gördük. Bilirsinizmi, İraq hökuməti ilə bizim hökumət arasında müəyyən mürəkkəbliklər vardır. Mərkəzi Komitədə belə məsləhət gördük ki, əgər bu işə bizim elm xadimlərimiz, yazıçılarımız, dünyada tanınmış adamlarımız qarışsalar, bu məsələni həll edərik. Dövlət xətti ilə yox. Bilirsiniz ki, Füzuli sovet vətəndaşı deyil. Füzuli bizim Azərbaycan şairidir. Ancaq yazıb-yaradıb və vəfat edibdir İraqda. Bu məsələni ayrı-ayrı alimlər vasitəsilə daha tez həll etmək olar. Ancaq burada Süleyman Rustəm, Mirzə İbrahimov və Sizə öz nara-

zılığımızı bildiririk. Heç bir yoldaş bu sahədə ürəklə, can-başla, patriotik hisslərlə çalışmır. Həmid Araslı məktub yazıb, İraq konsulu deyib ki, baxarıq. Həqiqətən bunu istəyirsənsə, gedib o konsulun boğazından tut və de ki, Füzuli mənimdir. Füzuli mənim tariximi, Füzuli mənim mənliyimdir. Siz niyə bu işə belə yanaşırsınız? Əgər siz belə bir iş tutsanız, heç kim sizi tutmaz. Niyə indiyə kimi İraq prezidentinə məktub yazmamısınız? Əgər Süleyman Rüstəm belə bir məktub yazsa, İraq prezidenti onu həbs edəcək?" Heydər Əliyev daha sonra üzünü Mirzə İbrahimova tutaraq «Sizi Ümumittifaq Asiya və Afrika xalqları ilə həmrəylik təşkilatının sədri kimi böyük bir vəzifəyə qoymuşuq, bundan böyük daha nə istəyirsiniz», – deyir və təşkilatın sədri kimi ona bu məsələ barədə YUNESKO-ya və BMT-yə məktublar yazmağı tövsiyə edirdi. O, açıq şəkildə bildirirdi: «Bu işlərdə siz patriotizm hisslərinizi axıra çatdırmağa nail ola bilmirsiniz. Bu ümümi işlərdə siz istədiyiniz qədər ürəkdən çalışmalısınız. Danışmağa böyük ustalığınız vardır. Hətta Bəxtiyar Vahabzadə məclislərdə oturub Azərbaycan xalqının həyatı haqqında danışır. Bu işlərdə çalışmağı yoxdur. Bu barədə başqa qardaş respublikalardan dərs almaq, öyrənmək lazımdır. Yenə deyirəm, əgər bizim mədəniyyətimiz, tariximiz üçün siz belə hərəkətlər edərək müəyyən qədər cızığınızdan çıxsanız, qorxmayın... bizim respublikamızda heç vaxt, heç kimdən sizə xəta toxunmaz. Çünki bu, xalq mədəniyyəti üçündür. Bizim respublikamız üçündür".[1]

İmamverdi Əbilovun "Dünənin... sabahın... çağdaş dahisi" kitabında da Heydər Əliyevin Füzuli ilə bağlı həssas yanaşmalarına aid belə bir epizod yer alır. Bu epizod Heydər Əliyevin klassik irsimizə, poeziyaya, sənətə, sənətkara verdiyi dəyərin ən uca vurğusudur: "…Azərbaycan Yazıçılarının 1981-ci ilin iyununda keçirilən VII qurultayında… Abbas Zamanov tribunaya qalxmadan qurultaya bəyan elədi ki, İraq hökuməti Kərbəlada yeni yol çəkilişi ilə əlaqədar Füzulinin bu şəhərdəki məzarını söküb yerini dəyişir. Abbas Zamanov birbaşa Heydər Əliyevə müraciət etdi:

- Füzulinin cəsədini gətirmək lazımsa, icazə verilsin, Kərbəlaya piyada getməyi özümə şərəf bilərəm. Axı dahi Füzuliyə belə münasibət milli mədəniyyətimizə təhqirdir.

---

[1] Musa Qasımlı. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, s.92-95

Alimi diqqətlə dinləyən Heydər Əliyev ayağa qalxdı və Füzuli şəxsiyyəti, sənəti haqqında elə yanğı ilə danışdı ki, hamımız heyran qaldıq. Bu mükalimədə məhəbbət, giley, məzəmmət, tələb, qürur və təəssüf hissinin ılıq vəhdəti vardı.... Həmin gün ölkə rəhbərinin Füzuliyə hüdudsuz məhəbbəti bədii dünyamızı təmsil edən söz-sənət adamları üçün də ibrət nümunəsinə döndü:

- Yəqin bilirsiniz ki, İraq-Sovet münasibətləri istəyimizcə deyil. Füzuliyə İraq hökümətinin belə münasibətini indicə Abbas müəllimdən eşitdim. Bilirsiniz ki, Siyasi Büro qarşısında cavabdeh bir şəxs kimi mənim bu məsələyə birbaşa müdaxiləm arzuolunmaz nəticələr verə bilər. Mənim sözüm, iradım, tələbim ilk növbədə sizlərə aiddir. Mirzə müəllim (Mirzə İbrahimov – müəl.), siz ədəbiyatımızın ağsaqqalısınız, 70 yaşlı yazıçı, siyasi xadim, nəhayət, Asiya və Afrika Ölkələri ilə Həmrəylik Komitəsinin sədri kimi siz İraq hökumətinə bu barədə müraciət etmisinizmi? Yox, təəssüf ki, yox! Süleyman Rüstəm bu məsələyə biganə qalmağa haqlı deyil. Həmid müəllim (Həmid Araslı – müəl.) sizdən soruşuram: Füzulini tədqiq edən görkəmli akademik kimi, bu sahədə gördüyünüz işlərdən danışa bilərsinizmi? Bəxtiyar Vahabzadə bir sıra gözəl əsərləri ilə bahəm Füzuli haqqında dəyərli bir poema yazıb. Hamınızdan soruşuram: Füzulinin bu günkü taleyi ilə bağlı gördüyünüz praktiki işlərdən məlumat verə bilərsinizmi? Şübhəsiz yox! Sizin ciddi marağınız, humanist tələb kimi diplomatik münasibətlərdə də təbii qarşılanardı. İraq Dövlətinin konsulu Bakının mərkəzindədir. Hansı biriniz Füzuliyə belə laqeyd münasibətin günah olduğunu konsula xatırladıb onu məzəmmət etmişsiniz. Belə hallarda sizi qorumasaydım, gileylənməyə haqqınız olardı...” Salondakı mənalı sükutu indi də xatırlayıram. Respublika rəhbərinin daim rus dilində çıxışlarına alışdığından, həm də mütləq Moskvaya gedəcək qurultay protokollarının ehtiyatlı tərtibinin labüdlüyünə inandıqlarından Heydər Əliyevin çıxış və replikaları nümayəndələri yaxşı mənada heyrətləndirmişdi.

...Heydər Əliyevin məntiqlə aşılanmış səlis danışığını, cazibədar nitqlərini bu vaxtadək eşitməyənlər üçün bu, həqiqətən, əsl yenilik idi. Qurultayın axşam iclasında Heydər Əliyev xoş xəbərlə hamımızı müjdələdi:

- Tənəffüs vaxtı mən Moskvaya – İraq Səfirliyinə zəng etdim, səfirdən bu məsələyə aydınlıq gətirməsini xahiş elədim. Az keçmədi ki, səfir mənə məlumat verdi ki, müqəddəs məscidin əhatəsində res-

tavrasiya işi aparılır. Füzulinin nəşinin qalıqları çox böyük ehtiyatla yığılıb mötəbər yerdə saxlanılır. İş tamamlandıqdan sonra o, Kərbəlanın ən müqəddəs guşəsində dəfn olunacaq”.[1]

Heydər Əliyev başladığı, həyata keçirilməsinə qərar verdiyi işləri sona çatdırmağı bacarırdı. Bunun üçün bütün sözü, izi və adı keçən instansiyaları səfərbər edir, müsbət yöndə nəticə əldə edənə qədər vuruşurdu. Qənaətimizdə israrlıyıq: siyasətdə bacarıq və təcrübənin, eləcə də “dünyada Avtoritet olmağın Xalqı üçün önəmi nədir, sonradan – yəni bugün, artıq müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin əvəzsiz fəaliyyətində görüb-anlamış olduq...”[2]

Heydər Əliyev belə əvəzsiz xidmətlərin digərini 1982-ci ildə, Hüseyn Cavidlə bağlı möhtəşəm missiyanın həyata keçirilməsi zamanında gerçəkləşdirdi.

## Özünəqayıdışın Cavid intibahı

Heydər Əliyev siyasətinin dissident ruhu 1982-ci ildə daha bir möhtəşəm hadisə ilə nəhayətsiz miqyas aldı. Ulu Öndər böyük Azərbaycan şairi Hüseyn Cavidin nəşinin Sibir çöllərindən vətənə gətirilməsi haqda sərəncam verdi. Xalq yazıçısı Elçin 1992-ci ildə yazdığı «Dünya axirət əkini…» adlı essesində dəqiq qeyd edir ki, «…xüsusən səksəninci illərin əvvəllərində Azərbaycanda milli təfəkkürün, özünəqayıdışın, ayrı-ayrı fərdlər arasında yox, bir küll halında oyanma dövrü idi».[3] Bu qeydlərdə təbii ki, çox səbəblər ehtiva olunurdu, amma başlıca amil Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilib torpağa tapşırılması idi. Elçin və dövrün demək olar ki, bütün mütərəqqi ziyalıları bunu milli təfəkkür və özünəqayıdışın renessans əlaməti olaraq səciyyələndirirdilər: “Qırx il əvvəl dünyasını dəyişmiş bir insanın məzarının qürbətdən vətənə köçürülməsi milli yaddaşın intibahı kimi ictimai şüura transfer oluna bilərmi? Bu gün baş versə, əlbəttə ki, yox. Amma səksən ikinci ildə bu gerçək bir intibah, mənəvi bir üsyan, sistem böyüklərindən birinin ənənəvi vassal psixologiyasına qarşı siyasi qiyamı kimi qəbul olunurdu. Hamımız xatırlayırıq: o günlərdə Azərbaycanda yaşanan cavidçi əhval-ruhiy-

---

[1] İmamverdi Əbilov. “Dünənin... sabahın... çağdaş dahisi”. Bakı: “Nurlar” nəşriyyatı, 2007, s.16-17

[2] Tehran Əlişanoğlu. Azərbaycan, Azərbaycan. Bakı: Nurlan, 2005, s.91

[3] Elçin. “Dünya axırət əkini”. “Aydınlıq” qəzeti, 1992, 28 iyul

yə, milli-romantik ovqat tarixin təkərinin üzü günəşə, ədalətə, həqiqətə, Azərbaycanın isə Cavid ideyalarına doğru hərəkətə başlamasından xəbər verirdi”.[1]

Bu hadisəni Heydər Əliyevin siyasi fəaliyyətinin şah əsəri saymaq olar. “Cavidin vətənə gətirilməsi ən maraqlı və ecazkar, dramatik və fəci bir romanın süjeti kimi də təsvir oluna bilər. Bu romanın baş qəhrəmanı sistemin təhlükəsizlik generalı, Stalinə, rejimə qarşı ilk milli və siyasi qiyam qaldırmış Heydər Əliyevdir”.

*Həsrət, səni mərd yıxdı ki, sən insafa gəldin,*
*Qırx ildi gəlirdin, gəl a Cavid, səfa gəldin.*

Fikrət Qoca bu misraları həmin dönəmdə və həmin mötəbər hadisə münasibətilə qələmə alıb. Bu şeirdə Heydər Əliyevin obrazı “mərd”lik rəmzi kimi xarakterizə olunur. “Həsrət, səni mərd yıxdı ki, sən insafa gəldin”…Amma nəyin həsrəti? Axı söhbət 1937-ci ilin repressiya dalğasının güdaza verdiyi faciə qəhrəmanından gedir. Dövrün tədqiqatçıları bu məqamı dönə-dönə vurğulayırlar: “İstər klassik, istərsə də müasir Azərbaycan yazıçılarının bir çoxunun yenidən böyük ədəbiyyata qaytarılması məhz Heydər Əliyevin iradəsi, qətiyyəti və nüfuzu sayəsində mümkün olmuşdur. 1937-ci il yazıçılarının böyük bir qismi 1956-cı ildə formal surətdə bəraət alsa da, onların ədəbiyyata dönüşü, ədəbiyyatda öz layiqli yerlərini tutması məhz Heydər Əliyevin sayəsində mümkün olmuşdur”.[2]

Haqlı fikirdir, 1956-cı ildə bəraətlər verilmişdi. Amma bu bəraətlərdən sonra belə repressiya olunmuş yazıçılarımızın irsinə münasibətdə durulma tam şəkildə bərqərar olmamışdı. Onların yaradıcılığının təhlil və təqdimində 1937-ci ilin xofu hələ də qorunurdu. Məsələn, 1958-ci ildə Əhməd Cavadın kitabına ön söz yazan Məmməd Rahim şairi hələ də zəhmətkeş adamlardan, onların həyatından yazmadığına, daha çox pessimist əhvalın üstün olmasına görə qınayırdı. Yaxud Əhməd Cavadın həyat və yaradıcılığını tədqiq etmiş fi-

---

[1] Azər Turan. 26 oktyabr: Milli məzmuna, ictimai özünüdərkə qayıdış günü. // “Yeni Azərbaycan” qəzeti, 20 oktyabr 1999-cu il

[2] Xalqımızın milli özünüdərkinə, ədəbiyyatımızın inkişafına sanballı töhfə. “Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı” kitabının təqdimat mərasimində Vilayət Quliyevin çıxışı. // “Ədəbiyyat qəzeti”, 6 avqust 1999

lologiya elmləri doktoru Əli Saləddin şairin 1992-ci ildə "Seçilmiş əsərləri"nin ikicildlik nəşrini hazırlayanda oxucuya təqdim edilən stenoqramları özünəməxsus şəkildə ixtisar etmişdir. Əziz Mirəhmədovun, Kamal Talıbzadənin və b-nın da tədqiqatlarındakı mübahisəli baxışları bura əlavə etsək, bəraətin yalnız kağız üzərində qaldığı təsəvvürü yaranırdı. Rəsmi sənədlər üzərində bəraətlər verilib, amma düşüncədə hələ də repressiya havası, qorxusu, ürpərtisi, həyəcanı davam edirdi.

1982-ci il, sovet dövrü hələ bitməmişdi, heç buna işarələr belə yox idi. Dildə repressiyaya məruz qalanlar haqda gerçəklər tuğyan edirdi, amma kağız üzərində yanlış elmi-ədəbi yalanlar meydan sulayırdı. Çünki xof hələ çəkilməmişdi, ideoloji yanlışlığa uğrama qorxusu gerçəklərdən hələ daha öndə idi. Heydər Əliyev bu addımı ilə gerçəyi qorxulardan önə çıxartdı, Cavidin nəşini vətənə qaytarmaqla elə ilk növbədə, qorxunun üzərindəki örtüyü götürüb atmağa müvəffəq oldu. "Cavidə qayıdış" məqaləsində Azər Turan yazır: "Biz 37-ci ili xatırlamırıq. Biz onu xatırlaya bilsəydik, Azadlıq barədə bir belə nikbin danışa bilməzdik. Biz 37-ci ildən sonra doğulmuşuq. Amma hamımız, şair demişkən, 37-də tutulmuşuq. Xatirələrimizin və genetik yaddaşımızın qolundakı qandalı isə 1982-ci ilin 26 oktyabrında açdılar. Biz 1982-ci ilin 26 oktyabrında azadlığa buraxıldıq".[1]

"Ədəbiyyat qəzeti"nin "Repressiya dalğası: gerçək və gizlinləri ilə" adlı "müzakirə saatı"nda tədqiqatçı Cəlal Qasımovun bu fikirləri ilə razılaşmamaq olmur. "Bəraət dövründə – 56-cı ildən sonra udanlar və uduzanlar oldu. Fikrimcə, Cavid uduzanlar siyahısındadı, Ruhulla Axundov, Vəli Xuluflu isə udanlar. Əvvala, sual edirəm ki, Cavid 37-də güclü idi, yoxsa 56-da? 37-də Cavid türkçü kimi, turançı kimi böyük idi. 56-da isə ona bir sovet mundiri geyindirib kiçiltdilər. "Cavid və Oktyabr inqilabı" adlı yazılar yazıldı. Lakin mən nankor deyiləm. O dövrdə Cavid bəraət almasaydı, 4 cildliyi çıxmayacaqdı, haqqında danışılmayacaqdı, dərsliklərə düşməyəcəkdi, haqqında monoqrafiyalar yazılmayacaqdı. Lakin bütün bu proses onun dilinə, üslubuna toxunulmaqla həyata keçdi. Məncə, bu reabilitasiya Cavidin sovet hökümətindən intiqamı deyildi. Sistemin özü-

[1] Azər Turan. 26 oktyabr: Milli məzmuna, ictimai özünüdərkə qayıdış günü. // "Yeni Azərbaycan" qəzeti, 20 oktyabr 1999-cu il

nün özündən intiqamı idi. Məncə, Cavidin bəraəti onun Sibirdən dönüşü ilə başladı. Cavidin dönüşü əslində Cavidə dönüşün başlanğıcı oldu. Nə idi Cavidə dönüş? Cavidə dönüş türkçülüyə dönüş, turan əxlaqına dönüş, Cavidə dönüş sufi təfəkkürünə dönüş, mili-mənəvi əxlaqi dəyərlərə dönüş idi”.[1]

1982-ci ildə Cavidin qayıdışı ilə milli mədəniyyətin yeni epoxası başlayır. Bu həm də Heydər Əliyev siyasətinin 69-cu ildən bəri xalqın mənəvi dirçəlişinə, ictimai özünüdərk və milli təfəkkür oyanışına doğru addım-addım gəldiyi yolun qanunauyğun sonucu kimi meydana çıxır. Heydər Əliyevin meydana qoyduğu bu miqyassız iş poeziyada izini qoymadan ötmür. Bəxtiyar Vahabzadə nəfəsinin poetik qatında özünə yer alır:

*Yanar sinəsiylə buz qıranların,*
*Haqq səsi, dağ səsi tutub dünyanı.*
*Səni torpağına qaytaranların*
*Ömrü uzun olsun, torpağın sanı.*

Mirvarid Dilbazinin odlu misraları mənzərəni duyub tanımağa imkan verir:

*Sağ ol xalqımızın igidi, mərdi!*
*Bu bir şücaətdi, bu bir hünərdi.*
*Getdi sinəmizdən Cavidin dərdi,*
*Unutmaz bu haqqı millətin sənin.*

*Əhsən, kamalına, əqlinə əhsən!*
*Bir xalqın oğlusan, demirəm təksən.*
*Sən, xalqa endikcə yüksələcəksən,*
*Adi xidmət deyil xidmətin sənin.*

Cavidin nəşinin niyə məhz Naxçıvanda basdırılması da ayrı özəlliyi ilə diqqət çəkir. Nəriman Həsənzadənin xatirələrində buna əmin oluruq: “Bir də Təbriz nisgili var idi Heydər Əliyevin. Hüseyn Cavidin nəşini uzaq Sibirdən vətənə gətirmişdi. Cavidi niyə Naxçı-

[1] Repressiya dalğası: gerçəkləri və gizlinləri ilə... // “Ədəbiyyat qəzeti”nin müzakirə saatı. 20 yanvar 2018

vanda basdırmaq istədi, burda yox? Söhbət gedirdi bu barədə həmin ərəfələr. Mən yanında durmuşdum, kimlərləsə söhbət edəndə dedi, elə Naxçıvan yaxşıdı ki, Təbrizdən gələndə onu ziyarət eləyib gələcəklər. Bura qədər dərin düşünürdü Heydər Əliyev".[1]

Cavidlə bağlı missiya bununla yekinlaşmır. Həmin vaxt Heydər Əliyevin göstərişi ilə Naxçıvanda Hüseyn Cavidə məqbərə tikilməsi qərara alınır. Lakin 1982-ci ildə respublikadan gedəndən sonra bu yöndə heç bir iş görülmür. Liderin 1993-cü ildə ölkəyə rəhbər kimi qayıdışından sonra işlərə yenidən təkan verilir. Naxçıvanda Hüseyn Cavidin əzəmətli məqbərəsi hazırlanır. Məqbərədə Cavidlər ailəsi – Cavidin, Müşgünaz və Ərtoğrulun məzarları yan-yana uyuyur.

Açılış 1996-cı ildə, oktyabrın 29-da baş tutur. Bütün ölkə elitasının, ədəbi ictimaiyyətin diqqəti bu hadisəyə yönəlir. Açılışdan az sonra Xalq şairi Məmməd Araz prezidentə həyəcan və ehtiramla dolu məktub ünvanlayır: "Sizi təbrik edirəm, möhtərəm prezident Heydər Əliyev, siz, dahi Cavidin cənazəsini, obrazlı desək, dünyanın axırından çiyninizdə Bakıya gətirməklə kifayətlənmədiniz; onu yenidən çiyninizə götürüb doğulduğu yurda gətirdiniz. Onu Müşgünaz xanımla və Ərtoğrulla birlikdə bir nur odasına tapşırdınız. Siz bu əməlinizdən nə qədər məmnunsunuz. Naxçıvanda keçən təntənəli günlərdə buna şahid olduq. Siz bu yüksək əməllərin birinci müəllifisiniz!"[2]

Xəlil Rza Ulutürk "Gündəliy"ində Heydər Əliyevin bu addımını qəhrəmanlıq kimi səciyyələndirir: "Mən dahi Hüseyn Cavidimizin cənazə qalıqlarının ən uzaq məsafədən, Sibir qəbiristanından qatarla və təyyarə ilə Bakıya gətirlməsini, respublika ictimaiyyətinin diqqətində dayanmasını və təntənəli biçimdə şairin öz vətənində, Naxçıvanda torpağa tapşırılmasını, Molla Pənah Vaqifin məqbərəsi və heykəlinin Şuşada, ən yırtıcı düşmənin dar gözləri qarşısında ucaldılmasını və bu mərasimin böyük milli bayram kimi qeyd olunmasını, əzəmətli Respublika sarayının yaradılmasını, bu cür yüzlərcə təşəbbüs və tədbirləri də Heydər qəhrəmanlığı anlayışına daxil

---

[1] Ədəbi yaddaşımızın Heydər Əliyev məqamı (Nəriman Həsənzadə ilə söhbət). // "Ədəbiyyat qəzeti", 9 dekabr 2017

[2] Böyük sənətkara layiq abidə (29-31 oktyabr, 1996) Kitab: Məmməd Araz. Qarabağ simfoniyası. Bakı: "Elm və təhsil", 2016, s.321

edirəm”.[1]

Zəlimxan Yaqub məqbərənin təntənəli açılış mərasimində “bu türbən mübarək olsun, bu qeyrətə eşq olsun”, – deyə Heydər Əliyevin Cavidlə bağlı gördüyü işləri poeziyanın dili ilə əbədiləşdirdi:

*Ulu qüdrət olan yerdə yeri yoxdur dərd-azarın,*
*İşığına yığışmışıq bir türbədə üç məzarın.*
*Sən Allahın dostusanmış, son səfərin, son güzarın,*
*Vətən adlı Məkkə oldu, hac oldu, Cavid əfəndi.*
*Ləyaqətin bu millətə tac oldu, Cavid əfəndi.*

Sona Vəliyevanın “Tanrının sevdiyi səma şairi” məqaləsində yazdığı kimi: “Bəli, Ulu Öndər Heydər Əliyev Hüseyn Cavidə tək ölkə rəhbəri, onu sevən oxucu kimi yanaşmadı. Heydər Əliyev Hüseyn Cavidə övladı Ərtoğrulu əvəz edərək oğulluq etdi. Bu qayğı, cəsarət, sevgi nəticəsində Cavidlər ailəsi möhtəşəm bir məqbərədə uyuyurlar”.[2]

Bu şeir nümunələri və fikirlər əlbəttə ki, görülən işin heyranlığı qarşısında dillənən poetik rübabın səsi idi. Amma bir də Turan Cavid vardı. Cavidlər ailəsinin son yadigarı... Turan xanımın xatirəsində Heydər Əliyevin obrazı – Cavid sevgisi, sevinci, heyranlığı, qədirbilənliyi və ən əsası, Cavid duyumu ilə daha işıqlı, daha gerçək mahiyyəti ilə sərgilənir. Həmin sevgini görmək üçün Azər Turanın “Cavidnamə” kitabında müəllifin Cavid yadigarı Turan Cavidlə olan söhbətinə istinad etmək olar. “Açılışda xüsusi təyyarə ilə getdik. Təyyarədə hamıyla görüşdü, öz kabinəsinə getdi və məni dəvət etdi. Şəkil çəkdirdik. Cavidin əsərlərinin sayı ilə maraqlandı. Cavid haqqında çox maraqlı fikirlər söylədi. O, Cavidi bilirdi. 1983-cü, 1984-cü illərdə də mən bunun şahidi olmuşdum. 1983-cü ildə Moskvadan yayda istirahət üçün Bakıya gəlmişdi. 1983-ün 24 sentyabrında Azdramada “İblis”ə baxmağa gəldi. O gün aktyorlar da çox gözəl oynayırdılar. Tamaşadan sonra müzakirədə əsəri elə dəqiq təhlil elədi ki... Zarafatından da qalmadı. Dedi ki, indi məndən soruşsalar ki, İblisi görmüsən, cavab verərdim ki, bəli, – Hamleti

---

[1] Xəlil Rza. “Gündəlik”. 2 may 1993-cü ildə Heydər Əliyev haqqında yazdığı bir parça // “Ədəbiyyat qəzeti”, 9 oktyabr 1998-ci il

[2] Hüseyn Cavid–135. (“Kaspi” nəşrləri seriyasından) Bakı: “Zərdabi LTD” MMC, 2018, s.60

göstərib – İblis belə olar, – dedi. İkinci dəfə 1984-cü ildə sentyabrın 15-də Rus Dram Teatrında "Şeyx Sənan"a baxdı, rəhmətlik Zərifə xanımla birgə. I hissədən sonra məni qonaq otağına çağırdı və içəri girən kimi, "tamaşada bir neçə obrazı ixtisar ediblər", – söylədi. Düz deyirdi. Sonra isə musiqidən danışdı. Fikrətin musiqisini çox təriflədi və kor ərəbin mahnısını ifa elədi, sözləri və melodiyanı dəqiq ifa edirdi. Təəccüb ediləcək bir hal idi. Dramaturgiyanı yaxşı bilirdi, duyurdu. O, Cavidi Şekspirlə deyil, Höte ilə müqayisə etməyin tərəfdarıydı. "Faust"la "İblis"i müqayisə edirdi.

Əliyev, ümumiyyətlə, Cavidə qarşı çox həssasdı. Hətta 1997-ci ildə məqbərəni oktyabrın 14-də – Ərtoğrolun rəhmətə getdiyi gündə ziyarət etmişdi.

- Bu bir təsadüf deyildi?

- İnanmıram ki, təsadüf olsun.

- Qayıdaq məqbərəyə...

- Məqbərənin lentini kəsdi, gələn qonaqlar, vəzifə sahibləri ətrafımızdaydı, pillələri qalxanda Heydər Əliyevə: "İkimizdən başqa heç kəs içəri girməsin. Bu, ikimizin haqqıdı», – dedim. Hamı ayaq saxladı və biz içəri girdik.

Məqbərənin açılışından sonra ziyafət verdi. Ziyafətdə Şahmar Əkbərzadə "Yas içində toy" şerini oxudu. "Kəcavən mübarək, toyun mübarək, məzardan məzara gəlin köçürsən" misraları Əliyevə çox təsir etdi. Yanaşı oturmuşduq. Bir daha ona təşəkkür edəndə: – "Başqa cür ola da bilməzdi", – dedi.

Muzeyin açılışında da belə oldu. Bura yalnız onu dəvət etdim. Yeganə muzeydi ki, açılışına Heydər Əliyev tək gəlmişdi. Cavidin ad günündə, 120 illiyinin tamam olduğu gün (Turan xanım bir neçə dəfə özünün təbiriycə, Cavidin ən böyük xeyirxahını müzeyin rəsmi açılışına dəvət etsə də, Prezident muzeyə gəlməyə imkan tapmırdı və Turan Cavid də onun xeyir-duasını almadan muzeyin ictimaiyyətə təqdim olunmasını istəmirdi. May ayında rəsmi tədbirlərin birində Heydər Əliyevlə görüşüb onu muzeyə – Cavid əfəndinin evinə dəvət etdi. Prezident gəldi və bu mərasimdəki görüşləri həm də Heydər Əliyevlə Turan Cavidin son görüşü oldu – A.T.). Bu, çox səmimi bir görüş oldu... Yəqin ki, hər bir kəsi Allah yer üzünə bir işdən ötrü gətirir. Görünür, Cavidin məzarını Vətənə köçürmək üçün bu adam I katib olmalıydı. Məqbərənin də, muzeyin də açılmasına o, uşaq kimi

sevinirdi, fərəhlənirdi”.[1]

Heydər Əliyev – milli ədəbiyyatımızın şərəfli tarixidir, faktıdır, əhəmiyyətli və gərəkli məxəzidir. Bu məxəz bütün estetik ruh halı ilə fərqli duyumun, fərqli yaşamın şəklidi. Heydər Əliyev ruhunun ədəbiyyatda gerçəkləşən şəkli... Və siyasətdə göründüyü qədər həm də ədəbiyyatın obrazıdır.

***

1980-ci illər... Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırıldı. Təbii ki, dissident siyasəti yürütdüyünə görə. Poeziyada Heydər Əliyevdən bəhs edən şeir-poemalarda, lap elə şair gündəliklərindəki qeydlərdə belə bu məqama dair yanaşmaların, münasibətlərin yer aldığını görürük: “Mən insanın dəyişə biləcəyinə və uzun müddət kommunistlərin avanqardı kimi tanıdığımız Heydər Əlirza oğlunun içərisində yeni bir Heydərin, Vətən və xalq xadiminin yetişdiyinə inanıram. Bu yeniləşmə lapdan, birdən-birə baş verməmiş, uzun illərin keyfiyyət çoxalmaları, yeni keyfiyyət sıçrayışlarına gətirib çıxarmışdır. Vaxtilə, “çiçəklənən”, indi xaraba qalmış SSRİ-nin xaraba qalmış vəzifə nərdivanında bir zamanlar onun tutduğu ən yüksək pillə Siyasi Büronun üzvü olması idi. Lakin başda M.S.Qorbaçov olmaqla qırmızı imperiyanın hakim dairələri gördülər ki, Heydər Əlirza oğlunu bu mühüm vəzifədən uzaqlaşdrmadan, Qarabağ kartını udmaq olmaz. Ümumən Azərbaycanı əvvəlki sümürgə (müstəmləkə) kəməndində həmişəlik saxlamaq olmaz. Uzaqlaşdırdılar. Heydər Əlirza oğlunun içərisindəki keyfiyyət sıçrayışı da elə bu zaman baş verdi. O, təmamilə öz xalqına qayıtdı, yenidən doğuldu. Azərbaycan yurdsevərliyi baş məramına, bütün varlığını qapsayan ideala çevrildi”.[2]

Xəlil Rza Ulutürkə məxsus olan bu fikirlər “Ədəbiyyat qəzeti”nin 1998-ci il 9 oktyabr tarixində həyat yoldaşı Firəngiz Ulutürkün təqdimatında çap olunmuşdur. Xalq şairi Zəlimxan Yaqub da “Kremldə keçən ömür” şeirində Heydər Əliyevin keçdiyi yola nəzər salır, onu hakim dairədən uzaqlaşdırmaq niyyətində Azərbaycanı parçalamaq, sındırmaq, təkləmək amilinin olması fikrini önə çəkirdi:

---

[1] Azər Turan. “Cavidnamə”. Bakı: "Elm Təhsil", 2010, s.485-487

[2] Xəlil Rza. “Gündəlik”. 2 may 1993-cü ildə Heydər Əliyev haqqında yazdığı bir parça. // “Ədəbiyyat qəzeti”, 9 oktyabr 1998-ci il

*"Vəzifədən getməlidir" –*
*Fikir aydın, qərar qəti,*
*Təzə xəbər deyil ki. Bu,*
*Saymaq ilə qurtararmı*
*Bu mərkəzin xəyanəti?*
*Bax beləcə ayaq açdı*
*Addım-addım üstümüzə*
*Qarabağın xəyanəti.*
*Boş sualın nə yeri var,*
*Niyə getdi, nəyə getdi?*
*Hər gedənlə can əridi,*
*Ürək getdi, bədən getdi!*
*O getməklə əlimizdən*
*Parça-parça Vətən getdi!*[1]

Meydanda isə 1970-1980-ci illərin – Heydər Əliyev zamanının reallaşdırdığı gerçəklər sırası vardı. Ölkə və xalq adına görülən nəhayətsiz əməllərin özülünün qoyulduğu mərhələ vardı: "XX əsrin 70-ci illərində parlaq istedadların özlərini təsdiq etməsi, elm və mədəniyyət, ədəbiyyat və incəsənət, iqtisadiyyat sahəsindəki nailiyyətlər onun yaratdığı mənəvi-psixoloji mühitin bəhrəsi idi".[2]

Hamının və hər kəsin vurğulayacağı bu gerçəyin üzərinə tarix yenidən qayıdacaqdı. Çünki 1970-1980-ci illər Azərbaycan ədəbiyyatı Heydər Əliyevin müəyyənləşdirdiyi əxlaqi-milli-mədəni aktın ilhamçısı və icraçısıdır. Cari prosesin, yazılan əsərlərin, bütöv ədəbi hərəkatın ideya zəmini rolunda çıxış edən aparıcı simadır Heydər Əliyev. "Belə ki, epoxaları birləşdirən Heydər Əliyev şəxsiyyəti nəinki "Şamo"nun, "Pərvanə"nin, "Fəhlə qardaş"ın, "Geriyə baxma, qoca"nın... ərsəyə gəlməsində yaşlı ədiblərimizlə qabaq-qənşərdir; habelə o, ədəbiyyata bilavasiyə "Yeni epoxa"nı gətirən, yetişdirən, himayə-təlqin edən, yazan-yazdıran bir tarixi simadır... Bu barədə gərəkdir həmçinin çağdaş Ədəbiyyatda Nəsimi həqiqətlərini gəlişdirən İsa Hüseynovdan və Qabildən soruşasan; Xətai nisgilini yaşayan Fərman Kərimzadənin mətnlərinə varasan, Dədəm Qorqud çağdaşlı-

---

[1] Zəlimxan Yaqub. Seçilmiş əsərləri, XIII cilddə. XI cild, Bakı: Şərq-Qərb, 2013, s.39
[2] Hüseynbala Mirələmov. İşığın izi ilə (tarixi-ədəbi esse) Bakı, "Azərbaycan" nəşriyyatı, 2004, s.13-14

ğına körpü qoyan Şamil Cəmşidov və Anardan sorasan; şeirdən, nəsrdən, dramaturgiyadan nə qədər belə misallar gətirmək olar hələ; axı kim dana bilər, 1960-1980-ci illər bizim Ədəbiyyatda, Mədəniyyətdə, Sənətdə epoxadır; neo-maarifçi çağdaşlığımız və bəli, Əsr iddiamızdır..."[1]

Sovet epoxası daxilində bütün ölkə miqyasında sosial-tarixi, ədəbi-estetik qanunauyğunluqlarla müasir ədəbiyyatın özünün bədii-fəlsəfi ənənəsi arasında əlaqə, körpü rolunu Heydər Əliyev icra etdi. Ədəbiyyatın uzun illərin mənəvi təmassızlığından sonra yeni bir bədii-fəlsəfi zirvədən keçmişə, özünə qayıtma dövrü məhz Heydər Əliyevin payına düşdü. Bu mərhələ milli özünüdərk, milli mənlik şüurunun dirçəldilməsinə canatım illəri kimi Heydər Əliyevin simasında dolğun mövcudluğunu yaşadı. Yaddaşın dövriyyəsinə qatdığı şəxsiyyətlərin yaradıcılığı ilə ümumi amal, ideya əsasını təşkil edən şüur intibahı, təfəkkür oyanışı, milli tərəqqi kimi ali duyğuları özündə əks etdirən bu dövrün özəlliyi Heydər Əliyevin şəxsində bütün parametr və tərkibi ilə görünə bildi. Bu mənada 1960-1980-ci illər poeziyası və nəsrində Heydər Əliyev obrazı həmişə dominantdır. Onu yetirir, stimul verir, poetikasından tutmuş problematikasına qədər alt məqamda iştirak edir.

Bu, Heydər Əliyev ədəbiyyatıdır!

## İstiqlal siyasətindən milli müstəqilliyə

Heydər Əliyevin siyasətini istiqlal sözü ilə bir müstəviyə qoyub, elə eyni müstəvidə "İstiqlal poeziyası" deyilən bir təsnifatı dövriyyəyə gətirmək mümkündür. Daha sonra isə milli müstəqillik kimi tarixi nailiyyətimizi. Nədən ki, siyasətdən müstəqilliyə doğru gedilən yolda tarixi dönüşü icra etmək missiyasını həmişə poeziya gerçəkləşdirib. Akademik İsa Həbibbəyli yazır: "Heydər Əliyev keçmiş sovet rejimi dövründə bütün çətinliklərə baxmayaraq, ölkəmizdə milli istiqlal düşüncəsinin əsaslarını formalaşdırmaq kimi məsuliyyətli və şərəfli bir vəzifəni böyük bacarıqla həyata keçirmişdir. Bundan başqa, sovetlər ölkəsi ilə münasibətləri tərs gələn milli istiqlalçıların – Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun, xalq yazıçısı Mirzə İbrahimovun, böyük vətəndaş alim Abbas

---

[1] Tehran Əlişanoğlu. Azərbaycan, Azərbaycan. Bakı: "Nurlan", 2005, s.93-94

Zamanovun, xalq şairləri Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının böyük dayağı ölkə rəhbəri Heydər Əliyev olmuşdu. İndi Azərbaycan Respublikasının keçən əsrin yetmiş-səksəninci illərində baş verən əsas siyasi-iqtisadi, elmi-mədəni hadisələri yenidən təhlil edilərkən görünən və görünməyən bütün proseslərin alt qatında, fəlsəfəsində, mahiyyətində millilik amilinin, müstəqillik düşüncəsinin, milli dövlətçilik təfəkkürünün varlığını, mövcudluğunu çox aydınlıqla görmək olar".[1]

Önəmli faktdır ki, 1995-ci ildə Heydər Əliyevin sərəncamı ilə ilk dəfə olaraq "İstiqlal" ordeni təsis olunur və bu ordenə üç şair – Xəlil Rza Ulutürk (ölümündən sonra), Məmməd Araz, Bəxtiyar Vahabzadə layiq görülür. Bəxtiyar Vahabzadə poeziyasının istiqlal, hürr amalı gün kimi aydın həqiqətdir. Bəxtiyar Vahabzadə Heydər Əliyev ideallarına sona qədər sadiq, ən ağır günlərində onunla çiyin-çiyinə dayanmış şair olub. Bütün xalqla, bütün millətlə birgə. Onun ömür bioqrafiyasında, ədəbi-elmi yaradıcılığının tərcümeyi-halında geridə qalan bir əsrə yaxın zaman kəsiminin addımları duyulur və bu addımlar milli tariximizin, milli varlığımızın nəfəsi duyulan qatlarından ayaq açıb yeriyir. Bu qatlar tarixdir, dildir, azadlıq idealları, istiqlal vuruşudur. Bəxtiyar Vahabzadə yaradıcılığı sovet dövründə bilərəkdən güdaza verilən tarixi yaddaşın, bilərəkdən unutdurulan dil yaddaşının, bilərəkdən susdurulan azadlıq nidasının oyanışına imkan vermək amacına xidmət üçün ərsəyə gəlmişdi və bu, bəlkə də onun bütün yaradıcılığı ərzində boyuna biçilən başlıca şair missiyası idi. Onun poeziyasında gur, çılğın notların başlanğıc məqamları bu amillərə söykənirdi. Millətin və xalqın tarix bioqrafiyasını poeziyanın yaddaşına çevirmək...

1990-cı ilin 20 Yanvarında törədilən qanlı qırğın zamanı Bəxtiyar Vahabzadənin yazdığı "Şəhidlər" poeması şairin içindəki azadlıq nidasının hayqırtısı kimi ərsəyə gəldi. Şəhidlərə abidəni Dağüstü Parkdan öncə poeziya qoydu, onun memarı isə Bəxtiyar Vahabzadə oldu. Və yalnız mətndə, poeziya nümunəsində deyil, xalqı öz kimliyi, azadlığı üçün meydanlara çıxarmağa sövq etdirən, onlara cəsarət, savaş əzmi aşılayan qüdrətində. 90-cı illərdə, yeni epoxaya qədəm qoyanda da Bəxtiyar Vahabzadənin həyat ritmi pozulmadı, zamanın

---

[1] İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi", 2013, s.34

iki fərqli mərhələsi onun yaradıcılığında bir-biri ilə toqquşmadı... O qədər ki, aşağıdakı misraları yazmağa onun hamıdan artıq haqqı çatdı:

*əslimi, nəslimi tanıyıram mən*
*qarışıq deyiləm, özümdən hürkəm.*
*sən kimsən, sən nəsən, özün bilərsən,*
*mən ilk qaynağımdan türk oğlu türkəm.*

Bu mənada 1995-ci ildə Heydər Əliyev "İstiqlal" ordenini Bəxtiyar Vahabzadəyə təqdim etməkdə yanılmırdı. Eləcə də Xəlil Rza Ulutürkə münasibətdə... Xəlil Rza Ulutürkün milli duyğularla süslənmiş poeziyasını təhlil etmək bir başqa mövzudu, amma bu anda onun Heydər Əliyevlə bağlı apardığı mücadilənin bəzi həssas məqamlarına varmağa ehtiyac olduğunu düşünürəm.

"1987-ci ilin 6 oktyabrında mətbuat prospekti ilə addımlayan Xəlil bəy təbiətinə yaraşmayan hüznlü bir ahənglə: «tərənnüm obyektimizi itirmişik. Azərbaycanı murdar əsgiyə çevirirlər» - dedi və o söz mənim yaddaşımda o günlərin ən real təsnifatı və obrazı olaraq qaldı.

1987-ci ilin oktyabrı idi.

Azərbaycan tarixinin yeni dövrü də oktyabrdan başlanırdı. Qarabağ müharibəsinə, torpaqlarımızın işğalına rəvac verən sovet imperatoru Qorbaçov məhz 1987-ci ilin oktyabrında, həmin ayın 21-də Heydər Əliyevi Siyasi Bürodan kənarlaşdırdı.

Məhz Heydər Əliyev getməliydi ki, Aqanbekyan «Hümanite»yə o qara sevdalı müsahibəsini verə bilsin (17 noyabr 1987).

Məhz Heydər Əliyev getməliydi ki, Dağlıq Qarabağ Muxtar Vilayəti özünün Ermənistana verilməsi barədə qərar qəbul etsin (20 fevral 1988).

Məhz Heydər Əliyev getməliydi ki, Əskəranda ilk şəhidlərin: Əli və Bəxtiyarın günahsız qanı axıdılsın (22 fevral 1988).

Heydər Əliyev Siyasi Bürodan getdi və bundan sonra o yekəlikdə ölkədə siyasi şoular dövrü başlandı. «Literaturnaya qazeta»nın sentyabr ayında dərc etdiyi «Gurultulu alqışlar» məqaləsi (hədyanı!) yenə də məhz 1988-ci ilin 9 oktyabrında «Kommunist» qəzetində şərəfsizcəsinə təkrar edildi.… Xəlil bəy 6 oktyabrda, təbii ki, Vaksberqin o ədəbsiz və ədəbaz cızmaqarasından xəbərsiz deyildi və:

«tərənnüm obyektimizi itirmişik. Azərbaycanı murdar əsgiyə çevirirlər» sözləri də o ağrılı və təəssübkeş yaşantıların ifadəsi kimi unudulmazdır”.[1]

Bu fikirləri “Aydınlıq” qəzetinin 12 iyun 1992-ci il tarixli nömrəsində Azər Turanın «Ya zəfər, ya ölüm yaz bayrağına!» adlı essesində oxuyuruq. Ümummilli lider hələ iqtidara gəlməmişdi. Heydər Əliyev Naxçıvanda işləyirdi və Bakıda ona qarşı əks-təbliğatlar gedirdi. Hakimiyyətdə anarxiya hakim idi. Ayaz Mütəllibov getmiş, Əbülfəz Elçibəy isə dörd gün əvvəl, 1992-ci ilin 8 iyununda prezident seçilmişdi. Ölkənin yeni seçilmiş prezidenti var idi. Xəlil Rza Ulutürk isə meydanlarda mitinqlər keçirib Heydər Əliyevin hakimiyyətə gəlməsi üçün çağırışlar edir, israrlı tələblər irəli sürürdü. Şair Əliyevin müdafiəsinə qalxdığna görə istər partokratlar, istərsə də naşı demokratlar tərəfindən qınaqlara məruz qalmışdı. Onu hər nə yolla olursa-olsun susdurmağa çalışırdılar. Bu, indi adi görünə bilər. Amma o dövr üçün qeyri-adi hərəkət idi və məhz o günlərdə bu yazını çap etdirmək Xəlil Rzaya və əslində Heydər Əliyevə dəstək demək idi: “Fitrətən kədərli bir zamana gəlib çatdıq.... Naşad millət gəmimiz müasiri olduğumuz zamanın qanlı sularında yelkənsiz və kapitansız üzür. Və bu gün meydanlarda Xəlil Rza Ulutürk Heydər Əliyevi səsləyirsə, öz cəsarətli əməli ilə o, Şəhriyarın: "Dağa dağlar dayaq oldu" – kəlamını yenidən qüvvəyə mindirir və düz hədəfə vurur. İstiqlala böyüyünün üzünə “sən böyüksən” – deməyi bacaran millət layiqdir”.[2]

Həmin yazıdan 1 ay 16 gün sonra (28 iyul 1992) "Aydınlıq" qəzetində Xalq yazıçısı Elçinin Heydər Əliyev barədə “Dünya axirət əkini” yazısı çap olunur. Əlbəttə, o zaman belə yazılarla çıxış etmək müəllifindən yüksək əqidə və cəsarət tələb edirdi. Bəxtiyar Vahabzadənin 1991-ci il, Parlamentdə Heydər Əliyevi müdafiə edən məşhur çıxışını da həmin cəsarət nümunələri sırasında anmaq olar. 1990-cı illərin əvvəllərində Bəxtiyar Vahabzadə siyasi görüşlərini Türkiyə və Türk dünyası ilə Azərbaycan arasında mötəbər körpülərin qurulmasında müstəsna xidmətləri olan alman əsilli müsəlman, türkoloq-şərqşünas Hans Əhməd Şmide ilə bölüşürdü: “Bu anda bütün ümidimiz Heydər Əliyevədir... O, çox böyük bir siyasətçi və

[1] Azər Turan. Ya zəfər, ya ölüm yaz bayrağına! “Aydınlıq” qəzeti, 1992, 12 iyun
[2] Yenə orada

dövlət adamıdır. Azərbaycanda baş verən daxili çəkişmələr və daxili ziddiyyətlər ölkənin xaricindən idarə olunur. Bu işlərdən yalnız Heydər Əliyev baş aça bilər. O, hər şeyi gözəl bilir. Mən onu həm məclisdə, həm də mətbuatda dəstəkləyirəm. Sonumuzun nə olacağını bilmirəm. Amma onu bilirəm ki, son ümidimiz odur”.[1] Bunu Vahabzadə Şmideyə yazırdı.

1980-ci illərin sonlarından etibarən ölkə əvvəlcə yenidənqurma adı ilə göstərilən bir absurdun tamaşaçısı olmaq məcburiyyətini yaşadı, ardınca bu ümidlərin də fiaskoya uğraması prosesi başladı. Hakimiyyət insanı oyuncağa çevirir, siyasi hərc-mərclik içində çabalayan respublikanın müqəddəratı müəyyən maraqların, mənafelərin güdazına verilirdi. Xalq həm daxili oyunların, həm də xarici siyasətin vintciyi, təkərciyi olmaq haqqından imtina etmək səviyyəsinə yetmişdi artıq. Öz haqqının sahibi olmaq zamanı çatmışdı. Nəhayət, 1991-ci ilin oktyabrında Azərbaycanda milli müstəqillik elan olundu. Amma bu o qədər də asan başa gəlmədi. Bunun üçün millət 1990-cı ilin 20 Yanvarında “sınaq imtahanı” verdi.

Bu günlərdən həmin çağlara baxanda çox şey bizə vahiməli görünür. Əslində, bu təəssüratı doğuran zamanın özünün obrazıdır. Həmin illərdə milli poeziyamızda bir mövzunun daha aparıcı olduğu görünür: 20 Yanvar faciəsinə münasibət və onun bizim tarixi taleyimizdə daşıdığı missiya. Bu faciələrin içində 20 Yanvar ona görə milli özünüdərkin faktı kimi yad edilir ki, bu tarixin özündə yaddaşı oyatmağa yönəlik olan missiya dayanır. Çünki hər bir xalqın tarixi taleyində elə günlər var ki, tökülən qanlara, yaşatdığı acılara rəğmən onun hürriyyət əzmini, mənəvi potensialını ehtiva etdiyindən qürur rəmzinə çevrilir.

*Ölmədik, ölmədik, ey uca Allah,*
*Bu qanlı-qadalı günü də gördük,*
*Biz də sözümüzü ucadan dedik,*
*Biz də bu zamandan bir gün götürdük.*

Arif Abdullazadənin son misrasında vurğulanan – “zamandan bir gün götürmək” – bu, bizim üçün Tanrının ayırdığı bir gecəlik sınaq məqamı idi. Yanvarın 19-dan 20-nə keçən gecə – həmin gün və-

---

[1] Bax: Elnarə Akimova. Bəxtiyaram mən. Bakı: “Çaşıoğlu”, 2016, s.92

tən oğulları sanki öz xoşuna, “gəl təcrübə eylə mən zəifi” nidası ilə “qəmin hərifi” olmağa gəlmişdilər.

Bu faciə yaşatdığı acı qədər, həm də bir xalqın tanıtım günü idi. Sınmayan qürurunun, sarsılmayan vüqarının ən yayğın atəş, odlu silah qarşısında belə qaya kimi duruşu idi. Və mahiyyətə vardıqda bizim dövlət, xalq kimi müstəqilliyimizin tarixi onun rəsmi olaraq təsdiqləndiyi 1991-ci ilin 18 oktyabrından daha öncə 1990-cı ilin 20 Yanvarında qoyulub.

Milli müstəqilliyimizin bərpası ilə yetmiş illik bir dövrün xarakter və çalarları, ziddiyyət və təzadları, tendensiya və meyilləri tarixə qovuşdu. Bütöv bir epoxanın süqutu cəmiyyətin bütün sferalarında kəskin dönüş, ciddi təbəddülatlar yaratdı. Miqyaslı yeniləşmə prosesinin əsası qoyuldu ki, milli ruhda və statusda özünüifadə imkanları açan mərhələnin tələb və vəzifələri lazımi səviyyədə öz təsdiq və təsbitini tapa bilsin. Ədəbiyyatın yenidən öz stixiyasına dönüşü, gerçəklərlə, cəmiyyətlə, sənətlə qabaq-qənşər dayanması ona mövqeyini təyin etməsi, estetik sistem kimi fəaliyyət göstərməsi üçün yeni səhifə açdı. Bu mənada, 1990-cı illər ədəbiyyatımız üçün yalnız yeni tarixi mərhələnin başlanğıcı deyil, həmçinin nəzəri-estetik keyfiyyət dəyişmələrinin zəminini təşkil edən, bədii düşüncə sferasında – bədii fakta və prosesə yanaşmada, tarixi-ədəbi fikrimizin müxtəlif dövrlərinə və şəxsiyyətlərinə münasibətdə obyektiv rəy formalaşdırmağa çalışan zaman vahidi kimi səciyyəvidir.

Bu dövr tarixi taleyimizdə müstəqillik nailiyyətimizi əldə etdiyimiz zaman vahidi kimi səciyyələnir. Eyni zamanda üzləşdiyimiz Qarabağ problemi, yaşadığımız müharibə acıları çağın insanına, sənətə təsir edən başlıca nəsnələr olmuşdur. Bütün sahələr kimi, milli poeziyamız da bu dönəmdə iki hissin təsiri altında öz varlığını davam etdirmişdir.

1990-cı illər elə bir mərhələdir ki, XX əsr daxilində öz əlahiddəliyi ilə xüsusi əhəmiyyət kəsb edir. Keçid dövrü kimi xarakterizə olunan bu mərhələnin bir-biri ilə ziddiyyət təşkil edən ikili səciyyəsi – onun həm qopub ayrıldığı sovet dövrünün rudimentlərini özündə daşıması, həm də bu qalıqlarla mübarizə apararaq yeni biçimdə özünü ifadə etməyə çalışması kimi əlamətlər onilliyin əsas göstəricisini təşkil edir. Bu dövr həm də qlobal proseslərin milli ədəbiyyatımıza yansıdığı zaman vahidi kimi səciyyəvidir. Məlumdur ki, yaradılan hər hansı əsər müəllifinin zəkasının, dünyaduyumunun, istedadının

təzahürü kimi meydana çıxsa da, başlıca olaraq zaman və dünya proseslərinin onda yaratdığı hisslərdən törəyir, başqa sözlə desək, dünyanın durumu, halı bədii yaradıcılığa transfer olunur. 1980-ci illərin prosesləri göstərdi ki, əslində dünyada, cəmiyyətdə baş verən hadisələrin, qarışıqlıqların sənətə, yaradıcılıq prosesinə daha çox təsiri vardır. Çünki məhz bu illərdən başlayaraq poeziyanın ritmi tamam başqa mövzulara kökləndi. Bir tərəfdən böyük bir imperiyanın çöküşü, onunla bağlı ümidlərin puç olması, bütün postsovet ölkələrinin azadlığa can ataraq imperiya əsarətindən qurtulma çabaları, Azərbaycanın milli müstəqilliyini əldə etməsi, digər tərəfdən üzləşdiyimiz Qarabağ problemi, 20 Yanvarda rus ordusunun törətdiyi qanlı qırğın, torpaqlarımızın ard-arda itirilməsi, Xocalı soyqırımı.... hadisələr elə sürətlə cərəyan etdi ki, Azərbaycan insanı üçün baş verənləri dərk etmək, onu müşahidə etmək, yaşamaq qədər çətin idi. Digər tərəfdən, beynəlxalq səciyyəli proseslər baş verirdi ki, insan çaşğınlığa düşür, özünü mənəvi deqradasiyanın pik həddində sanırdı. Bəşəriyyətin taleyi təhlükədə idi. Ona görə XX əsrin sonlarında Azərbaycanda baş verən proseslərə – xaos və kataklik olaylara, müharibə və savaşlara, siyasi çəkişmələr və oyunlara, terror hadisələri və qətliamlara yalnız lokal bir cəmiyyətin problemi kimi yanaşılmır, bu böhran həddi dünya səviyyəsində gedən xaos dalğasının təzahürü olaraq qavranılırdı.

Dünyanın bir tərəfində milli-etnik münasibət gərginləşir (1989-cu ildə Fərqanədə ahısqa türklərinə qarşı törədilən cinayətlər və onların küll halında köçürülməsi, 1990-cı ilin iyun ayında Qırğızıstanda qırğız-özbək qarşıdurmasının yaranması, Krımda Krım tatarları ilə ruslar arasındakı qarşıdurmalar, Moldovada Dnestryanı Moldova Respublikası məsələsinin ortaya atılması), digərində ərazi iddiaları baş qaldırır (80-ci illərin sonlarında Ermənistanın Dağlıq Qarabağ və Naxçıvanla bağlı ərazi iddiaları qaldırması), başqa bir tərəfdə milli azadlıq (Cənubi Osetiya və Abxaziya arasında, Şimali Osetiyada, Çeçenistanda… azadlıq və torpaq uğrunda gedən mübarizə), demokratiya uğrunda mübarizə (18 mart 1990-cı ildə kapitalist rejiminin hökm sürdüyü AFR ilə ADR-in birləşməsi, 21 noyabr 1991-ci ildə Makedoniyanın Yuqoslaviyanın tərkibindən çıxmağa müvəffəq olması, eləcə də 1988-1989-cu illərdə Polşada, Çexoslovakiyada, Macarıstanda demokratiya tələbləri ilə keçirilən mitinqlər, tətillər) kəskinləşirdi. Azərbaycan insanı üçün lokal olaraq yaşadığı

hadisələrin miqyası da hüdudsuz, yetərincə miqyaslı idi: 1980-ci illərin sonlarında baş verən Sumqayıt hadisələri, Qarabağda kəskinləşən münasibətlər – jurnalist Salatın Əsgərovanın, Çingiz Mustafayevin həlak olması, 1990-cı ilin 20 Yanvarında törədilən qırğın, 1991-ci ilin noyabrındakı vertalyot qəzası, 1992-ci ilin fevralında baş verən Xocalı soyqırımı. Milli müstəqilliyini elan etmiş Azərbaycan Respublikası eyni zamanda yalnız Qarabağ probleminin məngənəsində var-gəl etmir, ölkə miqyasında qabaran başqa olayları dəf etməyə çalışırdı: 1993-cü ilə qədər aparılan hakimiyyət çəkişmələri, siyasət oyunları, ölkədə yaranan hərc-mərclik, milli-siyasi qarşıdurmadan törənən Gəncə hadisələri, hadisələrin vətəndaş müharibəsi səviyyəsinə çatması obyektiv mənzərəni təfərrüatı ilə anlamağa kifayət edir.

1990-cı illərdən başlayaraq poeziya daha çox milli problemlərə köklənir, Qarabağ ağrısının təfsilatlarına enir, güclü pafosu həzin əda ilə əvəzləyirdi. 1990-cı illərin əvvəllərində şeirdə dekadans çalarlar daha da dərinləşdi. Həyata, dünyaya, insana münasibətdə şairin mövqeyi daha kəskin, daha tünd boyalarla təsvirə gəlməyə başladı. Bu kəskinlik, ekspressiv boyalar ayrı-ayrı vaxtlarda, xüsusən 1960-80-ci illərdə əməl cizgisi kəsb eləsə də, 1990-cı illərin şeirində həmin münasibətin özü belə təbəddülata məruz qaldı. Burada həyatın, cəmiyyətin böhranından daha çox həyata, cəmiyyətə münasibətin özündə gedən böhrandan danışmaq bəlkə daha caizdir. Sovet dönəmində cəmiyyətin böhranı müstəqillik dönəmində münasibətin özündəki böhran, boşluqla əvəzlənmişdi: "könlüm oldu xarabazar, /talan mənim içimdədir", – yazırdı Bəxtiyar Vahabzadə. Ədibin əsərləri böyük bir imperiyanın çöqümündən sonra gerçəkləşən mədəni-mənəvi deqradasiyaya münasibətin ifadəsi idi.

Bir qisim şeirlərdə müharibənin tragik lövhələri müxtəlif rəng polifonizmi ilə bədii təcəssümün predmetinə çevrilmişdir. Daha çox qisas ritminə köklənən, yağı düşmənə qarşı alov püskürən bu şeirlər düşüncə tərzinin emosional yönümü ilə yadda qalır: "Mən bilirəm: geriyə yol yoxdur atam! /Öncül oğul dönüb geri baxmır, atam!" (Məmməd Araz); "Əhrimənlər yuvasını darmadağın edəcəksən, /Qalxıb sabah Aya, Marsa, ulduzlara yetəcəksən, /Altı milyard insanlığam, qarı düşmən, sənsə təksən, /Zəhər saçan bir əfisən, tor quran bir hörümçəksən." (Xəlil Rza Ulutürk); "Nə qədər ki, qisası yağıdan almamışıq, /Düşmənin qollarını yanına salmamışıq, /Haqqı-

mızı qazanıb qələbə çalmamışıq, /Eşqim, ruhum, mənliyim hərəsi bir yaraqdı! /Bu da bir cür imtahan, bu da bir cür sınaqdı! /Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!!!" (Zəlimxan Yaqub); "Qalx, düşmən əlində vətən çırpınır, /Qayaya çırpılır, daşa çırpılır, /Qalx, qovaq göylərdən bu qara yeli. /İrəli, irəli, ancaq irəli!" (Famil Mehdi); yaxud "Geysin döyüş paltarını Alov saçan dağ-daşımız, /Ağlamayın, məlhəm deyil yaramıza göz yaşımız!" (Hüseyn Kürdoğlu).

Müharibənin ilk illərində poeziyada bu çalar – yəni, sınmamaq, düşməndən öc almağa çağırış notları daha qabarıq idi. Məmməd Arazın "qorxuram ki, sına millət, ağlama" xitabı üstə qurulan şeirlərdə əsas poetik məkanı coşqu, dərdə əyilməzlik, mübarizədən usanmamaq meyilləri istila edirdi. Bu istəyin realizə olunmaması şairlərdə pessimizm duyğusu yaradır, onlarda aqressiya hissini qüvvətləndirir, onlar gah döyüşçüyə müraciətlə: "Əcdadımız yatan bu dağ sənindir, /Viranə görünən yaylaq sənindir, /Odu söndürülən ocaq sənindir, /Qaçma bala, qaçma, torpaq sənindir!!!" (Hüseyn Kürdoğlu), gah vicdanını ittihamla: "Müsibətlər, məşəqqətlər /Edir yaman tüğyan bu gün! /Yatan vicdan, /Oyan vicdan! /Sən vətənin keşiyində dayan, vicdan." (Nəbi Xəzri), gah da özünü qınaqla "İşıqlısız, Dəlidağsız, Kəlbəcərsiz nə vətən, /Qırxqız hanı, Turşay hanı, Ağbulaqsız nə vətən, /Qarabağsız ah çəkirdik, Qarabağsız nə vətən, /O gözəllik səltənəti tapdalanırsa, /Neynirik bu canı biz?!" (Hüseyn Kürdoğlu); "Cırtdan boyda Çeçenistan /Dəvə boyda Rusiyaya dərs verəli /Onu şöhrət məqamından endirəli /Mən özümü necə varsa, /Elə görüb utanıram. /İndi çeçen qeyrətindən /Dərs götürüb utanıram" (Bəxtiyar Vahabzadə) kimi şeirlər yazırdılar.

Nəhayət, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdışından sonra ölkədə siyasi qarşıdurma aradan qalxdı, Azərbaycan-Ermənistan arasında atəşkəs rejimi elan olundu, bütün sahələrdə sabitlik hökm sürməyə başladı. Ölkə həyatındakı bu sabitlik, proseslərin müsbətə doğru dəyişilməsi poeziyaya təsirsiz ötüşmədi. Bu mənada, 1993-cü ilə qədər poeziyada hakim olan ovqatla 1993-cü ildən sonrakı ovqat arasında kəskin fərq var. Bu ovqat dəyişimi poeziyanın müraciət etdiyi mövzularda yox, onlara münasibətdə təzahür etmişdir. 1990-cı illərin ortalarına qədər poeziya daha çox çılğın, əsəbi notlar üzərində gəzişir, pafos, çağırış, üsyan ruhu daha öndə qərarlaşırdı. 1990-cı illərin ortalarından başlayaraq poeziyada daha təmkinli şair ədası, loyal yanaşma

güclənir. Bu, Heydər Əliyevin sayəsində getdikcə səngiyən müharibə alovunun, aradan qalxan siyasi hərc-mərcliyin nəticəsi idi ki, bədii fikirdə də proseslərə daha üstün baxışı şərtləndirmişdi. Əlbəttə, bəzi şairlərin yaradıcılığında (məsələn, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Zəlimxan Yaqub, Musa Yaqub, Süleyman Rüstəmxanlı) patriotik pafos, hisslərin çılğın ifadəsi, çağırış, üsyan intonasiyası, etiraz hissi həmişə qabarıqlığı ilə seçilirdi. Buna baxmayaraq, milli şeirimiz baş verənlərə artıq ümidsiz yanaşmırdı. Maraqlıdır ki, bu dövr poeziyasında şairin proseslərə yanaşması da qlobal səciyyə daşıyır, şairlər hər hansı situasiyada artıq dünyada baş verən anoloji olaylara üz tutur, onlardan mənəvi istinadın ünvanı olaraq bəhs edirdi. Akademik İsa Həbibbəyli dövrün mürəkkəb poeziya mənzərəsi ilə bağlı müşahidələrini dəqiq və sərrast ifadə edir: "Azərbaycan ədəbiyyatında ən çətin məqamlarda belə bədii sözün qüdrəti Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub və başqaları kimi şairlərin timsalında öz gücü və enerjisini, sənət səviyyəsini qoruyub saxlaya bilmişdir".[1]

Məsələn, bu dövrlərdə Bəxtiyar Vahabzadə, Qabil, Zəlimxan Yaqub, Məmməd Araz, Akif Səməd, Fikrət Sadıq, Musa Yaqub, Ramiz Qusarçaylı Çeçen qəhrəmanlığını vəsf edir, onların mübarizliyini milli insana örnək göstərir, Zəlimxan Yaqub ikiyə bölünmüş ölkənin nicatı üçün Almaniyanın birləşməsini yada salır, Musa Yaqub ölkədə baş verənlərlə İraqda, Abxaziyada törədilən olaylara BMT-nin münasibətini (Zəlimxan Yaqub «BMT-nin baş katibinə», «BMT-nin qətnaməsi», Musa Yaqubun «BMT» şeirləri və s.) bədii sözün predmetinə çevirirdi. Bu təbii ki, poeziyanın baş verənlərə qlobal miqyasda nüfuzunun, münasibətinin nəticəsi idi.

Keçid dövrünün ədəbiyyatı böyük bir imperiyanın çökümündən sonra gerçəkləşən mədəni-mənəvi deqradasiyanın nəticəsi kimi pərvəriş tapırdı. Mədəniyyət və ənənəvi dəyərlər gözdən salınır, neçə onilliyin ədəbiyyatı nihilist yanaşmaların güdazına verilir, profanlaşma artır, elmin surroqatla əvəzlənməsi prosesi başlanırdı. Azərbaycan insanı da öz müstəqilliyini yaradan, postsovet məkanı kimi özgürlüyünü yaşayan xalq olaraq həm keçid dövrünün, həm də dünya səviyyəsində mövcud xaotik mərhələnin yükünü və ağrısını daşımağa məcbur edilmişdi. Yeni liderin gəlişinə, xalqın nicat yeri-

---

[1] İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s.302

nə çevrilməsinə ehtiyac vardı, zəmanə öz qəhrəmanını gözləməkdə idi. Poeziya “Allahım, mənə bir ağsaqqal yetir” (Zəlimxan Yaqub) nidası ilə çağırışlar etməyə başlamışdı artıq:

*Allahım, mənə bir ağsaqqal yetir,*
*Ona söylənəsi ağrım-acım var.*
*Oğul deyə-deyə sızlayan anam,*
*Qardaş deyə-deyə yanan bacın var.*

*Allahım, mənə bir ağsaqqal yetir,*
*İstər yerdən çıxart, özün bilərsən.*
*İstər göydən endir, özün bilərsən.*
*Məsləhət sənindir, özün bilərsən.*

Poeziya çıxılmazlıq, xaos qarşısında nə edəcəyini bilmir, irtibatını göylərlə qurur, ümidini yenə də Allahdan gözləyirdi:

*Üzmüşəm əlimi yerdəkilərdən,*
*İlahi, göylərdən bir kişi göndər*

Xalq şairi Zəlimxan Yaqubun poeziyasında Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi, bu dövrdəki fəaliyyəti silsilə şəkildə bir neçə poemanın və şeirlərin poetik təcəssüm predmeti olmuşdur. Onun "Xalqın ehtiyacı var" poemasını da 1990-cı illərin əvvəllərində ölkədəki hakim dalğa doğurmuşdur. Şair müzəffər başçının, prosesləri düzgün axara yönəldə biləcək komandanın varlığına ehtiyac duyurdu və mövcud situasiyadan qurtuluşu bunda görürdü:

*Bizə ağsaqqal gərək,*
*Yurdu yada verməsin.*
*Bizə ağsaqqal gərək,*
*Xalqı bada verməsin.*
*Biz döyüşə gedəndə,*
*O bizə səngər olsun.*
*Buyruğuna, əmrinə,*
*Ellər səfərbər olsun.*
*Güvəndiyi həqiqət,*
*Dayağı bəşər olsun.*

Heydər Əliyevin 1993-cü ildə Naxçıvandan Bakıya gəlişi və yenidən hakim kürsüyə keçməyi şairlərin gözlədiyi, umduğu nicatın, Allahdan dilədikləri arzunun gerçəkləşdiyi məqam idi. Bu qurtuluşa yeni bir əsər – "Qurtuluş dastanı" həsr etdi Zəlimxan Yaqub:

*Qoy səsi guruldasın bu gün*
*altı qitədə,*
*Odur məndən ötəri ATƏT də,*
*BMT də!*
*Gəlib, o kişi gəlib!*
*Xalqın xeyrinə sarı,*
*çarxın gərdişi gəlib!*
*Millətinə, xalqına birləş deyir,*
*qalx deyir!*
*Öz haqqına güvənir,*
*haqq danışır, haqq deyir.*
*Əlli milyona çatmış*
*Azərbaycan Dünyası,*
*"Qurtuluş nəğməsi"ni*
*oxuyur bir himn kimi,*
*Bir səslə, bir avazla*
*"Heydər" deyir, "xalq" deyir.*

"Zəlimxan Yaqub bu dastanı yazmadı, bu dastanı yaşadı. Məşhur "91"lər üzünü Naxçıvana – Heydər Əliyevə tutanda Zəlimxan Yaqub, Bakı "qanlar içində qaynaşanda", "şərləri, naxələfləri, millət tanıya bilməyəndə", "dizi heydən, əli göydən üzüləndə", "üzünü tutmağa, sözünü deməyə adam tapa bilməyəndə", "məmləkət min yerdən dağılanda", "hərə bir yana – biri Talışa, biri Muğana çəkəndə", "vəzifə üstündə "stol davası" gedəndə", məşhur "91"lər Naxçıvana üz tutanda Zəlimxan Yaqub "Heydər Əliyev" hayqıraraq üzünü xalqa tutdu".[1] Şairin, sənətkarın vəzifəsi də budur əslində: millətin dəyərlərini ona anlatmaq, nəsillərlə əsillər arasında vəhdətə nail olmaq, total siyasi stressdən qurtulub ahəngə aparan yolu tapmaqda

[1] Ramiz Göyüşov. Dahi şəxsiyyət haqqında möhtəşəm əbədiyyət dastanları. "525-ci qəzet", 16 iyul 2014

xalqa xidmət göstərmək:

*Qorxur vəzifəbazlar*
*Bütün vəzifələrdən*
*yüksəklərdə dayanan,*
*Bir kişinin adından,*
*Gəlir o qüdrət, gəlir,*
*Dözüm, qətiyyət gəlir.*
*Adını eşidəndə millət qalxır ayağa,*
*Gözə işıq, cana od,*
*qəlbə cəsarət gəlir.*

Şair "Sən qalib gələcəksən" nidası ilə Heydər Əliyevin bütün çətinlikləri dəf edəcəyinə inam hissi aşılayırdı:

*Bir gecənin içində ağaran*
*saçın da var,*
*Suları qan axıdan Qarqar da var,*
*Xaçın da var,*
*Sızlayan Qarabağ da, inləyən*
*Laçın da var,*
*Min dəfə ağır olan çəkilməz*
*dərdlər də var,*
*İçimizi qurd kimi yeyən*
*namərdlər də var,*
*İstiqlalın yolunda zülm,*
*zillət də çəksən,*
*İstiqlala çatmağa xeyli*
*həsrət də çəksən,*
*Sən qalib gələcəksən!*

Xalq şairi Cabir Novruz 1990-1995-ci illər arasında Heydər Əliyevə həsr olunmuş "İxtiyarım olsa idi" (poema ittiham) poemasını[1] yazmışdır. Poema bütünlükdə iyirmi fəsildən ibarətdir. Müstəqilliyin ilk dönəminin acı mənzərəsi, 1990-cı illərin əvvəllərində xal-

---

[1] Cabir Novruz. İxtiyarım olsa idi... Bakı: Respublika Xatirə Kitabı Redaksiyası, 2002, s.364-393

qın üzləşdiyi gərgin olaylar, yaşadığı total stress və həyəcan, fəci və dramatik məqamlar poemada əksini tapmışdır. Poemanın ön sözündə şair yazır: "Yazdıqca qəzəblənirəm, qəzəbləndikcə yazıram. Az qala özüm-özümlə davaya, müharibəyə, cəngü-cidala girirəm. Son misrasını bitirəndə narahatlığım bitməyir. Ona təzədən dönürəm, onu təzədən şumlayıram, ələk-fələk edirəm. Fəsillər, sətirlər içində yanıram, ehtiraza gəlirəm. Öz əllərimlə öz yaxamdan tutub özümü sual-cavaba çəkirəm. Özüm-özümə müraciət edirəm. Neçin biz bu günlərə qaldıq, dünyanın naçar, faciəli xalqı olduq? Allah bu xalqdan heç nə əsirgəməyib. Bəs bu qorxaqlar, xainlər, namərdlər hardan peyda olublar? Bəs niyə belə olub, sual dalınca sual gəlir. Niyə xalqın çətin günündə Vəlimiz bir yana, əlimiz bir yana çəkib? Niyə mənsəbi, tamahı, vəzifəni, mənəmmənəmçiliyi, şəxsi mənfəəti hər şeydən, hətta vəzifədən də yüksək tutmuşuq? Niyə xalqa xidməti, millətə xidməti özümüzə, arvadımıza, uşağımıza xidmət kimi başa düşmüşük? Bəzilərimiz vəzifə, ad-san yolunda hətta vətəni, torpağı, milləti satıb, bu gün də beləlri içimizdə az deyil. Ona görə də məkrli düşmənlərimiz həmişə bizi bölüb parçalayır. Bu gün də yağı bu xasiyyətimizdən istifadə edir, bizi yenidən kəsir, şaqqalayır. Yetər, bu qədər parçalanmaq, bölünmək, az qala öz varlığını itirmək".[1]

Bu narahatlıq poemanın fəsillərində davam etdirilir. Bu misralarda 1990-cı illər Azərbaycanının portreti görünür. Təhlükədə olan, başı bir-birini əvəzləyən qanlı olaylardan ayrılmayan millətin real portreti... Bu həm də keçmişdən uzaqlaşmağımıza edilən müəllif tənəsi kimi üzə çıxır. Əsər müəllifin daxili narahatlığının poetik xitabı kimi hasilə gəlir. Tariximizi quran, yaradan, onun uğrunda qan tökən millət fədailərinin vasitəsilə oxucuya ibrət dərsi keçilir.

*Balaca xalqın nə qədər,*
*Vəkili, ağası olar?!*
*Nə qədər maldar, dükanlar,*
*Nə qədər mağaza olar?!*
*Gəlin, bir ölçəyin, gəlin.*
*Bu milləti yeyənlərin,*
*Bu milləti sökənlərin,*
*Bu boyda qarnı olar,*

[1] Cabir Novruz. İxtiyarım olsa idi... Bakı: Respublika Xatirə Kitabı Redaksiyası, 2002, s.365

*Nə boyda ağızı olar?!*
*Belələri həddin aşıb,*
*Hərə də bir yana çəkir.*
*Hamı da xalqa daraşıb,*
*Xalq da ki, zəbanə çəkir.*
*Ölkəni soymaq yarışı,*
*Satıb-sovurmaq yarışı*
*Görəsən, haçana çəkər?!*

Müəllifin qeyd elədiyi kimi, poema 1990-95-ci illər arasında yazılıb. Əsərlə tanışlıq bu qeydlərin doğruluğuna inandırır. Çünki oxu zamanı oxucu iki fərqli stixiya, iki fərqli intonasiya çaları, iki fərqli təsvir modusu, iki Cabir Novruz ovqatı ilə üz-üzə qalır. Poemanın əvvəlki fəsillərində oxuduğumuz parçalarda Cabir Novruz qəzəbli və narahatdır. Əsərin adından da göründüyü kimi, şair vətənə dönüklük edənləri sərt, ekspressiv boyalarla tənqid edir, ittiham predmetinə çevirir. Niyə bu günə qaldıq: keçmişimizi unutduğumuz, tariximizə sahiblik etməyi bacarmadığımız üçünmü? "İxtiyarım olsa idi" poemasında bu nüanslara işarələr var. Şairin intonasiyası kəskin, ironik modus güclülüyü ilə seçilir. Daha çox qəzəb, daha çox üsyan, xalqın təklənməyindən, məmur özbaşınalığından şikayət və başsız qalmağın fəci durumundan nigaranlıq düşüncəsi qabarıqdır:

*Alış, ey nifrətim, alış,*
*Qanımın bahasına mən,*
*İtirdiyimiz yerlərdən*
*Heç olmasa, beşcə qarış,*
*Geri almaq istəyirəm...*
*Atalarım, balalarım,*
*Torpağına pay alarlar?!*
*Babəklər qınayır bizi,*
*Dayanarlar üzümüzə...*
*Bir yandan da özümüzü*
*Qırdırırıq özümüzə,*
*Talan salırıq üstəlik,*
*Hər şey talan olan yerdə...*
*Başçı olmaq istəyirik,*
*Başsızlıq baş alan yerdə...*

Poema-müraciət formasında yazılan əsərdə müəllif Azərbaycanın tarixinə, şanlı keçmişinə müraciət üstündə köklənərək, xalqın milli-mənəvi və əxlaqi dəyərlərinin deqradasiyaya uğraması hallarına etiraz ədasında bulunur. "İttiham edirəm" poeması Vətən yanğılı, kök, mənşə bağlarına sadiq, tarixə və yaddaşa etibarlı bir sənət nümunəsi olaraq sabaha doğru inkişafda milli ədəbi, fəlsəfi və əxlaqi qütbləri nişan verən ünvan arayır və onu Ümummilli liderin simasında tapır. Sonrakı fəsillərdən Heydər Əliyevin xilaskar obrazı poemada görünməyə başlayır. Şair onun gəlişi ilə hərc-mərcliyin bitdiyini təsvir edir, şəhid məzarlarına, anaların söz yaşlarına son qoyulduğunu yazır. Bunu millətin, xalqın son şansı kimi dəyərləndirir:

*Şükürlər olsun Allaha,*
*Bəxt bizlərə sarı gəldi*
*Salamat çıxdıq sabaha,*
*Elin havadarı gəldi.*
*Bu tarixdir, həqiqətdir*
*Bu bər-bəzəkli söz deyil,*
*Bunu soruşun millətdən,*
*O daha doğru düz deyər.*
*Bu, tarixdir, həqiqətdir,*
*Gəlişi gözəl söz deyil*
*Daha yazıq anaların*
*Saçı vaxtsız ağarmadı.*
*Daha şəhid məzarları,*
*Sürət ilə çoxalmadı.*
*Azalmadıq qoşun-qoşun*
*Hər gün dağılıb-sökülüb,*
*O şəxsin böyüklüyünü,*
*Siz şairlərdən soruşun,*
*Şairlər daha düz deyər!*

Azərbaycanın həmin dönəmdəki durumunu qəmxanəyə bənzədən Cabir Novruz Heydər Əliyevi tək mübariz, faciə qəhrəmanı adlandırır. Heydər Əliyevin Kremldəki savaşlarını, millət, vətən naminə gördüyü işləri önə çəkir, "Prezident olmağa nə var, /Heydər Əliyev ol görüm", – deyərək kiçik millətdən böyük, miqyaslı, dünyanın

qəbul etdiyi dövlətə çevrilməyimizi onun adı ilə bağlayır. Heydər Əliyev türk ruhu və mənəviyyatının, onun tərəqqi və mədəni-tarixi bütövlüyünün zəmini, özülü kimi təqdim olunur:

*O, doğma xalqın içində*
*Güllə batmaz Heydər olub.*
*Onunladır hara gedə*
*Bu başı bəlalı ölkə...*
*Bu torpağa onun qədər,*
*Xidmətçi olmayıb bəlkə...*
*Bu milləti onun qədər,*
*Ərzdə tanıdan olmayıb,*
*Məmləkətdə onun qədər,*
*Qurub-yaradan olmayıb.*
*Heydər Əliyev deyəndə*
*Bu kiçik millət böyüyür.*
*Heydər Əliyev deyəndə*
*Doğma məmləkət böyüyür.*

Rəfiq Zəka Xəndanın 1993-cü ildə yazdığı "Heydər baba" poemasında[1] da aktual vurğu türklük ruhu, onun mübarizə və qalibiyyətlə dolu dünəni, yaddaşın oyaqlığı məsələsidir. Bu prizmadan 1990-cı illərin təlatümlərlə zəngin durumuna üsyan edən şair vətəndaş yanğısı ilə baş verənlərin poetik ümumiləşdirməsini yaradır, nicatı Heydər Əliyev kimi millət, xalq sevdalısının dönüşündə arayırdı:

*Ağlayan türkümüzü duymaya Türk lazımdır,*
*Bax bu günlər ölümə dalmış olan millətimə.*
*Millətin rəmzi olan bir Atatürk lazımdır,*
*Ana yurdda atasız qalmış olan millətimə.*
*Atamız, atamız sevgili Heydər babadır,*
*Uzun illər ulusun nisgili Heydər babadır.*

Poema Heydər Əliyevin hakimiyyətə yenidən qayıtdığı bir dövrdə qələmə alınıb. Burada böyük liderin obrazı qurtuluş, xilas-

---
[1] Rəfiq Zəka Xəndan. Azərbaycan cahandır. Bakı: "Mütərcim", 2009, s.10-15

karlıq simvolu kimi təqdim olunur. Şair ulusun keçdiyi yolu, tarixi keçmişini sıralayır, ölkədəki gərginlik və xaosdan sabitliyə dönüşü Heydər Əliyev dühasında tapır:

*Yurddaşların ümidlidir gözləri,*
*Qulaqlarda Heydər bəyin sözləri,*
*Heydər baba qurtaracaq bizləri ,*
*O, günəşdir Azərbaycan elində.*

Şair Əli Rza Xələflinin Heydər Əliyevə həsr olunan "İnsan, tarix və zaman" (2001) poemasında da 1990-cı illərin mənzərəsi təsvir olunub. Müəllif xalqın düşdüyü fəci proseslərdən qurtulmağa yol arayır və bu yolu cəmiyyətə sevgisi, can yanğısı ilə seçilən şəxsiyyətə yetməkdə görür:

*Bir gəlin üz tutur uca Tanrıya:*
*Ya məni quş elə, ya daşa döndər!*
*Dağ da dözə bilməz belə yaraya,*
*Nicat ver, Ya Rəbbim, xilaskar göndər!*

*Salam, Böyük İnsan – tarix çağırır,*
*Zülmətdən, zillətdən haylanır Vətən.*
*İndi darda qalan bayraq çağırır,*
*Sənin yollarına boylanır Vətən.*

*Sən yaxşı bilirsən yer nə, göy nədir,*
*Sənin alın yazın millətin yolu.*
*Vətənin qəlbində yara göynəyir,*
*Çağırır vüsalı həsrətin qolu.*[1]

"Azərbaycanı qorumaq, Azərbaycanın dünya məmləkətləri içərisində yerini hifz etmək onun üçün ideal idi. Təsadüfi deyil ki, ən ağır günlərdə xalq ona qucağını açdı. Xalq Vətən deyəndə Heydər Əliyevi düşündü, Heydər Əliyev deyəndə Vətəni. Heydər Əliyev Azərbaycana prezident olmaq üçün qayıtmadı. Heydər Əliyev Azərbaycana Azərbaycan adlı əsərini yazıb qurtarmaqdan ötrü qayıtdı.

---

[1] Əli Rza Xələfli. Həsrət körpüsü. Bakı:"Azərbaycan" nəşriyyatı, 2004, s.239-240

Yarımçıq doğulan körpə yaşamağa qadir deyil. Onu Azərbaycana qaytaran bu intuisiya idi. Xalq da özünüqoruma instinkti ilə onu çağırırdı".[1] Bəli, milli-mənəvi həyatımızda hökm sürmüş xaos və stixiyadan sonra Dahi işinə ehtiyacın növbəsi gəlmişdi və zamanın sükanını kosmik ahəngə xidməti ilə seçilənlərin öhdəsinə verməyin vaxtı idi.

## Xilaskarlıq missiyası

1990-cı illər şeirində ikinci mərhələ Ümummilli liderin Xilaskar obrazını irəli çəkir. Dövrün qarışıqlığı – ölkədə hökm sürən siyasi hərc-mərclik, sosial böhran, kükrəyən emosiyalar, xalqın fiaskoya uğrayan ümidləri və ardınca Heydər Əliyevin hakimiyyətə gəlişi. Bu yalnız hakimiyyətə qayıdış deyildi. Bir zaman görülən işlərin, bütün senzura və stereotiplərin üstündən adlanıb meydana qoyulan əməllərin bütövlənməsi, yenidən dövriyyəyə gətirilib tamamlanma şansı idi. İbrətlidir ki, tarix bu şansı digərinə deyil, elə istiqlal yollarında can qoymuş, məsləkini tərcümeyi-halına çevirmiş Seçilmişinə həvalə etdi. "Heydər Əliyev bu gün genefondun xilası naminə elə böyük bir iş görmüşdür ki, onu yaxın tariximizdə heç bir siyasi ağırlığın vəzni ilə ölçmək və qiyas etmək mümkün deyil. O, Azərbaycanı yas çadırından çıxartdı. Analar daha şəhid sovxası gəzdirmir".[2]

Heydər Əliyevin hakimiyyətə qayıdışı poeziyada böyük coşğu, sevgi ilə tərənnüm predmetinə çevrildi. Xalq şairi Məmməd Araz yazırdı: "Prezidentin müdrikliyi ondaydı ki, o, özünü itirmədi, gecikmədi; xalqın sərvaxtlığı ondaydı ki, o, qəfildən ayağa qalxdı və çevikliyini saxladı. Yoxsa Azərbaycan dövləti, milli müstəqilliyimiz, gələcəyimiz darmadağın ola bilərdi".[3]

Mirvarid Dilbazi "Qurtardın bölümdən Azərbaycanı" şeirində Heydər Əliyevin Azərbaycana, hakimiyyətə qayıdışını alqışlayır, bunu vətən və millət miqyasında fədailik adlandırırdı. Bütün hallarda Xilaskar obrazı Heydər Əliyevin adı ilə yanaşı idi:

---

[1] Hüseynbala Mirələmov. Bir günəş var (tarixi-publisistik düşüncələr). Bakı, "Səda" nəşriyyatı, 2004, s.33

[2] Azər Turan. Azərbaycanın gücü. "Yeni Azərbaycan" qəzeti, 2000, 26 yanvar

[3] Məmməd Araz. Bir gecənin əks-sədası, 18 oktyabr, 1994 // Kitab: Məmməd Araz. Qarabağ simfoniyası. Bakı: "Elm və təhsil", 2016, s.308

*Başın göyə dayaqdır,*
*Ayağın yerə.*
*Gərib dağ sinəni sərt zərbələrə*
*Çiyinlərin üstə vətən torpağı,*
*Torpaqdan güc aldın "Antey"sayağı,*
*Qoymadın tökülsün sən qardaş qanı.*
*Qurtardın bölümdən Azərbaycanı!*
*Sən ey ağlı ümman,*
*Ürəyi incə!*
*Sən həyat bəxş etdin minlərlə gəncə.*
*Açıb xəyanətin sən iç üzünü,*
*Silməkçün torpaqdan bu qan izini*
*Çağırdın, səs verdi sənə millətin.*
*Xalqı məğlub etmək çətindir, çətin!*[1]

Mirvarid Dilbazinin Heydər Əliyevə ünvanladığı daha bir şeiri var. 1998-ci ildə "İstiqlal" ordeni alan zaman: "Mütəfəkkir oğlumuz, bu çətin günlərimizdə, ağır işlərinizdə, vaxtınızın dəqiqələrlə ölçüldüyü bir məqamda sizin elmimizə, ədəbiyyatımıza, incəsənətimizə, tarixi şəxsiyyətlərimizə belə böyük diqqətlə yanaşmağınız adi iş deyildir. Bu, sizin milli vüqarınızın nəticəsidir", – deyərək Prezidentə yazdığı yeni şeirini səsləndirmişdir:

*Dünya şöhrətli mərdim,*
*Sən yüklənib vətən dərdin,*
*Qaçqınını, köçkününü,*
*Qəsbkardan küskününü*
*Görmək üçün şən, bəxtiyar,*
*Dolaşırsan ölkə-ölkə, diyar-diyar.*
*Nə qış bilirsən, nə də bahar,*
*Üzündəki yorğunluğa işıq saçır*
*Geniş alnındakı vüqar,*
*Qəlbindəki sülh inamı.*[2]

---

[1] Mirvarid Dilbazi. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, s.58

[2] "Vətənimizə, xalqımıza sədaqətlə xidmət etmək sənətkar üçün xoşbəxtlikdir". Xalq şairi Mirvarid Dilbazinin 85 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində çıxışından // "Ədəbiyyat qəzeti", 9 may 1998

Rəfiq Zəkanın "Heydər məscidi" şeirində (1996) 1990-cı illərin siyasi-tarixi olayları, cəmiyyətdə gedən deformasiya prosesləri təsvir olunur, müəllif buna alternativ olaraq Heydər Əliyevin obrazının özünü təhkiyənin önünə cəkir. Dövlətin, xalqın onları parçalayan, dəstələrə bölən zərərli ideologiyalardan qurtulub vahid harmoniyaya xidmət fikrini irəli sürür.

*Bizi görmək diləyənlər ona baxsın ancaq,*
*O bizim öndərimizdir, o bizi qurtaracaq.*
*O bizim varlığımızdır, o bizim mənliyimiz,*
*Əzəli qüdrətimizdir, əbədi şənliyimiz.*

Fikrət Qoca 1994-cü ildə "Azərbaycan qəzeti"ndə çap etdirdiyi "Rəhbərdi, xalqa rəhbərdi" şeirində böyük siyasətçinin gəlişini millətin nicat, qurtuluş məqamı kimi dəyərləndirir:

*Hamı səni ata bildi.*
*Ellər harayına gəldi*
*Yollarına gül səpildi...*
*Dərdi daim elin dərdi*
*Əli soyundan Heydərdi.*
*Rəhbərdi, xalqa rəhbərdi...*[1]

Yaxud "Heydər Əliyev haqqında oda"sında eyni hisslərə köklənərək yazırdı:

*Gözümüzə yağdı kədər,*
*Dedik, Allah, kömək göndər.*
*Xalq hayına gəldi Heydər,*
*Heydər oldu Ulu Öndər*

*Heydər kimi qala qurdu,*
*Qanun yazdı, ordu qurdu.*
*Dişi qana batmışların*
*Yolun kəsdi, dişin qırdı.*[2]

---

[1] Fikrət Qoca. Rəhbərdi, xalqa rəhbərdi . "Azərbaycan" qəzeti, 1994
[2] Fikrət Qoca. Seçilmiş əsərləri, V cild. Bakı:UniPrint, 2015, s.348

Baba Vəziroğlunun “Xalq Heydər söyləyəcək” şeir-nəğməsini də “Heydər Əliyevə oda” hesab eləmək olar. Şair böyük siyasətçiyə milli idealın, dövlətçilik təfəkkürünün güzgüsündə nəzər yetirir. Onun millətin dirçəlişi, xilası və nicatı naminə gördüyü işlərin mahiyyətini üzə çıxarır. Xalq, vətən miqyasında mənəvi vəhdət, tamlıq və bütövlük naminə yaşanan rəhbər ömrü Heydər Əliyev şəxsiyyəti üçün səciyyəvi keyfiyyət olaraq mənalanır:

*Gözlərində açılır bu millətin səhəri,*
*Sənin adınla bağlı bu xalqın hər zəfəri.*
*Qədəmin dəyən yerdə səhralar da gül açır,*
*Gülüstana çevrilir yurdun kəndi, şəhəri.*
*Günəş doğur elə bil, harda çəkilir adın,*
*Dosta fəxarət gəlir, gözü kor olur yadın.*
*Azərbaycan deyəndə səni düşünürük biz,*
*Azadlığa inamı xalqa sən bağışladın.*

*Sən elə bir zirvəsən, küləklər neyləyəcək,*
*Dünənim, bu günümsən, səninlədir gələcək.*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var,*
*Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!*
*Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!*

Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra yazılan şeirlər daha çox tərənnüm üstündədir. Bu şeirlərdə Heydər Əliyev və xalq, Heydər Əliyev və dövlətçilik kimi ali məqamlar daim ön plandadır, keçmişimiz, türkün yaratdığı şanlı tarix sıralanır, müəyyən imzalarda, adlarda, şəxsiyyətlərin simasında durulur, sonucunu, məntiqi davamını Ümummilli liderdə tapır. Musa Urudun “Haqqın var yaşamağa” (1993) şeirində olduğu kimi:

*Yeddi dağın dalından qırıb tilsimi gəldin,*
*Ayaz vurmuş torpağa ilk bahar kimi gəldin,*
*Sən bu elin ruhuna xilaskar kimi gəldin*
*Haqqın var yaşamağa, Heydər Əlirza oğlu!*

*Sən sarsılmaz inamsan, sən əyilməz hünərsən,*
*Könüllərə təsəlli, ürəklərə təpərsən.*
*Tarixlərin özünə tarix yazdıran ərsən,*
*Haqqın var yaşamağa, Heydər Əlirza oğlu!*

*Haqqı var bu torpağın, ər oğluyla öyünsün,*
*Sənə mürşidim deyən hər oğluyla öyünsün.*
*Qəlbin Azərbaycanın ürəyincə döyünsün,*
*Haqqın var yaşamağa, Heydər Əlirza oğlu!*

Yusif Nəğməkarın da Heydər Əliyevə həsr olunmuş iki şeiri var: "Qurtuluş" və "El atası". Bu şeirlərdə Heydər Əliyevin xilaskar obrazı yaradılır. Müəllif Ümummilli liderin mövqeyini, gücünü, siyasi çevikliyini tərənnüm etmək üçün poetik xitab üsulunu seçmişdir. Başlıca məqsəd rəhbərin roluna alqış və himn səsləndirməkdir. Konkret-fərdi və təbii-insani başlanğıcın önə keçdiyi bu nümunə səmimi duyğular axarı və ümid notları ilə aşılanmışdır:

*Nə yaxşı yurdumda varsan*
*Duyan könüllərə yarsan*
*Üzü nurlu bir insansan*
*El atası..*

*Gəlişinlə el sevindi,*
*Ay şadlandı, il sevindi.*
*Doğma, şirin dil sevindi*
*El atası...*
*Xilaskarsan el atası.*

*Zülmət gəlsə yana-yana*
*Vətən eşqi axmış qana*
*Dayaqsan türk dünyasına*
*El atası...*
*Könüllərin barı sənsən*
*Qurtuluşun barı sənsən*
*Xalqın xilaskarı sənsən*
*El atası...*

Ağacəfər Həsənlinin "Etirazın sədası" (1990), Rəfiq Zəka Xəndanın "Heydər məscidi" (1996), Xıdır Alovlunun "Bir əlində Qanun, birində Quran" (1996), Fəxrəddin Məmmədovun "Heydər baba, Tanrı səni saxlasın" (1996), Həmid Abbasın "Qayıdışın mübarək" (1997), "Alqış" (1999), Alqayıtın "Heydər baba gəlməliydi" (1997), Qabilin "Əyilməz uca başın" (1998), Nərmin Hacıyevanın "Heydər baba" (1998), Sədnik Paşayevin "Vətənə qayıt" (1999), Nəriman Həsənzadənin "Bu dözüm dərdə də şərəf, şan verir" (1999), "Əbədiyyət" (2003), Nəbi Xəzrinin "Ölməz insana" (2003), Valeh Mirzənin "O parlaq bir günəş idi" (2005), Vüqar Əhmədin "Babadır" (2003), Oqtay Rzanın "Adlı, ünvanlı misralar" (2013) və s. kimi şeirlərində Heydər Əliyev dühası, əməlləri özünü sənətdə dərk edən, yaşayan, davam edən gerçəklik olaraq mənalanır.

## Klassik irs, nihilist meyillər və Heydər Əliyev meyarı

1990-cı illərin dumanlı dönəmində Heydər Əliyevin ədəbiyyatda yerinə yetirdiyi missiya baxımından özəlliyi nədə idi? Məmləkətimiz bir yana, doğrudanmı Heydər Əliyev ədəbiyyatımız üçün də "son şans" səciyyəsi daşıyırdı?! Ədəbi-tarixi mətnlərə vararkən, istər-istəməz, bu məqamlar üzərində düşünməli olursan...

1990-cı illərdən başlayaraq Azərbaycan gerçəkləri ardınca elə mövzular gətirir ki, əvvəlki dövrlərlə müqayisədə təsəvvür hüdudlarını aşırdı. Həmin xaotik durumun rəvac verdiyi neqativlər sonucda ən böyük zərbəni insana vurur, onunla zamanın, mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasındakı əlaqənin pozulmasına gətirib çıxarırdı: qlobal tənhalıq insanın özgələşməsini, özündən ayrılmasını, yadlaşmasını şərtləndirirdi. Həmin dönəmin mahiyyəti, onun yaddaş strukturunda yer almış görüntüləri ilə çağın insanının düşüncəsi arasında dialoq bədii təfəkkürə yansımaya bilmədi. Heydər Əliyevin siyasətçi kimi gücü bunda idi. Əvvəlki inadla millətin yaddaş kultuna sədaqətinin bərpa edilməsi məsələsinə həssas yanaşmasında.

Doğrudanmı, 1990-cı illərdə Heydər Əliyev ədəbiyyatımız üçün "son şans" səciyyəsi daşıyırdı?! O illərin ədəbi mənzərəsinə qısa bir ekskurs etsək: cavabı tarixi-ədəbi mətnlər verir. 1991-ci ildə "Ədəbi proses: olum, ya ölüm" adlı məqaləsində Elçin ədəbiyyatda yaranmış durğunluqdan müəyyən narahatlıq izhar edir, çıxış yolu kimi "mübarizə"nin lazım olduğunu vurğulayırdı: "Əlbəttə, zaman

çox kəskin dəyişmişdir, bu gün xalqın milli varlığının ifadəsi və müdafiəsi, ərazi bütövlüyünü qorumaq əzmi, tam müstəqillik və sosial ədalət uğrundakı mübarizəsi, ideoloji hegemonluğa qarşı çıxması və həmin hegemonluqdan yaxa qurtarmaq üçün yollar axtarması, elə bil ki, ədəbi prosesi şok vəziyyətinə salıb, lakin bir həqiqət var: xalqın mübarizəsi və inkişafı sinxronluq tələb edir: siyasi mübarizə, iqtisadi mübarizə, ədəbi mübarizə…"[1] Lakin bir neçə ildən sonra, ədəbiyyatda ciddi bir sıçrayışın, nəzərə çarpacaq dəyişikliyin və irəliləyişin baş verməməsi zəminində həyəcan daha da artır, bundan əlavə ötən onilliklər ərzində qazanılan mədəni-əxlaqi məziyyətlərin erroziyaya uğramaq təhlükəsi nigarançılığa səbəb olurdu. 1991-ci ildə "ədəbi mübarizə” tələbi ilə çıxış edən Elçinin bir qədər sonra, 1993-cü ildə ədəbi prosesin durumunu səciyyələndirərkən narahatlıqla yazdığı bu fikirlər əslində, 1990-cı illər ədəbiyyatının ümumi vəziyyətini dəqiq və dürüst xarakterizə edirdi: "Bu gün Azərbaycan ədəbi prosesi iflic vəziyyətdədir, ədəbi meyarlar tamam itib, Nəsimi, Füzuli, Vaqif, Ələsgər, Mirzə Fətəli, Mirzə Cəlil, Sabir sənətinin süzgəcindən keçib gələn ənənələr unudulmuş muzey eksponatı kimi hörümçək toruna bürünməkdədir, milli özünümüdafiəmizi zənginləşdirən ədəbi əlaqələr ölgün bir vəziyyətdədir".[2] Bunu isə Elçin 1997-ci ildə, Azərbaycan Yazıçılarının X Qurultayı ərəfəsində Heydər Əliyevin yaşlı, cavan şair və yazıçılarla təşkil etdiyi görüşdəki çıxışı zamanı qeyd etmişdir: “...bu gün ədəbi meyarlar demək olar ki, itib. Yəni, bu gün ədəbiyyatda elə bir deqradasiya prosesi gedir ki, onun qarşısını almaq inzibati nöqteyi-nəzərdən mümkün deyildir. Onun qarşısını qərarlarla almaq mümkün deyil. Bunun qarşısını ancaq əsl ədəbiyyatın təəssübünü çəkməklə almaq mümkündür”.[3]

Keçid dövrü həmişə mürəkkəbliyi, ictimai, bədii və elmi dəyərlərin yenidən qiymətləndirilməsi ilə seçilir. Bədii-estetik düşüncə də, onun elmi-tənqidi dərkinin meyarları da əsaslı dəyişikliklərə məruz qalır. Belə qarışıq zamanlar isə bildiyimiz kimi, fikrin, təfəkkürün dramatikliyi ilə müşayiət olunur. İnsanların təfəkküründə xaos yaranır. 1990-cı illərdən başlayaraq düşüncə sistemini elə paradiqmalar müəyyənləşdirməyə başladı ki, onları sovet dövrünün elmi-

[1] Elçin. Ədəbi proses: olum, ya ölüm? "Ədəbiyyat qəzeti", 1991, 4 oktyabr
[2] Ədəbi proses: mövqelər, rəylər ("Ədəbiyyat qəzeti”nin sorğusu). //"Ədəbiyyat qəzeti”, Bakı, 1996, 4 avqust
[3] “Ədəbiyyat qəzeti”, 5 noyabr 1997

nəzəri yanaşmaları, estetik mündəricəsi ilə, qapalı kulturoloji struktur sistemlərlə bağlamaq mümkün olmadı. Mətn oxunuşu və bununla bağlı funksionallıq qazanan nəzəri postulatlar ədəbiyyatşünaslıqda ədəbi fakta, ədəbi prosesə yanaşmada dominanta çevrilirdi. Postmodernizm müasir dünyanın qavrama və dərketmə prosesini idarə etməyə başladı. Uzun müddət qapalı münasibətlərdə olduğumuz universal baxış sistemləri düşüncə strukturumuza mexaniki tətbiq olunduğundan, süni imitasiya təsiri bağışlayırdı. Bu təmayülün nəticəsində klassik ictimai-mənəvi dəyərlər daha çox çağdaş siyasi meyarlar çərçivəsində dəyərləndirilməyə başlandı.

Digər tərəfdən, keçid dövrü kimi xarakterizə olunan 1990-cı illər nihilist meyillərin meydana çıxdığı dövr idi. Bütün postsovet məkanı ölkələrində olduğu kimi Azərbaycan ədəbiyyatında da klassiklər, ədəbiyyat tarixinin bir çox dəyərli simaları konyuktur yanaşmanın predmetinə çevrilmişdi. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən anladı ki, zamanın qırılmış bağlarını bərpa etmək missiyasını bütöv bir tarix sırası yaratmış xalq ona həvalə edib və indi bu missiyanın realizə imkanları ilk növbədə tarixə qayıdış, onu diriltmək, bu günə ötürməkdən başlamalıdır. Əvvəla, məlumdur ki, klassik irs yeni ədəbi və mədəni quruculuq, yeni ədəbi-estetik dəyərlərin təşəkkülü üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin mədəniyyətin milli koloriti və orijinal xüsusiyyətləri o zaman qorunub saxlana bilir ki, xalq keçmişin milli-mənəvi sərvətlərini, ədəbi irsini zamanın sərt sınaqlarından, fəci və dramatik olaylarından uğurla çıxara bilir. Əgər çıxara bilmirsə, dövlətin bütövlüyünü də, millətin tamlığını, "xalq və mən” şüurunun mövcudluğunu da təhlükə qarşısında qoyur! Bu mənada 1990-cı illərdə dahi şairimiz Məhəmməd Füzulinin 500, Mirzə Cəlilin 128, ilk möhtəşəm söz abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin elmi ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə keçirilməsi ədəbi irsə layiqli münasibətin izharına ən yaxşı nümunə olmaqla yanaşı, dövlət başçısının hansı məsələlərdə dəstək aradığını, mənəvi ülfət tapdığını bəlli edir. Bu ülfət gücünü xalqın öz keçmişindən, onda kodlaşan etnik-ontoloji yaddaşından alırdı: "Qoy dünya bilsin ki, xalqımızın çoxəsrlik, zəngin, tarixi mədəniyyəti var. Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə əsaslanır.” (Heydər Əliyev)

Həmin illərdə “Kitabi-Dədə Qorqud” dastanının tədqiqi çox

böyük, heç bir mərhələdə olmayacaq qədər geniş vüsət aldı. "Kitabi-Dədə Qorqud"un elmi-tənqidi mətni və kütləvi nəşrləri, bu möhtəşəm oğuznamə haqqında yeni monoqrafik tədqiqatlar işıq üzü gördü. "Kitabi-Dədə Qorqud" körpüdür. Mifdən yazıya, "eposdan kitaba" və nəhayət, dünəndən bu günə uzanan elə bir körpü ki, onunla çağdaş dövrün təmasını, rabitəsini yaratmaq, 1990-cı illərdə qırılmış zamanın bağlarını birləşdirmək, onun bütövlüyünü bərpa etmək üçün lazım idi. Hər halda 1990-cı illərin geriyə fırlanan çarxında və bir çox şəxsiyyətlərin yaradıcı milli dühasında yaradılacaq bu bütövlüyə, "böyük sintez işi"nə ilk nümunəni "Kitabi-Dədə Qorqud" abidəsi verdi. Yaşar Qarayevin sözləri ilə desək: "Dədə-Qorqud" bütünlükdə zamanla-həm keçmiş, həm də gələcəklə körpünü bizim yadımıza saldı".[1] Bu mənada, Heydər Əliyevin yeni epoxada ədəbiyyatın üzünü yaddaşa çevirən tarixə – özündə xalqın milli kodunu və möhürünü əbədiləşdirən söz sənətinə çevirməsi ilk növbədə, onda sənədləşən mənəvi və psixoloji arxetipin çağdaş əxlaq və mənəviyyatda davamına rəvac vermək, tarixi yaddaşımızı öz varlığında görükdürmək məqsədi güdürdü: "Əgər indi biz "Kitabı-Dədə Qorqud" dastanının 1300 illiyini qeyd ediriksə və bunu bütün dünyaya bəyan ediriksə, demək, bizim bədii sözümüzün 1300 illik tarixi göz qabağındadır."

Daha sonra bu missiya klassik sənətkarlarımızın taleyinə münasibətdə davamını tapmağa başladı. Klassiklərimizin yubileylərinin keçirilmsi barədə sərəncəmlar imzalayan Heydər Əliyev qeyd edirdi ki, "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik."

Məhəmməd Füzulinin bütün əsərləri (külliyyatı) altı cilddə nəşr edildi. Haqqında sanballı elmi monoqrafiyalar, tədqiqat əsərləri ortaya qoyuldu. Yubileyi həm Azərbaycanda, həm bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirildi. Filologiya üzrə fəlsəfə doktoru Salatın Əhmədova "Heydər Əliyev zəkası və Füzuli dühası" adlı məqaləsində yazır: "Heydər Əliyevin

[1] Kitabi-Dədə Qorqud (məqalələr toplusu). Bakı: Elm, 1999, s.299

Füzuliyə belə böyük önəm verməsinin səbəblərindən biri, bəlkə də ən başlıcası XX əsrdə parçalanmış türk dünyasını, pərən-pərən düşmüş türk cümhuriyyətlərini birləşdirmək imiş. Bu böyük siyasətçinin müdrik gedişi idi. O türk xalqlarını birləşdirmək üçün birbaşa siyasi yol seçmədi, mənəvi yol seçdi, türk tarixini, türk mənəviyyatını özündə əks etdirən "Kitabi-Dədə Qorqud" yolunu, "Manas" yolunu, Füzuli yaradıcılığını intixab etdi."

Heydər Əliyevin klassikləri dünyaya tanıtma məramının kökündə xalqın minillik tarixi yaddaşının olduğunu isbatlamaq meyli dayanırdısa, yubileyləri keçirilən İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və başqa ədiblər onunçün "dil hadisəsi" kimi önəm kəsb edirdi. Çünki "Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmi-konseptual əsasları ilə, əslində Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi".[1] Onun müasiri olduğu şair və yazıçılara verdiyi dəyərin zəminində həm də dil amilinin dayandığını görmək çətin deyil. Sonradan bu istiqamətdə atacağı addımın- "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" 30 sentyabr 2002-ci il tarixli fərmanların zəminində dayanan əsas səbəb xalqın milli varlığını müəyyən edən başlıca amilin ana dili olmasını rəhbər kimi dərk etməsi idi. Yaxud Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında"kı 29 oktyabr 1997-ci il tarixli sərəncamı ilə Heydər Əliyev yalnız içindəki Şəhriyar sevgisini sərgiləmirdi, həmişə amalına çevirdiyi bütöv Azərbaycan idealının gerçəkləşməsinə doğru növbəti əhəmiyyətli addımlardan birini həyata keçirirdi.

Yetmiş il hökmfərmalıq etmiş sovet dövrü bitdikdən, süquta uğradıqdan sonra bu dövr ədəbiyyatını qiymətləndirmək, onun tarixi dəyərini vermək zərurəti meydana çıxmışdır. Bu çətin, olduqca ziddiyyətli və mürəkkəb mərhələnin təhlili, ədəbiyyatımızda bütöv bir epoxa kimi dərki məsələsi çox böyük kəskinliklə 90-cı illər ədəbiyyatında şərh olunur, ona obyektiv elmi yanaşmalardan tutmuş nihilist yanaşmaya qədər hər cür münasibətlər hakim olmuşdu. Heydər Əliyev problemə münasibətdə obyektiv qanunauyğunluqlardan, sabit elmi dəyərlərdən çıxış etməyi vacib bilərək demişdi: "Biz hamı-

---

[1] Timuçin Əfəndiyev. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz

mız dövrün, zəmanənin övladları olduğumuzdan onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o zaman yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar. Bu, bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz... O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır".

Bu fikirlər səmimi etiraf olmaqla yanaşı, həm də Sovet dövrü Azərbaycan ədəbiyyatını obyektiv təhlil etməyi, bu ədəbiyyatı XX əsr Azərbaycan tarixi daxilində və bədii ədəbiyyatın ümumi inkişaf kontekstində qiymətini verməyi təməl prinsip kimi irəli sürürdü. "...əgər kimsə 80-ci illərin axırlarında, 90-cı illərin əvvəllərində tariximizin böyük bir hissəsini çırıb atmaq istəyirdisə və bəzən onlar buna nail olurdusa, özləri heç bir xidmət etməmiş adamlar xalqa sədaqətlə xidmət etmiş insanları aradan çıxarmağa çalışırdılarsa, bunlar keçici bir şeydir. Gördünüz ki, onlar keçdilər, getdilər. Bu gün onu deyə bilərəm ki, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır. Belə adamların özləri xalq, millət, ölkə üçün heç bir şey etməyiblər. Əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə də Süleyman Rüstəmin dırnağı qədər ola bilməzlər".[1]

1990-cı illərdə yenidən hakimiyyətə gələn Heydər Əliyevin müasir ədəbiyyat kontekstində yerinə yetirdiyi "yaradıcılıq" missiyasının realizəsi bir tərəfdən klassik ədəbiyyatı yaşatmaqla bağlı idisə, digər tərəfdən çağdaş ədəbi prosesi gəlişdirmək məqsədilə atılan bir sıra addımlarla əlamətdar oldu; yaradıcılıq aləminə yeni istedadlı müəlliflərin gəlməsində rol oynayan, sonradan maddi çatışmazlıqlar ucbatından uzun fasilələrlə işıq üzü görən, hətta bağlanmaq təhlükəsi ilə üz-üzə duran ədəbi orqanların: "Azərbaycan", "Literaturnı Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının və "Ədəbiyyat qəzeti"nin ölkə prezidentinin xüsusi qərarı ilə müntəzəm surətdə ölkə-

---

[1] Fitri istedadı fədakarlıqla, xalqına, millətinə sədaqətlə birləşdirən sənətkar yüksək zirvələr fəth edir. Xalq şairi, görkəmli ictimai xadim Süleyman Rüstəmin 90 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. // "Ədəbiyyat qəzeti", 3 aprel 1998

nin dövlət büdcəsindən maliyyələşdirilməsi ədəbi prosesin gəlişməsində əsaslı rol oynadı. Müxtəlif nəsil şair və yazıçıların dəyərləndirilməsinə biganə qalmadı. Məmməd Arazın 60 (6 oktyabr 1993-cü il), İlyas Əfəndiyevin 80 (25 may 1994-cü il), İsmayıl Şıxlının 75 (4 iyul 1994-cü il), Maqsud İbrahimbəyovun 60 illiyinə (14 may 1995-ci il) həsr olunmuş mərasimlərdə Heydər Əliyevin ədəbiyyat, sənətlə bağlı elədiyi çıxışlar mükəmməlliyi ilə seçilir, şeirdən danışanda poeziyanın, nəsrdən danışanda prozanın dərin bilisici təəssüratı doğururdu. Ədəbiyyatşünas-alim Yaşar Qarayev bu məqamı dəqiq xarakterizə edib: "...onun ifasında və icrasında siyasət də sənət, siyasətçi də sənətkar səviyyəsinə qalxa bilir. Daha doğrusu, siyasətçi də sənətkara çevrilir, filosof təcəssümü, mütəfəkkir obrazı, alim statusu ala bilər. Bütün bunlar Heydər Əliyevin fəaliyyətindən həm də bir sənət və sənətkarlıq hadisəsi kimi danışmağa imkan verir..."

## Heydər Əliyev "Zaman"ı

Ədəbiyyat həmişə zamanın güzgüsü olub. Hər hansı dövrdə gedən proseslər, baş verən olaylar yazıçı, şair qələmində öz əksini tapıb nəsillərə ötürülüb. Bu mənada, istənilən hadisənin təfərrüatına varılmasında o, bir tarixçi qədər əhəmiyyətli rol oynayır. Yəni ədəbiyyat və tarix yeganə sahələrdir ki, onların büllurlaşan guşə daşında zamanın obrazı görünə bilir. Ədəbiyyatda bu missiyanın layiqli daşıyıcısı olmaq prioritetini digər sahələrə nisbətən poeziya daha çox nümayiş etdirir. Operativliyinə və baş verən proseslərə ilkin reaksiya göstərdiyinə görə. Bu mənada, hər hansı dövrdəki yenilik axtarışlarını bilmək ilk növbədə, həmin dövrün poeziyasını tədqiqdən başlayır. Səbəb bu ki, zaman necə dəyişir və mən necə dəyişirəm sualına ilkin cavabı poeziya verir. Digər tərəfdən, mənəvi tərəqqidə diriliyi təmin edən strategiyanı hazırlamaq həmişə poeziyanın payına düşüb.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı, millətin ən ağır məqamda onun yanında olması, bütün sahələrdə hakim olan sabitlik poetik təcəssüm predmeti kimi müraciət olunan mövzular idi. Heydər Əliyevin obrazı Xilaskar statusunda daha çox Atatürklə eyni poetik müstəvidə tərənnüm predmetinə çevrilirdi. Bu tərənnümə Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, Ramiz Duyğun, Elxan Qaraxanlı və başqa şairlərin şeir və poemalarında rast gəlirik. "Əbədiy-

yət dastanı"nın "Ata Heydər – Atatürk" bölümündə Zəlimxan Yaqub yazır:

*O qorxmadı, çəkinmədi,*
*Qüvvət aldı bu millətdən,*
*Özünə bir heykəl qoydu qətiyyətdən.*
*Ən müqəddəs arzularla*
*Gözü dolu, qəlbi dolu,*
*Ürəklərə qovuşdurdu*
*Atatürkdən gələn yolu.*
*Yüz əlləşsin, yüz vuruşsun,*
*Tapa bilməz xata türkü,*
*Onu min il qoruyacaq*
*Azərbaycan torpağının*
*Heydər adlı Atatürkü!!!*[1]

Akademik Nizami Cəfərov "Zəlimxan Yaqub dastanı" məqaləsində yazır: "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev (və onun tarixi mübarizəsi!) haqqında ilk dəyərli əsərləri yaradan sənətkarlardan biri (bəlkə də, birincisi) Zəlimxan Yaqub olmuşdur. "Böyük ömrün dastanı"nda Heydər Əliyevin xilaskarlıq, milli dövlət (və millət!) quruculuğu missiyasını böyük Atatürkün inqilabları ilə müqayisə edən Zəlimxan Yaqub şair-ideoloq kimi tarixi obrazlaşdırmağı bacarmışdır":[2]

*...Hər ikisi bir sualın*
*min cavabı,*
*Hər ikisi əlifbanın*
*inqilabı.*
*Hər ikisi öz xalqının*
*generalı,*
*Hər ikisi millətindən*
*yaxşı halı.*
*Heyran qalıb bütün dünya,*
*bütün varlıq.*

[1] Zəlimxan Yaqub. Seçilmiş əsərləri. 13 cilddə, XI cild. Bakı: "Şərq-Qərb", 2013, s.60
[2] Nizami Cəfərov. Zəlimxan Yaqub dastanı. "525-ci qəzet", 2014, 20 fevral

*Bir ananın əkiz oğlu*
*belə olmaz.*
*Nədən olub,*
*hardan gəlib bu oxşarlıq?*
*Təbiətin sehridirmi?..*

Heydər Əliyev və Atatürk şəxsiyyətinin millətin qürur ünvanları kimi koloritli duyumla inikasını Xəlil Rza Ulutürkün yazdığı "Heydər dədə – Atatürk" şeiri də uğurla sərgiləyir. Şeirdə həm iki doğma dövlətin ortaq dəyərləri, mənəviyyat mərkəzi kimi müstəsnalığı diqqət çəkir, həm də iki türk dövlət başçısının, qurucu liderlərin tərənnümü önəm daşıyır. "Şeir yeni zəmanənin, təzə dünyanın doğuşunda xalqla şəxsiyyət, sənətkarla xalq arasında tamlıq, vəhdət təşkil edir. Bu baxımdan Xəlil Rza Ulutürk "Dədə Heydər – Atatürk" şeirini yazmış, dünya sivilizasiyasında elit şəxsiyyət olan Heydər Əliyevin xarakterini, tarixi xidmətlərini poetikləşdirmişdir"[1]

*Azadlıq Allahı tək əyləşib öz yerində,*
*Yerin-göyün nuru var peyğəmbər gözlərində.*
*Sadəliyi nur saçır, əzəməti dərində.*
*Gedir, polad çiynində Kəpəz, Qoşqar boyda yük.*
*Dədə Heydər – Atatürk.*

*Dərin mavi gözləri sakit yanan od-ocaq,*
*Alovunda satqınlar yanacaq, kül olacaq.*
*Qaranlıqda işıqdır – o işığa yol açaq.*
*Məsləki varlığından böyükdür, min qat böyük.*
*Böyüklük heykəlidir Dədə Heydər – Atatürk!*

*Dörd tərəf qar-qiyamət, sərt qış... o, güllü yazdır,*
*Dinc, mülayim səsi də qaynar bir ehtirasdır.*
*Ərzurumdan Xəzərə şığıyan Xan Arazdır.*
*Dalğasında dönüklər ağ köpükdür, boz köpük,*
*Dalğalanır nəhr tək Dədə Heydər – Atatürk.*

---

[1] Əlizadə Əsgərli. Xəlil Rza Ulutürk (Həyatı, fəaliyyəti, sənəti). Bakı, "Elm və təhsil", 2015, s.123-124

*Azərbaycan, Türkiyə... Daş qala – qoşa səngər,*
*Bütün qasırğalara birləşməklə sinə gər.*
*Bu birlik qarşısında düşmən tük salacaq, tük...*
*Qucur iki sahili Dədə Heydər – Atatürk.*

Xəlil Rza Ulutürkün Heydər Əliyevə sevgisi, sədaqəti, onu siyasi lider olaraq dəyərləndirmək əzmi sona qədər öz sabitliyini qorudu. Bu sevginin əzəmətinə sağlığında şairin özü, dünyasını dəyişəndən sonra isə "Gündəliyi" şahidlik etdi: "Heydər Əlirza oğlunun gücü və dünya miqyaslı nüfuzunun səbəbi nədədir? Mən deyərdim ki, öz xalqına alovlu məhəbbətində, çoşğun təşkilatçılıq istedadında, mərdanəlik və prinsipiallılığında, yurd mənafeyini tapdalayanlara güzəştə getməməsində, parlaq zəkasından doğan sərrast natiqlik hünərində, ruscanın, Türkcənin və Azərbaycan Türkcəsinin bütün incəliklərini və gözəlliklərini nümayış etdirə bilməsində, qurub-yaratmaq təşnəliyində, bəşəri tərəqqinin ən çevik vasitələrini arayıb tapmasında". Bu qeydlər Xəlil Rzanın "Gündəliyi"ndə yazdığı 1993-cü il 2 may tarixli qeydlərindəndir.[1]

Elə böyük Öndərin də ona olan münasibətinin həssaslığına 1994-cü ilin 23 iyununda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Heydər Əliyevin Xalq şairi Xəlil Rza Ulutürklə vida mərasimində çıxışı şahidlik edir: "Ağır dövrdə yaşayan Azərbaycan xalqı bu gün böyük bir matəmə bürünmüşdür. XX əsrdə Azərbaycanın görkəmli simalarından biri – şair, yazıçı, filosof, alim, xalq azadlığı uğrunda fədakar mübariz, böyük vətəndaş Xəlil Rza Ulutürkü itirmişik. Bu böyük itkidir. Son illər xalqımız faciələr içərisində yaşayır. Lakin Xəlil Rza Ulutürk kimi şəxsiyyətlər, böyük insanlar xalqımızı daim ruhlandırmış, mübarizəyə çağırmış, milli azadlıq uğrunda öz mübarizəsi ilə nümunə göstərmişlər. Xəlil Rzanın Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Onlar heç vaxt unudulmayacaq. Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir. Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim

[1] Xəlil Rza. "Gündəlik". 2 may 1993-cü ildə Heydər Əliyev haqqında yazdığı bir parça. // "Ədəbiyyat qəzeti", 9 oktyabr 1998-ci il

Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. Allaha şükürlər olsun ki, o, Azəbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür. Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı kimi, mənim üçün də böyük bir itkidir. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır. Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır”. Bundan böyük vəfa borcu təsəvvürə gətirmək çətindir.

Heydər Əliyev üçün siyasi materiyanın sərhədləri mənəviyyat çərçivəsindən kənar başa düşülmürdü və Ümumilli lider hakimiyyətdə olduğu zaman kəsimləri ruhun və ağlın vəhdətinə ən bariz nümunədir.

***

XX əsrin sonu XXI əsrin əvvəli qloballaşmanın vüsət aldığı dövr kimi səciyyələnir. Texnogen sivilizasiyanın pik həddi, planetar inteqrasiya dünya inkişafının əsas tendensiyası kimi qloballaşmanı labüdləşdirir. Təbii ki, bu hadisə, yəni qloballaşma – təkcə tarixi deyil, həm də düşüncə hadisəsi idi. Mədəniyyətin milli koloriti və orijinal xüsusiyyətləri isə o zaman qorunub saxlana bilir ki, xalq keçmişin milli-mənəvi sərvətlərini, ədəbi irsini zamanın sərt sınaqlarından, fəci və dramatik olaylarından uğurla çıxara bilir. Əgər çıxara bilmirsə, dövlətin bütövlüyünü də, millətin tamlığını, “xalq və mən” şüurunun mövcudluğunu da təhlükə qarşısında qoyur! Hətta bu gün özgələşmə kimi bəşəriyyəti ciddi narahatlıq və həyəcan içində saxlayan problemin mənbəyini araşdıran dünya alimləri, filosof və sosioloqları bunun yaranma səbəblərindən birini irs-varis əlaqələrində tarazlığın pozulmasında görürlər. Çünki irs-varis münasibətlərində nizamsızlıq hökm sürən cəmiyyətdə sözlər orijinallığını, millət isə azadlığını qoruyub saxlaya bilmir, harmoniya və sabitlik yox olur, insan və dünya, insan və insan arasında özgələşmə prosesi başlayır və ən pisi də budur ki, bu proses ən apogey məqamında daxili özgə-

ləşmə ilə sona varır. İrsimizin varisi kimi təmsil olunmaqda, vulqar ideoloji konsepsiyaların güdazına getmiş mənəvi sərvətlərimizi mədəniyyət aləminə daxil etmək prosesində, bütünlükdə keçmişi "rekonstruksiya" işində Heydər Əliyevin fəaliyyəti ölçüyəgəlməzdir. "Müasirlərinin təsdiq etdiyi kimi, o, Azərbaycan xalqının taleyində müstəsna rolu olan müstəsna şəxsiyyətdir. O, zəkası, böyük istedadı və dərin müşahidə qabiliyyəti ilə, siyasi təcrübəsi ilə siyasət elmini son zərrələrinə qədər öyrənib mənimsəmiş qüdrətli siyasi xadim kimi cəmiyyətin siyasi fırtınalarla üzləşdiyi mürəkkəb bir vaxtda tarix səhnəsinə çıxmış, bütöv bir xalq üçün xilaskarlıq missiyasını yerinə yetirmişdir".[1]

Bu, həm də ədəbiyyatın, sənətin, yüksək materiyaya əsaslanan zövqlərin xilası idi. Bunu Heydər Əliyev siyasətinin gücünə vaqif olan hər kəs etiraf edirdi. Təsadüfi deyil ki, Heydər Əliyev 1998-ci ildə Türkiyənin ən nüfuzlu televiziya kanallarından biri olan "Nərgiz TV"-nin apardığı rəy sorğusuna görə planetimizin siyasi xadimləri arasında "Dünyada ilin adamı" fəxri adına layiq görülmüşdür. Bu münasibətlə şair Hüseyn Kürdoğlu "Min bir ilin adamı" şeirini yazmış, Ümummilli lideri vətənin dəyərlərinə, dərdlərinə həssas biri olaraq təcəssüm etmişdir:

*Millətimin ağ alnından parladı*
*Bir il nədi, min bir ilin adamı,*
*Dilimizin şöhrətini ucaltmış*
*Uca sözün, şirin dilin adamı.*

*Sınanmış bir zəkasıdır zamanın,*
*Hüdudunu çəkir yaxşı-yamanın.*
*Sərrafıdır sazın, tarın, kamanın,*
*Sarı simin, gümüş telin adamı.*

*Bu əziz ad tarixə bir ad olsun,*
*Türk dünyası hər yağıya yad olsun.*
*Araz üstə yallı tutub şad olsun*
*O sahilin, bu sahilin adamı.*

---

[1] Əli Rza Xələfli. Böyük insanın ideallarına sədaqət. H.Mirələmovun "Həqiqət" (publisistik düşüncələr) kitabına ön söz. Bakı, "Azərbaycan" nəşriyyatı, 2003, s.7

*Odur bu gün vətənə gün ağlayan,*
*Odur bu gün xain gözü dağlayan,*
*Xəzər altdan bu dünyaya çağlayan*
*Qanımıztək yanar selin adamı.*

*Pənahımız əzəldən ər qılıncı,*
*Neylər bizə məkirli şər qılıncı!*
*Çıxdı qından iti Heydər qılıncı,*
*Məğlub olmaz Çənlibelin adamı.*

*Bütün dünya bəli dedi sözünə,*
*Qüvvət gəldi məmləkətin dizinə.*
*Ata sayır, baba sayır özünə*
*Hər ocağın, hər mənzilin adamı.*

*Ərzi gəzir zamanın Qıratında,*
*Şölə saçır göyün yeddi qatında.*
*Qurban kəsir ayağının altında,*
*Başdan-başa bizim elin adamı.*

*Millətimin ağ alnından parladı,*
*İstiqlalın qaya çapan fəryadı.*
*Qoy var olsun ustadların ustadı*
*Bir il nədi, min bir ilin adamı,*
*Bizim yurdun, bizim elin adamı.*[1]

Heydər Əliyev o qədər şeirə, sənətə, yaradıcı insanlara dəyər verən, onları qoruyan biri olmuşdur ki, onunla bağlı meydanda olan kitablar, məqalələr, təbrik teleqramları, avtoqraflarda belə Ümummilli liderin bu müstəsnalığına minnətdarlıq hissini sezməmək olmur. Məsələn, 1994-cü ildə "Azərbaycan" qəzetində çap olunan bir məktubda Cavid yadigarı Turan Cavid Heydər Əliyevə Cavidin dilindən xitab etmiş, ona ünvanladığı məktubu Cavidin "Peyğəmbər" əsərindən bir parça ilə yazmışdır:

---

[1] Hüseyn Kürdoğlu. "Min bir ilin adamı". "Ədəbiyyat qəzeti", 9 yanvar 1998

*Tutduğun yol böyük,*
*sən el rəhbərisən,*
*Bütün səslərdən üstündür*
*səsin sənin.*
*Bağır, hayqır, can ver*
*issız bucaqlara,*
*Bilgi nuru yağdır*
*sönmüş ocaqlara.*
*Çalış bütün boşluqlar*
*əzminlə dolsun,*
*Hər bataqlıq çiçəkli*
*bir cənnət olsun!*

Xalq şairi Qabil 1991-ci ilin noyabrında Heydər Əliyevə göndərdiyi "Ömür həbləri" romanına 16 misralıq avtoqraf yazmış və bu kiçik şeir parçasında dövrandakı haqsızlıqları, Ümummilli liderə qarşı yersiz hücumları, ittihamları əks etdirməyə müvəffəq olmuşdur:

*Məsləhətdir, aç, oxu,*
*Sən bu kitabı, Heydər!*
*Çox suala tapacaqsan da*
*Cavabı, Heydər!*
*Görəcəksən quruluş –*
*Zay quruluşdur, a kişi,*
*Yandırır həm şişi o,*
*Həm də kababı, Heydər!*
*Üstünə kim bu saat*
*Qalxdı, xoruzlandısa da,*
*Xoruzun uçmağa*
*Hardaydı ki, tabı, Heydər!*
*Hansı namərdin olub*
*Vicdanı, abrı-həyası,*
*Mərdə-mərdanəyə xas*
*Vicdan əzabı, Heydər!*

Heydər Əliyevin 75 illik yubileyində də Xalq şairi Qabil ona təbrik teleqramını şeirlə ünvanlayırdı:

*Əyilməz uca başın*
*Millətin yaraşığı.*
*Şanlı 75 yaşın*
*Qüdrətin yaraşığı.*
*Sənətə, sənətkara,*
*Haqq-sayın var olsun!*
*Bənzə ulu dağlara,*
*Zirvələrin qar olsun.*
*Qoy sabahkı zəfərin,*
*Müzəffər zəfər olsun!*[1]

Heydər Əliyev obrazı Fikrət Qocanın poeziyasında davamlı olaraq vardır. Şair "Yaşa, Prezidentim, yaşa" və s. nümunələrdə rəhbərə sevgi, rəğbət duyğularının səmimi ifadəsinə köklənir:

*Sevimli könüllərin,*
*Dua deyən dillərin,*
*Obaların, ellərin*
*Ümid çırağısan sən.*
*Yaşa prezidentim yaşa*
*Millətinlə baş-başa.*
*Bizi salma təlaşa,*
*Yaşa, prezidentim, yaşa.*[2]

Fikrət Qocanın "Gərək bu günləri görəydin" poeması[3] Heydər Əliyevin 85 illiyinə həsr olunub. Şeirdə Heydər Əliyevin ölümündən doğan hüzn əksini tapmaqla yanaşı, onun siyasi lider olaraq gördüyü əməllərin miqyası şəkillənir:

*Biz sənə can borcluyuq,*
*Vətən adlı ulu can.*
*Hər yanda əməlin var,*

---

[1] Müstəqil Azərbaycanın ilk "İstiqlal" ordenləri təqdim olundu. Azərbaycan Prezidenti Heydər Əliyev ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərinin bir qrupuna layiqli mükafatları təqdim etmişdir. // "Ədəbiyyat qəzeti", 29 may 1998

[2] Fikrət Qoca. Seçilmiş əsərləri, V cild. Bakı: UniPrint, 2015, s.351

[3] Fikrət Qoca. Gərək bu günləri görəydin. Bakı: Günəş, 2018, s.55-69

*Hər yanda heykəlin var.*
*Sabahkı günümüzdə*
*Yenə sənin əlin var.*
*Azərbaycan yüksəlir,*
*Dünyanın hər yerindən*
*Zəfər sorağı gəlir.*[1]

Poemanın epiloqunda Fikrət Qocanın "Ata" şeiri yer alıb. Müəllif qeyd edir ki, "Böyük öndər xəstə olanda İlham Əliyevin dilindən "Ata" adlı şeir yazdım":

*Sən gedən yollara qurban kəsərdim,*
*Şərəfim, şöhrətim, vüqarım, ata.*
*Nanə yarpağı tək tir-tir əsərdim,*
*Qoy xəzan görməsin baharın, ata.*

*Qızım, balam dedi evdə gəlinə,*
*Övladı yaxşıya, yamana bölməz.*
*Atam kürəyimə vurub əlini,*
*Heç yerdə, heç zaman qəddin əyilməz.*
*Ata, gözlərinin nuruna qurban,*
*Öpdüm, gözüm üstə qoydum əlini.*
*Sənin ürəyindir sinəmdə vuran,*
*Kövrəltmə könlümün sarı telini.*

*Ata başımızın ucalığıdı,*
*Oğul atasının cavanlığıdı,*
*Ata övladının qocalığıdı...*
*Ata, hardasan, gəl bu gün, ata,*
*Gərək bu günləri görəydin, ata.*[2]

Məstan Günərin 1995-ci ildə yazdığı "Bir oğul göstərin Heydərə bənzər" şeiri bütün üstün duyğularını – milli duyğuları nişan verən şairin Ümummilli liderə sevgisindən hasilə gəlib. Məstan Günər şeiri poeziyasının ehtiva etdiyi zəngin koloritin, ruhunu saran

---
[1] Fikrət Qoca. Gərək bu günləri görəydin. Bakı: Günəş, 2018, s.65
[2] Yenə orada, s.67-68

saf duyğuların həzinliyi içrə təqdim edir. Burada da şairin mənəvi dünyasının dayaqlandığı güc mənbəyinin adı təbiətdir, işıqlı deyim tərzi, əlvan təsvir ədası özünü qorumağa müvəffəq olur. Məstan Günər öz axar-baxarlı, tükənməz enerji ilə süslənmiş dil materialı vasitəsilə yaratdığı obraza çələng hörə bilir. Heydər Əliyev obrazı şair üçün elə, yurda bağlılıq, mənəvi düşüncələrin məxəzi, xalq "özünə-qayıdış"ının ünvanı kimi dəyərlidir. Ona görə "Bir oğul göstərin Heydərə bənzər" şeiri incə lirizmlə dərin ümumiləşdirmənin bəhrəsi kimi təzahür edir:

*Bir oğul yetirmiş vətən torpağı,*
*Millətin yolunda əsgərə bənzər.*
*İdrakı, ilhamı, qədd-qaməti,*
*Qüdrətə, hikmətə, məhvərə bənzər.*

*Yerində şax sözü, xoş təbiəti,*
*Ellər sərvətidir zehni, zəhməti.*
*Tarixə döndükcə onun şöhrəti,*
*Tarixdə nurlanıb gövhərə bənzər.*

*Nələr yaratmadı, qurmadı nələr,*
*Kənddə kənd dəyişdi, şəhərdə şəhər.*
*Daşlı yamaclarda zümrüd sərvətlər,*
*Başına dönməli dilbərə bənzər.*

*Kor olub görməyən varsa bunları,*
*Utansın, işığa çıxmasın barı.*
*El yaxşı tanıyır bu nankorları,*
*Hər biri nəf güdən bərbərə bənzər.*

*Hər zaman yolunu gözləmiş ellər,*
*Şirin bir töhfədir ona könüllər.*
*Yollar kənarında əlində güllər,*
*Qızlar görmüşəm ki, ülkərə bənzər.*

*Dahidir, dühadır öz sənətində,*
*Andı var, elləri qoymaz çətində.*
*Dərin tədbirində, siyasətində,*
*Qüdrətdən yaranmış zərgərə bənzər.*

*Uğrunda hazıram nə vaxt dinərsə,*
*Simləri könülsüz tərpətmirəm mən*
*Rəhbəri dağlara bənzətmirəm mən,*
*Dağlar vüqarında rəhbərə bənzər.*

*Uğrunda hazıram nə vaxt dinərsə,*
*Hazıram, şəhid ol əmrini versə.*
*Əgər Məstan Günər Məstan Günərsə,*
*Onun dövrəsində sipərə bənzər...*[1]

Musa Urudun "Heydər Əliyev" (2000) şeirində müəllif Heydər Əliyevi Vətən sevdalı, kök, mənşə bağlarına sadiq, tarixə və yaddaşa etibarlı bir lider olaraq təqdim edir, onun simasında sabaha, gələcəyə doğru inkişafda milli siyasi, ədəbi, fəlsəfi və əxlaqi qütbləri nişan verir:

*Bir bayraq altına yığdı milləti,*
*Ata tək bağrına sıxdı milləti*
*Xalqın əzəməti, gücü, qüdrəti,*
*Kamalı, zəkası Heydər Əliyev.*

*Başının üstündə üçrəngli bayraq,*
*Xalq ona arxadır, o xalqa dayaq.*
*Vətənin ən uca zirvəsi – Şah dağ*
*Ondan da ucası – Heydər Əliyev.*

Heydər Əliyevə həsr olunan şeirlər sırasında nəvəsi Leyla Əliyevanın da şeirləri var. "Mənim babam" adlanan ilk şeirdə Leyla Əliyeva babasını lirik-romantik üslubda vəsf edir. Hisslər duyumludur, sevən bir qəlbin yanğısı, təzahürü olaraq ərsəyə gəlir, bu qatdan nəşət taparaq poetik obraza çevrilir:

*Mənim babam,*
*gözəl insan,*
*Sevimlidir,*

[1] Məstan Günər. Bir oğul göstərin Heydərə bənzər. Bakı: Nağıl evi, 2009, s.67-68

*Mehribandır.*
*Yüz il, min il*
*Yaşayasan.*
*Desəm ona,*
*Yenə azdır*
*İnsan var ki,*
*qəlbi qara*
*Bəd əməlli,*
*bəd niyyətli.*
*Onlar hara,*
*Babam hara…*
*Bir insandır*
*ədalətli*
*Öz xalqına*
*sədaqətli*
*Mənim babam.*
*Kömək edər,*
*əl uzadar*
*Dara düşsə*
*Bircə adam.*
*Bax, belə bir*
*Ömür yaşar*
*Mənim əziz*
*Heydər babam.*

Leyla Əliyevanın babası Heydər Əliyevə ithaf etdiyi "Elegiya" şeiri Ümummilli liderin vəfatı münasibəti ilə qələmə alınıb.[1] Şeirdə ağrı hissi qabarıqdır, "ayrılığa" üsyan var. Hər misranın bir həsrət yükü var və onlar bütünlükdə qəhrəmanın psixoloji vəziyyətini sərgiləyir. "Elegiya" duyğuların, hisslərin, ovqatın, rəngin, səsin qüvvətliliyi, psixoloji effekti ilə həyəcan doğurur. Ətrafdakı hər şey obrazın daxili aləminin rənginə bürünüb. Amma ötüb getmiş ömür, həyat, zaman, insan haqqında meditativ düşüncələrini bölüşən Leyla Əliyevanın köməyinə yetən yenə də babasının – Heydər Əliyevin işıqlı obrazı olur. Ölüm, yoxluq həyatın sonu, sonluğudur, yaşanılan ömrün halallıq səviyyəsidir, amma ölümü ölümsüz edən əməllər

[1] "Azərbaycan" qəzeti, 2008, 12 dekabr

varsa, "Günəşə qovuşmaq" arzusu arzu olaraq qalmır, çünki ölüm son yox, başlanğıc nöqtəyə dönüşür:

*Ulduzlara uçan quşa dönəydim,*
*Ay da yollarıma nur ələyəydi.*
*Məğrur yerişinlə qoşa dönəydin,*
*Sənə yer üzündə yer eləyəydim.*

*Dinlə kədərimin pıçıltısını –*
*Mən yaxşı bilirəm ayrılıq nədi!..*
*Küləklər könlümün qışqırtısını*
*Kaş ki kainata yaya biləydi.*

*Könüllər yaşadır gur nəfəsini,*
*Sənsiz hər bir anın öz qüssəsi var.*
*Müqəddəs səsinin xatirəsini*
*Anlada bilərmi çağlayan çaylar?*

*Bulud karvanına qoşulum yenə,*
*Gəzim asimanı, hardasan görüm.*
*Çatıb ucalığa, yetişim sənə,*
*Əlimi əlindən yapışan görüm!*

*Acı göz yaşını sel elə gəlsin,*
*Ey yağış, soyumur dərdimin odu.*
*Qüssədən qocalan Ay dilə gəlsin,*
*Söyləsin, ruhunun haradı yurdu?*

*Dağ idin, çiynimi dağlara verdim,*
*Dağların dərdini çəksə, dağ çəkər.*
*Sənə məhəbbətim dağlar qədərdi,*
*Yerini dağlardan soruşum bəlkə?*

*Bəlkə çinarlarla baş-başa verim,*
*Görən qovuşarmı boyum boyuna?*
*Gərək sənə yetə bu qəmli şeirim,*
*Gərək sənə yetə... haqqım var buna.*

*Nurunu gözümdə saxlayım necə? –*
*Möcüzə yaratmaq gəlmir əlimdən.*
*Parçalan, ey zülmət, çəkil, ey gecə,*
*Günəşə qovuşmaq istəyirəm mən!*[1]

Nəbi Xəzrinin “Ölməz insana” şeiri də Heydər Əliyevin ölməzliyinə, təbiətdə əbədi yaşam haqqına əminliklə qələmə alınıb. Şeirdə siyasi liderin həyatı həqiqətin rəmzi kimi mənalanır, burada qurtaran, yox olan ömür həm əbədiyyət üfüqündə davam edir, həm də ailənin, xalqın, millətin sabaha yönələn ideallarında...

*Bu gün söz deməyə*
*ürək doludur,*
*Nə böyük dərd gəldi*
*Doğma millətə.*
*Yolun ölməzliyin*
*uca yoludur,*
*Sən niyə tələsdin*
*Əbədiyyətə?*
*Qəlbimiz döyünür*
*Sənin yanında,*
*Sənin torpağına*
*Baş əydik keçdik.*
*Vətənin Ən Fəxri*
*Xiyabanında –*
*Güldən, çiçəklərdən*
*Dağ görməmişdik.*
*Sən bizi ucaltdın Günəşə,*
*Aya,*
*Çatdı şöhrətimiz*
*Bütün dünyaya.*
*Ağır dərd önündə*
*Əyilir başlar,*
*Sənin keşiyində*
*millətim durur.*
*Nəvələr gözündə*

[1] Leyla Əliyeva. Günəşə qovuşmaq istəyirəm mən! Bakı: Çinar-Çap, 2008, s.5

*büllurdan yaşlar,*
*Oğlunsa yeriyir*
*Alnında qürur.*
*Millət şöhrət oldu*
*Dünya üzünə.*
*Səninlə fəxr edir*
*Sevimli yurdun*
*Səninçün biz nə etdik?*
*Özün-özünə*
*Azərbaycan adlı*
*Abidə qurdun!*[1]

Eyni notlar Xanım İsmayılqızının "Dahi" şeirində də vurğulanır. Bu şeir də Heydər Əliyevə həsr olunmuş əksər poetik nümunələr kimi patetik və tribun üslubdadır. Şeir Heydər Əliyevin vəfatı münasibəti ilə, onun ölümündən doğan təəssüratın ovqatında qələmə alınmışdır:

*Kimlər dünyandan keçdi özünü tanımaqçün,*
*Sənsə dünyadan köçdün ürəkdə yaşamaqçün.*
*Sən dünyanı dəyişib qəlbdə abidə qurdun*
*Cismin burda uyuyur, əbədiyyətdir yurdun!*
*Tarixlərə yazılan şəxsiyyət var, ilahi!*
*Adını xalqın verdi: Dahi!*

*Ölümün özü belə varlığına baş əydi*
*Sən əlçatmaz zirvəsən, sənə çatmaq gərəkdir.*
*Tarixlərə yazılan şəxsiyyət var, ilahi!*
*Adını xalqın verdi: Dahi!*

Bu əlbəttə ki, kədər motivi deyildir, tarix yaradan şəxsiyyətlərin ölümdən ucalığı ideyasının bədii ifadəsidir. Müəllif ölümə və ayrılığa qələmlə meydan oxuyur, yoxluğun deyil, mənəvi diriliyin poetik təcəssümü olan bu misralar ləyaqətlə yaşanan ömür idealını əks etdirir:

---

[1] Nəbi Xəzri. "Günəşə qovuşmaq istəyirəm mən" – B.: Çinar-Çap, 2008. – s.12-13

*Gələn bir də gedəcək, bu taleyin işidi,*
*Gözəl ömür yaşamaq Allahın bəxşişidi.*
*O dünyada da belə ruhun dayaqdır bizə*
*Sən əbədi qovuşdun müqəddəs sevgimizə.*
*Özü tarix yaradan şəxsiyyət var, ilahi!*
*Adını xalqın verdi: Dahi!*

Ramiz Məmmədzadənin "Tanrı möcüzəsi", Sərvaz Hüseynoğlunun "O, qalib yaşadı", Gülbala Teymurun "Qoruya bilmədik", Vaqif Məmmədovun "Getdi əbədiyyət dünyasına o", Mehman Qaraxanoğlunun "Atayla görüş də matəm olarmı?", Eldar İsmayılın "Bütün cahan ağlayır", Fərqanə Mehdiyevanın "Sən demə təzədən doğuldun babam!" şeirləri Ümummilli liderin vəfatından doğan hüznlə qələmə alınan nümunələrdir. Bu şeirlər Heydər Əliyevə xalq sevgisinin və ehtiramının, eyni zamanda onun cismani ölümünün ağırlığından doğan qəm-qüssənin poetik ifadəsidir. Dövlət başçısının ölüm xəbərindən sarsılan şair ruhu onun əbədi, mənəvi var oluşuna inamla özünü ovuda bilir yalnız. Yeganə təsəlli görülən işlərin məzmunundadır. Şair Dayandur Sevginin "Millətin xilaskarı" adlı poetik monoloqu itkinin ağrısını və ağrıdan sonrakı halı nəzmə çəkmək baxımından bədii ümumiləşmənin nümunəsidir:

*Təsəlli soyutmaz ağrı-acımı,*
*Fələk öz sazını tərsinə çaldı.*
*Xəbər güllə kimi dəydi sinəmə,*
*Əllərim quruyub havada qaldı.*

*Köçdü xilaskarı bu məmləkətin,*
*Demə xatirəsi qəlblərdən itər.*
*Xilaskarı tapmaq çətindən-çətin,*
*İtirmək, nə deyim, ölümdən betər.*

*Ölüm hey axtarıb yaxşını arar,*
*Fürsəti düşdümü deyər dəmidir.*
*İldırım birinci zirvəni vurar,*
*Dahi adamlar da zirvə kimidir.*

*Gedir çiynində öz millətinin,*
*Gedir son mənzilə, əbədiyyətə.*
*Gedir dahi öndər Heydər Əliyev,*
*O, nələr vermədi bu məmləkətə.*

*Yaşadı, yaratdı safdiləklərlə,*
*Oldu özxalqının arxa-dayağı.*
*Qəbrinə səpilən gül-çiçəklərlə,*
*Bir boy da ucaldıVətən torpağı.*

***

"Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma", – demişdi çıxışlarının birində Heydər Əliyev. Xalqın dəyərləri, dünəni, keçmişi onun üçün dövləti idarəetmə strukturunun episentrində dayanan amillər idi. Həm çıxışlarında, həm də şair-yazıçılarla olan görüşlərində bu məqama diqqət yönəltməyi sevir, qələm əhlini, ziyalıları bu məqama həssas yanaşmağa çağırırdı. Məsələn, Söhrab Tahir müasir Azərbaycan ədəbiyyatında ən iri həcmli poetik əsər hesab edilən "Ata" poema-eposunun ön sözündə yazır: "Çoxdandır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız xalqımızın varlığı, mənşəyi, yaşadığı ərazi, qədim həyat tərzi, dili və qəhrəmanlıqları ilə maraqlanır, bəziləri isə mənə bu haqda məktub yazır, bu sahədə ortalığa ciddi suallar qoyurdular. Son 20 ildə Azərbaycan xalqının varlığı, etnogenezi ilə əlaqədar elmi kitablarla yanaşı, şamanizm, zərdüştizm haqqında kitablar, əsatir, əfsanə, dastan, nağıl, deyim və söyləncələr oxuyurdum. Xalqımın qədim varlığını, adını, qəhrəmanlıqlarını göstərən sənədləri, abidələri dağıdıb, yandırıb məhv edən düşmənlərin qəddarlığının qanlı izinə düşüb, yavaş-yavaş dünyanın ən qədim, ən nəcib, ən dəyişkən, ən ləyaqətli və şücaətli xalqları olan türkdilli ellərin, o cümlədən xalqımızın ən qədim tarixinin monumental mənzərələrini aydın şəkildə görməyə başladım. Azərbaycanda istiqlal hərəkatı başlarkən bu mövzuda böyük bir əsər yazmaq imkanı reallaşdı. Bir gün yas məclisində Moskvadan yenicə qayıtmış elimizin ağsaqqalı, böyük rəhbər Heydər Əliyev xalqımızın tarixinin müxtəlif dövrlərindən söhbət açaraq üzünü mənə tutub məclisdə oturan alim və yazıçılara xitabən dedi: "Bu xalqın tarixini siz yazmasanız, bəs kim yazacaq?!". Mən xalqımızın

böyük oğlu Heydər Əliyevin bu haqlı tələbinin təsiri altında "Ata" poema-eposunu yazmağa başladım..."[1]

*Heydər ata, sənə rəhmət min kərə,*
*Bu əsəri sən bəxş etdin ellərə,*
*Kitab yatdı, ürəklərə, dillərə,*
*Həm tarixdir, həm dastandır bu əsər.*[2]

Nəriman Həsənzadə "Mənim ədəbi taleyim" kitabında yazır: "Heydər Əliyev bizi nə qədər görüşlərə dəvət edirdi. Həm də çox oxuyurdu. Heydər Əliyevin yüksək natiqlik qabiliyyəti, şeiri, dram əsərini duymaq bacarığı onun geniş mütaliəsinin bəhrəsi idi. Bir dəfə büroda oturmuşduq. Dedi, mənə elə gəlir bizdə Puşkin mövzusunda Mirzə Fətəli Axundovun "Puşkinin ölümünə Şərq poeması" əsərindən başqa əsər yoxdu. Mən dedim ki, var, yoldaş Əliyev. Mən Puşkinlə bağlı poema yazmışam o dövrlə bağlı. Gecə saat 1-də Yazıçılar İttifaqının birinci katibi İmran Qasımov zəng elədi mənə ki, Heydər Əliyev poemanı istəyib. "Zümrüd quşu" idi poemanın adı. O, tamaşalarda iştirak edirdi, sonda böyük həvəslə yaradıcı heyətlə görüşürdü. Bir şairin, yazıçının ehtiyacı, sıxıntısı olsa, ona maddi, mənəvi dayaq olurdu. Özü də tək ədəbiyyat yox ki. Bütün sahələrdə diqqətli idi. Yadıma gəlir, Bərdəyə zona müşavirəsinə getmişdik. Pambıqçı, Sosialist Əməyi Qəhrəmanı Tərlan xanım Musayeva ilə görüşdük. Mən o görüşdən sonra gəlib bir şeir yazıb qəzetdə çap etdirdim. Gecə saatlarında bir də gördüm Emin Sabitoğlu zəng eləyir. Dedi, o şeiri göndər mənə, o tapşırıb ki, həmin şeirə mahnı bəstələyim. Bir neçə gündən sonra Emin o şeirə elə gözəl musiqi bəstələdi ki, "Tərlan bacı" adlı o mahnı dillərə düşdü. Heydər Əliyev bu cür bütün sahələrə diqqətli idi. Ümumiyyətlə, Heydər Əliyev düz işin yanında idi, düz adamla dost idi. İşini ki, yaxşı tutursan, o adama böyük hörmət göstərirdi. Yazıçılarla, alimlərlə görüşlərində tariximizin elə məqamlarına toxunur, elə yazılmamış, lakin millət üçün çox vacib olan qatlarını qaldırırdı ki, onun genişmiqyaslı mütaliəsinə heyran olmamaq mümkün deyildi".[3]

Əlbəttə, belə çoxyönlü fəaliyyəti, diqqəti, nüfuz və səriştəsi ilə

---

[1] Söhrab Tahir. Ata (poema-epos). II cild, Bakı, "Zərdabi LTD" 2015, 1016 s., s.7
[2] Yenə orada, s.878
[3] Nəriman Həsənzadə. "Mənim ədəbi taleyim". Bakı: 2013, s.48

seçilən bir insana sözlə abidə ucaltmaq asan məsələ deyil. Çünki Heydər Əliyev yalnız ədəbiyyatda deyil, tarixdə belə öz obrazını yaratmış şəxsiyyətdir. Zamandan ucada dayanmağı bacaran şəxsiyyət. Belə məqama yetmiş obrazın bədii inikasını yaratmaq sənətkardan böyük ədəbi istedad və poetik ilham tələb edir. Şairlər bəzən poetik ilhamın qanad çaldığı şeir şəkillərində, bəzən də başqa özünüifadə formalarında böyük siyasətçinin obrazını canlandırmağa çalışırdılar.

Şair Vaqif Bəhmənlinin "Heydər Əliyev adına" əsərində Heydər Əliyevin obrazına esseist yanaşma ilə üzləşirik. Ümummilli liderin şəxsiyyətinə, xidmətlərinə yaradıcı və yeni yanaşma tipi meydana qoyan bu əsər, eləcə də müəllifin bu kitabın davamı kimi ərsəyə gətirdiyi "Vətənin İlhamı" əsəri milli dövlətçilik ideallarının ədəbiyyatda inikası baxımından əhəmiyyətli mənbə rolunu oynayır.

Heydər Əliyevə poeziyada həsr olunan ən böyük poetik abidə hələlik Zəlimxan Yaqubun əsərləridir: "Əbədiyyət dastanı" və "Böyük ömrün dastanı" əsərləri. "Əslində, Zəlimxan Yaqub bu əsərləri yaratmaqla Ulu Öndərə yazılı bir abidə ucaltmışdır".[1]

Bu dastan-poemalar böyük siyasətçinin doğuluşundan ölümünə qədər keçdiyi həyatı, ömür yolunu davamlı şəkildə tərənnüm edir. Şair bu dastanın yaranmasını belə xatırlayır: "Ölümünə heç vaxt inanmadığım, ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim bir şəxsiyyətlə bağlı üstümüzü alan, qapımızı döyən qəfil qara xəbər, hamı kimi məni də dərindən sarsıtdı. Bu sarsıntılar içində əlimə nə vaxt qələm götürdüyümdən heç özümün də xəbəri olmadı. O vaxt özümə gəldim ki, artıq sonuncu misranı yazıb, son hissəni tamamlamışam".[2]

"Əbədiyyət dastanı" müəllifin daxili narahatlığının poetik xitabı kimi hasilə gəlib. Zəlimxan Yaqub bir növ, Heydər Əliyevin simasında fərdin, milli şüurun oyanışı problemini qabardır, bu məqsədlə o, türk tarixinin, taleyinin gizli və açıq qatlarına nüfuz edir. Dastanda qüdrəti ilə tarix yaratmış şəxsiyyətlərimizin adlarının düzümü, onların sıralanması və Heydər Əliyev şəxsində mənəvi varisliyin qorunması, türklük ideologiyasına sadiqlik məsələləri şairin düşüncələr axarına məcra verən bədii fabula rolunu oynayır. Üstə-

---

[1] Ramiz Göyüşov. Dahi şəxsiyyət haqqında möhtəşəm əbədiyyət dastanları. "525-ci qəzet", 16 iyul 2014

[2] Zəlimxan Yaqub. Əbədiyyət dastanı. I kitab. Böyük ömrün dastanı. Bakı: Şərq-Qərb, 2013, s.5

lik, bura Zəlimxan Yaqubda birləşən və bütövləşən mənəvi, əxlaqi, fəlsəfi dünyaduyumun rəng polifoniyası da əlavə olunur:

*Həqiqətə tapınan mərd insanın ömrüdü*
*Sənin mübarək ömrün!!!*
*Ən çətin sualların ən dürüst cavabıdı,*
*Ulu Dədə Qorqudun abidə kitabıdı.*
*Kaşğarlı divanıdı,*
*Koroğlu dastanıdı.*
*Fələkləri yandıran Füzulinin ahıdı.*
*Xətainin çatdığı uca söz dəryasıdı.*
*Hər açılan sabahın, nurlu danın ömrüdü*
*Sənin mübarək ömrün!!!*
*Dayağı torpaq olan asimanın ömrüdü*
*Sənin mübarək ömrün!!!*[1]

Zəlimxan Yaqubun Heydər Əliyevlə bağlı səsləndirdiyi belə bir fikir var: "Məndən soruşsalar ki, məhəbbətə, cəsarətə, sədaqətə, sənətə, təfəkkürə, fəlsəfəyə, poeziyaya heykəl qoymaq istəyirik, Kimin heykəlini qoyaq? Deyərəm Heydər Əliyevin".[2]

"Əbədiyyət dastanı" əsərində Zəlimxan Yaqub Heydər Əliyevin ömür bioqrafiyasını mərhələ-mərhələ izləməklə, sosial gerçəklərin təsvirindən ruhi-mənəvi aləmə və situasiyalara keçidlərlə bu arzusunu mətn üzərində reallaşdırmaq məqsədi güdür. Heydər Əliyevi estetik fenomen olaraq ədəbiyyatın daşlaşan yaddaşına çevirmək istəyir:

*Eşqə qadağa yox, sevgiyə sərhəd,*
*Xatirən canlıdır, şöhrətin diri,*
*Ömrünün mənası millətə xidmət,*
*Adının mənası Allahın şiri.*[3]

– deyən şair "Böyük ömrün dastanı"nın Divanisini-Proloqunu bu bəndlə başlayır. Dastan Giriş sözü və Proloqu da daxil olmaqla, 31

---

[1] Zəlimxan Yaqub. Əbədiyyət dastanı. I kitab. Böyük ömrün dastanı. Bakı: Şərq-Qərb, 2013, s.104-105
[2] Yenə orada, s.6
[3] Yenə orada, s.7

boydan ibarətdir. Bunların hər biri Heydər Əliyevin yaşadığı ömrə ayna tutur. Son günlərinə, vəfat anlarına qədər poemada əbədiləşir Heydər Əliyev ömrü...

*Yuxudan qaldırdılar,*
*Məni, dərin yuxudan.*
*Rəngim ağappaq oldu*
*Səksəkədən, qorxudan.*
*Gördüm başımın üstə,*
*Dayanıb Bəhlul balam...*
*"Xəbər verdilər, ata,*
*Köçdü Heydər Əliyev,*
*Vida dedi həyata"*
*Bu söz başımın üstə,*
*Çaxdı ildırım kimi,*
*Parçaladı sinəmi,*
*Dağıtdı şırım kimi*[1]

Dastanın "O, həyatı sevirdi", "Bir dahi doğulub gəldi dünyaya", "Gizli təşkilatda", "Zərifə sevgisi, Heydər sevinci", "Anamın əmanəti", "14 iyul bayramı", "Kremldə keçən ömür", "Naxçıvanda keçən günlər", "Onu zaman çağırdı", "Bakı görüşü", "Heydər "Xalq" deyəndə – Xalq "Heydər" dedi", "Prezident ömrünün son saatları", "Gedən millətdən gedir", "Ata Heydər – Atatürk", "Ölməzlik", "Sənin yerin görünəcək", "Səni Allah qorudu", "Ən böyük abidənin ölməz adı sevgidi", "Son görüş, son ayrılıq", "Başın sağ olsun, Vətən", "Səndən sonra", "Bu dərdi mən yazmadım", "Minnətdarlıq" bölmələrinin hər birində Heydər Əliyevə dərin sevgi izharı ilə üzləşirik. "Əbədiyyət dastanı" Heydər Əliyev dühasına, Heydər Əliyev həqiqətinə alternativ sənət dili ilə yanaşan, onun poeziyasını yaratmağa "hünər göstərən" hələlik ilk irihəcmli poetik əsərdir. Bu əsərin aynasında keşməkeşli ömür yolu ilə zəngin Heydər Əliyev dünyasının özü görünür.

Əslində, tarixlə poeziyanın missiyası eyni məkanda və eyni niyyətdə həmişə birləşiblər: yaddaşın oyaq qalmasına münasibətdə.

---

[1] Zəlimxan Yaqub. Əbədiyyət dastanı. I kitab. Böyük ömrün dastanı. Bakı: Şərq-Qərb, 2013, s.9

Çünki tarix kimi poeziya da meyardır. Yaddaşa, həqiqətə qoyulan abidədir. Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" bu missiyanın qovuşuq anı kimi dəyərlidir. Tarixdə daşlaşan poeziya, poeziyada yaddaşlaşan tarixdir.

Qeyd edək ki, Əli Rza Xələflinin "Ölməzlik nəğməsi"[1] irihəcmli əsəri Zəlimxan Yaqubun "Əbədiyyət dastanı"ndan təsirlənərək qələmə alınıb. Heydər Əliyevə həsr olunan başqa poemalar da var: Ramiz Duyğun, "Prezidentin ürəyi" (1999), Mirkazım Seyidov "Dahi" (2004), "Soydaş, sözüm sənədir" (2011), "Heydər dühası" (2013), Ramiz Heydər "İlhamlı gələcək" (Qaradağ simfoniyası) (2004), "Zəmanəyə heyrətimdi Heydərim" (2004), Eldar Muxtar Dərviş "Güllü Azərbaycan Heydər bağıdır" (2004), Asim Yadigarın "Dahinamə" (2005), Mövlud Teymur "Mənalı ömür" (2005), Ramiz Bahaduroğlu "Müdriklik xəzinəsi" (2006), Fəridə Ləman "Onu zaman seçib" (2008), Elxan Zal Qaraxanoğlu "Anıt məzar dastanı" (2012), Mətanət Hüseynxanqızının "Tac günəşim", Əhməd Elbrusun "İnam", Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" və s. kimi poemalar da yer alır. Bu poemalarda əsas məqsəd milli idealı öz tərcümeyi-halında ifadə edən, türk və islam əxlaqlı dövlət başçısı obrazını yaratmaq olmuşdur.

Həmin əsərlər sırasında şair Elman Həbibin "Heydərnamə"sinin (Bakı, Şirvannəşr, 2008) xüsusi yeri var. Qeyd edək ki, müəllifin "Heydərnamə", "İlham – xalqın İlhamı və "İnsan" adlanan poemaları üçlük şəklində "İnsanlıq dastanı" adı ilə 2013-cü ildə yenidən çap edilmişdir.

Elman Həbibin "Heydərnamə" poeması ümummilli liderin azərbaycançılıq idealını, bu idealın konkret əməllərdə ifadəsini təsvirə çəkən nümunədir. Akademik İsa Həbibbəyli yazır: "Heydərnamə" poeması görkəmli dövlət xadimi Heydər Əliyev haqqında yazılmış mükəmməl sənət əsərlərindən biridir. Böyük şəxsiyyətə qlobal baxışla ümummilli yanaşmanın vəhdəti, təbiilik və gerçəkliyə sədaqət Elman Həbibin əsərini Azərbaycan Heydərnamələrinin ön sırasına çıxarır. Bu poema Azərbaycan dövlətçiliyinə və müstəqil dövlətin qüdrətli liderinə baxışda Elman Həbibin mövqeyini ifadə edən kamil bədii əsər kimi də mühüm əhəmiyyət kəsb edir".[2]

---

[1] Əli Rza Xələflinin "Ölməzlik nəğməsi". Bakı: "Vətən" nəşriyyatı, 2013
[2] İsa Həbibəyli. Qısametrajlı ömrün filmi, "525-ci qəzet", 2011, 12 may

Poemanın girişində müəllif tutduğu yolun heç də asan olmadığını etiraf edir, siyasi təfəkkürlə bədii düşüncənin vəhdətindən yaranan, sevimli şəxsiyyətə dərin inamdan ərsəyə gələn belə "Heydərnamə"lərin çox olduğunu bildirir:

*Çox əsərlər yazılıb onun məğrur adına,*
*Hələ heç biri dəyməz adi danışığına.*
*Onun adına layiq nə yazılıb öyək biz?!*
*"Heydərnamə"dir deyib döşümüzə döyək biz?!*[1]

Poema ikisəsli süjet üstündə qurulmuşdur. Birinci səs "Xalqın səsi", ikincisi "Ulu Öndərdən" eşidilən səs kimi təcəssümünü tapır. Mətn boyu səslər bir-birini əvəz edir. Bu paralellik nəticəsində şairin demək istədiyi mətləblərin məzmun qatı genişlənir. Bu bədii üsulla, ikiqat, ikiplanlı təqdim olunan təxəyyül və fikir meydanında müəllif özünü daha sərbəst hiss edir. Ümummilli liderin gerçəkləşdirdiyi miqyaslı əməllər konkret ictimai-siyasi nümunələr modelində predmetləşdirilir:

*"Əsrin müqaviləsi" gülünc gəldi çoxuna,*
*Ulu Heydərim baxdı kamanına, oxuna.*
*Od götürdü od oğlu Xəzərin sahilindən,*
*Oxu qoydu kamana Azərbaycan elindən.*
*Uçdu, uçdu yanar od, neçə ellər dolaşdı,*
*Neçə düzdən keçdi o, neçə də dağlar aşdı.*
*Yerin türk torpağından uçdu türk torpağına*
*Xəzərin sahilində çağlayan bu yanar od,*
*Düşdü Ceyhan elinə, düşdü türk torpağına.*
*Bütün dünya danışdı, heyrət içində yandı,*
*Bu yolun varlığına ulu Heydər inandı.*
*İnandı, gün gələcək, türkün ali sözütək*
*Azərbaycan torpağı dünyada yüksələcək.*

Elman Həbib Heydər Əliyevlə bağlı poemalara 1990-cı illərində əvvəllərində başlamış, bir-birinin ardınca yazdığı "Həqiqət günə-

[1] Elman Həbib. İnsanlıq dastanı – Heydərnamə. Bakı: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, s.23

şi", "Heydərnamə" və "Naxçıvannamə" poemalarında böyük öndərin həyatını, imza qoyduğu, gerçəkləşdirdiyi layihələrin xalq, millət üçün önəmini vurğulamağa çalışmışdır. Bu mənada, tənqidçi Vaqif Yusifli haqlı yazır ki, "Elman Həbibin 90-cı illərdə qələmə aldığı "Həqiqət günəşi", "Heydərnamə" və "Naxçıvannamə" poemaları müstəqillik dövrünün poeziyasında ali həqiqətlərin ifadəsidir".[1]

Bu poemalarda qoyulan məsələlər Elman Həbibin sonradan yazdığı "İlham – xalqın ilhamı" adlı daha bir poemasında davamını tapdı. Şair "ot kökü üstə bitər" misrasından yola çıxaraq Prezident İlham Əliyevin simasında xalqın xilaskarı missiyasının qorunduğunu yazdı. Zamanın narahatlığına, dünyada baş verən xaotik proseslərə ayıq münasibət, əsrin sürət və dinamikasına uyğunlaşma, dövləti idarəetmədə sabitlik və kamilliyin qorunması İlham Əliyev siyasətinin mühüm keyfiyyətləri kimi poemada poetik formada ifadə edilmişdir:

*Kimə səs verdi bu xalq?*
*Niyə səs verdi bu xalq?*
*Xalq özünü tanıyır,*
*Artıq bilir o kimdir.*
*O özünə həm hakim,*
*O özünə vəkildir.*
*Onun getdiyi yollar*
*Bir həqiqət yoludur.*
*Ulu Heydər yoludur,*
*Bir cəsarət yoludur.*[2]

Əksər əsərlərin aparıcı xəttini ümumi xüsusiyyətlər birləşdirir: Heydər Əliyevə məhəbbət duyğusu, şəxsiyyətinə vurğunluq, onun mənəvi keyfiyyətlərinə heyranlıq və siyasi mövqeyinə sədaqət hissi... Ümummilli liderin bioqrafik portreti, tarixi-siyasi fəaliyyəti bu əsərləri eyni məzmunlu əsərlər müstəvisinə gətirir, onları eyni məcrada təhlil etməyi labüdləşdirir.

Ramiz Duyğunun "Prezidentin ürəyi" (1999) poemasında Heydər Əliyevin hakimiyyətə gəlişindən vəfatına qədər olan ömür yolu

---

[1] Vaqif Yusifli. Bölgələrdə ədəbi həyat. "Ədəbiyyat qəzeti", 11 may 2017

[2] Elman Həbib. İnsanlıq dastanı. İlham – xalqın İlhamı. Bakı: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, s.8

əbədiləşir. Poema dövrün mürəkkəb gerçəklərindən müasir insanın ruhi-mənəvi aləminə keçidləri üzərində yazılıb. Heydər Əliyevin tarixi rolunu önə çəkən əsərdə onun imperiya ilə vuruşları, hakimiyyət elitasında nüfuzu və bu nüfuzdan xalqının, dövlətinin təşəkkülü, tanınması yönündə faydalanması, ürəyini vətən yolunda şam kimi əritməsi təsvir olunur:

*Özüyçün yaşamazdı,*
*Millətinin uğrunda*
*Odlarla çarpışardı,*
*Yadlarla əlləşərdi.*
*Bir qəribə bəşərdi...*
*Yerdən alov çıxırdı,*
*Göydən güllə yağırdı.*
*Günahsız qoca millət*
*Başsız idi, fağırdı.*
*O qəddini dikəldib*
*Ürək ilə çağırdı,*
*Çağırdı... Çağırdı...*

*Nəfəs verdi xalqının*
*Boğulan nəfəsinə.*
*O, səs verdi ürəklə*
*Xalqın batan səsinə.*
*O, səs verdi: "Bu işə*
*mən yenidən başladım.*
*Ömrümün qalanını*
*xalqıma bağışladım..."*[1]

Elxan Zal Qaraxanlının "Anıt Məzar dastanı" poeması iki intonasiya – publisistik və bədii notlar üstündə qələmə alınıb. Əsərdə müxtəlif zamanlar bir araya gətirilir. Heydər Əliyev türbəsində dayanıb onu on yeddi imperiya qurmuş fatehlər nəslinin davamçısı kimi təqdim edən müəllif türk tarixinin şanlı keçmişindən, sərkərdələrinin hünərlərindən gəlir. Poemada türk imperiyası qurmuş Çingiz xan, Şah İsmayıl Xətainin dövrünə ekskurslar olunur, Əhməd Yəsə-

[1] Ramiz Duyğun. Təki Vətən yaşasın. Bakı: "Əbilov, Zeynalov və oğulları", 2002, s.18-19

vi, Hacı Bektaş, Nəsimi, Füzulu kimi türk-islam ulularının aid olduqları dövrlərlə əlaqə qurulur. Fatehlik dövrləri təkrarlanır, tanış adlar, olaylar virtual olaraq müəllif təhkiyəsində dirilik qazanır. Daha sonra Heydər Əliyevin simasında xilaskar obrazını irəli çəkən müəllif ondan 1990-cı illərin xaotik proseslərindən qurtulmağa kömək edən ümidin ünvanı – yeni Azərbaycan adlı imperiyanın qurucusu kimi bəhs edir.

*Ümid qılıncımız yaşadı qında,*
*Gözlədik nə vaxtsa zəfər gələcək.*
*Əsrin zülmətini dağıdanda dan,*
*İşıqlı başların arzularından,*
*Xilaskar gələcək, Heydər gələcək!*
*Torpağın bağrından bir ərdi, gəldi,*
*Xalqın gözlədiyi Heydərdi-gəldi.*
*Ehey, məmləkətin vətəndaşları,*
*Yüksəliş əsrinin qızıl başları,*
*Keçmiş əzəmətin xarabasında,*
*Bir bina tikirik, yığın daşları..!*[1]

Ramiz Heydərin "İlhamlı gələcək" (Qaradağ simfoniyası) poemasında əsas mövzu rəhbər və xalqdır. Bakı-Ceyhan xətti ilə əlaqədar fəaliyyət, onun ayrılmaz hissəsi olan Qaradağ terminallarının yaradılması prosesi poemada əksini tapır. Daha çox əmək adamlarının, neftçilərin əsas personaj kimi iştirak etdiyi bu poema Azərbaycan prezidenti İlham Əliyevə həsr olunsa da Heydər Əliyevin qayğısı, sadə insanlarla rəftarı, onun abadlaşdırdığı, qurduğu şəhər və kəndlərin tərənnümü də əsas yer tutur:

*Haraya gedirsən, harda olursan,*
*Hansı bir yerdəsə qonaq qalırsan,*
*Heydər Əliyevin adıyla bağlı,*
*Rəhbərin keçdiyi yolla çıraqlı.*
*Heydər Əliyevin gur səsi burda,*
*Qəlbə həyat verən nəfəsi burda.*

---

[1] Qaraxanlı E.Z. Azərbaycan simfoniyası. "Ulduz" jurnalı, 2013, № 7, s.75-96

*Heydər Əliyevin məktəbi burda,*
*Heydər Əliyevin guşəsi burda.*[1]

Mirkazım Seyidovun "Heydər dühası" poeması 2013-cü ildə Heydər Əliyevin 90 illiyi münasibətilə qələmə alınıb. Yeddi fəsildən ibarət olan poemada Ümummilli liderin doğulduğu, "eşqinin nübarı qədim Naxçıvan" torpağının tərənnümündən tutmuş Moskva fəaliyyətinə, hakimiyyətinin birinci mərhələsinə, habelə 1990-cı illərdə, Bakının ağır günlərdə bura dönüşünə, həyata keçirdiyi əməllərin təsvirinə həsr olunub. Daha çox 1990-cı illərdə Azərbaycanda baş verən ictimai-siyasi proseslərə, çarpışmalara, qovğalara yer verilən bu poema Heydər Əliyevin ömür yolunun yaxşı öyrənilməsi, həmin illərdəki proseslərin aydın və obyektiv səciyyələndirilməsi ilə maraq doğurur. Müəllif Heydər Əliyev dühasını xalqın müşkülünü həll eləmək səriştəsində görməklə bərabər, onun bütöv Azərbaycan naminə gerçəkləşdirdiyi əməllər sırasını da poetik təcəssüm predmeti edir:

*Ellərin sevincdən hüsnünü öyən,*
*O sənin sözlərin xoş bir avazdı.*
*Ömrünü xalqına qurban eyləyən,*
*Sənin tək dahilər dünyada azdı.*

*Xalqın Xilaskarı ey ulu rəhbər,*
*Əməlin məlhəmdi doğma millətə.*
*Adın qəlbindədir hər vətəndaşın,*
*Zaman heyran qalıb bu ülviyyətə.*

*Böyük məharətlə yox edib atdın,*
*Xalqın yolundakı hər təhlükəni.*
*Qadir əllərinlə qurub yaratdın,*
*Bu şanlı, şərəfli azad ölkəni.*[2]

Heydər Əliyevə həsr olunan bütün şeir və poemalarda eyni obrazla qarşılaşırıq: xilaskar, mətin, dahi insan, millət və xalq fədaisi, bütün varlığı ilə dövlətinə bağlı olan şəxsiyyət və s. və i... Bu obrazı

---

[1] Ramiz Heydər. "İlhamlı gələcək" (Qaradağ simfoniyası). Bakı: "Vektor" nəşrlər evi, 2004, s.65
[2] Mirkazım Seyidov. Heydər dühası. Bakı:"Elm və təhsil", 2013, s.121

Heydər Əliyev özü öz ömür bioqrafiyası ilə yaratmışdır. Ona görə hansı rakursdan yanaşılsa, hansı səviyyədə bədii təcəssümün predmetinə çevrilsə belə sonda gözlərimiz önündə böyük əqidə və amal daşıyıcısı olan eyni Obraz canlanır. Tərcümeyi-halını məsləkinin ifadəsinə çevirmiş Heydər Əliyev obrazı…

"Zaman keçir, hər şey durulur və Heydər Əliyevin 40 illik siyasi yaradıcılığı bu gün müstəqillik təntənəsini yaşayan Azərbaycanımızın əsasını təşkil edir. Biz desək də, deməsək də Azərbaycanda inkişaf etmiş, böyümüş, artmış, tikilmiş, yenidən qurulmuş hər nə varsa onun adıyla bağlıdır! Bunu danmaqsa mümkün deyil... Bu tarixdir!",[1] – yazır yazıçı Mövlud Süleymanlı. Heydər Əliyevə həsr olunan bütün əsərlər, əslində, bir məqama israrlıdır: Heydər Əliyev tarixdə qalıcı şəxsiyyətdir. Öyünə biləcəyimiz TƏKlərdəndir! TƏKlər isə həmişə tarix, zaman və sənətlə həmmüəllif olurlar.

***

Biz Ümummilli liderin vətən, yurd, xalq adına gördüyü nəhayətsiz əməllərdən bəhs etdik. Amma Heydər Əliyevin ən dəyərli əsərlərindən biri Azərbaycan Prezidenti İlham Əliyevdir. Heydər Əliyevin uğurlu siyasi kursunun bariz örnəyi!

Vahid Əzizin "Ata" şeirində vurğulandığı kimi, sabaha aparan yolun sarvanı... Azərbaycanın gücü...

*Elə həsrətindəyik illərin bu çağında*
*İşıqlı bir zərrəyik sənin ucalığında*
*Övladların gəldiyi ataların yoludu*
*Azadlığı sevərək zülmə boyu əymədik.*
*Səninlə Heydər ata başladı yeni həyat*

*Sevgiylə yaşayan əbədi zirvəsən,*
*İşıqlı dühasan, Ata*
*Arzularda inam var,*
*Ümidlərdə qol qanad*
*Azərbaycan sabaha*
*İlhamla gedər oldu!*
*İlhamlı ordu!*

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. "Tənqid.net" jurnalı, 2013, № 10, s.33

Bu gün Heydər Əliyev həm də İlham Əliyevin simasında yaşayır, əbədi davam edən tarixə çevrilir, zamanlara qarışıb sonsuzluğa doğru yol gedir. Təsadüfi deyil ki, bu gün İlham Əliyevə həsr olunan əsərlər ilkin olaraq Heydər Əliyev obrazını içindən keçirməli olur:

*Yaşın o yaşa çatır,*
*damarlarında o qan –*
*Dönüb keçən yüzilin*
*yetmişlərinə baxsan.*
*Bundan sonra sən daha*
*tarix yaradacaqsan!*
*QƏLƏBƏ – bu möhtəşəm*
*tarixin şah əsəri!*
*Ver, ver bizə zəfəri!*[1]

Yaxud:

*Biz ki nurdan yoğrulmuşuq, biz ki nurdan yaranmışıq –*
*Yolumuza kölgə salmaz hardan düşür, düşsün işıq.*
*İşimizdə haqq, ədalət, sevdamızda güc, qətiyyət –*
*Üzümüzə, bəxtimizə güləcəkdir qalibiyyət,*
*Ölkəm əmin əllərdədir, davam edir mübarizə.*
*Ulu Öndər özü kimi inandığı bir varisə*
*Güvənərək, bir inamla demədimi illər qabaq:*
*"Azərbaycan günəş kimi Yer üzünə saçılacaq!"*
*Odlar yurdu, nur saçırsan, qaranlıqlar gendən keçir,*
*Avropanın gələcəyə addımları səndən keçir!*[2]

***

Heydər Əliyev cəmiyyətimizlə bahəm ədəbiyyatda da başlanan yeni epoxanın təməlini qoyan, onun gəlişməsinə təkan verən tarixi şəxsiyyətdir. Ona görə haqqında yazılan mətnlərin bəlkə də hələ

[1] Arzu Əsədov. "Ölkəm əmin əllərdədir". "Ədəbiyyat qəzeti", 2016, 24 dekabr
[2] Yenə orada

Ümumilli liderin obrazını bütünlüyü ilə yaratmağa gücü yetmir. Heydər Əliyevin obrazı ən istedadlı mətndən belə irəlidə durmağı bacarır. Görünür, Zamanın fövqünə, ucalığına qalxmış İnsanlar üçün ən gözəl əsəri elə Tarixin özü yaradır.

Heydər Əliyev ədəbiyyatı! Bu faktdır, tarixdir, hamımızın keçib gəldiyi, dürüstlüyünə vaqif olduğumuz gerçəklər sırasıdır. Necə ki, bütöv bir epoxa yazarlar nəsli öz yaradıcılığında Heydər Əliyev dühasının rolunu dönə-dönə vurğulamış, səmimi etiraf anlarından tutmuş alt-fəlsəfə məqamlarının işləndiyi yerlərə qədər bu dühanın rolunu önəmsəməyə çalışmışlar.

Heydər Əliyev həm də sözümüzün "yaddaş sirri"dir. O, dövlətin rəmzinə çevrilmiş ilk siyasi lider oldu və kifayət qədər ibrətamizdir ki, belə bir hadisə Azərbaycan tarixində ilk dəfəydi ki, baş verirdi. Belə hadisələri isə tarix sonradan təshih etmir. Çünki yüzillər keçəndən sonra tarix daha çox həqiqətin dilində danışır. Heydər Əliyev Azərbaycanın siyasət dilini dünyaya təlim edən ilk Azərbaycanlı oldu. Bu mənada, yüzillər keçəndən sonra da tarix Azərbaycan barədə qurucunun, baninin, Ümummilli liderin, yəni Heydər Əliyevin üslubunda danışacaq.

## FOLKLORDA VƏ BƏDİİ NƏSRDƏ HEYDƏR ƏLİYEV OBRAZI

Belə bir fikir var ki, xalq sevdiyi qəhrəmanlar haqqında nəğmələr qoşur, əfsanələr yaradır, nağıllar, lətifələr söyləyir. Xalq yaradıcılığının, folklorun hədəfində real qəhrəmanlara, tarixi şəxsiyyətlərə ümumxalq sevgisi durur. Sovet rejimində çox az rəhbərlər, tarixi simalar folklor qəhrəmanına çevrilə bilmiş, barəsində xalq "olmuş və olmamış" əhvalatlar söyləmişdir. Ümumən inzibatçı sovet sistemi xalq yaradıcılığının ünvanını "keşmiş"ə aid etməyi, yönəltməyi sevir; belə çıxır ki, xalq sevgisindən yayınmağa meyl edirdi. Bununla belə, folklor həmişə yaranmışdır; haçansa olmuşlar xalq sevgisinə bələnərək, ağızdan-ağıza, dildən-dilə ələnərək şifahi söz örnəklərində təcəssüm tapmış, xalq mövqeyi və müdrikliyini ifadə etmişdir.

Heydər Əliyev haqqında ilk əfsanələr hələ gəncliyindən, sovet təhlükəsizlik orqanlarında çalışdığı zamanlardan dolaşmağa başlayır. Elmira Axundova "Heydər Əliyev: şəxsiyyət və zaman" çoxcildlik roman-tədqiqatında bu məqama diqqət çəkir: "Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarındakı işi barədə mənə bir çox sensasiyalı, lakin əslində əfsanə olan əhvalatları eşitmək və oxumaq müyəssər olmuşdur. Yəqin belə də olmalıdır: bütün görkəmli şəxsiyyətlərin həyatı əfsanələrə bürünür, şaiyələrlə dolur, xüsusən də şəxsiyyət Sovet İttifaqının ən qapalı və sirli təşkilatında general rütbəsinə qədər yüksələ bilibsə..."[1] Belə əfsanələrdən birində "1956-cı ildə, məlum Macarıstan hadisələri zamanı Əliyev soyadlı "DTK-dan olan qafqazlının" rəhbərlik etdiyi qrup" tərəfindən o zaman Macarıstanda səfir çalışan, gələcəkdə Sovet İttifaqının başında duracaq Andropovun "girov götürülmüş oğlunun xilas edilməsi" barəsində söhbət gedir. Müəllif roman-tədqiqatında bunun mif olduğunu, lakin Heydər Əliyevin DTK sıralarında, həqiqətən də, əfsanəvi fəaliyyətindən qaynaqlandığını təsbit edir. Əsərdə misal gətirilən onlarla süjet və əhvalatlar da ("Alagöz", "Duel" və s.)[2] bunu təsdiq edir və görürük ki, xalq təfəkkürü "sirli təşkilat"da çalışan qəhrəmanının hünərvər obrazını yaratmaqda heç də yanılmır.

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild, 2007, 352s., s.105

[2] Yenə orada, s.145

Yaxud başqa bir əfsanəyə misal. "Türk jurnalisti İrfan Ülkünün kitabında isə guya 50-ci illərin əvvəllərində gənc kapitan Heydər Əliyevin əlinə ordudan fərarilik etmiş və ya əsirlikdə olmuş 5 min azərbaycanlının adı olan siyahının düşməsi barədə sırf detektiv bir əhvalat danışılır. Gizli əmrdə bu adamları aşkar edib onlar barədə repressiya tədbirləri görmək tapşırılırdı. Türk bioqrafının sözlərinə görə, Heydər Əliyev olduqca təhlükəli bir addım atır: siyahıda olan soyadların bir qismi sadəcə olaraq silinir, bəziləri isə uydurulan və ya "itkin düşənlərlə" əvəzlənir. Bu yolla o, onlarla, bəlkə də yüzlərlə insanı xilas etməyə müvəffəq olur..."[1] Aydındır ki, bu əhvalatdakı xalq inamında da Heydər Əliyevin hələ gəncliyindən vətənpərvər və milliyyətçi obrazına diqqət cəlb olunur. Elmira Axundova həmin "əfsanə"nin də heçdən yaranmadığını göstərir: "Halbuki müharibədən sonra Heydər Əliyev həqiqətən əsirlikdə, yaxud işğal altında olan ərazilərdə olmuş bir çox naxçıvanlını sürgün həyatından və düşərgələrdən xilas etmişdir"[2] və kitabında bu haqda gerçək faktlarla söz açır.[3]

Heydər Əliyevin xalq arasında əfsanəvi obrazı daha geniş miqyasda respublikaya rəhbərlik etməyə başladığı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi dövrdən yayılır. Elmira Axundova roman-tədqiqatında Heydər Əliyevin o zamanlar xalq arasında böyük əks-səda doğurmuş "şah abbassayağı" dərviş gəzintilərinə diqqət yetirir: "Üzdən az tanındığından istifadə edərək, Heydər Əliyev şəhərə "partizan yürüşləri"nə çıxırdı. Sadə paltar geyinib evdən çıxar, rastına çıxan ilk taksiyə oturardı. Ən uzun marşrutları seçərdi ki, sürücü ilə "açıq" söhbət etsin: camaatın güzəranı necədir, nədən narazıdırlar, ən çox şikayətləri nədəndir və s. Yaxud dükana girib satıcıdan soruşurdu: "- Ət neçəyədir?". "- İki manat qırx qəpiyə!" Soruşur ki, bəs niyə belə baha? İki manat qırx qəpiyə o vaxtlar birinci növ ət satılırdı. Burada isə, deyir, yalnız sür-sümükdür. Satıcılar çiyinlərini çəkirlər. Bəziləri isə qarayaxa alıcını daha "emosional" sözlərlə başdan eləyirdilər. O da "başdan olurdu" – düz anbara və ya köməkçi otağa keçir, orada istə-

---

[1] Bax: Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild 2007, 352s., s.105-106

[2] Yenə orada, s.106

[3] Bax: Axundova Elmira Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild 2007. "Odla su arasında" fəsli, s.115-126

nilən qədər aztapılan ərzaq məhsulları aşkar edirdi..."[1]

Ən maraqlısı isə, "şah abbas nağılı"nın sonluğudur: "Hayıf ki, paytaxtı gizli dolaşmaqdan əl çəkməli oldu. Onu tanımağa başladılar. Sonradan ona dedilər ki, kimlər tərəfindənsə Əliyevin yüz nüsxələrlə çoxaldılmış şəkilləri hər bir mağaza müdirinin stolunun üstündə, satıcıların piştaxtası altında saxlanılırmış. Dildən iti Bakı taksi sürücüləri ona hətta ləqəb də vermişdilər: Mixaylo şəhərdədir! O illərdə ölkə ekranlarına Yuqoslaviya və İtaliyada faşistlərə qarşı vuruşmuş əfsanəvi sovet partizanı Mehdi Hüseynzadə ("Mixaylo") haqqında təzə film çəkilmişdi – "Uzaq sahillərdə". Film böyük əks-səda doğurmuş, sevilmişdi. Belə ki, "Mixaylo" ləqəbi hətta onun qəlbini oxşayırdı. Hayıf ki, tezliklə gizli fəaliyyətlə xudahafizləşməli, "Mixaylo"dan ayrılmalı oldu..."[2] Elmira Axundova qəhrəmanının, haqqında ləqəb-ayama qoşmuş xalqın ilkin reaksiyasından xoşhallandığını nəzərə çarpdırır.

Qeyd olunmalıdır ki, xalq arasında geniş yayılmasının daha bir sübutu həmin əhvalatın Anarın "Şəxsiyyətin miqyası" essesində də yer tapmasıdır: "Mərkəzi Komitənin katibi seçiləndən sonra ilk vaxtlar çox adamın üzdən tanımadığı Heydər Əliyev "Şah Abbassayağı tərki-libas" olaraq bazarları, dükanları gəzir, qanunsuzluqları, əliəyrilikləri, pozuntuları özü öz gözləriylə əyani müşahidə edir və yerindəcə müqəssirin cəzasını verirdi. Və belə faktlar da əhalidə yeni ədalətli rəhbərin iş başına gəlməsi və hər cür ədalətsizliklərin kökünü kəsəcəyi haqqında söz-söhbətlərin geniş yayılmasına səbəb olurdu..."[3]

Xalq yaradıcılığında "ədalətli şah", qüdrətli ölkə başçısı obrazına həmişə rəğbət ifadə olunmuşdur. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyev xalqın yaddaşında məhz bu imiclə qalmış, müxtəlif "olmuş əhvalatlar"da, "canlı lətifələr"də obrazlaşmışdır. Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabında maraqlı bir xatırlatma var: "1998-ci ilin aprelində "İzvestiya" müxbirinin "Sizi sərt, bəziləri isə avtoritar siyasətçi adlandırırdılar. Əgər belə qiymətlə razısınızsa, onda öz üslubunuzu nə ilə izah edərsiniz – siyasi vəziyyətlə, milli mentalitetlə, Şərq xüsusiyyətləri ilə?" sualına

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II c., 784 s.; s.55

[2] Yenə orada, s.55-56

[3] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.32-33

Respublika Prezidenti Heydər Əliyev belə cavab verdi: "- Məni nahaq yerə sərt lider hesab edirlər. Mən belə qiymətlə razı deyiləm. Sərtlik, yumşaqlıq – bunlar subyektiv anlayışlardır. Siyasətçi ya liberal, ya da prinsipial ola bilər. Siyasətçi prinsipial mövqe tutursa və onu ardıcıl surətdə həyata keçirirsə, – bu sərt deyil, qəti mövqedir. Liberal siyasətçi isə belə hesab edir ki, hər şey rəvandır – belə də etmək olar, elə də, – bu halda mövqe səbatsız, yayğın, cəmiyyət üçün anlaşılmaz olur. Əminəm ki, hakimiyyətdə olan insan liberal ola bilməz. O ki qaldı mənə, təkrar edirəm, mən "sərt lider" anlayışı ilə razı deyiləm, əksinə, özümü mövqeyini dürüst müəyyənləşdirmiş, onu qorumağı və öz qərarlarını qətiyyətlə həyata keçirməyi bacaran adam sayıram. Xarakterimin və iş üslubunun xüsusiyyətləri, sizin dediyiniz kimi, Şərq mentaliteti ilə əsla bağlı deyildir. Əlbəttə, mən öz millətimə mənsubam və xarakterimdə milli xüsusiyyətlər çoxdur və bununla fəxr edirəm. Lakin böyük siyasət, onunla ciddi məşğul olmağı qərara almış hər bir kəsdən müvafiq mentalitet tələb edir".[1]

Uzun illər ərzində xalqın şüuruna Heydər Əliyev obrazı elə bu şəkildə də hakim kəsilmişdir. "Eyhamlı zarafatlar"dan birində deyildiyi kimi. "Respublika Prezidenti Heydər Əliyev müxtəlif görüşlərdə, yığıncaqlarda çıxış edərkən hərdən çox incə, eyhamlı zarafat edərdi. Bir dəfə keçirdiyi yığıncaqda 1969-1982-ci illərə işarə edərək dedi: "- Mən o zaman respublikanın rəhbəri olanda..." Çıxışının bu yerində o, pauza verib arxayın-arxayın qımışdı: "- Mən elə indi də respublikanın rəhbəriyəm..."[2] O, rəhbər idi və bunu heç vəch xalq təxəyyülündə yaşayan "Şərq ənənəsi" ilə qarışdırmırdı; bütün hüsn-təvəccöhünə baxmayaraq. 1991-ci ilin martında yazıçıların IX qurultayında belə bir əhvalat baş verir. "...Fasilə zamanı Heydər Əliyev foyedə şair Xəlil Rza ilə görüşüb ondan soruşdu: "- Bəs niyə Naxçıvana gəlmirsən? Dəvət edirəm! Buyur, gəl!" Xəlil Rza cavab verdi: "- Ustad Cəlaləddin Ruminin bir kəlamı var: Şair şah qapısında gədadan gəda, Şahsa şair evində ucadan uca!" Heydər Əliyev gülümsədi: - Şükür Allaha, nə mən şaham, nə də sən saray şairi. On dörd il (1969-1982) "şahlıq" etdim, səni bircə yol da Mərkəzi Komitənin həndəvərində görmədim. İndi mən məmləkətin yox, onun bir

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015. s.41-42
[2] Yenə orada, s.37

bölgəsinin başçısıyam. Buyur, gəl”.[1] Qurultay zamanı zalda əyləşmiş Heydər Əliyevi rəyasət heyətinə dəvət etdikdə deyir: “-Burada mənim yerim rahatdır. Mən həmişə yuxarılardan aşağılara baxmışam, indi aşağılardan yuxarılara baxmaq istəyirəm”.[2]

Heydər Əliyevin obrazını təcəssümləndirən, xalq arasında şifahi şəkildə yayılmış onlarla belə əhvalat, şəksiz ki, sovet rejimində yazıya alına bilməzdi. İlk dəfə müstəqillik dövründə yazıçı Əjdər Ol təşəbbüs edərək, həmin əhvalatların bir qismini “Müdriklik anları”,[3] bir il sonra təkmilləşdirərək bir daha “Müdriklik”[4] adı ilə çap etdirir, “Canlı lətifələr, əhvalatlar, deyimlər”[5] kitabına da daxil edir. Yazıçı niyyətini kitaba önsözdə belə açıqlamışdır: “Görkəmli siyasətçi və dövlət xadimi, Azərbaycan dövlətçiliyi tarixində əvəzsiz xidmətlər göstərən, hakimiyyət ustası, ayıq-sayıq, çətin anlarında özünü itirməyib xoş günlərində hissə qapılmayan, şəraiti həmişə doğru-düzgün qiymətləndirən, əzəmətli, şax, çevik, yorulmaz, dözümlü, hafizəli, gərgin vəziyyətdən çıxış yolu tapmaqda bənzərsiz iti fikri, qətiyyəti olan Heydər Əlirza oğlu Əliyev bütün yüksək keyfiyyətlərilə yanaşı, həm də güclü yumor hissinə malik, hazırcavab, sözün çəkisini bilən, dediyini vaxtında və yerində deyən bir şəxsiyyət idi. Heydər Əliyevin yuxarıda sadaladığım dəyərli mənəvi keyfiyyətlərilə bağlı maraqlı əhvalatlarla tanış olun. Eşitdiyim və yaxud şahidi olduğum bu əhvalatlarda dünyagörmüş bir insan ömrünün müdriklik məqamlarını yaşayır. Heydər Əliyev çıxışlarının birində deyib: “Sinəm doludur. Onlar gərək yazıla və xalqa çatdırıla. Mənim bildiklərimi, demək olar ki, Azərbaycanda heç kim bilmir!”[6]

Ulu Öndərə ümumxalq sevgisini ifadə etməklə yanaşı, “Canlı lətifələr, əhvalatlar, deyimlər” kitabı həm də yazı ədəbiyyatı, bədii nəsr nümunəsidir. Heydər Əliyev obrazının dürüst, reallığa, tarixi həqiqətə tam uyğun əks olunmasında yazıçı sənətkarlığı mühüm rol oynayır. Heydər Əliyevin həyatı başdan-başa mənalı əhvalatlardan ibarətdir. Əjdər Ol deyir: “Hər əhvalatı yazıya gətirmək mümkünsüzdür; lətifə janrı yığcam, mənalı olmalı, yumor yükü daşımalıdır.

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015. s.21
[2] Yenə orada
[3] Müdriklik anları. Bakı, “Şirvannəşr”, 1996
[4] Müdriklik. Bakı, “Azərbaycan” nəşriyyatı, 1998
[5] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015
[6] Yenə orada, s.13-14

Burda əsas sözün sahibi Heydər Əliyevdir, əhvalata o yekun vurmalı və təbii ki, qəfil yumoru ilə oxucunu düşündürməlidir".

Heydər Əliyev ömrünün müxtəlif anlarını bu və ya digər rakursdan qabardan canlı lətifə, əhvalat və deyimlər əsl müdriklik təzahürü olub, xalq gülüşü ədəbiyyatına da bir töhfədir.

Mövlud Süleymanlı "Qırx ilin yeddi görüşü" memuar-əsərində Heydər Əliyev sözünün xalq arasında şifahi yayılmasına dair maraqlı misallar gətirir. Bunlardan biri Azərbaycan dili barəsindədir: "Yadımdadır, 70-ci illərin ortalarıydı, Novruz bayramı ərəfəsində böyükdən kiçiyə hamı Şıx çimərliyi səmtində ağac əkməyə çıxmışdı. Yazıçılar İttifaqının ayrıca sahəsi vardı, orda ağac əkirdik. Heydər Əliyev sahələri dolaşıb, adamlarla görüşüb axırda yazıçıların yanına gəldi. Həmişə olduğu kimi səmimiydi, ərki çatanlarla zarafat edir, gənclərlə maraqlanırdı. Şair Qabil yenə özünəməxsus orijinallığı ilə seçildi: "- Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız!" Heydər Əliyev astadan gülüb dedi: "- Qabil, sən niyə mənim rusca gözəl danışmağıma təəccüb etmirsən, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız" Bu söz, bu fikir elə oradaca alqışlarla qarşılandı... Amma onunla bitmədi, çoxlarımızın xəbəri olmadan bu söz, bu fikir kiçik məcrasından çıxdı. Uzun müddət milli tərbiyəmizdə iş gördü... Bu da faktdır ki, bir az əvvəl yuxarı səviyyələrdə Azərbaycan dilində ümumiyyətlə danışıq getmirdi, rus dilini pis bilənləri işə götürmürdülər, ona pis baxırdılar və s. Adi bir iməcilik günündə deyilmiş bu söz, bu fikir və ümumiyyətlə Heydər Əliyev fəaliyyəti doğma dilimizə olan soyuq münasibəti dəyişdirdi. Yeri gəldi-gəlmədi rus dilində danışan və danışmağa can atan kütləviliyin qarşısı alındı..."[1]

Akademik Ramiz Mehdiyev yazır: "Bütövlükdə Heydər Əliyev epoxası yüksəliş epoxasıdır. Bu illərdə Azərbaycanda milli mənlik şüuru xüsusilə güclənmişdi. Heydər Əliyev bu prosesi çox böyük həssaslıq və uzaqgörənliklə idarə edir və tənzimləyirdi. Sovet sisteminin güclü təzyiqinə baxmayaraq, Azərbaycanın gələcək milli dövlətçiliyi naminə mühüm addımlar atılırdı. Bu fəaliyyətin ən mühüm istiqamətlərindən biri Heydər Əliyev tərəfindən yaradılmış milli dövlətçilik, xalqımızın ümummilli mənəvi birliyi konsepsiyasında

---

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.31

mühüm yer tutan Azərbaycan dilinin hərtərəfli dəstəklənməsi olmuşdur”.[1]

Belə ki, milli xalq mərasimlərinin qorunub-saxlanması, getdikcə daha geniş əhatə alması faktı da Heydər Əliyevin respublikaya başçılığı dövrünə təsadüf edir. “Rəhmətlik Rəsul Rza danışırdı ki, (Anarın dediklərindən) Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin qəbulunda oldum... Novruz bayramı ilə bağlı fikirlərimi bildirdim. Mənə dedi: “- Rəsul müəllim, gəlin gedək bizim evə, görək Novruz bayramını siz yaxşı keçirirsiniz, yoxsa biz. Əgər bizim ziyalılarımız Novruz bayramını mənim tapşırığımla keçirəcəklərsə, bu heç də yaxşı deyil... Qoy ürəkləri istədikləri şəkildə keçirsinlər”. O zaman 70-ci illərin əvvəlləri idi, bu söz də dildən-dilə düşdü. Yaz bayramımız öz səmənisiylə evlərdən bayıra çıxdı, yaxınlı-uzaqlı yurdumuzu dolaşdı...”[2]

Bura dini mərasimləri də əlavə etmək olar; 1970-ci illərin əvvəllərində bizim Bakı-ətrafı kənd və qəsəbələrdə “məhərrəmlik” mərasimi canlı qorunub-saxlanırdı. Evlərdə təkyələr qurular, qırx gün Kərbəla müsibətinin təziyəsi tutulardı. Xüsusən Aşura günləri dini hisslər coşar, izdiham Ələmi (Əl formasında olan dini bayraq – T.Ə.) götürüb küçələrə çıxar, imam Hüseyn və Həsən eşqinə yürüşlər edərdi. Sözsüz ki, bu, sovet rejimi ilə qəti uyuşmurdu. Uşaqlıq yaddaşımda qalıb; məhəlləmizdəki belə məclislərdən birində qadağalarla bağlı fikirlər səslənəndə, Heydər Əliyevin adı keçdi. Deyirdilər ki, respublika başçısı bu mərasimləri qadağan etməyib, amma Naxçıvanda da gur keçən mərasimdə xalqa küçələrə çıxmamağı, mərasimi evlərdə sakit tərzdə keçirməyi tövsiyə edib.

Elmira Axundovanın “Heydər Əliyev: şəxsiyyət və zaman” kitabında “kommunist” qəhrəmanının dinə münasibətinə dair əhəmiyyətli məqamlar var. “Dostlarının və yaxınlarının söylədiklərinə görə, Heydər Əliyev anasına qarşı çox mehriban və qayğıkeş idi, bir sözünü iki eləməzdi, onun dünyagörüşü və həyat tərzindəki xüsusiyyətlərə hörmətlə yanaşırdı. Məlumdur ki, İzzət xala olduqca dindar qadın idi, məscidə gedirdi, oruc tutub namaz qılırdı... Naxçıvanda İzzət xanım Ələviyyə adlı qonşusu ilə çox yaxın idi. Ələviyyə seyid qızı idi, ruhani təhsil almışdı. İzzət xanım onu tez-tez evlərinə söh-

[1] Ramiz Mehdiyev. Dövlət müstəqilliyi: Heydər Əliyev fenomeni və müasir dövr // Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb nəşriyyatı, 2016, s.7-33; s.14

[2] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.32

bətə dəvət edirdi. Nəsə ləzzətli bir şey hazırlayar, samovara od salıb rəfiqəsini çağırardı. O da gələndə özü ilə Quran gətirərdi, çay süfrəsindən sonra avazla müqəddəs surələri oxuyardı. İzzət xanım iri ala gözlərini saralmış vərəqələr üzərindəki ərəb yazılarının müəmmalı naxışlarına dikib diqqətlə qulaq asardı. Ramazan günlərində İzzətlə Ələviyyə hərdən səhərə kimi Quran oxuyar, ibadət edərdilər. Bakıda oğlunun yanında yaşayanda da İzzət xanım adətini pozmurdu: əvvəlki kimi oruc tuturdu, namaz qılırdı. O vaxt Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsinin məsul əməkdaşı idi. Komitənin fəaliyyət istiqamətlərindən birini dini mövhumata qarşı mübarizə təşkil etsə də, o, anasının dindarlığına hörmət və ehtiramla yanaşırdı..."[1]

Eynən bütövlükdə də xalqın dini inamına, adət-ənənələrinə hörmət bəsləyən, daha sonralar müstəqillik illərində buna birbaşa, dövləti səviyyədə rəvac verən, neçə-neçə məscidləri, o cümlədən Bibiheybət məscidini bərpa etdirən, yeni məscidlər tikdirən, özünə və ailəsinə müqəddəs Həcc ziyarəti qismət olan Heydər Əliyevin millətsevər obrazı xalqının qəlbində və yaddaşında silinməz yer tutmuşdur. Bugün şərəfinə bütün Qafqazda ən uca olan Heydər məscidinin inşa olunması həmin sevginin ifadəsi və nişanəsidir.

Heydər Əliyevə geniş xalq kütlələrinin məhəbbəti, Ulu Öndərin uzun ayrılıqdan sonra, qürbətdən Vətənə dönüşündə daha parlaq əksini tapır. Bioqrafları yazır: "Bu meydan hələ heç vaxt belə gur izdiham görməmişdi. Sakinlər ətrafdakı evlərin eyvanlarına çıxmışdılar, dama qalxanlar da vardı. Heydər Əliyevə, çətinliklə də olsa, yaxınlaşan Naxçıvan qəzetinin müxbiri öz bloknotunda belə qeyd edir: "Bu böyük şəxsiyyətin qarşısına çıxan insanların fərəh hissini təsvir etmək mümkün deyil. Heydər Əliyevin çox yığcam qısa çıxışı isə vətən eşqiylə dolu bir ürəyin səsiydi".[2] Bu, sadəcə bütün zahiri şiddətilə özünü göstərən "kütlə sevgisi" yox, əsl xalq məhəbbəti idi: "Naxçıvana bir-birinin ardınca məktublar gəldi. Ünvanı dəqiq bilməyənlər sadəcə: "Naxçıvan şəhəri, Heydər Əliyevə" yazırdılar. Bəziləri qayıdışı münasibətilə onu təbrik edir, bəziləri isə belə bir liderin Azərbaycana gərəkliyini vurğulayır, digərləri Bakıda, onun vaxtında Əhmədli kimi nəhəng bir yaşayış massivi və on mik-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild, 2007, 352s., s.140-141

[2] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.279

rorayon salınan şəhərdə mənzilinin olmamasını eşidib, ona "bizim mənzilimizdə qalın, gen-bol, işıqlı, şəhərin mərkəzindədir, biz qohumlarımızgildə qalarıq" kimi təkliflər verirdilər. İnsanlar yaxşılığı unutmur, yaxşılığa cavab verirdilər... Bakı sakinlərindən biri öz mənzilinin açarlarını təklif edir: "Buyurun, mənim evim – sizin eviniz". Nehrəm kəndindən bir el ağsaqqalı yenicə tikdirdiyi rahat mülkünü töhfə kimi qəbul etməyi ondan xahiş edir".[1]

"Naxçıvan görüşləri"nin hərarəti canlı xatirələrdə yer aldığı kimi, xalq yumorunda da bədii ifadəsini tapmışdır. Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabından bir sıra misallar sadə insanların böyük sevgisini nişan verir. Əhvalatlardan birində deyilir: "1990-cı ildə Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdıqdan sonra Azərbaycanın hər yerindən adamlar onun ziyarətinə gəlirmişlər. Bir qohumumuz danışırdı ki, vaxtilə Heydər Əliyevlə Naxçıvanda qonşuluqda yaşamış Xurşid arvad da ara soyuyanda, hamıdan gec onun görüşünə gedir. Qarı sovqat kimi Heydər Əliyev üçün az ələ düşən beş-on Ordubad limonu da aparır. Xurşid arvad Heydər Əliyevlə görüşəndə onun görüşünə gec gəldiyi üçün üzr istəyib dil-ağız eləyəndə Heydər Əliyev özünəməxsus yumorla limonlara işarə edib deyir: - Gecikməyinin eybi yoxdur, Xurşid, gec gəlmisən, güc gəlmisən".[2] Başqa bir lətifədə "Şəmkirdən onu görməyə getmiş boyu yarım metrə yaxın, çəkisi 19 kiloqram olan orta yaşlı Alı Əliyev adlı bir kişi "vaxtilə ölkə rəhbəri Heydər Əliyevin Şəmkirdə ona mükafat verdiyini yada salıb" şəkil çəkdirmək istəyir: "- Yoxsa Şəmkirə qayıdanda sizinlə görüşdüyümü sübut edə bilmərəm". Şəkil çəkdirənlərdən birinin uca, birinin gödək olmasından fotoqraf çaşır. Onu vəziyyətdən Heydər Əliyevin yumoru çıxarır: "- Şəkli elə çək, mən də düşüm!"[3]

Üçüncü bir əhvalat da olmuş hadisəyə söykənir: "Naxçıvan Muxtar Respublikasının baş naziri olmuş Şəmsəddin Xanbabayev danışırdı ki, Naxçıvan Muxtar respublikası Ali Məclisinin sədri Heydər Əliyevlə qonşu İran İslam Respublikasına səfərdən qayıdanda İran ərazisindən Xudafərin körpüsünə baş çəkdik. İşğal edilmiş Azərbaycan ərazisindən atəş açılacağından ehtiyat etdiyimdən bədənimlə onu qorumaq cəhdimi hiss edən Heydər Əliyev zarafatla mə-

---

[1] Viktor Andriyanov. Hüseynbala Mirələmov, Bakı, "Nurlan", 2008, s.289
[2] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015, s.19
[3] Yenə orada, s.22

nə dedi: "- Şəmsəddin, özünə əziyyət vermə, mənim boyum səninkindən yarım metr hündürdür. Sən məni erməni gülləsindən qoruya bilməzsən, havayı qurban gedərsən..."[1] İncə yumorla yanaşı, burda Ulu Öndərin qorxmazlığı, millət yolunda fədakarlığı, bu yolda özünə-inamı da əks olunub.

Xalq ağzından çıxmış, yazıçı qələmi ilə qeydə alınmış lətifələrdə həqiqətin payı olduqca böyükdür. Millətin pənah yeri, ümid mənbəyi olan Heydər Əliyevi düşmən zərbələrindən İlahi hökmü və ümumxalq sevgisi qoruyurdu. Ulu Öndərin az bir zamanda Naxçıvanda həyata keçirdiyi misilsiz tədbirlər, Naxçıvanı blokada şəraitindən qurtarması, milli müstəqilliyə doğru atılan addımlar əsl epopeya səciyyəlidir. Elmira Axundova yazır: "İndi "Heydər Əliyev Naxçıvanı xilas etdi, Naxçıvan da Heydər Əliyevi" ifadəsi zərbi-məsələ dönüb. Bu doğrudan da belə idi, həmin anda Naxçıvanda hakimiyyət sükanı arxasında Heydər Əliyev olmasaydı, muxtar respublikanın taleyinin necə olacağını heç kəs deyə bilməzdi".[2]

Heydər Əliyevin Bakıya qayıdışı, ölkəni vətəndaş müharibəsindən qurtarması, xalqın arzusu ilə hakimiyyətə gəlməsi faktı da xalq təfəkküründə xilaskar obrazı ilə təcəssüm tapmışdır. "Heydər Əliyev və Azərbaycan folkloru" tədqiqatının müəllifi Məhərrəm Qasımlı yazır: "Bütün mübariz həyatı boyu apardığı qlobal, uzaqgörən və taleyüklü siyasətlə vətən, millət öndərinə, qurtuluş gətirən xilaskara çevrilən Heydər Əliyevə Azərbaycan xalqının dərin, sarsılmaz sevgisi və sonsuz ehtiramı yığıncaq və toplantılarda tez-tez diqqəti çəkən "Xalq – Heydər" şüarında çox dəqiq ifadə edilmişdir. Xalq öz ümummilli liderini ruhunun, varlığının yenilməz ifadəçisi və əvəzolunmaz tərcümanı kimi görür".[3] Tədqiqatçının misal gətirdiyi aşıq yaradıcılığından nümunələr Ulu Öndərə ümumxalq sevgisinin əbədiliyini əks etdirir:

*Dilləndir sazını, Aşıq Əhliman,*
*Sözlərin aləmə qoy olsun bəyan.*

---

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015, s.22
[2] Elmira Axundova. Şüşə saray. Siyasi detektiv. Bakı, Yurd NPB, 2007, s.57
[3] Məhərrəm Qasımlı. Heydər Əliyev və Azərbaycan folkloru //Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, s.72-90; s.89

*Otuz beş il xalq yolunda can qoyan*
*Ulu Heydər kimi rəhbərimiz var.*
*(Aşıq Əhliman)*

*Elin ər oğludu, yurd dayağıdı,*
*Dünyaya səs salır sözü Heydərin.*
*Sabaha nur saçan el mayağıdı,*
*Qartal baxışlıdı gözü Heydərin.*
*(Aşıq Murad)*

*Yurduna bağlıdı eşqi, həyatı,*
*Azad Azərbaycan onun muradı.*
*Elin sərkərdəsi, xalqın nicatı*
*Yenilməz qüdrətdi Heydər babamız.*
*(Aşıq Mahmud)*

***

Heydər Əliyevin həyat yolunu bütövlükdə ehtiva edən, işıqlandıran ayrıca bədii əsər, tarixi roman yazılmamışdır. Bütün çətinliyi və məsuliyyəti ilə birgə, görünür ki, bu hələ yaxın gələcəyin işidir. Amma çox əlamətdar haldır ki, Ulu Öndərin ilk bioqrafları dahi şəxsiyyətin həyatını, zəngin və nəhəng fəaliyyətini araşdırmış və məhz bədii-sənədli janrda qələmə almışlar. Heydər Əliyevin tarixi obrazını əks etdirməklə birgə, ilk bədii obrazını da həmin əsərlər bizə təqdim edir. Söhbət Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" bioqrafik silsiləsindən çap olunmuş "Heydər Əliyev"[1] və Elmira Axundovanın altı clddə, iri həcmli "Heydər Əliyev: şəxsiyyət və zaman" kitablarından[2] gedir. Hər iki əsər rus və Azərbaycan dillərində böyük tirajla nəşr olunaraq geniş maraq və rəğbətlə qarşılanmışdır. Elmira Axundovanın altı cildliyi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilərək, Heydər Əliyev mükafatına layiq görül-

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008; Əsərdən sitatlar səhifə göstərilməklə bu mənbədən verilir – T.Ə.
[2] Elmira Axundova. "Heydər Əliyev. Şəxsiyyət və zaman". 6 cilddə. Bakı, "Ozan", I c. – 2007, 352 s.; IIc. – 2007, 784s.; III c. – 2009, 804 s.; IV c. – 2008, 327 s.; V c. – CBS, 2013, 736 s.; VI / 1 – CBS, 2013, 480 s.; VI/2 - CBS, 2013, 496 s.

müşdür.

Hər iki əsərdə Heydər Əliyev obrazı geniş zaman və tarix kontekstində işıqlandırılmış, həyatının müxtəlif mərhələləri: uşaqlıq və gənclik illəri, Dövlət Təhlükəsizlik Komitəsindəki fəaliyyəti (1944-1969), Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi (1969-1982) və mərkəzi hakimiyyətə yüksəldiyi – Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi (Sov.İKP MK) Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi (1982-1987) dövrlər, Sovet İttifaqının süqutu və Vətənə qayıdışı (1987-1990), milli istiqlal hərəkatının Naxçıvan dövrü (1990-1993), Xilaskarlıq missiyası və Müstəqil Azərbaycanın qurucusu kimi (1993-2003) – geniş materiallar, sənədlər, canlı şahidlər və xatirələrin dili ilə, eyni zamanda yüksək ideya-bədii sənətkarlıqla, iti yazıçı müşahidəsi, ümumiləşdirmə bacarığı, təsvir və təcəssüm ustalığı, dərin təhlillər və şərhlərlə, sirayətedici, oxucunu daim maraq təsirində saxlayan bədii üslubda təqdim olunmuşdur.

Adı çəkilən tarixi vexaların hər birinin təsviri müəllifdən geniş bilik, təfəkkür, elmi və bədii dərk qabiliyyəti tələb edir, amma bu epoxaların hər birini fəth etmiş, zamanın fövqünə yüksəlmiş Heydər Əliyev şəxsiyyətini mücadilədə olduğu kontekstdən kənarda öyrənmək də mümkünsüzdür. Eyni zamanda Heydər Əliyev miqyasında tarixi simaların ərsəyə gəlməsi hər zaman olmur, burda sürəkli tarix, cəmiyyət, mədəniyyət prosesləri ilə birgə hətta təbiət faktorundan, kainatın təsadüflərə və zərurətə yozulan sirlərindən də danışmaq lazım gəlir. Müəlliflər bu amillərə də həssas olmağa çalışır, Heydər Əliyevi yetirən xalqın genetik mədəniyyətinə, ailə mühiti və adət-ənənələrinə baş vurur, eyni zamanda şəxsiyyəti formalaşdıran, üzə çıxaran qlobal hadisələrə, XX yüzilin çevriliş və inqilablar epoxasına diqqət ayırırlar.

Elmira Axundova "Heydər Əliyev: şəxsiyyət və zaman" əsərinin janrını doğru olaraq bioqrafik roman-tədqiqat kimi göstərir. Birinci hissə: Heydər Əliyevin həyatının uşaqlıq, gənclik və DTK dövrünü (1923-1969), "Hakimiyyət və məsuliyyətin ağır yükü altında" adlı ikinci hissə qəhrəmanın Sovet Azərbaycanına başçılıq etdiyi dövrü (1969-1982), "Kreml beşilliyi" adlanan üçüncü hissə Sovet İttifaqı hakimiyyətinin zirvəsi və süqutu dövrünü (1982-1990), "Hə-

yat və fəaliyyətinin xronikası"nı izləyən dördüncü hissə bütövlükdə ömrün sovet dövrü səhifələrini (1969-1989), beşinci hissə "Ömrün Naxçıvan aşırımları"nı (1990-1993), altıncı hissə "Qayıdış" qurucusu Ulu Öndərin olduğu Müstəqil Azərbaycan mənzərələrini (1993-2003) ehtiva etməklə əsl epopeya səciyyəsi daşıyır. Göründüyü kimi, ayrıca adı, mövzusu, predmeti (zaman əhatəsi) olmaqla hər hissənin özü də ayrı bir roman təsiri bağışlayır, hətta bədii üslub, təhkiyə tərzi, struktur və süjet-kompozisiya həlli baxımından da fərqlənərək, qəhrəmanı saf və romantik uşaqlıq-gənclik çağlarından ən məsul, şərəfli ictimai və bəşəri missiyaya, qalib və müdrik rəhbər, ali ideallar mücəssəməsi, Ulu Öndər mərtəbəsinə qədər pillə-pillə izləyir, sevə-sevə təsvir etdiyi Heydər Əliyev obrazını oxucularına da sevdirə bilir. "Ömrünün ən mühüm layihəsi" saydığı altı cildlik "Heydər Əliyev: şəxsiyyət və zaman" əsəri yazıçı Elmira Axundovanın böyük uğurudur.*

Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Heydər Əliyev" əsəri populyar seriyadan qələmə alındığından daha geniş oxucu auditoriyasına hesablanmışdır. Müəlliflər XX əsrin ən görkəmli siyasətçiləri sırasından Heydər Əliyevin ictimai-siyasi və insani portretini yaratmaq üçün bioqrafiyasının ən ümdə hadisələrini götürür, konkret epizodları geniş ümumiləşdirmələrlə əlaqələndirir, qəhrəmanın fərqli, özəl, xarakter çizgilərinə həssas olmağa çalışır, eyni zamanda müəyyən tarixi müqayisələrlə şəxsiyyətin böyüklüyünü, miqyasını nəzərə çarpdırmağa səy edirlər. Əsər başdan-başa Heydər Əliyev ömrünün intəhasız zənginliyini əks etdirən hadisə və faktların məntiqi düzülüşü üzərində qurulmaqla yanaşı, xronoloji ardıcıllığı yeri gəldikcə retrospeksiya ilə, müəllif şərhləri, düşüncələri, ricətləri ilə tamamlayan ədəbi texnika və bədii üslub baxımından da seçilir.

Kitab maraqlı bir başlanğıcla, təsadüflərin zərurəti üzərində düşündürən tarixi paralelizmlə açılır: "Bəzən dünyada elə təsadüflər olur ki, onu kortəbii hadisələr hesab edirlər. Halbuki bunlar həyatın aşkar həqiqətləridir. Və təəssüf ki, çoxları taleyin bu gerçəkliyini görə bilmir. 1944-cü il noyabrın 27-də Moskvaya, SSRİ Xalq Komissarları Sovetinin sədri İosif Vissarionoviç Stalinlə danışıqlara

---

* Kitabda əsər haqqında ayrıca məqalə verilmişdir; bax: Dahiyə layiq bədii-sənədli epopeya

yollanan, "Döyüşən Fransa" hərəkatının rəhbəri, Fransa Respublikası Müvəqqəti hökumətinin başçısı və ölkənin gələcək prezidenti Şarl de Qoll yolüstü Bakıda dayanmalı olmuşdu... Bayraqlar, himnlər, fəxri qarovul. Rəsmi qonağı qarşılayanların arasında vəzifə səlahiyyətinə görə dövlət təhlükəsizlik xidmətinin gənc leytenantı, əyninə mülki plaş geymiş və başına dəbdə olan şlyapa qoymuş Heydər Əliyev də vardı. Sonralar Heydər Əliyevin söylədiyinə görə, onun nəzərləri ani də olsa De Qollun baxışları ilə qarşılaşdı..." (s.5)

Müəlliflər həmin görüşdən təkanlanaraq, taleyin hökmü ilə sanki təsadüfən rastlaşmış XX əsrin bu iki görkəmli simasının həyatında, "siyasi taleyində oxşar məqamlar" görürlər: "Hər ikisi uzun illər uğurlu dövlət fəaliyyətindən sonra işdən kənarlaşdırılıb..." (s.6) Və hər ikisi Vətənin çağırışına biganə qala bilməyərək, xilaskar missiyası ilə geri, siyasətə qayıdıb: "1958-ci ilin may ayında Kolombe malikanəsində tənha yaşayan general de Qoll Fransanın çağırışıyla Parisə qayıtdı. 1990-cı ilin iyul ayında Azərbaycanın çağırışıyla Heydər Əliyev özünün Moskvadakı qəriblik həyatından ayrılaraq vətənə döndü. Geri dönəndə hər ikisinin 67 yaşı vardı... Onlar dar gündə öz vətənlərini xilas etmək üçün qayıtdılar. Biri – Fransanın birliyini və müstəqilliyini, o biri isə – Azərbaycanın bütövlüyünü və suverenliyini təmin etmək naminə" (s.6).

Tarixi təsadüflərin heçdən deyil, həyati zərurətin diktəsindən irəli gəlməsinə dair daha bir misal: Bakıda olduğu "Həmin axşam məşhur fransalı qonaq "Koroğlu" operasını dinləmiş, ertəsi günü isə qatarla Stalinqrada yola düşmüşdü..." (s.5) Və üstündən yarım əsrdən də çox ötdükdən sonra, "məhz Əliyevin sərəncamı ilə 1999-cu ilin martında de Qollun qırx dördüncü ildə qonaq qaldığı binanın üzərinə xatirə lövhəsi vurulub. Bakılılar Neftçilər prospektində yerləşən həmin möhtəşəm binanı yaxşı tanıyırlar; onun yanında XII əsrin memarlıq abidəsi – məşhur Qız qalası ucalır..." (s.11) Və onu da əlavə edək ki, Ulu Öndərin böyük De Qollun xatirəsini əbədiləşdirdiyi həmin memorial lövhə yalnız tarixi keçmişə ehtiramın ifadəsi olmayıb, eyni zamanda müstəqil Azərbaycan və Fransa arasında münasibətlərin gələcəyinə doğru atılmış bir addımdır. Doğrudan da, zaman keçir, Heydər Əliyevin layiqli sələfi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilk xarici səfərlərlərindən birini məhz Fransaya edirlər, Azərbaycan – Fransa iqtisadi-siyasi əmək-

daşlığı güclənir, ölkələr və xalqlar arasında mədəni əlaqələr gün-gündən artaraq ən yüksək səviyyəyə çatır.

Tarixin fəlsəfəsinin təsadüflərdən keçib zərurətə yüksəlməsi yalnız əsərin ümumi ideya planında qalmır, əsər boyu ən müxtəlif tarixi situasiyaların, faktların nisbətində, düzülüşündə də təkrarən təsdiqini tapır, müəlliflərin Heydər Əliyev obrazının mahiyyətinə varmasında başlıca açar rolunu oynayır. Belə bir detal. II Dünya müharibəsi başlarkən sovet qoşunları İrana keçir; "Cənubi Azərbaycanda sovet missiyası"na Azərbaycan KP MK katibi Əziz Məmmədkərim oğlu Əliyev başçılıq edirdi..." (s.38) Bu zaman gənc Heydər Əliyev Naxçıvan MSSR Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi işlər hissəsinə baxır, cərəyan edən hadisələrin bilavasitə şahidi və iştirakçısı olur. Müəlliflər məqama diqqət cəlb edir: "Heydər onunla eyni soyadlı, hərbi geyimli ortaboylu adamı, döşünü ordenlər bəzəyən Əziz Əliyevi üzdən tanısa da, taleyin onları necə rastlaşdıracağını təsəvvürünə gətirə bilərdimi?" (s.41)

Tale belə gətirir ki, gənc Heydər 1947-ci ildə Kislovodskda böyük qardaşının dəvəti ilə istirahətdə ikən, Əziz Əliyevin qızı Zərifə xanımla tanış olur, bu ünsiyyət sevgiyə çevrilir. Həm də elə bir sevgiyə ki, rejimin qatı qadağalar mühitini dəf edib, xoşbəxt ailə ilə sonuclanır. "Heydərlə Zərifənin tanışlığı Əziz Əliyevin yuxarılar tərəfindən qəzəbə tuş gəldiyi illərə təsadüf edir"; vəzifədən çıxarılmış, təqib altında olan Əziz Əliyevin ailəsi ilə əlaqəni kəsmək barədə respublika təhlükəsizlik naziri Yemelyanovun dəfələrlə xəbərdarlığına baxmayaraq, "cavan çekist" öz sevgisindən dönmür. Bu yerdə müəlliflər rejissor Vaqif Mustafayevin məşhur "Böyük məhəbbət hekayəti" sənədli filmindən uğurla bəhrələnirlər. Filmdə gənc Heydərin mərd, mənən bütöv, yetkin, mükəmməl xarakteri əksini tapıb. Və birbaşa Heydər Əliyevin dilindən, canlı etiraflarında eşidirik:

"- Bilirsinizmi, – uzun sürən sükutdan sonra Əliyev dilləndi, – biri var iş, biri də var insan həyatı. Mən öz işimi sevirəm və siz məni bir işçi kimi qiymətləndirirsiz. Burada narahatçılığa əsas yoxdur. Amma həyatımın ikinci, bəlkə də mənimçün daha vacib tərəfi – mənim ailəm, mənim hisslərim, mənim məhəbbətimdir. Mən o qızı sevirəm. O da məni sevir. Mən ondan necə ayrıla bilərəm? Bu heç cür ağlıma sığmır. Ona səbəbini söyləməliyəm, ya da deməliyəm ki, onu sevmirəm. Yaxud səndə hansısa məni açmayan nöqsanlar var, ona görə də səninlə ayrılmalıyam. Mən orqanlarda qalmaq üçün

sevdiyim insanla ayrılmalı olduğumu deyə bilmərəm" (s.62).

Tarixin təkzibolunmaz məntiqinə dair daha bir misal. "1950-ci ildə cavan çekist Heydər Əliyev görkəmli Azərbaycan ədibi və alimi Salman Mümtazın işi üzrə materialları axtarmağa cəhd edir. NKVD-nin qocaman işçilərindən biri ona deyir ki, Salman Mümtazın, Hüseyn Cavidin evlərindən götürülən kitabların dustaqxana yerləşən içəri həyətdə gözətçilər tərəfindən yandırıldığını öz gözləri ilə görüb. O, bu vəhşiliyin qarşısını almaqda aciz olub..." (s.74) Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanan Hüseyn Cavidin məhkəməsi ilə bağlı işlə Heydər Əliyev də tanış olmuşdur. Kitab müəllifləri fərziyyə irəli sürür. "Stalinin ölümündən bir il sonra, siyasi məhbuslar həbs düşərgələrindən buraxılan zaman şairin qızı Turan Cavid DTK-ya məktub yazıb atasının taleyi ilə maraqlandı. 24938 nömrəli işin nəzarət vərəqində belə bir qeyd də var: "Turan Cavidin öz atasının taleyi ilə maraqlanması əsasında..." Bəlkə də kapitan Heydər Əliyev bu işi məhz həmin vaxt açmışdı... Həmin günlərdə Heydər Əliyev ilk dəfə Hüseyn Cavidin cənazəsinin vətənə qaytarılması barəsində düşünmüşdü..." (s.78)

Bu düşüncələrin daha sonralar tarixi hünərə çevrilməsi, 1982-ci ilin aprel günlərində Azərbaycan Respublikasının başçısı Heydər Əliyevin Cavidin cənazəsini soyuq Sibir torpağından Vətənə qaytarması barəsində kitabın növbəti hissələrində oxuyuruq. Ömrünün keşməkeşli daha 14 ili ötür və yenə də ulu Cavidə dəfn olunduğu doğma Naxçıvan torpağında məqbərə ucaltmaq şərəfi Heydər Əliyevin adına yazılır. Bu, tarixin acılarını bilavasitə yaşayıb, ona sinə gərən insan oğlunun ölməz sələflərin ruhuna ehtiram və borcun bariz ifadəsidir. Bu həm də Heydər Əliyevin bir şəxsiyyət olaraq tarixin məntiqinə varıb, onu əməl göstəricisinə çevirə bilməsidir: "Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə işlədiyim, Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə zidd olan heç bir addım atılmamışdır". Heydər Əliyev ilk dəfə bu sözləri respublika milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı qeyd olunan təntənəli yığıncaqda demişdir" (s.79).

Kitabda oxuyuruq: "Yuri Vladimiroviç Andropovla Heydər Əliyevin ilk görüşü 1967-ci ildə baş vermişdi. O vaxt Əliyev respublika DTK sədri vəzifəsini icra edirdi. O, Andropovun müavini təyin olunmuş Semyon Sviqunu əvəz edirdi. Çox keçmədi ki, Əliye-

vi Sviqunun yerinə təsdiqlədilər...” (s.79-80) Heydər Əliyevi Moskvaya, Siyasi Büroya üzv və SSRİ Nazirlər Sovetinin müavini vəzifəsinə çəkib aparan da Sov.İKP MK-nın baş katibi Y.V.Andropov olur. “Heydər Əliyev xatırlayır: - Brejnevin dəfnindən sonra biz Andropovla ikilikdə görüşdük. O mənə dedi: “Sənə ehtiyacım var, istəyirəm ki, sən Moskvada işə başlayasan”. Brejnevə dediyim kimi, indi də Andropova dedim: “- Yox, mən imtina edirəm. Özümü Azərbaycansız, Azərbaycandan kənarda təsəvvür edə bilmirəm. Doğma vətənimdən ayrılmaq mənə çətindir”. Amma Andropov israr etdi: “Azərbaycan artıq səninçün dar bir məkandır. Sən bütün SSRİ-yə lazımsan, Heydər...” (s.183) Bu artıq tarixin zərurətidir; Şəxsiyyət – öz fəaliyyəti və hünəri ilə ömür yolunu cızır və təsdiq edir. Müəlliflər rəsmi sənədlərdə Heydər Əliyevin xasiyyətnaməsinə yazılan aşağıdakı sözləri əbəs vurğulamırlar: “Yeri gəlmişkən, o xasiyyətnamələrdə Əliyevin intellektual potensialına və əxlaqına verilmiş yüksək qiymət barədə sözlərə diqqət yetirin: şəxsi həyatda iddiasızdır, davranış və həyat tərzi idealdır” (s.169).

Kitabda hər iki tarixi şəxsiyyətin – Yuri Vladimiroviç Andropov və Heydər Əliyevin miqyas etibarilə uyarlığı, baş katibin SSRİ kimi nəhəng dövlətdə aparmaq istədiyi islahatlarda güvəndiyi simalardan birinin, bəlkə də birincisinin məhz Heydər Əliyev olması incə və inandırıcı ştrixlərlə qabardılır: “Andropovun ölkədə keçirilməsi vacib olan konkret reformalar və dəyişikliklər haqqında dəqiq işlənib hazırlanmış planı vardımı, yoxdumu? – indi bu suala dəqiq cavab verməк çətindir. Əliyev bu xüsusda belə deyirdi: “Andropovun gizli saxladığı planlar çox idi və bu planların hamısı sirr olaraq qaldı” (s.163).

Hətta müəlliflər tarixçi və publisist Roy Medvedevin: “Kremlin səmasında yeni ulduz parlamağa başladı” – deyə, sərrast ifadəsinə istinadən belə bir məqama da diqqət yönəldirlər: “İllər ötəndən sonra SSRİ-nin xarici işlər naziri və SSRİ rəhbərliyində ən hörmətli, nüfuzlu siyasətçi olan Andrey Qromıko o vaxt beynində parlamış bir fikri açıqlamışdı. O, boynuna almışdı ki, “Heydər Əliyev Moskvaya gələndə mən düşünmüşdüm ki, SSRİ-yə məhz bu cür gənc və enerjili rəhbər lazımdır”. Və buradaca əlavə edirlər: “Əfsuslar olsun ki, Andropovla Çernenkodan sonra növbəti yeni lideri müəyyənləşdirmək məqamı çatanda Qromıko bu düzgün fikrini açıqlamamışdı...” (s.165)

Əsərdə qəhrəmanın fikir, düşüncə, fəaliyyət dairəsini təsəvvür etmək üçün yalnız Sov.İKP MK-nın baş katibləri ilə deyil, Heydər Əliyevin, habelə bilavasitə kurasiyasında olan nazirliklərin rəhbərləri, yüksək çinli məmurlarla, öz əhatəsində olan insanlar, tabeliyində olan işçilərlə münasibəti, ünsiyyəti, davranışına dair faktlara, epizodlara, örnəklərə, tarixi müqayisələrə də yer verilir.

Kitabın müəlliflərindən biri Moskvada yaşayan məşhur jurnalist, yazıçı Viktor Andriyanov Qorbaçov "perestoykası" – yenidənqurması (yaxud filosof yazıçı Aleksandr Zinovyevin dediyi kimi, "katastroyka"sı – yenidənqurması) dövründə "Sosialist industriyası" qəzetinin işçisi, digəri – yazıçı, publisist, Bakıda yaşayan və yaşanan proseslərin şahidi Hüseynbala Mirələmov həm bütün ölkədə, həm də Azərbaycanda cərəyan edən hadisələri bilavasitə, yaxından izləmək imkanında olmuş, eyni zamanda həmin dövrdə hakimiyyətin ən yuxarı eşalonunda təmsil olunan onlarla müsahiblərini dindirmişlər.

Kitabda kimlərin adı, obrazı, canlı ifadələrinə şahid oluruq: Nazirlər Sovetinin sədri Nikolay İvanoviç Rıjkov, Dövlət Əmək Komitəsinin sədri və Nazirlər Sovetinin sədr müavini Yuri Petroviç Batalin, Dövlət Plan Komitəsinin sədri Nikolay Konstantinoviç Baybakov, Dövlət Plan Komitəsinin sədr müavini, "nəqliyyat üzrə ən böyük mütəxəssislərdən hesab olunan" Viktor Yefimoviç Biryukov, nəqliyyat naziri Nikolay Semyonoviç Konarev, DTK sədrinin birinci müavini Filip Denisoviç Bobkov, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı MK-nın birinci katibi Boris Pastuxov, Neft və Qaz sənayesi müəssisələrinin tikintisi naziri Vladimir Çirskov, "üç il ərzində Heydər Əliyevin köməkçisi vəzifəsində çalışmış, öz rəisi haqqında yalnız xoş sözlər deyən", çoxlarından fərqli olaraq Heydər Əliyevin istefasından sonra da tapşırıqlarına həssaslıqla yanaşan Aleksandr Timofeyeviç Qavrilov, yazıçı Albert Lixanov, Ukraynanın Ali radasının deputatı, məşhur şair Boris Oleynik, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Tümen Baş Geologiya İdarəsinin müdiri Fərman Salmanov və onlarla başqaları.

Müasirləri Heydər Əliyevi birmənalı olaraq pozitiv planda, ətrafına açıq, mərd xarakterə və rəhbər işçiyə xas liderlik xasiyyətlərinə malik insan kimi anırlar. "Heydər Əliyev, onu yaxşı tanıyanların dediyinə görə, heç də şöhrətpərəst adam – görkəmli lüğətçi Dalın kitabında deyildiyi kimi, "vəzifəyə seçilməyə, şöhrətə, tərifə ehtiraslı

və buna görə də əxlaqi dəyərlərə yox, görüntüyə görə hərəkət edən" adamlardan olmayıb. O bütün həyatı boyu şöhrətə görə işləməyib" (s.174). Nikolay İvanoviç Rıjkov deyir: "Heydər Əliyev öz təmkinli görkəmiylə o vaxt da mənim xoşuma gəlirdi. Çox səmimi, ünsiyyətə meylli adam idi, qapalı, özündən razı, lovğa insan deyildi. Sakit təbiəti vardı, yerinə düşən yumoru çox sevirdi" (s.170). Və insani portretinə iş üslubunu da əlavə edir: "Onun Nazirlər Sovetindəki işi barədə nə deyə bilərəm? O, yaxşı işləyirdi, hətta çox yaxşı işləyirdi. Əliyev sistemli adam idi, o biri rəhbər işçilər kimi heç vaxt dağınıq, qatmaqarışıq, məsuliyyətsiz iş görmürdü. Səliqə-sahman, nizam-intizam ona xas idi. Ona hansısa bir işi tapşırdınsa, tamamilə arxayın ola bilərdin, bu tapşırıq mütləq yerinə yetiriləcəkdi" (s.208). Yuri Batalin daha konkretdir: "Bu iclasları Heydər Əliyev aparmağa başlayanda, mən yaxşı mənada heyrət etdim. Necə gözəl idarə edirdi. Nizam-intizamla, işini bilən bir mütəxəssis kimi. Müxtəlif fikirləri diqqətlə dinləyir, müqayisə edir, yalnız bundan sonra qərar qəbul edirdi. Bütün işlərdə onun böyük təcrübəsi və gözəl intuisiyası müşahidə olunurdu" (s.178).

Ən müxtəlif və fövqəladə Komissiyaların işinə rəhbərlik Heydər Əliyevə həvalə olunur. Kitab müəllifləri nəhəng BAM (Baykal-Amur magistralı) tikintisinin işində çətinlik yaranarkən, Heydər Əliyevin yüksək vəzifəli rəisləri də götürüb ora yollanması, "dünyanın heç bir tunelinin rastlaşmadığı hadisə" – Severo-Muysk tunelinə enmələri səhnəsini, 31 avqust 1986-cı il, Çernobıl qəzasından sonra böyük itkilərlə nəticələnən ikinci böyük faciənin baş verməsi, sərnişin gəmisi "Admiral Naximov"la yük gəmisi "Pyotr Vaşev"in toqquşması zamanı Heydər Əliyevin gərgin və dramatik hadisələrlə dolu iki həftəlik Novorossiysk səfərini təfərrüatlı, addım-addım, epik genişliklə təqdim etməklə göstərməyə çalışırlar: Heydər Əliyev daha böyük masştablar üçün yaranmışdı. Heydər Əliyevin nəqliyyat üzrə köməkçisi olmuş Vladimir Sergeyeviç Uxov daha üç əvvəl Volqada, Ulyanovskda olmuş hadisəni xatırlayır: "Onun qətiyyətli, sərt adam olduğunu əvvəl də bilirdim. Amma Volqada, parça-parça olmuş "Suvorov" teploxodunun yanında mən anladım ki, onun xarakteri, bütünlüklə kritik situasiyalarda – iradəni, düşüncəni və emosiyaları bir yumruğa yığıb qəti şəkildə hərəkət etmək üçün lazım olan məqamlarda, özünü daha bariz göstərir. Onun inadı, ağlı və sərtliyi problemi həll edirdi. Mənə elə gəlir ki, adi günlərdə Heydər

Əliyeviç elə bil sıxılır, onun möhtəşəm daxili enerjisi sanki özünə yol axtarırdı...” (s.213)

Ölkənin ən ali hakimiyyətinə – Siyasi Büroya yüksəlmiş Heydər Əliyev, əslində tutduğu Nazirlər Soveti sədrinin müavini postundan çox ucada dururdu. Kitabdakı tarixi dəlillər də bunu əyan edir. N.S.Konarev deyir: “Çoxmillətli bir dövlətin hakimiyyətində təkcə ruslar olmamalıydı. Yuri Vladimiroviç kadrları hamıdan yaxşı tanıyırdı. Və mən bütün faktları təhlil edəndən sonra belə bir fikrə gəlmişəm ki, Əliyevin Kremlə gətirilib Nazirlər Soveti sədrinin müavini təyin edilməsinin daha uzaq bir perspektivi vardı. Əfsuslar olsun ki, tale Andropova öz planlarını reallaşdırmaq üçün çox az vaxt ayırmışdı...” (s.169)

Qəhrəmanın Kreml həyatının perspektivlərini daha aydın incələmək üçün kitab müəllifləri daha bir tarixi paralelə müraciət edirlər. Sov.İKP MK-nın sonuncu baş katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov Heydər Əliyevi özünə rəqib görürdümü? Müqayisə labüd görünür. Çünki tarix belə gətirir ki (təsadüfənmi?!), Heydər Əliyevin Kremldə fəaliyyətinin böyük bir hissəsi Qorbaçovun ölkəyə başçılıq etdiyi və onu iflasa, uçuruma və son olaraq məhvə sürüklədiyi dövrə təsadüf edir. Canlı şahidlərə, gerçək süjetlərə, danılması çətin hadisə və dəlillərə əsaslanan həmin tarixi qarşılaşdırmada hakimiyyətin birinci şəxsi nədənsə hədəfə götürdüyü, heç nədən (əslində, məntiqi olaraq) qısqandığı və hər yerdə, hər vasitə ilə sıxışdırdığı siyasi rəqibinə aşkar uduzur.

“- Rəqib? Məncə, yox, – suala Y.P.Batalin cavab verməyə çalışır, – Qorbaçov Əliyevin timsalında qüvvətli opponentini görürdü. Əliyevin onunla müticəsinə razılaşmaması, öz mövqeyini qətiyyətlə müdafiə etməsi onun xoşuna gəlmirdi...” (s. 232) Çernobıl hadisələrində qətiyyətli mövqeyi, “bütün Avropaya məlum” faciənin xalqdan israrla gizlədilməsinə etirazını Boris Oleynik yada salır: “Heydər Əliyev mahiyyət etibarilə Qorbaçovu məcbur etdi ki, Ukraynada böyük bir faciənin baş verdiyini etiraf etsin. Hərçənd ki, bu etiraf Qorbaçovun siyasi nüfuzuna böyük xələl gətirmişdi. Biz isə Heydər Əliyevin mövqeyini unutmamışıq, onu çox qiymətləndiririk” (s.233-234). Nursultan Nazarbayev xatırlayır: “Heydər Əliyev Siyasi büroda yeganə adam idi ki, 1986-cı il Alma-Ata hadisələrindən əvvəl Qorbaçovu düşünülməmiş addımlar atmaqdan çəkindirməyə çalışırdı. O israr edirdi ki, istefaya gedən Kunayevin əvəzinə Qazaxıstana

kənardan gəlmə kadr qoymaq olmaz, mütləq yerli kadrlardan birini təyin etmək lazımdır. Amma ona qulaq asan olmadı...” (s.236) Heydər Əliyev özü də etiraf edir: “Siyasi Büronun iclaslarında mahiyyətcə avantüra olan bir çox planların əleyhinə kəskin çıxış edirdim və qeyd edim ki, bir çox hallarda Qorbaçovu düşünülməmiş qərarlar qəbul etməkdən çəkindirə bilirdim...” (s.237)

Kitab müəllifləri Heydər Əliyevin xalq arasında inam və etibarla qarşılanan BAM, Ulyanovsk, Novorossiysk səfərləri, “vacib diplomatik danışıqlarla” dəfələrlə Misirdə, Suriyada, Livanda, Pakistanda, İordaniyada, İraqda, Vyetnamda və s. ölkələrdə böyük ehtiram qazanması müqabilində Qorbaçovun narazılıq doğuran Tümen sərgüzəştlərinə, Çernobıl, Novorossiysk, Qarabağ addımlarına, siyasi avantüra və “saray çəkişmələri”nə də nəzər salır, qeyri-sabit, sürüşkən, aldadıcı xarakterinin artistizminə diqqət çəkirlər. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fərman Salmanov rəhbərin Tümendə təşkil olunmuş “lətifəyə bənzər” təmtaraqlı qarşılanma mərasimindən misallar gətirərək, qeyd edir: “Qorbaçov hakimiyyətə gələndə xalq ondan çox şey gözləyirdi, amma o, bu ümidləri doğrulda bilmədi. Kadrların hazırlanması, seçimi və irəli çəkilməsi mexanizmi işlənib hazırlanmamışdı. Kadrların işgüzar keyfiyyətləri əvvəlki kimi ikinci plandaydı. Ən əsas rəhbərə şəxsi sədaqət, dostbazlıq, qohumbazlıq, yerliçilik idi. Qorbaçovun vətəni Stavropoldan Moskvaya xeyli kadr gətirilmişdi...” (s.209)

ABŞ Prezidenti Corc Buş (böyük – red.) Qorbaçovla Maltadakı danışıqlardan sonra baş müşavirlərinə deyirmiş: “Aman Allah, o ki iqtisadiyyatdan heç bir şey bilmir” (s.204). Rusiya Prezidenti Yeltsin isə sələfinin siyasi savadını şübhə altına alır: “Qorbaçov daha çox özündən, öz çıxışlarından həzz alırdı. O, gözəl danışmağı çox sevirdi və bunu məharətlə bacarırdı. Hiss olunurdu ki, “hakimiyyət” onu özünə ram edir, o, reallıq hissini itirir. O, yenidənqurmanın daha sürətlə və geniş şəkildə inkişaf etməsi, daha geniş sahələri və insanları əhatə etməsi xəyalıyla yaşayırdı. Həyatda isə hər şey tamam başqa cür idi...” (s.230) Siyasi Büronun keçmiş üzvü, SSRİ Ali Sovetinin sədri Anatoli İvanoviç Lukyanov Qorbaçovun idarəçilik prinsiplərindən təəssüflə danışır: “Hər şeyi, hətta prinsipial məsələləri belə kompromis yolla həll etməyə çalışmaq xasiyyəti, şəraitin və şəxsi müşavirlərinin təzyiqi altında improvizə etmək bir bəla kimi daim insanların başının üstündən asılmışdı. “Hər şey dü-

zələr" kimi laqeyd inam və hadisələrdən daim geridə qalmaq, prezidentin hər sözünün öz-özünə yerinə yetiriləcəyinə arxayınçılıq və başqalarının rəyini dinləməyi bacarmamaq, sözsüz, onun əsas cəhəti idi..." (s.236)

Bütün bu cəhətlərin üstünə mənəvi səbatsızlığı, müəlliflərin incə ştrixlərlə üzə çıxardığı kimi, yalançı səmimiyyət və həmkarlarına qarşı kobudluğu, ikiüzlülüyü, paxıllığı, xəyanəti də gəldikdə ölkənin ali hakimiyyətində Heydər Əliyevə qarşı Qorbaçov, Yakovlev, Liqaçov kimilərinin məkrli münasibəti də tam aydınlaşır. Özünün "kəşfiyyatda və böyük siyasətdəki fəaliyyəti boyu çox şeylərin şahidi olmuş" DTK sədrinin birinci müavini Filip Denisoviç Bobkovun açıq bəyan etdiyi kimi: "Bu tamamilə mənfi münasibətdir. Tamamilə! Belə deyək də, Andropovun Əliyevə olan çox yaxşı münasibətinin tam əksi. Andropov güclü şəxsiyyətlərdən, müstəqil düşünən insanlardan qorxmurdu, onları qiymətləndirir və irəli çəkirdi. Qorbaçov isə belə insanlardan qorxurdu və onlardan canını qurtarırdı – Əliyevdən, Romanovdan, elə Yeltsinin özündən, Rıjkovdan, Batalindən, Kiyevdə – Şerbitskidən, Alma-Atada – Kunayevdən" (s.247).

Əsəri oxuduqca, Heydər Əliyev ömrünün dramatizmlə dolu səhifələriylə tanış olduqca bəzən hətta tarixin məntiqinə etiraz etmək istəyirsən. "Ən maraqlısı isə budur ki, nə üçünsə istənilən sistemdə - totalitar, demokratik, sosialist, kapitalist – hakimiyyətə səriştəsiz, buna haqqı olmayan insanlar gələ bilir?! Axı belələrini hakimiyyətə heç yaxın da buraxmaq olmaz" (s.212). Əgər Andropovun ömrü qısa olmasaydı... Əgər Qorbaçov hakimiyyəti qəsb etməsəydi... Məşhur publisist Artyom Borovik yazırdı: "Heydər Əliyev onun bu vəzifəyə seçilməsinin heç cür mümkün olmadığını israr edənlərə nahaq yerə inanmışdı. Tixonov belə hesab edirdi ki, Heydər Əliyevin bu yüksək vəzifəyə seçilməsinə "dini əqidəsi və milliyyəti" mane olur. Mən belə hesab edirəm ki, – deyə Borovik sözünə davam edir, – Heydər Əliyev Rusiyanın maraqlarını başqalarından daha artıq müdafiə edirdi. Baxın görün, Qorbaçov SSRİ-nin başına nə gətirdi, Yeltsin Rusiya ilə nə etdi? Əliyev yəqin ki, düşünülmüş islahatlar yoluyla gedəcəkdi və onda bizim dövlətin və özümüzün taleyi tamam başqa cür olacaqdı..." (s.204-205)

Əgər 1982-ci ilin sonunda Heydər Əliyevin Moskvaya irəli çəkilməyib, vətəndə qalması mümkün olsaydı... "Əliyev bir çoxlarına, o cümlədən Moskvadakı erməni həmkarlarına, məsələn, SSRİ neft

və qaz sənayesi tikintisi naziri Arakelyana deyirdi ki, "əgər mən həmin vaxt Azərbaycanda olsaydım, nə Qarabağ, nə Sumqayıt hadisələri baş verməzdi..." (s.248)

Amma deyirlər ki, tarix şərt şəklinə biganədir. Qorbaçovun yuxarıdan kütləvi mətbuatacan başlatdığı anti-Əliyev kampaniyası, ideallarına sadiq Heydər Əliyevin geniş infarkt keçirməsi, 1987-ci ilin oktyabrında vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa verməyə vadar olması, "hətta istefaya çıxandan sonra belə" həyatının "izləmək, qulaq asmaq və buna bənzər zorla sırınmış nəzarət servisi ilə məhdudlaşdırılması" (s.248), erməni fitvası ilə başlanan Qarabağ münaqişəsi, xalqına qarşı törədilən amansız 20 yanvar faciəsi, üstəlik 1985-ci ildə Zərifə xanımı itirməsi, ailəsinə qarşı təzyiqin artması, o cümlədən oğlunun – o zaman Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda dərs deyən tarix elmləri namizədi, Müstəqil Azərbaycanın gələcək (hazırkı – red.) prezidenti İlham Əliyevin işdən azad edilməsi və "istefada olan əməkdar təqaüdçünün "Moskva blokadası"na salınıb hər vəchlə Vətənə yolunun bağlanması... dəmir iradəli qəhrəmanın təsəvvürəgəlməz durumunun yalnız faktlarını təqdim edir. Əsərdə Heydər Əliyevin mətin və sarsılmaz xarakteri o illərin az sayda canlı müsahiblərinin ifadələrində, məxsusi psixoloji cizgilərlə qabardılır. "Sonralar o bu barədə deyəcəkdi: "Mənə elə gəlir ki, ən dəhşətlisi insanları yaxşı tanımamaqdır. Mənə qarşı da çoxsaylı ədalətsizliklər edilmişdi. Axı mən də insanam, nə dəmir, nə də daş parçasıyam, insanam". Təhqirlərlə, təzyiqlərlə dolu həmin illərdə bu sözlər Heydər Əliyevin etdiyi yeganə etiraf, yaralı ürəyinin yeganə fəryadı idi. Heydər Əliyev daha heç kimə bu barədə bir söz deməmişdi, özünü sındırmamışdı. Güclü insanlar hər şeyi özləri ürəklərində çəkməlidirlər..." (s.257)

Lakin o illərin başqa bir gerçək həqiqəti də bəllidir: "Hər halda mənim axırıma çıxa bilmədilər, salamat qala bildim. İndi mən dirçələcəyəm, mütləq". Bu sözləri Heydər Əliyev Moskvada, Y.P.Batalinlə son görüşlərindən birində demişdi və Yuri Petroviç əlavə edir: "Məlum məsələydi ki, o, təkcə fiziki sağlamlığı nəzərdə tutmurdu. Şayiələrə görə, onu fiziki cəhətdən də aradan götürmək istəmişdilər, amma buna nail olmamışdılar..." (s.248)

Bu yerdə əgər tarixin səhifələrini başqa konfiqurasiyada vərəqləyib məntiqinə varmağa çalışsaq, zamanın şərt şəklinə bəlkə biganə olmadığını da görərik. Bir anlığa təsəvvür edək, əgər Azərbaycan

xalqı XX yüzildə Heydər Əliyev kimi dahi şəxsiyyəti yetirməsəydi... Əgər 1969-cu ilin iyulunda Heydər Əliyev respublikanın başına keçib, onu qələbələrdən qələbələrə aparmasaydı... Əgər 1990-cı ilin 21 yanvar günü xalqın lideri Moskvada Azərbaycan nümayəndəliyinə gəlib Mərkəzi hökumətə siyasi ittihamnaməsini söyləməsəydi... Əgər 1993-cü ilin iyununda Ulu Öndər Bakıya gəlib vətəndaş müharibəsinin qarşısını almaqla xilaskarlıq missiyasını həyata keçirməsəydi...

Bəli, tarixin məntiqini dəyişmək mümkünsüzdür, onu yalnız duymaq və yaratmaq olur. "Heydər Əliyev" əsərinin başlanğıcında müəlliflər belə bir yaradıcı məqama da diqqət yönəldirlər: "Sovet siyasətçisi və dövlət xadimi Heydər Əliyev haqqında tam səmimiyyətlə demək olar ki, o, işdə beynəlmiləlçi idi. Lakin XX əsrin sonlarında o, Şarl de Qollun milli amilin bütün digər ideyalar, nəzəriyyələr, şüar və prinsiplərdən öndə olduğu barədə fikrini özü üçün yenidən kəşf etdi. Bəli, tarix göstərdi ki, milli ideya bir çox başqa mətləblərdən daha önəmlidir. Realist siyasətçi Heydər Əliyev üçün buradan bir qənaət hasil olunurdu: dövlətin qurtuluşu eyni zamanda millətin qurtuluşudur" (s.6).

1990-cı il iyul ayının 20-də Heydər Əliyev hər cür maneələrə rəğmən Vətənə qayıda bilir. "Həyat" qəzetinə və Litvanın "Respublika" qəzetinin əməkdaşına verdiyi ilk müsahibəsindən artıq hədəfin bəlli olduğu görünür: "Hesab edirəm ki, indi bütün ölkənin, hər bir xalqın, hər bir respublikanın həyatında yeni bir mərhələ başlanıb. Hər bir xalq öz taleyini özü bildiyi kimi müəyyənləşdirməlidir..." (s.286) "Platformamı yuxarıda dedim. Siyasi və iqtisadi cəhətdən suveren, müstəqil Azərbaycan uğrunda mübarizə aparmaq..." (s.288) Kitab müəllifləri qərar verir: "Onun cavablarını indi – on beş il keçəndən sonra oxuyanda görürsən ki, bu sadəcə, Allahın verdiyi ömrü sakitcə başa vurmaq üçün geri qayıdan insanın cavabları deyil, məqsəd artıq müəyyənləşib: Azərbaycanın müstəqilliyi..." (s.289)

1990-cı ilin sentyabrında Naxçıvandan Azərbaycan Ali Sovetinə deputat, 1991-ci ilin sentyabrında isə Naxçıvan Ali Sovetinin sədri seçilən Heydər Əliyevin atdığı ilk addımlar Müstəqil Azərbaycan uğrunda mübarizəsinə başladığını xəbər verir. "Heydər Əliyevin 1990-cı il iyulun 22-də Naxçıvana və böyük siyasətə qayıdışı imperiya qüvvələri ilə mübarizənin daha da kəskinləşməsinə və Naxçıvandan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi

mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Heydər Əliyev Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi: "...Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".[1]

1991-ci ilin fevralında Bakıda, Azərbaycan Ali Sovetinin sessiyasında bütün siyasi əleyhdarlarının həmlələrinə sinə gərib mövcud quruluşa ittihamnaməsini oxuyur: "Birincisi. Ölkə – sovet cəmiyyəti, dövlət üsuli-idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır... – deyir və dəlillərlə sübut edir. – İkincisi. Ölkədə yaranmış vəziyyət eynilə Azərbaycanda da hökm sürür. Respublikanın rəhbərliyi həmişə olduğu kimi, mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir və bütün göstərişlərini həyata keçirməyə cəhd göstərir. Nəticələr göz qabağındadır: Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir..." (s.296)

Böyük siyasi cəsarət və uzaqgörənlik nümayiş etdirən Heydər Əliyev, özü etiraf etməsə də, artıq ümumxalq mənafeyini ifadə və müdafiə edən öndər – ümummilli lider rolunda görünürdü: "- Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma vətən torpağına heç də yenidən hakimiyyətə gəlmək üçün, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüquqdan heç kəs məhrum edə bilməz..." (s.296)

Heydər Əliyev mənsub olduğu və ömrünün böyük bir hissəsini vicdanla xidmət etdiyi Kommunist partiyasına ilk kəskin etirazını 1990-cı ilin 20 yanvar hadisələrinə münasibətdə bildirmişdi, 19 iyul 1991-ci il tarixli, Moskvaya, İttifaq Nazirlər Soveti partiya təşkilatına göndərdiyi ərizədə isə ölkəni uçuruma yuvarlatmış ali hakimiyyəti konkret müddəalarla – 1990-cı ilin 20 yanvar hadisələrinə görə, erməni millətçiliyinə havadarlığına görə, saxta demokratiya oyunları

[1] İsmayıl Hacıyev. Heydər Əliyevin Naxçıvan Muxtar respublikasında müstəqil dövlətçilik uğrunda mübarizəsi // Müstəqillik yollarında 25. Bakı: Şərq-Qərb, 2016, s.93-118; s.97

və şəxsiyyətinə qarşı təqiblərə görə geniş ittihamlarla suçlayaraq, Kommunist partiyası sıralarından çıxdığını bəyan edir. Kitab təsbit edir: Sovet İttifaqının siyasi səhnədən silinməsinə hələ yarım il qalmış Heydər Əliyev böyük uzaqgörənliklə hökmünü vermişdi. İndi o, tarix səhnəsinə tam yeni – Xilaskar və müstəqil Azərbaycanın qurucusu obrazında daxil olurdu.

***

Heydər Əliyevin uşaqlıq və gənclik obrazı ilə də ilk bioqraflarının əsərlərində – Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" roman-tədqiqatında və Viktor Andriyanovla Hüseynbala Mirələmovun "Heydər Əliyev" bədii-sənədli kitabında tanış oluruq.

Bioqraflar 10 may 1923-cü il tarixində, Naxçıvan şəhərində, Əlirza və İzzət Əliyevlərin ailəsində Heydər Əliyevin doğulmasını yalnız quru rəqəmlərlə, sənədlər və faktlarla təsbit etmirlər. Eyni zamanda bədii detallar vasitəsilə dünyaya dahi insanın gəlişini tarixi-mədəni və ictimai-mənəvi kontekstdə əsaslandırmağa, qabaqcadan xəbər verməyə tələsirlər. Hətta bu məqamda dahini yetirən torpağın və təbiətin də öz payı, iltifatı var: "Əsrləri, minillikləri yola salmış bu şəhərin may ovqatı məscid üzərində açılan bahar asimanı kimi safdır, ülvidir və sanki dünyaya yeni gələn bir insanın valideynlərinə bəxş etdiyi ümid işığıdır..." (s.13) Bioqrafiyanın ilk cümlələri qəhrəmanın daxili düşüncə və nəzərlərindən uzaq keçmişə körpü salaraq, oxucunun gözü qarşısında panoram açır. "Tərcümeyi-halında yazırdı: "Mən, Əliyev Heydər Əlirza oğlu, 1923-cü il mayın 10-da Naxçıvanda anadan olmuşam..." Hər dəfə bu sətirləri yazdıqda – Bakıda, Leninqradda, Moskvada, – Araz sahilindəki sakit və mehriban, doğma şəhər gözləri önündə canlanırdı..." (s.13)

"Anadan olanda adını Heydər qoydular. Mənası – öndə gedən, başçı deməkdir..." (s.12) Gələcəyin lideri, Ulu Öndəri həm zamanın, həm də Azərbaycan torpağının qanlı-qadalı illərində dünyaya göz açır. Müəlliflər reallıqları ədəbiyyatın gücü ilə ümumiləşdirərək, ilk səhifələrdən oxucunu tarixin acı həqiqətlərinə aşina edirlər: "Andronik Uzunyanın əsgərləri kəndə aşağı tərəfdən daxil oldular. Yamacın ətəyində bir neçə ev alışıb-yandı. Comərd təkid eləyirdi ki, adamlar nəyi bacarırlarsa götürüb dağlara çəkilsinlər. Haray-həşir, arvadların hönkürtüsü, uşaqların ağlaşması kəndi başına almışdı.

Sanki qayalar da Zəngəzur torpağında baş verən müsibətə laqeyd qala bilmirdi. Atlar, yüklənmiş ulaqlar, qorxudan böyürən öküzlər, inəklər – hər şey bir-birinə qarışmışdı. Kənddə qalan yalnız dərd-sərdən ağlı çaşmış və öz həyatını evdən ayrı təsəvvür etməyən qocalar idi...” (s.13-14)

Həmin təsvir “illər ötəndən sonra Əliyevlər ailəsində də əldən-ələ keçən” Əyyub Abbasovun “Zəngəzur” romanındandır; vaxtilə İzzət xanımın danışdıqları ilə tam üst-üstə düşür. Axı Heydər Əliyevin hər iki valideyni 1919-1920-ci illərdə ermənilərin Zəngəzura basqınları, Azərbaycan torpağında özlərinə dövlət qurduqları zamanı həyata keçirdiyi genosid siyasətinin acı nəticələrini dadmış, uzaq və yaxın qohumlarını, bacı və qardaşlarını itirmişdilər. Bu həqiqətlərin Heydər Əliyevin taleyində, yaddaşında və altyaddaşında yeri olması şəksizdir. 1923-cü il mayın 10-u. “Körpəyə İzzət xanımın azərbaycanlıların Zəngəzurdan didərgin salındığı zaman həlak olmuş qardaşı Heydərin adını qoydular. O Heydərin yaşı həmişəlik 23 olaraq qaldı...” (s.13); xatirəsi isə bütün XX əsr boyu xalqın ümid və pənah yeri olan Heydər Əliyevin adında əbədiyyət qazandı...

Yalnız ağrı və kədərlə haşiyələnməyib, Əliyevlər ailəsinin may sevincini kitab müəllifləri başqa bir simvolik detalla təsbit edirlər. Ailənin başçısı, Bakı neft mədənlərində fəhləlikdən sonra Naxçıvana qayıdan Əlirza Əliyev dəmir yolunda işə düzəlmişdi. “Heydər anadan olanda Əlirza Əliyevin köhnə dostu, parovoz maşinisti dəmir maşınından elə qulaqbatırıcı fit verir ki, Araz qırağında otlayan qoyun-quzu hürküşüb az qala çaya töküləcəkmiş...” (s.15) Azərbaycan xalqının bəxtinə doğan səadəti xəbər verməklə yanaşı, həmin detal həm də ölkənin həyatında başlayan yeni eranı eyhamlaşdırır.

Heydər Əliyevin uşaqlığı çətin, lakin əlverişli şəraitdə keçib. Müəlliflər, hər şeydən əvvəl, bunu milli mənəvi dəyərlər mühiti, ata ocağının istisi ilə bağlayırlar. Halallıq, böyüklük, düzgünlük, nizam-intizam, zəhmətsevərlik, ailəyə hörmət, qonaqpərvərlik, alicənablıq, havadarlıq, mərhəmət və bu kimi mənəvi keyfiyyətlər Əliyevlər ailəsinin hər bir üzvünə irsən və ailə tərbiyəsindən keçir. “Dəmiryolu işçiləri arasında zərbəçi sayılan Əlirza Əliyevə torpaq sahəsi ayırdılar. Uşaqların hərəsi öz gücünə görə çalışırdı, kimisi bostanda kömək edir, kimisi də qoyun-quzu otarırdı. Onlar ömürlərinin erkən çağlarından çörəyi alın tərilə qazanırdılar. Çünki Naxçıvanın özünəməxsus sərt təbiəti tənbəlliyi bağışlamırdı” (s.18).

Əsərdə ata ocağının baş mühafizi İzzət xanımın incə zövqü, sadə Azərbaycan qadınına xas mədəniyyət və rəftarı, təbiətlə ünsiyyəti, "gül-çiçəkdən, meyvə və otlardan" yaratdığı möcüzələr, məişət təfərrüatları ailə nizamının rəhni kimi təsvir olunur. "Əlbəttə, ananın sehrli səliqə-sahmanını ilk növbədə qızları görüb-götürürdü. Amma oğullar da ibrət alırdı. Heydər Əliyevin geyim-keçimindəki təbii incəlik, zövq və səliqə də ata-ana ocağından gəlir" (s.19).

Heydər Əliyevin ata ocağına bağlılığı, ömrü boyu Vətən torpağından qüvvət alması əsərin sonrakı hissələrində, 1990-cı ilin iyulunda Naxçıvana qayıdışı zamanı bir daha xatırlanır: "İndi Əliyevin ata ocağını yalnız tək-tük fotoşəkillər və xatirələr vasitəsilə təsəvvürə gətirmək olar. Budur, Heydər qapı ağzında dayanıb; budur, Sənifə, nənəsi İzzət xanım kimi, əl-üzünü yuyan dayısının əlinə səhəngdən su tökür: - O uzaq illərdə dayım həyətimizdəki quyunun suyuyla əl-üzünü yumağı xoşlayırdı. İstidə, bürküdə səhəngdə sərinliyini saxlamış sudan süzərdim. Heydər dayı da ləzzətlə soyuq şırnaqları üstünə çilədərdi; qohumların dediyinə görə, uşaqlıqdan vərdiş eləmişdi. Dayım, ümumiyyətlə doğma ocağı xatırladan hər şeyi sevirdi. Vaxtilə anasının, mənim nənəmin bişirdiyi xörəkləri – düşbərəni, qutabları, dolmanı xoşlayırdı. Bağımızın barını sevirdi. Uzun illər Bakıya, Moskvaya meyvə yollayırdıq. O, elə hesab edirdi ki, Naxçıvan meyvələrinin tayı-bərabəri yoxdur" (s.280).

Heydər Əliyevin bir şəxsiyyət kimi formalaşmasında yeni eranın gətirdikləri ilə qədim Naxçıvan torpağının yaşatdığı tarixin, mədəniyyətin üzvi təsiri əsərdə yığcam təfərrüatlarla verilir: "Böyüdükcə Heydər sinif yoldaşlarıyla birlikdə mavzoleyin (Möminə Xatun türbəsi – red.) seyrinə dalmağı, onun göylərə tuşlanmış cizgilərini rəsm etməyi xoşlayardı. Naxçıvan başdan-başa tarixin canlı kitabıdır. Əcəminin yaratdığı bir başqa məşhur abidə də – Yusif ibn Küseyirin məqbərəsidir. Arazın üzərindən o taya, İrana uzanan körpülər, karvansara xərabələri... və Telman adına klub, - alman proletariatı rəhbərinin ağlına gəlməzdi ki, onun adı yazılmış lövhə yenidən təmir edilib qurulmuş ibadətxananın qapısına vurulacaq..." (s.19)

Biliyə, təhsilə, mədəniyyətə can atan ailə üzvlərinin universallığı da həmin qaynaqlardan qidalanırdı. "Əliyevlər ailəsinin ən böyük övladı Həsən gənclik çağlarından təbiət vurğunu idi, saatlarla ətrafdakı səfalı yerləri gəzib-dolanardı. Onu "Vurğun-səyyah" da adlandırmaq olardı... Əliyevlər ailəsində "humanitarlar" və "texni-

kapərəstlər" tən yarıya bölündülər. Hüseyn kiçik yaşlarından karandaşla, fırça, boyalarla şəkil çəkməyi sevirdi. Uşaqlıq arzusu onu İ.Repin adına Leninqrad Rəssamlıq Akademiyasına gətirib çıxartdı. Ömrünün sonunadək molbertdən ayrılmadı. Surə jurnalistikanı, Aqil iqtisadiyyatı seçdi və elm aləmində də, işgüzar dairələrdə də nüfuz qazandı. Cəlal məşhur bioloq, Azərbaycan Milli Elmlər Akademiyasının akademikidir. O, yeni buğda növləri icad etmiş, Şəfiqə və Rəfiqə pedaqoq olmuşlar. Heydər qardaşı Hüseyn kimi incəsənətlə məşğul olmaq arzusundaydı. Yaşıdlarının xatırladıqlarına görə, yaxşı şəkillər çəkər, məktəb tamaşalarını tərtib edər, teatrı sevərdi..." (s.20)

Sovet hakimiyyətinin maarif siyasəti yeni nəslin hərtərəfli formalaşdırılmasına köklənmişdi. Məktəb illərindən istedadının çoxyönlülüyü, ədəbiyyata, tarixə, riyaziyyata, rus dilinə, rəssamlığa, teatra, kinoya marağı balaca Heydəri erkən yetişdirir və vaxtından bir il tez, 13 yaşında atası onun Naxçıvan Pedaqoji Texnikumuna qəbul olunmasına nail olur. Güclü pedaqoqları və texniki təchizatı – "yaxşı kabinetlər, laboratoriyalar, hərbi-idman kompleksi, kino qurğusu" olan texnikumu Heydər Əliyev əla qiymətlərlə bitirir.

Heydər Əliyevin uşaqlıq və məktəb illəri Elmira Axundovanın roman-tədqiqatında daha geniş, çoxsaylı xatirələrin şahidliyi ilə, təsvir və təfərrüatların əyaniliyində təqdim olunur. Romanda yeniyetmə Heydərin az qala atdığı bütün addımları izləyir, keçdiyi küçə və məhəllələrdən nəfəsini duyur, Puşkin küçəsi boyu gələcəyə doğru inamlı addımlarını canlı təsəvvür edirik.[1] Bu, həm də roman-tədqiqat janrının imkanlarını nümayiş etdirir. V.Andriyanov və H.Mirələmov sənədli-bioqrafik əsərdə daha kəsə yolla gedir, yığcam detal və lövhələrlə böyük ümumiləşdirmələrə nail ola bilirlər.

Respublikanın qocaman pedaqoqu, 2003-cü ildə Ulu Öndərin "İstiqlal" ordeni ilə təltif etdiyi yüz yaşlı müəllimi Lətif Hüseynzadə xatırlayır: "Heydər elə ilk günlərdən ən yaxşı tələbələrimizdən oldu... Hətta yuxarı kursların ötkəm tələbələri də ona böyük hörmət bəsləyir, üzünə də, arxada da, gələcəyini bilirmiş kimi, ona "general" deyirdilər" (s.23). Məktəb yoldaşı Zərqələm Quliyeva da gənc Heydərin özünü erkən göstərən liderlik istedadına dair bir məqamı

---

[1] Bax: Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild, 2007, 352 s.; Birinci fəsil. Ömür yolunun başlanğıcı, s.19-84

hafizəsində qoruyub-saxlamışdır: "Dərslərarası fasilələrdə tələbələr texnikumun həyatinə axışırdılar. Qızlar kənara çəkilib sakitcə pıçıldaşır, oğlanlar isə dərhal dəstələrə bölünüb oynayırdılar. "Mən kiminləyəm, mən kiminləyəm", – səsləri eşidilirdi. Yalnız Heydər soruşurdu: "Kim mənimlədir?" (s.24)

Gənclik dostlarından, əsərdə göstərildiyi kimi, 1980-ci illərin sonlarında "anti-Heydər Əliyev" kampaniyasına qarşı mətanətlə çıxış edən Dövlət Məmmədovun xatirində də mənalı epizodlar yaşayır. Texnikum illərindən rus dilini mükəmməl öyrənməyə nail olmuş "Heydər Əliyev Lev Nikolayeviç Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyan ilk tələbə olmuşdu. Bunu ona rus dili müəllimi Həsən bəy Qazıyev məsləhət görmüşdü. Sonra Heydər bu böyük yazıçının portretini də çəkmişdi". Dövlət Məmmədov Heydər Əliyevin romandan: "uzaq keçmişdə baş vermiş müharibədən, 1812-ci ildə yandırılan Moskvadan, yalnız kinoda gördüyü Kremldən həvəslə", necə şövqlə danışdığını xatırlayır. Və əsər müəllifləri buradaca vurğulayır: "O vaxt kimin ağlına gələrdi ki, bu yeniyetmələrin birinin yolu məhz Kremlə gedib çıxacaq. Deyəsən, təkcə uzaqgörən Lətif müəllim bu gənci həmkarlarından əvvəl qiymətləndirə bilmişdi: - Bu cavan oğlan böyük adam olacaq, – o, pedaqoq həmkarlarına bu sözü çox demişdi" (s.26).

Heydər Əliyevin müəllim peşəsinə sevgisi bütün ömründən keçsə də, rəhbər olduğu dövrlərdə respublikada təhsilin, maarifin inkişafına hədsiz töhfələr, müəllim adına və əməyinə yüksək dəyər versə də, sadəcə müəllim olmadı; Lətif müəllimin uzaqgörənliyi yerini aldı. 1941-ci ilin iyununda Böyük Vətən müharibəsi başlarkən, Heydər Əliyev Sənaye İnstitutunun memarlıq üzrə ikinci kursunu bitirmişdi. Onun cəbhəyə getmək səyi nəticəsiz qalır: "Bura da cəbhədir. Zaqafqaziya cəbhəsi..." (s.37) Sovet qoşunlarının 1921-ci il Sovet-İran müqaviləsinə əsasən İrana daxil olması ölkənin cənub sərhədlərini də gözəgörünməz cəbhəyə çevirmişdi. Gənc Heydər Naxçıvan MSSR Daxili Xalq Komissarlığında arxiv şöbəsinin məxfi hissəsində işə başlayır və bu, bütünlükdə ömür yolunu müəyyənləşdirir. Amma, kitabda göstərilən faktlar təsbit edir: Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarına gəlişi düşünülmüş, dərk olunmuş addımdır. Belə ki, dünya miqyaslı cahanşümul hadisələr dərin dərrakəli gəncin bilavasitə gözünün önündə baş verirdi. Heydər Əliyev ilk gəncliyindən şahidi olub, Cənubi Azərbaycanda Demokratik

Dövlətin qələbə sevinclərini və məğlubiyyət acılarını yaşamış insandır.

1941-1946-cı illər hadisələrini araşdıran "Cənubi Azərbaycan: soyuq müharibənin başlanğıcı" kitabının müəllifi, tarix elmləri doktoru Cəmil Həsənli kitabının nəşrindən sonra Heydər Əliyevin ona zəng vurub təbrik etdiyini söyləyir: "Mənim öz gözümlə gördüyüm faktları necə də dəqiq təsvir etmisiniz! Heyrətlənirəm. Düşünürdüm ki, 70-75 yaşınız var və o hadisələrin şahidisiniz. Başqa tarixi məqamlarla yanaşı, Siz Bağırovla Pişəvərinin görüşü haqqında söyləyirsiniz. Mən o zaman Naxçıvanda xidmət edirdim, bu görüş gözümün önündə olub, biz onu mühafizə edirdik..." (s.46) Kitabın gənc qəhrəmanı gərgin ictimai-siyasi proseslərlə yanaşı, Əziz Əliyev, Mircəfər Bağırov, Seyid Cəfər Pişəvəri və onlarla digər tarixi simalarla yaxın məsafədən görüşmək şansı qazanır. Bu, Heydər Əliyevin milliyyətci düşüncə tərzi və obrazının formalaşması ilə birgə qəti həyat yolunun müəyyənləşməsinə də səbəb olur. "Heydər Əliyev 1944-cü ilin mayından Sovet İttifaqı dövlət təhlükəsizlik orqanlarında xidmətə başlayır. O vaxt onun 21 yaşı təzəcə tamam olmuşdu" (s.45-46). 1969-cu ilin iyulunda Respublikanın rəhbəri seçilənə qədər 25 il sovet sisteminin ən mürəkkəb, məsuliyyətli, çətin cəbhəsində alnıaçıq, rəşadətlə yol keçir, general-mayor rütbəsinə və Azərbaycan SSR DTK-nın sədri vəzifəsinə qədər yüksəlir. Bu, bir azərbaycanlının yaşadığı zamanı və rejimin maneələrini dəf edərək özünə, milli varlığına yüksəldiyi yolun əsl örnəyidir.

Heydər Əliyev ilk simvolik mükafatını – "Voroşilov atıcısı" nişanını hələ məktəb illərində hərbi dərsdə qazanmışdı (s.24). "Azərbaycan Respublikasının gələcək prezidenti 1945-ci ilin mayında Azərbaycan Dövlət Təhlükəsizliyi Komissarlığının operativ işçilərin ixtisas artırma kurslarını... fərqlənmə ilə bitirir və yenə də Naxçıvana qayıdır, çox keçmədən isə ilk mükafatına – "Əmək rəşadətinə görə" medalına layiq görülür" (s.47). 1950-ci ilin iyulunda Leninqradda SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin Operativ işçilər hazırlayan məktəbini fərqlənmə ilə bitirən Heydər Əliyev Bakıya tövsiyyə olunur və əks-kəşfiyyatla məşğul olur. Bu yerdə yalnız sənədlər danışır: "Onun xidmət siyahısında bir-birinin ardınca lakonik qeydlər peyda olur: 2-ci şöbənin rəisi təyin olunub... "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunub... "Fəxri təhlükəsizlik işçisi" nişanı ilə mükafatlandırılıb... Xüsusi tapşırığı ləyaqətlə yerinə yeti-

rərkən qətiyyətlilik və təşəbbüskarlıq göstərdiyinə görə qiymətli hədiyyə ilə mükafatlandırılıb... SSRİ Dövlət Təhlükəsizlik xidmətində uğurlu fəaliyyətinə görə “Qızıl ulduz” ordeni ilə təltif olunub...”

Heydər Əliyevin qətiyyətli, əzmkar, zəhmətkeş, iradəli, prinsipial şəxsiyyət olması rəsmi sənədlərdə qeyd olunduğu kimi, fəaliyyətinin nəticələrindən də aydın görünür. Bununla belə, Heydər Əliyev təvazökarlığı sevmiş, heç zaman şöhrətpərəst olmamışdır. Naxçıvana qayıdarkən 1983-cü il may ayının 7-də iki dəfə Sosialist Əməyi Qəhrəmanı olması şərəfinə vətənində qoyulmuş bürünc büstün götürülməsinə qərar verir və hətta SSRİ Xalq deputatları qurultayına yazdığı məktubda “canlı insanlara qoyulan büstlərin yığışdırılması” təklifi ilə çıxış edir (s.309). Amma kitab müəllifləri incə bir ştrixə diqqət yetirirlər. Bütün həyatı boyu zəhmətə yüksək qiymət verən, insanları fəaliyyətinə və əməyinə görə fərqləndirən, mükafatlandıran Heydər Əliyev öz zəhmətinə verilən dəyərə qarşı da həssas olmuş, hətta duyğulanmışdır. Qədirbilənlik Heydər Əliyevin bir rəhbər və insan kimi xarakterinin ümdə cəhətlərindən olmuş, bunu başqalarından da ummuşdur. “10 may 1983-cü il. Heydər Əliyevin altmış yaşı tamam olur. Ona ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verilir və Qızıl medalla təltif olunur. Qəzetlərdə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, SSRİ Ali Sovetinin təbrikləri dərc edilib. Təbrik edənlərin arasında Denis İvanoviç Bobkov da vardı. O xatırlayır: “Yadımdadır, Heydər Əliyev Yuri Vladimiroviç Andropovun təbrik məktubunu necə böyük fəxrlə göstərirdi. Məncə, bu, onun əməyinə verilən ən böyük qiymət idi”. Bu qürurun arxasından, bir qədər də uşaqlıq xarakterinə bənzər pak cizgilər boylanırdı. İllər ötəndən sonra Azərbaycan Prezidenti Heydər Əliyev böyük görüşlərin birində etiraf etmişdi ki, hamı öz zəhmətinin qiymətləndirilməsini istəyir. “Mən də həmişə bunu arzulamışam” (s.173).

***

Heydər Əliyevin dövlət təhlükəsizliyi sahəsində çalışdığı dövrün “çekist obrazı” gərəyincə yazıçıların qələminə gəlməmişdir. Halbuki istər Elmira Axundovanın roman-tədqiqatında, istərsə də Viktor Andriyanov və Hüseynbala Mirələmovun sənədli-bioqrafik əsərində təqdim etdikləri cüzi materiallardan da göründüyü kimi, burda ədəbiyyat üçün kifayət qədər maraqlı mövzu və mündəricə

var. Xüsusən tarixi və siyasi detektiv janrında qələm işlədənlərin bu yöndə düşünməsinə dəyər. Doğrudur, detektiv ədəbiyyatı Heydər Əliyev mövzusuna artıq maraq göstərmişdir,* amma bu onun həyatının daha sonrakı dövrü, müstəqillik çarpışmaları ilə bağlı əhvalatları ehtiva edir.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında çalışdığı dövr obrazı müəyyən qədər bədii-sənədli janrdan və memuarlardan boylanır. Və bu birmənalı olaraq milli xilaskar obrazıdır.

Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabında Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı zamanların yaddaqalan bir obrazı keçir. Məşhur "borş əhvalatı" adıyla xalq yumorunda yer almış həmin hadisə bir çox xatirələrdə, o cümlədən rejissor Vaqif Mustafayevin Heydər Əliyevdən söz açan silsilə filmində də xatırlanır. "Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini olan vaxtlarda Bakıda millətçilik zəminində yaradılmış gizli tələbə təşkilatının bir dəstə gənc üzvü həbs edildi. Onlardan Bağır adlı bir tələbəni təcridxanada günyarım ac saxladıqdan sonra Heydər Əliyevin kabinetinə çağırırlar. Günyarım ac qalmış Bağır üzülmüş halda sədr müavininin kabinetinə daxil olur. Heydər Əliyev onu başdan ayağa süzüb soruşur: "-Hə, deyəsən, acsan?" Bağır yazıq-yazıq cavab verir: "- Bəli, acam..." Yeməkxanadan yemək gətizdirib yedirəndən sonra Heydər Əliyev onu pəncərənin qabağına gətirib, 9 May Qələbə bayramı münasibətilə hərbi paradı göstərir: "- Görürsən də, sovet ordusunun gücünü. İndi bu ordunun qabağına çıxmaq olar?!" Etdiklərinin mənasını indi anlayan Bağır cavab verir: "Olmaz!" Bağırın bu cavabından sonra Heydər Əliyev əlilə qapıya işarə edərək deyir: "- Azadsan, çıx get, bala, başını aşağı sal, dərslərini oxu!" Bağır qapıdan çıxanda Heydər Əliyevin arxadan gələn səsi onu bir anlıq dayanmağa məcbur edir: "- Ancaq yadında saxla ha, burada yağlı borşu adama bir dəfə verirlər!"[1]

Xalq yazıçısı Anarın 1998-ci ildə qələmə aldığı "Şəxsiyyətin miqyası" adlı essesində də xatırlanan bu əhvalatda[2] qorxunc rejimin içində özünəarxayın, sərbəst, qadir azərbaycanlı – Heydər Əliyev obrazına xalq sevgisini duymaq çətin deyil. Əlbəttə, bu, lətifələşmiş

---

* Bu barədə irəlidə bəhs olunacaqdır – T.Ə.

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015, s.13-14

[2] Bax: Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.33

əhvalatdır; əsl DTK reallıqları daha sərtdir. Anar Heydər Əliyevi anaraq yazır: “Təkrar edirəm, o idarədəki və o dövrdəki fəaliyyəti haqqında mənim də, cəmiyyətimizin əksəriyyəti kimi bildiklərimiz yox dərəcəsindədir. Ancaq bir nəfərin mənə danışdığı maraqlı bir faktı ilk dəfə burada açmaq istəyirəm. İndi, dünya və quruluş dəyişəndən sonra bu həqiqətin açılması heç kəsə ziyan gətirə bilməz. Odur ki, onun haqqında yalnız indi danışmaq mümkün oldu. Məsələ ondadır ki, sovet dövründə Azərbaycanın bir neçə gənc şairi, yazıçısı, jurnalisti gizli bir təşkilat yaratmaq fikrinə düşüblər, yaradıblar, yaratmayıblar, bilmirəm, hər halda, belə bir niyyətləri olub və onlar hər hansı bir addımı atmazdan əvvəl bu barədə DTK duyuq düşüb, dərhal hamısı həbs edilib. Bu gənclərdən biri mənimlə “Qobustan” toplusunda işləyən istedadlı jurnalist və şair Tofiq Məhərrəmoğlu idi. O vaxt bütün Sovet İttifaqında “əcinnələr ovuna” çıxmışdılar. Hər yerdə asi, dissident axtarırdılar. Bizim bu dəliqanlı cavanların da başına min oyun açıla bilərdi, izləri-tozları qalmazdı. Amma Heydər Əliyevin şəxsi cəsarəti, nüfuzu və riski sayəsində onların heç biri nəinki cəzalandırıldı, hətta çox tez zamanda hamısını azadlığa buraxdılar. Bunları mənə vaxtilə (hələ sovet dövründə) Tofiq Məhərrəmoğlu danışmışdı. Deyirdi ki, Heydər Əliyev bizim hamımızı kabinetinə çağırdı, sütül, cılız cüssəli cavanlar idik. –Sizsiniz bu hökuməti yıxmaq istəyənlər? – deyə güldü – gedin ağlınızı başınıza yığın, öz işinizlə məşğul olun və xalqınıza gördüyünüz xeyirli işlərlə xidmət edin, – dedi”.[1]

Burda Tofiq Məhərrəmoğlu kimi xatırlanan Tofiq Abdin şair, publisist, sonradan 60-cıların məşhur simalarından biri kimi tanınır. Tofiq Abdinin “Şəhərimiz ayaq açır” adlı kitabına yazdığı ön sözdə xalq şairi Fikrət Qoca həmin reallıqların sərt fonunda Heydər Əliyevin uzaqgörən, millətsevər obrazına daha çox diqqət yönəldir: “Təsəvvür edin ki, çox zəhmli bir idarədə, institut tələbələri olan bir-iki qarayanız, bəstəboy, arıq kəndli balası dayanır çox zəhmli və qorxulu görümlü adamların qarşısında. Zər paqonlu zəhmli adam onlara baxıb, gözləri yaşarınca gülmüşdü və: “Bunlar hökuməti yıxmaq istəyir? Qoy yıxsınlar! Buraxın getsinlər” – demişdi. O vaxt bu cavanların hərəsinə bircə il iş kəsilsəydi, kim bilir, onların taleyi necə olacaqdı. Kim bilir, uğurlu, uğursuz – dəxli yoxdu – bu kitabı oxuya bi-

[1] Bax: Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.33

ləcəkdik, ya yox! Arzu edərdik ki, bizim xalqın böyük, zəhmli-zəhmsiz idarə başçıları, əsasən insan taleyi həll eləyənləri təkcə qanun icraçısı yox, həm də öz xalqının oğlu, atası, ağsaqqalı olsun. Gəncliyin elə dövrü olur ki, o zaman gənc bilmir hələ kim olacaq! Hələ öz yerini tapmayıb. Baharda tumurcuqları parçalayan bar kimi öz içinə sığmır... Onların nazına dözmək, qayğısını çəkmək çətin olur, dözüm istəyir. Amma dözməlisən. Çünki bu qərənfil şitili deyil, İNSAN BALASIDI. Sən millət yetişdirirsən. Gərək dözəsən. Adətən elə zəhmli idarədən çıxandan sonra cavanların çoxu sınmış olur. Tofiq Abdin öz yerişini də, gur səsini də və yaradıcılıq yönünü də salamat saxlayıb..."[1]

Bu passajda iki məqama diqqət var: DTK kimi insan talelərini sındırmaqda, çevirməkdə, məhv etməkdə ad qazanmış zəhmli bir idarə sistemi və həmin reputasiyanı qırıb, dəf edib, "millət yetişdirən" Şəxsiyyət, rəhbər obrazı. Amma məsələ burasındadır ki, hadisənin baş verdiyi zaman Heydər Əliyevin özü də yaşlı deyildi; bu onun mütəfəkkir obrazına daha da diqqət cəlb edir.

Elmira Axundova roman-tədqiqatında yazır: "60-cı illərin əvvəllərində Azərbaycan əks-kəşfiyyatı əməkdaşları üçün "başağrısı" olan yeni mənbə – Bakıda yaranan gənclərin gizli təşkilatının üzvlərinin talelərini sındırmamağa və profilaktik tədbirlərlə kifayətlənməyə inandırmaq üçün Heydər Əliyev bəzən bütün natiqlik məharətini işə salmalı olurdu..."[2]

Haqqında yazılanlara sayğıyla yanaşaraq, "yalnız və yalnız yaddaşa bağlı olaraq", bir zamanlar həyatında baş vermiş "çevriliş" barəsində Tofiq Abdinin özü də "Dövlət çevrilişi" adlı publisistik povest qələmə almışdır.[3] Povestdə həbs ərəfəsində və həbs olunduqdan sonra qəhrəmanın düşüncələri, kabinetdən-kabinetə, dindirilmə zamanı keçirdiyi hisslər, xof və bütün bunların səbəbləri gərgin psixoloji ovqatda, bədii şüur axını şəklində təqdim olunur. Günahsızlıqlarına əminlik, amma eyni zamanda həmin "günahsızlığ"ın – milli dil, müstəqillik istəyi, Cənubi və Şimali Azərbaycanın birləşməsi... – yaşadıqları ölkədə nə qədər böyük suç olması qəhrəmanın dü-

---

[1] "Azərbaycan" jurnalı, 2010, № 2, s.159

[2] Bax: Tofiq Abdin. Dövlət çevrilişi (publisistik povest). // "Azərbaycan" jurnalı, 2010, № 2, s.132-161, s.132

[3] Tofiq Abdin. Dövlət çevrilişi (publisistik povest). // "Azərbaycan" jurnalı, 2010, № 2, s.132-161; Əsərdən sitatlar səhifə göstərilməklə bu mənbədən verilir – T.Ə.

şüncələrinin dramatik leytmotivini təşkil edir: "Bu uzun dəhlizlə addımlaya-addımlaya burada vaxtilə dindirilən sənət adamları gəlib keçir fikrimdən və mənə elə gəlir ki, indicə onlardan biri qarşımıza çıxacaq və deyəcək: hara aparırsınız bu tifili, indi ki, 37-ci il deyil?!" (s.154)

Povestdə müəllif Heydər Əliyevin obrazını bilavasitə deyil, dolayısı ilə təqdim edir. Sarsıntı keçirən qəhrəmanın gücü xilaskarı haqqında düşüncələrdən qarşısında acizanə susqunluğa qədər ancaq yetir: "Necə düşünülürsə-düşünülsün, bu bir rus oyunu idi... Bir dəstə Azərbaycan gəncinin həyatının bir azərbaycanlının ixtiyarına verilməsi gənclərdən daha çox, Heydər Əliyev üçün zor idi, təkrar edirəm. Çıx bu çıxmazdan, çıxa bilirsən!" (s.158) Qəhrəman təlaş keçirir: "... o zaman Heydər Əliyev özü də hələ gənc idi. Və bir az öz taleyini və öz həyatını düşünüb daha sərt addımlar ata bilərdi. O da insandır, öz gələcəyini də düşünüb, açıq söyləyirəm: bizim hamımızı qurban verə bilərdi. Ən azından, iş məhkəməyə qədər uzanardı. Bununla da öz işini bitmiş bilib, içindən rahatlanardı. Hər kəsin belə bir vəziyyətdə, belə bir ortamda nə eləyəcəyi onun şəxsi keyfiyyətindən və mərdliyindən asılı olur" (s.158). Təsəlli arayır: "Literaturnaya qazeta"da bir şərqşünas vardı, İqor Belyayev. Yadımdadır, məqalələrinin birində o yazmışdı ki, Heydər Əliyev 19 yaşında Şimali və Cənubi Azərbaycanı birləşdirmək haqqında düşünüb. İndi budur, 20 ildən sonra həmin ideya bu şəkildə təzədən meydana çıxıb..." (s.158) Və sonradan minnətdarlıqla xatırlayır: "Elə ən maraqlısı, bu günə qədər mənimçün müəmmalı qalanlar da məhz bundan sonra başlayır. Qrupumuzdan heç kim cəzalandırılmadı, heç kimi həbs etmədilər, heç kimi institutdan qovmadılar. Mən bunu ilk növbədə Heydər Əliyevlə bağlayıram, o vaxt o, DTK-da rəhbər vəzifədə idi..." (s.158)

Tofiq Abdinin sadəlövh və sonu peşmanlıqla bitən "dövlət çevrilişi" cəhdindən "təxminən on nəfərlik bir qrup", o cümlədən "gələcək elmlər doktoru Bəhlul Abdullayev, Tanrıqulu Əliyev, sonralar Nazirlər Soveti sədrinin müavini olmuş Məmməd Əsgərov"la yanaşı, Mövlud Süleymanlının da adı keçir. Yazıçı Mövlud Süleymanlı Ulu Öndərə həsr etdiyi "Qırx ilin yeddi görüşü" memuarında hadisələri bir qədər fərqli, hətta sanki həmin işin davamı kimi xatırlayır. "1963-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin ikinci kurs tələbəsiydim. Əksəriyyətimiz rayon və

kəndlərdən gəlmişdik. Yadımda deyil, necə seçildik. Bir-birimizi necə anladıq. Günlərin birində ADU-nun 4 nömrəli yataqxanasının bir gizli guşəsində yığışdıq... Hələlik adsız bir təşkilatın bünövrəsi qoyulurdu. İlk növbədə Güney Azərbaycan məsələsi idi. Çıxış yolları araşdırıldı, daha doğrusu, ümidsizliyi qırmaq, Azad olmaq ruhuna böyümək, bir-bir, iki-iki olsa da artıb çoxalmaq üçün addım atmaq, təməl daşı qoymaq. Bir olmağın, birləşməyin əhəmiyyətini və Azadlığın nə olduğunu anlayıb, anlatmaq. Yəni bu taydan o taya gözləri yaşara-yaşara şeir yazmaq, ağlayıb sıtqamaq bəsdir, iş görmək lazımdır. İkinci məsələ, çox sadəlövh görünsə də, Sovet İttifaqının tərkibindən çıxmaqdan ibarət idi..."[1]

Müəllif dövlət təhlükəsizliyi idarəsinə, Heydər Əliyevlə görüşə aparan yolun təfərrüatını yazıçı qələmi ilə, canlı, bütün dolambaclarıyla çatdırmağa çalışır: "Bir il təşkilatlandıqdan sonra o zaman müəllimimiz olan Bəxtiyar Vahabzadənin yanına getdik. Universitetin uzun dəhlizində Bəxtiyar müəllimin başına yığışmışdıq. Çox həyəcanlanmışdı. "- Bura gəlin", - Bəxtiyar müəllim belə deyib, bizi boş auditoriyaya apardı. O vaxt onun hər sözü, hər addımı göz qabağındaydı, daha doğrusu, göz qabağında olmalıydı. Bir neçə dəqiqə heç kəs dinmədi. Bəxtiyar müəllim başını aşağı salıb susmuşdu. Elə bildik ağlayır. Başını qaldırdı, doğrudan da gözləri nəmli idi. "- Zindanlarda çürüyərsiniz, – dedi, - Məsləhət görmürəm. Neynəmək olar. Şərait yetişsin gərək..." Bəxtiyar müəllimi bir daha narahat etmədik..."[2]

Bəs sadəlövhcəsinə olsa da, gənclərin haqlı tələbləri qarşısında məsləhət olan nə idi? Bu məsələyə bir qədər sonra, həmin illərdə millətin əsl lideri kimi formalaşmaqda olan insan, Heydər Əliyev aydınlıq gətirəcəkdi: "- Mənim bu sözümü unutmayın, bunu mən sizin hamınıza demişəm. Ağlınızı başınıza yığın, bu xalqa, bu millətə xeyir verin, elmini ucaldın, tarixini yazın. Rus dilini öyrənin, başqa dillərə yiyələnin. Nə elədiyinizdən xəbərimiz var. Bilmirsiz ki, bu işin ziyandan başqa bir xeyri olmayacaq?! İndi Moskva nəticəni soruşacaq bizdən! Hamısını eşidiblər, bilirlər. Amma mən sizi Moskvaya təqdim etməyəcəyəm. Bunun nə demək olduğunu anlayırsızmı?"[3] Cəsarət, özünəgüvənc və milli uzaqgörənlik – yazıçının qələ-

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, s.24-35, s.28
[2] Yenə orada, s.29
[3] Yenə orada, s.30

mində gənc Heydər Əliyevi səciyyələndirən xüsusiyyətlərdir...

Hər iki əsərdə – Tofiq Abdinin "Dövlət çevrilişi" povesti və Mövlud Süleymanlının "Qırx ilin yeddi görüşü" memuarında "qara maşın" detalı 1937-ci ildən millətin üstünə yeriyən rejimin atributu kimi qabardılır. "Məni araya aldılar, pilləkəni endik... Jurnalistika fakültəsinin tələbəsi Hüseyni də mənim kimi araya almışdılar. İki qara maşın dayanmışdı, hərəmizi bir maşına qoyub apardılar. Hara getdiyimizi bilirdim. Keçən həftə yoldaşlarımızdan bir neçəsini aparmışdılar. Gedib qayıdanlar artıq bizə yaxınlaşmırdılar. Münasibətlər qapanıb ətrafa anlaşılmaz dərin vahimə çökmüşdü".[1] Lakin Tofiq Abdinin qəhrəmanından fərqli olaraq, Mövlud Süleymanlı daha toxdaq, sakit, nikbin görünür. Bunu daha çox əsərin janrı ilə izah etmək olar; memuar bugünün nəzərlərindən, nəticələrdən çıxış edir. Və "sakitlik" yazıçıya Heydər Əliyevi daha yaxından müşahidə etməyə, qorxunc rejimlə onun içində olan azərbaycanlı obrazını qarşılaşdırmağa şans verir: "Qapını ehtiyatla və ehmalca açıb məni içəri saldılar. Qapının ağzında dayanıb otağa göz gəzdirdim, özümü itirmişdim, fikrimdə-düşüncəmdə heç nə yox idi. Çox güclü, şaqraq gülüş səsinə özümə gəldim. Otaq çox böyükdür, yuxarı başda saçlarını arxaya daramış, enlikürəkli bir adam oturmuşdu. "Yaxın gəl!.."[2]

"Yaxınlıq" məqamı insanları doğmalaşdırır; həm də qeyd olunmalıdır ki, bu cəhd Heydər Əliyevin özündən gəlir. "Bir neçə addım gedib yenə dayandım. "- Yaxın gəl!.." Stolun üstündə iri vazada alma qoyulmuşdu. Yaxınlaşdım. "- Alma ye!" "Yemirəm", – dedim, dodağımın altında. "- Otur, görüm!" – Səs dəyişmişdi. Elə zəhmli idi ki, elə bil məni divara çırpdılar. Qorxulu-qorxulu başımı qaldırıb baxdım. Elin-obanın "komissar" dediyi əmimi xatırladım, kövrəldim. Burdan çıxıb qurtaracağıma inanmırdım, ümidim üzülmüşdü artıq..."[3]

Doğmalıq, azərbaycanlılıq məqamı Tofiq Abdinin qəhrəmanının da içindən keçir: "Nə iş idi bütün bunlar, ya rəbbim? Bir ata, bir ana məni bir kənddə böyük bir əziyyətlə böyütmüş, kirpikləri ilə od götürmüş, pambıq tarlalarında üz-gözləri qarsımış, böyük oğul deyərək oxumağa göndərmiş, arxada yeddi uşaq və hamısı da balaca... nədir bunlar: burdan o yana yol olacaqmı? Yoxsa bu yolun sonu bu

---

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, s.24-35, s.29

[2] Yenə orada, s.29

[3] Yenə orada, s.30

yaraşıqlı adamın əlindəmi?"[1] Mövlud Süleymanlının memuarında "yaxınlıq", "doğmalıq" motivi məxsusi qabardılır. Qərbi Azərbaycandan olması, atasının müharibədən qayıtmaması, anasının kolxozda işləməsi... ünsiyyət anını daha da istiləşdirir: "Hardan olduğumu dedim... Bir az ara verdi, bu səssizliyi anlamaq üçün başımı qaldırdım... Mənə baxırdı... O vaxtdan qırx il keçib, mən o baxışları bütün dərinliyiylə indi də xatırlayıram. Bayaq sərtliyinə, zəhminə tab gətirmək mümkün olmayan göyümsov, daha çox yaşıla çalan gözlərində doğmalıq hiss olunurdu... "- Sizə zəhmət çəkənlərin əməyini itirməyin, təhsil alın, biliyinizi artırın. Ağıllı, bilikli gəncliyə xalqın indi daha böyük ehtiyacı var..."[2]

Özü çoxuşaqlı ailədə böyüyən, zəhmətə və ailə dəyərlərinə böyük önəm verən Heydər Əliyev bir azərbaycanlı olaraq həmin mənəviyyatın keşiyində durduğu kimi, onu başqalarından da gözləyirdi. Tofiq Abdin universitet müəllimi Əbülfəz Əliyevin (Elçibəy) mühakiməsinə dair bir epizodu da "Dövlət çevrilişi" əsərinə daxil etmişdir; bu zaman Heydər Əliyev artıq Respublikanın başçısı idi. "Deyirlər ki, o zaman Azərbaycan Respublikası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev Əbülfəz Əliyevin anasını Bakıya çağırtdırıb, onunla oğlu ilə bağlı bir söhbət eləyir... "- Ağbirçək, sizdən bir şey soruşum. Baxınız, sizin bu oğlunuz nədən belə işlər ardınca düşüb? O, Bakıya oxumağa gəlib və müəllimləri də ondan çox razı qalıblar. Onun çox böyük gələcəyi ola bilər. Nədən bu işlərə qol qoyur? Orda-burda dövlətin əleyhinə danışır, gəncləri yolundan azdırır..." Əbülfəz Əliyevin anası təmkinini pozmadan çox sakit, ağbirçəkyana bir tərzdə: "- Siz bizim böyüyümüzsünüz, bizim rəhbərimizsiniz. Sizə çox hörmət edir, inanırlar. Mənim oğlum təmiz qəlbli, dostyana, anasını sevən, qədrini bilən və çox kasıb ailədən çıxan bir kənd uşağıdır. Bunu siz də bilirsiz. Nə oldusa, mənim oğluma, burada, bu şəhərdə... Bakıda oldu, sizin universitetinizdə oldu..." – cavab verir".[3]

Maraqlıdır ki, buna bənzər bir hadisə Hüseynbala Mirələmovun bütövlükdə Qarabağ müharibəsindən bəhs edən "Xəcalət" po-

---

[1] Tofiq Abdin. Dövlət çevrilişi (publisistik povest). // "Azərbaycan" jurnalı, 2010, № 2, s.132-161; s.155

[2] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, s.24-35; s.30

[3] Tofiq Abdin. Dövlət çevrilişi (publisistik povest). // "Azərbaycan" jurnalı, 2010, № 2, s.132-161; s.156

vestində də əksini tapmışdır. Xalqın istəyi ilə Aydəmir kişi "iyirmi beş il əvvəl Heydər Əliyevlə görüşü"nü yada salır. Bakıda institutun ikinci kursunda oxuyan oğlu Ələmşahın yoxa çıxdığını eşidən Aydəmir kişi qarısını da götürüb şəhərə yollanır. Demə, "Bakıda gizli bir təşkilat yaradıblarmış. Deyəsən, indiki Xalq Cəbhəsinin böyüyü də, tanınmış yazıçılardan bəziləri də həmin təşkilatın o vaxtdan üzvləriymiş..."[1] Çox yerə müraciət etdikdən sonra "ümidli cavab" alırlar: "Sizi KQB-nin sədr müavini Heydər Əliyev qəbul edəcək..."

Povestdə yazıçı Heydər Əliyevin xalq nümayəndəsi Aydəmir kişinin nəzərlərindən, xəlqi, müdrik, insanpərvər obrazını təqdim edir: "İkinci gün günortaya yaxın arvadla məni neçə qapıdan keçirib, içəri apardılar. Kabinetdə bizi ucaboy, enlikürək, zəhmli bir oğlan qarşıladı. Oturduğu yerdən durub, qapıya tərəf gəldi. Ədəb-ərkanla əl verib, yer göstərdi və mətləbə keçdi: "- Hə, Aydəmir kişi, paytaxtımıza xoş gəlmisən. Qarabağda nə var, nə yox? Qonşularımızla necə dolanırsınız, mehribançılıqdırmı? Sizin haqqınızda bəzi məlumatları bilirəm. Uzun illər dövlət işlərində çalışmısınız. Zəhmətkeş ailəniz var. Camaat arasında xətir-hörmətiniz kifayət qədərdir. Bəs necə olub ki, Ələmşahın tərbiyəsi ilə məşğul ola bilməmisiniz?"[2] Aydın görünür ki, Heydər Əliyev xalqının psixologiyasına yaxşı bələddir və el qınağı üsulundan istifadə edir. Amma ata-ananın nələr keçirdiyini yaxşı duyaraq, söhbəti nikbin notda bitirir. "Heydər Əliyev bacardıqca sadə dildə danışdı ki, sıxılıb çəkinməyək: "- Arxayın olun ki, Ələmşahın qoluna qandal-zad vurulmayıb. Oğlunuzla sizi görüşdürəcəyəm. Yəqin özü də deyər. Siz də onun başına ağıl qoyun. Deyin ki, Azərbaycanın dilinin də, torpağının da, bayrağının da, ordusunun da qayğısına mən özüm qalacam, onun istək və arzularını yerinə yetirəcəm. O, dərslərini oxusun. Neft Kimya İnstitutu təkcə Azərbaycanda deyil, bütün dünyada adlı-sanlı təhsil ocağıdır. Çalışın ki, gələcəyin yaxşı mütəxəssisi kimi yetişsin. Onu bu gün sizə bağışlayıram..." Hə, o vaxtkı görüşümüz heç vaxt yadımdan çıxmaz. Kişinin haqqı var boynumuzda".[3] Yazıçı ümumiləşmiş şəkildə Heydər Əliyevə xalq sevgisinin səbəblərini göstərməyə çalışır. Ümummilli lider hər bir azərbaycanlı balasına ata qayğısı ilə yanaşmış, gələcəyini düşünmüş, onu Azərbaycan naminə qorumağa,

---

[1] Hüseynbala Mirələmov. Vicdanın cəzası. Bakı, "Nurlar", 2005, s.62
[2] Yenə orada, s.63-64
[3] Yenə orada, s.64-65

doğru yola təşviq etməyə çalışmışdır.

1975-ci ildə Bakıda, Əbülfəz Əliyevin həbsi ilə bağlı "hay-küylü məhkəmə prosesi" barəsində Elmira Axundovanın "Şüşə saray" adlı siyasi detektivində də söhbət gedir. Bir qədər başqa rakursdan: 1993-cü ilin fevralında Əbülfəz Elçibəylə görüşən Heydər Əliyev təxminən 20-25 il əvvəlki hadisələri xatırlayır. "Bu prosesin qeyri-adiliyi onda idi ki, müttəhimlər kürsüsündə Stalindən sonrakı dövrdə az qala ilk dəfə olaraq cinayət törətdiyinə görə deyil, siyasi baxışlarına görə azərbaycanlı ziyalı oturmuşdu".[1] Amma məhz Respublikanın başçısı Heydər Əliyevin sehrli çubuğu ilə hər şey daha yüngül ötüşmüşdü. Universitetin tarix fakültəsinin müəllimi Əbülfəz Əliyevin ətrafında gizli tələbə dərnəyinin yaranması və "çox keçmədən daha bir neçə ali məktəbə yayılması" respublikadakı milli əhval-ruhiyyənin əyani göstəricisiydi. "Görünməmiş iş idi: dərnəklərdə o vaxt olduqca sərt qadağa altında olan mövzular – milli şüurun inkişafı, Şimali Azərbaycanın dövlət müstəqilliyini qazanması yolları, respublikanın SSRİ-nin tərkibindən çıxması, Cənubi Azərbaycanda milli azadlıq hərəkatı müzakirə edilirdi. Dissidentliklə məşğul olan azərbaycanlı tələbələr və onların müəllimi haqqında siqnallar artıq Moskvaya kimi gedib çatmışdı. Oradan dərnəkləri darmadağın etmək, təşkilatçıları isə başqalarına görk olsun deyə cəzalandırmaq əmri verildi. Universitet lərzəyə gəlmişdi. Tarix fakültəsinin tələbələrini bir-birinin ardınca Dövlət Təhlükəsizlik Komitəsinə çağırırdılar..."[2] Amma bütövlükdə təhlükə sovuşdu. Nədən?

Roman müəllifi məxsusi vurğulayır: Əbülfəz Əliyevin "bu həbs və məhkum edilməsinin tarixçəsi ilə bağlı müşahidəçilərin bir çox sualları cavabsız qaldı. Niyə iş üzrə təkcə Elçibəyi mühakimə etdilər, niyə dərnəklərin digər üzvləri məhkəmədən kənarda qaldı və hətta ali məktəblərdən belə xaric olunmadı? Elə Elçibəyin özü də yenidən elmə qayıda bildi, namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi".[3] Əslində bu gün ritorik səslənən həmin suallara cavabı da roman özü verir. Ortada Heydər Əliyev faktoru vardı! "Yalnız Əliyevin nüfuzu Moskvanın məsələni qalmaqal səviyyəsinə qədər şişirtməyinin qarşısını aldı, yalnız o, hökmü müəyyən qədər yumşaltmağı məsləhət görə bilərdi ki, Əbülfəz Əliyevə mümkün qə-

[1] Elmira Axundova. Şüşə saray, Siyasi detektiv. Bakı, Yurd NPB, 2007, s.93
[2] Yenə orada, s.94
[3] Yenə orada, s.95-96

dər az iş kəssinlər. Yalnız o, İttifaq rəhbərliyinə rejim üçün heç bir ciddi təhlükənin olmadığını, bu işin sadəcə gəncliyə xas olan xəyalpərvərliyin və aludəçi sadəlövhlüyün bir təzahürü olduğuna inandıra bilərdi..."[1]

Tarixin ritorik suallarına cavab verib, roman müəllifi yeni, bugünün suallarını qoyur: "Bəs bu onun nəyinə lazım idi? Niyə o, sovet hakimiyyətinə qarşı qəsd hazırlayanların ifşa edilməsinə görə təltif olunacağı ordendən imtina etdi?" Bu kimi Heydər Əliyev şəxsiyyətini yeni obrazda görməyə imkan verən suallar. Çünki bu gün artıq bəlli olur: Heydər Əliyev o zamanlar yalnız respublikanın başçısı, Sovet İttifaqı səviyyəsində nüfuzlu siyasi lider olmayıb, həm də xalqının, millətinin öndəri, lideri idi. Müstəqillik düşüncəsinin yetişməsində Ulu Öndərin tarixi xidmətləri danılmazdır.

Beləliklə, Heydər Əliyevin dövlət təhlükəsizliyi sahəsində çalışdığı illəri ədəbiyyat "milli xilaskar" obrazı ilə yadda saxlamış, onu rejimin özündən fərqləndirməyi bacarmışdır. Yazıçılar onun istər DTK-da, istərsə də Respublikanın rəhbəri kimi Obrazını vahid məcrada, milliyyətçi düşüncənin bütöv təzahürü kimi qavramış; bəzən hətta hadisələrin zamanını dəyişik salaraq (məsələn, Tofiq Abdinin povestində hadisələr 1960-cı illərin əvvəllərində baş versə də, Heydər Əliyev artıq DTK sədrinin müavini kimi göstərilir; Hüseynbala Mirələmovun povestində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdəki hadisələr daha əvvələ, DTK-da sədr müavini olduğu vaxtlara aid edilir), ayrılmaz bir fəaliyyətin reallıqları kimi qələmə almışlar.

Mövlud Süleymanlı memuarında yazır: "Dövlət Təhlükəsizliyi Komitəsinin qorxulu nağıllara bənzəyən qaranlıq, qapalı həyatına Heydər Əliyevin gəlişiylə işıq düşmüşdü və bu işıq nəhayət, bizim də milli düşüncələrimizi işıqlandırmışdı, bu işıqda biz bir-birimizi görməyə başlamışdıq, birliyə səslənirdik. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi vəzifəsinə təyin olunması milli oyanışın daha geniş vüsət almasına səbəb oldu".[2]

---

[1] Elmira Axundova. Şüşə saray, Siyasi detektiv. Bakı, Yurd NPB, 2007, s.96
[2] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, s.24-35; s.31

***

1969-1982-ci illərdə Heydər Əliyev Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycan Sovet Sosialist Respublikasına başçılıq etmiş, rəhbərliyi dövründə Azərbaycan iqtisadiyyatı, sənayesi, kənd təsərrüfatı, elm və mədəniyyəti, ədəbiyyat və incənəsəti inkişaf etmiş, bu dövrdə xalqın ictimai və milli şüuru artmış, müasir dünya səviyyəsinə yüksəlmişdir. Amma maraqlıdır ki, həmin dövrdə(n) Heydər Əliyev ədəbiyyatın yaddaşında heç də kommunist lider, partokrat məmur, yaxud "Moskva emissarı" kimi deyil, əksinə, dissident obrazı ilə yer almışdır. Bəlkə də burda bir qanunauyğunluq gizlənir.

Əjdər Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" kitabında belə bir "olmuş əhvalat" var: "Yazıçıların X qurultayında çıxış edən Heydər Əliyev sovet dövründə Azərbaycan yazıçılarının cəsarətindən söz açıb dedi: "- Əslində o dövrdə elə siz hamınız dissident olmusunuz". Rəyasət Heyətində oturmuş yazıçı Anar ayağa durub, üzr istəyərək Heydər Əliyevin fikrinə qoşuldu: "- Hörmətli Prezident, bir dəfə çıxışınızda dediniz ki, sovet dövründə ən böyük dissident mən olmuşam". Heydər Əliyev məmnun halda Anarın sözünü təsdiqlədi: "- O da doğrudur! O zaman Kommunist partiyası daxilində ən böyük dissident mən idim!" (s.44)

Anar "Şəxsiyyətin miqyası" essesində yazır: "60-cı illərin sonlarında, 68-ci ildə Çexoslavakiya hadisələrindən sonra Mərkəzi narahat edən, nigaran qoyan artıq yalnız Avropanın sosialist ölkələrində deyil, SSRİ-nin müttəfiq respublikalarında belə baş qaldıra biləcək sərbəstlik ("müstəqillik" sözünü dilə belə gətirmək istəmirdilər) meyilləri, millətçilik təzahürləri idi. Bu cür təzahürləri həmişəki tək ilk növbədə Azərbaycanda axtarırdılar. Belə bir zamanda, bu sayaq təhlükələrlə mübarizə aparmaq üçün ən münasib şəxsiyyət DTK generalı ola bilərdi. Moskvada Azərbaycana rəhbərliyi məhz ona tapşırmağı məqsədəuyğun saymışdılar. Bircə şeyi nəzərdən qaçırmışdılar. Heydər Əliyev Mərkəzdə oturub onun təyinatı haqqında qərar verənlərin hamısından ağıllı idi və heç vaxt öz doğma Vətənini – Azərbaycanı, öz xalqını onların ayağına verməzdi. Bu çətin missiyanı lazımi tədbirlərlə həyata keçirmək üçün isə kifayət qədər təcrübəsi və bacarığı vardı. 1969-cu ilin yayında Azərbaycan KP MK-nın Birinci katibi seçiləndən sonra Heydər Əliyev Mərkəzin ondan göz-

lədiyi mübarizəni – millətçilik təzahürlərinə qarşı mübarizəni tamamilə başqa və təhlükəsi daha real bir bəlaya qarşı – qanun pozuntularına, rüşvətxorluğa, əliəyriliyə, ədalətsizliyə qarşı mübarizəyə çevirdi. Və bununla yalnız Azərbaycanın deyil, ümumən SSRİ-nin gələcək taleyinin dəyişməsi üçün ilk addımlardan birini atdı”.[1]

Elmira Axundova altıcildlik roman-tədqiqatının ikinci cildini, qeyd olunduğu kimi, “Hakimiyyət və məsuliyyətin ağır yükü altında (1969-1982)” adlandırmış, Heydər Əliyevin tarixi missiyasını, həyatın və cəmiyyətin bütün sahələrində apardığı inqilabi islahatlara görə “xilaskar” obrazı ilə səciyyələndirmişdir. Əgər bura qədər, DTK sıralarında onun fəaliyyəti milli insanın xilası naminə yönəlmişdisə, bu dəfə daha böyük miqyasda – ətalətə, durğunluğa, staqnasiyaya mübtəla olmuş respublikanın, ölkənin qurtulmasına tuşlandı. Azərbaycan KP MK-nın 5 avqust plenumunda Heydər Əliyevin “V.İ.Leninin anadan olmasının 100 illiyinə hazırlığın gedişi barədə” ənənəvi qəliblərdən kənar, tənqidi ruhda məruzəsi təkcə respublikada deyil, mərkəzdə, Kreml dəhlizlərində, hətta xaricdə əsl partlayış effekti doğurur. SSRİ-də ilk dəfə yüksək kürsülərdən yuxarı partiya sıralarını bürümüş intriqa, rüşvətxorluq, korrupsiya, əxlaqsızlıq hallarından söz açılması, roman-tədqiqatda göstərildiyi kimi, “Röyter” agentliyi, “Azadlıq” radiostansiyası, “Morninq star”, “Keyhan”, “Yeni qəzet”, “Nyu-York tayms” qəzetləri, “Der Şpiqel” jurnalı və s. xarici mətbuatda əks-səda qoparır.

“Bu, bəlkə də, Sov.İKP və bütün SSRİ-nin tarixində ilk dəfə idi ki, rəhbərin yubileyinə bu cür tənqidi notlar üzərində hazırlıq görülürdü. Bunu yalnız Heydər Əliyev kimi dəmir iradəli, böyük cəsarət və güclü ədalət hissinə malik bir adam edə bilərdi” – “sonralar Azərbaycan KP MK-nın katibi işləmiş” Həsən Əziz oğlu Həsənov belə xatırlayır.[2] Elmira Axundova roman-tədqiqatında bir sıra şahidlərin canlı təəssüratlarına yer ayırır. O cümlədən yazıçı Maqsud İbrahimbəyov deyir: “Heydər Əliyev ilk dəfə avqust plenumunda çıxış edəndə, mən Siyasi Maarif evində mərkəzi radio və televiziyanın xüsusi müxbiri kimi iştirak edirdim. Zal ağzınadək dolu idi. Plenumda çıxışı zamanı o elə şeylərə toxundu ki, əvvəllər bu barədə pıçıltı ilə yalnız mətbəxlərdə danışırdılar. Zaldakılar özlərini itirmişdi-

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.34

[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II c., 784 s., s.32

lər. Respublikanın rəhbəri çıxışında, hamının yaralı yeri olan məsələlərdən danışaraq, cəmiyyətin həyatındakı çatışmazlıqları açıq-açığına tənqidə məruz qoydu. O vaxtlar, həqiqətən də, korrupsiya respublikanı dəhşətli vəziyyətə salmışdı..."[1]

Anar yazır: "Əvvəllər də dediyim kimi, 1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi seçildi və yanılmıramsa avqustun 5-də Plenumda böyük proqram məruzəylə çıxış etdi. Bu çıxış bizi – bizi deyəndə mən bu cür düşünən bir çox ziyalılarımızı nəzərdə tuturam – həm təəccübləndirdi, həm kədərləndirdi, həm də sevindirdi... Biz bədii yazılarımızda gördüyümüz, hər gün rastlaşdığımız naqislikləri, əyintiləri, eybəcərlikləri az-çox əks etdirməyə çalışırdıq. Mənim də o vaxt "Molla Nəsrəddin 66" adlı kəskin satirik hekayələr silsiləm çıxmışdı. Amma bir var bütün bunları bədii yazıda, obrazlar vasitəsiylə, adsız-ünvansız deyəsən, bir də var ki, yüksək partiya kürsüsündən, konkret adlar çəkərək, tam açıqlığıyla, sərtliyi ilə söyləyəsən. On altı il sonra "aşkarlıq" adıyla təbliğ olunmağa başlayan bir prosesin ilk təməli Azərbaycanda Heydər Əliyevin bu tarixi çıxışıyla qoyulurdu – desək yanılmarıq..."[2]

Yazıçı Elçin 1995-ci ildə qələmə aldığı "Tarixlə üz-üzə dayanmış adam" adlı "portret cizgiləri"ndə qeyd edir: "...nəhayət ki, vaxt tapıb bu yazını başlamaq istəyəndə xəyal məni birdən-birə düz iyirmi altı il bundan əvvələ –1969-cu ilin iyul ayına apardı. O vaxt mən cavan bir aspirant idim, yay istirahətinə Kislovodska getmişdik və orada eşitdik ki, Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilib. Yaxşı yadımdadı, bu xəbərin özü qəribə bir yenilik əhvali-ruhiyyəsi gətirdi, yeni ümidlər yaratdı, çox qısa bir müddətdən, xüsusən, avqust plenumundan sonra, respublikada elliklə bir nikbinlik yarandı..."[3]

Həmin "nikbinlik" epopeyasını Elmira Axundova roman-tədqiqatın on beş fəslində həyatın, mədəniyyətin və xalq təsərrüfatının bütün sahələrində geniş və təfərrüatlı işıqlandıraraq "milli lider" obrazını hərtərəfli təqdim etməyə nail olur.[*] Müəllif 1990-cı ilin no-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II c., 784 s., s.36

[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.36

[3] Elçin. Tarixlə üz-üzə dayanmış adam // Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild. Bakı, Çinar-Çap, 2005, s.239-248; s.239

[*] Əsər haqqında hazırkı kitabda ayrıca söhbət gedir, bax: Dahiyə layiq bədii-sənədli epopeya

yabrında, ilk görüşü zamanı Ulu Öndərə: "ümumiyyətlə, bəyan etdiyi yüksək idealları həyatda pozduğu hallar olubmu?" sualını verir və belə cavab alır: "Əlimi ürəyimin üstünə qoyub deyirəm: heç vaxt pozmamışam! Mən uzun ömür yaşamışam, 13 il respublika partiya təşkilatına rəhbərlik etmişəm – namusla xidmət etmişəm, xalqımın mənəvi təmizliyi uğrunda mübarizə aparmışam... Mən xalqım qarşısında təmizəm! Bu da mənim ən böyük sərvətimdir".[1]

Akademik Ramiz Mehdiyev yazır: "Bütövlükdə 1970-1980-ci illərdə respublikanın inkişaf modelinin səciyyəvi cəhətlərindən biri həyatın ayrı-ayrı sahələrinin kompleks şəkildə inkişafı, irəliyə doğru harmonik hərəkətin təmin edilməsi idi. Heydər Əliyevin nəzərində sosial-iqtisadi inkişaf konsepsiyasının təməl daşı belə bir müddəadan ibarət olmuşdur ki, istənilən iqtisadi artım həmişə xalqın sosial-iqtisadi ehtiyaclarının təmin edilməsi, insanların həyatının yaxşılaşdırılması məqsədlərinə tabe olmalıdır. Təsadüfi deyildir ki, 1970-1980-ci illərdə qısa müddətdə sürətli iqtisadi artım sosia sahənin də inkişafına təkan vermiş, həyat səviyyəsində və tərzində kəskin dəyişikliklərə səbəb olmuşdur".[2]

Heydər Əliyev həyata keçirdiyi quruculuq proseslərinə bilavasitə yazıçıları da cəlb edir, sanki görülən işlərin miqyas və pafosuna şahid olmağa çağırırdı. Səfər təəssüratlarından birində elə beləcə də görürük: "- Sizi bura çağırmaqda məqsədim səfərimiz barədə təəssüratınızı öyrənməkdir. Nə gördünüz? Nə eşitdiniz? Nələrin şahidi oldunuz? Mənim üçün bunlar çox maraqlıdır. Siz yaradıcı, aydın zəkalı insanlarsınız. Gözləriniz iti, müşahidələriniz dəqiqdir. Xahiş edirəm, buyurun, rəy açıqlayın..."[3] Roman, povest, hekayələrdə olmasa da, həmin səfərlər, Ümummilli liderin obrazına bugün memuarlarda(n) nəzər salmağa imkan verir. Səfərlərdə, görüşlərdə Heydər Əliyevi müşayiət edən yazıçılar müxtəlif portret cizgilərinə diqqət yetirmişlər.

Yazıçı Vidadi Babanlı "Unutmadığım görüşlər" xatirə-oçerkində Heydər Əliyevi qızğın pambıq mövsümündə müşahidə edir və

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II c., 784 s., s.777

[2] Ramiz Mehdiyev. Dövlət müstəqilliyi: Heydər Əliyev fenomeni və müasir dövr // Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb nəşriyyatı, 2016, s.7-33; s.12

[3] Vidadi Babanlı. Unutmadığım günlər (Heydər Əliyev haqqında xatirələrim) // "Azərbaycan" jurnalı, 2007, № 2, s.124-135; s.128

bu zaman iki cəhətə məxsusi diqqət çəkir: Azərbaycan KP MK birinci katibinin rəsmi-parad qəbulu, məmurlarla rəftarına və sadə xalqla ünsiyyəti, davranışına. “Elə belə də oldu. Heydər Əliyev öz vaqonunun pillələri üstündə görününcə, cərgələr pozuldu. Gül-çiçəkli uşaqlar hərəkətə gəldilər. Biri-birilərini qova-qova Heydər Əliyevi dövrələdilər. Hədiyyələrini növbə ilə ona təqdim etdilər. Heydər Əliyev balacaların kimisinin üzündən öpdü, kimisinin başını sığalladı. Sonra rayon təşkilatlarının başçıları, ağsaqqallar və müəllimlər görüşə tələsdilər. Heydər Əliyev əlavə təmtarağa şərait yaratmadı. Hamı ilə ümumi şəkildə salamlaşıb, yola davam etməyə göstəriş verdi. Təyinatlı maşınlara doluşduq. “Çayka”ların, “Volqa”ların, “Qaz-51”-lərin, “Jiquli”lərin işə düşmüş mühərrikləri sabahın sakit ovqatına xələl qatdı. Uğultuları ətraf evlərdə hələ şirin yuxuda olanları da oyatdı...”[1]

Görünür ki, təbii xalq sevgisinə qarışmış hardasa saxta dəbdəbə rəhbərin ürəyincə olmur; bunu oçerkin növbəti səhifəsində oxuyuruq: “Yenə də al günəş üfüqdən təzəcə baş qaldırırdı. Uzaqənginliklər tünd qırmızı rəngə boyanmaqdaydı. Muğan düzündə gecələmiş seyrək duman ətəyini ehmal-ehmal dəstələyib göyə çəkilirdi. Çöllərə gümüşü şeh düşmüşdü. Yolumuz Sabirabada idi. Bərdə səfərimizdəki təmtəraq burda gözə çarpmadı. Xüsusi hazırlıqla pişvazımıza çıxanlar olmadı. Yəqin ki, göstəriş belə idi. Yevlaxdakı hay-küydən Heydər Əliyevin xoşlanmadığı xəbəri qulağımıza çatmışdı. (Deyilənə görə, tədbir təşkilatçılarının üzü möhkəm danlanmışdı) Sakitcə maşınlara əyləşdik. Birbaşa tarla düşərgələrinə yollandıq...”[2] İki lövhənin müqayisəsi yalançı şöhrətdən uzaq olan Heydər Əliyev xarakterinin həqiqi məzmundəricəsi və gücünü nümayiş etdirir.

Heydər Əliyevin məmurlara münasibəti sərt, ciddi və konkretdir; bəyəndiyini təqdir edir, səhlənkarlığı, nöqsanları, yarıtmazlığı yerindəcə ifşa edir. “O, iclası başlanğıcdan tənqidi müstəviyə yönəltdi. Pambıq toplanışının yarıtmaz təşkilində kolxoz sədrlərini, rayon rəhbərlərini ciddi tənqid etdi. İşdə intizamsızlıq halları ilə rastlaşdığını bildirdi. Böyük zəhmətlə becərilmiş məhsulun yerə tökülməsini, keyfiyyətini itirməsini ziyankarlıq adlandırdı. Öz növbəsində nəyəsə açıqlama vermək istəyən rayon başçısının isə sözünü əsə-

---

[1] Vidadi Babanlı. Unutmadığım günlər (Heydər Əliyev haqqında xatirələrim) // “Azərbaycan” jurnalı, 2007, № 2, s.124-135; s.126

[2] Yenə orada, s.127

bi sərtliklə kəsib, "Əfəl adamsan. Vəzifənin öhdəsindən gələ bilmirsən. İşindən çox narazıyam" – dedi. Bu kəskin ifadələrdən rayon başçısı sarsıldı. Sifəti gah ağarıb, gah qaraldı. O dərəcədə çaşdı ki, müvazinətini itirdi. Az qaldı xitabət kürsüsündən yerə yıxılsın..."[1]

Bu yerdə yazıçı insan psixologiyasını yaxşı bilən Heydər Əliyevin həssaslığına, sərt olduğu qədər də istiqanlığına diqqət çəkir: "...Heydər Əliyev gərginliyin qarşısını tezcə aldı. Mülayim rəftarla, zarafatla əsəb hovunu yumşaltdı. Salon rahat nəfəs çəkdi. Çıxışçı özünü tarazlayıb, sözünə davam etdi..."[2]

Heydər Əliyevin xalqla təması doğmalıq üstündə köklənib: "Heydər Əliyev hər yerdə bizim önümüzdə gedirdi. Üst-başının toz-torpağa bələnəcəyinə əhəmiyyət vermir, şax-şəvəlləri yara-yara tarlanın içərilərinə girir; kolxozçularla iş əsnasında görüşür, hal-əhval tutur, problemlərini elə oradaca öyrənirdi. Şirin söhbətlə bərabər, belinə önlük bağlayıb özü də pambıq yığırdı. Və beləcə, adi adamlarla qaynayıb-qarışır, səmimiyyətə, açıq söhbətə körpü salırdı..."[3] Hətta rəhbərin xalqa bağlılığını, ünsiyyət istedadını qabardaraq bəzən yazıçı məmurlara öz "yad" münasibətini də gizlətmir: "İşlərlə, vəziyyətlə bu sayaq tanışlıqdan sonra hər briqadanın öz "tarla çardağı" altında məsləhət-məşvərət iclası başlanırdı. İclasların gedişinə də Heydər Əliyev bilavasitə özü rəhbərlik edirdi. Böyür-başında fırfır fırlanan, yanından bir addım belə uzaqlaşmayan raykom katibinə, sırtıq kolxoz sədrlərinə irəli durub söz deməyə aman vermirdi. Kolxozçularla söhbəti elə qurur, elə səmtə yönəldirdi ki, yerli rəhbərlərin müdaxiləsinə, nəsə söyləməsinə ehtiyac yaranmırdı. Tarla içində, pambıq toplaya-toplaya edilmiş xoş gap-gələci öz bəhrəsini əyani göstərirdi. Briqadirlər, manqabaşçıları, sıravi zəhmətkeşlər bir-birinin ardınca ortaya çıxıb məsələ barədə rəy bildirir, dil-dil ötürdülər. Sanki Mərkəzi Komitənin birinci katibi, respublika başçısı qarşısında deyil, adi kolxoz yığıncağında danışırdılar..."[4] Bu, Heydər Əliyevin insanların qəlbinə nüfuz etmək, onu dilə gətirmək məharətindən xəbər verir.

Yazıçı, eyni zamanda zəhmətkeşlərlə görüşlərdə Heydər Əli-

---

[1] Vidadi Babanlı. Unutmadığım günlər (Heydər Əliyev haqqında xatirələrim) // "Azərbaycan" jurnalı, 2007, № 2, s.124-135; s.128

[2] Yenə orada, s.128

[3] Yenə orada, s.126

[4] Yenə orada, s.124-135; s.126-127

yevin natiqlik məharətinə, həm də adi bacarıq kimi yox, çoxlarından fərqli olaraq, bədahətən natiqlik istedadına diqqət yetirir: "Gəzdiyimiz bütün kolxozlarda, briqada və manqalarda bu hal eynən təkrarlandı. Amma çox qəribə idi ki, Heydər Əliyev heç yerdə özünü təkrarlamırdı. Bir dəfə dediyini dönüb bir də demirdi. Həmən mövzunu tamam yeni məcraya yönəldir, başqa formada dilə gətirirdi. Onun tükənməz söz ehtiyatına, səlis natiqlik qabiliyyətinə heyran qalmaya bilmirdin..."[1]

Bu gün Heydər Əliyevin mütəfəkkir obrazı haqqında düşünərkən, yazıçılar o illərdəki rəsmi parad mənzərələrini, "keçici bayraq" nümayişlərini, hər cür qələbə görüntülərini də dərk etməyə, tarixi proseslərin eyni bir şəxsiyyətin iradəsi və idarəsi altında cəmləşmiş görünən və görünməz tərəflərinə nüfuz etməyə çalışırlar. "Tarixlə üz-üzə dayanmış adam" essesində Elçin yazır: "Bu mənada yetmişinci illərdəki, səksəninci illərin əvvəllərindəki "sosialist əməyi qələbələri"nin, "qızıl bayraqlar"ın arxasında da, ilk növbədə, xalqın milli özünütəsdiqi dayanırdı və bir neçə il əvvəl mən bu barədə yazmışdım. O "əmək qələbələri", "qızıl bayraqlar", respublika bayrağına taxılan o ordenlər böyük və dövrü üçün çox cəsarətlə yaradılmış aysberqin görünən hissəsi idi, mühümü, vacibi, əsası isə, yəni xalqın, hərgah belə demək mümkünsə, gizli özünütəsdiqi isə həmin aysberqin görünməyən, suyun altında qalan hissəsi idi..."[2] Aysberqin zahiri tərəfinə yazıçı respublikanın beşilliklərdəki zəfər yürüşlərini yozursa, əsl dərində qalan təmələ Heydər Əliyevin həyata keçirdiyi real milliləşmə tədbirlərini aid edir.

Respublika başçısının ölkədəki parad əhval-ruhiyyəsinə nə qədər vaqif olması barəsində publisist-yazıçı Mark Verxovski də qələmə aldığı maraqlı bir xatirədə söz açır. Yazıçı çiskinli bir mart günündə təsadüfən seçiciləri ilə görüşə çıxmış Heydər Əliyevin nitqini eşidir. Qucağında uşaq olduğundan, kütləni yarıb ön sıralara irəliləməyə nail olur. Bir anlıq yaranmış sükutdan sanki bəhrələnərək uca səslə sualı olduğunu bildirir. Amma respublika başçısının: "- Buyurun, cavan oğlan", – deyə gümrah səsindən karıxır və səhərdən bəri içini gəmirən sualı verir: "- Mümkünsə, deyin, Heydər Əliyeviç!

---

[1] Vidadi Babanlı. Unutmadığım günlər (Heydər Əliyev haqqında xatirələrim) // "Azərbaycan" jurnalı, 2007, № 2, s.124-135; s.127

[2] Elçin. Tarixlə üz-üzə dayanmış adam // Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild. Bakı, Çinar-Çap, 2005, s.239-248; s.242-243

Respublikada kimsə havanın dəyişməsinə təsir göstərə bilərmi? Axı necə olsa, bugün seçkidir, bayramdır, hava isə zəhər kimidir...” Hər hansı məişət səciyyəli konstruktiv bir sual əvəzinə, replikanı eşidəndə kütlə arasına öldürücü bir sükut düşür; elə ki, hətta damcıların tıppıltısı da əks-səda verir. “- Demə, siz yaman zarafatcılmışsız, cavan oğlan! - Amma çox təəssüf ki, Siyasi Büro belə, havaları dəyişməyə qadir deyil”, – deyə birinci katib zarafatla cavab verəndə, kütlə rahat nəfəs alır və eyni zamanda yekdil xalq gülüşü ətrafı bürüyür. Heç də cavan olmayan “zarafatcıl adam”ı əhatələmiş cangüdənlər “təhlükə”nin sovuşduğuna sevinib, rəğbətlə onun kürəyinə toxunurlar. Yaranmış xoş situasiyadan razı qalan Heydər Əliyev ayrılarkən müsahibi ilə bir daha gözləşir və “cavan oğlan” bu gözlərdəki çoxmənalı təbəssümü tutur.[1]

Rayonlara səfərlərində Respublika rəhbəri onu müşayiət edəcək ziyalı heyətini özü seçirdi. Məsələn, Vidadi Babanlı xatırlayır ki, haqqında söz açdığı səfərdə bəstəkarlar, rəssamlar, jurnalistlər, fotoreportyorlar arasında yeganə yazıçılar Nurəddin Babayev və o özüdür. Və qeydə alır: “Yığımın gedişi, ümumi vəziyyətlə maraqlandıq. Cib dəftərçəmizə müəyyən qeydlər etdik. Fotoreportyorlar şəkillər çəkdilər. Jurnalistlər müsahibələr apardılar. Rəssamlar eskizlər götürdülər. Bəstəkarlar nəsə qeyd etdilər...”[2] Başqa bir səfərdə Heydər Əliyev daha çox cavanlara üstünlük verir və gənc yazıçıların müşahidələri də tam başqadır. Məsələn, Mövlud Süleymanlı “Qırx ilin yeddi görüşü” əsərində belə xatırlayır:

“Vaxt o vaxt idi ki, yazdığımız şeirləri, hekayələri milli soyadımızla yaza bilməzdik, gizli qadağa qoyulmuşdu. Və gizli qadağaların əslində daha qorxulu olduğunu nəzərə alsaq, o günlərin sıxıntılarını anlamaq o qədər də çətin deyil...

Azərbaycan Yazıçılar İttifaqının sədri İmran Qasımov bizi tanış etdi. Bir-bir qalxıb özümüzü təqdim etdik:

- Nüsrət Kəsəmənli.

Mətbuat nümayəndələri, ittifaqın müxtəlif yerlərindən gəlmiş qonaqlar, jurnalistlər, kinooperatorlar, teleoperatorlar maraq içindəydilər. Bir anlıq sükutdan sonra Nüsrətin soyadını Heydər Əliyev

---

[1] Марк Верховский. Встреча с Гейдаром Алиевым. // «Литературный Азербайджан», 2016, № 5, с.74-75

[2] Vidadi Babanlı. Unutmadığım günlər (Heydər Əliyev haqqında xatirələrim) // “Azərbaycan” jurnalı, 2007, № 2, s.124-135; s.126

də təkrar etdi.

- Həə, Kəsəmənli... Nə deməkdir Kəsəmənli?

- Kəndimizin adıdır.

- Oldu, Kəsəmənli...

Sırayla oturmuşduq. Sabir qalxdı:

- Sabir Rüstəmxanlı!

Heydər Əliyev Sabirin soyadını da təkrar etdi.

- Hə, Rüstəmxanlı!

Mətbuatda "oğlu", "xanlı", "lı-lü" soy-famil sonluğunu yaxın buraxmayanların bəziləri də müşavirədə iştirak edirdilər. Çoxunu hətta tanıyırdıq da. Onların hamısı ləzzət içində gülümsəyirdilər. Yəqin düşünürdülər ki, indi ciddi şəkildə tapşırılacaq ki, yığışdırın bu cür familiyaları. Hamı gərginlik içində gözləyirdi.

- Səyavuş Sərxanlı.

Heydər Əliyev gülümsədi:

- Hə, Sərxanlı – xanlı!

Mən ayağa durdum:

- Mövlud Süleymanlı.

- Oldu, sağ olun, əyləşin!"[1]

Bu lövhədə "aysberq"in o biri tərəfi aydın şəkildə görünür; lakin bu barədə heç kəs danışmır. Epizodu olduğu kimi, bütün psixoloji gərginliyi ilə təqdim etməklə yazıçı Heydər Əliyevin işdə, əməldə məhz kimin yanında olduğunu cızmağa çalışır: "Müşavirədən bir müddət sonra İmran müəllim bizi qəbul etdi: "-Mən yoldaş Heydər Əliyevin tapşırığıyla sizi bir də çağırtdırdım. İstəyirəm onun sözünü sizə çatdırım. Heydər Əliyev dedi ki, müşavirədə iştirak edən gənc yazıçılardan muğayat ol, nə problemləri olsa həll et. Yaxşı uşaqlardır". Doğrudan da, elə o ərəfədə evlə təmin olunduq, maşın aldıq, hərəmiz bir yerdə işləyirdik. Bir yazmaq qalırdı. Və doğrudan da böyük həvəslə, ruh yüksəkliyilə yazılarımızı yazırdıq..."[2]

Özünü Kommunist Partiyası daxilində "dissident" adlandıran Heydər Əliyev sovet rejimi içrə dissidentizmi mədəniyyət quruculuğunda, ədəbiyyat və sənətdə bir növ himayə edirdi. Çünki xalqın mənəviyyatının, milli mənliyinin özünü biruzə verməsi məhz bu sahələrdə qabarıq idi. Anar yazır: "Özümüzün əli ilə özümüzə vurulan

---

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.33-34
[2] Yenə orada, s.34

zərbələrin bir ucu Mərkəzi Komitənin rəhbərinə gəlirdi və o, bacardıqca bu zərbələrin qarşısını almağa, ya heç olmasa yumşaltmağa çalışırdı. Məhz buna görə də yüksək kürsüdən əhli-qələmlərimizdən biri başqa birisi haqqında "filankəs də bizim Soljenitsınımızdır" (yəni o vaxtkı anlayışa görə düşməndir, təqib olunmalıdır) deyəndə, başqa birisi "toplu", yaxud "önəmli" sözlərini işlədənləri "pantürkist" adlandıranda bu danoslara ustalıqla, tədbirlə reaksiya vermək lazım gəlirdi və belə bir təmkinli siyasətin nəticəsində Azərbaycanda sənət adamları nəinki dissident kimi təqib olunur, təqiblərə məruz qalırdı, əksinə, onların Moskva, Leninqrad yazıçılarının əsərləri qədər cəsarətli, ifşaedici yazıları himayə edilirdi. Xatırlayıram ki, yalnız Moskvanın deyil, Pribaltika kimi sərbəst, müstəqil düşüncəyə alışmış regionların ziyalıları belə, bizim bəzi kitabları oxuyanda, tamaşa və filmlərimizi görəndə, onların yasaqlanmamasını biləndə təəccüb qalırdılar".[1]

Ümumən, məşhur 60-cılar ədəbiyyatının elə bir nümayəndəsini tapmaq çətindir ki, 1970-1980-ci illərdə respublika rəhbərinin dolayısı ilə dəstəklədiyi ədəbiyyat və sənət mühitinin pozitiv təsirini yaradıcılığında hiss etməsin. Ulu Öndərin bu barədə xatırlatması həmin həqiqəti dürüst ifadə edir: "Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq. Mənə sual verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox idi? Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissident axtarmırdıq. Təbiidir ki, əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. Məsələn, əgər o illər, 60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq..."[2]

Yazıçı İsa Muğanna "Həyatımdan səhifələr" adlı memuarında "Ulu Öndərimiz Heydər Əliyevin dövründə mənim xoşbəxtliyim

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.35
[2] Yenə orada, s.48-49

başlanır" – deyə qeyd edir: "Amma xoşbəxtlik birdən-birə yaranmadı. Çox dolaşıq, o qədər də anlaşılmayan bir sarsıntı üz verdi".[1] Yazıçı Heydər Əliyevin milli kinonun inkişafına nə dərəcədə önəm verdiyinə, o sıradan bu məqamda sənətçilərin yanında olmasına dair iki epizod yada salır.

1970-ci ildə "Ulduzlar sönmür" ("Doktor Nəriman") filminin Mərkəzi Komitədə birinci baxışından sonra ssenari müəllifi İsa Hüseynovu Moskvanın təhriki ilə "Azərbaycan gəncliyini "nərimanlaşdırmaq" ideyasına görə suçlayırlar. Heydər Əliyevin tapşırığı ilə "maloye büro"da ("kiçik büro" – red.) əsərin müzakirəsi keçirilir və İsa Hüseynovu Tağıyev obrazını idealizə etməkdə günahlandırırlar. Lakin yazıçı çıxış edərək: "Hətta böyük sənətkarlar da yalançı sosiologiyaya uyaraq səhvlər edirlər. Yalançı sosiologiya ədəbiyyatı məhv edir" – deyir. Mirzə İbrahimov da bunu başıyla təsdiqləyir. İsa Muğanna bu hadisədə Heydər Əliyevin ədalətli və prinsipial mövqeyini belə xatırlayır: "İslas qurtardı. Səhərisi birinci katibin referentindən eşitdim ki, Heydər Əliyev işə gələn kimi dünənki "maloye büro"nun stenoqramını istəyib, mənim çıxışımı oxuyan kimi əlini stola vurub "On prav!" ("O haqlıdır!" – red.) – deyib və azərbaycanca göstəriş verib: "Filmi bütün kinoteatrlara verin, nə qədər gedir getsin. Mane olmayın". Beləliklə, bütün büro üzvlərinin təqsirnamələri kənara atıldı, ədalət bərpa olundu. "Ulduzlar sönmür" filmi Bakının bütün kinoteatrlarında qırx gün nümayiş etdirildi..."[2]

İkinci epizod "Nəsimi" filminin çəkilişləri ilə bağlıdır. Bədii filmin çəkilməsi ideyası Heydər Əliyevə məxsus olduğu kimi, ssenarisini də İsa Hüseynova şəxsən tapşırır. Bir neçə ay sonra ssenari hazır olsa da, çəkiliş ləngiyir. "Aradan bir neçə ay keçəndən sonra eşitdim ki, Heydər Əliyev mədəniyyət şöbəsinin müdiri Azad Şərifovu çağırıb "Nəsimi" filminin nə vəziyyətdə olduğunu soruşub. Şərifov deyib: "U menya bolşiye somneniya po povodu ssenariya".[*] Heydər Əliyev qəzəblənib: "Mən filmi gözləyirəm, a vı vsyo yeşşo somnevayetes", – deyib. Həmin gün SSRİ Kinomatoqrafiya Komitəsinin sədrinə zəng vurub, ssenarinin vəziyyətini soruşub, müsbət cavab alıb".[3] Yazıçı şəxsən özü gedib təcili ssenarini gətirməli olur

---

[1] Muğanna İ. Həyatımdan səhifələr// Azərbaycan, 2010, № 7, s.114-157; s.141
[2] Yenə orada, s.142
[*] Tərcüməsi: "Filmin ssenarisi məndə şübhə doğurur" – red.
[3] Muğanna İsa. Həyatımdan səhifələr // Azərbaycan, 2010, № 7, s.114-157; s.142

və Heydər Əliyevin daimi dəstəyi ilə film Bakıda, Naxçıvanda, Özbəkistanda Xivə şəhərində uğurla çəkilib başa çatır. İsa Muğanna xatırlayır: "Ulu Öndər filmi qəbul edəndə məni yanında oturtmuşdu. Baxış – "prosmotr" qurtarandan sonra xeyli sükut oldu. Nəhayət, Ulu Öndər dillənəndə mənə bir sual verdi. "- Baş ideya nədi?" Dedim: "Bu əsərdə bütün detallar baş ideya ilə – kamil insanla bağlıdır". Ulu Öndər: "Kamil insan, – deyə təkrar etdi və əlini mənə uzatdı: - Təbrik edirəm".[1]

Heydər Əliyevin yüksək bədii zövqü ona həmişə dövrün dar ideoloji tələblərinin fövqündə durmağa imkan vermişdir. "Nəsimi" filmi ilə bağlı Əjdər Olun kitabında da bir əhvalat var: "Nəsimi" filminə rəsmi baxışdan sonra respublikanın başçısı Heydər Əliyev salonda onun yanında oturmuş "Azərbaycanfilm"in o zamankı direktoru Adil İsgəndərovdan soruşur: "- Nəsimini oynayan bu cavan oğlana (*Rasim Balayevə*) heç olmasa on min manat qonorar verə bilmisiz?" Ağır taxtalı Adil İsgəndərov əlinin baş barmağı ilə arxa tərəfə işarə edərək deyir: "- Xeyr, Heydər Əliyeviç! On min verə bilmədik. Onu o tərəfdə verirlər". Heydər Əliyev soruşur: "-Harada, Moskvada?" Adil İsgəndərov özünəməxsus təmkinlə cavab verir: "- Yox, bir az da o tərəfdə!" Adil İsgəndərovun xaricə işarə etdiyini başa düşən Heydər Əliyev kapitalist dünyasına ideya düşməni kimi baxmağa məcbur olduğundan üstünü vurmur".[2]

Başqa bir lətifədə isə kommunist liderin sənəti ideologiyadan dürüst ayırdığı və yüksək dəyərləndirdiyi özünəxas yumorla əks olunmuşdur: "Azərbaycan Kommunist Partiyasının I katibi Heydər Əliyev tanınmış rəssam Səttar Bəhlulzadənin döşünə orden taxanda deyir: "- Səttar Bəhlulzadə, sizi təbrik edirəm, amma bir məsələni deyim... Siz heç bir Siyasi Büro üzvlərinin şəklini çəkmirsiniz..." Səttar Bəhlulzadə cavab verir: "- Heydər Əliyeviç, mən təbiət rəsmləri çəkirəm. Layiq deyiləmsə, hələ gec deyil, bu ordeni mənə verməyə də bilərsiniz". "- İşində ol", – deyə Heydər Əliyev gülümsəyir".[3]

Elçin 1992-ci ildə qələmə aldığı "Dünya axirət əkini..." essesində yazır: "Dəfələrlə bunun şahidi olmuşam ki, Heydər Əliyev teatr tamaşalarına baxıb və qurtardıqdan sonra, səhnə arxasında yara-

[1] Muğanna İsa. Həyatımdan səhifələr // Azərbaycan, 2010, № 7, s.114-157; s.145
[2] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015, s.16-17
[3] Yenə orada, s.18

dıcı kollektivlə görüş keçirib və heç bir mübaliğəyə yol vermədən deyim ki, yüksək səviyyəli professional sənətşünas kimi tamaşanın təhlilini verib. Orasının da şahidiyəm ki, həmin görüşlərdən sonra yaradıcı kollektivin həvəsi birə-on artırdı..."[1]

Anar 1998-ci ildə Ulu Öndərə həsr etdiyi esseni "Şəxsiyyətin miqyası" adlandırmışdır. Amma daha əvvəl həmin metaforaya Elçinin essesində rast gəlirik. "Lakin şəxsiyyətin miqyası cəmiyyətin ideoloji-inzibati sərhədləri, çərçivələri ilə məhdudlaşdırıla bilməz. Bu baxımdan mən Heydər Əliyevin son dövr fəaliyyətindəki (və ümumiyyətlə, həyatındakı!) ideoloji dəyişikliyi təbii hesab edirəm" – deyə qeyd edərək, yazıçı Ulu Öndərin universal sənət baxışlarına dair daha bir misal gətirir: "Yadıma gəlir, 1976-cı il idi, onda lap cavan bir yazıçı idim və Yazıçılar İttifaqına yenicə katib seçilmişdim. Moskvada Səməd Vurğunun anadan olmasının 70 illiyini keçirirdik və sonra Daimi Nümayəndəliyimizdə Yubiley iştirakçıları üçün kiçik bir qəbul düzəltdik. Adamların sayı az idi – 30-35 nəfər, amma kimlər idi: Leonid Leonov kimi "canlı klassik"dən tutmuş o zamanın böyük "ədəbiyyat generalları" – Georgi Markov, Aleksandr Çakovski, Nikolay Qribaçovacan rus ədəbi ictimaiyyətinin "rəsmi" və qeyri-rəsmi ən irəlidə gedənləri. Heydər Əliyev də orada idi və söhbətləri, çıxışları ilə miz arxasında əyləşənlərin, xüsusən "ədəbiyyat generalları"nın çoxundakı "böyük qardaş" təkəbbürünü sözün əsl mənasında məhv etdi və o danışdıqca, həmin "ədəbi generallar" göz-görəti kiçilirdi..."[2]

Yazıçı ürəkdən heyrət edir: "Həmişə öz-özümə fikirləşəndə, təəccüb, bəzən hətta heyrət etmişəm ki, Heydər Əliyev kimi ucqar bir yerdə boya-başa çatıb təhsil alasan, uzun illər boyu DTK kimi sənətdən, yaradıcılıq mühitindən uzaq bir yerdə işləyəsən və bu dərəcədə də ədəbi-estetik təfəkkür tərzinə malik olasan..."[3] Amma o da qeyd olunmalıdır ki, həmin mülahizənin müəyyən dəqiqləşməyə hacəti var. Elmira Axundova roman-tədqiqatında Heydər Əliyevin uşaqlığı və gəncliyinin kifayət qədər ədəbi-mədəni mühitdə keçdiyini təsvir edir. Digər tərəfdən, məhz DTK-da çalışdığı ağır illərin təcrübəsi tamamilə yeni ictimai-siyasi ab-havanın təmsilçisi olan Hey-

---

[1] Elçin. Dünya axirət əkini // Elçin, Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild. Bakı, Çinar-Çap, 2005, s.231-238; s.235

[2] Yenə orada, s.235-236

[3] Yenə orada, s.235

dər Əliyevi bütün bəlaların kökünün mədəniyyətdən uzaqlaşmaqda olduğuna inandırmışdı. Viktor Andriyanov və Hüseynbala Mirələmovun kitabında Heydər Əliyevin təhlükəsizlik əməkdaşları qarşısındakı çıxışından gətirilən sitat da bunu təsdiq edir: "- Keçmiş NKVD-nin ən böyük səhvlərindən biri o idi ki, orada işləyənlərin əksəriyyəti çox dardüşüncəli adamlardı. İntizamdan başqa onları əslində heç nə maraqlandırmırdı. Əksəriyyəti mədəniyyətdən, ədəbiyyatdan uzaq idi. Ədəbiyyata, mədəniyyətə, musiqiyə, tarixə yaxşı bələd olmayan insanlar peşəkar təhlükəsizlik işçiləri də ola bilməzlər... – Heydər Əliyev tövsiyə edir: - Bilirsinizmi, təhlükəsizlik işçisi sadəcə xəfiyyə deyil. O, yüksək mədəniyyətə malik olmalı, şairlə də, bəstəkarla da, yazıçıyla da, alimlə də, sadə vətəndaşla da ünsiyyətdə olmağı bacarmalıdır. Əks təqdirdə o, ağı qaradan, yaxşını yamandan, adi səhvi cinayətdən ayıra bilməz..."[1] Yüksək mədəniyyət və mənəviyyat daşıyıcısı olan Heydər Əliyev bütün ömür yolunun süzgəcindən keçirdiyi, əməllərində dəfələrlə sübuta yetirdiyi həyat qənaətlərini gənclərlə bölüşürdü.

Əksinə, elə məqamlar da olmuşdur ki, Heydər Əliyev dövrünün dar və köhnə düşüncəli ədiblərindən daha geniş, daha milli mövqe nümayiş etdirmiş, yazıçını yazıçıdan qorumalı olmuşdur. 1979-cu ildə Mövlud Süleymanlının "Dəyirman" əsəri ətrafında kəskin mübahisələr buna misal ola bilər. Yazıçı "Qırx ilin yeddi görüşü"ndə xatırlayır: "Əsər 1979-cu ildə "Azərbaycan" jurnalında dərc olunan kimi hücumlara məruz qaldı. Antisovet əsər adıyla hallandırıldı. Mərkəzə məktublar yazıldı. Elə həmin ilin payızında Yazıçılar İttifaqı, Natəvan adına klubda "Dəyirman" povestinin müzakirəsini – "məhkəməsini" keçirməli oldu... "Dəyirman" əsərinin müzakirəsi, ona qarşı olan hücumlar böyüyüb bütün Azərbaycanı bürüdü, Moskvaya teleqramlar vuruldu... Burda da, orda da kitablarım plandan çıxarıldı. Hamısı üstümə qaytarıldı...

...Heydər Əliyevin qəbulunda da olmuşdular artıq. O dəstənin arasından bir nəfər mənə danışdı:

- Hərəmizin əlində "Dəyirman" povestinin nəşr olunduğu "Azərbaycan" jurnalı Heydər Əliyevin qəbulunda olduq. Bizi görən kimi, – nolub, – dedi, – nə baş verib?!

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.74

- Yoldaş Əliyev, bu əsərdə bizim quruluşumuza böhtanlar atılıb, qara yaxılıb, söyüşlər yağdırılıb!

- Nə söyüş? – soruşdu.

- Söyüşlərin altını qırmızı karandaşla cızmışıq... Sayını da bilirik. Yetmiş üç söyüş var.

Heydər Əliyev əsəri vərəqlədi, altından xətt çəkilmiş söyüşün birini oxuyub bərkdən güldü, dedi:

- Onda gərək rus xalqı M.Şoloxovu məhkəməyə versin ki.

Beləcə... Heydər Əliyev məni sözün əsl mənasında qaragüruhun əlindən aldı. Mən nihilist tənqidin dəmir caynaqlarından qurtulub bir-birinin ardınca romanlarımı yazdım. Bacardığım qədər sağlam, təmiz, halal sözümü dedim. Bütün bunlara görə və ən əsası yurdumuz Azərbaycanı yenidən tikib yaratdığına, Azərbaycan xalqını əsl oğul istəyi ilə sevdiyinə, dünyanın ən uca kürsülərində Azərbaycan adını sevə-sevə çəkdiyinə görə Heydər Əliyevə minnətdaram”.[1]

Anarın Heydər Əliyevin xatirəsinə həsr etdiyi “Unudulmaz görüşlər”[2] əsəri Ulu Öndərin bütöv portretini yaratmaq baxımından ilk uğurlu cəhdlərdəndir. Təsadüfi deyil ki, 2012-ci ildə kitab Azərbaycan Respublikası Prezidentinin qərarı ilə Heydər Əliyev mükafatına layiq görülmüşdür. Artıq xatırlandığı kimi, memuar (xatirələr) janrında olan “Unudulmaz görüşlər” canlı şahidliyin diliylə Heydər Əliyev hadisəsini yazıçı-Ədəbiyyat rakursu, nöqteyi-nəzərindən işıqlandırmaq, fenomenə Ədəbiyyatın-Mədəniyyətin-Tarixin, canlı İnsan ünsiyyəti – İnsan faktorunun yaratdığı imkanlardan boylanıb-baxmaq cəhdidir. Anar yazır: “Heydər Əliyev haqqında çox yazılıb, qalın-qalın kitablar çıxıb. İllər keçdikcə daha da çox yazılacaq, tarixin süzgəcindən keçmiş qiymətlər daha da dəqiqləşdiriləcək, dünyada və ölkəmizdə baş verəcək olayların, gələcək hadisələrin kontekstində onun xidmətləri daha dərindən dərk ediləcək. Amma bu, gələcək nəsillərin işidir. Bugünkü nəsillərin, onun çağdaşlarının, özəlliklə onunla bu və ya digər dərəcədə təmasda olanların borcu isə Heydər Əliyevlə bağlı anılarını, xatirələrini yubanmadan qələmə almaq, onun mürəkkəb və zəngin obrazının müxtəlif çalarlarını, ayrıntılarını sənəd kimi tarixin malı etməkdir...”[3]

---

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.34-35

[2] Anar. Unudulmaz görüşlər, Bakı, “Təhsil”, 2009, 272 s.

[3] Yenə orada, s.42

Anar dahi Şəxsiyyətin Ədəbiyyatdan görünən Portretini cızmaqla həm də kölgəsində bütöv Epoxa-Cəmiyyət-Mühit mənzərələrinə işıq sala bilir. 1960-1980-ci illər mədəniyyət epoxası, son sovet dönəmi – 1980-ci illər İmperiyanın çökməsi mənzərələri, müstəqillik çabaları, yeni Dövlət-cəmiyyət quruculuğu, müstəqil Azərbaycan Respublikasının qurulması prosesləri Heydər Əliyev obrazının haləsində boy verir, görünür. "Unudulmaz görüşlər" memuaristikanın yaxşı nümunəsi sayıla bilər; bu janr fakt dəqiqliyini sevir; Anar əsəri vaxtilə Heydər Əliyevlə görüşlərdən sonra etdiyi gündəlik qeydləri və bu günün düşüncələri zəminində qələmə almışdır. Və hətta bəzən yaddaşına inanmayıb, yaxın tarixin hadisələrindən söz açarkən, faktı həmin dövrün mətbuatında getmiş sənədli materiallara müraciət etməklə möhkəmləndirmişdir.

Anar Heydər Əliyevin obrazını yaradarkən, şəksiz ki, ilk növbədə Ədəbiyyat, Mədəniyyət materiallarına müraciət edir; Heydər Əliyev və yazıçılar, Heydər Əliyev və Ədəbiyyat, Heydər Əliyev və ədəbi mühit, Dövlət başçısı olaraq Heydər Əliyevin yeritdiyi Mədəniyyət və Ədəbiyyat siyasəti və s. kimi Ədəbiyyatla bağlı məqamlara diqqətli olur. İlk görüş barədə Anar yazır: "Heydər Əliyevlə bağlı ilk qiyabi "təmas" onun 1971-ci ildə Mərkəzi Komitənin Oktyabr Plenumundakı məruzəsində "Qobustan" toplusu haqqında dediyi tənqidi fikirlərdən başladı. Onda şəxsən tanış deyildik və mən bu iclasda da iştirak etmirdim. O vaxt Moskvada Rejissor emalatxanasında təhsil alırdım..." Sonrakı epoxadan – müstəqillik ilərindən gətirdiyi misalda isə aydınlaşdırır: "Çox-çox illər sonra bir çox başqa məsələlər kimi, bu məqamı da daha dərindən dərk etdim. Bu barədə ən etibarlı məxəz isə Heydər Əliyevin müstəqillik dövründə dediyi sözlər idi..." Heydər Əliyev deyir: "Məsələn, mən "Qobustan" jurnalını xatırlayıram. O, yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu biri tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu "Qobustan" jurnalına, görürdüm ki, bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də, "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm ki, "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü..."[1]

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.46-47

Dövlət başçısı, ictimai-siyasi xadim olaraq, Heydər Əliyevin ədəbiyyata münasibəti müstəsnadır; onun ideoloji gücünə xüsusi qiymət verir. O da heyrətamizdir ki, Ulu rəhbər bir zamanların yabançı kommunist ideologiyasını da, müstəqil Dövlətimizin rəsmi ideologiyası kimi bəyan elədiyi Azərbaycançılığı da eyni şiddətlə milli mənafelərə kökləyə, səfərbər edə bilir. "Unudulmaz görüşlər" şahidlik edir: "Respublika partiya təşkilatının rəhbəri kimi ən yüksək instansiyalardan gələn siqnallara reaksiya verməli olduğu üçün "Qobustan"ı yüngülvari tənqid etdi, amma Azərbaycan vətənpərvəri kimi toplunu dağılmağa qoymadı. Müstəqillik dövründə "Qobustan" yaşadı" sözlərini deməyə onu sovet dövründə bağlanmağa qoymayan rəhbərin tam mənəvi haqqı vardı... Bu Plenumdan sonra "Qobustan" nəinki bağlanmadı, ona əlavə ştatlar və Teatr Cəmiyyətində iki iş otağı ayrıldı, Mədəniyyət Nazirliyinin nəşri kimi statusu müəyyənləşdirildi, mətbəələrə vaxtlı-vaxtında çıxması üçün göstərişlər verildi..."[1]

Azərbaycan yazarlarının, sənətçilərinin naxışı həm də onda gətirmişdi ki: Heydər Əliyev bir fərd, İnsan olaraq da ədəbiyyatı çox sevirdi; hansı ədəbiyyatın dövrü, zamanı nə qədər ifadə-təmin etməsini yaxşı bilirdi; üstəlik, müasiri olduğu yazıçılara, sənətçilərə şəxsən münasibəti vardı. Odur ki, əsərdə Respublika başçısının həm bütövlükdə yazıçılarla, sənətçilərlə, həm də bir çoxu ilə ayrı-ayrılıqda əlaqə və görüşləri, fərdi və fərqli rəftarı diqqət çəkir. "Unudulmaz görüşlər" memuar olaraq vardığı bu nöqtələrdə əvəzsizdir.

Əsərdə(n) bir çox ədiblərin, yazıçıların, hətta gənc yazarların adları keçir: Süleyman Rüstəm, Mirzə İbrahimov, Rəsul Rza, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, İmran Qasımov, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, Balaş Azəroğlu, İsmayıl Şıxlı, Nəbi Xəzri, Qabil, Cabir Novruz, Tofiq Bayram, Mədinə Gülgün, Hüseyn Abbaszadə, Sabir Əhmədov, Yusif Səmədoğlu, Anar, Elçin, Maqsud İbrahimbəyov, İsi Məlikzadə, Fikrət Qoca, Vaqif Səmədoğlu, Fikrət Sadıq, İsa İsmayılzadə, Araz Dadaşzadə, Altay Məmmədov, Bəkir Nəbiyev, Şamil Salmanov, Gülrux Əlibəyli, Mövlud Süleymanlı, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Abbas Abdulla, Ayaz Vəfalı, Ramiz Rövşən, Vaqif Cəbrayılzadə, Elmira Axundova, Rafael Hüseynov, Çingiz Abdullayev, Arif Əmrahoğlu, Nizami Cəfə-

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.47-48

rov, Vaqif Yusifli, Rüstəm Behrudi, Nizami Aydın, Dəyanət Osmanlı, İlqar İlkin... Hər birinin də cüzi və ya geniş xatırlanması Heydər Əliyevin ədəbiyyatla bağlı tədbirlərindən, görüşlərindən, yanaşma və münasibətlərindən qaynaqlanır...

1960-1980-ci illər ədəbiyyatının oluşduğu heç də asan olmayan mühitin realiyaları var "Unudulmaz görüşlər"də; rejim və ədəbiyyat münasibətlərinin gərginliyi duyulur əsərdən. "Unudulmaz görüşlər" bir yandan, məhz 60-cıları yetirən "Ədəbiyyatda Heydər Əliyev erası"nın xarakterini açırsa, digər tərəfdən 60-cıların çətinliklərini ortaya qoyur. Bu gün bəlkə də paradoksal görünəcək qədər maraqlı situasiyadır; bir yandan, az qala həqiqətən də ortada o zamankı ictimai-siyasi doktrinaya qarşı dura biləcək bir ədəbiyyat var, ədəbiyyat mövqeyi var. Digər tərəfdən, həmin ədəbiyyatı himayə edən-dəstəkləyən, qorumağa çalışan da sanki eyni instansiyadır; qarşı-qarşıya duran ədəbiyyat və rejimin münsifliyini məhz tarixi şəxsiyyət – Heydər Əliyev edir. O zaman İdeologiya üzrə katib Həsən Həsənovun yazıçıların 1981-ci il qurultayında Anara dediklərindən: "Qurultayda yaxşı danışdın – dedi – doğrudur, bu çıxış ədəbiyyatın vəziyyətinin obyektiv təhlilindən daha artıq sənin özünün ədəbiyyata baxışlarının ifadəsi idi. Amma sənə deməliyəm ki, Heydər Əliyeviç səni çox yüksək qiymətləndirir, belə lap yüksək. Açığı Heydər Əliyeviç də, mən də istəyirdik ki, İttifaqın rəhbəri sən olasan, amma ağsaqqallar hamısı bir ağızdan sənin əleyhinə oldular..."[1]

Ölkə başçısı bir ədəbiyyat hərəkatı olaraq 60-cıların liderliyinə kimin nə qədər şansı olduğunu yaxşı bilir. Heydər Əliyevin Anarla söhbətindən: "Bu günlər mən bir çox yazıçılarla söhbət etmişəm. O cümlədən Sizin barənizdə də... Onların sizə münasibəti müxtəlifdir, amma hətta sizin və atanızın bədxahları da etiraf edirlər ki, siz ciddi yazıçısınız, geniş biliyə maliksiniz, iki dili də mükəmməl bilirsiniz..." Odur ki, istər təklikdə söhbətində bunu hədəfə alır: "Amma, hər halda, bir partiya işçisi kimi, bir ata kimi sizə tövsiyə edirəm ki, irimiqyaslı əsər yaradasınız, bizim bugünkü həyatımızı əks etdirən bir əsər. Qoy orda neqativ hallara qarşı mübarizə də olsun, amma eyni zamanda bizim əxlaq prinsiplərimizi, ideyalarımızı aydın, fəal təsdiq də olsun..."[2]

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.66
[2] Yenə orada, s.62

İstərsə də Heydər Əliyev qurultayda, açıq polemikaya girərək Anarın “gənclərin səhv etmək səlahiyyəti” barəsində fikrinə düzəlişlər edir:

*“Heydər Əliyev:* Amma sən belə dedin ki, əgər o, səhv etməsə, cavan olmaz ki, o, yetişmişdir. Səhv etmək qətiyyən mütləq olmalı şey deyil.

*Anar:* Şübhəsiz.

*Heydər Əliyev:* Səhv ola bilər. Ancaq o cavan, o gənc ki, dünyanı əvvəldən düzgün mövqelərdə başa düşür, o ya səhv etmir, ya da az səhv edir. Səhv etmək, şübhəsiz ki, bizim həyatın dialektik qanunudur. Bu aydındır, bunu heç kəs inkar etməməlidir. Amma nə qədər çalışsaq ki, bizim gənclər öz yüksək istedadlarını düz istiqamətdə inkişaf etdirsinlər, o qədər gənclər mətləbə tez çatar. Elədirmi?

*Anar:* Doğrudur. Mən yenə də bunu təkrarlamaq istəyirəm ki, səhv edəndə biz onu səhvinə görə başından vurmayaq. Sizin dediyiniz sözdür.

*Heydər Əliyev:* Bəli, mən dediyim sözdür. Səhvinə görə başından vurmayaq, qətiyyən. Amma səhvi düzəldək.

*Anar*. Doğrudur”.[1]

İki on il ərzində Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi, qurduğu, yaratdığı Müasir Azərbaycan xalqın, millətin, insanların qəlbində, şüurunda, bilavasitə həyatında izini qoydu, milli özgürlük və birlik, müstəqil vətən ideyalarını cücərtdi, irəli gələn yeni nəsillər bir azərbaycanlı kimi özünü tanıdı, millət olaraq fəxrlə, qürurla müasir dünyada yerini axtardı. Bu məramda Heydər Əliyev ədəbiyyata nə qədər önəm verdiyini əməli olaraq göstərdiyi kimi, yazıçıların müstəqillik dövründə keçirdiyi ilk qurultayında da bəyan etmişdir: “...Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıblar: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə mil-

[1] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, 272 s., s.60

lətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıblar...”[1]

***

Ulu Öndərin nəhəng quruculuq fəaliyyətinin nəticəsində hələ respublikaya başçılıq etdiyi birinci dövrdə (1969-1982) təməlini qoyduğu Müasir Azərbaycanı, təəssüf ki, ondan sonra hakimiyyətə gətirilənlər qoruya bilmədilər və ilk növbədə xalqın, milli toplumun kəskin etirazı və təpkisi ilə qarşılaşdılar...

Heydər Əliyevin Moskvaya, ölkə rəhbərliyinə ucalması, şəksiz ki, Azərbaycan xalqı üçün böyük fəxarət idi. Bu hadisəni ziyalılar, o cümlədən ədiblər coşqunluqla qarşılamış, sonradan xatirə-əsərlərində yazıya da almışlar. “Unudulmaz görüşlər”də Anar yada salır: “Bu böyük hadisə idi: ilk dəfə Azərbaycan oğlu dünyanın iki ən böyük super dövlətindən birinin ən ali məqamında mövqe tuturdu...”[2] Sabir Rüstəmxanlının “Xətai yurdu” xatirə-romanında belə bir epizod var: “Həmin gün Fərman Kərimzadə ilə birgə Cəlilabaddaydım. Köhnə Kurqanın – Nadir təpəsinin üstündəki moteldə gecələyib, ertəsi gün Bakıya qayıtmalıydıq. Televizorda xəbəri eşidən kimi ikimiz də yerdən bir hoppanmışdıq. Tez kövrələn Fərmanın gözü yaşarmışdı. Az sonra onun köhnə dostu olan raykom katibi gəlmişdi və böyük bir dəstəylə bu hadisəni “qeyd eləmişdik”. Zarafat deyil, bu boyda ölkənin ən yüksək vəzifələrindən birinə, o boyda partiyanın Siyasi Bürosuna ilk dəfəydi ki, azərbaycanlı düşürdü...”[3]

Heydər Əliyevin siyasi olimpə yüksəlişinə sevinən ziyalılar, onun hakimiyyətdən uzaqlaşdırılmasına da ilk yananlar olmuş, bununla millətin faciəsinin başlandığını duymuşlar. Elçin yazır: “Berlindən qayıdanda gecə Moskvada “Moskva” mehmanxanasına ayaq basarkən ilk gördüyüm dost adam Elmlər Akademiyasının prezidenti Eldar Salayev oldu və salamsız-kalamsız ona dediyim sözlər indiyə kimi mənim də yadımdadı. Eldar Salayevin də: “- Görəcəksən, birinci ermənilər başlayacaq!..” Təəssüf ki, belə də oldu. Heydər Əliyev nüfuz sahibi idi və o nüfuz, hətta erməni daşnak irqçiliyinin

---

[1] 1997. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Yazıçılarının X Qurultayında nitqi - http://lib.aliyevheritage.org/az/9165216.html

[2] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, 272 s., s.69

[3] Sabir Rüstəmxanlı. Xətai yurdu. Bakı, “Qanun” nəşriyyatı, 2003, s.193

belə, qarşısında bir səddə çevrilmişdi..."[1]

Mövlud Süleymanlı "Qırx ilin yeddi görüşü"ndə 1983-cü ilin yayında doğma yurdu Qərbi Azərbaycanda şahidi olduğu olayı yada salır: "Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosuna üzv seçilmişdi. Kalinino rayonunun mərkəzi küçəsindən Siyasi Büro üzvlərinin sırayla portreti asılmışdı. Azərbaycanlılar yaşayan kəndlər bayram içindəydilər. Eşitdik ki, ermənilər Heydər Əliyevin portretini cırıblar. Bütün obalara xəbər yayıldı. Bir, deyən kimi qapılar çırpıldı, bütün kənd-kəsək yığışdı və rayona axışdılar!.."[2] Daha sonra məxsusi emosionallıqla vurğulayır: "...bu milləti sevməyənlər millətə zərbə vurmaq üçün hər yerdə birinci növbədə Heydər Əliyevi axtardılar. Bilirdilər ki, Heydər Əliyevin çəkdiyi ağrı, əslində Azərbaycan millətinin ağrısıdır, onun büdrəməyi Azərbaycan xalqının büdrəməyidir..."[3]

"Heydər Əliyevsizliy"in zərbələrini Elmira Axundova altıcildliyin üçüncü cildində çoxsaylı sənədlərlə təsbit edir, bir sırasını iqtibas edərək "Unudulmaz görüşlər"də Anar erməni nəzərlərinə diqqət çəkir: "Bu total erməni həmləsi və Qorbaçovun ətrafındakı erməni lobbisinin təsirilə Heydər Əliyevin yüksək vəzifələrdən azad edilməsi Ermənistan KP MK-nın I katibi Dəmirçyanın böyük sevincinə səbəb olmuşdu. "Ən vacib işi görmüş olduq – deyibmiş – Qarabağ hərəkatını başlamazdan qabaq Heydər Əliyevi yıxa bildik, bu, çox mühüm məsələ idi".[4] Mənfur qonşular əsrlər boyu yeritdikləri daşnak siyasətinin qarşısında Heydər Əliyevin nəhəng fiqurunun durduğunu bilir və etiraf da edirdilər: "Ermənistanın başqa lideri, keçmiş prezidenti, Qarabağ separatçılığının əsas ideoloqlarından Levon Ter-Petrosyan bir dəfə ayıq başla önəmli bir qənaətə gəlmişdi. Ermənilərə müraciətlə: - XX əsrdə türklər tarixə iki böyük lider veriblər – demişdi – Kamal Atatürkü və Heydər Əliyevi. Nə qədər ki, Heydər Əliyev hakimiyyət başındadır, Qarabağdan gözünüzü çəkin".[5]

Mövlud Süleymanlı emosional-ritorik ricətinə davam edir: "Fi-

---

[1] Elçin. Dünya axirət əkini // Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild. Bakı, Çinar-Çap, 2005, s.231-238; s.232

[2] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.25.

[3] Yenə orada, s.26

[4] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.73

[5] Yenə orada, s.73-74

kir verin, bir millət olaraq bizə dəyən zərbələr Heydər Əliyevin xalqın taleyindən uzaq qaldığı, uzaqlaşdırıldığı zamanlar baş vermədimi? 1988-ci ildə Sovet imperatorluğunun ən uca nöqtəsindən düşmən qüvvənin dediyi: - Heydər Əliyev yoxdur, nəyi gözləyirsiniz? – ifadəsi yadınızda deyilmi? Və biz bu tarixi yoxluqda talan olmadıqmı, torpaqlarımız yağmalanıb, insanlarımız yerindən-yurdundan didərgin düşüb, ərazilərimizin 20 faizi işğal olunub, əhalimizin bir milyondan çoxunun qaçqına-köçkünə çevrilməsiylə nəticələnmədimi?!”[1]

Dağlıq Qarabağ münaqişəsinin başlanması və getdikcə müharibəyə çevrilməsi ədəbiyyata yeni bir mövzu – Qarabağ müharibəsi mövzusunu gətirdi. Son iki-üç onildə bu mövzuda onlarla roman, povest, hekayə, pyes, yüzlərlə şeir və publisistika nümunəsi meydana gəldi; olduqca acı, kədərli, fəci Qarabağ dərdi, Qarabağ həqiqətlərini ortaya qoydu. Və bu hadisələr içərisindən aydın duyulan, getdikcə daha çox sezilən, qabaran, haraya-çağırışa çevrilən ardıcıl bir xətt – çarəsizlik, lidersizlik, “Heydər Əliyevsizlik” motivi bədii əsərlərdən də görünməyə başladı. Şairlər, yazıçılar möhtəşəm xalq obrazı yanında, mövcud hakimiyyəti aciz, əlacsız, başı Moskvaya bağlı görür, təsvir edir; milli hərəkatın irəli sürdüyü fəhlə, ziyalı, şair, alim, akademik, hətta polis sıralarından qəhrəmanlara üz tuturdular. Lakin imperiya siyasəti yeridən Moskvanın və məkrli erməni-daşnak planlarının qarşısına yalnız həmin miqyaslara cavab verən obrazla çıxmaq olardı. Bu, hadisələrin də, ədəbiyyatın da göstərdiyi kimi, Heydər Əliyev obrazı idi.

Moskvanın fitvası ilə respublikaya rəhbərliyə gətirilənlər Heydər Əliyev şəxsiyyətinin miqyası yanında çox kiçik görünür. Anar “Unudulmaz görüşlər”də xatırlayır: “Bu hadisələrdən sonra ilk dəfə onunla (Heydər Əliyevlə – red.) Moskvada, Kremldə, Qurultaylar Sarayında görüşdük. Foyedə yanaşdım, hal-əhval tutdum. Başqa Azərbaycan nümayəndələri də, o cümlədən o vaxt Azərbaycan KP MK-nın I katibi vəzifəsinə yenicə seçilmiş Əbdürrəhman Vəzirov da yanaşdı. Diqqət elədim ki, Heydər Əliyev bütün vəzifələrindən uzaqlaşdırılıbsa da, Ə.Vəzirov yüksək vəzifəyə təyin olunubsa da, Heydər Əliyev onunla bir növ yuxarıdan aşağı danışır. Bu yalnız boy və yaş fərqilə bağlı deyildi, məncə, bu həm də hər ikisinin yaxşı

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.26

dərk etdikləri miqyas fərqi ilə bağlıydı. Heydər Əliyev Vəzirova "sən", Vəzirov ona "siz" deyə müraciət edirdi. Heydər Əliyev: "- Hə, sənin işin çətin olacaq – deyirdi – Qarabağ məsələsini həll etmək asan iş deyil". Vəzirov: "- Eybi yoxdur, Heydər Əliyeviç, – deyə cavab verirdi, - Əfqanıstan məsələsini həll etdik (Vəzirov Əfqanıstanla qonşu və bağlı Pakistanda səfir olmuşdu), Qarabağ məsələsini də həll edərik..."[1]

Qarabağ mövzusunda bir sıra əsərlərdən o dövrdə hakimiyyətdə olmuş respublika başçılarının da ötəri obrazı keçir. Fəlakətin miqyasından xəbərsiz, tarixi situasiyadan baş açmayan, siyasi lider olaraq uğursuz, zəif və iradəsiz, anti-Əliyevçi və ermənipərəst Qorbaçovun əlində oyun-oyuncağa çevrilən bu "rəhbərlər" hakimiyyət hərisliyi ilə hətta öz xalqının, millətinin əleyhinə getdiklərinin də fərqində deyildilər. Xalq isə bunu görür, anlayır və etiraz edirdi.

Sabir Rüstəmxanlının "Xətai yurdu" adlı "xatirələr romanı"nda 1980-ci illərin ortaları və sonlarında Azərbaycanda yüksələn milli ruh və vətənpərvərlik ovqatından, aktiv erməni siyasətinə və Qarabağ hadisələrinə etiraz zəminində 1988-ci ildə başlanıb, getdikcə güclənən, milli azadlıq hərəkatına çevrilən Meydan hadisələrindən, dövrün ictimai-siyasi proseslərindən, 1991-ci ilin oktyabrın 18-də qazanılan müstəqillik aktınacan davam edən ümumxalq mübarizəsindən söhbət gedir. Memuar-romanın təhkiyəçi-qəhrəmanı Meydan hərəkatının və bunun zəminində yaranan ilkin Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biri olan yazıçının özüdür və bu, hadisələri bilavasitə, yaxından izləməyə imkan verir.

Romanda respublika başçılarının da obrazı var. Kamran Bağırov qətiyyətsiz, "Moskvanın qulu", "şəxsi mənafelərinə görə hər şeyi sata biləcək", "şizofreniyalı xəstə", "Moskva ilə danışa-danışa ürəyi gedən" və s. haqqında yaranmış şayiə, söz-söhbət, ictimai-kütləvi rəylərlə səciyyələndirilir; Qarabağ hadisələrinin qarşısının alınmaması "Azərbaycan KP MK-nın çürüklüyü" ilə izah olunur. "MK-ya azca dəyanəti olan bir adam başçılıq etsəydi, bu qarışıqlığa ilk gündə son qoyardı. Vəziyyət çox sadəydi. Respublika ərazisində dövlətə qarşı qiyam qaldırılmışdı, qarşısını almağın qanun çərçivəsində yolları vardı. Dövlət öz səlahiyyətini və məsuliyyətini göstərməliydi. Lakin Ermənistan tərəfi qiyam üçün Azərbaycanın ən zəif

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.82

vaxtını seçmişdi..."[1]

Əbdürrəhman Vəzirov obrazı isə hadisələrin gərginləşməsi gedişində, bilavasitə, qəhrəmanla üz-üzə, hardasa maymaq, tez-tez təkrarladığı "Qorbaçovun bizə xüsusi münasibəti var... Problemlərimizi həll edəcəyinə söz verib..." – deyə özünü də inandırmağa çalışan, dilomatiya adına hardasa artistlik edən, təlxək qismində təqdim olunub. Baş redaktoru olduğu, Qarabağa Yardım Komitəsinin orqanı "Azərbaycan" qəzetinin ilk sayından sonra MK-ya çağrılıb, Vəzirovun həmlələrinə qarşı dirəniş göstərən yazıçı qapını çırpıb getmək istərkən qəribə vəziyyətlə üzləşir. "Əlimi dəstəyə uzadanda Vəzirovun əlini dəstəkdə gördüm, məndən qabaq çatıb qapını kəsdirmişdi. Az qala köhnə tay-tuş kimi böyürümə bir yumruq vurub, bu dəfə ayrı ahənglə, guya dostcasına: "-Tı poymi! İndi biz ehtiyatlı olmalıyıq! Xüsusən Moskvaya qarşı. Sən ağıllı adamsan, nə dediyimi başa düşürsən!" Sonra özü qapını açdı, əlimi sıxıb, məni yola saldı: "-Bayram müəllimə salam de!" Çıxdım. Allah, sən saxla! Cəmil müəllim də deyir, Rəhman çox ağıllı, yaxşı adamdır, Azərbaycanın bəxti çəkib, belə bir təmiz adamın gəlməsiynən..."[2]

Vəzirovla görüşündə qəhrəman ikinci katib Viktor Polyaniçko ilə də üzləşir və kimin daha çox hökm sahibi olduğu aralarındakı dialoqdan aşkar görünür. Redaktorun: "...- Bütün yazılara başımla cavab verirəm..." replikasına "Viktor Petroviç acı-acı gülümsəyir: "- Başını kötüyün üstünə qoymusan". "- Mənim başım çoxdan kötüyün üstündədir". "Özün bil. Bu bir xəbərdarlıqdır"[3] – deyib hədə gəlir.

Romanda Heydər Əliyevin bilavasitə obrazı yoxdur. Amma Meydan hadisələri boyu dəfələrlə adı keçir əsərdən. Şayiələr hərəkatın yetirdiyi fəhlələrin lideri Neməti, Azərbaycan Xalq Cəbhəsinin lideri Əbülfəz Elçibəyi, hətta özündən xəbərsiz əsərin qəhrəmanını da Heydər Əliyevin adı ilə bağlayır. "Bəzi adamlar da vəziyyətdən çıxış yolunu yalnız Heydər Əliyevin Moskvadan qayıtmasında və hakimiyyətə yiyələnməsində görürdülər".[4] Amma qəhrəman özü buna inanmır; dostu ilə söhbətində bunu yalnız şayiə, istək hesab edir. Dostunun: "-...Yerdə qalanlar isə Vəzirovdan sonranı düşünürlər.

---

[1] Sabir Rüstəmxanlı. Xətai yurdu. Bakı, "Qanun" nəşriyyatı, 2003, s.192
[2] Yenə orada, s. 443
[3] Yenə orada, s.442
[4] Yenə orada, s.247

Ondan sonra kim olacaq? Ən azı üç dəstə var. Amma ən güclüsü və fəalı Heydər Əliyevin dəstəsidir" – sözlərinə etiraz edir: "- Nə üyüdüb tökürsən, Heydər Əliyev hara, meydan hara? Xəstə kişidir, oturub Moskvada..." Eyni zamanda bunun mümkünsüzlüyünü düşünür: "...Yüz cür şayiə gəzir. Moskva bir bataqlıqdır, çəkib aparır, boğmamış, məhv eləməmiş buraxmır. Onu da Nəriman Nərimanovun taleyi gözləyir. Kimdir buraxan onu Moskvadan? Qorbaçov imkan verər ki, dünən işdən çıxartdığı adam gəlib Azərbaycanın başında dayansın?"[1]

Doğrudan da, mümkünsüz görünür, amma romanda, eyni zamanda Moskvanın həmin "mümkünsüzlüy"ün mümkünlüyə – imkana çevriləcəyindən qorxduğu da əksini tapmışdır. Meydan hadisələrinin istintaqı zamanı Moskvanı yalnız Heydər Əliyev düşündürür: "Bir neçə sualdan sonra Moskvadan gələnlərin istintaqın perspektivsizliyini duyduqlarını hiss elədim. Onları işin mahiyyəti, xalqı coşduran ədalətsizliklər, mərkəzin ikiüzlü siyasəti, ermənilərin qudurğanlıqları az maraqlandırırdı. Onlara təşkilatçıları tapmaq və Heydər Əliyevin bu işlərlə nə dərəcədə bağlı olduğunu müəyyənləşdirmək tapşırılmışdı..."[2]

Həmin xofu Qorbaçovun anti-Əliyevçi niyyətlərlə respublikaya göndərdiyi Vəzirov da keçirir və miskincəsinə: "vaxtilə onu ortaya çıxarıb yetişdirən "qoca"ya qarşı az qala düşmənçilik səviyyəsində mübarizə aparır; qəzet səhifələrindən başlamış teatr səhnəsinə kimi".[3] Təbii ki, bu əks-reaksiya doğururdu. "Yıxılana balta çalmaq" ənənəsini qəbul etməyən xalqı bu məqalələr qəzəbləndirirdi. Başqa bir psixoloji incəlik də vardı: xalq bu məqalələrin Əliyevin çörək və vəzifə verdiyi yetirmələrinin fitvasıyla yazıldığına nakişilik kimi baxır, məqalələrin bəzilərində "erməni barmağı" olduğu, Əliyevə münasibətdə erməni təbliğatı ilə Azərbaycan rəhbərliyinin fikrinin üstüstə düşməsi və bunlar arasında bəlkə də gizli əlaqələrin varlığı heç Əliyevi sevməyən adamları da qəzəbləndirirdi..."[4]

Heydər Əliyevə qarşı, vaxtilə "çörək verdiyi" kommunist-partokrat ətrafının dönüklüyü, bəzilərinin hətta xəyanəti digər yazıçıların əsərlərində də köhnə rejimin çürüklüyünü göstərən detal kimi

---

[1] Sabir Rüstəmxanlı. Xətai yurdu. Bakı, "Qanun" nəşriyyatı, 2003, s.308-309
[2] Yenə orada, s.419
[3] Yenə orada, s.268
[4] Yenə orada, s.247-248

vurğulanır. Anar yazır: "Sonralar mən ona diqqət etdim ki, Heydər Əliyevə vaxtilə onun əlinin altında işləmiş, onun irəli çəkdiyi, bəzən hətta həbsdən qurtardığı adamların etibarsızlığı bütün müxalifətçilərin dediklərindən və etdiklərindən daha artıq yer eləyir".[1] V.Andriyanov və H.Mirələmovun kitabında müsahibələrinin birində Ulu Öndərin özünün də bu məqamı etiraf etdiyi göstərilir: Jurnalistin "mənim yerimə olsaydınız, Heydər Əliyevə ən başlıca sualınız nə olardı?" replikasına o: "Soruşardım ki, ay Əliyev, bəzi adamları niyə yaxşı tanımamısan?" cavabını verir.[2]

Beləliklə, Meydan hadisələrinin təsvirindən belə görünür ki, Heydər Əliyevin obrazı birbaşa "Xətai yurdu" romanında yoxdursa da, sanki kölgəsi, sayəsi hərəkatın üstündən əskik olmayıb, Moskvanı və onun yerdəki əlaltılarını qorxudur, xalqın müxtəlif təbəqələrini, milli hərəkatı isə ruhlandırır. Romanda oxuyuruq: "Yalnız xalq öz arasından seçilmişlərin uğursuzluqlarını görəndə "xilaskar" axtarışı başlanacaq və Heydər Əliyevin gətirilməsi tərəfdarları öz fikirlərini açıq bildirəcək, Xalq Cəbhəsinin hakimiyyətdə olan nümayəndələri onu Bakıya dəvət edəcəkdilər. Bəlkə Əbülfəz Elçibəyin qarşılaşdığı müşkülü həll edə bilməyib Heydər Əliyevi dəvət etməsi və dövləti idarə etməkdə ondan layiqli adam görmədiyini açıq bəyan etməsi də hərəkatın guya elə başlanğıcdan Əliyevlə bağlı olması fikrini daha da möhkəmləndirmişdi..."[3]

İllər sonra Milli Məslisin televiziya ilə birbaşa yayımlanan iclaslarından birində müxalifət ölkədə baş verən bütün hadisələrin əvvəldən Heydər Əliyevin ssenarisi ilə cərəyan etdiyini iddia edəndə Ulu Öndər bu replikanı müdriklik və təbəssümlə qarşılamış: - Meydanı da, xalq cəbhəsini də yaradan Heydər Əliyev olubsa, belə çıxır ki, heç milli hərəkat olmayıb?! – deyə opponentlərinin məntiqsizliyini ortaya çıxarmışdı.

Sovet imperiyasının süqutu prosesində Moskvadan Azərbaycana təyin olunan "rəhbər"lərin səbatsızlığı, iqtidarsızlığı həmin dövrü əks etdirən bir sıra digər nəsr əsərlərində də iz saxlamışdır. Hüseynbala Mirələmovun "Xəcalət" povestində Qarabağ müharibəsinin ən ağır, ürəkağrıdan epizodları əksini tapıb. O cümlədən əsərin qəhrə-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.85

[2] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.288

[3] Sabir Rüstəmxanlı. Xətai yurdu. Bakı, "Qanun" nəşriyyatı, 2003, s.367

manı Vətənin xatirində qalan 1991-ci ilin 22 sentyabr günü milli heysiyyəti alçaldan tarixlərdən biri olmaqla, eyni zamanda reallıqları əks etdirir. Müstəqil Rusiyanın Prezidenti Boris Yeltsin, məkrli niyyətlə müstəqil müsəlman-türk respublikası Qazaxıstanın Prezidenti Nursultan Nazarbayevi də götürüb, Qarabağ müharibəsinin taleyini həll etmək üçün Dağlıq Qarabağın paytaxtı Stepanakertə (Xankəndinə) gəlir. "Vətən o məlum günü yaxşı xatırlayırdı. Xankəndində hamı ayaq üstəydi..." Yeltsin burda əhaliyə müraciətdə: "Dağlıq Qarabağ Respublikası" ifadəsini işlədir və bu, ermənilərin coşqusuna səbəb olur. Ən acınaqlısı daha sonra baş verir. Erməniləri gizli sövdələşmə üçün Vilayət İcraiyyə Komitəsinə dəvət edən Rusiya prezidenti digərlərinə Vilayət Partiya Komitəsində gözləməyi təklif edir. "- Boris Nikolayeviç, bu nə deməkdir? Necə yəni siz bir yerə, biz bir yerə?" – deyə etiraz edən Ayaz Mütəllibov "Yeltsinlə eyni səmtə addımlasa da, ermənilər onun qabağını kəsdilər. Ayaz hirslənib: - Boris Nikolayeviç, deyə sanki Yeltsini köməyə çağırdı..."[1]

Millətə utanc gətirən həmin səhnənin müqabilində Anarın "Unudulmaz görüşlər"də Naxçıvan səfəri zamanı Heydər Əliyev şəxsiyyətinə dair qürurverici bir müşahidəsini yada salmaq olar. "Heydər Əliyev Heydər Əliyev idi. İstər Kremlin zirvəsində olsun, istər Naxçıvanda. Dəfələrlə onun yüksək rütbəli rus generalları ilə, vəzifəli şəxslərlə necə ötkəm danışdığının şahidi olmuşam. Bir neçə ölkəyə onunla səfərlərim zamanı müşahidə edirdim ki, ən böyük dövlətlərin başçılarıyla da eyni qürurla və məğrurluqla davranır. O vaxt Bakıya qayıdarkən Naxçıvandan bu qəti qənaətlə ayrılırdıq ki, ən yaxın zamanda Heydər Əliyev bütün Azərbaycanın rəhbəri olacaq".[2]

Siyasi lider və rəhbər kimi Heydər Əliyev onun yerini tutmuş Moskva emissarları ilə heç bir müqayisəyə gəlmir; məhz yerini tutduqları üçün kölgəsini qılınclayırlar. Aqil Abbasın Qarabağ müharibəsinin dəhşətlərindən söz açan "Dolu" romanından da ölkənin taleyinə cavabdeh olan vəzifəli şəxslərin adı keçir. Ön cəbhədə Vətənin müdafiəsinə qalxmış xalqın apardığı müharibənin arxasında siyasi çəkişmələrin zərbəsi yenə də xalqa dəyir. Yazıçı müəyyən epizod-

---

[1] Hüseynbala Mirələmov. Vicdan cəzası. Bakı, Nurlar, 2005, s.119-121

[2] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.86-87

larda bu mənzərəni məxsusi qabardır. "Başqa yerlərdə Ağ Ev partiya komitələrinin binalarına deyirdilər – bu şəhərdə isə Qonaq evinə. Bakıdan ermənilərin qabağını almaq üçün yox, camaatın başının altına yastıq qoymaq məqsədilə göndərilən bütün yüksək vəzifəlilər də, yaxın, ya uzaq rayonlardan kömək adıyla, əslində yüksək vəzifəlilərə yarınmağa gələn rəhbərlər də bura yığışırdı..." Qarabağı Azərbaycandan qoparmaq üçün yaradılmış Xüsusi Təşkilat Komitəsinə rəhbərlik edən ikinci katib – Polyaniçko külli-ixtiyar sahibi olaraq, "kimini vəzifəyə gətirir, kimini vəzifədən götürür, kiminə də torba tikir". Müəllif xalqla ölkənin rəhbərliyi arasında yaranmış uçurumu qabarıq detallarla əks etdirir: "Bu boyda rayonda iki tank var, birini camaat pul yığıb alıb, Qarağacı qəbiristanlığında ermənilərin qabağın kəsib. O birini də Mütəllibov göndərib özününkülərə, guya biz nemesik. Ağ evin qabağındadı, ordakıları qoruyur..."

Üstəlik, hakimiyyətə can atan Xalq cəbhəsinin emissarları müharibə bölgəsində vəziyyəti daha da gərginləşdirir: "Bir mərəkə də Ağ Evlə üzbəüz Çayxanaydı. Bura da Bakıdan gələnlərlə – gələcək mərkəzi komitəçilərlə dolu olurdu. Anadilçilər, çənlibelçilər, yurdçular, cəbhəçilər, bozqurdlar, demokratlar, sosial demokratlar..."

Belə bir qarşıdurmada millətin Qorbaçovun ətəyindən möhkəm yapışan qondarma Birinciyə yox, əsl rəhbərə ehtiyacı da romanda faktlaşıb. "Və Katib o qədər boğaza yığılmışdı ki, hətta bir neçə dəfə yuxarıya zəng edib ağzına gələni demişdi: "- Mən bilmirəm bu bədbəxt camaatı yola verim, ermənilərlə vuruşum, yoxsa göndərdiyiniz bu nazirlərə qulluq eləyim". Yuxarıdan da demişdilər: "- Cəbhəçilər kimi danışırsan. Səni orda oturdublar ki, sekanın sözünü deyəsən, cəbhəçilərin yox". "- Burda cəbhəçi yoxdu. Burda yalın əllə torpağını qoruyan camaat var. Heç bilmirlər Xalq Cəbhəsi nə deməkdi, özləri də bombanın altında yaşayırlar". "- Bilirik, səni o Naxçıvandakı danışdırır, onun kadrısan. Şükür elə ki, hələ səni vəzifədə saxlayırıq". "- Onun çörəyini siz məndən çox yemisiniz. Darıxmayın, gildir-gildir burnunuzdan gələcək..."[1]

1990-cı ilin 20 Yanvar hadisəsini o zaman Moskvada təcrid şəraitində yaşayan, xalqından ayrı salınmış Heydər Əliyev dərin kədər və kəskin etirazla qarşıladı. Çəkinmədən, təhlükələrə göz yuma-

---

[1] Aqil Abbas. Dolu. Roman// sitatlar bu mənbədən götürülüb: http://www.achiqkitab.az/Books/Read/748/-

raq, 21 yanvar tarixində Moskvada Azərbaycan nümayəndəliyinə gəldi və hadisəni törədənləri ittiham edən nitq söylədi. Nüfuzlu siyasətçinin Azərbaycan xalqının haqq səsini bütün dünyaya bəyan edən çıxışı tez bir zamanda Vətəndə də yayılaraq milyonlarla insanın qəlbində əks-səda verdi, ağır gündə təsəlli olmaqla, mübarizə dolu sabahlara ümid və inam doğurdu. Bu fakt ədəbiyyatda da əksini tapmışdır. Fikrət Qoca 20 Yanvar şəhidlərindən bəhs edən, İlham və Fərizənin nakam sevgisindən söz açan "Qarlı, qanlı qərənfillər" povestini həmin tarixi epizodla tamamlayır: "Azəri türkləri, türkdillilər Azərbaycan nümayəndiliyinə gəlmişdilər. Heydər Əliyev xəstə olmasına baxmayaraq, həyatını təhlükə qarşısında qoyub oğlunun, qızının müşayiəti ilə nümayəndəliyə gəlib. Orada jurnalistlər qarşısında çıxış edib. Kommunist Partiyası rəhbərliyini ittiham edib. Heydər Əliyev yaxşı bilirdi kommunist partiyası nələr edə bilər, nəyə qadirdi. Ona görə də o öz çıxışının onun özü üçün nə qədər təhlükəli olduğunu yaxşı bilirdi. Bu çıxış partlayışlar görmüş Bakıda möhtəşəm partlayış təsiri bağışlamışdı. Gündüz bir qrup Azərbaycan ziyalıları Akademiyanın binasında yığışıb, vəziyyəti müzakirə etmiş, dünya birliklərinə müraciət qəbul etmişdilər. Bu müraciət dünya dillərinə tərcümə edilib ölkələrə yayılmışdı. Elə gecə ikən qəzetlər çıxmışdı, bu qəzetlərdə törədilmiş cinayəti ifşa edən fotolar çap edilmişdi, çəkilişlər aparılıb, kasetlər xaricə ötürülmüşdü. Bunlar Sovet dövləti daxilində ağlasığmaz işlər idi. Məcbur olub günün yarısından sonra hərbin maşınının təkərləri geri fırlanırdı. Küçələrdə hərbi texnika, əsgər seyrəlirdi. Hiss olunurdu ki, qoşun geri çəkilir, çıxdığı yerə..."[1]

***

Heydər Əliyevin 1990-cı ildə Vətənə qayıdışı, Naxçıvan Muxtar Respublika Milli Məslisinin sədri seçilməsi, 1990-1993-cü illər ərzində muxtar respublikanı blokadadan və olduqca ağır durumdan çıxarması, Azərbaycanın müstəqilliyinə doğru ilk olaraq Naxçıvanda atılan real addımlar, SSRİ-nin saxlanmasına dair referendumun baykot edilməsi, üçrəngli Azərbaycan bayrağının qaldırılması, Respublikanın adından "sovet" sözünün çıxarılması, Ali Sovetin "Ali

---

[1] Fikrət Qoca. Qarlı, qanlı qərənfillər // "Azərbaycan" jurnalı, 2003, №, 1, s.36

Məclis" adlandırılması, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan olunması və s. dövlət quruculuğu prosesləri, o cümlədən bütün bunların ölkədə və muxtar respublikada cərəyan edən mürəkkəb və gərgin ictimai-siyasi proseslərin fonunda həyata keçirilməsi faktlar, sənədlər, analitik araşdırmalar zəminində onlarla tarixşünaslıq əsərlərində əksini tapmışdır. "Naxçıvan epopeyası" Ulu Öndərin xilaskarlıq missiyasının başlanğıcıdır.

Eyni zamanda ədəbiyyatın, geniş kütləvi publisistikanın da mövzuya marağı böyükdür. O cümlədən Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" roman-tədqiqatının "Ömrün Naxçıvan aşırımları (1990-1993)" adlanan beşinci hissəsi, Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Heydər Əliyev" əsərinin "Öz xalqınla birlikdə olmaq haqqı" adlanan fəsli Moskvadan qurtulub xalqının köməyinə can atan qəhrəmanın böyük siyasətə qayıdışının Naxçıvan pilləsini ehtiva edir. Müəlliflər bədii-sənədli janrın çevik imkanları sayəsində hadisələrin real axarı və tarixi dramatizmini kifayət qədər yaxından oxucuya çatdıra bilirlər.

Maraqlıdır ki, yazıçılar dövrün hadisələrinə yalnız bədii-sənədli nəsrdə deyil, detektiv janrında da müraciət etmiş, bir-birinin ardınca Elmira Axundova və İsa Nəcəfovun "Naşirin ölümü" (2000), İsa Nəcəfovun "Gecə yarısında qətl" (2000), Elmira Axundovanın "Şüşə saray" (2007) siyasi detektivləri, Çingiz Abdullayevin "Qanın üç rəngi" (2001) detektiv romanı yaranmışdır.[1] Bəlkə də təəccüblü deyil, 1990-cı illərin əvvəlləri müstəqilliyinə can atan Azərbaycan xalqının şərəfli səhifələr dolu azadlıq mübarizəsi ilə yanaşı, tariximizin ən dramatik, siyasi hakimiyyət uğrunda intriqalarla səciyyəvi bir dövrüdür. Sovet dövlətinin süqutu fonunda üç ildə dörd dəfə hakimiyyət dəyişikliyi və hər dəfə xalqa, millətə dəyən ağır zərbələrlə müşayiət olunması, 20 Yanvar və Xocalı faciəsi, daxili qiyamlar nəticəsində ölkənin vətəndaş müharibəsi sərhədinəcən gəlməsi, erməni işğalçılarının Qarabağ və Azərbaycan rayonlarını bir-birinin ardınca ələ keçirməsi, əsas hökumət üzvlərinin, güc nazirlikləri başçılarının bir vertolyotda Qarabağ səması üzərində düşmənlər tərəfindən part-

---

[1] Bax: Иса Наджафов, Эльмира Ахундова. Смерть полиграфиста. Баку, «Дом сказки», 2001; Иса Наджафов. Убийство в половине двенадцатого. Баку: «Абилов, Зейналов и сыновья», 2000, 244 с.; Elmira Axundova. Şüşə saray. Bakı, "Yurd", 2007, 468 s.; Çingiz Abdullayev. Qanın üç rəngi. Bakı, "Azərbaycan" nəşriyyatı, 2001, 352 s.

ladılması, ictimai həyatın iflic olması və iqtisadiyyatın dağılması şəraitində krimonogen durumun yüksək həddə çatması, özbaşına silahlı qrup və bandaların meydana gəlməsi, ən yüksək çinli məmurların qətlləri, cinayətkar qüvvələrin hakimiyyətə sirayət etməsi və s. olaylar siyasi və detektiv ədəbi janrlar üçün kifayət qədər münbit materiallardır və məhz nədən bu janrların irəli gəlməsinə haqq qazandıra bilər.

Bununla belə, unutmamalı ki, adıçəkilən əsərlər sırf tarixi materiallara söykənir; bədii təxəyyül burda özünü əsasən yazıçı ustalığı və sənətkarlıq tərəflərində göstərir. Elmira Axundovanın vurğuladığı kimi: "Amma nəsr əsəri üçün, elə tarixi nəsr üçün də, təfərrüatlarda və sözlərdə dəqiqlik vacib deyil. Vacib olan gerçəkliyin və bu gerçəkliyi yaradan insanların surətlərini doğru və düzgün verməkdir"[1]. Bu baxımdan adıçəkilən romanlar mühüm əhəmiyyət kəsb edir, oxucunu yaxın tarixin hadisələrinə çəkib apara bilir.

O da önəmlidir ki, həmin romanlarda bu və ya digər həcmdə Heydər Əliyevin obrazı əksini tapmışdır. Yazıçılar tarixən bəlli olan həqiqətləri – dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan xalqının daxili ziddiyyətlər və xarici təzyiqlər nəticəsində az qala onu itirməsinə qənşər Ulu Öndərin siyasət meydanına qayıdıb, nəhəng bir atlant kimi xilaskarlıq missiyasını çiyinlərinə götürməsi, Müstəqil Azərbaycanın taleyini həll etməsi hadisələrini bədii nəsrin həqiqətinə çevirə bilmiş, müstəqilliyin heç də asan qazanılmadığı bu yolda ən çox Heydər Əliyev dühasına, Heydər – Xalq sevgisinə borclu olduğumuz ideyasını aşılaya bilmişlər.

İsa Nəcəfov və Elmira Axundovanın "Naşirin ölümü" siyasi detektiv romanı bütövlükdə gözəl ziyalı, məşhur naşir, adi kəndli ailəsində doğulub təhsili, istedadı, zəhməti sayəsində Azərbaycan Dövlət Nəşriyyat Komitəsinin sədri vəzifəsinəcən yüksəlmiş, sadə və zəngin mənəviyyatlı bir şəxsiyyət kimi tanınan Əjdər Xanbabayevin ömür yolundan, 1990-cı ilin 30 may günü amansızlıqla qətlə yetirilməsi və həmin qətlin istintaqı prosesindən bəhs açır. İstintaq üzə çıxarmışdır ki, qətl siyasi motivlərlə, respublikanın yüksək dairələrinin sifarişi ilə Heydər Əliyevin Moskvadan vətənə dönüşünün qarşısının alınması məqsədilə törədilmişdir. Hadisə 1990-cı illərin əvvəllərində Azərbaycanda mövcud siyasi hakimiyyət intriqalarını

[1] Elmira Axundova. Şüşə saray. Bakı, "Yurd, 2007, 468 s., s.3

təsəvvür və dərk etmək baxımından da maraqlıdır və siyasi detektiv həmin fürsəti əldən qaçırmır. Belə ki, qətlin istintaqı Azərbaycan Kommunist Partiyasının birinci katibi Ayaz Mütəllibov zamanında başlasa da, izlər hakimiyyətin özünə apardığından qəsdən yanlış istiqamətə yönəldilir və başa çatmır.

İstintaq yenidən Əjdər Xanbabayevlə dost münasibətdə olan Əbülfəz Elçibəyin hakimiyyəti dövründə, prezidentin göstərişi ilə başlanır və o zaman Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyev tərəfindən müsbət qarşılanır. Və hətta romanda vurğulandığı kimi, Heydər Əliyev ömründə ilk dəfə şahid qismində istintaqa ifadə verməyə razı olur. Çünki bir qədər sonra əsərdən də görürük ki, Heydər Əliyevin Əjdər Xanbabayevlə tanışlığı qısa müddətdə, 1989-cu ilin payızından bir ziyalı kimi Heydər Əliyevin vətənə və siyasətə qayıdışı ideyası ilə alışıb-yanan naşirin Moskvaya bir-iki səfəri zamanı, məhz onun təşəbbüsü ilə olsa da, əsl insani xarakter daşımış, isti telefon ünsiyyətlərində yarım ildən bir qədər çox, qətl gününəcən davam etmişdir. Digər tərəfdən, Heydər Əliyev əmindir ki, qətl onu qorxutmaq, vətənə qayıdışını əngəlləmək niyyətilə törədilmişdir; bunu o, istintaqın başlanğıcında və eyni zamanda hər yerdə açıq bəyan edir, dəyərli ziyalı, "günahsız insan", sadə bir vətəndaşın bu yolda qurban getməsinə təəssüflənir və kədərlənir.

Onu da qeyd etmək gərəkdir ki, Heydər Əliyevi "Moskva dustaqlığı"ndan qurtarıb, vətənə gətirmək istəyən ziyalılar ordusu içərisində Əjdər Xanbabayevin ən entuziastlardan biri olması faktı Sabir Rüstəmxanlının tamam özgə müstəvidən yazılmış, artıq xatırlatdığımız "Xətai yurdu" romanında da yer almışdır. Sitat: "Əjdər də Moskvanın Azərbaycana qarşı çevrilmiş siyasətindən, respublika idarəçilərinin fərsizliyindən gileyliydi. Ara-sıra "bu Qorbaçovun oyunudur, əvvəl kişini uzaqlaşdırdı ki, qabağına çıxan olmasın". "Kişi" deyəndə söz yox Heydər Əliyevi nəzərdə tuturdu, ona rəğbəti vardı; bəlkə buna rəğbət yox, təəssüb demək daha düzgün olardı. O boyda vəzifəyə yüksəlmiş və Qorbaçovun özündən qat-qat ağıllı, səriştəli olan adamımızın Moskvanın, ermənilərin əliylə vurulması ona ağır gəlirdi..."[1]

"Naşirin ölümü" bütövlükdə uğurlu əsərdir; ümumən Azərbaycan ədəbiyyatında siyasi detektiv janrında ilk əsərlərdən biri, bəlkə

---

[1] Sabir Rüstəmxanlı. Xətai yurdu. Bakı, "Qanun" nəşriyyatı, 2003, s.197-198

də birincisidir. Tarixi olaylar, hakimiyyət, cinayət, qətl və insan həqiqətləri üzərində oxucunu düşündürə bilir. Amma təkrar edirik, ilk dəfə məhz bu bədii əsərdə Heydər Əliyev birbaşa, oxucu ilə üzbəüz danışır, həm də bir bədii obraz kimi tarixin şahidliyini edir. Hazırda bizim üçün bu məqam mühümdür; "Naşirin ölümü" romanı oxucuya Heydər Əliyev obrazına yaxın məsafədən baxmaq şansı verir.

Romandan oxuyuruq ki, o zaman Bakı şəhər prokuroru olan Çingiz Qəniyev zəng vurub Heydər Əliyevdən istintaqa şəhadət vermək razılığını alandan sonra müstəntiq Rahib Hüseynov Naxçıvana yola düşür. 1992-ci ilin oktyabrına təsadüf edən bu səfər, çox maraqlıdır ki, hakimiyyətin digər güc strukturunun başçısı, Daxili İşlər naziri İskəndər Həmidovun Heydər Əliyevi devirmək niyyətilə muxtar respublikada yaratdığı iğtişaş vaxtına düşür. Buna baxmayaraq, Heydər Əliyev müstəntiqi qəbul edir və yaxın günlərdə şəhadət verəcəyini vəd edir. Belə nəhəng tarixi şəxsiyyətlə birbaşa ünsiyyət fürsətini əldən buraxmaq istəməyən Rahib Hüseynov gözləyir və "Bir həftə sonra 1992-ci il noyabrın 2-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi və Sov.İKP MK Siyasi Bürosunun sabiq üzvü Heydər Əliyev həyatında ilk dəfə prokuratura orqanlarına ifadə verir".[1] İki saata yaxın, 14-30-dan 16-20-yəcən davam edən, bugün qiymətli tarixi sənədə çevrilən söhbət baş tutur.

Roman müəllifləri həmin tarixi materialdan ustalıqla istifadə etmişlər. Heydər Əliyevin müstəntiqin konkret suallarına cavabları fonunda, yaxın keçmişə üz tutaraq, istefada olan Siyasi Büro üzvünün vəziyyətilə barışmadığı əzablı Moskva həyatını, vətənə can atan siyasi liderin əleyhinə quraşdırılmış hər cür iyrənc kampaniyalara, qarşısına çəkilən birbaşa sədlərə mətinliklə sinə gərməsini, Qorbaçov və onun ətrafı ilə çəkinmədən döşləşərək, yalnız böyük iradə və cəsarət gücünə 1990-cı ilin iyul ayında doğma Azərbaycana qayıda bilməsini bədii təsvir və təhkiyə yolu ilə canlandıra bilmişlər. Heydər Əliyevi 1987-ci ildə Qarabağ hadisələri başlanandan Azərbaycanın durumu məşğul edir. Qorbaçova zəng edib, münaqişənin hara aparıb çıxaracağını çatdırmaq istəyir. Qorbaçovla calaşdırmadıqları zaman Liqaçova, Lukyanova, Razumovskiyə zənglər edir. Yalnız

[1] Romandan bütün sitatlar bu mənbədəndir: Иса Наджафов, Эльмира Ахундова. Смерть полиграфиста. Баку, «Дом сказки», 2001 - http://azeribooks.narod.ru /detektiv/isa_nadjafov/smert_poligrafista.htm

şəxsi tanışlıqla DTK-nın sədri Kryuçkov onu dinlədikdə, baş katibə: “Oturduğu budağı kəsməklə öz hakimiyyətinə zərbə vurduğu” ismarıcını çatdırmağı xahiş edir. Vətənə can atan Heydər Əliyevi bu zaman bəlkə də hələ ciddi şəkildə siyasətə qayıtmaq düşündürmür də; onu hərəkətə gətirən vətən, xalq, millət sevgisidir, “xalqının yanında olmaq”, idarəçi səriştəsi və zəngin təcrübəsi ilə bəlkə nədəsə yardım etmək istəyilə alışıb-yanır.

Odur ki, belə bir fürsət yarananda ölkənin birinci şəxsi Qorbaçovla onun Azərbaycandakı emissarı Ayaz Mütəllibovun nədənsə birdən-birə vəlvələyə düşməsi Heydər Əliyevə qəribə gəlir. Naxçıvan şəhər partiya komitəsi 17 may 1990-cı il tarixində Heydər Əliyevi Azərbaycan Kommunist Partiyasının 8 iyunda baş tutacaq XXXII qurultayına namizəd seçmişdir. Xəbər Heydər Əliyevə çatanda imkandan yararlanmağı qət edir. Elə bu zaman aşağı ranqlı məmurlardan tutmuş Qorbaçovun ən yaxın ətrafına qədər zəng edib, guya Azərbaycanda siyasi vəziyyət mürəkkəbdir – deyə, onu fikrindən daşındırmağa çalışırlar. Partiya Nəzarət Komitəsinin sədri, Siyasi Büro üzvlüyünə namizəd Puqo, DTK sədri Kryuçkov, Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibov... İstefada olan sabiq Siyasi Büro üzvü Heydər Əliyev – “əməkdar təqaüdçü”nün heç cür ipə-sapa yatmadığına görə əl-ayağa düşmüş bu partiya başçılarının təşvişinə sanki meydan oxuyur. Axı heç bir partiya qanunu pozulmamışdır, qurultaya nümayəndə seçilmiş sıravi partiya üzvü kimi orda iştirak etmək onun haqqıdır və o, Bakıya gedəcəkdir!

Heydər Əliyev yada salır: Qorbaçov 19 yanvar – faciəyə bir gün qalmış zəng elədi, 1987-dən sonra birinci söhbətimiz idi. Yüksək tonda getdi söhbət. Dedi ki, Azərbaycanda qarışıqlıqdır, səbəbkarı da mənəm. Guya respublikada sovet hakimiyyətini devirirlər, mən təcili ölçü götürməli, bunun qarşısını almalıyam. Hədələdi ki, bunu etməsəm, günahkar mən olacam və məni cəzalandıracaqlar. Ona kəskin cavab verdim, dediklərinin böhtan olduğunu söylədim. Əvvəla mənim Azərbaycanla əlaqəm yoxdur. İkincisi də Azərbaycanda xalq hərəkatı Moskvanın və Azərbaycan rəhbərliyinin düzgün olmayan siyasətinə protest olaraq yaranıb. Belə ki, protest tamamən qanunidir. Qorbaçovun ittihamlarını qəti rədd etdim.

Romanda oxuyuruq: Əliyevin 21 yanvar 1990-cı ildə tarixi mitinqdə çıxışı beynəlxalq aləmdə sensasiya yaratdı. Onun ittiham dolu nitqi qan içində boğulan Qorbaçov “yenidənqurma”sına fitva

oxuyurdu. Həmin gün bütün xarici radiostansiyalar Əliyevdən sitat gətirir, nümayəndəliyin qabağına yığışmış əcnəbi müxbirlər isə Əliyevi mühasirəyə alaraq, müsahibə almağa cəhd edirdilər. Bir neçə gün sonra həmin nitq kim tərəfindənsə gizli şəkildə çoxaldıldı və kasetlər Bakıda peyda oldu. Kaseti yayanları tutmağa, kasetləri məhv etməyə başladılar. Amma Əliyevin lent yazıları təkrar-təkrar peyda olur, respublika vətəndaşlarının qəlbində ümid, Kremldə isə qorxu hisləri doğururdu.

Belə ki, bir zaman telefonuna cavab verməyən, iftiralara qarşı mətbuatda özünümüdafiəsinə belə mane olanların bir-birinin ardınca zəng edib sövdələşməyə çalışması həqiqətin gözünə düz baxmağı sevən Heydər Əliyevi ehtizaza gətirir. Puqoya beləcə də deyir: - Baxın, görün, nə günə düşmüş, hansı həddə enmisiz. Özünüzü jandarm kimi aparırsız, partiya işçisi, təşkilat rəhbəri kimi yox... Neçə illərdir, guya əleyhimə hey "qazıyırsız", amma bütün materiallarınız lox yumurtaya da dəyməz. Hər bir əməlimə görə harda desəz cavab verməyə hazıram. Çox nahaq məni qorxudacağınızı güman edirsiz, bu yolla heç nəyə nail olmayacaqsız!

Beləliklə, Əjdər Xanbabayevin qətli Heydər Əliyevi yandırsa da, heç də sındırmadığını görürük. Hakimiyyətin qorxudub ittiham etmək istədiyi İnsan hakimiyyətin özünü ittiham edir.

Romanda eyni açıqlığı və sərt mövqeyi Heydər Əliyevin o zamankı respublika rəhbərliyinə münasibətində də sezirik. Maraqlıdır ki, Ayaz Mütəllibov Heydər Əliyevin kadrı sayılır; vəzifə pillələri ilə yüksəlməsinə görə məhz ona borcludur. Birinci katib seçiləndən sonra da Moskvada Heydər Əliyevlə görüşmüş, dörd saat çəkən söhbətdə onun tövsiyələrini dinləmiş və hətta Bakıya qayıtmaq arzusuna kömək edəcəyini vəd vermişdir. Sonralar da bir neçə dəfə telefon danışıqlarında söz versə də, nəinki vədinə əməl etmir, hətta qəfil, 5 iyun 1990-cı il tarixində səslənən son zəngində israrla onu qurultaya gəlmək fikrindən yayındırmağa çalışır.

"- Heydər Əliyeviç, hər şeyi anlayıram və təəssüf edirəm, - Mütəllibov qırılmış telefon söhbətinə davam etdi. - Bununla belə, indi gəlməyiniz ağılsızlıq olar. Respublikada gərginlik son həddədir. Hər dəqiqədə təxribatlar ola bilər.

- Düz deyirsiz, Xanbabayevi artıq qətlə yetirmisiz... - Əliyev dedi. - Amma hətta məni öldürmək fikrinə düşsəz də, Bakıya mütləq gələcəyəm.

- Bu nə sözdür, deyirsiz, Heydər Əliyeviç, insafınız olsun... -Mütəllibov boğularaq dedi. - Xanbabayevin bura nə dəxli!

- Guya bilmirsiz, nə dəxli?

- Allah xətrinə, mənim heç nədən xəbərim yoxdur! Heç kəs sizi öldürməyə hazırlaşmır.

- Öz-özünüzü inkar edirsiz. Gah təhlükə olduğuna inandırmağa çalışırsız, gah da deyirsiz, heç kəs məni öldürməyə hazırlaşmır. Sözlərinizdə məntiq görmürəm..."

Anarın "Unudulmaz görüşlər"ində belə bir epizod var. Moskvada olarkən əhvallaşmaq üçün Anar Heydər Əliyevə zəng edir. "Salamlaşdıq. "- Necəsiniz, Heydər Əliyeviç?" "- Sağ olun, – dedi, sonra əlavə etdi, - Necə olacam, görmürsüz mətbuatda necə böhtanlar yazırlar mənim haqqımda?" "Niyə buna fikir verirsiniz, Heydər Əliyeviç, siz tarixi şəxsiyyətsiniz, bütün bu cızma-qaraların nə əhəmiyyəti var?" Gözləmədiyi halda, Heydər Əliyev Anardan Bakıya qayıtmaqda ona kömək etməyi xahiş edir. Bu niyyətlə Ayaz Mütəllibova müraciət olunur. "Heydər Əliyev tarixi şəxsiyyətdir, – dedik. - İndi ona qarşı böhtan və şər kampaniyası aparılır, hətta ermənilərin təhrikiylə onu məsuliyyətə cəlb etmək kimi tələblər səslənir. Azərbaycan onu müdafiə etməlidir. Onu Azərbaycan Ali Sovetinin deputatı seçmək, Bakıda rahat yaşaması üçün şərait yaratmaq lazımdır". Mütəllibov bizimlə razılaşdı. "Düz deyirsiniz, biz onu qorumalıyıq" – dedi. Mütəllibov mədəni adam idi, amma həmişəki nəzakətli davranışına xas olmayan bir tərzdə əlini masaya vurub: - Amma respublikanın sahibi bir nəfər olmalıdır dedi (rus dilində dedi: "No xozyain v respublike doljen bıt odin"). Əgər Heydər Əliyev gəlib siyasi məsələlərə qarışsa, biz buna yol verməyəcəyik..." Sonda Anar yazır: "O vaxt isə Mütəllibov bizimlə razılaşmışdı və biz onun yanından arxayın getdik. Sonra kim ona nə dedi, nə məsləhət gördü, bilmirəm, amma razılaşdığı məsələlərdən birini də etmədi. Və bununla Heydər Əliyevin deyil, öz gələcək taleyini həll etmiş oldu".[1] Memuarın gizlətdiyi səbəbə – "hakimiyyətin sirri"nə detektiv romanda cavab tapırıq; xalqına güvənməyən hakimiyyət sonunun yaxınlaşdığını hiss edir, eyni zamanda süni yolla onu saxlamağa çalışırdı.

Əgər "Naşirin ölümü" Heydər Əliyev həyatının nisbətən gizli qalmış epizodlarına diqqət çəkirsə, Elmira Axundovanın "Şüşə sa-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, 272 s., s.82-83

ray" əsəri məlum, o cümlədən özünün Heydər Əliyev haqqında altı cildliyindən də bəlli tarixi gerçəklərdən mövzu alır: Heydər Əliyevin Vətənə qayıdışı, "Naxçıvan epopeyası" və Müstəqil Azərbaycanı xilas etməsi. Lakin bugün qürur hissilə xatırlanan, geniş araşdırılan Heydər Əliyevin xilaskarlıq missiyasının görünməyən, birdənbirə dərk olunmayan elə nəhəng, insani, bəşəri dəyərləri vardır ki, o nöqtələrə yalnız ədəbiyyat nüfuz edə bilər. Axı tarix təkcə dövlətlərin, xalqların taleyindən keçmir, həm də insanların, insanın, ayrıca fərdlərin həyatında əks-səda verir. Əgər tarix kitablarında baş verən olayların ümumi qanunauyğunluqları, fakt mənzərəsi, tarixi-mədəni və ictimai-siyasi faktorlar, xalqın və tarixi şəxsiyyətin təkanverici rolu öyrənilirsə, ədəbiyyat həm də bunun arxasında görünməyən tərəflərə, tarixin xalqın və insanların həyatında törətdiklərinə, bilavasitə İnsan taleyində keşməkeşlərinə boylanıb-baxır.

"Şüşə saray" romanı 1990-cı illərin əvvəllərində Azərbaycan həyatında cərəyan edən ictimai-siyasi proseslərə, hakimiyyət qovğalarına və bu zəmində baş qaldıran cinayətkar mühitə lap yaxın məsafədən nüfuz etməklə, Heydər Əliyevin tarixi missiyasının, Xilaskar obrazının misilsiz rolunu, əvəzsiz dəyərini bir daha göstərə bilmişdir. Qeyd olunduğu kimi, bu baxımdan siyasi detektiv janrının seçilməsi də özünü tam doğruldur. Müəllif yazır: "XX əsrin 90-cı illərinin – "Şüşə saray"da təsvir edilən hadisələrin baş verdiyi dövrün – məhz bu qədər yaxın olması kitabın qeyri-adi formasını da müəyyənləşdirdi. Təhkiyə iki qatdan ibarətdir: kitabın detektiv süjetli, roman-tədqiqat çərçivəsinə salınmış ciddi sənədlilik və personajların düşüncə və dialoqlarının sərbəstliyi..."[1]

Romanın ciddi kompozisiya planı vardır; getdikcə gərginləşən dramatik konflikt və süjeti də, qarşıya qoyulmuş ideya-məzmunu da içinə alır. Bir yandan ölkədəki krimonogen durumu səciyyələndirən səs-küylü qətllər: 1992-ci ilin sakit aprel axşamı – Respublika Təbiəti Mühafizə Komitəsinin sədri Arif Mansurovun köməkçisi Əbdüləzəl Azaqovun qətli; 1992-ci il oktyabrın 5-də Şuşa sakini, qaçqın Tariyel Qulam oğlu Əliyev VAZ-2109 maşınında Sumqayıtda bazara gedir və bir də evə qayıtmır, meyidi təsadüfən "digər üç tanınmamış cəsədlə birgə yalnız 1996-cı ilin yanvar-fevral aylarında"

[1] Elmira Axundova. Şüşə saray. Bakı, "Yurd", 2007, 468 s.; s.3; Romandan bütün sitatlar səhifə göstərilməklə bu nəşrdəndir – T.Ə.

tapılır; "Tariyel Əliyevə məxsus VAZ-2109 avtomaşınından isə 1993-cü ilin aprelində Bakı Ali Hərbi Dənizçilik Məktəbinin rəisi kontr-admiral Eduard Hüseynovun qətlə yetirilməsi zamanı istifadə olunmuşdu"; 1993-cü il yanvarın 2-də Azərbaycan DİN Banditizmə və Terrorizmə Qarşı Mübarizə İdarəsi rəisinin müavini Ələkbər Əsgərovun qətli... – cinayət faktlarını fəsil-fəsil istintaq materialları təqdim edir. Bəzən düz, bəzən də yanlış istiqamətdə – qəsdən izi azdırmaq üçün uzun-uzun davam edən istintaq prosesləri; yazıçı bu proseslərə təfərrüatlarınacan, istintaqın ardınca təkrar-təkrar həssasdır, çünki burda məhv olan insan taleləri var; qəsdən suçlanan sadə vətəndaş, müharibə iştirakçısı Cavanşir Əliyevin yerə-göyə sığmayan məşəqqətli taleyi kimi... Bu – 1990-cı illərin əvvəllərinin Bakı həyatıdır...

Digər tərəfdən roman oxucunu blokada şəraitində yaşayan, erməni hücum və təzyiqləri ilə üz-üzə qalan Naxçıvana aparır. Ağsaqqal və lider Heydər Əliyevin rəhbərliyi ilə xalq dinc quruculuğa məşğuldur. "XX əsrin 20-ci illərində dahi Atatürkün böyük uzaqgörənliklə İran şahından külli miqdarda pula satın aldığı" Azərbaycanla Türkiyə arasında 11 km-lik torpaq zolağı Naxçıvanı blokadadan çıxarır. "Atatürkün varisləri – Süleyman Dəmirəl və Heydər Əliyevin xalq arasında Ümid körpüsü adını almış körpünün tikilməsi təşəbbüsü" 300 minlik Naxçıvan əhalisini aclıqdan xilas edir. "Lakin Türkiyə mühasirədə olan Naxçıvanı təkcə humanitar fəlakətdən qurtarmadı... 1992-ci ilin yazında ermənilər muxtar respublikanın sərhədyanı rayonlarında döyüş əməliyyatlarına başlayanda Türkiyə liderləri birmənalı şəkildə bəyan etdilər ki, Türkiyə Naxçıvan muxtariyyətinin qarantıdır və 1921-ci il Qars müqaviləsinin müddəalarına birtərəfli qaydada yenidən baxılmasına yol verməyəcəkdir" (s.35). İran da qonşusuna biganə qalmadı: "İran İslam Respublikasının prezidenti Rəfsəncaninin Heydər Əliyevin Tehrana danışıqlara gələ bilməsi üçün öz şəxsi təyyarəsini Naxçıvana göndərməsi buna əyani sübutdur..." (s.36) Bir sözlə, böyük çətinlikləri dəf edərək, dinc həyata qayıdan Naxçıvan ictimai-siyasi islahatlarla tədricən Azərbaycanı müstəqilliyə doğru aparmaqdaydı.

Amma eyni ölkədə sanki bir-birindən ayrı görünən bu həyatlar arasında təkcə təzadlar yox, toqquşmalar da var... Roman ilk belə qarşılaşmanı 1991-ci ilin 3 sentyabrında qeydə alır. Xalq demokratik qaydada, yekdilliklə Heydər Əliyevi Ali Sovetin sədri seçir. Öl-

kəni fövqəladə vəziyyətdə, komendant sistemi ilə idarə etməyə üstünlük verən Ayaz Mütəllibov isə eyni idarəçiliyi Naxçıvanda da tətbiq etmək üçün 35 nəfər DİN əməkdaşından ibarət dəstəni ora göndərir. Ali Məclis sədrinin bəyanatı: "- Sizə bir gün vaxt verirəm ki, Naxçıvanı tərk edəsiniz, – deyə Əliyev onların qabağına hərbçisayağı konkret şərt qoydu, – əgər bir gündən sonra burda qalmış olsanız, ciddi ölçü götürəcəyəm..." (s.35) Daha sonra, 1992-ci ilin oktyabrında yeni hakimiyyət – Azərbaycan Xalq Cəbhəsi də Naxçıvanda çevriliş etmək istəyir...

Görəsən, hakimiyyət hərislərində belə vətəndaş qarşıdurmasına həvəs haradandır? – roman düşündürməyə çalışır: "Qaya kimi vüqarlı Naxçıvanın qüdrətli lideri elə bil hamının üstünə öz kölgəsini sala bilirdi, onun bədxahları narahat olur, özlərini qətiyyətsiz aparır, yerlərində olmadıqlarını sanki bir daha hiss edirdilər. Bu, belə də olmalı idi. Siyasəti boşboğazlıqla, intriqalarla məşğul olmaq kimi anlamaq səviyyəsindən yuxarı qalxa bilməyən elçibəyçilər Heydər Əliyevin qarşısına təxribat və dedi-qodudan başqa heç nə ilə çıxa bilmirdilər..." (s.36)

Roman təkcə metaforalar ilə müqayisə aparmır, əməli olaraq prozaik hadisələrin gedişatında da liderləri fərqləndirməyə, kimin kim olduğunu əyani göstərməyə köklənir. Fəsillərin birinin adında Xalq cəbhəsinin lideri, "meydan hərəkatı"nın yetirdiyi Əbülfəz Elçibəyin: "İndi hər şey qanuni olacaq..." sözlərini qabartmaqla, müəllif bir qədər sonra romanda baş verənlərin bu xoşməramlı vədlə nə qədər uyuşmadığını, tərs-mütənasüb olduğunu göstərməyə çalışır. Əbülfəz Elçibəyin hakimiyyətində güc strukturlarını təmsil edən Daxili İşlər naziri İskəndər Həmidovun, Müdafiə naziri Rəhim Qazıyevin, Xüsusi təyinatlı polis dəstələrinin başçısı Rövşən Cavadov və onun prokuror qardaşı Mahir Cavadovun özbaşınalıqları, silahlı təxribat və "razborkaları", istintaq materiallarının təqdim etdiyi cinayət işlərində əllərinin olması, Qarabağ müharibəsində milli qəhrəman adını almış Surət Hüseynovun qiyamı və dövlət çevrilişinə cəhdi... – "qanun" adına qanunsuzluqlar törədən bir hakimiyyətin faktik göstəricisinə çevrilir...

Heydər Əliyev isə heç vəchlə boş vədlər vermir; hər yerdə qanunun aliliyinə söykənir, qanuni iş görür və xalqın etimadını qazanır. Hətta Surət Hüseynovun Gəncə qiyamı zamanı xalqa vəd verməyə tələsmir, Gəncəyə səfər edir, hadisələrin həlli yollarını axtarır,

yalnız qayıtdıqdan sonra Milli Məclisin sədri vəzifəsini qəbul edib, məhz qanunlar vasitəsilə vətəndaş sülhünə nail olur. Heydər Əliyevin qanunçuluğa münasibəti barədə xalq lətifəsi yaranmışdır: "Səhər vaxtı Prezident Heydər Əliyev qanunda oğruların ("Vor v zakone") Bakıda gizli yığıncağının ("sxodka") keçiriləcəyi xəbərini alıb Daxili İşlər naziri Ramil Usubova zəng edir və ondan soruşur: "- Ramil Usubov, "Vor v zakone" nə deməkdir?" Məsələdən xəbərdar olan Daxili İşlər naziri dərhal cavab verir: "- Sizi anladım, Heydər Əliyeviç!"Axşam nazir Prezidentə məruzə edir: "- Cənab Prezident, Bakıdakı bütün qanunda oğrular həbs edildi". Heydər Əliyev deyir: "-Qoy hamı bilsin, Heydər Əliyev hakimiyyətində qanun var, qanunda oğru yox!"[1] Romanda da təsbit olunur: məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə qanunsuz hər cür silahlı qruplaşmalar aradan qalxır, qanunun hökm sürdüyü əmin-amanlıq mühiti yaranır.

Romanda iki liderin – xalqın lideri Heydər Əliyevin və demokratik hərəkatın yetirdiyi AXC lideri Əbülfəz Elçibəyin münasibətləri məxsusi diqqət altındadır. Müəllif hər iki obrazın gerçək əməlləri, fəaliyyət müstəvisini cızmaqla yanaşı, daxili portretinə də nüfuz etməyə, Azərbaycanın sürükləndiyi ən faciəvi dövrdə hakimiyyət yükünün altına girmiş iki fərqli liderin psixoloji dünyasını içdən izləməyə cəhd edir. Yazıçı üçün də, oxucu üçün də maraqlıdır: idealist milliyyətçi şüarlarla iqtidara gələn və bu arzularla da yaşamaqda davam edən, milli hərəkat dalğasında çox sürətlə siyasi fəaliyyətinin olimpinə çatan, lakin bir illik prezidentliyi dövründə eyni templə də xalqın inamını itirən, ətrafında baş verən reallıqları dərk etsə də, barışmaq istəməyən, öz komandası ilə rəftarında belə qətiyyət göstərə bilməyən Əbülfəz Elçibəy, görəsən, "düşünmədən çiyinlərinə götürdüyü hədsiz hakimiyyət"in məsuliyyətini nə dərəcədə anlayır? Bu nöqtəni ona Naxçıvanda çevriliş cəhdi zamanı Heydər Əliyev də sərt şəkildə xatırladır: "Əvvəl Elçibəy danışıqdan yayınmaq istədi. Amma Heydər Əliyev onu dəstəyi götürməyə məcbur etdi: "- Adamlarını burdan yığışdır!" – o, Elçibəydən tələb etdi. "- Mənim heç nədən xəbərim yoxdur", – o, özünə haqq qazandırmağa, məsuliyyətdən yayınmağa çalışırdı. "- Necə yəni xəbərin yoxdur? Əgər nə baş verdiyini bilmirsənsə, bəs onda nə prezidentsən?"

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015. s.28

(s.50)

Heydər Əliyev isə əksinə, sanki heç siyasi olimpə qalxıb-enməmişdir: "Kiminlə danışmasından asılı olmayaraq – xalqla, öz müavinləri ilə, Ali Məclisin deputatları ilə – o elə əminliklə danışırdı ki, hamı məətəl qalırdı. Bu, əvvəlki Heydər Əliyev idi. Elə bir şey yox idi ki, bu insan onun qarşısında aciz qalsın. Əgər Naxçıvan üçün hansısa məsələləri həll etmək lazım olurdusa, o qətiyyətlə İrana, Türkiyəyə zəng edirdi..." (s.85)

Naxçıvanda çevriliş etmək istəyən qüvvələrə qarşı son dərəcə qəzəblidir: "Onun açıq mavi gözləri parıltı ilə işıqlandı. Gədələr... Bunların arasında bir nəfər də olsun dövlət səviyyəsində düşünə biləcək adam yoxdur. Qumluqda eşələnən uşaq kimi Azərbaycanın taleyi ilə oynayırlar. O indi də aydınca hiss edirdi ki, Bakıda onun başını batırmaq üçün hər cür təxribata getməyə hazırdırlar. Xalqın fəlakəti onları narahat etmir! 80-ci illərin axırlarında Moskvada işləyərkən də belə tipləri çox görmüşdü..." (s.43)

Romanda Heydər Əliyevin düşmənlə üz-üzə, "Sədərəkdə daim ermənilərlə toqquşmalar" zamanı qorxusuz-hürküsüz davranışına şahidlər misal gətirir. "Görüşlər adətən erməni ərazisində, danışıqlar üçün qoyulmuş vaqonlarda keçir"; görüşlərin birində söhbətləşərək bir kilometrə yaxın piyada gedən Əliyevi müşayiət edənlərin "gərginlikdən ürəyi partlamağa" qalır: "Axı burada nə desən baş verə bilərdi. Hər tində erməni snayperi gizlənmişdi". Bunu ona nöqsan tutanda Heydər Əliyev deyir: "- Onların mənə əl qaldırmağa cürətləri çatmaz". Bu insan heç nədən qorxmurdu. O, sözün tam mənasında qorxu nə olduğunu bilmirdi" (s.86).

1993-cü ilin əvvəlində erməni işğalları Qarabağ ətrafındakı respublika ərazilərinə keçərkən, Əbülfəz Elçibəy Heydər Əliyevi məşvərət üçün Bakıya dəvət etməli olur. Heydər Əliyev getməyə qərar verir, bu məqam Ulu Öndərin daxili dünyasının genişliyini bir daha göstərir. Köməkçisi Vasif Talıbova deyir: "- Elə şeylər var ki, onlar şəxsi inciklikdən və ambisiyalardan daha yüksəkdir. Özü də sən çox yaxşı bilirsən, mən kinli deyiləm. Mən, əgər kursumuzu köklü şəkildə təshih etməsək, qarşıda Azərbaycanın əsl fəlakətə uğrayacağını qabaqcadan görürəm. Əgər məsləhətimə əməl etsələr, bu gün hələ gec deyil. Əks halda sabah onlara heç nə kömək etməyəcək. Onlar cəhənnəmə, bəs ölkəyə bu nəyə başa gələcək..." (s.90)

1993-cü ilin fevral görüşündə Heydər Əliyev özünə qarşı edi-

lən yamanlıqları yaddan çıxarıb, Vətən, xalq, Azərbaycanın sabahı naminə Elçibəy hakimiyyətinə kömək etmək istəyir. Hakimiyyətin bütün səhvlərini, daxili çəkişmələri, səriştəsiz addımları, vəzifə oyunlarını, xarici siyasətin yanlışlığını, ölkənin beynəlxalq aləmdən təcrid edilməsini birbaşa müsahibinin üzünə deyir. "Gücsüzlük hissi Elçibəyi boğurdu. Onu bir küncə sıxışdırmışdılar. Bir tərəfdən silahdaşlarının intriqaları, uçurum, iflas. Digər tərəfdən – bu dəmir iradəli qoca. Yenə də uçurum. Onun, yəni Elçibəy üçün tarixi bir yoxluq. O, mübarizəsini davam etdirə bilərmi? Çalışmaq lazımdır. Bu Əliyev də, axı, Allah deyil. Onun bacardığı və bildiyi şey nədir ki, Əbülfəz bunu öyrənə bilməsin? Razılığa gəlməyə çalışmaq, vaxt udmaq, sazişə girmək lazımdır..." (s.100)

Romanda hakimiyyəti (əslində, hakimiyyətə) uduzmuş Əbülfəz Elçibəyin daxili sarsıntıları yanında, hakimiyyət haqqında düşünməyən, yalnız xalq və Vətənin xilası naminə fədakarlıq göstərən, yollar axtaran Heydər Əliyevin durumu gümrah görünür. Elçibəy 1992-ci ilin oktyabrına görə Heydər Əliyevdən üzr istəsə də, bu ona gərək deyil; onların görüşünün məzmunu kimsəyə bəlli olmasa da, görüşdən dərhal sonra Heydər Əliyev Moskvaya yollanır, aparıcı dövlətlərin səfirləri ilə söhbətlər edir... Və sonra, romanda oxuyuruq: "Naxçıvana qayıtdı və Azərbaycan xalqına "Əbülfəz Elçibəyin ətrafında sıx birləşməli!" çağırışı ilə müraciət etdi..." (s.215)

Sabir Rüstəmxanlının "Xətai yurdu" romanında diqqətəlayiq bir məqam var; 1989-cu ilin iyununda AXC-nin təsis yığıncağından sonra, təhkiyəçi-qəhrəmanın yadına gəlir: "Konfransda təşkilata sədr seçilən Əbülfəz bəyə nə qədər hörmətim olsa da, idarəçilik qabiliyyəti barədə təsəvvürüm yox idi. Hakimiyyətə gəlməkdən söz düşəndə "Məndən respublikaya başçılıq edən olmaz" – deyirdi. Bir dəfə də divarda Heydər Əliyevin şəklini göstərib "hakimiyyətə o gəlməlidir" sözləri ilə məqsədini açmışdı. Amma bu, ilk dövrlərdi. Hələ hər şeyə yalnız bir fikir adamı, tarixçi, millətini bütöv, azad görmək istəyən ziyalı kimi baxan, amma bunu daha çox ideya mübarizəsi kimi təsəvvür edən vaxtlarıydı..."[1] Görünür ki, "ideya mübarizəsi"ndən uzaq gedə bilməyən Əbülfəz Elçibəyin altşüurunda yer almış və özünün heç cür yüksələ bilmədiyi hakimiyyət zərurəti onu son halda Vətənin xilası naminə Heydər Əliyevi Bakıya dəvət

---

[1] Sabir Rüstəmxanlı. Xətai yurdu. Bakı, "Qanun" nəşriyyatı, 2003, s.431

etməyə vadar edir...

İki liderin son görüşü 1993-cü ilin iyununa təsadüf edir; bu – Ulu Öndərin xalqın israrlı təkidi ilə Bakıya gəlib, hakimiyyəti ələ alması, vətəndaş müharibəsinə yuvarlanmış ölkəni uçurumun ağzından qoparıb xilas etdiyi məqamdır. Həm də bircə damla qan tökmədən. Hələ Naxçıvan hadisələri zamanı bir şahidin müşahidələri bir daha təsdiqlənir: "Əliyev məşhur "Hakimiyyət silahdan doğur" deyiminin tam əksinə hərəkət edirdi. Onun hakimiyyəti qeyri-maddi, lakin daha əhəmiyyətli amillərə - şəxsi nüfuza, ənənəvi humanist dəyərlərə və millətin ideallarına söykənirdi..." (s. 39). İyunun 9-da prezidentin təyyarəsi ilə Bakıya gələn Heydər Əliyev iyunun 13-də Gəncəyə yola düşür, qiyamçılarla görüşür, vəziyyətlə tanış olub Bakıya qayıdır. 15 iyun 1993-cü il tarixində Milli Məclisin fövqəladə iclasında Heydər Əliyev Azərbaycan parlamentinin sədri seçilir və Ulu Öndərin Xilaskarlıq missiyası belə başlayır. Həmin gün "Qurtuluş günü" adıyla ümummilli bayram kimi tarixə düşmüşdür.

Romanda siyasi hakimiyyətlərin savaşını əks etdirən süjetin kulminasiya anı məhz Heydər Əliyevin sədr seçildiyi parlament iclasıdır. "İyunun 15-də Milli Məclisin iclası oldu. Uzun sürən mübahisələrdən sonra, orada baş verənlərin hamısının canlı yayımla bütün Azərbaycana verilməsi qərara alındı..." (s.241) Bu həm də xalqla açıq dialoq demək idi; həmin gün başladığı dialoqu Heydər Əliyev sonra da, bütün 1990-cı illər boyu davam etdirəcəkdir...

Bir halda ki, bütün ölkəyə açıq olan həqiqətlərdən söhbət gedir, roman oxucunu həmin acı həqiqətlərin məğzinə və Heydər Əliyevin siyasi dühasının təntənəsinə həssas olmağa yönəldir. Heydər Əliyevi Bakıya, çıxılmaz duruma yardım etmək üçün Əbülfəz Elçibəy özü dəvət etmişdir; daxili işlər naziri, baş nazir, parlament sədri istefa vermiş və hamı gözünü ümidlə Naxçıvan Ali Məclisinin başçısına dikmişdir... Amma bu zaman parlamentdə kimlərsə ucuz komediya oynamağa başlayır, əllərindən gedən hakimiyyətdən necəsə yapışmaq üçün Heydər Əliyevin sədr seçilməsinə əngəllər törətmək istəyirlər... Heydər Əliyev kükrəyir: "Məsələnin burada müzakirəsi vaxtı səslənən hər cür sözlər, söhbətin başqa məcraya yönəldilməsinə edilən cəhdlər məndə çox ciddi narazılıq doğurur. Mən Naxçıvandan bura öz istəyimlə gəlməmişəm. Məni dəvət ediblər. İsa Qəmbər, Pənah Hüseynov və prezident Əbülfəz Elçibəy dəfələrlə mənə zəng edib gəlməyimi, burada müəyyən bir vəzifə tutmağımı

və onlarla birgə bu məsələnin həllində iştirak etməyimi xahiş ediblər. Bir neçə gün ərzində mənimlə danışıqlar aparılıb. Mən bu vəzifələrdən imtina edirdim. Bu gün də imtina edirəm...” (s.251)

Müəllif hər cür yüksək vəzifələrdə olmuş və bu vəzifələrdən ucada duran qəhrəmanının daxilən azad, sərbəst əhval-ruhiyyəsinə, olduğu məkandan çox-çox uzaqlarda gəzən düşüncələrinə önəm verir. Heydər Əliyevə suallar yağdırır, nələrsə soruşur, vəziyyətdən çıxış barədə təminat tələb edirlər, amma bu vaxt “o özü isə zəngin və mürəkkəb həyatının səhifələrini vərəqləyirdi. Heç kəs, heç vaxt, heç nəyi ona hazır gətirməmişdi. Hər şeyə özü nail olmuşdu və çox şey əldə etmişdi. Doğrudanmı indi hər şeyi təzədən başlamaq lazım gələcək? Çiyinlərini necə də ağır bir yükün altına verməli idi! Elə bil viranəyə dönmüş bir yerə qayıdırdı! Əvvəlcədən həqiqəti onların üzünə çırparaq “necə aləmi qatmısız, özünüz də vəziyyətdən çıxın” demək hələ gec deyildi. Əgər bacarsanız... Və öz sərt dağlarına, sevimli Naxçıvanına qayıtsın... Lakin bu anda Gəncədə gördükləri, onu ümidlə yola salan cavan əsgərlərin baxışları gözlərinin qabağına gəldi...” (s.250)

Elçin 1992-ci ildə qələmə aldığı “Dünya axirət əkini” essesində siyasi xələflərinin xəyanətini anıb, Heydər Əliyevin pərişanlıq halını Kral Lirlə müqayisə etmişdi; “ki, o zamanlar Heydər Əliyevin Bakıya qayıdışı və ona hücumlar vaxtı beynimdə bir obraz məni xeyli müddət rahat buraxmadı: Kral Lir...”[1] Doğrudan da 1990-cı illərin əvvəllərində Azərbaycan həyatında Şekspir ehtiraslarına layiq dramatik hadisələr cərəyan edir. Bir az əvvəl bəlkə də Kral Lirlə müqayisələr yerinə düşürdü, amma bu dəm, romanda Heydər Əliyevin parlament ittihamları sanki Hamlet monoloquna daha yaxın görünür: Olummu, ölümmü?! “Məni hiddətləndirən odur ki, Azərbaycan belə acınacaqlı vəziyyətdədir, bəzi adamlar isə artıq on gündür, əllərini ağdan qaraya vurmayıblar. Haralardasa Azərbaycandan qıraqda gəzirlər, kabinetlərində cürbəcür işlərlə məşğul olurlar, bu gün isə kinayə ilə deyirlər ki, kimsə yüksək kreslo tutmaq istəyir. Mənə heç bir kreslo lazım deyil, mənə heç bir vəzifə lazım deyil...” (s.252)

Heydər Əliyev istefa verdikdən sonra üç hakimiyyət mənsub-

---

[1] Elçin. Dünya axirət əkini // Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 6-cı cild. Bakı, Çinar-Çap, 2005, s.231-238; s.237

ları ilə: Moskva ilə, Ayaz Mütəllibov hökuməti ilə, Xalq Cəbhəsi ilə üz-üzə gəlmiş, Vətəni, xalqı, milləti naminə kömək əlini təklif etmiş, əfsus ki, hər dəfə rədd cavabı almışdır... "1991-ci ilin fevralında, bu zalda çıxış edərkən, mən bu tribunadan söylədim: respublikaya ona görə gəlmişəm ki, bu ağır gündə xalqımla bir yerdə olum və ona köməyimi edim. O vaxt məni qəbul etmədilər. Mən sonralar da dəfələrlə bəyan etmişəm ki, heç bir vəzifəyə iddialı deyiləm. Mən bunu bu gün də təkrar edirəm. Mən bu dəqiqə burdan çıxıb gedə bilərəm..." (s.252)

Romanda Əbülfəz Elçibəy Heydər Əliyev barədə düşünəndə Allahı xatırlamış, "Bu Əliyev də axı Allah deyil!" – demişdi. Heydər Əliyev özü daha da aza qanedir: "Mən heç kəsə heç bir təminat vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm..." (Bu sözlər romanda məxsusi qabardılmışdır – T.Ə.). Heydər Əliyev özünü sadəcə siyasətçi, xalqının bir parçası hesab edir: "Əgər siz bir vətəndaş kimi, Ali Sovetin deputatı kimi, Ali Sovet sədrinin müavini kimi mənə etimad göstərsəniz, onda, Ali Sovetin sədri kimi, bunu istəmədiyimə baxmayaraq, ağır vəziyyətdən çıxış yolu tapmaq üçün fəaliyyət göstərməyə hazıram. Mən bu işə ancaq ona görə gedirəm ki, xalqı ağır vəziyyətdən çıxartmaq üçün müəyyən fəaliyyət göstərim, mənim başqa məqsədim yoxdur. Burda çıxış edən bəzi insanlar bura ancaq hansısa bir məqsəd naminə gəliblər. Buna görə də mən heç kəsə təminat vermirəm. Lakin hesab edirəm ki, Azərbaycan xalqı kifayət qədər müdrik xalqdır, bizim millətin böyük potensialı var. Əl-ələ verib bu vəziyyətdən çıxmaq olar" (s.252).

Romanın başlıca ideyalarından biri də məhz budur: xalq və hakimiyyətin vəhdəti! Akademik İsa Həbibbəyli "Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası" əsərində yazır: "Ölkələrin və xalqların tarixində və taleyində elə məqamlar olur ki, həmin çətin dövrlərdə yaranmış ağır siyasi-hərbi vəziyyət, ictimai-iqtisadi və mənəvi böhran Şekspirvari «ölüm, ya olum» sualını sərt şəkildə meydana qoyur. XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycan belə bir gerçək sual qarşısında idi... Sual açıq və aydın idi: «Ölüm, ya olum?!» Heç şübhəsiz, hər hansı xalq həmin sual qarşısında qalarsa, nə qədər çətin olsa da, mütləq «qalım» qərarını verərdi. Azərbaycan xalqı da varlığını, ölkənin bütövlüyünü, elan olunmuş müstəqilliyin qorunub saxlanılmasını arzu

edirdi".[1] Belə ki, 1990-cı illərin əvvəllərində dəfələrlə gündəmə gələn ölüm-olum monoloqu ən nəhayət xalqın xeyrinə həll olunur.

Hakimiyyətin sifətini xalq təyin edir, əksinə yox. Mövlud Süleymanlı yazır: "Xalq məfhumu öz mənası – anlayışıyla təbiətə çox bənzəyir. Belə ki, əgər təbiətə laqeyd olsaq, qayğısına qalmasaq, qorumasaq, əksinə, söküb dağıtsaq, intiqamını heç kəsdən yox, bizim özümüzdən alacaq, nəticədə ağrısını özümüz çəkməli olacağıq! Xalq da belədir, onu anlamadınsa, o da səni anlamayacaq, sevmədinsə, o da səni sevməyəcək. Bir anlıq tarixə nəzər salaq. Son 40 il müddətində Azərbaycan xalqıyla Heydər Əliyevin səmimi dostluğunun, birliyinin, ata-oğul istəyinin şahidi olacağıq..."[2]

Elmira Axundova "Şüşə saray" romanında Vətənə dönərkən ümumxalq sevgisindən dirçələn qəhrəmanını əfsanəvi Anteylə müqayisə etmişdir: "Xalqın ona münasibətindən ruhlanan Əliyev elə bil bir neçə onilliyin yükünü çiynindən atdı; o yorğunluq bilmədən insanlarla ünsiyyətdə olur, muxtar respublikanın kəndlərini bir-bir gəzirdi. Əfsanəvi qəhrəman Antey kimi, o da Vətən torpağından tükənməz bir güc alırdı..." (s.33) Romanda övlad-xalq münasibəti xüsusən ən çətin məqamlarda, xalqın, sözün hər mənasında qəhrəman oğulun arxasında durduğu, onu və onunla birgə özünü xilas etdiyi çıxılmaz situasiyalarda qabarıq təzahür edir. 1992-ci il oktyabrında çevrilişə cəhd zamanı Heydər Əliyev xalqa müraciət edir; romanda hadisənin canlı şahidi Sirus Təbrizli xatırlayır: "Televiziya ilə çıxış edən "cəbhəçilər"i görən kimi, Əliyev Vasif Talıbova tapşırdı: "- Camaatı yığ". Bu üsuldan o sonralar, 1994-cü ilin oktyabrında da istifadə etdi. İki maşın şəhərə çıxdı: "- Camaat, meydana yığışın! Heydər Əliyevi devirmək istəyirlər! Sirus Təbrizli hamınızı mitinqə çağırır! Ali Məclisin qabağına yığışın! Heydər Əliyev sizi köməyə çağırır!" Camaat da meydana axışmağa başladı. Mən çıxış edirdim, insanlar isə elə hey gəlirdilər. İndi Heydər Əliyevi öldürmək üçün "cəbhəçi"lərə bütün xalqı güllələmək lazım gələcəkdi. Bizim başqa müdafiəmiz yox idi..." (s.54)

1992-ci ilin oktyabrında olduğu kimi, 1994-cü ilin oktyabrında da çevriliş cəhdinin qarşısını xalq aldı. Bu dəfə Bakıda, xalq öz Prezidentinin keşiyində durdu. Mövlud Süleymanlı yazır: "1994-cü il

---

[1] İsa Həbibbəyli. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi", 2013, 272 s.; s.5

[2] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.24-25

oktyabr ayının 4-ü gecəsini xatırlayaq. Azərbaycan dövləti və dövlətçiliyinin ölüm-dirim məsələsi həll olunurdu. İllər boyu fürsət axtaran düşmən əllərini içimizə uzada bilmiş, aramızdakı satqınlarla işini qurmuşdu. Qarşıda onlara mane ola biləcək bir qüvvə qalmamışdı, hamı, demək olar ki, Heydər Əliyevi meydanda tək qoyub, qaçıb dağılmışdı. O, dahiyanə fəhmiylə vəziyyəti çox düzgün və vaxtında qiymətləndirib, gücünün harda olduğunu doğru anlayıb, xalqa üz tutdu. Gecə yarıydı. Minilliklər boyu xatırlanacaq şərəfli bir tarix! "- Əziz həmvətənlərim! Bacılar, qardaşlar! Oğullarım, qızlarım! Vətənimizin üstünü qara buludlar alıb! Dövlətimiz-dövlətçiliyimiz təhlükə altındadır..." O gecə əli çatan, ünü yetən hər kəs onun səsinə səs verdi. Ayağı yer tutan yola çıxdı, avtobuslarla, maşınlarla, metro ilə, piyada, ayaqyalın, başıaçıq Prezident Aparatının qarşısına axışdılar... Bir-birini ruhuyla anlamış, tarixin bütün dönəmlərində bir-birinə səmimi, sadiq və həyan olmuş iki qüvvə: Xalq və Heydər qüvvəsi birləşmişdi, bütün təhlükələri, xəyanəti tapdayıb bayrağını yenidən ucaltmağa, dövlətini-dövlətçiliyini qorumağa gəlmişdi..."[1]

***

Dahi Heydər Əliyev ən yeni Azərbaycan tarixinə Xilaskar və Qurucu obrazı ilə – Müstəqil Azərbaycanın qurucusu kimi daxil olub. "Ömrünün qalan hissəsini xalqına bağışlayan" Ulu Öndər "Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir" devizi ilə bütün istedadını, enerjisini, bacarıq və səriştəsini buna səfərbər etmiş, XX əsrin sonlarında ikinci dəfə qazanılmış Azərbaycanın müstəqilliyini bir daha əldən verməyə yol verməmişdir. "Müstəqilliyimiz əbədidir!" – söyləyən, "Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq və heç bir başqa dövlətin əsarəti altına düşməyəcək!"[2] – deyə əmin edən Ulu Öndər sarsılmaz inamını soydaşlarına, bugünkü və gələcək nəsillərə aşılaya bilmiş, Azərbaycan Prezidenti və dövlət müstəqilliyimizin qarantı olaraq bunu beynəlxalq aləmdə, dünya düzənində də təsbit etmişdir.

Anar "Unudulmaz görüşlər"də yazır: "Sentyabrın 20-də (1993-

---

[1] Mövlud Süleymanlı. Qırx ilin yeddi görüşü. // Tənqid.net jurnalı, № 10, 24-35; s.27
[2] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.346

cü il –red.) Prezidentin vəzifəsini icra edən Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ilk dəfə ziyalılarla geniş görüş keçirdi. Mən məruzə etdim. Məruzəmdə Heydər Əliyevə aid bu fikirlər səsləndi: Azərbaycan bu gün tarixinin, doğrudan da, ən ağır günlərini yaşayır və çoxları kimi mənim də bu ağır günlərdən qurtulmaq ümidlərimiz Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə bağlıdır. Tək kiçik qonşumuzun – ermənilərin yox, böyük qonşularımızın da siyasi oyunlarını yaxşı bilən, dünya siyasəti miqyasında düşünən, zəngin təcrübəyə malik olan, siyasi addımlarını yüz ölçüb bir biçməyi bacaran Heydər Əliyev, bəlkə də bu ağır günlərdə Azərbaycanımızın son şansıdır...”[1]

Elmira Axundova “Heydər Əliyev: şəxsiyyət və zaman” altı cildliyinin “Qayıdış” adlı 6-cı cildində[2] Ulu Öndərin Xilaskar və Qurucu obrazını nəhəng fəaliyyətinin geniş aspektləri üzrə: Heydər Əliyev Milli Məclisin sədri kimi, Heydər Əliyevin prezidentlik missiyası, dövlət quruculuğu, ordu quruculuğu, neft strategiyası, Qarabağ probleminin həlli, Heydər Əliyevin mədəniyyət siyasəti, xarici siyasəti və eyni zamanda beynəlxalq aləmin “kommunist” Heydər Əliyevin yeni obrazına münasibəti və s. yönlərdə təqdim və şərh etmiş, bu istiqamətdə ədəbiyyatın bədii-sənədli janrla başladığı işin əsasını qoymuşdur. Roman-tədqiqatın “quruculuq” səhifələrini vərəqlərkən, sanki tarixin xərabələri üzərindən yeriyən və hər yerdə sehrli çubuğu ilə toxunmaqla dağıntılardan xarüqə yaradan Möcüzə-insan obrazını görürük.

Hər biri hakimiyyətdə qısa müddətdə olmaqla “sələfləri”, xüsusən Azərbaycanın beynəlxalq əlaqələri, xarici siyasət sahəsində Heydər Əliyevə yarıtmaz bir “irs”, ağır miras qoyub-getmişdilər. Bu sahədə Heydər Əliyevin aramsız fəaliyyətinə, çevik diplomat obrazına tarixçilər, diplomatlar, jurnalist-tədqiqatçılar, o cümlədən xarici müəlliflər tədqiqat və xatirə əsərlərində diqqət çəkmişlər. Sırf bədii əsər olmasa da, bircəsinə – Hafiz Paşayevin “Bir səfirin manifesti”[3] xatirə-əsərinə nəzər yetirməyi lazım bilirik. Əvvəla 1992-2006-cı illərdə Azərbaycan Respublikasının ABŞ-da Fövqəladə və Səlahiyyətli Səfiri – ilk səfiri olan Hafiz Mir Cəlal oğlu Paşayev əsərini ata-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, 272 s., s.89

[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. Bakı, CBS, VI(1) cild, 2013; VI(2) cild, 2013

[3] Hafiz Paşayev. Bir səfirin manifesti. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2007. Sitatlar həmin nəşrdəndir – T.Ə.

sı – məşhur Azərbaycan yazıçısı Mir Cəlalın “Bir gəncin manifesti” romanı ilə metaforik əlaqədə qələmə almışdır ki, bütün tarixi-diplomatik dəyəri ilə yanaşı, həm də ədəbi-bədii maraq kəsb edir. Digər tərəfdən, əsərdə Ulu Öndər Heydər Əliyevin böyük siyasətçi və dövlət xadimi kimi obrazını təqdim edən səhifələr yer almışdır.

Mir Cəlalın “Bir gəncin manifesti” çağdaş Azərbaycan uğrunda mübarizəni əks etdirən bir romandır. Əsərin yazıldığı vaxtdan çox keçmişdir. “Bir səfirin manifesti” Azərbaycan həyatının artıq yeni mərhələdə, başqa tarixi situasiyada, ayrı bir potensial və səviyyə ilə qlobal dünya ehtiras və maraqları çevrəsində qanuni haqqı və yeri uğrunda çabalarına ayna tutur. Sırf memuar janrında qələmə alınmış, bəlkə də yeganə niyyəti siyasi diplomatiya yolunu tutmuş vətənpərvər gənclərimizə örnək və təcrübənin ötürülməsindən ibarət olan kitabın (Əsərin əvvəlində belə bir müəllif qeydi var: “Kitabdakılar müəllifin xatirələri və şəxsi mülahizələridir”), eyni zamanda hadisə və intriqa planında romanik əhatəsi də danılmazdır. Qloballaşmaqda davam edən yer kürəmizin ehtirasları dəyişməsə də, situasiya ayrıdır: dünyaya hakim iki super-dövlətdən biri çökmüş, üstəlik yerində böyük boşluqlar qoymuş: post-sovet məkanında digər müharibə ocaqları ilə bahəm, Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü, Azərbaycan insanının yenicə qovuşduğu müstəqilliyini itirmək təhlükəsi, ən nəhayət böyük iradə və səy gücünə Vətənin xilası!

ABŞ-da ilk Azərbaycan səfirinin çətin və şərəfli fəaliyyətini əks etdirən zəngin xatirələrlə yanaşı, kitabda Hafiz M.Paşayev həm də bir portretçi kimi yadda qalır. Xüsusən bu məqamı kitabda parlaq təcəssümünü tapan Heydər Əliyev obrazında görürük. Belə ki, 1990-cı illər – Azərbaycan cəmiyyətinin yaddaşında ilk növbədə bu dahi Xilaskar obrazı ilə qalmışdır; amma xalq yaddaşı bunun nə qədər romantik areola bürünmüş epik-epoxal mənzərələrini qoruyub hifz edirsə, tarixi gerçəklərin daha çətin, mürəkkəb təfərrüatlarını salnaməyə almaq məsuliyyəti bir o qədər vacib olur. Çünki Heydər Əliyev, sadəcə, o böyük azərbaycanlıdır ki, xalqının milli müstəqillik mücadiləsinin romantik qanadlarına dəymədən, eyni zamanda tədricən onu səmadan yerə endirmiş, millətin həyatını sivil dünya düzəninə uyğulayaraq, layiq olduğu yeri ona göstərmişdir.

Kitab ən incə, mürəkkəb sferada – fövqəldövlətlə münasibətlər müstəvisində həmin məqama şahidlik etməklə yanaşı, bu əsnada

müəllif həm də o böyük insan ruhunun dialektikasına varmağa, millətin yetirdiyi fenomenal şəxsiyyətin iftixarını oxucu ilə bölüşməyə çalışır. Memuarın romantik cəhdlər burulğanından çıxıb, bilavasitə əməli işlə süslənmiş geniş səhifələri də məhz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə açılır: "Heydər Əliyev Qafqazda yeni oyun qaydalarını müəyyənləşdirərək, fövqəl və regional dövlətləri öz siyasətlərini bu qaydalar əsasında qurmağa dəvət edirdi. Azərbaycan kimi kiçik bir dövlətin nəhəng dövlətlərlə bərabər hüquqla danışmasını təmin etmək zəka, dünyagörüşü, ən mühümü isə, cəsarət tələb etməlidir" (s.70).

20 sentyabr 1994-cü il "Əsrin müqaviləsi"ndən uğurla başlayan bu yol yeni əsrin əvvəllərindən fövqəldövlətlə strateji tərəfdaşlığa çevrilənəcən çox mühüm hadisələrdən – Prezidentlərin görüşlərindən, Azərbaycan Respublikası Prezidentinin ABŞ-a səfərlərindən keçir: Azərbaycan Prezidentinin ABŞ-a 1997-ci il rəsmi səfəri, Vaşinqtonun Corctaun Universitetində çıxış (1997), BMT Assambleyasının işində iştirak (1994), BMT-nin 50 illik yubileyində çıxış (1995), ABŞ-Azərbaycan Ticarət Palatasının yaranması (1996), Vaşinqtonda NATO-nun 50 illik yubileyi və Heydər Əliyevin Annapolisdə Dəniz Donanması Akademiyasında çıxışı, Los-Ancelesdə nəzərdə tutulmuş iqtisadi konfrans (1999), Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzinin təntənəli açılışı (2000) və s. kimi tədbirlərdə Azərbaycanın ABŞ-dakı Fövqəladə və Səlahiyyətli Səfiri əgər bilavasitə təşkilatçıdırsa, H.M.Paşayev həm də istedadlı bir müşahidəçi, səriştəli analitikdir. "Müəllim deyiləm mən, Prezidentəm" adlı fəsildə isə təkrarsız tarixi şəxsiyyətin həmçinin ayrıca geniş portret cizgilərini də cızmağa çalışır.

Hələ kitabın ilk fəsillərində, ilk bürokratiya əngəlləri ilə üzləşən memuarist yazır: "Mir Cəlal ailəsində bir sıra prinsiplər daima ali tutulardı: qürur yaltaqlığa yer verməzdi, sözün qiyməti baha idi, boş yerə havaya atılmazdı, işin nəticəsi ona verilən qiymətdən daha önəmli idi, və nəhayət, şəxsiyyətin bütövlüyü hər şeydən üstün tutulardı" (s.27). Məhz bu keyfiyyətlər H.M.Paşayevi də zahiri cəhətlərə deyil, hər yerdə daxili bütövlüyə köklənməyə səmtləndirir. Heydər Əliyevin idarəetmə üslubu ilə ilk dəfə üzləşdikdən sonra Səfir qeyd edir: "Çıxardığı qərarlar bəzilərinin tərəddüdünə, bəzilərinin isə hiddətinə səbəb olardı. Verdiyi qərarın hansı məntiqə əsaslandığını anlamaq həmin an çətin olardı. Yalnız vaxt hər şeyə aşkarlıq gətirərdi.

Müəyyən zaman keçdikdən sonra bir vaxt tərəddüd və ya hiddət doğuran qərarın əslində müəyyən bir məqsədə xidmət etdiyini başa düşürdün. Heydər Əliyevdən aldığım ən böyük dərs də məhz bundan ibarət idi. Prezidentin hərəkətlərini tələsik yozmağa ehtiyac yox idi. Heydər Əliyevi tam başa düşmək üçün vaxt lazım idi" (s.61).

Bu əminlik istər daxili məsələlərin həllində, istərsə də beynəlxalq fəaliyyət sahəsində axıra qədər təsdiqlənərək əsl etiqada çevrilir. Birinci məqama dair səfir belə bir əhvalat danışır: "Heydər Əliyevlə əvvəllər ünsiyyətim olmamışdı. Bu görkəmli şəxslə ilk söhbətim qəribə bir hadisəyə təsadüf etməli oldu. Bakıda yaranmış siyasi böhran zamanı həbs olunanlar arasında İsa Qəmbər də var idi..." (s.59) Bu, Vaşinqtonda müəyyən narahatlığa səbəb olur, rəsmi görüşlərin birində Dövlət Departamenti İsa Qəmbərin azadlığa buraxılması arzusunu səfirə çatdırır. Həmin istəyi dövlət katibi Lalə Şövkət vasitəsilə Heydər Əliyevə yetirməyə nail olmayan səfir birbaşa Prezidentə məruzə etməyə qərar verir: "Beləliklə, Heydər Əliyevlə ilk söhbətim Müsavat Partiyasının sədri İsa Qəmbər barədə oldu. Əliyevlə Lalə Şövkət arasında fərqi sezməmək qeyri-mümkün idi. Prezident telefonda mənim məruzəmi axıra qədər dinlədi. Diqqətinin yayınmadığına tam əmin idim. Nəhayət, səbr və təmkinlə cavab verdi. Hər şeyi yaxşı başa düşürəm, – dedi, – amma amerikalılara onu da çatdırın ki, indi buranı idarə etmək o qədər də asan deyildir. Bir neçə gündən sonra İsa Qəmbər azad olundu" (s.60).

"Siyasəti şəxsiyyətlər formalaşdırır", "Azərbaycan qovluğu Klinton masasında", "On bir sentyabr – yeni baxış, yeni dünya", "Bir milyon dollarlıq reklam?!", "Siyasi uzaqgörənlik, yoxsa düşmən meydançasında tennis oynamaq istəyi" fəsillərində ən mürəkkəb vəziyyətlərdə nə qədər sayıq, cürətli, "özünün haqlı və qabil olduğuna inamlı" isə, "Əsrin müqaviləsi"ndə, "Lobbi macəraları"nda təmkinlə birgə, Heydər Əliyevin xəyanətə, yalana, dövlət və millət mənafeyinə biganəliyə qarşı eyni qədər də kəskin olduğunu görürük.

Amma daha da çox memuaristi sevindirən, qürur duymağa sövq edən Azərbaycan Prezidentinin uzaq Amerikada, həmin o hər kəsi asanlıqla qəbul etməyən amerikalıların ürəyini fəth etməsidir. "Müəllim kimi nə qədər ali olsa da, tələbə kimi bir o qədər də qabil idi. Zəmanəsinin dəyişdiyini və yeni reallıqla ayaqlaşmaq lazım olduğunu başa düşürdü..." (s.81) Corctaun Universitetində çıxışı zamanı ilk dəqiqələrdən incə bir jesti ilə, qolundan saatını çıxarıb qar-

şısına qoymasıyla auditoriyada təbəssüm doğurması görüşün aqibətini də həll edir: “Prezident Universitetdə çıxış etdiyini bilirdi və çıxışını da universitet auditoriyasına yönəltdi. Bir müəllim kimi əlinə xətkeş alıb xəritə qarşısında durdu, ölkəsinin hər problem nöqtəsini sadə və ehtiraslı bir dildə izah etməyə başladı. Qısa çıxış qızğın sual-cavab sessiyası ilə əvəz olundu. Bu şəxs bir müəllim kimi auditoriya qarşısında dərs deyirdi, lakin tək dərs verdiyini deyil, eyni zamanda, imtahan edildiyini də yaxşı başa düşürdü. Bu sınaq gözlədiyimizdən də müsbət keçdi. İyulun 30-da Corctaun Universitetində Heydər Əliyev Vaşinqton ictimaiyyəti qarşısında öz imicini sübuta yetirdi. Sən demə, keçmiş “Politbüro” üzvü və “KQB” sədri həm də milliyyətçi, professional və xarizmatik bir dövlət xadimi imiş” (s.162-163).

Ümumən kitabda bu qoşa sevgi yanaşı, bir leytmotiv kimi keçir. Manifestin yeni dünyaya, ABŞ ictimai quruluşuna, Amerika cəmiyyətinə, demokratiyaya aşinalığı hədsizdir; təbii, bu – təməlindən elə bir quruluşdur ki, insan maraqlarını, fərdin mənafeyini hər şeydən üstün tutur; onu istəməmək olmur. “Amerikalılar demokratiyaya bir prizmadan baxmağı üstün tutur. Müəyyən mənada buna haqları da var, çünki 200 illik dövr ərzində heyrətamiz qüdrətə və yüksək amallara əsaslanan bir dövlət qurmağa nail olmuşlar. Bu müvəffəqiyyətin əsas səbəbi isə dövlətin insan azadlığı və dəyərlərini üstün tutmasından ibarət olmuşdur” (s.84). Amma bu hələ bizim yox, amerikalılarındır; bəs Azərbaycan Manifesti nədən ibarət olmalıdır? “1997-ci ildə Vaşinqtonda Corctaun Universitetində çıxış edərkən, ona (Heydər Əliyevə – red.) demokratiya barədə sual verdilər. Gülümsədi və qətiyyətlə cavab verdi: “Demokratiya alma deyil ki, gedib bazardan alasan. Onun bərqərar olması üçün uzun zaman tələb olunur” (s.83). Manifestə görə, “Hər bir xalqın özünəməxsus mentaliteti, mədəniyyəti və tarixi inkişaf yolu vardır. Bu cür rəngarəngliyi bir klişe vasitəsilə ifadə etmək qeyri-mümkündür. Amerika demokratiyası təqdirəlayiqdir, lakin onun da catışmayan cəhətləri çoxdur...” (s.84) Kitabda nəinki bunun konkret faktları var, 907-ci bölmənin nümunəsində bütöv bir xətlə həmin demokratiyanın Azərbaycana qarşı ədalətsizliyinin şahidi oluruq; ABŞ idarəetmə üsulu erməni və ermənipərəst seçicilərinin əlində aciz qalır: “Bir faktı tam çılpaqlığı ilə daima göz qarşısında saxlamaq lazımdır: Vaşinqton siyasətində şəxsi maraq ədalət və mənəviyyatdan üstün tutulur. 1992-

ci ildən bunun şahidi olmuşuq" (s.132).

Məhz həmin tarixi reallıqlar zəminində, ağır, lakin şərəfli bir missiya yerinə yetirən tarixi lider Müstəqil Azərbaycan Respublikasını tədricən demokratiyaya qovuşdurmaq yolunu tutur. Azərbaycan manifestini ifadə edən də məhz bu özünəməxsus demokratiya yoludur!

Akademik Ramiz Mehdiyev yazır: "Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş, bu məcmu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin Prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır".[1]

Yazıçı Səyyad Aranın "Heydər Əliyevin Amerika fəthi" adlı publisistik əsərində də mahir siyasətçi və qeyri-adi şəxsiyyəti ilə müsahiblərini heyran qoyan böyük insanın obrazını canlı müşahidələrdə izləyə bilirik. "Heydər Əliyevlə keçirilən bütün görüşlərdə başda Amerikanın prezidenti Bill Klinton cənabları olmaqla, bütün protokol qaydaları "pozulurdu". Lakin buna heç kəs etiraz etmirdi. Hamı dərk edirdi ki, qarşısındakı şəxsiyyət özünün son dərəcə parlaq ağlı ilə, həm dünya siyasətini, Amerikanın dünya siyasətində oynadığı rolu, həm də Amerika-Azərbaycan əlaqələrinə və bu əlaqələrin gətirə biləcəyi uğur və nəticələrə ətraflı analiz verir, elə gözəl fakt və dəlillərlə hadisələri şərh edirdi ki, sanki qarşısındakı müsahibini öz cazibəsinə salırdı..."[2] Belə ki, "Müasir dünya siyasətinin yaradıcılarından olan Heydər Əliyev qloballaşma proseslərinin ümumən beynəlxalq birliklə, Azərbaycanla və onu əhatə edən regionla bağlı bütün başlıca tendensiyalarına fəal münasibətini bildirmiş və həmin tendensiyaların dərinləşərək Dünya Birliyini gücləndirməsinə çalışmışdır..."[3]

Heydər Əliyevin xarici səfərlər zamanı müsahiblərinə qəfil aşkarlanan parlaq zəkası, zəngin biliyi, geniş erudisiyası barəsində

---

[1] Ramiz Mehdiyev. Dövlət müstəqilliyi: Heydər Əliyev fenomeni və müasir dövr // Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb Nəşriyyatı, 2016, s.7-33; s.14

[2] Səyyad Aran. Heydər Əliyevin Amerika fəthi // Səyyad Aran, Üfüqdə Nobel Sülh mükafatı görünür. Bakı, "Azərbaycan" nəşriyyatı, 2003, s.16-34; s.28

[3] Rahid Ulusel. Heydər Əliyev və Azərbaycan-Dünya münasibətləri. Siyasətdən mədəniyyətədək. Bakı, İdeal-Print, 2010, s.140

epizodlara Səyyad Aranın "Çinə səfər çin olanda" əsərində də rast gəlirik. Şanxay görüşlərində "Heydər Əliyev Şanxayın on il bundan əvvəlki ümumi vəziyyəti, iqtisadiyyatı, son illərdə ora xarici investisiyaların tətbiqi və məhz hansı ölkələr tərəfindən nə qədər kapital qoyuluşu olub... – danışdıqca şəhərin meri heyrət etdi ki, Siz Şanxay haqqında lazım olduğundan artıq bilirsiniz. Söhbətin sonunda bir daha xüsusi olaraq vurğuladı ki, "Siz Şanxay haqqında bizdən çox şey bilirsiniz..."[1] Daha bir heyrətamiz fakt daha sonra baş verir: "Baş nazir Li Penlə görüşdə – rusca doğrudan da, yaxşı danışan tərcüməçi aqrar islahatın ÇKP-nin XII qurultayında qəbul edildiyini bildirdi. Heydər Əliyev - Məncə, bu XIV qurultayda olub, – dedi. Tərcüməçi: - Xeyr, XII qurultayda qəbul edilib, – deyə öz sözündə israr etdikdə Heydər Əliyev gülümsəyərək təkrar etdi: "- XIV!" Bu zaman Li Pen tərcüməçiyə sarı çevrilib nə isə soruşdu, tərcüməçi nə isə dedi, Li Penin növbəti sözündən sonra tərcüməçi müəllim qarşısında tutulmuş şagird kimi dilləndi: "- Siz doğru buyurursunuz, cənab Əliyev, bəli, XIV qurultayda. Mən..." Bu yerdə "digər çinli nümayəndə heyətinin üzvləri özlərini yığışdırıb: "hardan bilir?" – deyə heyrət edir, müəllif "bu anı təsvir etməkdə aciz olduğu"nu yazır: "Və mən əminəm ki, onların bəlkə də qədərincə tanımadıqları, amma hiss etdikləri, sövq-təbii anladıqları Heydər Əliyev fenomenini bir daha özləri üçün təsdiqlədilər". Nümayəndə heyətinə daxil olan BDU-nun professoru Səfiyar Musayevin "gözləri yaşara-yaşara, fəxr və güvənc duyğusu ilə" ilə vurğuladığı kimi: "Doğru deyirlər ki, nəsli ağsaqqalı, milləti böyüyü ilə tanıyarlar!"[2]

***

Ulu Öndər Heydər Əliyevin prezident postunda iqtisadi sahədə həyata keçirdiyi siyasəti Viktor Andriyanov və Hüseynbala Mirələmov "Heydər Əliyev" portret-əsərində "Əgər neft kraliçadırsa..." -hələ 1918-ci ildə Britaniyada səslənmiş məşhur dərginin sözləri ilə: "...Bakı onun taxtıdır" prizmasından ümumiləşdirmiş, maraq və intriqa doğuran çoxsaylı motivlərin bir-birini izləməsi və vəhdəti kontekstində təqdim etmişlər. Neft Azərbaycan xalqının təbii sərvətidir

[1] Səyyad Aran. Çinə səfər çin olanda. // Səyyad Aran. Xaosdan sabitliyə. Bakı, "Azərbaycan Ensiklopediyası" NPİ, 1999, s.160-187; s.183

[2] Yenə orada, s.183-184

və bütünlükdə xalqın rifahına xidmət etməlidir! – bu platformadan çıxış edən Azərbaycan prezidenti, eyni zamanda müdrik bir siyasətçi kimi neftin gücündən istifadə edərək, qlobal maraqları da Azərbaycan xalqının və dövlətinin nəfinə yönəldə bilir.

1994-cü ilin 20 sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı neft şirkətləri arasında imzalanan "Əsrin müqaviləsi"ni hazırlamaq üçün bir il ərzində prezidentin nəhəng fəaliyyəti, yüksək kadrlardan ibarət komanda formalaşdırması; neft yataqlarının sirrini, potensialını, perspektivlərini dəqiqliklə öyrənməsi və hesablatması; bağlanan müqavilədə Azərbaycan maraqlarının zərgər dəqiqliyi ilə, təkcə bugünün deyil, gələcək nəsillərin də mənafeyi baxımından araşdırılması; müqavilədə iştirak edən hər bir şirkətlə ayrılıqda və cəmisi ilə bütövlükdə müddəaların bu baxımdan nəzərdən keçirilməsi və müqavilənin beynəlxalq şirkətlərin maraqlarını da pozmamaqla bütünlükdə Azərbaycan xalqına, Azərbaycanın inkişafına və gələcəyinə yönəldilməsi, Xəzəryanı ətraf ölkələrlə münasibətləri tənzimləməsi və s. kitabda əsl roman intriqası ilə oxunur, hər addımında xalqının gələcək taleyi qarşısında böyük məsuliyyət duyan, "Azərbaycanın Xəzərdən dünyaya günəş kimi doğacağı"na inanan, əmin olan böyük hərflə Prezident obrazı boylanır.

Qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi"nin uzun sürən, çoxsaylı görüşlər, çətin danışıqlar, prinsipial razılaşdırmalardan keçən hazırlanması mərhələsində hazırkı Azərbaycan Prezidenti, o zaman ARDNŞ-nin vitse-prezidenti olan gənc İlham Əliyevin obrazı da kitabdan keçir. Müəlliflər Dövlət Neft Şirkətinin vitse-prezidentinin 1995-ci ilin oktyabrında "Günay" qəzetinə verdiyi müsahibədən bəhrələnərək, "neft epopeyası"nın dramatik incəliklərinə varır, eyni zamanda gənc, enerjili, uzaqgörən siyasətçinin portret cizgilərini yarada bilirlər. "ARDNŞ-nin vitse-prezidenti kimi mən başa düşürdüm ki, bu müqavilə mütləq bağlanmalıdır, amma eyni zamanda anlayırdım ki, müqavilə bizimçün sərfəli şərtlərlə imzalanmalıdır. Çünki on il, on beş il sonra heç kim bizi Azərbaycanın maraqlarına zidd olan müqavilə imzalamaqda təqsirləndirməməliydi. Bu iki hiss həmin vaxt nümayəndə heyətinin hər bir üzvünün ürəyində vardı. Mən problemdən çıxış yolunu məsələnin yalnız siyasi həllində görürdüm. Ağ evdə, Dövlət departamentində çıxışlarım zamanı mən bildirirdim ki, Azərbaycan bu müqaviləni bağlamağı çox arzulayır, amma bu

şərtlər bizi qətiyyən qane etmir..."[1] Belə ki, Neft kontraktına, o zaman hələ açıq olan Xəzər dənizinin statusu məsələsinin daxil edilməməsi bilavasitə İlham Əliyevin diplomatik səylərinin nəticəsində mümkün olmuş, bütövlükdə "Əsrin müqaviləsi"ni gələcək qarşıdurmadan xilas etmişdir.

Bakı neftinə dair nə varsa – qədim tarixi, şanlı keçmişi, dünənli şöhrəti, istismar tarixi, neft sənayesinin inkişafı, dənizdə neftin kəşfi, istismarı, istehsalı və s. – Heydər Əliyevə əzizdir; hələ sovet dönəmində respublikaya rəhbərliyi dövründə o bu xalq sərvətinin real dəyərini bilmiş, ölkə üçün önəmindən xəbərdar olmuşdur. Hətta belə versiyalar da səslənir ki, Heydər Əliyevin Xəzərdə bugün istismara verilən neft yataqlarından hələ o zaman xəbəri olsa da, bu sərvəti xalqın gələcəyi, yəni bugünü üçün qoruyub-saxlamışdır. Bakı neftinin Böyük Vətən müharibəsində qazanılmış qələbədə payı, əfsanəvi Neft daşlarında "Dəniz neft çıxarması tarixində ilk dəfə 7 noyabr 1949-cu ildə neftin fontan vurması", SSRİ-də və dünyada neft diyarlarının kəşfində Bakı neftçilərinin rolu, bütövlükdə Bakının "neft akademiyası" statusu, "Heydər Əliyevin təşəbbüsü ilə əvvəlcə Həştərxanda qurulması nəzərdə tutulan Dərin özüllər zavodunun Bakıda tikilməsi" və s. Qərb şirkətlərinin inkişafı, daha da irəli getməsi faktı ilə paralel yada salınır; 21 aprel 1971-ci il "Sovet İttifaqının neft sənayesinin tarixində əlamətdar hadisəyə – respublika mədənlərində neftin milyardıncı tonunun hasil olunmasına həsr edilmiş təntənə"ni qeyd edən respublika başçısının, indi Müstəqil dövlətin prezidenti kimi "mübarək qara qızılı sevinclə yanaqlarına yaxmağa" tam haqqı olduğu təsbit olunur. 24 avqust 1996-cı il tarixində "Dədə Qorqud" qazma qurğusunun işə salınması mərasimində Ulu Öndərin fəxrlə söylədiyi kimi: "- Mən bu gün çox xoşbəxtəm, çox şadam. Xoşbəxtəm və şadam ona görə ki, indi burda gördükləriniz hər şeyin əsasını qoyanlardan biri, təşəbbüskarıyam. İllər boyu çalışmışam ki, bu işlər yerinə yetirilsin, illər boyu zəhmət çəkmişəm ki, bütün bunlar reallığa çevrilsin..."[2]

Əsrlər boyu talanan, özgələr tərəfindən qəsb olunan, daşınan "qara qızıl"ın, nəhayət tamlıqda Müstəqil Azərbaycanın inkişafına xidmət etməsi Ulu Öndərin uzaqgörən siyasətinin bəhrəsi idi. Müəl-

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.391
[2] Yenə orada, s.397-398

liflərin qeyd etdiyi kimi: "Əsrin müqaviləsi" Azərbaycanın XXI əsrə siyasi və iqtisadi sıçrayışı oldu. Şübhəsiz ki, bu, ilk növbədə Heydər Əliyevin xidməti, onun zəkasının, iradəsinin, enerjisinin nəticəsi, məhsuludur".[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyul 2017-ci il tarixində İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində söylədiyi fikirlər Heydər Əliyevin neft strategiyasının təntənəsinə zəmanət verir: "Azərbaycan qədim neft diyarıdır. Əslində biz hesab edirik ki, Azərbaycan neftin vətənidir. Çünki dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə məhz Azərbaycanda, Bakıda çıxarılmışdır. Ondan bir əsr sonra – XX əsrin ortalarında yenə də dünyada ilk dəfə olaraq dənizdən neft Xəzər dənizinin Azərbaycan sektorunda Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdir. Lakin o vaxt Azərbaycan müstəqil deyildi və biz təbii sərvətlərimizdən tam istifadə edə bilmirdik. Ancaq müstəqillik dövründə Azərbaycan xalqı öz taleyinin, öz təbii sərvətlərinin sahibi oldu. Müstəqillik dövründə bu təbii sərvətlər ölkəmizin inkişafına, xalqın rifah halının yaxşılaşmasına xidmət etməyə başlamışdır..."[2]

***

Ulu Öndər Heydər Əliyevin "Əsrin müqaviləsi"nə aparan yolda necə böyük maneələrlə, hətta ölüm təhlükəsi ilə üzləşdiyi hadisələr məşhur detektiv ustası Çingiz Abdullayevin "Qanın üç rəngi" romanında da[3] əksini tapmışdır. "Əsrin müqaviləsi"nin ərsəyə gəlməsində mühüm amilllərdən biri də neftin Avropaya gedəcəyi marşrutu müəyyən etməkdən ibarət idi. İki təklif gündəmə gəlir: Rusiyadan keçməklə mövcud Novorossiyk marşrutumu, yoxsa Gürcüstan və Türkiyədən keçməklə yeni Bakı-Ceyhan neft kəmərinin çəkilməsi? Siyasi müstəqilliyə aparan yolu Azərbaycan Prezidenti Heydər Əliyev mütləq şəkildə ikinci variantda görür və Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə müqavilə imzalamağa hazırlaşır. Detektiv roman iyun ayının 12-də Bakıda imzalanacaq həmin müqavilə ətra-

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.390

[2] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi (10 iyul 2017-ci il, İstanbul, 22-ci Dünya Neft Konqresi) - http://www.president.az/articles/24554

[3] Çingiz Abdullayev. Qanın üç rəngi. Bakı, "Azərbaycan" nəşriyyatı, 2001; romandan sitatlar səhifə göstərilməklə bu mənbədəndir – müəl.

fında cərəyan edən gizli və gözəgörünməz, müdhiş əhvalatlardan mövzu alır.

Sovet İttifaqı dağılandan sonra Qafqaz respublikalarında qeyri-sabitlik, qarışıqlıq olmasında maraqlı müəyyən Qərb dairələri müqavilə mərasimini pozmaq, hər iki respublikanın prezidentini eyni zamanda aradan götürmək niyyətilə dörd ay əvvəldən muzdlu qatil tutirlar. Seçim keçmiş SSRİ DTK-nın podpolkovniki, Almaniyada mühacirətdə yaşayan Yozas Qruodisin üzərində dayanır. Sui-qəsd hazırlığından xəbər tutan Rusiyanın federal təhlükəsizlik xidməti bu barədə respublika başçılarını xəbərdar etməklə yanaşı, Rusiya prezidentinin icazəsi ilə həmçinin həmin əməliyyat planını pozmağa çalışır. Çünki özünün Çeçenistan problemi olan Rusiya, cənubundakı respublikalarda iğtişaşın olmasında maraqlı deyil. Bununla belə, Rusiyanın neft maqnatlarının mənafeyinə toxunan kontraktı pozmağa çalışan qüvvələr burda da var və daim təhlükəsizlik xidmətinin işinə mane olmağa, onu geri çağırmağa çalışırlar.

Rusiya təhlükəsizlik xidməti Qruodisə və onun keçmiş DTK əməkdaşlarından ibarət peşəkarlar dəstəsinə qarşı, başqa bir peşəkarı – sabiq çekist, müstəqil ekspert kimi çalışan Dronqonu əməliyyata cəlb edir. Dronqo – Çingiz Abdullayevin detektiv romanlarının baş qəhrəmanıdır, onun görünməsi gərgin münaqişə, çoxlu intriqa və macəralı əhvalatlar, başlıcası sonu qələbə ilə bitəcək xoş ovqat vəd edir. “Qanın üç rəngi” – ağ, qara, qırmızıdan ibarət romanda Dronqo Qruodisin böyük hiyləgərliklə hazırladığı dolambacları Almaniyada, İstambulda, Moskvada, Bakıda bircə-bircə dəf edərək, Gülüstan sarayında imzalanma mərasimində qəsdin üstünü açır və hətta təyyarə ilə qaçmağa nail olan terrorçuları təqib edərək sıradan çıxara bilir. Macəraların fonunda, Çingiz Abdullayev yaradıcılığına xas olaraq, müəyyən ciddi problemlərə də diqqət cəlb olunur. Sovet İttifaqının dağılması ilə bir çox sabiq qurumlar içərisində DTK-nın da keçmiş əməkdaşlarının işsiz qalması, cinayətkar dəstələrə qoşulması, muzdlu qatillərə çevrilməsi; əksinə, əqidəli DTK işçilərinin özünə, vicdanına sadiq qalması, vətənə xəyanət etməməsi və s. belə problemlərdəndir. Bakı neftinin tarixi fonunda şəhərin XIX və XX əsrlərdə inkişaf mənzərələri, İttifaqın dağılması və Qarabağ münaqişəsi nəticəsində 1990-cı illərdəki acınacaqlı lövhələri, kosmopolit və etnikləşmiş Bakı, dağılmış və 1993-cü ildən sonra dirçəlməkdə olan Bakı, beynəlxalq kapitalın diqqət mərkəzində olan Azərbaycan pay-

taxtı və s. məqamlar roman konfliktinin gərginləşməsini şərtləndirən təfərrüatlardır.

Romanda bilavasitə Heydər Əliyevin də obrazını görürük; həm təhkiyəçinin dilindən siyasi bioqrafiyası ilə tanış olur, həm də müəyyən epizodlarda hadisənin içində personaj kimi rastlaşırıq. Heydər Əliyevin siyasi karyerası bizə bədii-sənədli materiallardan artıq yaxşı tanışdır; eynən romanda da yığcam təhkiyədə verilir, fərq burasındadır ki, müəllif "hər iki prezidentin – Heydər Əliyevin və Eduard Şevardnadzenin çox unikal həyat yolu"na paralel şəkildə, birbaşa müqayisələrdə nəzər yetirməyi qərara alır. Və ən önəmlisi, "Dağılmış imperiyanın iki aparıcı siyasətçisinin bu rütbəyə gəlib çatmasının oxşarlığını, bu yolda özünü göstərən bəzi qanunauyğunluqları və təkrar olunan təsadüfləri nəzərə alanda" (s.149-150) yazıçının uğurlu üsul seçdiyi bəlli olur.

Prezidentlərin siyasi portretləri hadisələrin haşiyəsində, hadisələr gərginləşdikcə, Gülüstan sarayındakı sui-qəsdə yaxınlaşdıqca, ayrıca monoloqlar – "monoloq 1", "monoloq 2" və "monoloq 3" formatında təqdim olunur. Və hər monoloq siyasi bioqrafiyanın bir mərhələsinə həsr olunur: respublikada həddini aşmış rüşvətxorluqla mübarizə dalğasında yüksəliş; Siyasi Büroya yüksəlmə, süqut və Moskva ilə mübarizə dövrü: "Heydər Əliyev isə pensiyaya çıxdıqdan sonra fürsətdən istifadə edib, üzvlərinin təxminən üçdə birinin öz tərkibindən çıxarılması barədə "tarixi" qərar qəbul edən Sov.İKP MK plenumunun tribunasına qalxaraq qətiyyətlə özünün günahsız olmasını bəyan edir. Əliyev ucadan bildirir: Mənim ünvanıma deyilən ittihamların hamısı uydurmadır. Onların real faktlarla heç bir əlaqəsi yoxdur". Əslində bu, meydan oxumaq idi. Qorbaçova, onun Qafqazda yeritdiyi bütün siyasətə meydan oxumaq..." (s.216)

Ən nəhayət, "saysız-hesabsız düşmənlərinin bəyənmədiyi, lənətlədiyi, qəbul etmədiyi, bağışlamadığı, tərəfdarlarının isə hörmət etdiyi bu adamlar öz vətənlərinin xilaskarı olmaq" üçün xalqın inamı sayəsində yenidən siyasi arenaya qayıdır: "Onların hər ikisi keçmiş uğursuzluqların və səhvlərin, eləcə də məyusluq və məğlubiyyətlərin bütün yükünü öz çiyinlərində daşıyırlar. Onlar qalxdıqları zirvədən aşağı yuvarlanmağın sarsıntılarını artıq bir dəfə yaşamışlar. Onlar qeyri-mümkünü mümkün edə bildilər. İkinci dəfə həmin zirvəyə qalxdılar..." (s.229-230)

Mətin xarakterə malik siyasi liderlərin romanda cərəyan edən

hadisələrə birbaşa reaksiyaları da müəllifin ricətləri – monoloqlarının bir daha təsdiqi olur. Azərbaycan və Gürcüstan prezidentləri sui-qəsd təhlükəsindən xəbər tutsalar da, kontraktı təxirə salmaq fikrinə düşmürlər. Çünki hər iki respublikanın uğraşdığı Qarabağ və Abxaziya problemlərinin fonunda davam edən müharibə şəraitində Qafqaza ictimai-siyasi və iqtisadi sabitlik durumu vəd edən bu müqavilənin olduqca vacib və təxirəsalınmaz olduğunu böyük uzaqgörənliklə dərk edirlər.

Romanda Heydər Əliyev surətini ilk dəfə təhlükəsizlik tədbirləri ilə bağlı Azərbaycan, Gürcüstan, Rusiya təhlükəsizlik əməkdaşlarının iştirakı ilə keçirdiyi müşavirədə görürük. Ciddi-təmkinli davranışı ilə o, nəinki ölkəsini təhlükə gözləyən prezidentin real qayğılarını dürüst ifadə edir, eləcə də peşəkar münasibəti ilə sui-qəsdin aradan qaldırılmasına birbaşa istiqamət verir. Konkret və dəqiq sualları, müsahibini sonacan dinləmək bacarığı, sərt və ya toxdaq reaksiyaları, polemik məqamlara aydınlıq gətirməsi, fərziyyə və tövsiyələri ilə Heydər Əliyev yalnız mütəxəssisləri heyrətləndirməklə qalmır, eyni zamanda oxucunun təsəvvüründə ölkəsinə tam sahib, onun dərdlərinə əlac tapacaq qüdrətli siyasi rəhbər obrazını canlandırır.

Ən gərgin anlar prezidentlərin “Gülüstan” sarayında ziyafətdə yanaşı oturub söhbətləşdiyi məqamlarda baş verir. Məlum olur ki, qatillər partladıcı qurğunu ustalıqla prezidentlərin qarşısındakı üç güldana quraşdıra bilmişlər. Qatil ölkənin büdcəsinə, banka daxil olmuş on milyon manatı tələb edərək, əks halda qurğunu işə salacağı ilə hədələyir. Dronqo və həmkarları Qruodisin başçılıq etdiyi cinayətkarların yerini müəyyən edib, zərərsizləşdirməyə çalışdıqları müddətdə Azərbaycan prezidenti Heydər Əliyev və Gürcüstan prezidenti Eduard Şevardnadze heç nə olmayıbmış kimi oturub öz aralarında olub-keçəni yada salır, dərdləşirlər. Müəllif bu zaman hər iki prezidentin dəyanətinə, qorxmazlığına, xalq yolunda, ölkələrinin gələcəyi naminə fədakarlığına diqqət çəkir.

Belə bir anda Heydər Əliyev hətta “30 ildən bəri tanıdığı, bir yerdə işlədiyi” Eduard Şevardnadzeni qınamağa da məqam tapır: “- ...O vaxt Qorbaçov mənim Siyasi Bürodan getməyimi təkid edəndə, sən niyə etiraz etmədin? Axı sən onunla şəxsən dost idin. Bunu ona deyə bilərdin”. Şevardnadze çiyinlərini çəkdi: “- Deyə bilməzdim. O artıq heç kəsə qulaq asmırdı. Mən “gedəndə” heç mənimlə danışmaq belə istəmədi...” Şevardnadze birdən dedi: “- Biz bilmirdik ki, hər şey bu

cür qurtaracaq”. Əliyev onun gözlərinə baxdı. Bu, nə idi? Səhvlərin gecikmiş etirafımı? Şevardnazenin özünün də liderlərindən biri olduğu böyük bir dövlətin itkisindən doğan kədərmi? Yoxsa Osetiya və Abxaziyadakı qanlı iğtişaşlarmı?...” (s.223) Bütün bu səhnələrdə biz keçmiş imperiyanı və onun başında duranları ittiham etməkdə davam edən inamlı Azərbaycan liderini görürük. Onun bəlkə bir an sonra baş verəcək ölümün özündən də qüdrətli, uca, əyilməz obrazı ilə üzləşirik. Sanki zaman da, cərəyan edən hadisələr də onun əlindədir; qalib gələcəyinə tam əmindir!

Romanın son səhnəsində Dronqonu qəbul edən, işini dəyərləndirən Azərbaycan Prezidentinin qüdrətinə, sarsılmaz inamına bir daha şahid oluruq. “- Həmişə düşünmüşəm ki, əgər sui-qəsd baş tutsaydı, ertəsi gün bu respublikanın, bu xalqın başına, görəsən, nə gələrdi? Təxminən Gürcüstan barədə də bu cür düşünmüşəm...” – deyə etriaf edən əsərin qəhrəmanı Dronqo “bu dəfə prezidentin baxışlarına tab gətirə bilməyib, gözlərini birinci çəkməli olur” (s.272). Ulu Öndərin qələbəyə inamı sarsılmazdır!

***

Azərbaycanın müstəqilliyi üçün ən böyük təhlükə – Qarabağ müharibəsi idi; mənfur qonşular üzündən Azərbaycanın müstəqilliyi qarşısına diyirləndirilmiş bu maneəni aradan qaldırmaq lazım idi. Elmira Axundova problemə geniş yer verdiyi roman-tədqiqatında bir məqamı xüsusi vurğulayır: “Heydər Əliyev Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan problemi ilə sutkada 24 saat məşğul olurdu. Bir dəfə prezident qeyri-formal söhbət zamanı bizə, bir qrup jurnalistə etiraf etdi: - Ay Allah, necə də çətindir! Gecələr gözümə yuxu getmir, hey fikirləşirəm. Gedirsən ABŞ-a, Klintondan xahiş edirsən, o, tənzimlənmə işində daha fəal olmağa söz verir, gedirsən Moskvaya, Yeltsinlə danışırsan, o, münaqişə ilə yaxından məşğul olmağa söz verir. Sonra hər ikisi soyuyur və məsələ təzədən saqqız kimi uzanır...”[1] Böyük insani ağrıları ifadə edən bu məqamın arxasında nəhəng fəaliyyət dururdu: “Parlamentdə Dağlıq Qarabağ problemi ilə bağlı ictimai dinləmələr zamanı (fevral, 2001) Heydər Əliyev öz

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.280

nitqində aşağıdakı rəqəmləri səsləndirir: 1993-cü ildən başlayaraq o, müxtəlif dövlətlərin 68 başçısı ilə 485 görüş keçirmişdir!"[1]

Bütün bunlar Sülh naminə, işğalçı Ermənistan ordusunu Azərbaycan torpaqlarından dinc yolla, beynəlxalq ictimaiyyətin və böyük dövlətlərin təzyiqi ilə çıxarmaq üçün atılan addımlar idi və sülhpərvər Azərbaycan prezidentini dünyada prinsipial, usanmaz haqq və ədalət tərəfdarı kimi tanıdır.

Böyük siyasi nüfuzu və böyük dövlətlərin müdaxiləsi ilə Heydər Əliyev 1994-cü ilin yazında müharibə cəbhəsində atəşkəsə nail olur. Bu nəfəs dərimi Azərbaycana lazım idi. Atəşkəs heç də müharibənin bitməsi demək deyildi. Müharibə – diplomatik danışıqlar müstəvisinə, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, beynəlxalq aləmdə tanıdılması işinə, dövlətin iqtisadi və hərbi potensialının gücləndirilməsi sahəsinə, eyni zamanda ideologiya və mənəviyyat cəbhəsinə keçirdi. Müharibə qəlblərdə, şüurlarda, cəmiyyətin və həyatın bütün sahələrində, ilk növbədə əqidə və amalda gedirdi – sarsılmış xalqın özünə-inamını qaytarmaq lazım idi. Azərbaycan yazıçılarının 1997-ci il oktyabrın 31-də keçirilmiş X qurultayında Heydər Əliyev çıxış edərək, bütün digər sahələr kimi, ədəbiyyatı da Qarabağ müharibəsi mövzusuna həssas olmağa çağırmışdı.

Aqil Abbasın "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz"[2] povestində Ulu Öndərin ani keçən inamlı obrazı 1990-cı illərin sarsıntılar dolu mənəvi ab-havasına bir işıq salır. Əsərin qəhrəmanı məğlubiyyətlə heç növ barışa bilməyən qaçqın – tarix müəllimidir. Respublika sarayında Prezident qarşısında çıxışında cəsarət edib, heç də ona həvalə olunanları deyil, düşündüyü həqiqətləri söyləyir. Prezident onu qəbul edir, durumu ilə maraqlanır. Məlum olur ki, mənəvi çarpışmalar içində çabalayan tarix müəllimi hazırda çayxanada çay paylayır, çünki şagirdlərə məğlub vətənin tarixindən danışmağa haqqı olmadığını hesab edir. Prezident tarix müəlliminin fikrinə hörmətlə yanaşır, amma mövqeyi ilə razılaşmır. Məğlubiyyətdən danışmağın özü yanlışdır, tarix müəllimi üçün isə bu ümumən bağışlanmazdır. Prezident müəllimi yenidən məktəbə qayıtmağa dəvət edir.

Hadisələrə və konkret insana Heydər Əliyev yanaşması obrazda dürüst əksini tapmışdır. Amal və əməlin vəhdəti – Heydər Əliyev

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.280

[2] Aqil Abbas. Çadırda Üzeyir Hacıbəyov doğula bilməz. Bakı, 1999

mənəvi düsturunun başlıca sirri bundan ibarətdir.

Keçid dövrünün ağır mənəvi durumu Sabir Rüstəmxanlının "Akademikin son əsəri" romanında da təcəssüm olunmuşdur. Birbaşa obrazı olmasa da, Heydər Əliyevin adı bu əsərdə də ən çətin məqamlarda səslənir. Romanın əsas personajlarından biri Ziyad Şıxlı Heydər Əliyevin qəti tərəfdarlarındandır. 20 Yanvar hadisələrindən sonra, dostu Əkbərin bağında yığışmış ziyalıların söhbətində bunu açıq bəyan edir: "Ziyad bəy ağsaqqala rəğbət bəsləyir, ona inanırdı və son hadisələrə münasibətini öyrənmək istəyirdi; gizlətmədən: "o gəlməsə, işlər düzəlməyəcək..." – deyirdi".[1] Romandan o da aydın görünür ki, Əkbər obrazının prototipi – Əjdər Xanbabayev, Ziyad bəyin prototipi – akademik Ziya Bünyadovdur, "ağsaqqal" deyəndə isə Heydər Əliyev nəzərdə tutulur. Heydər Əliyevin həyata keçirdiyi olduqca çətin müstəqil dövlət quruculuğu prosesində də "hakimiyyət partiyasını yaradanlardan biri" olan Ziyad Şıxlının narahat düşüncələri, "əliqırıq" dediyi yeni oliqarxlar"a, işbazlara, "köhnə kommunist"lərə qarşı barışmaz mövqeyi, sərt hərəkətləri Ulu Öndərə sevgi və inamdan doğur və qarşılıqlı münasibətlərə söykənir. Heydər Əliyev akademikdən şikayətə gələnləri, "Ziyad bəyin sərt və güzəştsiz çıxışlarından narazı olanları sakitləşdirir: - Onunla işiniz olmasın, xasiyyətini bilirsiniz. Pis niyyətlə danışmaz, mən özüm başa salaram onu..."[2] – deyə, dolayısı ilə tənqid və söz azadlığını dəstəkləyir. Akademiki: "Kimlə işləyim? Cəbhənin adamları özlərini dondurdular. Amma biz ölkənin donmasına imkan verə bilməzdik. Mən yenidən köhnə kommunistlərlə işləməyə məcbur oldum, hətta mənə xəyanət edənləri də, iş qabiliyyəti varsa kənarda qoymadım, çağırıb ətrafıma yığdım"[3] – deyə keçid dövrünün həqiqətlərinə sakit yanaşmağa çağırır.

Sabir Əhmədlinin "Kef" romanının[4] 1990-cı illərin acılarını yaşayan qəhrəmanı da müxtəlif cəmiyyət problemlərindən narazıdır; Qarabağ müharibəsi izlərini həyatın bütün sferalarına qoyub. İctimai problemlərlə yanaşı, üstəlik ziyalının məişət çətinlikləri qabarıqdır. Əsərin qəhrəmanı – yazıçı roman boyu Prezident sərəncamının işığına yaşayır; adının prezident təqaüdçüləri sırasına düşüb-düşmədi-

---

[1] Sabir Rüstəmxanlı. Akademikin son əsəri. Bakı, "Sabir Yazarlar Ocağı", 2017., s.57
[2] Yenə orada, s.284, 286
[3] Yenə orada, s.285
[4] Sabir Əhmədli. Axirət sevdası. Bakı, 2002

yinin intizarını çəkir. Sonda xalq yazıçılarının adının siyahıda olması ona müəyyən toxdaqlıq verir.

Keçid dövründə xüsusən ziyalıların həm maddi, həm mənəvi problemlər yaşaması reallıqdır. Afaq Məsud hələ 1994-cü ildə qələmə aldığı "Dahi" hekayəsində məxsusi qrotesklə qələm sahiblərinin həmin dönəmdə çıxılmazlıq durumunda çabalaması, az qala məhv olması mövzusunu aktuallaşdırır.[1] Prezident Heydər Əliyevin yaradıcı ziyalıları dolayısı yollarla himayə etməsi sənətə, sənətkara yüksək qiymətinin ifadəsi olub, həmin qayğıları azaltmağa yönəlmişdi. Sənət adamlarına münasibətdə Heydər Əliyevin müdrik və möhtəşəm obrazını görürük. O, Azərbaycan ziyalılarını həmişə ucada görmək istəyirdi. Müstəqil Azərbaycana rəhbərliyini 1993-cü ilin 20 sentyabrında ziyalılarla, elm, mədəniyyət, sənət adamları ilə görüşdən başlaması da təsadüfi deyildir. "Həmin toplantıda çıxışında Heydər Əliyev dedi: - Biz (mən şəxsən öz tərəfimdən deyirəm) demokratiyaya geniş yol açacayıq. Azərbaycan bundan sonra da öz dövlətini demokratik prinsiplər əsasında qurmalıdır və dövlət orqanları cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması üçün təminat yaratmalıdırlar. Ancaq gərək alimlərimiz də, ziyalılarımız da kənarda qalmasınlar, çalışsınlar, çarpışsınlar, həyatımızın bu ağır dövründə biganəlik etməsinlər. Əgər onların sözü bir dəfə qəbul olunmayıbsa, ikinci dəfə qəbul olunmayıbsa, üçüncü dəfə gəlsinlər. Anar burada şikayətləndi, mən onun şikayətləri ilə razıyam. Çünki doğrudan da, belədir, bu həqiqətdir. Ancaq bu o demək deyil ki, inciyib kənara çəkiləsən, heç birinizin inciməyə haqqı yoxdur..."[2]

Heydər Əliyev bütün sahələrdə mədəniyyət quruculuğuna örnək göstərir və ziyalılardan da eynən fəal olmağı gözləyirdi. Əjdər Olun kitabında həmin görüşlə bağlı mənalı bir lətifələşmiş əhvalat yer almışdır: "Azərbaycan Respublikası Ali sovetinin sədri, respublika prezidentliyinə namizəd Heydər Əliyev 1993-cü il sentyabrın 20-də Elmlər Akademiyasının əsas binasında ölkəmizin ziyalıları ilə görüşdü. Ziyalılar bir-bir tribunaya qalxıb respublikamızda yaranmış çətinliklərlə bağlı xeyli danışdıqdan sonra söz Heydər Əliyevə verildi. O, tribunaya çıxmadı və adəti üzrə ayaq üstə durub dedi: - Mən 1969-cu ildən bəri üçüncü dəfədir ki, bu salonda ziyalılarla görüşü-

---

[1] Afaq Məsud. Dahi. http://afaqmesud.az/az/posts/id:150

[2] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.90

rəm. İki dəfə demişəm, bu gün də təkrar edirəm: Siz tribunanı küncdən ortaya gətirin! (*Tribuna səhnənin küncündə qoyulmuşdu*) Mən küncə çəkilmək istəmirəm. Nə qədər ki, sizin tribuna küncdə olacaq, mən sizin tribunaya çıxmayacağam!”[1] Təbii ki, Heydər Əliyev eyhamında yalnız özünü nəzərdə tutmur, eyni zamanda yeni cəmiyyət quruculuğunda ziyalıları passiv mövqedə yox, hadisələrin mərkəzində görmək istəyirdi. Həqiqətən də, fəxarətlə demək olar ki, Ulu Öndərin istək və tövsiyələri, ziyalılara göstərdiyi etimad özünü doğrultdu, alimlər, yazıçılar, sənətçilər bir zaman sıxışdırıldıqları “künc”dən qurtulub, Müstəqil Azərbaycan elminin və mədəniyyətinin ən fəal təmsilçiləri oldular.

2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyində 1990-cı illərin çətinliklərini anaraq AMEA-nın prezidenti Akif Əlizadə demişdir: “Həmin dövrdə Elmlər Akademiyasını cəmiyyətin gözündən salmaq kampaniyası, totalitarizmlə mübarizə adı altında İttifaq strukturlarının ləğvi kimi Akademiyanı da ləğv etmək cəhdləri vəziyyəti daha da kəskinləşdirmişdi. Xoşbəxtlikdən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dahiyanə siyasəti sayəsində Elmlər Akademiyası öz bütövlüyünü qoruyub saxlaya bildi. Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi özümüzə və gələcəyimizə inam hissini qaytarmaqla, xalqımızın tarixi yaddaşında milli ideallara fədakarcasına xidmətin nümunəsi kimi qalacaqdır. İki faktı qeyd etmək kifayətdir. Biz iqtisadiyyatımızın ən çətin dövründə UNESCO çərçivəsində dahi Məhəmməd Füzulinin 500 illiyini və möhtəşəm Azərbaycan eposu “Kitabi-Dədə Qorqud”un 1300 illiyini böyük təntənə ilə qeyd etdik. Bütün bunlar əslində, Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə xidmət edərək xalqımıza onun milli mənəvi irsinin qaytarılması yolunda çox mühüm addımlar idi...”[2]

“Unudulmaz görüşlər” əsərində Anar canlı müşahidələr əsasında Heydər Əliyevi mədəniyyət quruculuğu prosesində bilavasitə izləyə bilir. Bu o məqamlardır ki: ölkəmizdə cahanşümul hadisələr baş verir; suveren, müstəqil, demokratik Dövlət və Cəmiyyət qurulur. Və bu inşaatın memarının özünün marağında idi ki, həmin pro-

---

[1] Əjdər Ol. Canlı lətifələr, əhvalatlar, deyimlər. Bakı, Qanun nəşriyyatı, 2015. s.23-24

[2] AMEA-nın 70 illik yubiley yığıncağında AMEA-nın prezidenti akademik Akif Əlizadənin çıxışı // www.science.gov.az

sesə yazarlar da qatılsın, cərəyan edən hadisələrin bilavasitə şahidi-iştirakçısı olsun, tarixçiliyini eləsin, salnaməsini yaratsın. Anar yazır: "Əgər sovet vaxtında Heydər Əliyev Azərbaycan rayonlarına çıxanda yazıçıları da özüylə aparırdısa, müstəqillik dövründə, prezident kimi xarici səfərlərə gedəndə ziyalıları da dəvət etməyə başladı. Bunun böyük əhəmiyyəti vardı. Heydər Əliyevi müşayiət edən jurnalistlər hadisələrin faktoloji tərəflərini işıqlandırır, informasiya xarakterli məlumat verirdilərsə, bu səfərlərin əhəmiyyətini, prezidentin xaricdəki davranışını, başqa ölkələrin liderlərilə danışıqlarını yazıçılar daha dərindən müşahidə və dəyərləndirə bilərdilər..."[1] Odur ki, "unudulmaz görüşlər"də bəzən Anarı Ulu Öndərin yanında Mədəniyyət məsələləri üzrə müşavir qismində görürük. "Kitabi-Dədə Qorqud"un 1300 illik, Məhəmməd Füzulinin 500 illik yubileyinin qeyd edilməsi tədbirlərində olduğu kimi.

Anar xatırlayır: "1995-ci il avqustun axırlarında "Manas" dastanının 1000 illik yubileyinə Bişkekə getdik. Burada da təntənəli iclasda Heydər Əliyev əsl filoloq kimi "Manas"ın ədəbi və tarixi əhəmiyyətindən, türk xalqlarının ortaq bədii dəyərlərindən danışdı. Yubileyə Türkiyənin və türkdilli dövlətlərin başçıları gəlmişdi. Onların zirvə toplantısına prezidentimiz məni və Yusif Səmədoğlunu da dəvət etmişdi. Hamısından məntiqli və müdrik Heydər Əliyevin danışdığını müşahidə edəndə qürur duyurduq... Sonra çadırlara dəvət olunduq. Heydər Əliyevə milli qırğız xələti və papağı hədiyyə etdilər, geyindi, boy-buxununa çox yaraşırdı. Sanki qarşımızda qədim türk Xaqanlarından biri canlanmışdı. Bu insanın bütün başqa xüsusiyyətlərindən başqa Allah vergisi olan uca qaməti, uzun barmaqlı ifadəli əlləri, hərəkətlərində bir kübarlıq da vardı. Fürsətdən istafadə edib:

- Cənab Prezident, biz də belə, bundan da gözəl Dədə Qorqud yubileyi keçirə bilərik – dedim.

- Dədə Qorqudun neçə illiyidir ki?.

- 1300 illiyini qeyd eləyə bilərik

- Niyə 1300?.

- Əlbəttə, dastanın motivləri, qaynaqları daha qədimdir, amma əlimizdəki mətndə Dədə Qorqudun Həzrət Məhəmmədin müasiri olduğu bildirilir, bu tutarğanı əsas götürmək olar.

- Bakıya gələndə bu barədə təkliflərini yaz – dedi.

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, Təhsil, 2009, 272 s., s.90

Bakıda xarici işlər naziri Həsən Həsənovun və mənim imzalarımızla Dədə Qorqud yubileyi haqqında təkliflərimizi yazdıq...”[1]

Beləliklə, ümumtürk, ümumoğuz abidəsi olan “Kitabi-Dədə Qorqud”un 1300 yaşının Bakıda ümumtürk ölkələrinin iştirakı ilə keçirilməsi ortaq türklüyün təntənəsi oldusa, YUNESKO səviyyəsində Parisdə məhz Azərbaycan türk eposu kimi tanıdılması Azərbaycan xalqının ümummilli qələbəsi oldu. Bu hadisənin müəllifi Ulu Öndər Heydər Əliyev idi.

1990-cı illərdə ölkənin iqtisadi baxımdan ağır durumda olduğu vaxtlarda Ulu Öndərin dövlət səviyyəsində mədəni tədbirlərə önəm verməsi, klassiklərin və görkəmli müasir sənətkarların yubileyini keçirməsi bəzi dar düşüncəlilərin çox da ağlına batmırdı. Bu baxımdan, Heydər Əliyevin portret çizgilərinə Səyyad Aranın “Heydər Əliyevin Amerika fəthi” əsərində əlamətdar detallara rast gəlirik. Prezidentin Dünya Bankının sədri Vulfinqsonla görüşündə mədəniyyət barədə maraqlı söhbət baş tutur. “Vulfinqson sözünə davam etdi ki, mədəniyyətin inkişafı çox mühüm məsələdir. Həm də kövrək sahədir, dövlətdən həmişə diqqət tələb edir. Mədəniyyət insanlara xeyirxahlıq öyrədir, yaxınlaşdırır, nəcibləşdirir. Hörmətli prezidentimiz Vulfinqsonun bu mövzuya yenidən qayıtması və geniş şərhindən nəsə duyaraq davam etdi:

- Mən hələ SSRİ hökumətinin rəhbərlərindən biri olarkən bu sahəni daim diqqət mərkəzində saxlayırdım. Məni keçmiş Sovet hökumətində mədəniyyətin hamilərindən biri kimi tanıyır və sevirdilər. Dünyada tanınmış mədəniyyət xadimlərinin yubiley tədbirlərinə məni tez-tez dəvət edirlər.

- Məsələn? – Vulfinqson özünü saxlaya bilmədi.

- Bu ilin aprel ayında Parisdə maestro Rostropoviçin 70 illik yubileyində iştirak etmişəm.

Vulfinqson təəccübləndi: - Doğrudanmı? Mən də oradaydım, necə olub ki, sizi görməmişəm. Siz harada əyləşmişdiniz?

- 3-cü sırada, xanım Şirakın yanında.

Vulfinqsonun gözləri aralandı: - Hə... Amma məni amfiteatra “qovmuşdular”.

Heydər Əliyev zarafatla gülümsəyərək dedi: - Bəs nə bilmişdi-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, s.92-93

niz. Amfiteatr sizin yerinizdir, ora da mənim. Yoxsa gəlib mənimlə yanaşı oturacaqdınız?!

Dünya Bankının sədri əlini-əlinə vuraraq ləzzətlə uğundu və dedi: - Haqlısınız, əlbəttə, hərənin öz yeri var..."[1]

İki şəxsiyyət və mədəni insan arasında həmin səmimi dialoqun sonu olduqca mənalı nəticə ilə bitir. Məlum olanda ki, Heydər Əliyev Mstislav Rostropoviçlə həm də ailəvi dostdur, Parisdən sonra onun yubileyi Bakıda da keçirilib, atası da Azərbaycanın məşhur musiqiçisi olub, yaşadıqları ev muzeyə çevrilib, adlarına təqaüd yaradılıb, üstəlik Rostropoviç söz verib ki, hər il Bakıya gəlib, öz zəngin biliyini gənc musiqiçilərə öyrədəcək, mədəniyyətin yaratdığı xoş ünsiyyət daha da artır. Vulfinqson Slavanın ona bağışladığı violonçeli gətirib göstərir, bir vərəqdə Heydər Əliyevdən avtoqraf alır ki, onunla görüşdüyünü Rostropoviçə sübut etsin və deyir: "- Cənab prezident, Siz ki, mədəniyyətə və tanınmış mədəniyyət xadimlərinə belə diqqətlisiniz, bəyan edirəm: bundan sonra Azərbaycana mədəniyyət məsələlərini daha da yaxşı inkişaf etdirmək üçün ildə on milyon dollar faizsiz kredit ayırıram..." Azərbaycan çətin zamanlarda mədəniyyətin inkişafı üçün mühüm olan dividendi belə qazanır. Müəllif vurğulayır: "Mən isə bildirirəm ki, bu 10 milyon dollar Heydər Əliyev şəxsiyyətinə hörmətin, məhəbbətin sübutudur. Ən sadə dillə desək, bu qədər vəsait Heydər Əliyevin səmimiyyətinə, mədəniyyətə münasibətinə hədiyyə edilmişdir..."[2]

Heydər Əliyevin dövlətimizin mədəni siyasətində bugün də prioritet yer tutan multikulturalizmə rəvac verməsi faktına isnadən, akademik Kamal Abdulla qeyd edir: "Cəmiyyətdə yaşayan hər xalqın etnik-mədəni dəyərləri onun inkişafı üçün öz töhfəsini verir. Bununla əlaqədar Ümummilli Lider Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri... ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Azərbaycan Prezidenti İlham Əliyevin dövlət siyasəti səviyyəsinə qaldırdığı, bütün dünyada razılıqla, örnək olaraq qarşılanan Azərbaycan multikulturalizminin danılmaz uğurlarının zəminində məhz Ulu Öndərin müəyyənləşdirdiyi mədəniyyət siyasəti durur: "Ümummilli Lider Heydər Əliyev öz uzaqgörən, müdrik

---

[1] Səyyad Aran. Heydər Əliyevin Amerika fəthi // Səyyad Aran. Üfüqdə Nobel Sülh Mükafatı görünür. Bakı, "Azərbaycan" nəşriyyatı, 2003, s.16-34; s.20-21

[2] Yenə orada, s.22

siyasəti ilə əsrlər boyu formalaşmış Azərbaycanın çoxmədəniyyətlilik (multikultural) ənənəsini bərpa edərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı”.[1]

Başqa bir faktı “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” kitabından oxuyuruq: “1990-cı illərin ortaları üçün olduqca çətin durumda olan Azərbaycan Yazıçılar Birliyinə Heydər Əliyev Dövlət himayəsini bərpa etdi. Birliyin əsas nəşrləri – “Ədəbiyyat qəzeti” və “Azərbaycan” jurnalının dövlət hesabına çıxması təmin olundu. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, İlyas Əfəndiyev və b. XX əsr ədəbiyyatı korifeylərinin yubiley mərasimlərinin də təntənəli surətdə qeyd olunması ədəbiyyata ümumxalq sevgisinin qaytarılmasında böyük rol oynadı. Heydər Əliyevin klassiklərlə yanaşı, müasir yazıçıları da dəyərləndirməsi, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi canlı klassiklərə xəstə ikən baş çəkməsi, qayğı göstərməsi, Məmməd Araz, Mirvarid Dilbazi, Anar, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov və b. yazıçıların yubileylərində iştirakı, Xalq yazıçısı fəxri adı, İstiqlal və Şöhrət ordenləri ilə təltif etməsi də ədəbiyyata diqqətin qayıtmasını nümayiş etdirirdi. Ümummilli liderin 1997-ci ilin oktyabr ayında keçirilən Azərbaycan Yazıçıları Birliyinin X qurultayında şəxsən iştirakı, qurultaydan qabaq Prezident İqamətgahında yazıçıların nümayəndələri ilə, həmçinin ədəbi gəncliklə səmimi görüşləri ədəbi ictimaiyyətdə böyük ruh yüksəkliyi yaratdı”.[2]

Azərbaycan Yazıçılar Birliyinin 1997-ci il oktyabrında keçirilən X qurultayında Heydər Əliyev Birliyin işinə yüksək qiymət verdi: “Mən hesab edirəm ki, Azərbaycan Yazıçılar Birliyi bu altı il müddətində – keçən qurultaydan indiyə qədər – çox iş görübdür. Yazıçılar Birliyini qoruyub saxlayıb, onun parçalanmasına, dağılmasına yol verməyiblər. Görürsünüz, bu altı ildə bizim Azərbaycanın başına nə işlər gətiriblər. Yazıçılar Birliyi də bütün bu sınaqlardan, imtahanlardan keçibdir. Ona görə də şəxsən mən belə hesab edirəm ki, bunu yüksək qiymətləndirmək lazımdır. Yazıçılar Birliyinə rəhbərlik edən şəxslərin fəaliyyətini yüksək qiymətləndirmək lazımdır”.[3]

---

[1] Kamal Abdullayev, Müstəqillik illərində multikulturalizm və tolerantlıq) // Müstəqillik yollarında-25. Bakı, Şərq-Qərb Nəşriyyatı, 2016, s.504-505

[2] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., s.78

[3] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, s.111

Çıxışında Azərbaycan ədəbiyyatının keçdiyi tarixi yolu yüksək qiymətləndirən Ulu Öndər bugününə də önəm verdi.

***

Xalq yazıçısı Anar 2003-cü ilin dekabrında qələmə aldığı "Qalib gəldi, qalib getdi" vida yazısında Ulu Öndərin həyat yolunu, uzun ömür dastanını görükdürə bilən yığcam bir obraz-ifadə işlədir – Qalib! "Dünyaya qalib kimi gəldi, dünyadan qalib kimi getdi..."[1] Yazıçının düzgün sezdiyi bu Obraz Heydər Əliyevin tərcümeyi-halının bütün pillələri, dönəmləri, nöqtələrində bir insan kimi, şəxsiyyət kimi, fenomen kimi tarixi fəaliyyətinin başlıca uğurlarını, nəticələrini, yekunlarını özündə qapsayır. Və Ulu Öndər haqqında yazılan bütün əsərlərdə təsbitini tapır. Bioqrafları həyat tarixçəsinin hər mərhələsində Heydər Əliyevi qalib kimi görür və qələmə alırlar.

Viktor Andriyanov və Hüseynbala Mirələmov "Heydər Əliyev" əsərində sanki sıradan bir faktı, amma Heydər Əliyevin xarakterindəki qətiyyəti, özünə arxayınlıq və inamı, son nəticəyə qədər əzmkarlığı ifadə edən bir hadisəni yada salırlar. "Leninqrad Xüsusi Məktəbini bitirəndən iki il sonra Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olur, müharibənin imkan verməidiyi işi indi həyata keçirmək lazım gəlirdi. Çünki çalışdığı işlə əlaqədar ona ali təhsil lazım idi. Qiyabi oxumaq məcburiyyətində qalır..."[2] Qəbul imtahanı zamanı "SSRİ tarixi" və "Azərbaycan dili"ndən "əla", "Rus dili və ədəbiyyatı"ndan şifahi imtahandan "əla", yazılı imtahandan "yaxşı" qiymət alır; "Hərçənd ki, o, inşada bircə səhv belə buraxmadığına tam əmin idi". Onunla bir yerdə imtahan vermiş Dövlət Məmmədov xatırlayır: "Müəllim öz dediyindən dönmədi, bildirdi ki, yazı verilən qiymətə layiqdir, hara istəsən, şikayət edə bilərsən..." Rektora şikayətə gedən "inadkar abituriyenti yeddi nəfərlik komissiya sınağa çəkir" və Heydər Əliyev istədiyinə nail olur: "S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin abituriyenti Heydər Əlirza oğlu Əliyevin 2659 nömrəli imtahan vərəqi bizim qarşımızdadır. Üçüncü qrafada "Rus dilindən yazılı imtahan"ın qarşısındakı "yaxşı" qiymətinin üstündən xətt çəkilə-

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, "Təhsil", 2009, s.41

[2] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.456

rək "əla" yazılıb. Aşağıda belə bir dərkənar var: yazılmış "əla" nəticəsinə inanmalı. İmza. Komissiyanın sədri öz həmkarına görə üzr istəyir..." Müəlliflər ümumiləşdirirlər: "O, tarixin ilk imtahanından dəyanətlə çıxdı. Qəbul imtahanı "əla" qiymətlə verilib, diplom da "əla" qiymətlərlə müdafiə olunub".[1]

Heydər Əliyevin obrazını yaratmağa çalışanlar daim sual verir: onu qələbəyə aparan, həyatın və tarixin bütün sınaqlarından hər dəfə qalib çıxaran hansı keyfiyyətlərdir? Fitri istedad, universal bacarıqlar – öz yerində, bir qədər mücərrəd görünən bu xassələr ümumən dahi insanlarda olur. Heydər Əliyev xarakterinin sirri son dərəcə düzgünlüyü, həqiqətpərəstliyi, haqqa, ədalətə inam hissində gizlənir. Fəaliyyətinin zirvəsində: "Qoy ədalət zəfər çalsın!" – deyə bütün dünyaya hayqıran Heydər Əliyevi lap əvvəldən qələbələrə doğru səsləyən və aparan həmin ali ictimai duyğu olmuşdur. Haqqın, həqiqətin, ədalətin qələbəsi uğrunda səylər, çalışmalar, çarpışmalar Heydər Əliyevin xarakterində zəhmətkeşlik, işgüzarlıq, əzm və inadkarlıq, özünəinam, ən nəhayət, müasirlərinin qeyd etdiyi kimi: "dəmir iradə" formalaşdırmışdır. Haqqında yazılan bütün əsərlərdə Heydər Əliyev "İradə mücəssəmi" kimi təqdim olunur. Ulu Öndərin özü bu cəhəti siyasi rəhbər üçün vacib hesab edir: "Rəhbər işçinin İRADƏSİ olmalıdır, böyük İRADƏSİ. Hər bir rəhbər işçi bütün varlığı ilə dərk etməlidir ki, o öz xalqının, öz millətinin, öz torpağının keşiyində dayanmalıdır. Yəni sən kənara çəkilib yalnız öz maraqlarını düşünməməlisən. Özünü yalnız bu işə həsr etməlisən..."[2]

Bütün bu xassələrlə yanaşı, sözsüz ki, Heydər Əliyev fenomenini yetirən onun böyük sevgisidir – həyat sevgisi, İnsan sevgisi, Xalq sevgisi, Millət sevgisi!; biliyə, elmə, mədəniyyətə, bəşəriyyətə sevgisi! 1987-ci ildə, ömür yolunun zirvə çağında Heydər Əliyevi istefaya göndərməyə vadar edəndə, haqqın, ədalətin nə qədər pozulduğunu gözəl bilirdi. Ən adi həyat məsələlərində belə haqqın tərəzisinin əyilməsinə dözməyən Heydər Əliyevin daxili dünyasında, şəksiz ki, belə bir ədalətsizliyə qarşı böyük etiraz, ehtiras, qəzəb duyğuları oyanır. Adına, şəxsiyyətinə, fəaliyyətinə qarşı qarayaxma kampaniyası başlayanda, "köməksiz" durumu ilə heç vəch barışmır, o böyük İradə mücəssəmi ayağa qalxır, haqqını tələb və yalanları ifşa

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.457

[2] Yenə orada, s.285

edir. Kükrəyən qəzəb və haqq səsilə hakimiyyətin ən yuxarı pilləsində oturanları belə vahiməyə salır. Bu, artıq Heydər Əliyevin böyük mənəvi qələbəsi idi.

Amma təkcə özünə qarşı deyil, bir parçası olduğu xalqının da haqqının pozulduğunu, misilsiz təzyiq və hücumlara, müharibə və məhrumiyyətlərə məruz qaldığını görüb, Azərbaycan xalqına qarşı aparılan qeyri-bərabər döyüşdə kənarda qala bilmir; bütün bilik, səriştə və bacarığını xalqının xidmətinə yönəldərək, Xilaskarlıq missiyasının altına girir, dahiliklə qeyri-mümkünü mümkün edir və xalqına qələbə qazandırır. Heydər Əliyevin böyük siyasətə qayıdışını, dünya siyasətçiləri, haqqında bəhs açan müəlliflər məhz bu cür – qeyri-mümkünün mümkünə çevrilməsi kimi yozmuşlar. "Deyirlər, bir çaya iki dəfə girmək mümkün deyil... Heydər Əliyeviç isə bu fikri alt-üst etdi. Biz də çox xoşbəxtik ki, Azərbaycan xalqının belə bir lideri var..." – bunu Şimali Osetiya Prezidenti Aleksandr Sergeyeviç Dzosoxov deyir.[1]

Böyük tarixi missiya daşıyanları Allah qoruyur – Ulu Öndərin Müstəqil Azərbaycan uğrunda çarpışmalarını yazarlar belə təfsir edir. Bütün təzyiq və ölümlə hədələmələrə baxmayaraq, Ulu Öndərin vətənə qayıtması, müxtəlif hakimiyyətlər zamanı qiyam və çevriliş cəhdlərindən qalib çıxması, Azərbaycan prezidentinin xarici səfərlərdən dönən zaman ona qarşı hazırlanan neçə-neçə sui-qəsdlərin üstünün açılması faktlarını dəlil gətirərək, "Heydər Əliyev" sənədli əsərinin müəllifləri bu qənaətə gəlir. Rusiya naziri Şafranik: "O, tarixin ən çətin sınaq dönəmində ən mühüm işləri görmüşdü. Belə ki, yaradanın özü onu məsləhət bilib Azərbaycana bəxş etmişdir"[2] – deyir. Missiyasını dərk edən, inamına, əqidəsinə daim sadiq olan, yalnız və yalnız qələbəni düşünən Heydər Əliyev özü də mənəvi bir arxayınlıqla uca yaradana söykənir, "hər dəfə bu haqda söz düşəndə təbəssüm və daxili bir inamla": "Mən ölümdən qorxmuram. Çünki məni Allah qoruyur" – deyirdi.[3]

Professor Qəzənfər Paşayev "Tarix qurub-yaradanları yaşadır" essesində yazır: "Tarixdən məlum olduğu kimi, hər hansı bir xalqa bəla üz verəndə, Tanrı onun xilaskarını da göndərir. Elə götürək Azərbaycanımızı. XX əsrin əvvəllərində Azərbaycan bəla, faciə ilə

---

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, s.449
[2] Yenə orada, s.376
[3] Yenə orada, s.507

üzləşəndə Qafqaz İslam Ordusu Azərbaycanı xilas etdi. XX əsrin sonlarında isə bu müqəddəs missiyanı Heydər Əliyev yerinə yetirdi...” Tanrıdan Azərbaycan xalqının xoşbəxtliyinin nəsibi olan Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü müəllif əbədiyyətdə axtarır: “Xalq qarşısında misilsiz xidmətlərinə görə xalqın xatirəsində əbədi yaşamaq hüququ qazananlardan, güvənc yerinə çevrilənlərdən biri də XX əsrin görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevdir. Öndərimizin heykəllərinin ucaldılması, şərəfinə parklar salınması və s. çox yaxşıdır. Lakin gördüyü əzəmətli işlərin müqabilində azdır. Gündəmdə Ümummilli liderimizin əzəmətini, möhtəşəmliyini çeşidli əsərlərlə xalqın şüurunda yaşatmaq, əbədiləşdirmək durur. Bu, hər bir ziyalının, yaradıcı adamın vicdan borcudur...”[1]

Ulu Öndərin ölüm üzərində ən böyük qələbəsi Ölməzlik obrazında təcəssüm tapmışdır. Bu obrazı millət vəkili, yazıçı Hüseynbala Mirələmovun “Amalın işığı” (2002), “Həqiqət” (2003), “İşığın izi ilə” (2004), “Millətin atası” (2004) adlı publisistik düşüncələr, portret cizgiləri, tarixi esselər, müsahibələrdən sıralanmış kitablarında leytmotiv kimi görürük. “Mənim tərənnüm etdiyim insandır: Xəzərə, Qafqaza bənzəyən insan. Mən səni tərənnüm edirəm, İnsan. Sənin böyüklüyünü, sənin əzəmətini, sənin qüdrətini tərənnüm edirəm. Sənin yenilməzliyini, sənin ecazkar, daim narahat, bəzən doğma Xəzər kimi qəlbindən çağlayan duyğuların dalğalanmasını, sənin böyük humanizmini, böyük erudisiya və tükənməz enerjini, mənəvi potensialını görməmək, duymamaq korluq olardı. Qoca Qafqazın sərt, keçilməz yamacları dəhşətli olayların, qanlı savaşların şahidi olub. Cahangirlər dünyadan keçib gedib. Amma Qafqaz öz qüruru, əzəməti, dağ səbri, dağ dözümü ilə gələcəyə gedir. Mənim tərənnüm etdiyim İnsanın özü Qafqaz timsallıdır. Mənim tərənnüm etdiyim İnsanın sözü Xəzər bənzərlidir”.[2]

“İşığın izi ilə” tarixi-ədəbi essesi Ulu Öndərin, dahi insanın vəfatından yaşanan dərin kədərdən, ovudulmaz ağrılardan, ümummilli liderə, ali rəhbərə sevgi duyğularının tüğyan edən, qaşısıalınmaz selindən yaranıb. Heydər Əliyev ömrünün işğından qopub gələn ayrı-ayrı məqamlar, xatırlamalar, lövhələr, tarixi şəxsiyyətin Vətəni, mil-

---

[1] Qəzənfər Paşayev, Seçilmiş əsərləri. Yeddi cilddə. IV cild. Bakı, “Təhsil”, 2012, s. 109; s.108

[2] Hüseynbala Mirələmov. Amalın işığında. Bakı, “Azərbaycan” Nəşriyyatı, 2002, 272 s., s.14

ləti, xalqı üçün fədakar əməlləri, misilsiz xidmətləri kino lenti kimi göz önündən keçərək müqəddəs kədəri ölməzlik obrazına çevirir, amansız itkidən doğan iztirablar tədricən əbədiyyət işığının aşıladığı nikbin duyğularla əvəzlənir: "Karvan Şəhidlər xiyabanının yanından keçir. Azərbayan həqiqətləri uğrunda Ən Böyük Şəhid şəhid məzarlarının yanından ehtiramla keçir. Buradakı əbədi məşəlin mavi alovu onu salamlayır. Şəhidlər xiyabanı bu gün qırmızı rəngdə görünür. Bayrağımızda qırmızı rəng var. Qırmızı rəng müasir dünyanın simvoludur. Sivilizasiyanın rəmzidir. Bəlkə, bir qədər konkret desək, avropalaşmaq deməkdir. Zənnimcə, bu rəng həm də bizim azadlığımız uğrunda mübarizələrimizdə axıtdığımız qanların rəngidir...

Heydər Əliyev Azərbaycanın üzünə Avropanın qapılarını açdı. Azərbaycanı sivil dünyaya qovuşdurdu. Azərbaycanı qırmızı rəngə qovuşdurdu. Azərbaycan bayrağı tarix ağacının zirvəsində əbədi dalğalanacaq".[1]

Heydər Əliyev obrazının əbədiyyəti yolunda özünü çıraq kimi yandırdığı Azərbaycan xalqının əbədi varlığında yaşadır: "İndi Heydər Əliyev dünyanın hər yerində var. Əlbəttə, Azərbaycan həqiqətləri harda varsa, harda bir azərbaycanlı, harda öz xalqını sevən bir soydaşımız varsa bu insanı öz qəlbində, mənəviyyatında duyur. Heydər Əliyev təbiətin özü qədər orijinal, təbiətin özü qədər ecazkar, zəngindir".[2]

"Salam, Heydər baba! Bu gün – mayın 10-u sənin anım yox, ad günündür! Ölənləri anarlar, sən ki ölməmisən!.." – deyə, emosional lirik ricətlə başlanan "Möhtəşəm məktub" adlı essesində Əsəd Cahangir Ulu Öndərin həyat yoluna Ulu peyğəmbərdən qalan və daim zəfərlərə səsləyən müqəddəs amal və əməllər işığında: Bisət, Dəvət, Hicrət və Nüsrət məcazları sırasından nəzər salır. Heydər Əliyev obrazının əbədiyyətini buludsuz Vətənin göylərində tapır: "Bu, Sənin Nüsrətin idi! Bu, sənin son qələbən idi! Sən Azərbaycan siyasətinin peyğəmbəri idin! Sənin Quranın qurduğun Azərbaycan idi! Qoy sənin ölməz ideyaların müqəddəs, üçrəngli, ay-ulduzlu bayrağımız kimi Vətənin buludsuz göylərində əbədi dalğalansın!"[3]

Anar yazır: "Heydər Əliyev hər xalqa, bəlkə də, əsrdə bir dəfə

---

[1] Hüseynbala Mirələmov. İşığın izi ilə. Bakı, "Azərbaycan" Nəşriyyatı, 2004. 288 s.; s.84-85

[2] Hüseynbala Mirələmov. Həqiqət. Bakı, "Azərbaycan" Nəşriyyatı, 2003. 448 s.; s.186

[3] Əsəd Cahangir. Möhtəşəm məktub // Tənqid.net jurnalı, № 10, 2013, s.38-40; s.40

qismət olan qənimət, nadir şəxsiyyət idi. Həyata qalib kimi gəlmişdi. Xalqı vəfatıyla sarsıdan, sarsıdaraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı. Kim nə deyir desin, nə yazır yazsın, qalib gəldi, qalib getdi”.[1]

***

Ədəbiyyatda Heydər Əliyev fenomeni həm də son əsrin, son dövrün ən böyük azərbaycanlısı obrazı ilə təfsir tapmış, yaddaşlara yazılmışdır. 1993-cü ilin iyununda hakimiyyətə qayıdışı ilə, elə ilk çıxışlarından Azərbaycançılığı əsas məfkurəmiz olaraq bəyan etmiş, 1995-ci ildə Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında Azərbaycançılıq dövlət ideologiyası kimi qəbul olunmuşdur. “Azərbaycançılıq məfkurəsini publisistikaya XIX əsrin axırlarında Məhəmmədağa Şahtaxtlı, ədəbiyyata XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə, milli siyasətə, dövlətçilik təliminə isə keçən yüzilliyin sonlarında qüdrətli siyasi xadim Heydər Əliyev gətirmişdir. Məhz Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində azərbaycançılıq təlimi müstəqil Azərbaycanın dövlətçilik ideologiyasına çevrilmişdir”.[2] Lakin hələ buna qədər də Azərbaycançılıq Heydər Əliyevin həyatının əsas qayəsini, amal və əməllərinin cövhərini təşkil etmişdir. Heydər Əliyev klassik milli dəyərlərimizə söykənən Müasir Azərbaycançılıq təliminin yaradıcısıdır. Bütün ömrü boyu Heydər Əliyev bir insan, vətəndaş kimi də, vəzifə sahibi, rəhbər kimi də azərbaycanlı qiyafəsi, mənəviyyatı, xarakteri, mentallığında nəfəs almış, yaşamış, Azərbaycan naminə böyük işlər görmüşdür. Bədii-sənədli xronikalar onu məhz bu obrazda tanıdır. Ulu Öndərin bugün dillərdə gəzən, həyat devizi və örnəyə çevrilən “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” düsturunu Heydər Əliyev bütün ömür yolunun sınaqlarından keçirib təsbit etmişdir.

Nəzərdən keçirdiyimiz ədəbiyyat da təsbit edir: o yerdə ki, özgə maraqlar Azərbaycan mənafeyi ilə qarşılaşır, Heydər Əliyev şəksiz Azərbaycanın mövqeyində durur, Azərbaycan adına və Azərbaycan adından çıxış edir. Milli dəyərləri və millətin adını ucaldır, milli ziyalıları dissidentizmdən qoruyur, sovet dövlətinin imkanlarından

---

[1] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2009, s.41

[2] İsa Həbibbəyli. Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası // Müstəqillik yollarında 25. Bakı, Şərq-Qərb Nəşriyyatı, 2016, s.76-92

Azərbaycan naminə bəhrələnir, şəxsiyyəti ilə Moskvada Azərbaycanı təmsil edir, eyni zamanda Azərbaycanın himayəçisi olur, Müstəqil Azərbaycanın xilaskarı və dövlət müstəqilliyimizin qarantı kimi çıxış edir, Dünya azərbaycanlılarının həmrəyliyi gününü təsis etməklə "dünya azərbaycanlıları" anlayışını formalaşdırır, Azərbaycan torpaqlarının düşməndən azad olunması və azad millət olaraq inkişafı, yüksəlişi, müasir dünyada layiqli yerini tutması yolunda durmadan çalışır, çalışır, hər yerdə, daima böyük Azərbaycanlı obrazını təmsil edir. 2001-ci ildə keçirilən Dünya Azərbaycanlılarının I qurultayında Ulu Öndər milli həmrəyliyi bütün soydaşlarımıza – bugünkü və gələcək nəsillərə ismarlamışdır: "- Biz azərbaycanlıyıq. Azərbaycan hamımızın vətənidir. Bu torpaq bizi bir millət, bir xalq, bir şəxsiyyət kimi yetişdirib. Ona görə hər birimizin qəlbində azərbaycanlı ruhu var. Məhz bu azərbaycançılıq ruhu, ideyası bizi bir-birimizlə birləşdirən, daha çox möhkəmlədən amilə çevrilib. Hər bir dövlətdə milli ideologiya mövcuddur. Azərbaycan Müstəqil respublikasının milli ideologiyası – azərbaycançılıq ideologiyasıdır".[1]

***

Ulu Öndər Heydər Əliyevin adı, arzu və əməlləri onun ideya və ideallarında yaşayır. Gündən-günə yeniləşən, çağdaş dünya meridianlarında yerini axtaran, Şərqdən Qərbə, Qərbdən Şərqə gedən yolların qovşağında hər gün daha da çox mərkəz, görüş, ünsiyyət məkanı rolunu oynayan, bəşəriyyətin taleyini düşünən ictimai-siyasi, tarixi-mədəni, qlobal, milli və multikultural ideyaların, ideologiyaların, müzakirə və tədbirlərin əsl sınaq meydanına çevrilən ən yeni Azərbaycanın obrazı məhz Heydər Əliyev ideya və ideallarının təcəssümüdür. Bu yeni əsərin, yeni Azərbaycanın qəhrəmanı – Heydər Əliyev yolunun layiqli davamçısı, Ulu Öndərin Azərbaycançılıq təlimini yeni tarixi şəraitdə yaradıcı şəkildə inkişaf etdirən, Azərbaycan adını, Azərbaycan xalqının xoş niyyət və məramlarını hər gün dünyaya daha da çox tanıdan, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir. Yeni əsrin və əsərin qəhrəmanı haqqında ilk nümunələrin bədii-sənədli janrda yaranması da təəccüblü deyil. Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "İlham Əliyev" (2007), Elmira Axundo-

[1] Viktor Andriyanov, Hüseynbala Mirələmov. Heydər Əliyev, Bakı, "Nurlan", 2008, s.488

vanın "İlham Əliyev. Dəyişmələr fonunda Prezidentin portreti" bədii-sənədli əsərləri[1] əsrin qəhrəmanının simasında ən yeni Azərbaycanın qazandığı qlobal uğurları, XXI əsrdə dünyaya səs salan yeniləşən Azərbaycanı görməyə imkan verir. Bu həm də Heydər Əliyev ideyalarının gerçəkliyi və qələbəsidir. Əslində, bugün milli ədəbiyyatda yaranan hər bir dəyərli əsərdə bütün uğurları, çətinlikləri, irəliyə doğru addımları ilə birgə Ulu Öndərin təməlini qoyduğu müasir Azərbaycanın obrazı var. Obrazın hüdudları və hüdudsuzluğu bu parametrlərdə görünür, gerçəkləşir.

---

[1] Вах: Виктор Андриянов, Гусейнбала Мираламов. Ильхам Алиев. ЖЗЛ. Москва, Молодая гвардия, 2007; Эльмира Ахундова. Ильхам Алиев. Портрет президента на фоне перемен. Москва, РОССПЕН, 2016

# DAHİYƏ LAYİQ BƏDİİ-SƏNƏDLİ EPOPEYA

Hər bir cəmiyyətdə siyasi liderin mövqeyi danılmazdır. Son illər ictimai-siyasi həyatımızda baş verən dəyişikliklər fonunda xalqı çaxnaşmadan qurtaracaq, millətinə yol göstərəcək siyasi xadimin obrazı xüsusi aktuallıq kəsb etmişdir. Bir çox ölkələrin ən çətin zamanında xalqı parçalanmadan qoruyan, onun milli tamlığını, xalq olaraq mövcudluğunu təmin edən qəhrəman liderləri olmuşdur. Azərbaycan xalqı üçün bu insan, şəksiz ki, XX-XXI əsrin siyasi arenasında müstəsna mövqeyə malik olan Ulu Öndər Heydər Əlirza oğlu Əliyevdir.

Son illər bədii-sənədli nəsrə marağın artmasının əsas səbəbi həyatın mürəkkəbləşməsi, reallığın dramatikliyidir. Post-sovet məkanında bir çox tarixi şəxsiyyətlər haqqında siyasi bioqrafiyalar yazılmışdır. Bioqrafik əsərlərin qəhrəmanları dövrünün tanınmış, seçilmiş insanları olur. Müəllif qəhrəmanı olacaq şəxsə xüsusi simpatiya və ehtiramla yanaşır. Bu heyranlıq bəzən bioqrafik qəhrəmanın təsvirinə mənfi təsir göstərir, sxematik obrazın yaranmasına səbəb olur. Bu səbəbdən də son illər yazılan, əsasən rekonstruktiv yanaşmanın yer aldığı əsərlərdə sənədin önə çıxması yer alır, öz xatirələrinə geniş yer ayırmadan, faktlara instinad edən yazıçı materialları şərh edərək ümumiləşdirmələr aparır, əsasən başqa insanların fikirlərinə istinad edir.

Post-sovet dövründə bir çox siyasi liderlərin obrazlarına maraq olsa da, bəzi liderlərin portretlərinə az təsadüf edilir. Siyasi xadimlərin xasiyyətindəki qapalılıq, insanlardan, ünsiyyətdən uzaq olmaları onların bədii portretlərinin yaranmasına əngəl olur. Heydər Əliyev ünsiyyətcil xasiyyəti, xarizmatik görkəmi, natiqlik qabiliyyəti ilə seçilən, mətbuata açıq, cəmiyyətlə təmasdan zövq alan insan olduğundan daim insanların maraq dairəsində olmuşdur.

Bioqrafik əsərdə şəxsi təəssüratdan doğan qeydlər canlı və emosional hisslər oyadır. Bu əsərlərin müvəffəqiyyəti yazıçı səriştəsindən asılı olmaqla yanaşı, həm də canlandırılan obrazın zənginliyi, şəxsiyyət olaraq maraqlı insan olması ilə bağlıdır. Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti bədii təsvir üçün cox zəngin bir material verir.

Ulu Öndərin ədəbiyyata, sənətə xüsusi münasibəti, ədəbiyyatın dostu, himayədarı olaraq çıxış etməsi ədəbiyyat insanlarında ona

qarşı xüsusi bağlılıq yaratmışdır. Bu səbəbdən də o, son illər yazılan yazıçı xatirələrinin əsas obrazına çevrilmişdir. Xalq yazıçıları Anarın, İsa Muğannanın, həmçinin Vidadi Babanlının, Mark Verxovskinin və başqa bir çox insanların bədii-sənədli əsərlərində Heydər Əliyevin obrazı ehtiramla anılır.

Beynəlxalq arenada yaxşı tanınan Milli öndərin portreti yalnız yerli yazarlar deyil, həm də xarici müəlliflər tərəfindən rəğbətlə canlandırılmışdır. Hüseyn Adıgözəlin "Zirvə. Heydər Əliyevin həyatı", Nikolay Zenkoviçin "Heydər Əliyev. Taleyin döngələri", Aleksandr Adler və başqa müəlliflərin kitabları bu təkrarsız insanın siyasi fəaliyyətinə, həyatına yeni baxış ehtiva edir.

Bu əsərlər içində həm həcmi, həm sanbalı ilə seçilən, bir çox müasirlərimiz tərəfindən yüksək qiymətləndirilən romanlardan biri yazıçı-publisist, ictimai xadim, millət vəkili Elmira Axundovanın 6 cildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" bioqrafik tədqiqat romanıdır.[1] Müəlliflər çox zaman Heydər Əliyevin həyatında bəzi məqamları (Viktor Adriyanov və Hüseynbala Mirələmov), onunla görüşlərini (Anar, Vidadi Babanlı, İsa Muğanna, Mark Verxovski) təsvir edirlərsə, Elmira Axundovanın Ulu Öndərlə uzun illər tanışlığının bəhrəsi olan bu kitabda Heydər Əliyevin həyatı və ictimai-siyasi fəaliyyəti tam şəkildə əhatə olunmuşdur (1923-2003-cü illər). Yazıçının janrını bioqrafik roman–xronika olaraq müəyyənləşdirdiyi əsərdə xalqımızın tarixinin böyük bir dövrü əks olunmuş, Azərbaycanın görkəmli siyasi xadimi Heydər Əliyev yeni Azərbaycanın qurucusu olaraq təsvir edilmişdir.

Müasir dövrdə ayrı-ayrı şəxsiyyətlərə həsr olunmuş bioqrafik romanların sayı artdıqca janrın müxtəlif yeni formaları yaranmaqdadır. Belə janrlardan biri də bioqrafik tədqiqat romanıdır. Bioqarfik əsərdə hər hansı bir şəxsdən bəhs edən müəllif, ilk öncə həmin insan haqqında məlumatları, ədəbiyyatı, onun dövrünü, müasirlərini öyrənməli olub, sonradan mövcud şübhəli, natamam məsələlər haqqında fikirləri qarşılaşdıraraq yeni yanaşma irəli sürür. Bioqrafik əsərdə təhkiyə "müəllifin ideyasına tabe olur, onun tərəfindən idarə edilir, obrazda bu və ya digər konsepsiya" əks olunur. "Öz konsepsiyasını

[1] Elmira Axundova. "Heydər Əliyev. Şəxsiyyət və zaman". 6 cilddə. Bakı, "Ozan", I c. – 2007, 352 s.; II c. – 2007, 784 s.; III c. – 2009, 804 s.; IV c. – 2008, 327 s.; V c. – CBS, 2013, 736 s.; VI/1 – "Ozan", 2013, 480 s.; VI/2 - CBS, 2013, 496 s.

irəli sürən müəllif, mövcud yanaşmalarla polemikaya girir”.[1] Buna görə də hər bir bioqrafik əsərdə polemik yanaşma yer alır. Qəhrəmanının siyasi fəaliyyəti haqqında yazılanları araşdıran yazıçı, mövcud mifləri aradan qaldırmağa liderin gerçək portretini canlandırmağa çalışır. Bu prinsipə sadiq qalan Elmira Axundova “...mətbuatda və siyasi memuaristikada hələ də səhifədən səhifəyə adlayan bir sıra stereotipləri puç” etməyə,[2] “...obrazı onun əzəmətini artırmağa yönəlmiş süni “əlavələrdən” təmizləyib oxuculara mümkün qədər yaxınlaşdırmağa” çalışdığını qeyd etmişdir.[3]

Müəllifin, tarixi şəxsiyyətin həyat və fəaliyyətini sənəd və faktlar əsasında öyrənərək “sonradan həmin materialları öz dünyagörüşünə uyğun olaraq şərh və təsnif” etdiyi[4] bioqrafik tədqiqat romanlarında obrazın “sənədlərin elmi-analitik, bədii təhlili” vasitəsilə yarandığını qeyd edən tədqiqatçı, bu əsərlərdə özünəməxsus semantik cərgənin yer aldığını yazır: *Sənəd-axtarış-sənəd-hipoteza-yeni versiya*.

Beləliklə, sənədin “tarixi faktın öyrənilmsi üçün əsas mərxəzə çevril”diyi əsərlərdə müəllif, faktları qarşılaşdıraraq faktiki material əsasında öz fikrini irəli sürür. Hər hansı bir hadisədən bəhs edərək həmin faktla bağlı bir neçə sənədə üz tutur, “forma-fraqmentləri ardıcılı olaraq bir epizod ətrafında birləşdirir”.[5] Bədii montaj “tematikaya görə yaxın, üslub və janrına görə fərqli (memuar və avtobioqrafik qeydlər, rəsmi sənədlər, tənqidçi qeydləri, elmi əsərlərdən məlumatlar) zaman-məkan bağlılığı olmayan fraqmentar qeydləri cəmləşdirməyə”[6] imkan verir.

Sənədli – bioqrafiyalar haqqında tədqiqatında A.Qaliç bioqrafik əsərləri iki növə bölür: psixoloji-assosiativ və ənənəvi.[7] Birinci

---

[1] Савенко И.Л. Жанрово-стилевые особенности биографического роман-поиска. Автореферат дисс. На соис. Уч.ст. к.ф.н., Тернополь, 2008, s.13

[2] Axundova Elmira Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.3

[3] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI (1)cild, Bakı, Ozan, 2013, 480 s., s.6

[4] Савенко И.Л. Жанрово-стилевые особенности биографического роман-поиска. Автореферат дисс. На соис. Уч.ст. к.ф.н., s.13

[5] Yenə orada, s.13

[6] Шевердина А.П., Литературный монтаж в романе поиске Леонида Большакова «Быль о Тарасе» // ВЕСТНИК ОГУ No11 (160)/ноябрь`2013, с.42-46

[7] Галич А. Современная художественная документально-биографическая проза. Проблемы развития жанров, Автореф. диссер. на соискание уч. ст. к.ф.н.,

növ əsərlərdə şəxsiyyətin psixoloji, mənəvi sarsıntıları, daxilində baş verən təlatümlərinin canlandırıldığını, ənənəvi əsərlərdə isə müəllifin tarixi şəxsiyyətin həyatını faktlara əsasən xronoloji ardıcıllıqla təsvir etdiyi qeyd olunur. Tədqiqatçı bu iki növ arasında kəskin sərhədlərin olmadığını, ən maraqlı bioqrafik əsərlərin bu iki müxtəlif yanaşmanın birgə mövcud olduğu əsərlər olduğunu bildirir .

Siyasətçilərdən bəhs edən bioqrafik romanlar əsasən ikinci növə aid olur. Çünki hər bir kəsə siyasətçinin şəxsi, intim dünyasına baş vurmaq nəsib olmur. Sxematik, statik məmur obrazından uzaqlaşmağa çalışan Elmira Axundova prezidentin "qalstuksuz obrazını yaratmaqla", ən çətin məqamlarda (Naxim gəmisi ilə bağlı faciə, Çernobıl hadisələri) onun yaşantılarını canlandırmağa çalışır. Əsasən Zərifə Əliyevanın ölümü ilə bağlı Heydər Əliyevin yaşadığı sarsıntı, hönkürüb ağlaması, itkidən doğan emosional gərginliyin təsviri baxımından dəqiq və inandırıcıdır. Əsərdə Heydər Əliyev diqqətli, qayğıkeş, səmimi insan olaraq canlandırılmışdır. Ulu Öndərin insanların etibarsızlığını ağrı ilə müşahidə etdiyini qeyd edən yazar, "axı mən insanam" deyərək bu münasibəti qəbul edə bilmədiyini qeyd edir.

Əvvəlki memuar-avtobioqrafik, bioqrafik əsərlərdə mütləq didaktik məzmun vacib idisə, son illər qəhrəmanın seçilmişliyinin təsviri mürəkkəb obrazın canlandırılması ilə əvəzlənmiş, tarixi şəxsiyyətin ətrafla konfliktinin təsviri önə keçmişdir. Bu səbəbdən də yeni qələmə alınan bioqrafik əsərlərdə ideal obrazlar deyil, mürəkkəb xarakterlər canlandırılmışdır.

Tarixi əsərlərə xas qeyri-adi kompoziyadan istifadə edildiyi "Heydər Əliyev. Şəxsiyyət və zaman" əsərində "hadisələr birbaşa təsvir edilmir, müxtəlif personajların onlar haqqında təəssüratları verilir; eyni hadisə və ya hadisələrdən doğan bu cür təəssüratların eyni zamanda verilməsi, romana xüsusi stereoskopik effekt qatır, bununla da illuzor olaraq həyatın gerçəkdən hələ də davam etməsi təəssüratı yaranır... Romanda hadisələr bir baxış bucağından göstərilmir; təhkiyə gerçəkliyin özü kimi çoxplanlı olsa da, eyni zamanda məhdud zamanla bağlıdır. Hər an, hadisə uzun zaman hüdudunda göstərilir, çünki müxtəlif insanlar tərəfindən xatırlanan hissələrdə

---

Донецк, 1984 http://www.dissercat.com/content/sovremennaya-khudozhestvennaya-dokumentalno-biograficheskaya-proza-problemy-razvitiya-zhanro

həmin insanın öz qayğılarını, maraqlarını əks etdirən anların məcmusunu yaratmaq lazımdır”.[1] Bədii-sənədli nəsrdə bədii əsərlərə xas tipik qəhrəman obrazı deformasiyaya uğrayır. “Zaman və dövr üçün tipik obraz kütləvi deyil, xarakterik, tək olandan seçilir”. Bu zaman “canlı prototipi ... bədii cəhətdən dərk etmək, müvafiq stilistik kontekstə uyğunlaşdırmaq vacibdir”.[2]

Əsərdə tarixi-sənədli, bioqrafik və xronikal təhkiyə bəzi hissələrdə lirik-romantik (əsasən birinci kitabda, Heydər Əliyevin ailəsindən, uşaqlıq illərindən, Zərifə Əliyeva ilə münasibətlərdən bəhs edən hissələrdə), epik, publisistik təsvirlə növbələşir. Cildlərdə hadisələr xronoloji ardıcılıqla verilsə də, kompozisiyanın xronologiya üzrə düzülüşü yalnız zahirən qorunur (kitabların ayrı-ayrı illər üzrə bölünməsi), müxtəlif insanların xatirələrinin, sənədlərin yer aldığı fəsillərdə çox zaman xronoloji ardıcıllığın pozulması baş verir. Lakin bu məqam əsərin bütövlüyünə xələl gətirmir, çünki müxtəlif tipli materiallar bir şəxsiyyətin bədii obrazının yaradılmasına xidmət edir.

Hər bir bioqrafik roman kimi bu əsər də qəhrəmanın ailə üzvləri, uşaqlığı, təhsil aldığı illərin təsviri ilə başlanır. Şəxsiyyətin miqyası müəllifə, geniş faktiki materiala əsaslanmağa imkan verir.

Romanda Heydər Əliyevin özü, müasirləri haqqında yazılmış bir sıra xatirələrdən, memuarlardan, şəxsi arxivindən istifadə edilmiş, demək olar ki, Ulu Öndərlə bağlı qələmə alınmış əsas tədqiqatların bədii məcmusu cəmləşmişdir. Elmira Axundova başqa müəlliflərin Heydər Əliyev haqqında yazılmış əsərlərini öyrənərək, bu əsərlərdə yer alan bəzi yanlış məlumatlara aydınlıq gətirməyə çalışmışdır.[3]

İlk hissələrdə romanın obrazlar sistemi balaca Heydərin ailə üzvləri, məktəb yoldaşlarının, qohum, qonşularının təsviri ilə əhatələnirsə, getdikcə personajların sayı çoxalır. Onunla birgə çalışmış, müxtəlif illərdə qarşılaşdığı yüzlərlə insanın xatirələri canlandırılır. Bioqrafik əsərdə təhkiyə əsas qəhrəman ətrafında cəmləşdiyindən, başqa obrazlar, hadisələr əsas qəhrəmanın daha dolğun təsvirinə

---

[1] Комаровская Т.Е. Жанровые разновидности послевоенного исторического романа США. http://elib.bspu.by/bitstream/doc

[2] Yenə orada

[3] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, “Ozan”, I cild, 2007, 352s., s.106

xidmət edir.

Mətndə sənədli, bədii, publisist, işgüzar üslubun yer alması dövrün daha zəngin və dolğun təsvirinə imkan vermişdir. Xronikaların yer aldığı dördüncü cilddə bəzi çıxışların qısa xülasəsi, əsas müddəaları haqqında məlumatlar da öz əksini tapmışdır.

Kitabda Heydər Əliyevin boya-başa çatdığı mühit, yaxınları, doğmaları, siyasi fəaliyyəti, partnyorlarından bəhs olunmuş, siyasi karyerası iki müxtəlif, bir-birinə zidd dövrlərə bölünən – sovet hakimiyyəti və müstəqillik dövrü, Ulu Öndərin siyasi lider, rəhbər, ideoloq, ali baş komandan, həmçinin adi insan olaraq dolğun bədii obrazı yaradılmışdır.

Onun fərdi keyfiyyətlərini vurğulayan müəllif, Heydər Əliyevin yeniliklərə açıq olmasını, vəziyyəti düzgün qiymətləndirmə bacarığını, ən çətin situasiyalarda məsuliyyəti öz üzərinə götürərək qəti addımlar ata bilməsi – kimi keyfiyyətlərini xüsusilə vürğulamışdır. Əsərdə canlandırılan obraz quru və sxematik deyil, çünki müəlif toxunduğu hər bir hadisəni analitik təhlillərlə tamamlamağa çalışmışdır.

Elmira Axundova Heydər Əliyevlə ilk olaraq qiyabi tanış idi. Heydər Əliyev mətbuatdan onun imzasını izləyir, Elmira Axundova isə siyasi lideri yalnız uzaqdan-uzağa tanıyırdı. 1990-cı illərdə Elmira Axundova Heydər Əliyevdən müsahibə aldıqdan sonra onların münasibətləri davamlı olmuşdur. Sonradan baş verən görüşlər, Elmira Axundovanın ölkə başçısını səfərlərdə müşayiət etməsi, şəxsi təəssüratların dolğunlaşması ilə o, siyasi liderin bioqrafına çevrilmişdir. İlk öncə yazıçı Ulu Öndərin ömrünün bir çox dramatik məqamlarının əks olunduğu bir neçə bədii əsərlər qələmə almışdır. Elmira Axundova Heydər Əliyevin 1990-cı ildə Vətənə dönməsinin gizlinlərindən bəhs edən "Naşirin qətli" romanının (İsa Nəcəfovla birlikdə), 1993-cü ilin iyun hadisələrinin canlandırıldığı "Şüşə saray" siyasi romanının, Ulu Öndərin xarici səfərləri və siyasət strategiyasından bəhs edən "Həqiqət anları" (2003) kitablarının müəllifidir. Göründüyü kimi, yazıçının "Heydər Əliyev. Şəxsiyyət və zaman" altı cildliyi çoxillik fəaliyyətinin bəhrəsi olaraq yaranmışdır.

Müasiri olduğumuz insanların bir çoxuna iki fərqli, bir-birinə zidd epoxanın – total hakimiyyət, birxətli inkişafın yer aldığı sovet sisteminin və müstəqil ölkənin vətəndaşı olmaq nəsib oldu. Adi insanın çətinliklə adaptasiya olunduğu bu iki siyasi formasiya müstə-

visində siyasi liderin portretinin canlandırılması, ictimai-siyasi fəaliyyətinin qiymətləndirilməsi mürəkkəb və məsuliyyətli bir işdir. İki fərqli dövrün xarakterizə edilməsi, qarşılaşdırılması, ölkədə baş verən siyasi kursun müəyyənləşdirilməsi üçün siyasətçi məntiqi, ictimai-xadim təfəkkürü, həmçinin peşəkar yazıçı qələmi tələb olunur. Əsərdə bu iki xüsusiyyətin uğurlu tandemi yer almış, müəllif hər iki tələbin öhdəsindən uğurla gəlmişdir.

Ulu Öndərin ömrünün xronoloji ardıcıllıqla əks olunduğu kitabda, müxtəlif illərdə onunla çalışmış onlarla insanın obrazı yer almışdır: sovet Azərbaycanının siyasi xadimləri, 1980-ci illər Moskva mühiti, 1990-cı illərdə doğma Naxçıvan və müstəqil Azərbaycan. Romanın son iki cildi milli tariximizin ən mürəkkəb illəri olan müstəqillik dövrünə (üç kitab, altıncı cild 2 kitabdan ibarətdir) həsr edilmşdir. Maraqlı sənədlər, arxiv materialları, rəngarəng şəkillərin, zəngin ədəbiyyat siyahısının yer aldığı bu cildlər Əliyevşünaslığa böyük bir töhfədir.

Müəllif, kitabının əsas məqsədinin "XX əsrin fonunda Heydər Əliyevin siyasi bioqrafiyasının yaradılması və insani taleyinə güzgü tutulması" olduğunu qeyd etmişdir. "Kitabda iki bərabərhüquqlu qəhrəman var – Heydər Əliyev və onun zəmanəsi. Eləcə də onun böyüdüyü, püxtələşdiyi ab-hava, yaşadığı və çalışdığı mühit, ünsiyyətdə olduğu, dostluq etdiyi, təmasda olduğu adamlar. Belələri isə yüzlərlə, minlərlə idi – sadə fəhlə və kolxozçulardan tutmuş dünya səviyyəli siyasətçilərədək. Onların canlı səsləri, düşüncələri, şərhləri, hadisələrin yozumları kitaba polifoniklik gətirərək, dəyərləndirmələrdə birmənalı və qərəzli hökmlərdən çəkinməyə imkan verir".[1]

Romandakı hər bir epizod, çoxsaylı sənədlər, xatirələr – rəhbər, siyasi lider, ailə başçısı – Heydər Əliyevin obrazını yeni xüsusiyyətlərlə tamamlamağa xidmət edir. Onun siyasi fəaliyyətini ilk günlərdən son zamanlara qədər təsvir edən müəllif, Heydər Əliyevin zirvədə olduğu illərlə yanaşı çətin günlərini təsvir edərək qismətinə düşən sevinc və acısını göstərməyə çalışmışdır. Müxtəlif xatirələrə istinad edən yazıçı Heydər Əliyevin həyatı və ictimai fəaliyyətinə yeni mövqedən yanaşmış, siyasi liderin ömrünün az tədqiq olunmuş hissələrinə xüsusi diqqət yetirmişdir.[2]

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild, 2007, s.11
[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, II, 2007, 784 s.

Elmira Axundova Heydər Əliyevin işçilərlə münasibətini, geyim tərzini, gündəlik iş rejimini, iş prinsiplərini dəqiqliklə canlandırmış, heç nəyi nəzərdən qaçırmamağa çalışmışdır. Siyasi liderin obrazının yaradılmasında detallar xüsusi əhəmiyyət kəsb edir. Çünki onun həyat və fəaliyyəti kütlənin daim marağında, “nəzarətində”dir. Hər kəsə zahirən bəlli situasiyanın daxili, alt qatında baş verənləri açmaq xüsusi ilə məsuliyyətlidir. Bu fikirləri təkzib və ya təsdiq etmək üçün dəqiq arqumentlərə əsaslanmaq vacibdır. Hər bir detal, kiçik bir nüans diqqətdə olmalıdır.

Ulu Öndərin stereotiplərdən uzaq bir siyasi xadim olduğunu göstərməyə çalışan yazar, onun zirvələrə qalxdıqca insanlara yadlaşmadığı, insani hisslərdən uzaqlaşmadığını qeyd etmişdir. Hakimiyyət və insani keyfiyyətlər, dəyişən münasibətlər konteksti hər zaman aktual olsa da yazıçı, Heydər Əliyevin insan olaraq bu daxili parçalanmadan özünü qoruya bildiyini göstərməyə çalışmışdır.

Dəfələrlə eyni sualı müxtəlif insanlara ünvanlayan müəllif, “əvvəlki və indiki” Heydər Əliyev arasında fərq olub olmadığını soruşmuşdur. Əksər insanlar onun illər keçdikcə bir az yumşalmasını qeyd etsələr də, xarakter xüsusiyyətlərinin dəyişmədiyini bildirmişlər.

Heydər Əliyevlə bağlı xatirələrdə onun hələ sovet dövründə milli ideyanın formalaşması istiqamətində fəaliyyəti (ensiklopediyanın nəşri, milli hərbi kadrların yetişdirilməsi və s.) vurğulanmış, kökünə, millətinə bağlılığı şəxsiyyətinin əsas özəlliklərindən biri olaraq qiymətləndirilmişdir.

Siyasi lideri sovet dövrünə xas miflərdən azad etməyə çalışan yazıçı, Moskvada ailəsi ilə birgə olduğu mənzilin daim dinlənildiyini bilərək yaşamağa məcbur olmasını, özünə etibarsız olan dostlar, siyasi konyuktuta ilə bağlı yaşadığı təəssüf hissini, doğma ocağına bağlılığını təsvir etməklə bir çox məhrumiyyətlərlə üzləşdiyini göstərmiş, Kremlin soyuq və laqeyid divarları arasında yaşamın ağırlığını canlandırmağa çalışmışdır. Heydər Əliyevin şəxsi həyatı ilə bağlı məqamları psixoloji dəqiqliklə təsvir edən yazıçı, eyni zamanda siyasi analitik olaraq ictimai-siyasi həyatda baş verən hadisələrin arxa planını aydınlaşdıraraq ciddi təhlillər aparmışdır.

“...tanınmış yazıçı-publisist filologiya üzrə fəlsəfə doktoru Elmira Axundovanın yeddi kitabdan ibarət olan altı cildlik “Heydər Əliyev. Şəxsiyyət və zaman” adlı çoxcildliyi görkəmli dövlət xadi-

mi, Ümummilli lider Heydər Əliyevin çətin, keşməkeşli mübarizələrlə zəngin olan mənalı həyatını, çoxcəhətli fəaliyyətini geniş planda zamanın və onun şəxsiyyətinin fonunda açılıb aydınlaşdırılmasına, sistemli və ardıcıl şəkildə, mümkün olduqca dərindən və əsaslı surətdə araşdırılıb ümumiləşdirilməsinə həsr olunmuş monumental əsərdir... Haqqında başqa ölkələrdə və xarici dillərdə də böyüklü-kiçikli çoxsaylı əsərlərin yazıldığını nəzərə alsaq, "Şəxsiyyət və zaman" əsərini Azərbaycan Heydər Əliyevşünaslığının beynəlxalq aləmə təqdim edə biləcəyi ən mükəmməl bioqrafik roman da adlandırmaq mümkündür. "Şəxsiyyət və zaman" – Heydər Əliyevin qüdrətli şəxsiyyətinin romanı, bu görkəmli dövlət xadiminin epoxasının publisist fəlsəfəsidir. "Şəxsiyyət və zaman" Heydər Əliyev kimi qüdrətli İnsanı şəxsiyyətin bütövlüyü və əzəmətinin, dövrünün tarixi məsuliyyətinin və mürəkkəbliklərinin fonunda təqdim edən mükəmməl sənədli-bədii" əsər olaraq qiymətləndirən İsa Həbibbəyli,[1] romanın ədəbiyyatımızda "ilk siyasi-bioqrafik tədqiqat-romanı" olduğunu qeyd etmişdir.[2]

Heydər Əliyevin həyatındakı rolundan bəhs edən Elmira Axundova yazır: "Heydər Əliyev mənə bütün dünyanı göstərdi, yaradıcılıq üfüqlərimi heyrətamiz dərəcədə genişləndirdi, uzun illər üçün enerji və yazmaq ilhamı bəxş etdi. Dünyadan getdiyi andan bu günə qədər mən onun obrazı üzərində demək olar ki, daima düşünürəm".[3]

N.Makyuen M.Renonun əsərindəki Makedoniyalı İsgəndər obrazından bəhs edərkən qeyd edirdi ki, əsəri oxuyanda oxucuda elə bir bir təəssürat yaranır ki, tarixi qəhrəman yalnız əsərdə təsəvvür edildiyi kimi, müəllifin onun canlandırdığı kimi bir insan olmuşdur. Elmira Axundova da qəhrəman konsepsiyasında qətiyyətli olub, öz nöqteyi-nəzərini uğurla əsaslandırmağa çalışmışdır.

Elmira Axundovanın "Heydər Əliyev: Şəxsiyyət və zaman" 6 cildliyi yüksək qiymətləndirilmiş, 2014-cü ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyev mükafatına layiq görülmüşdür.

---

[1] Həbibbəyli İ. Yazıçı-publisist Elmira Axundova // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, II cild, Bakı, Elm və təhsil, 2016, s.120-133, s.122

[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(2) cild, Bakı, CBS, 2013, 496 s.; s.488

[3] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s.

***

Tarix müxtəlif lider tiplərinin mövcudluğunu göstərir. Lider xalqın təsəvvüründə hər zaman ideal keyfiyyətlərə bağlı olsa da, çox zaman siyasi rəhbərin şəxsi keyfiyyətləri bu parametrlərə uyğun gəlmir. Xalqın yaddaşında o siyasi liderlər əbədi yaşayır ki, onların siyasi imici gerçək portretləri ilə üst-üstə düşür. Uydurulan, reallığa əks olan şəxsi keyfiyyətlər uğurlu imicin məhv edilməsinə səbəb olur.

Siyasi arenada, əsasən Heydər Əliyevin ətrafında belə liderlərin sayı çox idi. Mixail Qorbaçov, Boris Yeltsin, Ayaz Mütəllibov, xalqın inamını və iradəsini ifadə etməli olan "Xalq cəbhəsi" və onlara rəhbərlik edən Əbülfəz Elçibəy. Sonuncuya xalqın, Heydər Əliyevin özünün belə rəğbəti böyük olsa da (kitabda bu yanaşma qorunur), siyasi liderliklə uyuşmayan keyfiyyətlər Elçibəyin siyasi karyerasına son qoyur.

Xalqın yaddaşında yaşayan Mustafa Kamal Atatürk, Heydər Əliyev kimi rəhbərlər məhz xalqın gözləntisini doğrulda bildikləri üçün əbədiyaşarlıq qazanmışlar.

Siyasi liderin portreti əsasən üç istiqamətdə əks etdirilir: bioloji faktorlar (yaş, temperament, fərdin fiziki hazırlığı), sosial xarakteristika (dəyərlər sistemi, insanın can atdığı məqsəd və dünyagörüşü, müxtəlif sosial qruplarla ünsiyyət qurma bacarığı və s.) və psixoloji keyfiyyətlər (emosionallıq, iradə, yaddaş, düşüncə tərzi).[1]

Qəhrəmanının fərdi keyfiyyətlərindən bəhs edən müəllif ilk öncə onun yaraşıqlı xarici görkəmi, fenomenal yaddaşı və misilsiz natiqlik qabiliyyətini xüsusi vurğulayır. Heydər Əliyevin zahiri portreti bir çox insanlar tərəfindən bu cür xatırlanır: "Bu, çox yaraşıqlı, zövqlə geyinmiş kişi idi. Kostyumu əyninə qutu kimi otururdu. Köynəyi, qalstuku, kostyumu – hər şey sanki məxsusi onun əyninə biçilmişdi. Saç düzümü, gözləri, hətta üzündəki xallar da ona yaraşıq verirdi. Onu kiminləsə müqayisə etmək mənim üçün çox çətindir. Onu azərbaycanlı olduğu üçün tərifləmirəm. O, hərtərəfli inkişaf etmiş insan idi, gözəl natiq, dərin biliyə, güclü işləmək ba-

---

[1] Шестопал Е.Б. Политическая психология// Изд-во: Инфра. – 2002. – С.176-178. http://lib100.com/common_psychology/political_psych/html/

carığına malik, tələbkar insan. Bütün bu keyfiyyətləri özündə birləşdirən sədr müavininə çoxdan rast gəlməmişdik. Mənə elə gəlir ki, əgər Heydər Əliyev siyasətçi yox, yazıçı olsaydı, görkəmli yazıçı, aktyorluğu seçsəydi, böyük aktyor olardı. Hansı sahədə çalışsaydı, yüksək səviyyədə olacaqdı" (Camal Camalov).[1]

Heydər Əliyevin fenomenal natiqlik bacarığını qeyd edən müəllif onun məruzələri, çıxışları üzərində iş prosesini canlandırmağa çalışmışdır. Heydər Əliyevin çıxışlarının əsas tezisləri, mətnlərdən parçalara əsaslanan, məktublarla iş prinsiplərindən ətraflı bəhs edən Elmira Axundova, onun hər bir kağız parçasını insan taleyi olaraq qiymətləndirdiyini, hər bir məktuba həssaslıqla yanaşdığını qeyd etmişdir. Ulu Öndərin xarizması, qısa ünsiyyət ərzində insanları özünə cəlb etmə bacarığı, səbirli olması, iti hafizəsi onunla müxtəlif illərdə ünsiyyətdə olmuş hər bir insan tərəfindən vurğulanır .

Ulu Öndərdən bəhs edən müasirləri, onun fərdi keyfiyyətlərindən bəhs edərək qeyri-adiliyini qeyd etmişlər: "onun beyni kompyuter kimidir, düzdü o cür kompyuterləri hələ icad etməyiblər". Onun işgüzar sənədlərini təhlil edən məmurlar bildirirlər: "işgüzar yığıncaqların stenoqramı dəqiq və kəskindir. Bu materiallar "yaxı işləmək lazımdır" kimi ümumi istəklərdən uzaq olub, vəziyyətin dəqiq təhlilini ehtiva edir".

Zəhmətkeş bir ailədə dünyaya göz açan Heydər Əliyev ömrünün sonuna qədər zəhmətlə yaşayan insanlara diqqət və qayğı ilə yanaşmış, rüşvətxor insanlara qarşı barışmaz olmuş, sosial prinsiplərin qorunmasına çalışaraq, korrupsiya ilə mübarizə aparmışdır. Bədxahlar onun bu münasibətinə fərqli rəng verərək, Heydər Əliyevi qaralamağa çalışsalar da o, ömrünün sonuna qədər sadəliyə, zəhmətə yüksək dəyər verərək təmtəraqdan uzaq ömür sürmüş, ətrafındakı insanlarda da bu keyfiyyətləri görmək istəyərək, öz komandasında olan insanlara bu prizmadan yanaşmışdır.

Moskvaya dəvət edildiyi zaman xalqının gələcəyi ilə bağlı narahatlığı, özündən sonra qurucusu olduğu Azərbaycan SSR-yə başçılıq edəcək insanla bağlı uzun-uzadı düşüncələri, müxtəlif insanlarla görüşləri, hər kəsin fikrini öyrənərək, bütün müsbət və mənfi cəhətləri göz önünə gətirərək qərar qəbul etməsi, onun iş prinsipinin

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.167

əsasını təşkil edir. Daim düşünülmüş, rasional siyasət yeritməyə çalışan rəhbər olan Heydər Əliyev ətrafındakı insanlardan da bu cür olmağı tələb edirdi.

Daxili və xarici aləmi arasındakı harmoniya onun cazibəsini daha da artırırdı. Ona görə də o, ixtisasından, yaşından, milliyətindən asılı olmayaraq hər kəslə ünsiyyət qura bilirdi. Əsas qəhrəmanının psixoloji xarakteristikasını canlandırmağa çalışan müəllif onun liderlik bacarığını şəxsi keyfiyyətləri ilə əlaqələndirmişdir.

Ömrünün böyük bir hissəsini siyasətdə keçirən lider, bir çox dövlət başçıları ilə işləməli olmuşdur. Hər bir cilddə yeni mühiti, iş prinsiplərini müəyyən etməyə, canlandırmağa çalışan müəllif, Heydər Əliyevin birgə çalışdığı ölkə rəhbərlərinin obrazlarını, rəhbərlik etdiyi dövrü, Heydər Əliyev ilə münasibətlərini geniş təhlil etmiş, onların hər biri haqqında məlumatları ciddi şəkildə öyrənmişdir.

Mürəkkəb məqamlarda liderin keçirdiyi hissləri canlandırmağa çalışan yazıçı, sənədli nəsrin prinsiplərinə sadiq qalaraq təxəyyüldən yararlanmasa da, bu hissləri təsvir etmək üçün bədii əsərlərindəki parçalardan istifadə etmişdir. Elmira Axundova Heydər Əliyevin müəllimləri, yoldaşlarına bağlılığına, doğma elinə sadiqliyinə diqqət çəkmiş, incə zövqlü, həssas insan olaraq insanlara hədsiz inamını, etimadını vurğulamışdır.

Heydər Əliyevin Moskvada işlədiyi illərdən bəhs edən fəsillərdə hakimiyyətin o biri, ağrılı üzü əks olunmuşdur. Kremldə məmurların bir-birinə münasibətindəki soyuqluğunun təsvir edildiyi (bir-biri ilə dostluq münasibətlərindən çəkinmələri, Heydər Əliyevin ad günündə təbrik olunmaması, infarkt keçirərkən yoldaşlarının etinasızlığı) hissələrdə kənardan güclü, qüdrətli görünən məmurların iç üzü ifşa edilmişdir.

İkinci dəfə Vətəninə dönərkən sevinc hissi ilə birgə xəyanət, insanların etibarsızlığı ilə qarşılaşan Ulu Öndər mənən sarsılır. Romanda ən çətin vaxrlarında daim ona dayaq olan silahdaşlarından Rəfael Allahverdiyev, Dilruba Camalova, Həsən Həsənov, Vasif Talıbov, İsa Həbibbəyli, Siyavuş Novruzov, Fikrət İsmayılov kimi onlarla insanların obrazları yer almışdır.

Özündən əvvəlki ölkə rəhbərlərinin fonunda təsvir edilən Heydər Əliyev onlardan ciddi şəkildə fərqlənirdi. Xalqına qarşı etimadsızlıq göstərən Əbülfəz Elçibəy, xalqın mənafeyini müdafiə edə bilməyən Ayaz Mütəllibov və Əbdürrəhman Vəzirovdan sonra dağı-

nıq, xaotik ölkəyə başçılıq edən Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gələrək xaosu aradan qaldırmağa, stabil inkişafı təmin etməyə nail olur. Onun siyasi missiyası Xilaskar olaraq böhranı dayandırmaq, ölkənin suverenliyini qorumaqdan ibarət idi. Çətin anlarda qətiyyəti və təmkinli qalmaq bacarığı onun ən çətin vəziyyətlərdən uğurla çıxmasına imkan verirdi.

Elmira Axundova, müasirləri Ulu Öndəri bir çox siyasi liderlərlə müqayisə edərək fərqli xüsusiyyətlərinə diqqət çəkirlər. Heydər Əliyevi dövrün başqa görkəmli siyasətçiləri ilə müqayisə edən Anar Məmədxanov Heydər Əliyevin bu xüsusiyyətlərini vurğulayır: "Heydər Əliyev münasib məqamı gözləməyi hamıdan yaxşı bacarırdı. Bu, ona xas fenomenal bir keyfiyyət idi. Bir var ağıllı adam, məsələn, Çörçill çox istedadlı, lakin son dərəcə hövsələsiz idi. Yaxud de Qoll da son dərəcə istedadlı və bununla bərabər, ağlasığmaz dərəcədə ambisiyalı şəxsiyyət idi, hesab edirdi ki, kainatın məhvəri odur, bütün dünya onun ətrafında fırlanır. O, Ruzveltə qarşı kobudluq edə bilərdi, hərçənd ondan asılı idi. Heydər Əliyev isə tamam başqa adamdır. O, illər boyu səbir edə bilirdi".[1] 1993-cü il hadisələrindən bəhs edən Elmira Axundova isə onun rəftarını Makiavellinin siyasi gedişi ilə müqayisə edir.

Əgər sovet illərində, gəncliyində DTK orqanlarında çalışmağı ölkə rəhbərinin siyasi karyerası üçün müsbət əhəmiyyət daşıyırdısa, sovet hökuməti dağıldıqdan sonra xarici dövlətlər onu məhz köhnə KQB içşisi olaraq qəbul edir, müstəqil siyasət apara biləcəyinə tərəddüdlə yanaşırdılar.

1990-cı illərdə blokada şəraitində olan Naxçıvanda apardığı uğurlu siyasət, Muxtar Respublikanın xarici və daxili siyasət saferasındakı uğurları onun siyasi formasiyadan asılı olmayaraq ölkəsini ən çətin vəziyyətdən belə ustalıqla qaldıra biləcək lider olduğunu bir daha sübut etdi.

Növbəti dəfə hakimiyyətə gələn prezidentin xaosu aradan qaldırması, hakimiyyəti tərk etmiş Əbülfəz Elçibəy, Surət Hüseynov, OMONçularla danışıqları, hakimiyyətə əks olan insanların neytrallaşması, ölkənin ictimai-siyasi həyatının stabilləşməsi, demək olar ki, tamamilə pozulmuş beynəlxalq münasibətlərin yenidən qurulma-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(2) cild, Bakı, CBS, 2013, 496 s., s.303

sı, beynəlxalq təşkilatlarla əlaqələrin intensivləşməsi, əməkdaşlığın bərpa edilməsi xalqın seçimində yanılmadığını göstərdi, prezidentə inamı artırdı. Elmira Axundova romanda mövcud fikirləri, şayiələri inkar edərək cəsarətlə alternativ fikirlər irəli sürməkdən çəkinməmişdir.

1923-1969-cu illəri əhatə edən I kitabda Heydər Əliyevin uşaqlıq və gənclik illəri, Dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti əks olunmuşdur.

Əliyevlərin ailə şəcərəsindən bəhs edən müəllif, onun əcdadlarının hərbi fəaliyyətlə bağlı olduğunu qeyd edərək yazır: "Aradan iki yüz il keçəndən sonra əcdadların "hərbiçilik" geni üzə çıxdı: general mundiri ulu babasınınkı kimi yaşılımtıl-ala gözləri olan enlikürək, qamətli Heydər Əliyevə çox yaraşırdı".[1]

Əliyevlər nəslinin dramatik tarixinin əks olunduğu hekayətlərdə xalqımızın faciələri, Andronik tərəfindən ərazidə törədilən vəhşiliklər, qırğınlardan bəhs olunmuş, yüzlərlə insanların ailə üzvlərinin erməni basqınları nəticəsində öldüyü qeyd edillmişdir. Heydər Əliyevin ailəsi də bu acı sınaqlara məruz qalmışdırlar: "Bu kitabın qəhrəmanın doğulacağı ailənin faciəvi keçmişi o dövr üçün tipik idi. Yüzlərlə, minlərlə azərbaycanlı kişi və qadın vətəndaş müharibəsində həyat yoldaşlarını itirmişdilər. Çoxları kiçik yaşlı uşaqları, südəmər körpələri ilə dul qalmışdılar. Onları nakam taleləri, ümumi dərd-sərləri birləşdirirdi, bir-birlərinə arxa və dayaq olurdular, yetim qalmış uşaqlarını, özününkü, ya özgəninki deyə fərq qoymadan böyüdürdülər. Və bu əsrlərdən qalma ehkamlar, yaxının ağırlığını öz çiyinlərinə götürməyə hazır olmaq, zəifə kömək olub, onu qayğıyla isitmək tamamilə təbii hal kimi qəbul olunurdu. Hər halda balaca Suraya atalıq edən Əlirza kişinin alicənablığı və ya qadın nəvazişinin həsrətində olan oğlan uşaqlarının dərhal "ana" deyib çağırdıqları İzzətin dözümlülüyü heç kimdə təəccüb doğurmurdu".[2]

Birinci cilddə Heydər Əliyevin doğma yurdu haqqında geniş tarixi-etnoqrafik oçerk ("Şərqin qədim qapısı") yer almışdır. Şəxsiyyətin formalaşmasında mühitin xüsusi rol oynadığını qeyd edən müəllif, Heydər Əliyevin uşaqlıq dövrünü dolğun şəkildə canlandırmağa çalışaraq onun uşaqlığını keçirdiyi məhəllə və küçələrdən, oyun-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild, 2007, 352s., s.20

[2] Yenə orada, s.28

lardan, məktəb illərində ədəbiyyata olan marağından, aktyor kimi çıxış etdiyi tamaşalardan, gənclik əyləncələrindən, dövrün məişətindən geniş bəhs etmişdir.

Uşaqlıq illəri ilə bağlı xatirələrin əsas personajları adətən valideynlərdir. Heydər Əliyevin anası İzzət xanımı ailəcanlı insan olaraq canlandıran müəllif onun qonşularla münasibətində qayğıkeş, övladlarına qarşı diqqətcil, tələbkar bir ana olduğunu göstərməyə çalışmış, atası Əlirza kişinin zəhmətkeş, namuslu insan olaraq ailəsini dolandırmaq üçün qatlandığı əziyyətlərdən bəhs etmişdir.

1948-ci ildə Naxçıvanda İsa Məmmədov Heydər Əliyevlə tanışlığını bu cür xatırlayır: "Heydər boy-buxunu, yaraşığı ilə hamıdan seçilirdi, qəribə gözləri vardı. O, mənə çox şən və mehriban insan təsiri bağışladı. Zarafat etməyi, dostlarına sataşmağı sevirdi... O məlumatlı, savadlı adam idi, hər şeylə maraqlanırdı... Öz üzərində çox işləyirdi: mətbuatı izləyir, ən müxtəlif sahələr üzrə kitablar oxuyurdu. Əhatəmizdəki yaşça, vəzifəcə yüksək olan adamlar da onunla hesablaşır, ondan məsləhət alırdılar. Bu məni indiyə qədər heyrətləndirir. Elə bil ki, bu insanın genlərində lap əvvəldən liderliyin təməli qoyulmuşdu".[1] Onun hər zaman yaşıdlarından seçilməsi, məktəb yoldaşlarının onu "general" adlandırması bir çox uşaqlıq dostları tərəfindən qeyd olunur.

Heydər Əliyevin bioqrafiyası ilə bağlı hadisələri şərh edən müəllif, dövrün ictimai-siyasi mənzərəsini də diqqət mərkəzində saxlayır. Kitabın "Bütlərin devrilməsi" bölməsində Xruşşovun hakimiyyəti illəri, onun XX qurultaydakı məxfi məruzəsi, Mircəfər Bağırovun məhkəməsi, gənc Heydər Əliyevin 1958-1964-cü illərdə əks-kəşfiyyat idarəsində çalışdığı dövr, 1965-1969-cu illərdə Azərbaycan DTK-nın rəhbəri vəzifəsində fəaliyyəti əks olunmuş, onunla çalışan əməkdaşların Heydər Əliyevin iş prinsipləri haqqında xatirələri verilmişdir. Bu illər ərzində Heydər Əliyev DTK generalı rütbəsini almış, DTK sədri vəzifəsinə təyin edilmişdir.

Bəzi məsələlər Heydər Əliyevin bütün dövrlərdə fəaliyyətinin əsasını təşkil etmişdir: respublikada milli ideyanın formalaşmasında rolu, erməni separatizmi ilə mübarizə və ölkənin mədəni həyatında iştirakı. Bu üç istiqamət onun ictimai-siyasi fəaliyyətinin özəyini

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild, 2007, s.119-120

təşkil etmiş, hakimiyyətdə olduğu dövrlərdən asılı olmayaraq həmişə diqqət mərkəzində olmuşdur.

Hakimiyyətdə olduğu ilk mərhələdə milli kadrların yetişməsində müstəsna xidmətləri, bu sahədə aparılan islahatlara xüsusi diqqət yetirən müəllif, müstəqil Azərbaycanın bir çox sahələrdə uğurlu inkişafının əsaslarının hələ prezidentin ilk hakimiyyətdə olduğu vaxt qoyulduğunu qeyd etmişdir. Əsasən də milli sərkərdələrin hazırlanması ilə bağlı aparılan işlərdən geniş bəhs edən Elmira Axundova "müstəqil Azərbaycanın gələcək ordusunun təməli"nin məhz o zamanlarda yarandığını qeyd etmişdir.

Hər bir romanda sevgi xətti zəruridir. Zərifə xanımla münasibətlərinin yaranması, Ulu Öndərin həyatının sonuna qədər ürəyində yaşatdığı bu münasibətlər gerçək münasibətlərdən qaynaqlansa da, əbədi sevgi dastanını xatırladır. Heydər Əliyev haqqında yazılan hər bir əsərdə onun ömür-gün yoldaşı Zərifə xanımın obrazı yer almışdır.

Zərifə xanımdan bəhs edən Elmira Axundova onunla ünsiyyətdə olmuş insanların xatirələri əsasında obrazı həssas, ziyalı, hər kəsə, hətta yad insanlara belə qayğı ilə yanaşan, səmimi, qonaqpərvər azərbaycanlı xanım olaraq canlandırmışdır.

1969-1982-ci illəri əhatə edən, Azərbaycan tarixinin "Əliyev dövrü"nün əks edildiyi ikinci kitabda, dəyişən məkanla birgə insanlar, mövqelər də dəyişsə də Heydər Əliyevin iş prinsipləri dəyişməz qalır. Ölkə rəhbərinin "respublikada apardığı yenidənqurma işləri, rüşvətxorluğa və "kölgə" iqtisadiyyatına qarşı sərt və barışmaz mübarizəsi, kütlələrlə təmasda olmaq bacarığı, partiya orqanlarının fəaliyyətində aşkarlığın artırılması"[1] istiqamətində fəaliyyəti, milli kadrların formalaşmasında rolu, Heydər Əliyev və Leonid Brejnevin münasibətləri, ölkənin sənayesində, xalq təsərrüfatında görülən işlər, rayonlara səfərlər haqqında məlumatların yer aldığı cilddə, müəllif Heydər Əliyevi birbaşa iş prosesində göstərməyə çalışmış, dövrün ictimai-siyasi, mədəni həyatında iştirakından bəhs etmişdir. Başlıqlarda kitabdakı mövzuların zənginliyi yetərincə əhatə olunmuşdur: "Sərt dönüş", "Başlanğıc", "Əliyev və onun komandası", "Birinci katib: Gürzlə zindan arasında", "Qoy ədalət zəfər çalsın",

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II, 784 s., s.38

“Heydər Əliyev və Leonid Brejnev“, “Heydər Əliyev və 70-ci illərin xalq təsərrüfatı”, “Heydər Əliyev və erməni separatizmi”, “Heydər Əliyev və sovet ordusu“, “Heydər Əliyev və gənclər siyasəti”, “Əks əlaqə”, “İran inqilabı və Kreml siyasəti”, “Qlobal dəyişikliklər”, “Qalstuksuz Əliyev” və “Lider”.

Müəllif yazır: “Bu bölmədə Heydər Əliyevin aparatdakı işinin az məlum olan və ya praktiki olaraq naməlum epizodları toplanıb: onun iş günü, rejimi, kadrlarla rəftarının üslub və metodları, MK Bürosunun gedişatı qaydaları, vacib sənədlərin və məruzələrin hazırlanması. Bu qeyri-adi insan barədə hekayətdə xırda şey ola bilməz. Nəzərə az çarpan detal belə Heydər Əliyevin şəxsiyyətini daha dərindən və geniş şəkildə dərk etməyə xidmər edir”.[1] Bu prinsiplərə sadiq qalan müəllif, romanda Heydər Əliyevlə bağlı ən xırda detalları, çalışdığı otağın interyerini canlandırmış, mütaliə etdiyi mətbu orqanlar haqqında məlumat vermiş, həmin illərdə onunla çalışan insanların xatirələrinə müraciət etmişdir: “... heç vaxt birinci dəfə xəta edənləri işdən çıxarmazdı. Ona özünü islah etmək, doğrultmaq üçün şans verirdi. Onun üçün ən başlıcası –insanları işə alışdırmaq, onları işləməyə öyrətmək idi” (Lidiya Rəsulova).[2] “O insanları müstəqil işləməyə və öz iş sahəsinə cavabdeh olmağa öyrədirdi.... O çox zəhmli, tələbkar idi. Hamıdan çox özünə qarşı (Fuad Musayev)”.[3] Bu fikiləri ümumiləşdirən Elmira Axundova yazır: “Heydər Əliyev özü idarəetmənin psixologiyasına dərindən yiyələnmişdi. Ona lazım olanı incəliklərinə qədər bilirdi. Mütəxəssislərdən soruşub dəqiqləşdirməkdən, ömrün axırınadək öyrənməkdən çəkinmirdi. Kənd təsərrüfatının, maşınqayırmanın, neft sənayesinin problemlərindən yaxşı baş çıxarırdı. Hər şeyin dərinliyinə varırdı”.[4]

Tarixi kontekstin öyrənilməsinin əsas götürüldüyü bioqrafik romanın hər bir çildində hadisələr geniş tarixi müstəvidə təhlil edilmişdır. Heydər Əliyevin sələfləri olan İmam Mustafayev, Vəli Axundovun çalışdığı dövr, tarixi şərait təhlil edilmiş, onların komandasında olan insanlar haqqında məlumatlar yer almışdır.

Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi postu-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II, 784 s., s.104

[2] Yenə orada, s.110

[3] Yenə orada

[4] Yenə orada, s.111

na təyin olunmasının cəmiyyətdə birmənalı qiymətləndirilmədiyini qeyd edən, "Kremlin seçimi nəyə görə son nəticədə məhz kitabımızın qəhrəmanı üzərində dayandı?" – sualına cavab tapmağa çalışan müəllif, fərqli mövqeləri qarşılaşdıraraq öz konsepsiyasını irəli sürməyə çalışmışdır: "Heydər Əliyev respublikaya rəhbərliyə qayda-qanun yaratmaq və neqativ hallarla mübarizə aparmaq üçün qoyulub"[1] fikrinə alternativ olaraq ikinci versiyanı irəli sürərək, Heydər Əliyevi "hər hansı milli təzahürü bətnindəcə məhv etmək və dövlətin fundametal dayaqlarını qorumaq üçün təyin" etdilər[2] kimi iki fərqli yanaşmanın üzərində dayanmışdır. Hər iki versiyanı sənədlər (müasirlərinin xatirələri) vasitəsilə araşdıran müəllif, müxtəlif fikirləri öyrənmiş, konkret mövqelərə istinad etmişdir: "...DTK-nın əməkdaşı, çekist və s. olan Heydər Əliyev qəlbində həmişə millətçi-azərbaycanlı olaraq qalmışdı. Pis mənada millətçi yox, məhz öz millətinə sadiq insan mənasında (Anar)".[3]

Ölkə rəhbərinin həmin illərdəki fəaliyyətindən bəhs edən yazıçı, onun çıxışlarının əsas tezislərini vurğulamış, partiya və ictimai həyatda yer alan çatışmazlıqlarla mübarizəsini təsvir etmişdir. 1970-ci illərdə həyata keçirilən təmizləmə əməliyyatlarında qətiyyətli olmasını, "Qoy həqiqət zəfər çalsın" məqaləsində neqativ hallara qarşı barışmaz mövqeyini qeyd edən yazıçı, bu prosesin cəmiyyətdə birmənalı qarşılanmamasına baxmayaraq, Heydər Əliyevin öz prinsiplərinə sadiqliyini, qətiyyət göstərərək onun öz işində israrlı olduğunu qeyd etmişdir: "Xeyirin yolu daima qanqallıqlardan keçərək ulduzlara doğru yönəlmişdir! Qətiyyətli insanlar, heç vaxt süst, bivec, "öz qınına çəkilmiş" adamların, illah ki əliəyrilərin, fəndgirlərin, xalqın varını talan edənlərin duya bilməyəcəkləri sevinclər keçirirlər, sonuncuların isə əzablarını heç kəs bölən deyil, heç kəs də qaçılmaz cəzalarını həddindən artıq sərt saymayacaq..."[4] Bu məqaləni geniş təhlil edən müəllif, Mixail Qorbaçovun aşkarlıq anlamını Heydər Əliyevdən "iqtibas etmiş" olduğuna diqqət yönəltmiş, Heydər Əliyevin zamanı qabaqlaya bilməsini onun ən müsbət cəhəti olaraq vurğulamışdır.

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II, 784 s., s.23
[2] Yenə orada, s.25
[3] Yenə orada, s.26
[4] Yenə orada, s.350

Konyuktur həyat tərzi ilə seçilən məmurlardan fərqli olaraq Heydər Əliyev öz siyasi kursunu həyata keçirməkdən çəkinmir, öz prinsiplərini, mübarizə əzmini hər kəsə bəyan edirdi. Onun cəmiyyətə mesaj olaraq çap etdirdiyi məqalələri insanlar arasında böyük əks-səda doğururdu. Ona ünvanlanan məktublarda ifadə olunan təşəkkür, minnətdarlıq notları insanların inam və istəyinin göstəricisidir.

Siyasi liderin portreti mütləq "tarixi dialoqizm", "binar konstruksiyalar"[1] doğurur. Əsərdə Heydər Əliyevin obrazının dolğun işlənməsinin səbəbi onun zəngin bir fonda, tarixi-siyasi vəziyyət, müasirlərinin, həmkarlarının, əsasən siyasi partnyorlarının əhatəsində təsvir olunmasıdır. Bu səbəbdən də, romanda Heydər Əliyev obrazı demək olar ki, bütün siyasi partnyorları ilə qarşılaşdırılaraq təsvir edilmişdir. Siyasi rəhbərlərin hər birinə ayrıca bölmə həsr edən müəllif, onları Heydər Əliyevlə müqayisə edib yanlışlıqlarına diqqət çəkmiş, sonuncunun onlardan üstünlüyünü konkret faktlarla əsaslandırmağa çalışmışdır. Bu siyasi liderlərin portretləri sönük karikaturalar olaraq göstərilməmişlər. Müəllif onların müsbət tərəflərini göstərməklə yanaşı, özlərinə qarşı çevrilən mənfi xüsusiyyətlərini uğurla aça bilmişdir.

İkinci kitabda Kremlin siyasəti, Leonid Brejnevin siyasi kursundan bəhs edən Elmira Axundova Leonid İliçin hakimiyyətə gəlməsi, Heydər Əliyev ilə münasibətlərini geniş işıqlandırmış, ilk olaraq Heydər Əliyevə soyuqluğunun sonradan isti münasibətlərlə əvəzlənməsini təsvir etmişdir. Zamanında Heydər Əliyevin əleyhinə səslənən şayiələrdən bəhs edərək, öz fərqli yanaşmasını irəli sürmüş, qaranlıq məqamları aydınlaşdırmağa çalışmışdır. Leonid İliçin Bakıya səfərlərindən geniş bəhs etmişdir.

1969-cu ildə Heydər Əliyev ilə ilk dəfə görüşən Həsən Həsənov onu bu çür xarakterizə edir: "Sonralar bir neçə onilliklər ərzində Heydər Əliyevin xarakterində müşahidə etdiyim fərqli cəhətlər elə o vaxt, ilk görüşümüz zamanı məndə silinməz izlər qoydu. Bu, müsahibini diqqətlə dinləmək bacarığı, qəribə təmkinliyi, eyni zamanda qeyri-adi fəallığı idi. Az müddətdə o həm dinləyir, həm də ilk baxışda demək olar ki, həlledilməz görünən problemləri həll etməyi baca-

---

[1] Глушаков П.С. Проблемы типологии и функционирования историко-биографического жанра в литературе русского зарубежья http://www.riku.ru/coll/coll8.html

rırdı".[1] Heydər Əliyevin bütün sahələr haqqında məlumatlı olmasını, gözəl hafizəsini, tələbkarlığı kimi xüsusiyyətləri onunla müxtəlif illərdə birgə işləyən yüzlərlə insan tərəfindən dəfələrlə vurğulanmışdır.

Müəllif, dövrün ən mühüm hadisələrini geniş təhlil etmiş, Leonid İliç Brejnevin Bakıya səfərləri, Bakıda aparılan quruculuq işlərini təsvir etmiş, həmin illərin kəlamlarını bir daha səsləndirmişdir. Brejnevin şəhərdən və insanlardan aldığı təəssüratı ümumiləşdirən ölkə başcısının respublikamıza olan münasibəti: "Bakı- gözəl şəhərdir!...", "Azərbaycan iri addımlarla irəliləyir!" şüar-kəlamlarında ifadəsini tapmışdır.

Romanda dövrün görkəmli insanları və mühüm hadisələrindən ayrıca fəsillərdə bəhs edilmişdir: "Əliş Ləmbəranski haqqında", "DTK Əbülfəz Əliyevə qarşı", "Arif Heydərovun qətli" və s. Həmin illəri bütün reallıqları ilə canlandırmağa çalışan müəllif, zamanın bəlasına cevrilən imzasız məktublardan belə yan ötməmişdir.

Bədii-sənədli nəsrin prinsiplərinə sadiq qalan yazıçı gerçək hadisələrdən bəhs etsə belə, Heydər Əliyevin həyatında yer alan real faktlar çox zaman detektiv süjet xəttini xatırladır: Qamboy Məmmədovun Heydər Əliyevə qarşı fəaliyyəti, "Brilyantlar" məsələsi, "Nəzərovun işi" hissələri məhz bu cür təəssürat yaradır.

Ulu Öndərin qismətinə daim ölkəni çətin vəziyyətdən qurtarmaq, tənəzzülə uğramış sahəni dirçəltmək missiyası düşmüşdür. "Heydər Əliyev, yazda qar əridiyi kimi xalqın hakimiyyətə qarşı "əriyən" inamını dirçəltmək, qaytarmaq üçün ilk növbədə nədən, hansı işdən başlamalı olduğunu həqiqətən bilirdi".[2] Öz sələflərindən sonra var qüvvəsi ilə respublikadakı xaosu aradan qaldırmağa çalışan Heydər Əliyevin cəhdləri qısa zamanda nəticələr verir. Respublikadakı inkişafı sahə-sahə araşdıran müəliif pambıqçılıq, cayçılıq, üzümçülük və şərabçılıq sahəsindəki inkişafdan geniş bəhs etmişdir.

Konkret faktlara əsaslanaraq Ulu Öndərin bir çox fərdi xüsusiyyəlәtrinə diqqət yetirən müəllif, onun "ən ağır anlarda insanların zəif damarını tutmağı, onların qəlbilərinə yol tapıb, səfərbər etməyi" bacardığını qeyd etmiş, fikrini bir neşə maraqlı epizodla əsaslandırmışdır.

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007, II, 784 s., s.33

[2] Yenə orada, s.309

Kitabda həmçinin Heydər Əliyevin yalnız tanınmış siyasətçilər deyil, adi zəhmətkeşlərlə dostluğu, onların evində çörək kəsməsi, İvanovkanın kolxoz sədri Nikitin, pambıqyığan Sərdar İmrəliyev, Tərlan Musayeva ilə səmimi münasibətləri, həmin illərin ən əlamətdar hadisələri olan ədəbiyyat, incəsənət, elm xadimləri ilə birgə rayonlara səfərlərinin təsvirinə geniş yer ayrılmışdır.

Heydər Əliyevin ziyalılarla birgə ölkəmizin rayonlarına, xarici ölkələrə səfərləri həmin dövrün ən əlamətdar hadisələrinə çevrilirdi. Bu görüşlərdən böyük təəssüratlarla ayrılan yazıçı və şairlərin, jurnalistlətin əksəriyyəti həmin hadisələri qələmə almışlar. Yazıçı Vidadi Babanlı bu xatirələr əsasında “Unutmadığım günlər...” qeydlərini qələmə almışdır.[1]

“Kreml beşilliyi” adlanan üçüncü cilddə Heydər Əliyevin 1982-1990-cı illərdəki fəaliyyəti əks olunmuşdur. Ulu Öndərin həyatının əvvəlki mərhələsi Bakı, öz soydaşları arasında fəaliyyəti ilə bağlıdırsa, bu hissədə Moskvada işlədiyi illər canlandırılmışdır. Həmin illərin Əliyevşünaslıqda zəif əks olunduğunu qeyd edən, rusiyalı həmkarlarının memuarlarında, siyasi bioqrafiyalarında Heydər Əliyevin gördüyü işlərin üzərindən sükutla keçdiklərini yazan müəllif, “Heydər Əliyevin SSRİ rəhbərliyindəki fəaliyyəti dövründə verdiyi böyük töhfələrin tarixi baxımdan heç də həmişə düzgün və dolğun qiymətləndiril”mədiyini[2] qeyd etmişdir. Bu səbəbdən üçüncü cilddə “ədaləti bərpa etməyə çalışan yazıçı, “Heydər Əliyevin Yuri Andropovun, Konstantin Çernenkonun komandasında həqiqi yerini, rolunu və əhəmiyyətini”[3] göstərməyə çalışmışdır.

Yeni mühit, yeni dövr, yeni insan qalereyası ilə tanışlıq, yeni problemlər yaradır. Bu səbədən dövrü geniş şəkildə əks etdirməyə çalışan Elmira Axundova binar qarşıdurma, müqayisəli təsvir prinsiplərinə sadiq qalaraq Heydər Əliyevin dövlətin birinci şəxsləri olmuş Y.Andropov, K.Çernenko, M.Qorbacov və başqa məmurlarla münasibətlərinin təsvirinə ayrıca bölmələr həsr etmişdir- “Heydər Əliyev və Yuri Andropov”, “Heydər Əliyev və Mixail Qorbaçov”. Əvvəlki kitabda olduğu kimi Heydər Əliyevin siyasi müttəfiqlərinin

---

[1] Vidadi Babanlı. Unutmadığım günlər (Heydər Əliyev haqqında xatirələrim) // “Azərbaycan” jurnalı, 2007, № 2, s.124-135

[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804, s.3

[3] Yenə orada, s.36

fəaliyyətnin geniş təhlili, bioqrafik məlumatlar, iş prinsipinin incələnməsi aparılmış, mövzu dövrün geniş ictimai-siyasi, mədəni həyatının müstəvisində əks olunmuşdur. "Yeni ümidlər", "Durğunluq", "İki il yarım Qorbaçovun komandasında...", "Süqut" kimi fəsillərdə həm Heydər Əliyevdən, həm də ölkənin həyatında yer alan bir çox yaddaqalan hadisələrdən bəhs olunmuşdur. "Bu illər böyük yüksəliş, məsuliyyət, şöhrət və nüfuz, eyni zamanda ümidlərin boşa çıxması, acı itkilər və ideallarin iflası dövrü idi".[1]

Yuri Andropovun fəaliyyətindən bəhs edən Elmira Axundova ölkənin müxtəlif sahələrində aparılan islahatları təsvir etmiş, Yuri Andropovun siyasi portretinin əsas cizgilərini müəyyən etməyə, xalqın ona qarşı simpatiyasının səbəblərini araşdırmağa çalışmışdır.

Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev həmin dövrdə qəflətən özünün səhhətində baş verən vəziyyəti bu cür xatırlayır: "1987-ci ilin mayında Kremldə, kabinetimdə özümü qəflətən pis hiss etdim, xəstəxanaya aparıb hansısa iynələri vurdular, iki gün özümdə olmadım. Sonra mənə dedilər ki, ciddi infarkt olmuşam, hətta iki günü xəstəxana dəhlizlərində keçirən övladlarıma demişdilər ki, sağ qalmağıma ümid azdır. Sonra artıq Qorbaçov yanıma adam göndərməyə başladı. Xəstə halımda çalışırdılar ki, işləyə bilmədiyimi və elə xəstəxanada ikən məni vəzifədən azad etmələrini söyləyim. Bu cür qeyri-insani münasibət! Məndə Siyasi Büroya ikrah hissi yaradan neçə-neçə belə misal çəkə bilərəm! 1976-cı ilin fevralında məni Siyasi Büro üzvlüyünə namizəd seçəndə bunu xoşbəxtlik sayırdım, sonra isə hər şeydən iyrəndim. Yeri gəlmişkən, "Siyasi Büro" deyirsiniz, iki ay yarım xəstəxanada yatmışam, Siyasi Büronun bir üzvü belə telefonla zəng vurmayıb!..."[2]

Xatirələrdən Ulu Öndərin hansı şəraitdə yaşayıb-yaratmağa məcbur olduğu aydın olur. Lakin o bu vəziyyətdə də tam gücü ilə işləyirdi. Daimi nəzarətdə olmasına (qızının, Ramiz Mehdiyevin xatirələri), qeyri-səmimilikdən sıxılmasına baxmayaraq, möhkəm iradə göstərərək işinə davam edir, özünə qarşı tələbkarlığı azaltmır, Kremlin eyforiyasına qapılıb prinsiplərindən geri çəkilmirdi. O, heç zaman birgə çalışdığı insanlardan narazılığını biruzə vermirdi. Əks

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.4

[2] Yenə orada, s.87

halda xatirələrdə onun əsəbiliyi, narahatlığı vurğulanardı. Lakin hər kəs onu daim təmkinli insan olaraq xatırlayır.

Həmin illərdə Heydər Əliyevlə rastlaşan insanların xatirələrinə nəzər salaq: “Heydər Əliyev məni çox mehriban qarşıladı. Yaxşı təsir bağışladı. Ucaboylu, qədd-qamətli. Kostyum əyninə kip otururdu. Qəşəng qalstuku nəzəri cəlb edirdi. Əliyev rus dilində yaxşı danışırdı, çoxlu aforizm işlədirdi. Hiss olunurdu ki, o, yumoru, incə zarafatı sevir. Ürəkdən gülməyi var idi (Y.Suxin)”.[1]

Çernobıl hadisəsi zamanı Mixail Qorbaçovun mövqeyindən bəhs edən müəllif yazır: “Çernobl Qorbaçovun xislətindəki bir çox cəhətlərə güzgü tutdu: onun qətiyyətsizliyini, səbatsızlığını, həqiqətdən (acı olsa da) xoflandığını, bərk ayaqda məsuliyyətdən yayınmağını, öz xalqı ilə açıq danışmağa, ən baçlıçası – xalqın dərdinə can yandırmağa qadir olmadığını göstərdi. O, hətta Nikolay Rıjkovun çox təhrik və təkidlərinə baxmayaraq, Kiyevə də getməyə cürət etmədi... Heydər Əliyev haqqında belə davranışı təsəvvürə gətirmək də mümkün deyildi”.[2]

Qorbaçov xalqa böyük vədlər versə də yerinə yetirə bilmir. “Söz ilə əməl arasında boşluq, siyasi rəhbərlik ilə xalq arasında uçurum yaranıb. Xalqın rəhbərliyə inamsızlığı və gələcəyə ümidsizliyi artıb, Kommunist partiyası nüfuzdan düşüb” (Heydər Əliyev).[3]

Heydər Əliyevlə birgə çalışmış insanlar da onu xarakterizə edərkən müqayisələrə müraciət etmişlər. Məsələn, Heydər Əliyevin Siyasi büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi zaman onunla birgə çalışan Camal Camalov Heydər Əliyevi SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkovla müqayisə edərək fikrini bu cür ifadə edir: “Nikolay Rıjkovla Heydər Əliyevin yığıncaqlardakı çıxışlarını müqayisə etdikdə, onların arasındakı fərq aydın görünürdü. Çıxışları üzərində işləyərkən Heydər Əliyev onlara qəlbinin hərarətini qoyurdu, onun hər bir fikri əsaslandırılmış olurdu və demək istədiyi fikri insanlara çatdıra bilirdi. Bu, hər kəsə nəsib olan şey deyil. Rıjkov yaxşı mühəndis, təsərrüfatçı idi. Ancaq natiqlik qabiliyyətinə malik deyildi, dinləyicilərinə öz fikirlərini çatdıra

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.127-128

[2] Yenə orada, s.465

[3] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. V cild, Bakı, CBS, 2013, s.136

bilmirdi. Bu cəhətdən Heydər Əliyev hamıdan yüksəkdə dururdu. Orta pillə rəhbərləri arasında onun yüksək səviyyəli, parlaq, güclü peşəkar, həm də xarici görünüşçə çox cazibədar mütəxəssis imici yaranmışdı. Heydər Əliyevlə görüşə gələn insanlar bilirdilər ki, suallara cavab verməyə 120 faiz hazır olmalıdırlar. Əgər sən hansısa suala cavab verə bilməyəcəksənsə, onda yaxşısı budur, onun yanına getməyəsən. O özünə olduğu kimi, tabeliyində olanların hamısına qarşı çox tələbkar idi. Nazirliklərin kollegiya iclaslarında çıxış edərkən, istər Yollar Nazirliyi olsun, istərsə də, Səhiyyə Nazirliyi, fərqi yoxdur, hamı deyirdi: "Bizim nazirlər belə çıxış edə bilməzlər. O, hər şeyi o qədər anlaşıqlı izah edirdi ki, öz fikrini hər kəsin diqqətinə çatdıra bilir".[1]

Heydər Əliyevin SSRİ-nin nəqliyyat sahəsindəki fəaliyyəti, Baykal-Amur magistralının tikintisində, Çernobl qəzasının, "Admiral Naximovu"un faciəsinin araşdırılmasında iştirakından bəhs edən yazıçı, Heydər Əliyevin Andropovun hakmiyyəti illərində fəaliyyətini konkret sənədlər üzrə təhlil edərək fikirlərini bu cür tamamlayır: "...topladığım qərarlar qəti surətdə göstərir ki, Qorbaçov yenidənqurmasına qədər və onun başlanmasından bir müddət sonra məhz Heydər Əliyev sovet hökümətində mərkəzi fiqur, ən parlaq və işləmək bacarığı olan şəxsiyyət idi".[2]

Ən çətin anlarda Heydər Əliyevin qətiyyətli olması Çernobıl faciəsi zamanı əyani sübutunu tapır. Həmin hadisədən bəhs edən ukraynalı yazıçı Boris Oleynik faciənin qiymətləndirilməsində Heydər Əliyevin rolunu qeyd edərək bildirir: "Bu, çox önəmli detaldır. Qorbaçov özü Ukraynaya gəlməyə qorxdu, amma Şerbitski 1986-cı il 1 May paradından danışmaq və heç olmasa uşaqları evakuasiya etdirmək istəyəndə, Qorbaçov onu hədələmişdi ki, sən çaxnaşma yaydığına görə partiyadan qovulacaqsan. Və Allaha şükür ki, Siyasi Büroda Ukraynada baş verənlər haqqında öz bəyanatı ilə bu "xadimi" sadəcə qəza yox, faciə olduğunu boynuna aldıra bilən Heydər Əliyeviç Əliyev vardı. Qlobal faciə. Və bu mövqeyinə görə Azərbaycan prezidentinə minnətdarıq".[3]

Həmin illər Heydər Əliyevin şəxsi həyatında da ağır illər ola-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.168

[2] Yenə orada, s.143

[3] Yenə orada, s.463

raq yadda qalır. Xanımı Zərifə Əliyevanın vəfatı onu sarsıdır. Onun bu hadisəni necə emosional qarşıladığını qeyd edən müəllif zahiri sərtliyinə rəğmən incə, həssas qəlbli insan olmasını vurğulayır.

Bütün çətinliklərə baxmayaraq, bu illər Heydər Əliyevin nailiyyətləri də yox deyildi. 60 illik yubileyi ilə bağlı ikinci dəfə Sosialist Əməyi qəhrəmanı adını alması onun fəaliyyətinin rəhbərlik tərəfindən yüksək qiymətləndirilməsinin göstəricisidir.

Siyasi Büroda Heydər Əliyevə qarşı kampaniyaya başlanması, infarkt olandan sonra Heydər Əliyevin sıxışdırılaraq işdən uzaqlaşdırılması ilə həyatının ən böhranlı illəri başlayır. Ağır xəstəlikdən sonra özünə gələn insan mənəvi zərbələrlə qarşılaşır. Qızı Sevil Əliyeva həmin illəri bu cür xatırlayır: "bu, dəhşətli illər idi. Onun uzaqlaşdırılmasını əsaslandırmaq üçün sifarişli murdar məqalələr təşkil edirdilər. Uydurulması mümkün olan ən əcayib şeyləri onun adına yazırdılar. Ağır infarktdan təzə-təzə qurtulan insana iztirab verirdilər".[1]

Xatirələrində Heydər Əliyevin Moskvaya çağırılmasından bəhs edən Anar, azərbaycanlının yüksək vəzifə tutmasına sevinsə də, bu "ünsiyyətçil, tolerant" insanın eyni zamanda çox tənha bir insan olduğunu qeyd edir. Onun bu böyük nailiyyətinin ağrılı tərəflərindən bəhs edərək, bu mərhələni Heydər Əliyevin həyatının ən ağrılı illəri olaraq xarakterizə edir. Ən əziz insanı Zərifə xanımın ölümünü, özünün qüsursuz fəaliyyətinin paxıllığa, həsədə səbəb olduğunu qeyd edən müəllif onun Vətənindən ağrı ilə ayrılması haqqında yazır: "O gündən çox illər keçib və bir əsrə sığışmayacaq qədər bol və gərgin dəyişikliklər olub, hadisələr baş verib, dünya, ölkə, vaxt, quruluş, siyasət, insanların fikirləri, hissləri, davranışları kökündən başqalaşıb və mən o uzaq görüşü, Heydər Əliyevin qəfilcə kövrəlməsini xatırlayanda cürbəcür düşüncələrə dalıram. Belə ali mənsəbə yüksələn şəxsin qəfil kövrəlməsinə səbəb nə idi? İlk öncə ağla gələn budur ki, Heydər Əliyev Azərbaycana, doğma vətəninə, xalqına çox bağlı adamdır, bu torpaqdan uzaqlarda ömür sürmək onunçün çətindir. İnkişafı üçün bu qədər iş gördüyü, əmək, enerji sərf etdiyi respublikanı tərk edib tamam başqa bir mühitə düşməsi, təbii ki, ciddi məsələ idi. İkinci fikrim o idi ki, həmin o illərdə heç

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.627

kim bunu açıq etiraf edə bilməsə də, Heydər Əliyev yad bir şəraitdə, xeyirxahlarıyla bərabər bədxahları, siyasi rəqibləri də olan mürəkkəb bir mühitdə olacaqdı. O vaxtlar bəzilərimizin yalnız güman etdiyimiz gerçəklər son illərin siyasi memuarlarından, işıq üzünə çıxarılmış gizli sənədlərdən hamı üçün aydın-aşkar oldu:- hakimiyyətin ən yüksək mərtəbələrində, o cümlədən Siyasi Büroda kollektivizmdən, həmrəylikdən danışsalar da bir-birinə ən azı soyuq münasibət bəsləyən, səmimiyyət nə demək olduğunu bilməyən, bir-birinə daim göz qoyan, bir-birini güdən, bir-birinin ayağının altını qazan adamlar yığışıbmış" (1,70).

Ətrafındakı insanların etibarsızlığından sarsılan, fəal ictimai-siyasi fəaliyyətdən sonra özünün qeyd etdiyi kimi "ev dustağ"ı olaraq yaşamaq nəsibi olan insan üçün bu illər ağır sınaq dövrü olur. Lakin o, bu ağrılı illərdən üzü ağ çıxaraq siyasi karyerasının növbəti ən uğurlu mərhələsinə qədəm qoymağa müvəffəq ola bilir.

Heydər Əliyevin illərlə inandığı, var gücü ilə möhkəmlənməsinə, inkişaf etməsinə çalışdığı quruluşa qarşı etimadını itirməsini, kommunist ideoloqundan başlayaraq müstəqil dövlət başçısı olaraq keçdiyi yolu canlandıran Elmira Axundova, ətrafındakı bəzi insanların hər cür yolla quruluşu qorumağa çalışmasına rəğmən, Heydər Əliyevin zamanında islahatların qaçılmaz olduğunu dərk etdiyini qeyd edir. Həmin illərdə o, partiyadan öz qərarıyla çıxmış "öz qəti hərəkətini, görk olsun deyə, Rusiyanın aparıcı KİV kanalları ilə dünyaya bəyan etmişdi".[1]

Sovet illəri çətin və mürəkkəb olsa da Heydər Əliyev heç zaman həmin dövrdən imtina etmir, bütöv şəxsiyyət olaraq ömrünün hər mərhələsi üçün cavabdeh olmağı bacarırdı. 1990-cı illərdə həmin illəri xatırlayan Ulu Öndər ötənlərə münasibətini bu şəkildə xarakterizə edirdi: "Bütün keçmişimlə fəxr edirəm... Mən Sovet İttifaqında olanların hamısına qara yaxmağın, şər atmağın əleyhinəyəm. Mən Kommunist partiyasına vicdanla xidmət etmişəm, eləcə də vicdanla 90-cı ildə onun sıralarından çıxmışam.... Bəli, keçmişdə mən Sovet İttifaqını möhkəmləndirmişəm və hesab edirəm ki, o, öz tarixi rolunu oynamışdır. Faşizmin məğlub edilməsi, bu əjdaha üzərində qələbədə Sovet İttifaqı nəhəng rol oynamışdır. Və heç nəyi unutmaq

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.498

lazım deyil. Bizim əsrimiz mürəkkəb olmuş, birmənalı olmamışdır, bəlkə bu prosesləri incələyərək gələcək tədqiqatçılar daha obyektiv olacaqlar..."[1]

Ətrafındakı insanlar da onun daxili azadlığını, iradəsini hiss edirdi. İvan Laptyev: "O, vəzifə adamı idi, ona xidmət edirdi. Onu bu sistem yetişdirmişdi. Ancaq Heydər Əliyevin ağlının və xarakterinin gücü onda idi ki, bu birbaşa asılılığı özündə dəf edə bilmişdi. Bəli, o sona qədər öz əqidəsinə sadiq qaldı, ancaq sistemin özündən qopa bildi və artıq tamamilə başqa cür işləməyə başladı".[2]

Heydər Əliyevin Bakıya gəlişindən qorxuya düşən Azərbaycan hakimiyyətinin bu səfərin qarşısını almağa yönəlmiş fəaliyyəti əsil detektiv süjeti xatırladır. Ailə üzvlərinə qarşı təyziqlər, ölüm hadisəsi səbəbindən Heydər Əliyev üç dəfə biletini qaytarmalı olur.

Müstəqillik illərindən bəhs edən son kitablarda artıq Heydər Əliyevi Milli Liderliyə doğru aparan yol təsvir edilir. 1990-1993-cü illəri əhatə edən beşinci kitabda hadisələr Heydər Əliyevin doğma Vətəni Naxçıvanda baş verir. Bu cildin əsas qəhrəmanı Heydər Əliyevlə birgə Xalqıdır. Öncə "kiçik vətənində", ömrünün ən çətin günlərində ona dayaq olan Naxçıvan xalqı canlandırılır.

Heydər Əliyevin səhhəti zəifləmiş, həm Moskvada, həm də Bakıda, hər iki paytaxtda gördüyü münasibətdən mənən sarsılmışdı. Yaxınları onun bu illərdə həm də fiziki cəhətdən zəiflədiyini, sınıxdığını qeyd edirlər. 1990-cı illərdə 20 yanvar hadisələri ilə bağlı Moskvadakı çıxışı zamanı onu izləyən xalqı da ondakı bu dəyişiklikləri ağrı ilə müşahidə edirdi. Lakin fiziki cəhətdən zəifləsə də o, siyasi qüdrətini itirməmişdi. Bakıda, Moskvada ona qarşı olan münasibət, Bakıya qayıdışına ölkə rəhbərliyinin qəti etirazı, Heydər Əliyevin siyasi opponentləri üçün hələ də güclü rəqib olduğunu sübut edirdi. İşindən uzaqlaşan, təqaüdə göndərilən bir çox siyasətçilər rahatlıqla ömür sürürdülər. Onun taleyi isə başqa idi. Səhhətinin zəifləməsinə, yaşının ahıl çağına qədəm qoymasına baxmayaraq Heydər Əliyev hələ də siyasi elita tərəfindən rəqib olaraq qiymətləndirilirdi.

İllər sonra zaman qarşı tərəfin haqlı olduğunu göstərdi. Qısa müddətdə Muxtar Respublikanın dirçəlməsi, beynəlxalq əlaqələrinin

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s., s.497

[2] Yenə orada, s.174

yeni yüksək mərhələyə adlaması ilə xalqın gözü yenidən ona dikildi. Heydər Əliyev yeganə əvəzsiz lider olaraq Bakıya dəvət edildi.

Liderin xalqı ilə münasibətləri xüsusi bir mövzudur. Hakimiyyətə müxtəlif yollarla gəlmək olar, lakin hər prezidentə xalqın sevgisini qazanmaq nəsib olmur. Heydər Əliyev isə həm Sovet dövründə, həm də sonrakı mərhələdə insanlarla asanlıqla ünsiyyətə girməyi bacaran, xalqın etimadını qazana bilən xarizmatik şəxsiyyət olaraq digər məmur ordusundan xeyli dərəcədə seçilirdi. Əvvəlki hissələrdə müəllif, xalq arasında populyarlığının Kremldə həsəd doğuraraq, Heydər Əliyevə qarşı münasibətin dəyiməsində böyük rol oynadığını qeyd etmişdir.

İllərin, mühitin, mövqeyin dəyişməsi Heydər Əliyevin siyasi kursuna təsir edə bilmir. O yenə də əzm, iradə nümayiş etdirərək bütün qüvvəsini xalqının rifahına yönəldir və qısa zamanda Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq yaradır, iqtisadi stabilliyə nail olur. Bakıda isə vəziyyət gərgin olaraq qalırdı.

Son hissələrdə Azərbaycanın siyasi arenası gündəmə gəlməklə yanaşı, müəllifin özünün Ulu Öndərlə şəxsi görüşləri əsərə xüsusi emosionallıq qatmışdır. Müasirimiz, canlı şahidi olduğumuz hadisələrin analitik təsviri xüsusi maraq doğurur.

Burada, doğma vətənində Heydər Əliyevin siyasi opponentləri olan Ə.Vəzirov, A.Mütəllibov, Ə.Elçibəylə də münasibətlərdə gərginlik yer alırdı. Onlar eyni Vətənin övladları olsalar da hər kəs fərqli məqsədlərə qulluq edirdi. Qısa müddət ərzində bir neçə dəfə hakimiyyətin dəyişməsinin şahidi olan xalq öz seçimini bir dəfəlik müəyyən edərək, ölkənin inkişafının əsas xəttini müəyyənləşdirməyə nail ola bildi. Bu yol Heydər Əliyev yolu idi.

Heydər Əliyevi digər siyasi opponentlərindən fərqli edən hər bir situasiyada öz mövqeyinin olması (bu xüsusiyyət A.Mütəllibov və Ə.Vəzirovun fəaliyyəti müstəvisində daha aydın nəzərə çarpır), işgüzar fəaliyyətinin yalnız gözəl nitqlərlə əhatə olunmaması (M.Qorbaçovla müqayisədə), əməli fəalliyyəti ilə seçilməsində idi. O, xarici dövlətlərlə partnyorluq əlaqələrinin inkişafına (Ə.Elçibəydən fərqli olaraq) xüsusi önəm verir, hər bir dövlət başçısı ilə görüşdə öz üstün mövqeyini, müstəqilliyni qoruya bilirdi. Məsələn, Çində olan səfərində, habelə bir çox situasiyalarda ölkə rəhbərinin ən çətin insanlarla ünsiyyət qurmaq bacarığı xüsusi vurğulanır.

Heydər Əliyev daim düşünülmüş strategiyaya uyğun hərəkət

edirdi. Müasirləri onun heç zaman tələsmədiyini, eyni zamanda heç vaxt gecikmədiyini qeyd edirdilər. Düşünülmüş, balanslaşdırılmış siyasəti onun ən ağır vəziyyətlərdən uğurla çıxmasını təmin edir. Özünə xas yumor hissi, sadəliyi ilə o xalqın sevgisini qazanmış ölkə rəhbəri, siyasi karyerasının ən çətin anlarında xalqından kömək istəməkdən çəkinməmişdir. Əvvəlki dövrlərdəki gizli qarşıdurmalardan fərqli olaraq, müstəqillik illərində eyni xaqlın nümayəndələri arasında baş qaldıran xaotik qarşıdurma daha təhlükəli idi. Bu qarşıdurmanın nəticəsi xalqı məhvə doğru sürükləyirdi. Qarşı tərəflər nəticənin hər biri üçün acınacaqlı olduğunu bilsələr də kompromisə gələ bilmirdilər. Bəhs etdiyi mətləblərin ciddiliyini, müəyyən hadisələrlə bağlı müxtəlif rəylərin olmasını nəzərə alan müəllif, həmin hadisələrin şahidi olmuş insanların xatirələrinə geniş yer vermişdir.

Elçibəyin Azərbaycan siyasi arenasında mövqeyindən bəhs edən Kamal Abdulla onu bu cür xarakterizə edir: "Əbülfəz Elçibəy Azərbaycan tarixinə düşmüş şəxsiyyətdir. Lakin təbii ki, subyektiv amilləri də istisna etmək olmaz, çünki Elçibəy haqqında xalq kütlələrinin şüurunda formalaşmış demokratik lider obrazı prezidentlik səviyyəsində özünü doğrultmadı. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri vardı. Onun ətrafındakılar da lazımi adamlar deyildi. Ümumiyyətlə, Əbülfəz Elçibəy müxalifətin lideri rolunda qalsaydı, daha yaxşı olardı".[1]

Əbülfəz Elçibəyin hakimiyyətinin sonundan bəhs edən Elmira Axundova çox uğurlu bir bənzətmədən istifadə edir: "Kələkili xəyalpərəstin bərq vuran şüşə sarayı çilik-çilik oldu. Azərbaycanın çağdaş tarixində yeni era başlayırdı..."[2]

Heydər Əliyev isə özünün qayıdışına bu cür aydınlıq gətirir: "Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüquqlardan heç kəs məhrum

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. V cild, Bakı, CBS, 2013, s.483

[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.55

edə bilməz”.[1]

Son cildin birinci kitabında ölkənin ən mürəkkəb zamanında Heydər Əliyevin yeritdiyi düşünülmüş siyasət, ətrafı ilə apardığı danışıqlar, böhrandan çıxış yollarından, ikinci kitabda isə Heydər Əliyevin milli lider olaraq özünü dünyada təsdiq etməsindən bəhs olunur. Heydər Əliyevin hakimiyyətə doğru fəaliyyətini canlandıran müəllif, onun rast gəldiyi maneələrdən də yan ötmür.

Çoxları üçün “KQB-nin adamı” olaraq qiymətləndirilən Heydər Əliyevə qarşı xarici KİV-də səsləndirilən inamsızlıqdan bəhs edən yazıçı, xarici mətbuatda yer alan skeptik yazılara əsaslanaraq Heydər Əliyevin hakimiyyətinə qarşı inamsızlığın hökm sürdüyünü qeyd edir. Qısa bir zamanda bu şübhələri aradan qaldırmağı bacaran Heydər Əliyev suveren ölkənin prezidenti olaraq dünyanın siyasi arenasında uğurla irəliləməyi bacarır (S.Telbotla görüşü). Bu illərdə Azərbaycandakı ictimai-siyasi vəziyyətlə bağlı onlarla sənəd hazırlanaraq dünya ictimaiyyətinə təqdim edilmiş, bir çox məsələlərlə bağlı razılaşmalar əldə olunmuşdur.

Hakimiyyyətə ikinci dəfə qayıdışı zamanı prezidentin ətrafında yeni komanda formalaşır. Həmin illərdə onunla birgə çalışmış Arf Rəhimzadə Heydər Əliyevin kadr siyasətini bu cür qiymətləndirir: “Heydər Əliyev hər şeyi tələsmədən edirdi, lakin yubatmırdı da. O, keçmiş rəhbərlik tərəfindən təyin olunmuş adamları dərhal dəyişməyə tələsmirdi. İmkan verirdi ki, onlar özlərini göstərsinlər. O koqortadan olan rəhbər işçilərin bir çoxu Heydər Əliyevin vaxtında uzun müddət vəzifə tuturdular... Heydər Əliyev istəyirdi ki, onun ətrafında fikirlərin geniş palitrasını əks etdirən, savadlı, müəyyən təcrübəsi olan, zamanı hiss edən, gözüaçıq adamlar olsun. Axı təhlükəsizlik, müstəqillik və ölkənin bütövlüyü ilə bağlı çoxsaylı həyati vacib problemlərlə yanaşı qarşıda bir ictimai-siyasi və iqtisadi formasiyadan tamamilə başqasına keçmək vəzifəsi durmuşdu”.[2]

Kitabın hər cildində mətndə yer alan yeni insanlar haqqında məlumat verilmiş, onların həyat fəaliyyətinin qısa xarakteritikası yer almışdır. Köhnə partiya kadrlarından uzaq olan Heydər Əliyevin komandasına yeni insanlar yol tapdılar. Lalə Şövkət Hacıyeva, müda-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. V cild, Bakı, CBS, 2013, s.135

[2] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.82

fiə naziri Məmmədrəfi Məmmədov... Romanda Heydər Əliyevin komandasının layiqli üzvlərindən olan Dilrüba Camalovanın Cənubda baş verən hadisələrdə xüsusi şücaətindən geniş bəhs edilmişdir.

Heydər Əliyevlə müxtəlif illərdə çalışan hər kəs onun xarakterindəki bu xüsusiyyətləri daim vurğulayır. "Bu insanın böyük həyat təcrübəsi var idi, bir göz qırpımında qərar qəbul etməyi bacarırdı. O, istiqaməti düz götürməyi bacarırdı, çox vaxt biz onun niyə belə etdiyini başa düşmürdük. Elə hallar olurdu ki, onun qəbul etdiyi qərarları biz kuluarlarda səhv addım kimi qiymətləndirirdik, ancaq üç-dörd ay sonra bilinirdi ki, o, düz "gözündən vurmuşdur. Biz hərdən onu başa düşmürdük, çünki o, çox uzaqgörən idi".[1]

Həmin dövrlərdə ölkənin ictimai siyasi həyatında bir çox hadisələr baş vermişdi. Naxçıvandakı iş prinsipinə sadiq qalan Heydər Əliyev öncə xarici ölkələrlə əlaqələrin bərpasına, mətbuatla işin yenidən qurulmasına xüsusi diqqət ayırır. Qəhrəmanının müstəqil ölkənin prezidenti olaraq dövlət quruculuğu sahəsindəki fəaliyyətindən bəhs edən yazıçı, ordunun yaradılmasından, orduda aparılan islahatlardan bəhs etmişdir.

Bütün dövrlərdə olduğu kimi erməni separatizmi ilə mübarizə, Qarabağ hadisələri ilə bağlı qərarlar Ali Baş Komandanın fəaliyyətinin ana xətti olaraq əks olunmuşdur. Heydər Əliyev ikinci dəfə ölkənin rəhbəri seçildiyi dövrdə respublikada qismən də olsa daxili sabitliyin yaranmasına baxmayaraq, cəbhədə vəziyyət mürəkkəb olaraq qalırdı. 1993-cü ilin iyul-sentyabr ayında ölkədəki vəziyyətdən bəhs edən yazıçı vəziyyəti bu cür qiymətləndirir: "O (Heydər Əliyev), çoxgedişli əməliyyatlar aparır, ilk vaxtlar sülhpərvər diplomatik yanaşmaya üstünlük verərək münaqişənin müxtəlif həlli yolları arasında müvazinəti qorumağa çalışır. O, nizamlanma prosesinə ən müxtəlif qüvvələri cəlb edir: Moskva və Vaşinqton təmsilçiləri, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə danışıqlar aparır, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin baş katibinə məktubla müraciət edir, MDB dövlət başçılarının iclaslarında bəyanatlarla çıxış edir və s."[2]

Bu illərdə ölkəni böhran vəziyyətindən çıxartmağa çalışan Prezident atəşkəsə nail olaraq əsas diqqətini ölkənin iqtisadiyyatının

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.208

[2] Yenə orada, s.152

dirçəlməsinə, uğurlu neft strategiyasının həyata keçirilməsinə yönəldərək xarici siyasət sahəsindəki nailiyyətlərə imza atmağa, ölkənin dünya arenasında imicinin qaldırılmasına müvəffəq olmuşdur. Həm Qərbdə, həm də Şimal istiqamətində bərabərhüquqlu dialoqa üstünlük verərək, pozulmuş əlaqələrin yenidən bərpasına nail olur.

Qərblə, Rusiya, Türkiyə dövlətləri ilə qurulan əlaqələr və nailiyyətlərdən bəhs edən müəllif, bu sahələrdə çalışmış insanların xatirələrinə istinad edərək, ən mühüm, yaddaqalan görüşləri, çıxışları xatırlamış, imzalanmış müqavilələrdən, bəyanatlardan bəhs edərək, həmin illər siyasi-diplomatik fəaliyyət sferasında çalışmış Vəfa Quluzadə, Həsən Həsənov, Vilayət Quliyev və b. dövlət xadimlərinin xatirələrinə istinad etmişdir. Hər bir fəsildə konkret məsələlərə aid sualları cavablandırmağa çalışan yazıçı, sonda həmin problemlərlə bağlı əldə etdiyi qənaətləri ümumiləşdirməyə çalışmışdır.

Heydər Əliyev və mədəniyyət xətti Ulu Öndərin bütün fəaliyyəti dövründə siyasətinin əsas leytmotivini təşkil edən sahələrdən olmuşdur. O, hakimiyyətdə olduğu illərdə yaradıcı insanlara qarşı xüsusi maraq göstərmiş, Moskvada, Naxçıvanda, Bakıda yaşamasından asılı olmayaraq ölkənin mədəni həyatında baş verən hadisələri diqqət mərkəzində saxlamış, dəfələrlə premyeralara qatılmış, Yazıçılar İttifaqının qurultaylarında iştirak etmiş, ölkənin sənət adamları, yazıçı və şairləri ilə görüşmüşdür. Ulu Öndərin yaradıcı şəxs olaraq gözəl rəssamlıq qabiliyyətinin olduğunu, bir vaxtlar memar olmaq istəyini qeyd edən müəllif, ölkənin ən çətin vaxtlarında belə, bu sahəyə diqqətini əsirgəmədiyini xüsusi vurğulamışdır. Heydər Əliyev blokada şəraitində olan Naxçıvanda Hüseyn Cavid məqbərəsinin yenidən bərpa olunmasını diqqət mərkəzində saxlamış, gözəl bir məqbərənin yaradılmasına nail ola bilmişdir. "O öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla onun milli ruhunun dirçəlməsində görürdü. Heydər Əliyev, eyni zamanda, bu milli - mənəvi dəyərlərin bütün dünyada tanıdılmasına da böyük əhəmiyyət verirdi" (R.Mehdiyev).[1]

Süleyman Rüstəmin 90 illik yubileyində çıxışı zamanı sovet ədəbiyyatını rasional mövqedən təhlil edən Prezident, nihilist yanaş-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.208, s.329

maları düzgün saymayaraq sovet ədəbiyyatının ən görkəmli şairi olaraq Səməd Vurğunun adını çəkmişdir.

Heydər Əliyevin Şimali və Çənubi Azərbaycan yazıçılarının arasında ədəbi-mədəni əlaqələrin inkişafına yönəlmiş təşəbbüsləri, Dədə Qorqud dastanının 1300 illik yubileyinin keçirilməsinə qərar verməsi, şübhəsiz, müasir tariximizin ən şanlı səhifələrindəndir. Elmira Axundova "Kitabi-Dədə Qorqud" eposunun xalqımıza qaytarılmasının akademik Ramiz Mehdiyev tərəfindən azərbaycanşünaslıq sahəsində atılmış ən mühüm addım olaraq qiymətləndirildiyini qeyd etmişdir.[1]

Ulu Öndərin memarlıqla bağlı həyata keçirilən layihələrdə birbaşa iştirakı ("Şəhidlər xiyabanı" kompleksinin, Hüseyn Cavid məqbərəsinin hazırlanması prosesinə nəzarəti) xüsusi ilə qeyd olunmuşdur.

Elm, kinomatoqrafiya, sənət adamları üçün prezident təqaüdünün təsis edilməsi həm Elmira Axundova, həm xalq yazıçısı Anar tərəfindən, ölkənin ən çətin, mürəkkəb dövründə bu sahədə baş verəcək tənəzzülü aradan qaldırmağa yönəlmiş mühüm addım olaraq qiymətləndirilmişdir. Azərbaycanın üç xalq şairinin – Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rza Ulutürkün "İstiqlal" ordeni ilə təltif edilməsi Heydər Əliyevin ədəbiyyata verdiyi yüksək qiymətin göstəricisi olaraq qiymətləndirilmişdir.

Son illər qələmə alınan memuarlarda yazıçılarımız Heydər Əliyevin onların həyatında oynadığı müstəsna roldan geniş bəhs etmişlər. İsa Muğanna xatirələrində Nəriman Nərimanov haqqında yazdığı ssenari ilə bağlı narazılıqlara baxmayaraq, Heydər Əliyevin ona dayaq duraraq filmin ekrana buraxılmasına icazə verdiyini qeyd etmişdir.[2] Daha sonra ölkə rəhbərinin tapşırığı ilə "Nəsimi" filminin ssenarisini qələmə alan yazıçı, ədəbi ictimaiyyətdə özünə qarşı münasibətin birmənalı olmadığını vurğulamış, özü üçün mürəkkəb dövrlərdə məhz Heydər Əliyevin ona qahmar çıxmasını böyük sevinclə xatırlamışdır. Həmin dövrdə özünə olan münasibətdən bəhs edən İsa Muğanna Mehdi Hüseynin fikirlərinə istinad edərək vəziyyəti bu cür xarakterizə edir: "Romanlarının tənqidi boşu-boşuna deyil. Səni Sovet yazıçısı saymırlar..."

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.208, s.337

[2] Muğanna İ. Həyatımdan səhifələr// "Azərbaycan" jurnalı, 2010, № 7, s.114-158

Anarın müstəqillik illəri yaradıcılığında bədii-sənədli əsərlər xüsusi yer tutur. “Unudulmaz görüşlər” kitabı da sənədli əsər olub, yazıçının liderlə birbaşa və “qiyabi” görüşlərinin təəssüratları” əsasında yazılmışdır. Xalq yazıçısı öz xatirələrində “Şəhərin yay günləri” tamaşası ilə bağlı yaranan problemlərdən bəhs edərək, məhz Heydər Əliyevin ona da dəstək olduğunu, tamaşanın oynanılmasına icazə verdiyini yazmışdır. Anar həmçinin Ulu Öndərin Azərbaycanın böyük şairləri olan Rəsul Rza və Nigar Rəfibəyliyə olan qayğısından da bəhs etmişdir.

Məlum olduğu kimi, əsərlərinin qadağan olunması Sovet dövründə yazıçı və şairlərə təyziq metodlarından biri idi. Bu zaman müəllifə qarşı öz yoldaşları, Mərkəzi Komitə tərəfindən ifşaedici münasibət nümayiş etdirilir, içlaslar cağırılaraq günahkarı tənbeh edir, hətta partiyadan cıxardırdılar. Heydər Əliyevin etimadı, bu çətin vəziyyətdə olan insana dayaq durması həmin şəxsi böyük mənəvi və fiziki sarsıntıdan xilas edirdi. Ona görə də, illər keçsə də müəlliflər xatirələrində həmin hadisələri ürək ağrısı və qürurla yad edirlər.

Xalqının tarixi şəxsiyyətlərinə olan münasibəti Ulu Öndərin bu məsələlərdə necə həssas olduğunu bir daha sübut edir. Heydər Əliyevin Nəriman Nərimanovla bağlı mövqeyi, onun yubileyini keçirməyə nail olmasından həm Elmira Axundova, həm də Nəriman Nərimanovla bağlı maraqlı bir kitabın müəllifi olan R.İvanov[1] yetərincə bəhs etmişlər. Bu faktlar milli maraqların qorumasının bütün dövrlərdə Heydər Əliyevin fəaliyyətinin əsas xəttini təşkil etdiyini bir daha təsdiq edir.

Heydər Əliyevin siyasi portretini fərdi keyfiyyətlərinin təsviri ilə zəginləşdirməyə çalışan müəllif, onun sənət insanları ilə dostluğundan bəhs etmişdir. Ulu Öndərin səmimi, diqqətcil, sadiq, zarafatcıl dost olduğunu qeyd edən onlarla epizoda müraciət edən müəllif, Polad Bülbüloğlu, Müslüm Maqomayev, Fidan və Xuraman Qasımova bacıları, Zöhrab Adıgözəlov, Vaqif Səmədoğlu və bir çox başqa sənətkarların xatirələrinə istinad etmişdir.

Heydər Əliyev xaqlının milli kimliyini təyin edən hər bir sahəyə diqqətlə yanaşırdı. Onun ana dili haqqında fikirləri millətindən, dinindən, dünyagörüşündən asılı olmayaraq hər kəs üçün aktualdır:

---

[1] Р.Иванов «Нариман Нариманов основатель советского Азербайджана и первый руководитель Союза ССР», М., 2016, 496 с.

“Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilinizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan”.[1]

Əsərin bir özəlliyi də ondadır ki burada yalnız siyasi məmurlar, tanınmış elm, sənət adamları və prezidentin yaxınları deyil, bu böyük insanla təmasda olan hər bir peşə sahibinin – fotoqraflar, tərcüməçilərin də xatirələri verilmışdır. Heydər Əliyevin sinxron tərcüməçisi olmuş Yaşar Quluzadə onun natiqlik bacarığını professional şəkildə təhlil edərək, “Heydər Əliyevin yüksək nitq mədəniyyəti, aydın tələffüzü, rəngarəng intonasiyası, ürəyə yatan səs tembri, güclü məntiqə söykənən fikir ardıcıllığı kimi” keyfiyyətləri qeyd etmiş,[2] çxışlarının güclü energetikasını xüsusi vurğulamışdır.

Altıncı cilddə “Heydər Əliyev və müstəqil Azərbaycanın iqtisadiyyatı”, “Heydər Əliyev və təhsil”, “Heydər Əliyev və hüquq və azadlıqların inkişafı”, “Heydər Əliyev və kütləvi informasiya vasitələri” və b. mövzular ayrıca fəsillərdə işlənmişdir. Bütövlükdə roman Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı müstəqil məqalələr olacaq çoxlu sayda yarımbaşlıqlara bölünmüşdür.

Heydər Əliyevin həyat və ictimai fəaliyyətindən bəhs edən bioqrafik tədqiqat romanı Azərbaycan bədi-sənədli nəsrinin orijinal nümunəsidir. Müasir dövrün tarixi şəxsiyyətini canlandırmağa çalışan müəllif, əsasən sənədlərə üstünlük vermiş, yaxın keçmişimizə yeni baxış sərgiləməyə çalışmışdır. Tarixi, bioqrafik, publisistik janrın xüsusiyyətlərinin ehtiva olunduğu əsərdə Heydər Əliyevin həyatı dövrün ictimai-siyasi mənzərəsi müstəvisində təsvir və təhlil edilmişdir.

Azərbaycanın ictimai-siyasi, mədəni həyatı haqqında ensiklopedik bilgilərin yer aldığı roman-tədqiqat Sovet Azərbaycanı və müstəqil Azərbaycanın tarixini, ictimai-siyasi, sosial, iqtisadi, mədəni sferalarının, həmçinin Heydər Əliyev irsinin öyrənilməsi, Əli-

---

[1] Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s., s.386

[2] Yenə orada, s.390

yevşünaslığın tədqiqi üçün universal mənbə olaraq qiymətlidir.

Elmira Axundova kitab üzərində işini davam etdirdiyini, Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı yeni əsərlərin çapını planlaşdırdığını qeyd edir. Roman artıq xarıcı oxuculara təqdim olunur. Ötən il kitabın Rusiyada, Londonda təqdimatı keçirilmişdir. Romanın bir çox dillərdə tərcüməsi üzərində iş aparılmaqdadır.

# UŞAQ ƏDƏBİYYATINDA HEYDƏR ƏLİYEV MÖVZUSU

*Bəzən məndən soruşurlar ki, bu qədər gərgin işləri aparmağım necə mümkün olubdur. Hər bir insanın ilhamverici qüvvəsi var. Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir.*

**Heydər ƏLİYEV**

AMEA-nın müxbir üzvü Yaşar Qarayev Ulu Öndərin 75 illiyi ərəfəsində yazdığı məqaləsində deyirdi: "Heydər Əliyev olmaq, ümumiyyətlə, çətin işdir. 75 il fasiləsiz, hər ay, hər gün sərasər Heydər Əliyev olub qalmaq isə xüsusilə çətindir".[1]

Həyatda Heydər Əliyev olmağın çətinliyinə etiraz edən tapılmaz. Həyatda çətin olan bu işin ədəbiyyatda əksi, gerçəkdəki Heydər Əliyevi tarixi yaddaşdan ədəbi yaddaşa köçürmək, onun bədii obrazını yaratmaq ikiqat çətin işdir. Əgər bu obraz, bu bədii portret uşaqlar üçün yaradılırsa, azyaşlı oxucu üçün təqdim olunursa, işin çətinliyi bir qədər də artmış olur.

Heydər Əliyev olmaq iki aspektdən çətin idi. Birinci, zaman və xalq, tarix və cəmiyyət qarşısındakı məsuliyyət, əldə olunmuş müstəqilliyin qorunması yolundakı əziyyətlər, ölkəni çıxılmaz durumdan çıxarmaq üçün tələb olunan "siyasi intellekt" və "strateji diplomatiya" sərgiləmək baxımından idisə, ikinci, Ulu Öndərin bütün bu sadalananlarla vəhdət təşkil edən bioqrafiyası idi.

Yaşar Qarayevin yenə həmin yazısında oxuyuruq: Ümumiyyətlə, bu tərcümeyi-hal çox ziqzaqlıdır: o, imperiya lideri də olub, fərdi təqaüdçü də; istiqlal lideri də olub, DTK generalı da. Ən böyük təqdirin də hədəfi olub, ən kəskin tənqidin də; ləyaqətinə şər atmaq üçün də, şəninə mədhiyyə demək üçün də mikrofonda növbəyə düzülənlər həmişə tapılıb. Amma bu dəyişən mərhələlərin də hamısında təkcə bir şey dəyişməyib: eyni bir daxili, fitri ideala xidmət əzmi, milli Azərbaycan ideyası![2]

Heydər Əliyev bütün ağır və çətin işlərin içərisində xalqın gə-

[1] Yaşar Qarayev. Seçilmiş əsərləri. Beş cilddə, V cild. Bakı, Elm, 2016, s.19
[2] Yenə orada, s.13

ləcəyi hesab etdiyi uşaqlara da zaman ayırır, onların qayğı və problemləri ilə, uğurlarıyla maraqlanırdı ki, bu da əslində onun mənəvi əxlaqi dəyərlərə söykənən siyasi kursunun, Azərbaycan ideyasının tərkib hissəsi kimi dəyərlənir.

Heydər Əliyevin ənənə halını almış, hər il qeyd olunan Uşaqların Beynəlxalq Televiziya və Radio Günü, Uşaqların Beynəlxalq Müdafiə Günü tədbirlərində, şəhid övladları və kimsəsiz uşaqlar üçün təşkil olunan Novruz və Yeni il şənliklərindəki dərin məzmunlu çıxışlarını nəzərdən keçirdikcə onun bu sahədəki çoxyönlü işlərinə şahidlik etmiş olursan. Uşaqlara, yeniyetmələrə xitabla başlayan bu çıxışlar əslində Heydər Əliyevin gələcək nəslin tərbiyəsində, kamil şəxsiyyətlərin yetişməsində, azad və müstəqil Azərbaycanın idarəetməçiliyinin layiqli davamçılara ötürülməsi sahəsində gördüyü proqram xarakterli işlərin ifadəsi idi.

“Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, bizim xalqımız, Azərbaycan xalqı, millətimiz, yəni hər bir Azərbaycan övladı bütün xarici və daxili aləmi ilə çox gözəldir. Mən bu gözəlliyi bu gün sizdə görürəm. Sizin hər biriniz özünəməxsus Azərbaycan gözəlliyinin nümunəsisiniz. Qızlar gözəl Azərbaycan qadını, gözəl Azərbaycan anası, gözəl Azərbaycan qızının nümunəsidir. Oğlanlar mərd, qoçaq, güclü, qüdrətli, cəsur Azərbaycan oğlanlarının nümunəsidir. Bunları görəndə vətənini sevən, xalqını sevən hər bir azərbaycanlı biganə qala bilməz. Onun yalnız və yalnız bir hissiyyatı, sevinc hissiyyatı, xalqına, millətinə, ölkəsinə məhəbbət hissiyyatı ola bilər. Bax bu hissiyyatları mən indi burada sizinlə keçirirəm”.

Bu çıxışların hamısında balalara, təmiz və ülvi varlıqlara dərin sevgi və ehtiram ilə yanaşı, istedadlarına, qabiliyyət və kamallarına bir etimad və əminlik əks olunurdu. Bu arxayınçılıq və əminliyi şərtləndirən amillər onların idman, incəsənət – musiqi, rəqs, rəsm sahəsindəki bacarıqları və uğurları ilə yanaşı, həm də elm və təhsildə, olimpiadalarda əldə etdikləri nailiyyətlər idi. Uşaqlara xoşbəxt gələcəkli, problemi olmayan bir dövlət ərmağan etmək istəyən Ulu Öndər onlarla olan hər görüşündə mövcud problemləri də vurğulayır, böyüklərin onların həll olunması üçün cidd-cəhdlə çalışdıqlarını deyirdi. O, istər ədalətsiz müharibədən əziyyət çəkən, yurd-yuvalarını itirən məcburi köçkün uşaqlarının, valideyinlərini itirmiş şəhid övladlarının, çadırlarda doğulan, böyüyən, elə orada təhsil almağa məhkum edilmiş azyaşlıların problemlərindən ürək ağrısı ilə danışır,

ancaq bütün bunların aradan qaldırılacağını, onlara işıqlı, azad və firavan Azərbaycan vəd edirdi.

Təbii ki, tarixi şəxsiyyətlərin öyrənilməsi, onların fəaliyyətlərinin tədqiq olunması elmi tarixin vəzifəsi olduğu qədər bədii ədəbiyyatın da borcudur. Ədəbiyyat tarixin yetişdirdiyi simaların obrazını yaratmaqla həm də dünən, bu gün və sabah arasında ünsiyyət körpüsü qurmuş olur.

Tarixin elmi araşdırmaya ehtiyacı olduğu qədər "bədii tədqiqata" da ehtiyacı var. Xalqın taleyi, mənəvi keçmişi, onun zamanın müxtəlif dönəmlərində meydana çıxardığı ayrı-ayrı şəxsiyyətləri tarix və tarixçilər tərəfindən araşdırılmaqla yanaşı bədii ədəbiyyatın da işığına ehtiyac duyur. Bədii fikrin tarixə müraciəti, tarixi keçmişdən bəhs etməsi böyük zərurətdən doğur. Ədəbiyyat keçmişin qaranlıq qatlarını aydınlatmaqla yanaşı, onun tarixi şəxsiyyətlərinin bədii obrazını yaratmağa da borcludur. Bu amil həm də ədəbiyyatın bu gün və sabahla bağlılığını şərtləndirir.

Nəzəri-estetik prinsiplərlə tarixi şəxsiyyətlərin həyatına müraciətin vacibliyi bir neçə amillə şərtləndirilir. Ən əsası ona görə vacib hesab edilir ki, tarix və onu yaradanlar ədəbiyyat vasitəsi ilə təbliğ olunur, böyük şəxsiyyətlərin, filosof və sərkərdələrin, söz və düşüncə adamlarının bədii təqdimi tarixin öyrənilməsində, yaşananlardan dərs alınmasında böyük rol oynayır. Bu şəxsiyyətlərin bədii surəti nə qədər monumental yaradılarsa onlar öz xalqlarının milli obrazını, sahib olduğu dəyərləri o qədər aydın əks etdirmiş olarlar. Epoxaların, baş verən hadisələrin, təbəddülatların dərki prosesində bədii tarixin rolu elmi tarixin əhəmiyyətindən heç də az deyil və buna görə də tarixi həqiqətlərin bədii gerçəkliyə çevrilməsi böyük fəlsəfi-estetik dəyəri olan məsələ hesab edilir.

Heydər Əliyevin uşaq ədəbiyyatındakı obrazına işıq saldıqda göz önündə xilaskar, varlığı ümid və nicat vəd edən, Azərbaycanın özünəqədərki milli dövlətçilik, idarəçilik təcrübəsini bir daha nümayiş və təsdiq etdirən, təkcə həmfikirlərinə deyil, həm də opponentlərinə qəbul etdirən bir şəxsiyyət, xalqının qəhrəmanı, müdrik lider, milli öndər, millət atası kimi görünür. Heydər Əliyevin obrazına daha çox poeziyada rast gəlirik. Milli öndər haqqında uşaqlar üçün saysız-hesabsız şeirlər yazılmışdır. Nəbi Xəzri "İradə möcüzəsi", Valeh Mirzə "Ruhu canımızdadır", Şövkət Məmmədbəyli "Yaşayacaqdır", Uğurlu Xəlilov "Biri günəş, biri Heydər", Xıdır Alovlu

“Vətənləşən vətəndaş”, Aygün Bal “Heydərin davamçısı gərək ki, Heydər olsun”, Bəhlul Ataxanlı “Dünyanın Heydər oğlu”, İlqar Dağlaroğlu “Heydər baba”, Aynur Hüseynova “Körpələr babası sən, Heydər baba”, Səmid Mövsümov “Qayəsi nur, özü də nur”, Samir Səyyadoğlu “Haqqımızdır öyünmək”, Əkbər Qoşalı “Ümidsiz ha deyilik”, Ələmdar Quluzadə “Heydər baba, öndər baba”, Rafiq Yusifoğlu “Rəhbərin heykəli”, “Ulu Öndər”, Nəriman Hüseyn “Nur övladı”, Fərid Ağamirzəyev “Heydər baba”, Oqtay Zəngilanlı “Ulu Heydər”, “Millət atası”, “Bir millət, iki dövlət” və adını çəkmədiyimiz yüzlərlə şeirdə Ulu Öndərin portretinə müxtəlif yöndən işıq tutulur. Onu da qeyd edək ki, bu nümunələrin hamısından təbii ki, uğurlu mətn kimi söz açmaq olmur.

Bu şeirlərdə müşahidə etdiyim maraqlı dilemmalara diqqət yönəltmək istəyərdim. Bədii nümunələrdə Heydər Əliyevdən həm tarixin və zamanın yetirdiyi, həm də tarixin özünü yaradan, onu idarə edən, yönləndirən kimi danışılır. Elə söykənən, elin söykəndiyi, yol açan, özü yol olan, xalqdan güc alan, xalqın güc aldığı, genetik yaddaşın, tarixi təcrübənin yetirdiyi və özü nümunəyə, məktəbə çevrilən, vətənin həm əsgəri, həm generalı... Bu dilemmalar bəzən eyni şeirdə, bəzən də ayrı-ayrı, tam fərqli nümunələrdə özünü göstərir:

*Çağdaş Azərbaycan ölməz əsəri,*
*Vətənə məhəbbət tək amalıydı.*
*Heydər, öz yurdunun sadiq əsgəri,*
*Türkün ən qüdrətli generalıydı.*
*(Vahid Əziz)*

*Qəlbini bürüyüb Azərbaycana,*
*Qəlbinə bürüyüb Azərbaycanı.*
*(Məstan Günər)*

*Sən tarixi yaza-yaza*
*Özün də tarix oldun.*
*(Rafael Hüseynov)*

*Yollar açan qəhrəmanlar,*
*Özü də bir yol olanlar.*
*(Rafael Hüseynov)*

*Sən haqqa arxalandın,*
*Haqq sənə arxa durdu.*
*(Dursun Musayeva)*

Sevimli uşaq şairi və yazıçısı Zahid Xəlilin milli öndərə həsr etdiyi silsilə – “Oxu, Surxay”, “Bulaq”, “O gecə”, “Əl”, “Heydər körpüsü”, “Azərbaycan xiyabanı”, “Uçaq”, “Dağlar” şeirləri var.[1] Bu şeirlərdə bütün övladları öz balası kimi sevən, onlara qayğı və diqqət göstərən, uğurlarından fərəhlənən, qürur keçirən bir el babası kimi söz açılır. Müəllif el atasının adı verilən park və xiyabanlardan, bulaqlardan danışır, onların əsrarəngiz və gözəlliyinin sirrini adlarından alması ilə izah edir. Şair üçün Babadağdan da uca, buludlardan yuxarı bir zirvə olan milli öndərin saldığı yol – Heydər yolu kiçik oxuculara örnək göstərilir, bildirilir ki, bu yol xoş əmələ söykəndiyi üçün sonu uğura çıxır. “O gecə” şeirində 1990-cı illərin əvvəllərində millətin taleyüklü məsələsinin həllində el dəstəyinə ehtiyac duyulanda bir çağırışı ilə xalqı meydana toplayan liderin sözünün, səsinin dağ qüdrətindən, müdrik addımlarından bəhs olunur. “Əl” şeirində əllərini bayrağa, məşələ döndərib el üçün yol göstərən, bir hərəkəti ilə dünyanı ayağa qaldıra bilən, “Yumulsa zindan, açılsa yaraşıqlı olan”, əzəmətli, mayaka bənzər bir əldən bəhs olunur.

“Heydər körpüsü” şeirində Kürün göy sinəsində salınan bir körpünün adının haqlı olaraq onun adından aldığı qeyd olunur. Balacaların dilindən deyilir ki, axı Heydər baba da körpülər qurur. Gecələr yatmayıb işləməklə gündüzlə gecənin, Azərbaycanla uzaq-uzaq ellərin arasında körpü salındığını deyən kiçik poetik qəhrəman böyük inamla nə vaxtsa Aya, ulduza uzanan körpülərin də qurulacağına ümid bəsləyir.

Başqa bir şeirdə şair Heydər babayla Azərbaycanı eyniləşdirir. Uçaqda yol gedən Ulu Öndəri yerdə əl sallayan balacalar belə uğurlayır:

*Əl edirlər uşaqlar,*
*Heydər baba, can baba,*
*Ey Azərbaycan baba,*
*Nə yorul, nə usan, baba!*

---

[1] Bax: Müəllifin şəxsi arxivi

*Get dünyaya tanıtdır,*
*Qoca Azərbaycanı.*
*Kəpəzdən, Savalandan*
*Uca Azərbaycanı.*

*Qoy yayılsın dünyaya*
*İgid səsin, ər səsin.*
*Doğma Azərbaycana*
*Gətirsin zəfər səsin.*

Uşaqların Gülzar nənə kimi tanıdığı Gülzar İbrahimova əsasən nağıllar yazsa da redaktoru olduğu "Sehrli dünya" jurnalında onun "Heydər babamız oldu", "Ulu Öndər", "Heydər babanın nəsihətləri" adlı şeirlərinə[1] də rast gəlinir. Bu şeirlərdə müəllif kiçiklərin hər ilin gözəl yazında yığışıb el atasına al-əlvan çiçəklərdən çələng toxuduqlarını, şən nəğmələr oxumaqla onu yad etdiklərini, müdrik babalarının nəsihətlərinə daim əməl etməyə çalışdıqlarını diqqətə çatdırır.

Bu yerdə diqqəti Ulu Öndərin nəvəsi Leyla Əliyevanın babasına həsr etdiyi şeirə yönəltmək istəyirəm. Heydər Əliyevə istedadlı, tanınmış şairlərlə yanaşı uşaqlar da səmimi, içdən gələn şeirlər həsr etmişlər. Bu şeirlərin poetik qəhrəmanı uşaq dünyasından görünən Heydər Əliyevdir. Leyla Əliyevanın "Mənim babam" şeirini bunların hamısından ona görə fərqləndirirəm ki, əgər digər şeirlərdə müəlliflər öz qəhrəmanlarını böyüklərin söhbətlərindən, onun haqqında danışılanlardan, gördüyü işlərdən, televiziyadan, tədbirlərdən tanıyıblarsa, bu şeirdəki təəssürat qəhrəmanıyla daimi ünsiyyətdən, baba-nəvə münasibətindən, sıx müşahidələrdən yaranmışdır:

**Mənim babam**

*Mənim babam gözəl insan,*
*Sevimlidir, mehribandir.*
*Yüz il, min il yaşayasan*
*Desəm ona, yenə azdır.*

[1] "Sehirli dünya", 2015, № 39, s.14-15

*İnsan var ki, qəlbi qara,*
*Bəd əməli, bəd niyyəti.*

*Onlar hara, babam hara...*
*Bir insandır ədalətli,*
*Öz xalqına sədaqətli,*
*Mənim babam.*
*Köməк edər, əl uzadar,*
*Dara düşsə bircə adam.*
*Bax, belə bir ömür yaşar.*
*Mənim məğrur,*
*Mənim əziz Heydər babam!*[1]

Sadə sözlərdir. Çox nəvənin babası haqqında deyə biləcəyi sadə və səmimi... Amma nəzərə alaq ki, bu bir evin yox, elin babasına ünvanlanıb və bu kəlmələri ona doğma nəvəsinin timsalında minlərlə mənəvi övladı deyir.

Heydər Əliyevə yazılan yüzlərlə şeirin əksəriyyətində ona "Heydər baba", bəzən "el atası" xitabı ünvanlanıb. Amma Xalq şairi Mirvarid Dilbazinin Ulu Öndərə həsr etdiyi şeirlərdə "oğul" xitabı bir ananın səsi, xeyir-duası kimi duyulur:

*Xalqının misilsiz qayğılarını,*
*Öz çiyni üstünə götürən oğul,*
*Var olsun bu oğul qeyrətin sənin!*

*Tarix nə üz görür, nə rüşvət alır...*
*Tarixdə tarixi həqiqət qalır.*

*Adın həqiqətlə birgə ucalır,*
*Xalqına xidmətdir – şöhrətin sənin...*[2]

"Aqil mötəbər", "ağlı ümman", "ər oğlu ər" kimi tərif etdiyi böyük liderin bacara bildiyi, öhdəsindən gəldiyi çətin işləri, xalq üçün etdiklərini, tökülən qanların qarşısını kəsməsini, Azərbaycanı

[1] Əliyeva Leyla. Mənim babam // Günəşə qovuşmaq istəyirəm mən! – Bakı, Çinar-Çap, 2008, s.5
[2] Mirvarid Dilbazi. Oğul qeyrəti // "Seçilmiş əsərləri". Bakı, Lider, 2004, s.56

yadların cızdığı xəritəyə uyğun bölünməkdən qurtarmasını, Cavidi uzaq Sibirdən vətənə gətirməsini, Səməd Vurğunun, Cəfər Cabbarlının ev muzeylərinin açılmasını, Vaqif üçün tikilən məbədi bir-bir xatırladan Mirvarid xanım silsilə şeirlərini bu dəyərli ana sözü ilə bitirir:

*Canında canımız, qanında qanımız olan oğul!*
*Dünya qarşısına çıxan mərdim,*
*Sənə bir çələng hörərdim.*
*El məhəbbətindən olardı çiçəkləri*
*Zaman soldurmayır,*
*El qoyduğu çələngləri...*[1]

Şeirin arxitektonikası sanki Burla xatunun əsrlərdən süzülüb gələn səsini xatırladır.

Rafael Hüseynovun Ulu Öndərə həsr olunan "Sədaqət dərsi", "Arzun", "Vəfa", "Zəriflik", “Türkiyəylə Azərbaycan", "Zirvələrdən baxan öndər", "Bahar kimi qayıtdın", "Davamçın var" adlı şeirləri[2] var. Bu şeirlərin hamısından uşaq ədəbiyyatının nümunələri kimi bəhs etmək doğru olmaz. Amma "Sədaqət dərsi", "Sən tarixi yaradan", "Arzun" şeirləri Heydər Əliyevin bədii portretini əks etdirmək baxımından uşaqlar üçün də uğurlu nümunələrdir. Bu poetik mətnlərdə Ulu Öndərdən bir məktəb, bir örnək kimi bəhs olunur. Bu məktəbdə vəfa dərsi var, ləyaqət, sədaqət dərsi var. Bu məktəb çətinliklər qarşısında mətanətli, dəyanətli olmağı, arzuların uğrunda əzmkar olmağı öyrədir. Bu bədii nümunələrdə poetik qəhrəmandan dönə-dönə oxunmalı kitab kimi danışılır. Bu kitabda "bir qəhrəmanın yenilməzlik hekayəti", "sadədən sadə insanın dahi olmaq şücaəti" yazılıb. Müəllif, sonda bu məktəbdə ən ali dərsin– məhəbbət dərsinin olduğunu xüsusi vurğulayır. Fikrimizcə, bu məhəbbət vətənə, çevrəsinə, xalqına, onu sevənlərə, ona ümid edənlərə bəslənən məhəbbətdir.

Rafael Hüseynovun şeirlərində Ulu Öndər "millətin bələdçisi", "nurlu mayak", "tarixi yönəldən", "uzağı görən memar", "qalib gəlib, qalib gedən", "xalqın könül dəftərində adı başda dayanan" kimi

---

[1] Mirvarid Dilbazi. Vətən oğlu // “Seçilmiş əsərləri”, Bakı, Lider, 2004, s.60
[2] Rafael Hüseynov. Sədaqət dərsi// Xalq qəzeti, 8 may 2009

bədii təyin və ifadələrlə vəsf olunur. "Zirvələrdən baxan öndər" şeirində isə müəllifin fikrincə, öndəri zirvəyə aparan yol vətənə xidmətdən, torpağa əsgər olmaqdan, el üçün, millət üçün ürəyini alovlandırmaqdan keçib:

*Torpaqları vətən edən*
*Ona qurban gedənlərdir.*
*Yerə-yurda həyat verən*
*Onu gülşən edənlərdir,*
*Tumar çəkib sevənlərdir.*

*Millətləri millət edən*
*Ürəyi od olanlardır.*
*Məmləkətə dayaq duran*
*Elindən od alanlardır,*
*Bu eşqə odlananlardır.*

*Millətləri dönməz edər,*
*Dövlətləri yenməz edər,*
*Amalları sönməz edər,*
*Yurda əsgər olan rəhbər*
*Zirvələrdən baxan öndər.*

*Ömürləri dastan edər,*
*Ruhunda güc qaynayanlar.*
*Əməliylə nağıllaşar,*
*Yollar açan qəhrəmanlar,*
*Özü də bir yol olanda.*[1]

Nəbi Xəzri isə "İradə möcüzəsi" şeirində Heydər Əliyev möcuzəsinin sirrini – “Zəka iradəylə qovuşan zaman/ dönür iki əsrin təntənəsinə” – kimi izah edir.

Dursun Musayevanın "Hələ çiynimizdədir uğurlu əlin sənin" şeiri də uğurlu poetik nümunələrdəndir. Müəllif qəhrəmanının həyatını dastanlara sığmayan hünər salnaməsi, tarix dərsi hesab edir. Onun fikrincə, bu ululuğun səbəbi Heydər Əliyevin haqqa və xalqa

[1] Rafael Hüseynov. Sədaqət dərsi// Xalq qəzeti. – 8 may 2009

arxalanmasında idi.

*Haqqını yaşatdığın*
*Millət yaşadır səni.*
*Pillə-pillə ucaldıb, kərpic-kərpic qurduğun,*
*Bu ölkə, bu məmləkət, məmləkət boyda sevgi,*
*Dünya dolusu şöhrət, hörmət yaşadır səni.*
*Sənsiz keçən günlərin, hər ayında, günündə,*
*Hər kəsin həyatında, hər nəfərin ömründə,*
*Görünür yerin sənin.*
*Hələ çiynimizdədir*
*Uğurlu əlin sənin.*[1]

Əkbər Qoşalı milli liderin anım günləri ərəfəsində yazdığı şeiri qəmli notlarla başlasa da, sonda - "İzin ilə yürüyürük, Ümidsiz ha deyilik"[2] – deyə təsəlli yeri tapır.

İstedadlı şair Ələmdar Quluzadənin şeirində[3] isə qəhrəman bu dünyanın yaddaşına Azərbaycan yaza bildiyi üçün, vətən torpağında Heydərbaba boyda dağ olduğu üçün, tarix qarşısında başıuca, üzü ağ olduğu üçün öyülür.

Heydər Əliyevin bədii obrazına nəsr əsərlərində də müraciət olunmuşdur. Sevinc Nuruqızının "Danışan ilmələr" hekayəsi xalçada Heydər Əliyevin portretini toxuyan qadınla gizlənqaç oynayan uşaqların təsadüfi və maraqlı görüşləri, dialoqları üzərində qurulub:

"Bax dostların da gəldi. İndi bir yerdə tez taparsınız xalçada kimin portreti olacaq... O, elə bir insandır ki, hər zaman xalqının yanında olub...

Otaqda sakitlik idi... Uşaqlar diqqətlə dinləyirdi...

Qadın gələcək qəhrəmanını ən gözəl sözlərlə təsvir etməyə çalışırdı:

- Xalq çətində və darda ona arxalanıb. Onun böyük qəlbinə və siyasi məharətinə sığınıb. Onun bir çağırışı ilə meydanlara axışıb.

Onun ətrafında yumruq kimi birləşib. Bu insan xalqa güvən verib, xalqda özünə inam yaradıb, xoşbəxt gələcəyə aparan yolda cəsarətlə addımlayıb. Gecəsini gündüzünə qatıb. Yorulmadan çalı-

---

[1] Musayeva Dursun. Hələ çiynimizdədir uğurlu əlin sənin// Mədəniyyət, 6 dekabr 2008
[2] Əkbər Qoşalı. Ümidsiz ha deyilik... // Yeni Azərbaycan, 9 may 2013-cü il
[3] Ələmdar Quluzadə. Heydər baba, öndər baba // Savalan. 2010, 7-13 may

şıb... Ömrünü xalqının yolunda şam kimi əridib. Əsl siyasi lider olmağı bacarıb... Böyüklərin və uşaqların dostuna çevrilib...

Uşaqlar diqqətlə dinləyirdi. Qadının həlim səsi və təsvir etdiyi qəhrəmanın insani keyfiyyətləri onları elə bil sehrləmişdi.

- Uşaqlar, mən istəyirəm ki, bu insanı ona layiq çalarla, cizgilərlə təsvir edim, bu xalçada təkcə onun özünün yox, daima xalqı üçün döyünən ürəyinin portretini yaradım. O insanın ki, xalq ən çətin günündə onu səslədi, O xalqın səsinə səs verdi, gəldi və xalqın böyük qurtuluşunun banisi oldu...

Artıq heç nə deməyə ehtiyac yox idi... Uşaqlar yerbəyerdən səsləndilər: – Heydər baba...

Qadın gülümsündü və portretin ilk ilməsini atdı... Əllərinin hərəkəti getdikcə sürətləndi. Yumaqlar rəngbərəng piano dilləri kimi qalxıb-düşdü... Əsrarəngiz rənglər ilmələrə çevrildi. İlmələr əziz bir insanın portretini yaratmaq üçün bir-birinə sığındı..."[1]

Qadın Ulu Öndərin xalça üzərində rəngli ilmələrlə yaradacağı portretini əvvəl sözlə uşaqların gözü qarşısında canlandırır. Hekayə həcmcə kiçik olsa da həm sujet xəttinə, həm bədii dilinə və ideyasına görə diqqəti cəlb edir. Hana qarşısındakı qadın fürsət tapıb balacalara xalçaçıların bir sənət sirrini də açır:

- Ən məşhur xalçaçılar belə toxuduqları xalıda bilərəkdən, heç olmasa, bir dənə səhv ilmə atırlar. Bilirsiz niyə? Çünki yalnız Ulu Yaradan səhvsiz ola bilər... Amma mən bu xalçada bircə dənə də olsun səhv ilmə atmaq istəmirəm. Bilirəm ki, Allahım bunu mənə bağışlayar. Çünki bu xalçanın üstündə elə bir insanın portreti olacaq ki, o xalqımızın həyatında böyük rol oynayıb.

Xalçaçı qadın bununla həm də sanki Ulu Öndərin həyatında səhv addım atmadığını nəzərə çatdırmaq istəyirdi.

Məmməd Namaz "Günəş ömürlü insan" kitabında Ulu Öndərə həsr etdiyi "Hamının babası", "Heydər parkı", "Ən qiymətli hədiyyə", "Rəhbərin sevdiyi güllər", "Bağ", "O kim idi?", "Dünya hamının", "Yazıçı", "Rəhbərin sağlığına", "Torpağı əkənə verin", "Hamının günəşi", "Əliyev uğrunda" silsilə hekayələrini[2] toplamışdır. Müəllif bu hekayələrdə Heydər Əliyevin xalq arasındakı məhəbbətini, el-oba ilə – əsgərlərlə, fəhlələrlə, şəhid ailələri ilə, kimsəsiz qo-

---

[1] "Qaranquş" jurnalı. 2017, № 6

[2] Məmməd Namaz. Günəş ömürlü insan (hekayələr və şeirlər). Bakı, Təhsil, 2012

calarla, fidan balalarla müxtəlif münasibətlə olan görüşlərini, onlara qayğı və dəstəyini ifadə etmişdir. Məmməd Namazın bu silsilə hekayələrinə “Yazıçı” adlı kiçik hekayəsini epiqraf seçmək olar. Hekayədə oxuyuruq: “Yazıçı dahi rəhbər Heydər baba haqqında hekayə yazırdı. Qış idi, soyuq mənzil yazıçının əllərini üşüdürdü. Mənzildə işıq da yanmırdı. Amma o yazır, yazır, yazırdı...

Nə qaranlıq, nə soyuq ona mane olmurdu... yazır, yazırdı...

Ona ilham verən, əllərini və ürəyini isidən, qaranlıqda gözlərini nurlandıran rəhbərə sevgisi idi. Həm də rəhbərin xalqa sevgisi...”

Yazıçı dahi rəhbərin xalqa olan məhəbbətindən güc almaqla onun xalq üçün etdiklərini qələmə alır. Əslində onun qələmə aldıqları Heydər Əliyevin həyat tərzidir, yaşadıqlarının bir hissəsidir, hər gün keçirdiyi görüşlərdən epizodlardır. Ayrı-ayrı görüşlərdən verilən bu təsvirlər Ulu Öndərin qayğıkeş, mətin, əzmli obrazını, əməllərini, gördüyü işləri canlandırmış olur.

Ön cəbhədə döyüşlərin birindən qələbə ilə geri dönən tankların üzərində “Əliyev uğrunda” sözlərini oxuyanda mütəəssir olan yazıçı əsgərlərin nədən ilhamlanıb güc aldıqlarını anlayır.

Şeirə, sənətə, sənətkara dəyər verən rəhbər tez-tez sənət adamları ilə görüşdə olur, işlərini qiymətləndirməklə yeni-yeni uğurların, nailiyyətlərin əldə olunmasına səbəb olurdu. Məmməd Namaz Prezidentin bu görüşlərdəki isti və səmimi münasibətini, işıqlı obrazını ifadə etmək üçün Leyla adlı bir kiçik qəhrəman seçir. Babasına verdiyi suallara aldığı cavablara özü də rəng qata-qata bu hazırcavab qızcığaz günəş qədər lazımlı bildiyi Ulu Öndərin günəş qədər işıqlı, obrazını yaradır:

- Baba, babacan, istəyirəm ki, Günəş mənim olsun.

- Leyla, Günəş bir nəfərin ola bilməz, o, hamınındır.

- Eh, niyə olmaz, baba, bu necə olur: yəni hamının bircə Günəşi var?

- Elədir, balası. Günəş bir dənə olsa da, hamınındır. O, hamını isidir.

- Ürəkləri qızdırır. Günəş olmasa, həyat da olmaz.

- Deyirsən, Günəş hamıya eyni işıq verir, babacan?

- Hə balası. Elə adamlar var ki, Günəş ürəklidir. Hamıya qayğı göstərir, istəyir ki, adamlar azad, xoşbəxt yaşasınlar. Yer üzərində sülh olsun. Adamlar firavan yaşasınlar...

- Babacan, yəni Heydər baba kimi...[1]

Baba ilə nəvənin bu maraqlı dialoqu Heydər Əliyevin tarixdəki və həyatdakı obrazını ədəbi bədii yaddaşa köçürür. "Dünya hamının" hekayəsinin sonluğu da təxminən bu hekayənin motivləri ilə üst-üstə düşür. Bu dəfə Heydər Əliyev məktəblilərin mahnı festivalında iştirak edir. Balaca ifaçı Məmməd Arazın məşhur – Dünya sənin, dünya mənim, dünya heç kimin... – sözlərinə bəstələnmiş mahnının nəqarətini bilərəkdən başqa cür: Dünya sənin, dünya mənim, dünya hamının – kimi oxuyur. İfaçı qızı qucağına götürən rəhbər bunun səbəbini soruşanda:

- Belə yaxşıdır, – dedi qız. Axı dünya heç kimin – deyil. İstəyirəm ki, dünya da hamının olsun: günəş kimi, bahar kimi ... Və Fidan balaca əlləri ilə rəhbərin boynunu qucaqladı: – və sizin kimi...

Əvvəlki hekayədə qəhrəmanını günəşə bənzədib hamıya məxsus edən müəllif bu dəfə dünyanı qəhrəmanına bənzədib hamıya aid, hamıya mənsub edir ki, bu da müəllifin, həm də onun kiçik qəhrəmanlarının dahi rəhbərə sevgi və ehtiramını ifadə edir.

Bahar Bərdəlinin iki dildə – Azərbaycan və rus dillərində millət vəkili Elmira Axundovanın ön sözü ilə çap etdirdiyi "Gözlərimdən qan axır" hekayəsi də təsirli və maraqlıdır. Əsərin kiçik qəhrəmanı Samir el-obasından didərgin düşmüş, ədalətsiz və acımasız müharibədə öz doğmalarını, ata-anasını itirmiş, uşaq dünyası girov düşmüş minlərlə uşağın ümumi obrazıdır. Samir internat məktəbində onunla eyni taleyi yaşayan qaçqın-köçkün uşaqlarla birgə yaşayır. Ulu Öndər onların görüşünə gəlib. Onu dövrəyə alıb, çalıb-oynayan uşaqlarla birlikdə rəqs edir. Amma nə rəqs edən uşaqlar, nə dövlət başçısı ürəkdən şənlənirdilər. Onlar sussa da bir-birləri ilə gözləri ilə danışır və çox yaxşı da anlaşırlar. Nənəsini diri-diri evlərində "basdıran", bacısı evlərini tərk edərkən meşədə soyuqdan donan, anası ermənilərə əsir düşən, atası şəhid olan, bu kiçik yaşında həyatın hər acı üzünü görən Samir "Qəzəbindən ağlaya bilmədi... Az qalırdı bir dəli nərə çəksin Samir. Səsi çıxmırdı. Kaş tez böyüyəydi, ilahi ona güc-qüvvət verəydi. Yığaydı 7777 dəli igidləri başına,göstərəydi dünyaya özgə torpaqlarını tutanların anası necə ağlar qalar! Ətrafına baxdı, yalnız dövlət adamları idi, bir də yetim uşaq-

[1] Məmməd Namaz. Günəş ömürlü insan (hekayələr və şeirlər). Bakı, Təhsil, 2012

lar. Yumruqlarını düyünləyib sinəsinə çırpa-çırpa oyuna qoşuldu..."[1]

Dövlət başçısı ilə bu dərdli uşağın səssiz dialoqu hər ikisinin və onların timsalında bir millətin başına gətirilən müsibətləri, acıları sərgiləyirdi. Müharibə bəşər övladının elə bir mənasız "ixtirası"dır ki, onun qarşısında qan tökülməsini istəməyən, məmləkətinin ərənlərini itkidən, qırğından qorumağa çalışan və qarşısındakı düşməninə bunu heç cür anlada bilməyən dövlət başçısı dünya şöhrətli siyasətçi olsa da elə Samir qədər çarəsizdi.

Hekayə ümidverici sonluqla bitir. Dövlət başçısı rəqs edən uşaqlara, qəflətən hardansa zala daxil olub "Yallı" gedən əsgərlərə baxıb fərəh hissi keçirir. Onun məyus baxışlarını nicat və qələbə vəd edən təbəssüm əvəz edir. O, baxışları ilə həm uşaqlara, həm əsgərlərə sülh, sərhədləri bərpa olunmuş firavan və qüdrətli Azərbaycan vəd edirdi.

***

Heydər Əliyevin uşaq ədəbiyyatında görünən obrazı güclü və suveren dövlət qurmağı bacaran, Azərbaycanın əbədiliyini təmin edən, vətənə tuşlanan zərbələrə sinə gərən, 7-dən 77-yə hər kəsin qayğısını şəxsi problemi hesab edən "Heydər baba" kimi görünür. Şəksizdir ki, enerjisini tarixdən alan və gələcəyə ötürən Ulu Öndərin həyat salnaməsini əks etdirən bədii əsərlər bundan sonra da qələmə alınacaq, gələcəyinə inamla baxdığı Azərbaycan balalarının mənəvi tərbiyəsində mühüm rol oynayacaqdır.

[1] Bahar Bərdəli. Gözlərimdən qan axır... Bakı, Təknur, 2017, s.26

# HEYDƏR ƏLİYEVİN ƏDƏBİ-FİLOLOJİ PORTRETİ

Görkəmli dövlət xadimi, dünya sivilizasiyasında elit şəxsiyyət, Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin siyasi irsi ilə bağlı çox problem-mövzu müəyyənləşdirilmiş, müxtəlif ixtisas sahələrinin parlaq zəka sahibləri elmi-tədqiqatlar aparmış, onu fasiləsiz olaraq təbliğ etmişlər. Heydər Əliyev nümunəsi bu gün də təhlil-tədqiqat obyekti olub tarix boyu aktuallıq kəsb edəcəkdir.

Heydər Əliyev haqqında publisistika yazıları da hüdudsuzdur. Müxtəlif publisistik janrlarda Ulu Öndərin parlaq tarixi obrazı yaradılmış və zəngin informasiya mənbəyi olmuşdur. Bütün bunlar dövlətin fikir və düşüncə kübarlarının Ulu Öndərə olan məhəbbəti və mənəvi-ruhi ehtiyaclarının layiqli nəticələridir. Heydər Əliyev fenomeni haqqında filoloji elmimizin səbatlı sözü elmi-ictimai fikir tariximizin, yüksək mənəvi-əxlaqi dəyərlərimizin səviyyə göstəricisidir. Elm və mədəniyyət xadimlərinin Ulu Öndər haqqında fikir və qayələri önəmlidir. O cümlədən bu yazıda Heydər Əliyev və Əliyevlik haqqında filoloji elm xadimlərinin publisist görüşləri diqqətdə saxlanmışdır.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" monoqrafiyasının ilk nəşri 1998,[1] ikinci nəşri isə 2009-cu ildə olmuşdur.[2] Hər iki nəşrin ön söz müəllifi akademik Bəkir Nəbiyevdir. Birinci nəşrdə AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev, professor Vilayət Quliyev və professor Məhərrəm Qasımlının araşdırmaları özünə yer almışdır. İkinci nəşrin birinci fəslini akademik Bəkir Nəbiyevin "Heydər Əliyev haqqında etüdlər", ikinci fəslini professor Məhərrəm Qasımlının "Heydər Əliyev və Azərbaycan folkloru", üçüncü fəslini akademik Teymur Kərimli və professor Vilayət Quliyevin "Heydər Əliyev və klassik ədəbiyyat", dördüncü fəslini filologiya üzrə elmlər doktoru, dosent Nikpur Cabbarlının "Heydər Əliyev və ədəbi proses", beşinci fəslini professor Nizaməddin Şəmsizadənin "Heydər Əliyev və azərbaycançılıq" məqalələri təşkil edir. Bununla yanaşı, qeyd olunmalıdır ki, Ulu Öndər Heydər Əliyev haqqında filoloji fikrimizin nüfuzlu nümayəndələri dəyərli məqalə və monoqra-

[1] AMEA Nizami adına Ədəbiyyat İnstitutu. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı". Bakı, 1998

[2] Yenə orada, 2009

fiyalar yazmış, yaxud onun qiymətli irsini tərtib etmiş, toplular hazırlamış, izahlar və şərhlər yazmışlar.[1]

Akademik İsa Həbibbəyli, akademik Bəxtiyar Vahabzadə, akademik Teymur Kərimli, akademik Rafael Hüseynov, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü Yaşar Qarayev, professor Teymur Əhmədov, professor Şamil Salmanov da Ümummilli lider haqqında qiymətli elmi-publisistik məqalənin müəllifidir.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin iqtsadi-siyasi və mədəniiyyət quruculuğu sahəsində tarixi xidmətlərini yüksək qiymətləndirmişdir. Bu baxımdan alimin "Nuhçıxandan Naxçıvana: tarix və müasirlik", "Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyasi", "Heydər Əliyev yolu: Naxçıvan reallıqları", "Böyük qayıdışın bəhrələri", "Böyük inki-

---

[1] Anar. Литература. Исскуство. Культура Азербайджана. I том. «Литтерпресс», Баку, 2010, 874 с.; Anar. Литература. Исскуство. Культура Азербайджана. II том. «Литтерпресс», Баку, 2012, 912 с.; Anar. Литература. Исскуство. Культура Азербайджана. III том. «Литтерпресс», Баку, 2013, 1008 с. Afad Qurbanov. Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı. Bakı: "Gənclik", 1997; Əbədiyaşar insan. Bakı: "Təhsil", 2004; Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. (Nitqlər, məruzələr,çıxışlar, tərtibçi prof. Vilayət Quliyev). Bakı: "Ozan", 1999; Heydər Əliyev və ədəbiyyatımız. (30 aprel 2003-cü il tarixdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Heydər Əliyevin 80 illik yubileyinə həsr ediliş elmi sessiyanın materialları. "Ədəbiyyat qəzeti", 9 may 2003; Ədəbiyyatımız xalqımızın milli sərvətidir. Bakı:"Nurlan", 2003; Heydər Əliyev və mənəvi dəyərlər. Bakı: "Səda", 2003; Ürəklərdə yaşayan insan. Bakı:"Nurlan", 2004; Mənim idealım Heydər Əliyev. Bakı, 1999; Fikirlərin vəhdəti. Bakı, 1998; Seyfulla Əsədullayev. Heydər Əliyev və ədəbi proses. (Rus dilində). Bakı: "Nurlan", 2005; İsa Həbibbəyli. "Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr", Naxçıvan, 2013; İsa Həbibbəyli. "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti", Naxçıvan, 2002. İ.Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: "Nurlan", 2007, 696 s. T.Əhmədov. Heydər Əliyev və mətbuat. Bakı: "Nurlan", 2006, s.69-75. Nizami Cəfərov. Heydər Əliyev və Atatürk. Bakı: 1999; Nizami Cəfərov. Dəyanət Osmanlı. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Bakı, 2004. Timurçin Əfəndiyev. "Heydər Əliyev və milli mənəvi dəyərlərimiz". Bakı, 2011; Abbas Hacıyev. Böyük siyasətin uğurlu davamı. Bakı: "Nərgiz", 2006; Tərlan Novruzov. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı: "ADPU-nun nəşri", 2007; Tərlan Novruzov. Müstəqillik dövründə Azərbaycan ədəbiyyatına dövlət qayğısı. Bakı: "Elm və təhsil", 2015; Almaz Binnətova. "Ədəbiyyat ömrü yaşayan əbədiyyət memarı". Bakı: 2004; Böyük sənətin böyük dayağı (II hissə). Bakı: "Nurlan", 2006; Əliyeva Nurlana. Müstəqilliyimiz, mənəviyyatımız. Bakı, "Araz", 2003, 493 s.; Nurlana Əliyeva, Əbədiyaşarlıq fəlsəfəsi. Bakı: 2013; Alxan Bayramoğlu "Müstəqil Azərbaycan və Heydər Əliyev" "Respublika" qəzeti, 5 sentyabr, 1997; Heydər Əliyev və Azərbaycan gəncləri "Azərbaycan müəllimi" qəzeti, 14 oktyabr, 1997; Sədaqət Məmmədova. Zaman, şəxsiyyət və cəmiyyət. Bakı: "Ozan", 1998, 168 s.

şafın möhtəşəm hesabatı", "Yeniləşmədən intibaha", "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" məqalələri əhəmiyyətlidir. Bu məqalələr əsl tribun mövqeyindən, ruh yüksəkliyi, güclü intonasiya ilə yazılmış, faktların zənginliyi, fərdi yazı üslubu ilə diqqəti cəlb etmişdir.

Akademik İsa Həbibbəyli "Milli ziyalılığın qüdrətli təminatçısı" məqaləsində bildirmişdir ki, "Heydər Əliyev" adını ilk dəfə 1967-ci ildə müəllimi İzzət Maqsudovdan, 1969-cu ildə isə Azərbaycana ilk dəfə rəhbər seçildiyi günlərdə yenidən eşitmişdir. Alim 1974-cü ildə onu ilk dəfə gördüyünü, oktyabrın 4-də Naxçıvan Dövlət Universitetinə gəlişini xatırladır: "Məhz o günlərdə ilk dəfə olaraq Dövlət başçısı Naxçıvanda mövcud Pedaqoji İnstitutun bazasında müstəqil universitetin yaradılması ideyasını irəli sürmüşdü".[1]

"Nuhçıxandan Naxçıvana: tarix və müasirlik" məqaləsində İsa Həbibbəyli Naxçıvanın dini-mifoloji qaynaqlarına diqqət yetirmiş, Heydər Əliyevin Naxçıvandakı siyasi-mədəni fəaliyyətinə baxışını ifadə etmişdir. Böyük rəhbər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən beynəlxalq statuslu Qars müqaviləsinin müddəalarını önə çəkmiş, müqavilənin şərtləri daxilində məqsədyönlü dövlətçilik siyasəti yürütmüş, Azərbaycan-Türkiyə münasibətləri, habelə, region dövlətləri ilə yeni əlaqələrin qurulmasında, Muxtar Respublikanın ərazisinin beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində fəaliyyəti mühüm əhəmiyyət kəsb etmişdir.

Heydər Əliyev Muxtar Respublikanın 75 illik yubileyində (12 oktyabr 1999) muxtariyyatın tarixinə, onun siyasi-hüquqi statusu və Qars müqaviləsinin çağdaş əhəmiyyətinə yeni siyasi dəyər vermişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, muxtariyyatını gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".[2]

İsa Həbibbəyli dəyərləndirmişdir ki, Naxçıvanın erməni işğalından xilası, onun siyasi-hüquqi təminatının möhkəmləndirilməsi, iqtisadi böhranın aradan qaldırılması Heydər Əliyevin tarixi xidmətidir. Onun sədrliyi ilə Naxçıvan MR Ali Məclisinin Sessiyasında

---

[1] Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.167
[2] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.13

üçrəngli milli bayrağın göylərə qaldırılması, dalğalandırılması və dövlət atributu kimi qəbul edilməsi "Azərbaycanın istiqlal tarixinin çox şərəfli hadisəsidir".[1] Siyasi dövlət xadiminin milli istiqlalımız üçün bir şərəfli xidməti də o dövrdə SSRİ-nin saxlanılmasına dair referendumun keçirilməsinə etiraz və onun Naxçıvanda tətbiqinə yol verməməsi ilə bağlı olmuşdur. Naxçıvan real və etibarlı təminatını Ulu Öndərin Azərbaycanda hakimiyyətə gəlməsi ilə tapmışdır. Hazırda "Naxçıvan Muxtar Respublikası inkişafdan böyük intibaha doğru özünün yeni yüksəliş dövrünü yaşayır".[2]

İsa Həbibbəyli Heydər Əliyevi dövlət xadimi kimi səciyyələndirdiyi məqalənin "Yeniləşən Naxçıvan" hissəsində respublikanın ordu quruculuğu, aqrar siyasətin sənayeləşdirmədə uğuru, sərhəd gömrük xidməti, iqtisadi təhlükəsizliyə təminatı, bölgənin duzu, mineral suları, dərman bitkiləri, Naxçıvan avtomobili, beşulduzlu "Təbriz", "Duzdağ" otelləri, yeni şəhərsalma modelinə diqqət yönləndirmişdir.

Təhsil qurucusu İsa Həbibbəyli universitetin maddi-texniki bazasına diqqət yetirməklə Heydər Əliyevin müasir təhsilə olan qayğısını ifadə etmişdir. Bildirmişdir ki, universitet dünyanın 10 ölkəsi, bütün ölkə regionlarının tələbəsini özündə birləşdirir. AMEA Naxçıvan bölməsi elmi istiqamətlər yolunda inamla irəliləmiş, "çoxcildli ensiklopediyalar və antologiyalar, monoqrafiya və atlaslar nəşr etmişdir. Akademik İsa Həbibbəyli 3 cildlik "Naxçıvan tarixi"ni əhəmiyyətli tarixi salnamə, "Azərbaycan tarixşünaslığına qiymətli töhfə", elektron kitabxanaları (Məmməd Səid Ordubadi adına kitabxana, NDU-dəki kitabxana, AMEA Naxçıvan bölməsindəki kitabxana, Naxçıvanşünaslıq Mərkəzindəki kitabxana) dünya elm mərkəzləri və kitabxanalarına uğurlu çıxışlar hesab etmişdir.

Akademikin Naxçıvan ədəbi-mədəni mühitindəki töhfələri: bəstəkar və rəssamlar, habelə, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi və Hüseyn Cavid yaradıcılığına müasir elmi baxışı xatırlatmış, Naxçıvan teatrındakı mədəniyyət hadisələrini ("Koroğlu" operasının səhnə həlli, Yaşar Xəlilovun "Əshabi-Kəhf" baleti və s.) önə çəkmiş, bütün bunları Heydər Əliyev qarşısında məsuliyyətli hesabat, respublikada görülən böyük işlərə Heydər Əliyevin yüksək

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.13
[2] Yenə orada, s.13

qiyməti kimi dəyərləndirmiş və Heydər Əliyev siyasətinin uğurlu davamçısı kimi Azərbaycan Prezidenti İlham Əliyevin tarixi xidmətlərini diqqətdə saxlamışdır.

"Azərbaycanın qurtuluş zərurəti və Heydər Əliyevin böyük xilaskarlıq missiyası" (2011) adlı məqaləsində akademik XX əsrin 90-cı illərinin sosial-siyasi vəziyyətinə baxışını ifadə etmiş (Azərbaycanda vətəndaş müharibəsi vəziyyəti, respublikanın parçalanmaq reallıqları, Talış-Muğan Respublikası simptomları və s.), Heydər Əliyevin çətin tarixi-siyasi şəraitdə respublikanın milli qurtuluş missiyasını təmin etdiyini, "Böyük dövlətçilik təcrübəsinə, yüksək liderlik qabiliyyətinə malik olan bu qüdrətli dövlət xadiminin yenidən siyasi cəbhəyə qayıdışını təkcə xalq deyil, həm də zamanın tələbi" kimi yada salmışdır.[1]

İsa Həbibbəyli böyük rəhbərin tarixi təcrübəsinə belə ümumiləşdirmə vermişdir: "Çətin sınaqlarda möhkəmlənmiş zəngin siyasi təcrübəyə malik Heydər Əliyev Azərbaycan xalqı qarşısında həmin məsuliyyətli tarixi vəzifəni qəbul etmiş, böyük xilaskarlıq missiyasını dönmədən, qətiyyətlə həyata keçirmişdir".[2]

Alim Ulu Öndərin xarakter müəyyənliyinə xüsusi diqqət yetirmişdir: "Heydər Əlirza oğlu Əliyev keçmiş Sovetlər İttifaqı kimi dünyanın ən böyük iki dövlətindən birinin əsas rəhbərlərinin sırasında öndə dayanırdı. Dünya ictimaiyyəti onu təcrübəli siyasi xadim və böyük dövlət rəhbəri kimi qəbul etmişdi. Kremlin zirvəsini fəth etməyi bacarmış Heydər Əliyev beynəlxalq aləmdə geniş nüfuz sahibi idi. Siyasi Büroda da onunla hesablaşmalı olurdular. Beləliklə, Heydər Əliyev XX əsrin görkəmli dövlət xadimlərindən biri kimi böyük şöhrət qazanmışdı".[3] Müstəqil Azərbaycan dövləti isə bu elit şəxsiyyətin şah əsəridir.

Dahi rəhbərin liderliyini şərtləndirən amillər üzərində ardıcıl dayanan İsa Həbibbəyli onun siyasi liderlik istedadının birinci mərhələsini keçmiş sovet hakimiyyəti illəri ilə bağlamış, onun milli dünyagörüşlü, təcrübəli xadim olmasını, cəsarətli ideyalar irəli sürməsini, böyük təşkilatçılıq qabiliyyətini, bacarığını və uzaqgörənliyini, Heydər Əliyevin siyasi liderlik nümunəsini təcəssüm etdirmişdir. Təsadüfi deyil ki, Avropa siyasiləri onu dünya sivilizasiyasında

---

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.21
[2] Yenə orada, s.21
[3] Yenə orada, s.21

elit şəxsiyyət adlandırmışlar.

Akademik İsa Həbibbəyli siyasi liderin müstəqillik dövründən başlayan qüdrətli xilaskar missiyasına xüsusi diqqət yetirmiş, Dünya azərbaycanlılarının Həmrəylik gününü elan etmiş, Yeni Azərbaycan Partiyasını (21 noyabr 1992) yaratmış, milli qurtuluş hərəkatının əsasını qoymuş, "beləliklə, 15 iyun 1993-cü il müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil olmuşdur".[1]

Alim Heydər Əliyevin siyasi liderliyinin digər səciyyəvi cəhətlərini onun prezidentlik dövrü ilə əlaqəli şərh edir. O, 3 oktyabr 1993-cü ildən ömrünün sonuna qədərki mövcud siyasi islahatların gedişini izləmiş və qiymətləndirmişdir ki, "geniş miqyaslı böhranı, vətəndaş qarşıdurmasını aradan qaldırması, dünyanın aparıcı dövlətləri ilə "Əsrin müqaviləsi"ni imzalaması, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz borusu çəkilişləri ilə bağlı qərarları, xalqın iqtisadi böhranlardan xilası, ordu quruculuğu, dövlətçilik təsisatlarının milli əsasları, müstəqillik dövrünün Azərbaycan Konstitusiyası (12 noyabr 1995), milli parlamentin formalaşdırılması, sosial-siyasi sabitliyin möhkəmləndirilməsi, beynəlxalq sahədə əlaqələr, xarici və daxili siyasət strategiyası, geniş mənada Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda müstəqil dövlətçiliyin möhkəm əsaslarının yaradılması milli qurtuluşun məntiqi yekunu və qanunauyğun nəticəsi kimi mühüm tarixi hadisədir".[2]

İsa Həbibbəyli keçilmiş tarixi yolu diqqətdə saxlayaraq göstərmişdir ki, Heydər Əliyevin müdrik siyasətilə Gəncə qiyamı yatırılmış, Talış-Muğan Respublikası məsələsi aradan qaldırılmış, ölkədən qanunsuz hərbi sursatlar yığışdırılmış, silahlı dəstələr tərksilah edilmiş, dövlət çevrilişi cəhdləri ləğv edilmiş, ordu quruculuğu prosesi sürətləndirilmişdir. "Ona görə də görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının və müstəqil dövlətinin qüdrətli xilaskarıdır... Ümummilli lider Heydər Əliyev Azərbaycanda Böyük Qurtuluşun banisidir",[3] "İnkişaf etmiş müstəqil Azərbaycan Milli Qurtuluşun parlaq nümunəsidir".[4]

"Heydər Əliyev yolu: Naxçıvan reallıqları" (2014) məqaləsində İsa Həbibbəyli Heydər Əliyevin dövlətçilik təlimindən bəhs et-

---

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.23
[2] Yenə orada, s.23
[3] Yenə orada, s.26
[4] Yenə orada, s.27

miş, dəyərləndirmişdir ki, bu təlim "Heydər Əliyevin böyük dühası ilə Azərbaycan xalqının müstəqil dövlətçiliyinin konsepsiyasını formalaşdırmışdır".[1] Akademik İsa Həbibbəyli buna sübut olaraq Prezident İlham Əliyevin aşağıdakı fikirlərini əsas gətirir: "Ulu Öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu Öndərin həyat və fəaliyyəti onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti Ulu Öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır".[2]

İsa Həbibbəyli Heydər Əliyevin Naxçıvan həyatı ilə bağlı siyasi fəaliyyətinin strateji xəritəsini çəkir: birincisi, milli dövlət müstəqilliyinin tarixi taleyində Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrü, ikincisi, ölkənin ərazi bütövlüyünün təmin edilməsində Heydər Əliyevin NMR-nın rəhbəri kimi tarixi vəzifələri və onların yerinə yetirilməsi, üçüncüsü, NMR-a rəhbərlik dövründə "həyata keçirdiyi tale yüklü tədbirlər, qəbul etdiyi tarixi qərarlar, imzaladığı qiymətli siyasi sənədlər bütövlükdə Azərbaycan Respublikası üçün əhəmiyyətli və zəruri" olmuşdur.[3] "Bütün bunlar Heydər Əliyev yolunun Naxçıvan reallıqları"[4] deməkdir.

Məqalədə müəllif Naxçıvan MR-nın 90 illik yubiley tədbirlərini Azərbaycanın müstəqil dövlətçilik tarixi, Heydər Əliyev epoxasının təhlili və qiymətləndirilməsi işığında xatırladır. "Ölkəmizin rəhbərinin təntənəli yubiley mərasimində diqqət yetirdiyi hadisələr və faktlar müasirlik işığında Azərbaycanın yaxın tarixinin siyasi-analitik təhlili vasitəsilə ictimai-siyasi proseslərin tam, bütöv halda qavranılmasına uğurla xidmət edir".[5]

"Naxçıvanda baş vermiş böyük yeniliklər Heydər Əliyevin dinamik inkişaf yolunun mühüm hadisələridir" deyən İsa Həbibbəyli yekunlaşdırır ki: "Naxçıvan Muxtar Respublikasında müasir səviyyədəki yüksək inkişaf Azərbaycanda Heydər Əliyev yolunun böyük imkanlarının və geniş üfüqlərinin möhtəşəm təntənəsidir.

---

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.28
[2] Yenə orada, s.29
[3] Yenə orada, s.32
[4] Yenə orada, s.33
[5] Yenə orada, s.32

Heydər Əliyev yolu – Azərbaycanın dünəni kimi, bu gününün də böyük reallıqları və daha parlaq sabahları deməkdir. Eyni zamanda bütün bunlar Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının bundan sonra da böyük addımlarla inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır”.[1]

İsa Həbibbəylinin sosial-siyasi məqalələri bir-birini tamamlayır. Bu baxımdan “Böyük qayıdışın bəhrələri” məqaləsi də siyasi-ideoloji xətti ilə seçilir. Məqalədə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı və böyük Qurtuluş sahəsində tarixi xidmətlərinə baxış ifadə olunmuşdur.

Akademik Ümummilli liderin nümunəsini önə çəkmişdir. O, Heydər Əliyevin Naxçıvanla bağlı keçdiyi həyat yolundan danışarkən Naxçıvan və siyasi təcavüz, Heydər Əliyev və partiya, Heydər Əliyev və neft kontraktları, Heydər Əliyev və dünya azərbaycanlıları, Heydər Əliyev və İlham Əliyev bütövlüyü üzərində xüsusi dayanmışdır. Məqalədə deyilir: “Ötən hər gün bir daha təsdiq edir ki, Ümummilli liderimiz, görkəmli dövlət xadimi Heydər Əliyevin mənalı həyatı, çoxcəhətli və yorulmaz fəaliyyəti xalqa və vətənə xidmət etməyin nümunəsidir”.[2]

İsa Həbibbəyli Heydər Əliyev ömürlüyünə Vətən, millət, məmləkət, dövlətçilik və müstəqillik zirvəsindən baxmış, dahi şəxsiyyətin mənalı ömür yoluna hərtərəfli dəyər vermişdir: “Bu mənada Heydər Əliyev həm Azərbaycan dövlətinin, həm də eyni səviyyədə Azərbaycan xalqının çox layiqli və qüdrətli təminatçısıdır”.[3] Müəllif yazır: “Heydər Əliyev xalqa mənsub olduğu qədər də dövlətə bağlı olduğu üçün, yaxud xalqın maraqları ilə dövlətin maraqlarını bütün mahiyyəti, tam fəlsəfəsi ilə qovuşdurduğuna görə doğma ölkəsinin də, milli müstəqil dövlətinin də, sevgili millətinin də görkəmli oğlu, qüdrətli lideridir”.[4]

Şərhçi Heydər Əliyevin vətən və millət sevgisi kimi fərdi keyfiyyətlərinin bariz nümunəsi olaraq onun 21 yanvar 1990-cı il Moskvadakı Azərbaycan səfəratxanasındakı çıxışını xatırladır, – tarixi bəyanatında qüdrətli rəhbər 20 Yanvar faciəsinə siyasi qiymət

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.39
[2] Yenə orada, s.40
[3] Yenə orada, s.40
[4] Yenə orada, s.40

vermişdi.

Heydər Əliyev Moskvadan Bakıya, oradan Naxçıvana qayıdış etmiş, bütün bunların fonu Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun 2006-cı ildə çap etdirdiyi "Qayıdış" kitabında göstərilmişdir: "Moskvadan Naxçıvana qayıdış... əyalət mərkəzinə yox, Vətənə qayıdış idi, böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli Qayıdış idi... Əsl yolu zaman özü seçdi. Xalqın iradəsi hər şeyə qalib gəldi və müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə Qayıdışında tapdı".[1]

Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri kimi regionda hərbi-siyasi, iqtisadi-mədəni vəzifələri həyata keçirmiş, qədim diyarın erməni işğalından xilasına təminat vermişdir. Türkiyə və İranın dövlət başçıları ilə danışıqlar nəticəsində əhalinin iqtisadi vəziyyəti qismən düzəlmiş, İğdır bölgəsindən çəkilmiş elektrik xətləri hesabına elektrik enerjisi hasil olunmuşdur. Sədərəkdə Türkiyə ilə Naxçıvan arasında "Ümid körpüsü" salınmış, adamların inam hissləri qüvvətlənmişdir. Xəlil Rza demişkən:

*Sədərək körpüsünə qanadlandı bir səhər,*
*Üç addımda Türkiyə, hər çınqılı bir gövhər.*
*Azərbaycan-Türkiyə – daş-qala, qoşa səngər.*
*Bütün qasırğalara birləşməklə sinə gər.*
*Bu birlik qarşısında düşmən tük salacaq, tük,*
*Qucur iki sahili Heydər Dədə, Atatürk!*
*Ümid körpüsü üstə dayanıbdı inamla*
*Heydər Dədə, Atatürk!*

İsa Həbibbəyli Heydər Əliyev və Yeni Azərbaycan Partiyasının (21 noyabr 1992-ci il) vəhdətindən danışarkən onun təşkilini Azərbaycanın gələcək taleyi və rifahı üçün ümumrespublika səviyyəli siyasi hadisə kimi qiymətləndirmişdir.

Heydər Əliyevin şah əsərlərindən biri də "Əsrin müqaviləsi"dir. Bu neft kontraktı "dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq aləmdə tanıdılması istiqamətində aparılmış geniş miqyaslı tədbirlər, tarazlaşdırılmış regional siyasətin uğurla həyata

---

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və təhsil", 2015, s.43

keçirilməsi, respublikamızın dünya birliyindəki yerinin müəyyən edilməsinə və daha da möhkəmləndirilməsinə şərait yaratmışdır”.[1]

Akademik İsa Həbibbəylinin “Böyük qayıdışın bəhrələri” məqaləsinin bir vacib tezisi də azərbaycançılıq təlimi üzərində müəyyənləşdirmişdir. Azərbaycançılıq bir məfkurə olaraq müstəqil dövlətin milli ideologiyası səviyyəsinə qaldırılmış, xüsusilə, “dünya azərbaycanlıları ilə əlaqələrin formalaşdırılması, bu istiqamətdə keçirilən tarixi qurultayları, həmin sahəyə rəhbərlik edən xüsusi dövlət qurumunun təşkili, yer kürəsinin müxtəlif guşələrində yaşayan həmvətənlərimizin təşkilatlandırılması Azərbaycan tarixində Heydər Əliyevin adı ilə bağlı böyük xidmətlərdir. Nəhayət, dövlət quruculuğu sahəsində və cəmiyyət həyatının digər sahələrində həyata keçirdiyi qətiyyətli islahatlar Azərbaycanda yeni müstəqil dövlətin formalaşdırılmasına görkəmli siyasi xadimin mühüm töhfələrindəndir”.[2]

Məqalədə yeni tarixi mərhələdə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin siyasi xidmətləri ümumiləşdirilmişdir. Müəllif İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsini siyasi varisliklə yeni dövlətçilik təfəkkürünün vəhdətinin qələbəsi kimi dəyərləndirmişdir”.[3] Ümumiləşdirmişdir ki, “Böyük Qayıdışın tarixi dərslərini, gerçək fəlsəfəsini çox yaxşı və dərindən bilən İlham Əliyev bu zəmində, həm də yeni və çoxaspektli yanaşmalar əsasında Azərbaycanın çoxcəhətli inkişafını yeni mərhələyə çatdırmışdır”.[4] Yekunlaşdırmışdır ki, “Heydər Əliyevin milli dövlətçilik təlimi müstəqil Azərbaycan dövlətinin strategiyasıdır”.[5]

İsa Həbibbəyli “Böyük inkişafın möhtəşəm hesabatı” (2012) məqaləsində Heydər Əliyevin Naxçıvan Respublikasının həyatında oynadığı rolun işığında İlham Əliyevin regionda gördüyü işlərin şərhini vermişdir: 2005-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisinə qaz çəkilişi, Heydər Əliyev adına su anbarı və Biləv çayı üzərində su-elektrik stansiyalarının tikilib istifadəyə verilməsi, Naxçıvan modul və qaz-turbin elektrik stansiyalarının quraşdırılması (2012), Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışı (2012), Naxçı-

---

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, “Elm və təhsil”, 2015, s.45
[2] Yenə orada, s.46
[3] Yenə orada, s.46
[4] Yenə orada, s.47
[5] Yenə orada, s.47

van MR-də Arpaçay Su Anbarı üzərində, Ordubadda su-elektrik stansiyalarının tikilib istifadəsi, sosial obyektlərin açılışı, Zərifə Əliyeva adına Naxçıvan şəhər Poliklinikasının açılışı, Naxçıvanın bütün rayonlarında müasir tipli xəstəxana komplekslərinin səhiyyə xidməti, Müalicə-Diaqnostika Mərkəzinin istifadəsi, Culfa Uşaq Musiqi məktəbinin istifadəyə verilməsi, NDU-da yeni tədris korpusu və tələbələrin xidmət sahələrinə dair obyektlərin inşa olunması, MR-da informasiya texnologiyalarından istifadənin genişləndirilməsi, ölkənin tranzit imkanlarının genişləndirilməsi, Böyük İpək yolu, karvan yolları, ölkədən-ölkəyə çıxış imkanlarının yaranması, Anadolunu Naxçıvanla əlaqələndirən Sədərək-Aralıq-Dilucu, "Ümid körpüsü"nün salınması, 2007-ci ildə Araz çayı üzərində Şaxtaxtı-Poldəşt körpüsünün istifadəsi, Culfa-Sədərək, Sədərək-Şərur-Naxçıvan-Culfa magistrallarının yerinə yetirilməsi, Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışı, Qars-Naxçıvan-Təbriz, yaxud əksinə Naxçıvan-Qars-Ankara tranzit mərkəzi, Culfa və Şaxtaxtı gömrükxanaları üçün müasir kompleks tikililəri, Naxçıvan şəhər Gömrük idarəsinin inkişaf səviyyəsi, Naxçıvan Sement zavodunun istismarı, Kəngərli rayonunda "N" saylı hərbi hissədə qərargah binası və Culfa sərhəd zastavasının açılışı və başqaları. Cənab İlham Əliyev: "Burada hər bir sahədə gözəl inkişaf vardır. Naxçıvan şəhəri gözəlləşir, yaşıllaşır, abadlaşır. Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bunlar onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar" – deyə qürurla bildirmişdir.

"Yeniləşmədən intibaha" (2010) məqaləsi əslində "Böyük inkişafın möhtəşəm hesabatı" məqaləsinin davamıdır. Burada Naxçıvanın yeniləşdirilməsi və intibahı problemlərinə baxış əhatəlidir. Məqalədə Naxçıvandakı siyasi-iqtisadi uğurlara nəzərlə bərabər, mədəniyyət və intibah məsələlərinə daha çox diqqət yetirilmişdir. İsa Həbibbəyli yazır: "21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının yaradılması, böyük dövlət xadimi Heydər Əliyevin bu partiyanın Sədri seçilməsi ilə geniş mənada yeni qurulmuş gənc respublikanın siyasi həyatında böyük dönüşün əsası qoyulmuşdur."[1] Böyük öndər Heydər Əliyev XX əsrin 90-cı illərində Naxçıvanda cəmiyyət həyatının bütün sahələrini əhatə edən

[1] İsa Həbibbəyli. Nuhçıxandan Naxçıvana. Bakı, "Elm və Təhsil", 2015, s.58-59

inkişafın zəmini olmuşdur.

Çətin günlərdə Naxçıvanda Hüseyn Cavidin 110 illiyi, NDU-nun 25 illiyi keçirilmiş, 100 nəfər orta məktəb məzunu Türkiyəyə ali təhsilə göndərilmişdir. Məqalədə Naxçıvanın dövlət başçısı cənab Vasif Talıbovun MR-dakı böyük quruculuq proqramının gerçəklərindən, onun rəhbərliyi ilə regiondakı elm, təhsil və mədəniyyət uğurlarından söz açılır. Bu baxımdan İsa Həbibbəyli Naxçıvanın qədimliyi, minilliklərcə yaşı, milli-tarixi ənənələri, qədimliklərdən xəbər verən Azərbaycan toponimləri, arxeoloji abidələr, əsatiri yerlər, qayaüstü rəsmlərin tədqiqindən, bərpasından bəhs edir. Məşhur "Əshabi-Kəhf" ziyarətgahının bərpası və qorunması, Gəmiqaya abidəsinin tədqiqi, Nuh peyğəmbərin məzarüstü türbəsinin, Köhnə qala divarlarının bərpası, Xanəgah şəhərinin üzə çıxarılması, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Yusif Məmmədəliyevin ev muzeyləri, Tarix Diyarşünaslıq və xalça muzeyləri, xan sarayı kompleksinin yenidən qurulması, Gəmiqaya yazılarının tədqiqi, milli-tarixi ənənələrə yiyələnmiş ziyalı nəslinin yetişməsi, məktəb tikililəri və bərpası işləri, NDU-də "Bilik", Atatürk və Elektron Kitabxana internet mərkəzləri, informasiya texnologiyaları laboratoriyaları, 26 kompyuter sinfin təşkili, Boloniya təhsil qeydiyyat mərkəzinin yaradılması, Universitetdə 108 ha-lıq ərazidə CİSCO texnologiyaları əsasında 5 meqavatlıq Wi-Fi kompus simsiz internet şəbəkəsinin qurulması, AMEA Naxçıvan bölməsinin (2002) yaradılması... "Demək olar ki, hər il AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat institutlarının və NDU-nun professor-müəllim heyəti ilə birlikdə keçirilən ənənəvi Naxçıvan simpoziumları diyarın qədim tarixi və mədəniyyəti, flora və faunasının araşdırılmasına sanballı töhfələr verir".[1]

Naxçıvan teatrının 125, Naxçıvan Dövlət Universitetinin 140, filosof-şair Hüseyn Cavidin 125, Cəlil Məmmədquluzadənin 140, Məhəmmıd Tağı Sidqinin 150, Məhəmmədağa Şahtaxtlının 160, Yusif Məmmədəliyevin 100 illik yubileylərinin keçirilməsindən irəli gələn axtarışların, tədqiqatların, kitab və məqalələrin yazılması, konfrans və simpoziumların keçilməsi, ikicildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan tarixi atlası", Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri" ensiklopediyaları, NR-nın 2 cildlik qırmızı ki-

[1] "Nuhçıxandan Naxçıvana". Bakı, "Elm və Təhsil", 2015, s.68-69

tabı və sair, "Muxtar Respublikada Ali Məclisin müvafiq sərəncamları əsasında keçirilmiş "Uluslararası qaynaqlarda Naxçıvan" (1996), "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri" (2002), Naxçıvan: tarixi gerçəklik, müasir dövr və inkişaf perspektivləri" (2006), "Nuh peyğəmbər dünya tufanı və Naxçıvan" (2009) beynəlxalq simpoziumları dünya elmi ictimaiyyətinin Azərbaycan elminin Naxçıvanda qazanılan nailiyyətləri ilə yaxından, əyani surətdə tanış olmalarına şərait yaratmışdır".[1]

Naxçıvan Kukla Teatrı, Naxçıvan Usaq Teatrı, Uşaq filarmoniyası, Naxçıvan Dövlət Filarmoniyasının kamera və xalq çalğı alətləri orkestrləri, Şərur Yallı rəqs ansamblı, regionlardakı xalq teatrları, Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı" tamaşaları, "Arşın mal alan" operettasının Türkiyə, Rusiya və Gürcüstan qastrolları, NMR-in Türkmənistanda Mədəniyyət günləri, Naxçıvan Respublikasının 85 illiyi, xalq yaradıcılığının tikmə, döymə, toxuma, oyma sənətləri, kulinariya mərkəzi, habelə, Nuh peyğəmbərin Naxçıvandakı məzarüstü türbəsi ilə bağlı mənəvi dəyərlərin təbliği məqalənin təsvir təhkiyəsindən xronoloji olaraq gəlib keçir. Məqalə akademik İsa Həbibbəylnin aşağıdakı sözləri ilə bitir: "İnkişaf və yeniləşmə istiqamətində keçirilmiş şərəfli yolun böyük dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə Azərbaycanın bu qədim və həm də cavan diyarının sabahkı üfüqlərinə də gur işıq salır".[2]

"Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (2013) məqaləsində akademik İsa Həbibbəyli Heydər Əliyevin obrazını cəmiyyətin siması və dövlət siyasətinin tərkib hissəsi olan təhsil quruculuğunun işığında izləmişdir.

Müəllif bu sahədə Dillər, Slavyan, Texnologiya, Memarlıq və İnşaat, Milli Konservatoriya, Rəssamlıq, Müəllimlər, Hərbi Akademiya, Milli Aviasiya Akademiya və universitetlərinin adlarını çəkmiş, onların Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayıb formalaşdığını göstərmişdir. "Beləliklə, ali məktəbimiz yüksək ixtisaslı mütəxəssislər hazırlayan münbit və möhkəm bazaya, həm də milli ziyalı potensialımızı qoruyub saxlayan, daha da inkişaf etdirən mühüm mərkəzlərə çevrilmişdir".[3] Bakı ilə yanaşı, regionlarda univer-

---

[1] "Nuhçıxandan Naxçıvana". Bakı, "Elm və Təhsil", 2015, s.69-70
[2] Yenə orada, 2015, s.76
[3] Yenə orada, 2015, s.77

sitet həyatı inkişaf etdirilmiş, Naxçıvan, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəranda da ali məktəblər yaradılmış, Heydər Əliyev siyasətinin təbliğatçılarına çevrilmişdir. Bu baxımdan Naxçıvan Dövlət Universiteti Heydər Əliyevə daha çox borclu və minnətdardır.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə filial kimi fəaliyyətə başlamış, 12 iyun 1972-ci ildə filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmış, 29 dekabr 1990-cı ildə isə Naxçıvan Dövlət Universiteti kimi fəaliyyətini davam etdirmişdir.

Heydər Əliyev universitetə ilk dəfə onun 50 illiyində gəlmiş, 4 oktyabr 1971-ci ildə müəllim və tələbələrlə görüş keçirmişdir. Böyük rəhbər ilk dəfə "Naxçıvanın muxtariyyat statusunun mahiyyəti və əhəmiyyəti barəsində dövlət siyasətinin əsasları məsələsini diqqət mərkəzinə çəkmişdir".[1] Ali məktəbin daha da inkişaf etdirilməsi, regionda ziyalı mərkəzinin formalaşdırılmasının vacibliyi diqqətə çəkilmiş, institutun maddi-texnki bazasını möhkəmləndirmək, yeni ixtisas yerləri açmaq, tələbə kontingentini genişləndirməyə doğru yönəltmək, "hətta, Naxçıvanda mövcud pedaqoji institutun bazasında müstəqil dövlət universitetinin yaranması zərurəti haqqında ilk fikirlər də həmin tarixi görüşdə Heydər Əliyev tərəfindən irəli sürülmüşdür".[2]

Ulu Öndər 1990-1993-cü illərdə "Naxçıvan Dövlət Universitetinin problemlərinin həllinə, ali məktəb müəllimləri ilə, ziyalılarla əlaqələrə xüsusi diqqət yetirmişdir. Naxçıvan MR Ali Məclisinin sədri kimi o çətin illərdə süni vasitələrlə gözdən salınmış alimləri və müəllimləri onları əhatə edən siyasi və mənəvi böhrandan çıxarmağa nail olmuşdur".[3]

11 oktyabr 1992-ci ildə universitetdə "Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili" mövzusunda simpozium keçirilmiş və Heydər Əliyev dərin məzmunlu nitq söyləmiş, Türk Cümhuriyyəti və İran İslam Respublikası alimlərinin iştirakı "beynəlxalq elmi tədbirin daha yüksək səviyyədə keçirilməsini təmin etmişdir".

Elm və təhsil hamisi universitetin 25 illiyində də iştirak etmiş (12 noyabr 1992), "kollektivin ayrı-ayrı üzvləri ilə söhbətlər aparmış, mövcud problemləri öyrənmiş, çıxış yolları haqqında dəyərli

---

[1] "Nuhçıxandan Naxçıvana". Bakı, "Elm və Təhsil", 2015, s.79

[2] Yenə orada, s.79

[3] Yenə orada, s.79

tövsiyələr vermiş, universitetin inkişafına əməli köməklik göstərmişdir”.[1]

Rektor İsa Həbibbəyli Ulu Öndərin çıxışını məramnamə kimi qiymətləndirmiş, qeyd etmişdir ki, “bu tarixi nitqdə dövlət müstəqilliyi şəraitində təhsilin keçmiş sovet ideologiyasından ayrılması, millilik və bəşərilik istiqamətində idarə olunması, ölkənin maraqlarına uyğun şəraitdə qurulması, universitetlərin beynəlxalq əlaqələrinin genişlənməsinin zəruriliyi, bütövlükdə ali təhsilin yeni epoxada ciddi islahatlara ehtiyacının olması Heydər Əliyev tərəfindən uzaqgörənliklə irəli sürülmüşdür”.[2]

30 oktyabr 1997-ci ildə universitetin 30 illik yubileyi keçirilmiş, Heydər Əliyev rektor İsa Həbibbəyliyə təbrik məktubu göndərmişdir. 29 oktyabr 1997-ci il tarixli təbrik məktubunda deyilir: “Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər xüsusilə qeyd olunmalıdır.[3] Bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirir”.[4]

Naxçıvan Dövlət Universitetində 10 fakültə, magistratura və doktorantura pilləsi fəaliyyət göstərir. 108 hektarlıq ərazisi olan universitetin 12 tədris korpusu, Elektron kitabxanası, Olimpiya idman bazası, konservatoriyası, tibb fakültəsi və xəstəxanası, kompyuter sinifləri, internet mərkəzləri, fənn kabinetləri, laboratoriyaları, Botanika bağı, muzeyi, sərgisi, Amerika, Avropa, Asiya, MDB ölkələri, Afrika, Türkiyə və İran universitetləri ilə əlaqəsi vardır.

Heydər Əliyev 1999-cu ildə universitetə 1600 yerlik yeni tədris korpusu tikdirmiş və açılışında iştirak etmiş, universitet əməkdaşları əməkdar elm xadimi, xalq rəssamı, əməkdar müəllim, əməkdar incəsənət xadimi adları ilə təltif olunmuşdur. Universitet 9 oktyabr 1999-cu il tarixli Elmi Şurasında Heydər Əliyevə fəxri doktor adını vermişdir. Universitet nəzdində “Heydər Əliyev universiteti” (6 mart 1997) yaradılmışdır ki, bu da “əsl milli dövlətçilik, yetkin siyasi düşüncə və idarəetmə mədəniyyəti məktəbi kimi yeni nəslin

---

[1] “Nuhçıxandan Naxçıvana”. Bakı, “Elm və Təhsil”, 2015, s.81

[2] Yenə orada, s.81

[3] Yenə orada, s.83

[4] Yenə orada, s.83

tərbiyəsində mühüm rol oynayır".[1] 5 aprel 1997-ci il tarixli ilk məşğələsində Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov "Heydər Əliyevin həyatı və fəaliyyəti universitetdir" mövzusunda məruzə etmişdir. 30 ildir ki, universitet Heydər Əliyev dərslərini yetişən nəsillərə çatdırır. Rəsmi dövlət nümayəndələri, elm və təhsil xadimləri, xarici qonaqlar hər il Heydər Əliyev siyasətinin çoxcəhətli fəaliyyəti mövzusunda məruzə edirlər. Universitetdə Heydər Əliyevin fenomen şəxsiyyət, dünya sivilizasiyasında elit şəxsiyyət olduğu və müstəqil dövlətçilik tarixinin zəngin təcrübəsi təbliğ olunur.

Naxçıvan Dövlət Universitetində akademik Fəraməz Maqsudovun "Heydər Əliyev və Azərbaycan elmi", akademik Azad Mirzəcanzadənin "Heydər Əliyev və Azərbaycanın neft fəlsəfəsi", akademik Budaq Budaqovun "Heydər Əliyev və Azərbaycan təbiəti", akademik Bəkir Nəbiyevin "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", akademik Ziyad Səmədzadənin "Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası", akademik Rasim Əfəndiyevin "Heydər Əliyev və Azərbaycanın incəsənəti", akademik İsa Həbibbəylinin "Heydər Əliyev və dünya azərbaycanlıları problemi", akademik İsmayıl Hacıyevin "Heydər Əliyev və Azərbaycan tarixi məsələləri", AMEA-nın müxbir üzvü Əbülfəz Qarayevin "Heydər Əliyev və Azərbaycan dili", fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayevin "Heydər Əliyev və xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılması məsələləri", tarix elmləri doktoru, professor Həmzə Cəfərovun "Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradıcısıdır" mövzusunda məruzələri müstəqil dövlətçilik, Azərbaycançılıq təliminin əsaslarına, ölkəmizdə gedən böyük inkişaf proseslərinə həsr olunmuşdur.

Eyni zamanda "bir çox xarici ölkələrin, o cümlədən, Türkiyənin, Rusiyanın, Yaponiyanın, Almaniyanın, Polşanın, Macarıstanın və başqa dövlətlərin Azərbaycanda fövqəladə və səlahiyyətli səfirlərinin öz ölkələri ilə çoxcəhətli əlaqələrin yaradılmasında görkəmli dövlət xadiminin rolu haqqındakı çıxışları "Heydər Əliyev Universitetinin unudulmaz dərslərindəndir".[2] Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin həyat və fəaliyyətinin böyük uğurları da "Heydər Əliyev universiteti"ndə təbliğ olunur.

---

[1] "Nuhçıxandan Naxçıvana". Bakı, "Elm və Təhsil", 2015, s.85
[2] Yenə orada, s.87

Ümummilli liderə həsr olunmuş kitab təqdimatları da "Heydər Əliyev universiteti"nin iş təcrübəsindən biridir. Bu baxımdan Vasif Talıbovun "Qayıdış" sənədlər toplusu, "Ömrün üç günü" albomunun müzakirələri, akademik Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", Novosibirskdə Azərbaycan diasporunun rəhbəri Mirkazım Seyidovun "Qəlbimizdə yaşayır Ata Heydər", "Mənim dağlı və günəşli ölkəm" və başqa mərasimlər ictimai əhəmiyyətə malikdir.

"Heydər Əliyev universiteti"ndə Heydər Əliyev haqqında çap olunmuş kitablar, jurnal və albomlar toplanmış, zəngin "Heydər Əliyev kitabxanası" təşkil olunmuş, qiymətli fotomateriallar, nadir sənədlər nümayiş etdirilmiş, vidioteka, videolentlər yığılmışdır.

Hazırda cənab İlham Əliyev də universitetin yeni inkişaf mərhələsində onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin və elmin keyfiyyətcə yüksəldilməsinə, elmi-tədqiqat işlərinin səmərəsinin artırılmasına, onun Avropa universitetlərinə inteqrasiyasına xüsusi diqqət və qayğı göstərir.Cənab İlham Əliyev 12 may 2004-cü ildə universitetin yeni Elektron kitabxanasının açılış mərasimində iştirak etmiş, 40 illik yubileyinin keçirilməsi haqqında 31 mart 2007-ci ildə sərəncam vermiş və 17 oktyabr 2007-ci il tarixli yubileydə dərin məzmunlu nitq söyləmişdir: "Mən bilirəm ki, universitet dünyanın aparıcı universitetləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur və bu da özlüyündə bir göstəricidir. Bu, onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir".[1]

Universitetin Amerika, Avropa, Asiya və Afrikada, ümumən 80-dən artıq ali məktəblə əlaqəsi vardır. Universitetdə TEMRUS, ERASMUS-MUNDOS proqramları üzrə güclü layihələr yerinə yetirilir.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabı akademik İsa Həbibbəylinin "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı"[2] adlı baş məqaləsi ilə açılır. Müəllif dövlət müstəqilliyinin bərpasının 25 illik tarixinə, onun elm, ədəbiyyat və incəsənətinin inkişaf yoluna nəzər yetirmiş, zəngin tarixi-mədəni keçmişi, milli-mənə-

---

[1] "Nuhçıxandan Naxçıvana". Bakı, "Elm və Təhsil", 2015, s.91

[2] İsa Həbibbəyli. Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. Bakı, "Elm və təhsil", 2016, 800 s.; s.3-36

vi, multikultural dəyərləri yada salmışdır.

Məqalədə İsa Həbibbəyli Heydər Əliyevdən əvvəlki və sonrakı dövrdə sosial-siyasi və tarixi-mədəni fəaliyyət işığında müstəqillik dövrü Azərbaycan ədəbiyyatını formalaşdıran amillər üzərində dayanmışdır. Ədəbiyyatşünas-alim bu baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin mənəvi dəyərləri ilə yanaşı, türkçülük və azərbaycançılığı əsas bilir, ədəbi-ideoloji zəmin olaraq Məhəmməd Əmin Rəsulzadə, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Məhəmməd Hadi, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Əbdürrəhimbəy Haqverdiyev, Əhməd Cavad, Cəfər Cabbarlı, Səməd Vurğun, Mikayıl Müşfiq, Mirzə İbrahimov, Mir Cəlal, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz və başqalarına istinad edir. İsa Həbibbəyli Heydər Əliyevin Azərbaycan Yazıçılarının V qurultayındakı nitqini xatırladır: “Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyatları oyatmağa çalışmışdır. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıblar: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıblar”.[1]

Ulu Öndər həmişə Azərbaycan dilinə, onun siyasi-hüquqi təminatlarına geniş yer vermiş, fərman, qərar və sərəncamlar imzalamış, praktik həlli istiqamətində ciddi fəaliyyət göstərmişdir. O, bəyan etmişdir: “Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünki səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var”.[2] Böyük rəhbər ilk “İstiqlal” ordenini Bəxtiyar Vahabzadə, Xəlil Rza və Məmməd Araza vermiş və bu barədə 16

---

[1] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild. Bakı, “Elm və təhsil”, 2016, s.6. Bax: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Yazıçılarının X Qurultayında nitqi. Azərbaycan Yazıçılar Birliyi–75. Bakı, 2009, s.107

[2] Yenə orada, s.108

aprel 1995-ci il tarixli çıxışında[1] məlumat vermişdir.

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra da ədəbiyyata Dövlət himayəsi göstərmiş, ilk görüşü 21 sentyabr 1993-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında ölkə ziyalıları ilə olmuşdur. Azərbaycan Yazıçılar Birliyində də belə bir görüş keçirmiş (oktyabr 1997), ədəbiyyat və mədəniyyətimizə böyük qiymət vermişdir.

İsa Həbibbəyli məqaləsində 1980-ci illərin axırlarında Heydər Əliyevə, Naxçıvanın adlı-sanlı adamlarına, habelə, Cəlil Məmmədquluzadəyə qarşı kompaniyaların genişləndiyini, o zamankı mitinqlərdə, izdiham içərisində Heydər Əliyevin portretinin əllərdə tutulması və hakimiyyətə gətirilməsi tələblərini xatırladır.

1990-1993-cü illər alim yaddaşından xüsusi keçir. O, ziyalıların həmrəyliyini yada salır: "Qısa müddətdən sonra ağsaqqallar və ziyalılar, düşünən gənclik Heydər Əliyevin ətrafında mətin sıralarda birləşərək ictimai mühiti, siyasi prosesləri idarə etmək şansını öz əlinə ala bildi. Bu, regionun xilası baxımından çöx əhəmiyyətli bir dönüşə nail olmaq demək idi".[2]

İsa müəllim 1992-ci ilin oktyabr və noyabr aylarında Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinə gəldiyini, Azərbaycan, Türkiyə və İran alimlərinin qatıldığı beynəlxalq elmi simpoziumu xatırladır, qədirşünaslıqla bildirir ki, "mənim 1996-cı ildə rektor vəzifəsinə təyinatım da, Əməkdar elm xadimi fəxri adına layiq görülməyim də ölkə rəhbəri Heydər Əliyevin etimadı idi. Bu, mənim üçün böyük şərəf və unudulmaz tarixdir".[3]

Müəllif uğurlu faktların, tapşırıq və vəzifələrin fəlsəfi mahiyyətinə varır, ona göstərilən etimadı yada salır. Heydər Əliyevin 1992-ci ildə Naxçıvan Dövlət Universitetinin 25 illik yubiley mərasimindəki çıxışından: "İndi artıq siz keçmiş Sovetlər İttifaqının çərçivəsində olan təcrübəni yox, bütün dünya təcrübəsini gərək mənimsəyəsiniz, ondan səmərəli istifadə edəsiniz və ali təhsil işinin təşkilini daha müasir səviyyədə təşkil edəsiniz... İndi bütün dünya qarşımızda açıqdır. Və bütün dünyanın bəşəri elmindən, bəşəri ali təhsil təcrübəsindən biz gərək səmərəli istifadə edək. Bu sahədə Naxçıvan

---

[1] Bax: Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, Azərnəşr, 1997, s.363

[2] Bax: Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.169

[3] Yenə orada, s.170

Dövlət Universiteti... öz vəzifələrini çox dəqiq müəyyən etməlidir”.[1]

Akademik həyata keçirdiyi vəzifələrdən, universitetin Qərb və Avropa əlaqələrindən danışmış, həm tarixi, sosial-siyasi, həm mədəni faktlara istinad etmiş, həm də xatiratlara dalmışdır. Budur, bir səmimi etiraf da: 1991-ci il... Yazıçı-jurnalist, xalq deputatı, Dövlət Mükafati laureatı Elmira Axundova İsa Həbibbəyliyə zəng vurur ki, Heydər Əliyev onu qəbul etsin. İsa Həbibbəyli: “O vaxt Moskvada “Literaturnaya qazeta”ya yenicə Azərbaycan üzrə xüsusi müxbir təyin olunmuş filologiya elmləri namizədi Elmira Axundova mənə zəng çalaraq redaksiyadan aldığı Heydər Əliyev haqqında müsahibə hazırlamaq tapşırığı ilə əlaqədar Naxçıvana gəlmək istədiyini bildirdi. Mən o zaman böyük siyasi xadim Heydər Əliyevin görüşünə gedib Elmira Axundovanın arzusunu ona çatdırdım”.[2] İsa müəllim Elmira Axundova ilə birlikdə 2 gün Heydər Əliyevin qonağı olub. “Və bu iki günlük yaxın ünsiyyət mənim Heydər Əliyevi daha dərindən tanımağıma, dərk etməyimə şərait yaratdı”.[3]

İsa Həbibbəyli Heydər Əliyevin siyasi baxışları və iradi keyfiyyətləri üzərində də həssas dayanmışdır: “Yaxşı xatırlayıram ki, Heydər Əliyev Kreml rəhbərliyi, şəxsən SSRİ adlanan böyük dövlətin başçısı Mixail Qorbaçov haqqında “Literaturnaya qazeta”nın azərbaycanlı xüsusi müxbirinə sərt, lakin çox arqumentli, əsaslandırılmış fikirlər söyləyir, bəyanatlar verir, irəli sürdüyü mülahizələrin dəyişdirilmədən, olduğu kimi müsahibədə öz əksini tapmasını tələb edirdi”.[4]

Elmira Axundovanın “bu cür qəti mövqedən çıxış edərkən əlində böyük qüvvə olan, nəhəng bir dövlətin başçısından ehtiyat edib-etməməsi barədəki sualına Heydər Əliyev cavabında: “Bildirdi ki, Qorbaçovun hakimiyyəti yalan və boş illuziyalar üzərində qurulduğu üçün tezliklə məhvə məhkum olacaqdır, zaman bunun əsl gerçəklik olduğunu ən qısa vaxtda meydana qoyacaqdır”.[5]

Elmira Axundovanın bu müsahibəsini “Literaturnaya qazeta” çap etmədiyindən, yazı 1 mart 1991-ci ildə respublika mətbuatında dərc olunmuşdur. Xalq deputatı 1994-cü ilin aprel ayında “Azərbay-

---

[1] Heydər Əliyev mənim həyatımda, Bakı, 2005, s.171
[2] Yenə orada, s.172
[3] Yenə orada, s.172
[4] Yenə orada, s.172
[5] Yenə orada, s.172

can” qəzetində “Mən xalqım qarşısında alnı açığam” adlı geniş məqalə-qeydlərini dərc etdirmiş, “Heydər Əliyev: şəxsiyyət və zaman” adlı publisist romanını ictimaiyyətə çatdırmışdır.[1]

İsa Həbibbəyli məqaləsinin sonunu Azərbaycan Prezidenti İlham Əliyevin xidmətlərinə həsr etmişdir: “Heydər Əliyev siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrini, o cümlədən, elmimizi və ali təhsilimizi, milli ziyalılığımızı daha böyük sürətlə irəliyə aparacaqdır”.[2]

Akademik yekunlaşdırır ki, “müstəqil Azərbaycan dövlətinin strategiyasının əsasını Heydər Əliyev təlimi təşkil edir. Xalqımızın əsas aparıcı qüvvəsi olan ziyalılarımız həmin siyasi xəttə bundan sonra da sadiq qalmaqla bu böyük təlimə əsaslanmaqla Azərbaycanımıza özlərinin layiqli töhfələrini verə bilərlər”.[3]

Akademik İsa Həbibbəyli Heydər Əliyevin *ictimai-siyasi xadim obrazını* çeşidli məqalələr fonunda canlandırmış, müəllifin yazı üslubuna hissi idrakın duyğu, qavrayış, təsəvvür, məntiqi idrakın anlayış, mühakimə və əqli nəticələrinin əlvan rəngləri qarışmışdır.

Xalq şairi Bəxtiyar Vahabzadənin Heydər Əliyev haqqında fikirlərinin müəyyən hissəsi şairin əsərlərinin XI cildində, publisistikasında toplanmışdır. Bu yazıların çoxu *siyasət, türkçülük, azərbaycançılıq və mədəniyyət barəsindədir* ki, şair Heydər Əliyev obrazını oxucuya bu yöndə – məqalə və müsahibə janrlarında təqdim etmişdir.

Aydındır ki, Bəxtiyar Vahabzadə 1950-ci illərdə şeir və poemalarının ideya istiqamətinə görə təqib olunmuş, tutulmaq təhlükəsi qarşısında qalmış, lakin onu həbs olunmaqdan Heydər Əliyev xilas etmişdir. Bunu Ulu Öndərin özü də, Bəxtiyar Vahabzadə və başqaları da xatırlatmışlar.

Etiraf olunur ki, “Gülüstan” poemasından sonra Bəxtiyar Vahabzadə “Leninlə söhbət” poemasını yazmış, əsər Dövlət mükafatı-

---

[1] Elmira Axundova. Şəxsiyyət və zaman, I hissə (1923-1969). Bakı, “Ozan”, 2007; II hissə (1969-1982). Bakı, “Ozan”, 2007, 784 s.; III hissə (1982-1990). Bakı, “Ozan”, 2009, 804 s.; IV hissə (1969-1989). Bakı, “Ozan”, 2008, 328 s., V hissə (1990-1993). Bakı, “CBSPolygraphicproduction”, 2013, 736 s.; VI hissə, I kitab (1993-2003), Bakı, “CBSPolygraphicproduction”, 2013, 480 s.; II kitab (1993-2003), Bakı, “CBSPolygraphicproduction”, 2013, 496 s.

[2] Yenə orada, s.174

[3] Yenə orada, s.174

na layiq görülmüşdür. Heydər Əliyev Bəxtiyar Vahabzadəni, Xəlil Rzanı dövrünün ən böyük dissidentləri hesab etmişdir. Sənətkar yazdığı bütün qiymətli əsərlərində fikir və məfkurə mövqeyini diqqətdə saxlamış, Azərbaycan qayəsində, milli azadlıq hərəkatında ən fəal ziyalılardan, azadlıq mücahidlərindən biri olmuşdur. Şair bütün bunlar və bir çox başqa mətləblər barəsində yeri gəldikcə mətbuat səhifələrində fikir söyləmiş, məqalə yazmış, müsahibələr vermiş, yol qeydləri etmişdir.

"Haqqın, ədalətin səsiylə yazıram", "Axı, biz hüquqi dövlət yaratmaq iddiasındayıq", "Dünya beş günmü?", "Sular duruldu, gördük dibindəki daşları", "Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi", "Yaradıbdır inam məni", "Azərbaycan Prezidenti Heydər Əliyev xəstəxanada Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşmüşdür" və başqa yazılarda xalq sənətkarı Heydər Əliyev obrazına toxunmuşdur.

Şair "Haqqın, ədalətin səsiylə yazıram" müsahibəsində jurnalistin müstəqil dövlətin müstəqil siyasəti sahəsində işləriniz necədir, – sualı ətrafında Qarabağ hadisələrinə, Heydər Əliyevin bu sahədə mövqeyinə münasibət bildirmişdir. Bildirmişdir ki, (hələ 1992-ci ildə – Ə.Ə.) Qarabağ məsələsində bizim ayrıca konsepsiyamız olmalıdır.

Bəxtiyar Vahabzadə Heydər Əliyevin iradəsini əsas tutmuşdu. O xatırladır: "Yadınızdadırsa, Ali Sovetin ilk sessiyasının iclaslarının birində Heydər Əliyev dedi ki, mənim Qarabağ üzrə konsepsiyam var və bu problemin həlli yollarını göstərmək istəyirəm. Elə bu sözü demişdi ki, deputatların bəziləri düşdülər onun üstünə. Məsələnin müzakirəsi, millətin faciəsi, kədəri qaldı bir tərəfdə, başladılar öz şəxsi ədavətlərinə. Həmin sessiyadakı çıxışının elə ilk cümləsindəcə dedim ki, axı o nə deyir? Deyir ki, problemin həlli yollarını göstərən konsepsiyam var. Məgər bunun üstündə adamı tənqid edərlər?"[1]

"Axı biz hüquqi dövlət yaratmaq iddiasındayıq" müsahibəsində jurnalistin sualı birbaşa, açıq olmuşdur: "- Son vaxtlar Sizi Heydər Əliyevin adı ilə daha çox bağlayırlar". Bəxtiyar Vahabzadə demişdir: "- Mən Heydər Əliyevi həmişə müdafiə etmişəm və eləyəcə-

---

[1] Bax: Bəxtiyar Vahabzadə. Əsərləri, XI cild. Publisistika. Bakı, "Azərbaycan", 2005, s.316

yəm. Heydər Əliyevin biliyindən, bacarığından istifadə etmək lazımdır. Bir var, Yeltsinin qabağına uşaq göndərəsən, bir də var bu sahədə böyük səriştəsi olan Heydər Əliyevi".

Xalq şairi Heydər Əliyevin bərabərtərəfli siyasət (hazırda görkəmli siyasi varis İlham Əliyevin siyasəti – Ə.Ə.) konsepsiyasını dəstəkləmişdir. Jurnalistin daha bir sualı: "- Azərbaycanın siyasət gəmisi Rusiyaya doğru yönəlmişdir, – deyən Heydər Əliyevi bu kontekstdə necə qiymətləndirmək olar?"

Bəxtiyar Vahabzadə: "- O sözlərin Heydər Əliyev tərəfindən deyildiyinə inanmıram. Rusiya onun hakimiyyətə gəlməsindən qorxur. Buna görə də onun adından belə uydurmalar yazırlar ki, biz onu iqtidara yaxın buraxmayaq".[1]

"Sular duruldu, gördük dibindəki daşları..." müsahibəsində şair Heydər Əliyevin nəzəri və praktik siyasətçi olduğunu faktını xatırladır: "Fransaya səfər edirdik. Heydər Əliyev bizi təyyarədə qəbul etdi. Elə orada bu günkü durum, dünya siyasətindəki yerimiz, ermənilərin fitnəkarlığı, erməni lobbisinin xaricdə hansı gücə malik olması barədə ətraflı söhbət etdi. Onda o dönə-dönə vurğuladı ki, vətən üçün qışqırmaq yox, vətən üçün iş görmək lazımdır".[2]

Bəxtiyar Vahabzadə "Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi" müsahibəsində 1990-cı ilin "Şənbə gecəsindən", özünün "Şənbə gecəsinə gedən yol" əsərindən, faciənin obyektiv və subyektiv səbəblərindən, sessiya çağırmaq zərurətindən, özünün və Xalq yazıçısı İsmayıl Şıxlının sessiyanı idarə etmələrindən, ziyalı kimi xalqın içində və önündə olmasından, Heydər Əliyevin siyasi iradəsindən, onun əleyhdarlarının məkrli hiylələrindən və Heydər Əliyevlik fenomenindən söz açmışdır. Şair hesab etmişdir ki, o zaman Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, 20 Yanvar qırğını törənməzdi. Bəxtiyar Vahabzadə: "Bilirsən, ay oğul, milli qanı olan adam, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı. Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycanda rəhbər olsaydı, bu qırğın olmazdı. Heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə

---

[1] Bəxtiyar Vahabzadə. Əsərləri, XI cild. Publisistika. Bakı, "Azərbaycan", 2005, s.347-348

[2] Yenə orada, s.379-380

olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Lissabonda olan hadisədən xəbərim yox idi. Bu barədə Süleyman Dəmirəldən soruşdum. O, Heydər Əliyevin Lissabonda göstərdiyi hünərdən, necə bir çeviklik və cəsarətlə diplomatik gedişlər edərək 52 dövlətin dəstəyini almağa necə nail olmasından danışıb dedi ki, Heydər Əliyevin qədrini bilin”.[1]

“Yaradıbdır inam məni” müsahibəsinin siyasi-ideoloji əhəmiyyəti daha artıqdır. Yazıda Heydər Əliyevin obrazı onun dövlətçilik təfəkkürü, Ulu Öndərin çoxcildliyinin I-II cildinin nəşrləri və “Qayıdış” kitabı, ermənilərin avantürist siyasəti fonunda canlandırılmışdır. Bəxtiyar Vahabzadə həmin kitabların məzmunu və əhəmiyyətindən danışaraq demişdir: “– Bu kitablar, ilk növbədə, dördillik tariximizin aynasıdır. Kitablarda son dörd ildə keçdiyimiz yol, bu yolda qarşılaşdığımız çətinliklər, qazandığımız uğurlar geniş əks olunmuşdur. Təkcə elə bu cəhətinə görə kitablar çox qiymətlidir. Kitablarda məni ən çox tutan məsələ istiqlalımızla bağlıdır. İstiqlal amalı kimi cildlərdə “İstiqlalımız əbədidir, onu göz bəbəyi kimi qorumalıyıq” fikrinin qırmızı xətt kimi keçməsi məni çox məmnun etdi”.[2]

Sənətkar Azərbaycanın işğalı ilə bağlı mühüm məsələ üzərində xüsusi dayanmışdır. Göstərmişdir ki, “Kitabda 1920-ci il aprelin 28-də Azərbaycanın işğal olunması göstərilir. Bu, çox mühüm məsələdir. Biz bu gün cavanlarımızın beyninə yeritməliyik ki, 20-ci il inqilab yox, işğal idi. Və Heydər Əliyevin “Qayıdış” kitabındakı fikri bu işğalı elmi surətdə işləyib sübut etmək üçün bizə material verir”.[3] Şair kitabdan sitat gətirir: “Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm. 28 apreldə Azərbaycan işğal olunub, Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub”.[4]

Bəxtiyar Vahabzadəyə görə, “Qayıdış” kitabında milli etnik məsələ, ermənilərin Qarabağ məsələsinə çoxdan hazırlığı, Azərbaycanı hiyləgər düşmənə qarşı ayıq-sayıqlığa çağırışı ilə bağlı məlumatları səciyyəvidir. Şair: “...ermənilər Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra fəaliyyətə başladılar. Zori Balayan Ermənistanda çıxan bir kitabda yazır: “Əliyev getdi, bəs indi biz nəyi gözləyirik?” Nə qədər ki, Heydər Əliyev Bakıda hakimiyyətdə idi,

---

[1] Bəxtiyar Vahabzadə. Əsərləri, XI cild. Publisistika. Bakı, “Azərbaycan”, 2005, s.450
[2] Yenə orada, s.452
[3] Yenə orada, s.453
[4] Yenə orada, s.453

daha sonra Siyasi Büronun üzvü idi, düşmənlərimiz açıq hücuma keçə bilmirdilər. Və çox təəssüf ki, biz o zaman Heydər Əliyevin vəzifədə qalması üçün heç bir iş görə bilmədik. Bəlkə də, onun vəzifədən getməsinin günahkarlarından biri biz özümüzük"[1] – demişdir.

Ermənilər aşkar yazırdılar: "Qarabağ məsələsinə başlamazdan əvvəl yuxarıdakı türk paşasının məsələsini həll etmək lazımdır". (Jurnal redaktoru A.Saakyanın oxucularla müsahibəsindən) Bəxtiyar Vahabzadə: "Heydər Əliyev Moskvada Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra burada həmin məsələlər başlandı. Bəs biz niyə bunları görmürük, qiymətləndirmirik? Bu, tarixdir axı..."[2]

Bəxtiyar Vahabzadə kitabdakı mənşəyimizlə bağlı fikirlər ətrafında da jurnalistlə söhbət etmişdir. Bu barədə şairdən soruşanda demişdir: "–Kitabda mənim ürəyimdən xəbər verən məqamlardan biri də bizim mənşəyimiz, türklüyümüz haqqında fikirlərin dönə-dönə vurğulanmasıdır. Mən burada Heydər Əliyevin çox məşhur kəlamını xatırlatmaq istərdim: "Biz bir millət, iki dövlətik". Və mən bu kəlamdan ruhlanıb bir şeir də yazmışdım ki, Türkiyədə Hikmət Şimşək ona mahnı bəstələmişdi:

*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir:*
*Azərbaycan-Türkiyə.*

*Bir millətik, iki dövlət,*
*Eyni arzu, eyni niyyət.*
*Hər ikisi cümhuriyyət*
*Azərbaycan-Türkiyə.*

Şair Heydər Əliyevin İzmirdə Bakı parkının açılışı zamanı dediyi bir fikri xatırladır: "Biz böyük bir çinar ağacının budaqlarıyıq. Kökümüz birdir və o qədər möhtəşəm çinardır ki, əsrlər boyu onu nə qədər silkələsələr də, yıxmaq istəsələr də, bizi bir-birimizdən ayırmaq istəsələr də, bacarmadılar". Gözəl fikirdir, elə deyilmi?!

Bəxtiyar Vahabzadə jurnalistlə müsahibəsində Naxçıvanda

---

[1] Bəxtiyar Vahabzadə. Əsərləri, XI cild. Publisistika. Bakı, "Azərbaycan", 2005, s.453
[2] Yenə orada, s.453

Heydər Əliyevlə görüşünü, ona olan inamını da yada salmışdır. Dialoq xarakterli təhkiyədə Ulu Öndərin də, Bəxtiyar Vahabzadənin də qırmızı imperiyaya və Azərbaycan qayəsinə münasibətləri açıqlanmışdır. Bəxtiyar Vahabzadə: "– Bir dəfə İrana gedirdik, onda Heydər Əliyev Naxçıvanda bacısının evində yaşayırdı. Elə oldu ki, gecəni Naxçıvanda qalmalı olduq. Mən dedim ki, gedirəm Heydər Əliyevin yanına. Heç kəs mənimlə getmədi. Düz dörd saat söhbətləşdik"[1] – deyə xatırlamışdır.

Xalq şairi Ulu Öndərlə görüşündə ona Sovet hökumətindən, millətçilkdən suallar verib cavablar almışdır. Suallardan biri:

– Heydər müəllim, Siz o zaman zirvədə olanda Sovet hökumətinin puç olduğunu bilmirdiniz? O cavabında:

– Qoy səmimi deyim: Yox. Mən inanırdım ki, millətimin inkişaf və tərəqqisi yalnız bu yoldadır.

Bəxtiyar Vahabzadə:

– Necə ola bilər ki, bu ağılın, bu zəkanın, bu siyasətin sahibi Sovet hakimiyyətinin boşluğunu bilməsin, duymasın? Heydər Əliyev suala sualla cavab verib:

– Sənin o vaxt millətçi, Sovet quruluşuna düşmən olduğunu mən bilirdim, ya yox?

Bəxtiyar Vahabzadə:

– Dedim, bilirdiniz.

Heydər Əliyev:

– Bəs onda mən səni niyə o zaman həbs etdirmir, əksinə, fitnələrdən qoruyurdum?

Daha sonra:

– Deputat seçilərkən sənə dediyim söz yadındadırmı?

Bəxtiyar Vahabzadə:

– Heç cür yadıma sala bilmədim. Heydər Əliyev həmin sözü mənim yadıma saldı. Sonra gündəliyimə baxanda həmin sözə rast gəldim. O zaman Heydər Əliyev mənə demişdi ki, "Sənə orden verib, deputat edirəm ki, ayağının altı möhkəm olsun, sən işini gör. Daha adama nə deyərlər?.."[2]

Heydər Əliyev: "Bəli, yanvarın 21-də Moskvada çıxış etdim. İndi bunu demək istəmirəm, o vaxt mən Moskvada təcrid edilmiş,

---

[1] Bəxtiyar Vahabzadə. Əsərləri, XI cild. Publisistika. Bakı, "Azərbaycan", 2005, s.455
[2] Yenə orada, s.455

cəmiyyətdən tamamilə uzaqlaşdırılmış və təqib altında olan bir adam idim. Məni daim təqib edirdilər, hətta hazırlaşırdılar ki, orada həbs etsinlər. Sizə danışmışam, o vaxt mən Moskvada deyildim. Xəstə idim. Moskvadan kənarda, sanatoriyada müalicə olunurdum. Amma bu hadisəni eşitdim, gecə ikən Moskvaya gəldim".[1]

Heydər Əliyevi övladları tək qoymamışdır. Onlar da ataları ilə birlikdə etirazlı olmuşlar. Heydər Əliyev: "Uşaqlarım – oğlum İlham, qızım Sevil, qızımın əri Mahmud evdə idilər. Onlara dedim ki, mən oraya gedirəm. Bildirdilər ki, axı bu, təhlükəlidir. Onlar mənim ətrafımda olan vəziyyəti bilirdilər. Onların üçü də ayağa durdu və dedilər ki, ata, biz də Sizinlə gedirik. Dedim ki, siz getməyin. Bəlkə, təkcə Mahmud mənimlə getsin, siz getməyin. Çünki orada cürbəcür hadisələr ola bilərdi. Nə olursa, qoy mənimlə olsun, heç olmasa, sizinlə olmasın. Oğlum dedi ki, yox, mən də gedirəm. Hətta, qızım uşaqlarını evdə qoyub dedi ki, mən də gedirəm. Yaxşı ki, o vaxt kimsə lentə alıb – oğlumla, qızımla, qızımın əri ilə birlikdə oraya gəldik. Necə deyərlər, sözümü də dedim, münasibətimi də bildirdim. Mən – vəzifədə olmayan bir adam, orada münasibətimi bildirdim, amma vəzifədə olan adamların heç biri bu faciəyə münasibətini bildirmədi, bəyanat vermədi".[2] Heydər Əliyev Yanvar faciəsinin 7-ci ildönümünün qeyd edilməsi ilə bağlı sərəncam vermişdir ki, xalqımız o günləri bir daha yad etsin. Bəxtiyar Vahabzadə ona göstərilmiş hörmətə görə Heydər Əliyevə dualar etmiş, dərin təşəkkür və minnətdarlığını bildirmişdir.

Xalq şairi onun həyatında olan Heydər Əliyevlə bağlı olayları söyləmiş, mətbuat orqanlarında çıxışlar etmiş və Ulu Öndərin mədəniyyət, ədəbiyyat və dil sahəsində siyasətinin faktlarını, onların doğurduğu mövzu və motivləri poetikləşdirmişdir.

Bəxtiyar Vahabzadənin yazıları şəxsi xarakterli, dialoji monoloqlu yazılar deyil, dialoqlu, sosial-siyasi, taleyüklü yazılar və ədəbiyyat, sənət söhbətləridir ki, bütün bunların fonunda Heydər Əliyevin zəngin obrazı canlandırılmışdır.

Kitabda Ümummilli liderin xəstəxanada Bəxtiyar Vahabzadə ilə görüşünün dialoqu verilmişdir. 1997-ci il yanvarın 19-da Prezident Heydər Əliyev Xəzər hövzəsi xəstəxanasında yatan şairi gör-

---

[1] Bax: Bəxtiyar Vahabzadə. Əsərləri, XI cild. Publisistika. Bakı, "Azərbaycan", 2005, s.614

[2] Yenə orada, s.615

məyə gəlmişdir.

Bu görüş zamanı Heydər Əliyevin Fransa səfəri, Azərbaycan səhiyyəsinin səviyyəsi, Moskva səhiyyəsinin üstünlükləri, Mirməhəmməd Cavadzadə, Südeyif İmamverdiyevin orada keçdiyi təcrübələri, Azərbaycanın mədəniyyət xadimləri, teatr sənəti və aktyor peşəsi, habelə, göytürklər haqqında pyesin tamaşası, Azərbaycan-Türkiyə birliyi, Azərbaycana hərbi təcavüz, yanvar faciəsinin 7-ci ildönümü, idarəetmə strukturlarında xalqa etimadsızlıq, Heydər Əliyevin Moskva səfəratxanasındakı çıxışı ilə bağlı təəssüratları ifadə olunmuşdur.

Görüşün mətni dialoq şəklində qurulmuşdur. Söhbət zamanı Ulu Öndərin alicənablıq xüsusiyyətləri, xalqa və dövlətə sədaqət keyfiyyətləri, tarixin dərslərinə ibrət, diplomatik məharəti gözlərimiz önündə canlanır.

Heydər Əliyev Bəxtiyar Vahabzadə ilə görüş zamanı siyasi diplomatiyası ilə bərabər, elm, səhiyyə, təhsil, tibb xidməti sahəsində yüksək kadr hazırlığından, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza, Səməd Vurğun, Süleyman Rüstəm, Anar, Elçin, Yusif Səmədoğlu, Səttar Bəhlulzadə, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev, Rəşid Behbudov, Azər Zeynalov və b. istedadların nadirliyindən, bəstəkar, aktyor istedadının aliliyindən, teatr uğurlarından, Türkiyənin Azərbaycana ən böyük dayaq olması, Heydər Əliyevin Fransada Beynəlxalq Əlaqələr İnstitutundakı çıxışı və onun müstəqil dövlətçilik siyasətindən söhbət getmişdir.

Bu baxımdan Bəxtiyar Vahabzadənin sessiyadakı, Heydər Əliyevin Moskvadakı çıxışı ətrafında fikirlər ibrətlidir. 1990-cı illərdə keçirilmiş sessiyanı qeyri-qanuni adlandıran hökumət dairələri, millət satqınları üzə çıxmışdı. Heydər Əliyev isə yanvarın 21-də Moskvadakı Azərbaycan Səfirliyinə gələrək orada Bakıdakı qırğına kəskin etiraz etmişdi. Bəxtiyar Vahabzadə Heydər Əliyevin siyasi məfkurəsinin ideya məzmunu əsasında xeyli mövzu və motiv müəyyənləşdirmiş, böyük şəxsiyyətin nüfuzundan güc almış, şeirlər yazmışdır.

Akademik Bəkir Nəbiyev 2007-ci ildə "Heydər Əliyev haqqında etüdlər" monoqrafiyasını ayrıca çap etdirmişdir. Həmin məqalə alimin 5 cilddə Seçilmiş əsərlərinin dördüncüsündə də özünə yer al-

mışdır.[1] "Xalqına sədaqəti, böyük dövlətçilik təcrübəsi", "idarəçilik istedadı, xarakter bütövlüyü, heyrətamiz enerjisi", "Azərbaycan xalqına, onun dilinə, dininə, ədəbiyyatına, digər mənəvi dəyərlərinə dərindən bələd" olan Heydər Əliyev monoqrafiyada zəngin milli ədəbiyyatımıza tarixi xidmət baxımından səciyyələndirilmişdir. Heydər Əliyevə məhəbbətlə, aludəliklə bağlı olan akademik Bəkir Nəbiyev dahi Öndərin *dünya sivilizasiyasında yerini, ədəbiyyat sahəsində siyasətini* peşəkarlıqla təbliğ etmiş və mühüm elmi-nəzəri müddəalar irəli sürmüşdür. Belə qənaətlərdən biri Heydər Əliyevin ədəbiyyat sahəsindəki siyasəti ilə bağlıdır.

Heydər Əliyev siyasi-kulturoloji fəaliyyət zəminində mifologiya, folklor, klassik və müasir irs, habelə, dünya ədəbiyyatı haqqında qiymətli elmi fikirlər söyləmişdir. Heydər Əliyevin ədəbi-bədii zövqü Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Məhəmmədhüseyn Şəhriyar, Süleyman Rüstəm, Mirvarid Dilbazi, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Elçin, Fikrət Qoca və başqaları ilə bərabər, rus, Avropa klassiklərinin əsərləri əsasında formalaşmışdır. O, "Kitabi-Dədə Qorqud" dastanlarını "bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir əsər kimi" dəyərləndirmişdir. Akademik Bəkir Nəbiyev yazır: "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi Ümummilli liderimizin şəxsi təşəbbüsü və böyük səyləri nəticəsində həyata keçirilmiş və Azərbaycan ədəbiyyatı, elmi və mədəniyyəti sahəsində çox əlamətdar hadisə kimi tarixə düşmüşdür". Akademik Bəkir Nəbiyev professor Yaşar Qarayevlə birlikdə "Xalq mənəviyyatının güzgüsü" adlı bu elmi-kütləvi nəşri Azərbaycan, türk, rus, ingilis və fars dillərində yayımlatmışdır. Heydər Əliyev Sarayında beynəlxalq zirvə tədbiri ilə yaddaqalan dastanın mühüm elmi-siyasi əhəmiyyətini akademik belə ümumiləşdirmişdir: "Kitabi-Dədə Qorqud" – siyasi-ideoloji və mənəvi olaraq "ölkəmizin beynəlxalq imicinin yüksəlişinə də qüvvətli bir təkan olmuşdur".[2]

Monoqrafiyada akademik Bəkir Nəbiyev mühüm ədəbiyyat tədbirlərinin nəticələrini diqqətdə saxlamaqla bərabər, onların siyasi

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, 529 s., s.11-99

[2] Yenə orada, s.52

əhəmiyyətinə xüsusi nəzər yetirmişdir. Görkəmli akademik dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubiley tədbirindən danışarkən bildirmişdir ki, Heydər Əliyev Şərq bədii fikrinin tarixində yeni səhifə açmış böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvini dünyaya böyük mənəvi sərvətlər vermiş Dante, Şekspir, Şiller, Puşkin, Balzak, Tolstoy və Qorki ilə yanaşı tutmuş, yubiley tədbirlərinə böyük məna vermişdir. Bu cəhətdən onun aşağıdakı fikirləri də əhəmiyyətlidir. "Bu tədbirlərin... (1970-ci illərdən üzü bəri görülən işlərin miqyası nəzərdə tutulurdu – Ə.Ə.) siyasi əhəmiyyəti bu oldu ki, Azərbaycan rəhbərliyi və Azərbaycan elmi öz sənətkar övladına birmənalı şəkildə sahib çıxmaqla bərabər, o vaxtadək qonşu İranda və bəzi digər ölkələrdə Nizaminin guya fars ədəbiyyatının nümayəndəsi olması barəsində deyilənlərə son qoyuldu. Nizamişünasların Bakıda toplanan beynəlxalq konqresi artıq dünyanın bir sıra tanınmış şərqşünas və tarixçilərinin, nizamişünaslarının da bu məsələdə obyektiv mövqe tutduqlarını, Nizamini məhz Azərbaycan klassik ədəbiyyatının təmsilçisi, Azərbaycan xalqının dahi oğlu kimi qəbul etdiklərini göstərdi".[1] (Yeri gəlmişkən, xatırlayağın ilk Avropa oyunlarının Bakı şəhərində keçirilmiş 12 iyun 2015-ci il tarixli təntənəli açılış mərasimini. Bu tədbirdə Nizami Gəncəvi nə qədər möhtəşəm idi! – Ə.Ə.).

Akademik Bəkir Nəbiyev xatırladır ki, Heydər Əliyev böyük renessans şairi İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsində də çox böyük zəhmətlər çəkmişdi. Böyük öndər hesab edirdi ki, İmadəddin Nəsimi yaradıcılığında "ən mühüm cəhət onun insanpərvərlik ideyalarının qüvvəti, şairin bir fikir adamı, bir şəxsiyyət kimi əzəməti, ana dilində yazdığı əsərlərində özünü xüsusi təravətlə nümayiş etdirən poetik möcüzəsi idi".[2] Heydər Əliyev bu yubileyin (İmadəddin Nəsimi yubileyi – Ə.Ə.) SSRİ, YUNESKO xətti ilə dünya miqyasında qeyd olunması üçün layihələri "Sov.İKP MK siyasi bürosu kimi çox böyük bürokratiya maneəsindən keçirmişdi", "zamanın çox nadir ədəbi-mədəni hadisəsi olan Nəsimi yubileyi YUNESKO-nun tədbirləri sırasına daxil edilmişdi". "Beləliklə, İmadəddin Nəsimi yubileyi dünya miqyasında qeyd edilən ilk Azərbay-

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.55
[2] Yenə orada, s.55

can şairi olmuşdu”.[1] Alim, şair və incəsənət xadimlərinin iştirakı ilə Bakıda zirvə tədbirləri keçirilmiş, bir sıra uğurlarla yanaşı, akademik Bəkir Nəbiyevin tərtib etdiyi rus dilində məqalələr toplusu (şairin dövrü, mühiti, şəxsiyyəti, hürufilik təlimi, əsərlərinin dil-üslub xüsusiyyətləri və s. ilə bağlı) nəşr edilmişdir.

Akademik Bəkir Nəbiyev dahi şəxsiyyət Heydər Əliyevin: “Alim, ədib və incəsənət xadimləri haqqında yubiley tədbirinin keçirilməsi onların özlərindən çox, xalqımıza, cəmiyyətimizə lazımdır” kəlamını xüsusi xatırladır. Müəllif yazır: “Ulu Öndər ağır müharibə şəraitində yaşayan, erməni işğalçılarına qarşı mübarizə aparan Azərbaycanın ən çətin məqamlarında da ölkəmizin xilas yollarına yalnız hərbi qüdrətimizin artırılmasında deyil, həm də xalqımızın mənəvi dəyərlər baxımından çox güclü olmaq potensialında, Azərbaycanın zəngin və orijinal mədəniyyət yurdu olmasında görür, klassiklərimizin bənzərsiz irsini ən müxtəlif vasitələrdən istifadə edərək dönə-dönə dünya miqyasına çıxarmaqla doğma yurdumuzu qabaqcıl bəşəriyyətə olduğu kimi tanıtmağa çalışırdı. Bu isə öz növbəsində gecə-gündüz Azərbaycana, onun tarixinə, mədəniyyətinə, ədəbiyyatına qarşı böhtanlar püskürən erməni təxribatını tərksilah etmək, ona böyük zərbə vurmaq demək idi”.[2]

Ulu rəhbər dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinin keçirilməsinə də tarixi-siyasi və ədəbi hadisə kimi dəyər vermişdir. Bu barədə akademik Bəkir Nəbiyev yazır: “Füzuli Heydər Əliyevin sənətinə pərəstiş etdiyi nadir Azərbaycan dahilərindən biri idi. Ulu Öndər Füzuli haqqında ən müxtəlif münasibətlərlə çox maraqlı fikirlər söyləmiş, şairin Azərbaycan ədəbiyyatında, Şərq poeziyası və dünya ədəbi-ictimai fikri tarixində mövqeyini dönə-dönə yüksək qiymətləndirmişdir”.[3]

Heydər Əliyevin uzaqgörənliyi sayəsində Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsinin mənəvi coğrafiyası çox geniş olmuşdur. Bu tədbir Türkiyənin Ankara və İstanbul, Rusiyanın Moskva və Sankt-Peterburq, İranın Tehran və Təbriz, İraqın Bağdad, Kərbəla və Kərkük ərazilərini, habelə, Tiflis, Daşkənd, Dərbənd, Mahaçqala və başqa şəhərləri əhatə etmişdir. Bu münasibətlə Parisdə

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.56

[2] Yenə orada, s.57

[3] Yenə orada, s.58

YUNESKO-nun baş qərargahında bir sıra yığıncaq, beynəlxalq forum, Türk dünyası yazıçılarının üçüncü qurultayı, türksoy təşkilatının 8-ci toplantısı, Bakıda beynəlxalq simpozium keçirilmişdir. Heydər Əliyev 1996-cı il noyabrın 8-də Bakıda keçirilmiş zirvə toplantısında Füzuli sənətinin fəlsəfi mahiyyətini, onun özünəqədərki dövrün Şərq və Qərb fəlsəfəsini, zəmanəsinin fəlsəfi fikrini dərindən öyrəndiyini, bir sıra əsərlərini fars, ərəb və türk dillərində yazmış şairin poetik irsinin əhəmiyyətini xüsusi qeyd etmişdir".[1]

Akademik Bəkir Nəbiyev Füzuli yubileyindən danışanda onun tarixi-siyasi əhəmiyyəti haqqında bəlgələyir ki, "Füzuli–500" tədbiri xalqımızın mənəvi həyatını zənginləşdirmək, adamlarımızı ruhlandırmaq, Vətənə, torpağa sədaqət ruhunda tərbiyələndirməklə bərabər, "Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək üçün hamımızı səfərbər edir".[2] Akademik qeyd edir ki, Heydər Əliyev müdrik siyasətçi və dövlət xadimi kimi qiymətləndirirdi ki, "yubileylərin keçirilməsi bir tərəfdən yubilyarların xalq, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir".[3] "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın" – belə öyüd-nəsihət edirdi Ulu Öndər. "Beləliklə də, Heydər Əliyev dövlət yubiley komissiyasının üzvləri, elmi müəssisələr, yaradıcılıq təşkilatları, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, yerli icra orqanları qarşısında vəzifə kimi qoyur və tələb edirdi ki, bu tədbir vasitəsilə Azərbaycan xalqı dünyaya daha yaxından tanıdılsın". "Qoy dünya bilsin ki, xalqımızın çoxəsrlik, zəngin tarixi mədəniyyəti var".[4] Akademik Bəkir Nəbiyev fikirlərini dinamik inkişaf etdirərək ümumiləşdirmişdir ki, "Heydər Əliyev iftixar duyğusu ilə deyirdi ki, bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə, Bağdadda, həm də Ankarada Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər türk cümhuriyyətləri də vüqarla dayanmışdır. Ay, ulduzlu Türkiyə

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.60

[2] Yenə orada, s.60

[3] Yenə orada, s.61

[4] Yenə orada, s.61

bayrağının yanında indi artıq beş müstəqil türk cümhuriyyətinin bayraqları dalğalanır. Bunlardan biri də Azərbaycanın bayrağıdır".[1]

Füzuli tədbirinin ədəbi-ictimai əhəmiyyəti bir sıra nailiyyətlərlə yanaşı, bundan ibarət olmuşdur ki, Bakı, Tehran, Təbriz, Ankara, İstanbul, Bağdad, Kərkük, Paris, Moskva və Pekində yığıncaqlar, elmi sessiyalar, beynəlxalq simpoziumlar keçirilmişdir. "1996-cı ildəki beynəlxalq simpoziumda dünya füzulişünaslığının 32 ölkəsindən yetmiş nümayəndə məruzə etmişdir", "dahi sənətkarın parlaq irsinin XXI əsrdə tədqiqinə dair konkret istiqamətlər müəyyən edilmişdir".[2]

Akademik Bəkir Nəbiyevin məlumatına görə Molla Pənah Vaqifin Şuşadakı heykəlinin açılışında vilayətin o zamankı bütün erməni rəhbərliyi, ziyalıları iştirak edib. Heydər Əliyev "Böyük Azərbaycan şairi Vaqifin timsalında Qarabağda XVIII əsrin ortalarında məskunlaşan ermənilərə başa salırdı ki, torpağın əsl sahibləri, onun təəssübünü çəkənlər, onun şöhrətini dünyaya yayanlar kimlərdir".[3] "Heydər Əliyevin iradəsilə Şuşada ucaldılan Vaqif məqbərəsi yalnız konkret bir şairin abidəsi deyildi, bu məqbərə daha çox, türk-azərbaycanlı ruhunun əsrlər boyu Qarabağda hakimiyyətinin simvolu idi, bu torpaqda yaranmış təkrarsız sənətin simvolu idi".[4]

Cəlil Məmmədquluzadə Heydər Əliyevin "ən çox sevdiyi, yaradıcılığına pərəstiş etdiyi icitmai fikir bahadırı idi." Ulu Öndər 1998-ci il dekabrın 28-də Respublika Sarayında müdrik yazıçının 125 illik yubileyindəki nitqində "Cəlil Məmmədquluzadənin öz yaradıcılığı ilə Azərbaycan xalqının milli oyanışında misilsiz rol oynadığını əsaslandırırdı." Əsaslandırırdı ki, yeni milli ideologiyanın yaradıcıları ilk növbədə bu dahi sənətkarın ədəbi-ictimai irsinə müraciət etməlidir: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır. Və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.62

[2] Yenə orada, s.64

[3] Yenə orada, s.64

[4] Yenə orada, s.65

böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın yaranmasına, formalaşmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir”.[1]

Heydər Əliyev Hüseyn Cavid irsinə də yüksək qiymət vermişdir. Akademik Bəkir Nəbiyev yazır ki, “Heydər Əliyevin nəzərində Hüseyn Cavid Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmiş dahi sima idi. Onun yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Ulu Öndər əsaslandırırdı ki, bu hörmətli sənətkarın bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırır. Ədib həmişə öz iradəsiylə yaşamış, öz xalqına sadiq olmuşdur, xalqını həddən artıq sevmiş və ona yetərincə xidmət etmişdir.” Buna görə də Heydər Əliyev onun qəbrini 1982-ci ildə Naxçıvanda ata-baba torpağına tapşırıb. 1997-ci ildə böyük ədəbiyyat hamisi Hüseyn Cavid məqbərəsinin açılışı zamanı deyib: “Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim...”[2]

Milli mədəniyyətimizin təşkilatçısı və mübəlliği Heydər Əliyev “Cəfər Cabbarlıya zəmanəsinin fəlsəfəsini və psixologiyasını, dövlətlər arasında qırılmaz əlaqəni, xalqın tarixi müqəddəratının rəşadətli səhifələrini açıq göstərmək baxımından qiymət verirdi. Böyük rəhbər bildirirdi ki, onun gördüyü işlər – sözün əsl mənasında yorulmaz əmək fədaisinin hünəridir. “Cəfər Cabbarlı müasir Azərbaycan dramaturgiyasının bünövrəsini qoymuşdur. Bu dramaturgiyanın inkişafının əsas istiqamətlərini müəyyən etmişdir, Azərbaycan xalqının və o zamankı sovet ölkəsindəki bir çox başqa xalqların teatr mədəniyyətini zənginləşdirən qiymətli töhfələr vermişdir. Bizim bütün müasir dram sənətimiz müəyyən mənada Cabbarlı teatrının bəhrəsidir. Mirzə Fətəli Axundzadə və Cəlil Məmmədquluzadənin böyük ənənələrini inkişaf etdirib zənginləşdirən Cabbarlı teatr yaradıcılığının həqiqi novatoru olmuş, Azərbaycan səhnəsində bu gün də

---

[1] Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, “Ozan”, 2000, s.265

[2] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.68

gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur".[1]

Akademik Bəkir Nəbiyev "Heydər Əliyev haqqında etüdlər" əsərində həyəcanlı, nikbin salnaməçi kimi görünür. O, bütün böyük sənətkarların yubileylərinin məna və mahiyyətindəki alt qatları: tarix və siyasəti də bəlgələyir, onların sənət missiyasının cövhərini, fitrətini üzə çıxarıb oxucuya təqdim edir. Baxın, Xalq şairi Səməd Vurğun haqqında danışanda da Ulu Öndərin siyasi xadim fitrətinin gizli mənalarını belə vurğulayırdı: "Azərbaycan ədəbiyyatının keçən əsrdəki inkişafının mühüm mərhələsi onun (Səməd Vurğunun – Ə.Ə.) şərəfli adı, böyük istedadı və çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə üzvi surətdə bağlıdır." "Yüksək humanist dəyərləri, həyati və tarixi hadisələri fəlsəfi dərinliyi ilə qavrayıb mənalandırmaq, xəlqilik bədii sözün, çoxəsrlik ənənələri, qırılmaz varislik əlaqələri, romantik vüsət Səməd Vurğun poeziyasının əsas xüsusiyyətlərindəndir. O, milli şeirimizi novator keyfiyyətlərlə zənginləşdirmiş, yüksək sənət məktəbi yaratmışdır".[2] Ədəbiyyat bilicisi Heydər Əliyev xüsusi vurğulayırdı ki, "XX əsr, xüsusilə də həmin yüzillikdə Səməd Vurğunun yazıb-yaratdığı 1920-50-ci illər bəşər tarixinin çox mürəkkəb, ziddiyyətli proseslərlə əlamətdar olan bir dövrüdür. Birinci Dünya müharibəsi, milyonlarla günahsız insanın qanı bahasına Rusiya imperiyasında sosializmin bərqərar olması, faşizmin Avropaya meydan oxuması, İkinci Dünya müharibəsi, "soyuq müharibə"nin təzadları, Böyük Vətən müharibəsi ərəfəsində və faşizm üzərində qələbədən sonra sovetlərin möhkəmlənməsi, ölkədə 1930-50-ci illərdə şəxsiyyətə pərəstişin tüğyan etməsi... "belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər bir insana nəsib ola bilməzdi".[3]

Akademik Bəkir Nəbiyev qeyd edir ki, Heydər Əliyev Səməd Vurğunun poeziya dilini çox yüksək qiymətləndirmişdir. O deyirdi: "Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırmışdır... Vaqif Azərbaycan şeirində yeni bir yol açmışdır. Səməd Vurğun isə Azərbaycan şeir dilini tarixin yeni mərhələsinin tələblərinə əsasən daha da zənginləşdirib, inkişaf etdirib, ana dilimizi hər bir azərbaycanlı üçün daha da doğma, "sevimli və şirin edib-

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.68-69

[2] Yenə orada, s.69

[3] Yenə orada, s.69

dir”.[1]

Müdrik şəxsiyyət Heydər Əliyev 1930-50-ci illərin mürəkkəb tarixi şəraitini, ədəbi prosesin çətinliklərini Xalq şairi Süleyman Rüstəmə münasibətində belə səciyyələndirmişdir: “Deyirlər ki, niyə Hüseyn Cavid, Seyid Hüseyn, Əhməd Cavad, Mikayıl Müşfiq və başqaları repressiyaya məruz qalıblar, amma məsələn, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza və qeyriləri yox? Biz unuda bilmərik ki, Stalin repressiyası qlobal miqyaslı bir zəlzələ, dəniz tufanı, qasırğa, nəhəng qar uçqunu kimi ölkəyə gəlmiş ictimai-siyasi fəlakət idi. Bu katakilzmdən bir təsadüf, yaxud möcüzə sayəsində qurtulmuş bir sıra Vətən oğullarını, onların o biri qardaşlarını xilas ola bilmədikləri üçün ittiham etməyə bizim haqqımız yoxdur”.[2] Akademik Bəkir Nəbiyev “alman faşizminə qarşı mübarizədə şairin əsəri Azərbaycan xalqı, özəlliklə də, gənclərimiz arasında vətənpərvərlik hisslərinin inkişafında, qüvvətlənməsində çox böyük rol oynamışdır”, – deyə böyük Öndərin qiymətli fikirlərini xatırladanda onun fərdiləşdirmələrini xüsusi qabardırdı: “Yalnız Vətənini, millətini hədsiz sevən və ona sadiq olan bir insan Süleyman Rüstəmin yazdığı şeirləri yaza bilərdi. Bunlar bizim ədəbiyyat, mədəniyyət tariximizin qızıl səhifələridir”.[3]

11 aprel 1998-ci il tarixli təbrikində Heydər Əliyev Məhəmmədhüseyn Şəhriyarı böyük vətənpərvərlik duyğularının tərənnümçüsü olan filosof şair kimi təqdim edirdi. Bildirirdi ki, “Şəhriyarın irsi onun yaşayıb-yaratdığı zamanın, ictimai-siyasi, fəlsəfi və ədəbi görüşlərinin parlaq inikasıdır”.[4] Heydər Əliyev demişdir: “Şair xalq həyatının dərinliklərinə enib, dövrün kəskin ictimai ziddiyyətlərini, şərin, mütləqiyyətin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə bütün dünyaya car çəkmişdir.” “Şəhriyar da Şərqin çox geniş bir regionunda insan mənəviyyatının zənginləşməsində böyük rol oynamışdır”.[5]

Akademik Bəkir Nəbiyev “Etüdlər”də Heydər Əliyevin həm xarakterik cizgilərini, həm də onun cazibədar nitqinin siyasi-ideolo-

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.70

[2] Yenə orada, s.72

[3] Yenə orada, s.71

[4] Yenə orada, s.73

[5] Yenə orada, s.74

ji, ədəbi-estetik mahiyyətini vurğulamış, onun müasir tarixi əhəmiyyətini səciyyələndirmişdir. "O çıxışlarında heç bir natiqi təkrar etməz, yubileyi qeyd olunan ədəbi sima və onun yaradıcılığı haqqında şəxsən öz qənaətlərini söylər, həm də bu zaman özünə xas olan iti hafizə, elmi məntiq nümayiş etdirərdi".[1]

Heydər Əliyev 1998-ci il aprelin 24-də Xalq şairi Mirvarid Dilbazinin 85 illik yubileyində iştirak etmiş və parlaq nitq söyləmişdir. O, Mirvarid Dilbazinin şəxsiyyətini və sənətini ədəbiyyatımızın nadir hadisəsi adlandırmışdır. Mirvarid Dilbazi "İstiqlal" ordeni ilə təltif edilmiş, "1930-cu ildən başlayaraq Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Rəsul Rza, Osman Sarıvəlli, Məmməd Rahim, Nigar Rəfibəyli kimi sənətkarlarla bir sırada, yorulmaq bilmədən səmərəli fəaliyyət göstərmişdir." Böyük rəhbər Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı adını verəndə də qiymətləndirirdi ki, "bu cür təltifləri əks etdirən hər bir fərman keçmiş Sovet İttifaqının Mərkəzi Televiziya Kanalı və əsas qəzetləri ilə bütün ölkəyə və xaricə çatdırılır, dünyada müəyyən əks-səda verir, hər dəfə bu münasibətlə Azərbaycanımızın mübarək adı dönə-dönə çəkilir, dostları sevindirdiyi kimi xəbis düşmənlərimizi pərt edirdi".[2]

15 aprel 1995-ci ildə Heydər Əliyev daha üç böyük sənətkarı ilk dəfə "İstiqlal" ordeni ilə təltif etmişdir. Bunlar Xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rza Ulutürk olmuşdur. Bunun səbəbini Ulu Öndər belə izah edirdi: "Milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyildir. Çox vaxt tələb edən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər. Ona görə mən düşündüm: biz müstəqillik qazanmışıq. Respublikamız müstəqil dövlətdir. Xalqımız milli azadlıq əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində, şübhəsiz ki, xalqımızın hamısının – hərənin öz yeri, öz payı, hərənin öz xidməti var. Ancaq elə şəxsiyyətlər var ki, onlar bu işin, bu prosesin yaran-

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.74

[2] Yenə orada, s.76

masında, formalaşmasında, inkişaf etməsində xüsusi xidmətlər göstəriblər. Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk ədəbiyyatımızın məhz bu cür çox görkəmli simalarıdırlar”.[1] Akademik Bəkir Nəbiyev bu üç sənətkarın poeziyasını dəyərləndirərkən, Xəlil Rza Ulutürkün 12 yanvar 1992-ci ildə Naxçıvanda yazdığı “Dədə Heydər – Atatürk” şeirinin üzərində xüsusi dayanmış, müqayisə aparmışdır: “Mustafa Kamal Paşa Atatürk Türkiyəni acgöz müdaxiləçilərin əlindən alıb, ona yeni həyat verdiyi kimi Heydər Əlirza oğlu Əliyev də Azərbaycanı həm xarici, həm də daxili düşmənlərin əlindən alıb, onu xilas edərək məmləkətin tarix səhnəsindən silinməsinə yol verməyibdir”.[2] Şairin “Dədə Heydər – Atatürk” şeirində iki siyasi-tarixi şəxsiyyətin birlikdə ifadəsi mənalı idi. Akademik Bəkir Nəbiyev, Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rza Ulutürkün Azərbaycanın azadlıq və istiqlal uğrunda mübarizəsində müstəsna xidmətlərindən, poeziyalarının ədəbi-ictimai qüdrətindən danışırdı. Heydər Əliyev Bəxtiyar Vahabzadənin “Özümüzü kəsən qılınc” əsərinin tamaşasına baxdıqdan sonra deyib ki, şair bu əsəri ilə Azərbaycan dramaturgiyasında ilk dəfə olaraq xalqımızın tarixi əsilliyinə, onun lap qədim türk köklərinə müraciət etmiş, parlaq bədii obrazlar, gərgin dramatik konfliktlər əsasında bu günümüzlə səsləşən milli birlik, müstəqillik, vətənpərvərlik ideyalarını təsvir və tərənnüm etmişdir.[3] Heydər Əliyev Bəxtiyar Vahabzadənin bu əsərini sənətkar cəsarətinin qiymətli nümunəsi hesab edərək demişdir: “Onun pyesində xalq taleyinin həll olunduğu məqamlarda daxili çəkişmələrdən, şəxsi ambisiyalardan uzaq olmaq, xalqın bütün imkanlarını həm intellektual, həm də silahlı qüvvələri istiqlal uğrunda mübarizədə birləşdirməyin böyük əhəmiyyəti vardır”.[4]

Akademik Bəkir Nəbiyev Məmməd Araz lirikasının təsir gücündən danışarkən qeyd etmişdir ki, “vətənpərvərlik, vətəndaşlıq, xalq taleyinin ağır məqamlarında onun xoşbəxtliyi üçün canını qurban verməyə hazır olmaq Məmməd Arazın lirik qəhrəmanı üçün ən səciyyəvi keyfiyyətdir”.[5]

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 clddə, IV cild. Bakı, “Çinar-çap”, 2009, s.77

[2] Yenə orada, s.80

[3] Yenə orada, s.82

[4] Yenə orada, s.82

[5] Yenə orada, s.82-83

Xəlil Rza Ulutürkün poeziyasını isə belə qiymətləndirmişdir: "Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə mövzusu Xəlil Rzanın "Məftillə sarılmış yaralar" poemasından "Davam edir 37" kitabındakı şeirlərinə qədər uzun bir yol keçmiş və xalqımızın bu günü üçün bəlkə də bir ordunun görəcəyi qədər böyük iş görmüşdür".[1]

Bizi millət kimi qoruyub saxlayan dilimiz, ədəbiyyatımız, tariximiz və ənənələrimizdir. Hazırki siyasi-tarixi şəraitdə bu sahədə respublika Prezidenti, cənab İlham Əliyevin böyük xidmətləri vardır. O, Ulu Öndərin ədəbi-ictimai fikir tariximiz haqqında vacib konsepsiyasını səylə davam etdirməkdə və əhəmiyyətli uğurlar qazanmaqdadır.

AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayevin "Müstəqillik dövrünün milli öndəri" adlı elmi-publisistik məqaləsi 1998-ci ildə "Elm" nəşriyyatında çapdan çıxmış "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabındandır.[2]

Məqalə 1993-1998-ci illərdə çap edilmiş "Müstəqilliyimiz əbədidir" və "Qayıdış" kitabları, habelə, müstəqillik dövrünün bədii ədəbiyyatı əsasında yazılmışdır. Analitik yönlü, sosial-siyasi və fəlsəfi-etik əsərdir, Yaşar Qarayev məntiqinin vüsətli nümunəsidir.

AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev dövlət və sənət məsələlərinə milli mentalitet sərvətinin ucalığından yanaşmış və göstərmişdir ki, "torpağın da, yaddaşın da sərhədləri yalnız belə bir sərvətin olduğu yerdə – vahid, bölünməz, əbədi mənəvi məkanda parçalanmır. İstisnasız, bütün digər sahələrdə və hallarda da uğur və qələbələrin hamısı yenə də məhz bu bünövrənin – güclü, müstəqil, suveren dövlətin və dövlətçilik şüurunun mövcudluğu, möhkəmliyi zəminində mümkün olur."[3] Müəllif tezisləşdirir ki, sabitliyin də əsas səbəbi o olub ki, bu milli mentalitet – "milli-mənəvi dəyərlər həmişə dövlətin və dövlət də öz növbəsində milli-mənəvi dəyərlərin keşiyində ayıq-sayıq dayanıb. Mentalitet tərbiyəsinə, milli "Mən" yaddaşına və şüuruna biganə qalmamaq cəmiyyətdə əbədi, sabit müstəqilliyin, suverenliyin taleyinə və gələcəyinə də biganə qalmamağın

---

[1] Bəkir Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. 5 cilddə, IV cild. Bakı, "Çinar-çap", 2009, s.81

[2] Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Elm", 1998, s.125-177; Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri (5 cilddə), V cild, Bakı, "Elm", 2016, 728 s.

[3] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı: "Elm", 2016, s.9

şərti və zəmini olub..."[1]

Professor Yaşar Qarayev Prezident Heydər Əliyevi ədəbi-tarixi yaddaş baxımından təqdim etmiş və onun siyasi fəaliyyətini yüksək qiymətləndirmişdir. Alim yazmışdır: "Yeni yüz ilin və yeni minillik astanasında Azərbaycanda məhz belə miqyasda sabitlik və əmin-amanlıq üçün xalqın müdriklik göstərib vaxtında seçdiyi Prezidentin – Heydər Əlirza oğlu Əliyev adlı tarixi şəxsiyyətin müstəsna milli xidməti vardır".[2]

Yaşar Qarayev Heydər Əliyevin ümummilli obrazını, əsasən, 3 baxımdan təqdim etmişdir: *1990-cı illərə qədərki rəhbər-ideoloq və ictimai-siyasi xadim; Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini; Heydər Əliyevin öndərlik, tarixi missiya fəaliyyəti.*

Alim bütün bu tarixi missiya mərhələlərində siyasi rəhbərin hərtərəfli fəaliyyətinin əsaslarına dövlətçilik və ədəbiyyat fəlsəfəsi zəminindən diqqət yetirmişdir.

Məqalə müəllifi əvvəlcə onun milli xarakterini oxucuya təqdim edir: "Heydər Əliyev üçün siyasət heç vaxt fövqəlməqsəd olmayıb; o, heç vaxt hakimiyyətə tankda gəlməyib və hakimiyyətdən təyyarədə qaçmayıb, arxaik, populist iqtidar davası və belə davaların çevriliş, qəsd, piket, terror, bazar, küçə, vağzal... kimi üsulları əvvəldən bu bioqrafiyaya yaddır. Müasir demokratik dəyərlər, parlaman yolu, siyasi intellekt və unikal iradə ümumiyyətlə mübarizədə ibtidai, kustar, primitiv "əlbəyaxaya" ehtiyacı aradan qaldırıb. Elə bütün bu keyfiyyətlərə də məhz Heydər Əliyev millətin coşub-daşan enerjisinə dəqiq məcra, uğurlu axar təmin edə bildi".[3]

Yaşar Qarayev hesab edir ki, Heydər Əliyevə ideoloq və ictimai-siyasi xadim kimi "həm xoşbəxt, həm də tragik şəxsiyyətin həyatını, taleyini yaşamaq qismət olub"[4] Alim Heydər Əliyevin polad xarakteri zəminində siyasi xadimin həm sovet, həm keçid, həm də müstəqillik mərhələlərindəki fəaliyyətinə ekskurs etmişdir. O hesab edir ki, Heydər Əliyev xalq və millət üçün tarixi məsuliyyəti həyatı boyu yaşamış və uca tutmuş, onun əsasında milli-mənəvi dəyərləri görmüş və onlardan güc almışdır: "Dövlət, cəmiyyət miqyasında sa-

[1] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı: "Elm", 2016, s.9
[2] Yenə orada, s.9
[3] Yenə orada, s.12
[4] Yenə orada, s.13

bit, qlobal ictimai əxlaq, təfəkkür və ideologiya yalnız onda sabitləşir və etibarlı olur ki, o, milli-mənəvi dəyərlərə güvənir”.[1] Şərhçi davam edir: “Məhz bu mənada Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində ən böyük öndərlərin vəsiyyət və ənənəsinə sadiq qalır”.[2]

Yaşar Qarayev Heydər Əliyevin xarakter fərdiyyətində siyasət və sənət birgəliyi görmüş, ona bu baxımdan dəyər və qiymət vermişdir: “Heydər Əliyevin ifasında və icrasında həmişə siyasət də sənət, siyasətçi də sənətkar səviyyəsinə qalxa bilir. Daha doğrusu, məhz “siyasət əməldə, hərəkətdə fəlsəfəyə çevriləndə (yalnız bu zaman!) siyasətçi də sənətkara çevrilir, filosof təcəssümü, mütəfəkkir obrazı, alim statusu ola bilir. Bütün bunlar “Heydər Əliyev fenomenindən həm də bir sənət və sənətkarlıq hadisəsi kimi danışmağa əsas verir. Belə bir söhbətin təkcə siyasi ideya əsası yox, həm də konkret ədəbi predmeti var: son iki ildə Heydər Əliyevin beş fundamental kitabı çapdan çıxıb və elmi ictimaiyyətə çatdırılıb”.[3]

Ədəbiyyat filosofu analitik təhlilləri fonunda 2 suala cavab axtarmışdır: 1.Heydər Əliyev kimdir? 2. “Əliyevlik nədir?” O, bu suallara cavab zəminində Azərbaycanın siyasi dövlətçilik tarixinə ekskursiya etmiş və bir sıra tezislərin gücü ilə siyasi-tarixi keçmişi bir məcrada canlandırmışdır: “Azərbaycanda Mircəfər Bağırovdan sonra milli rəhbərin siyasi müstəqilliyi az qala sıfıra bərabər idi, (keçid dövründə isə /1988-1993/ bu qeyri müstəqillik həm “yuxarılardan” /Moskva, Kreml/, həm də “aşağılardan” iki qat asılılıq şəklini almışdı). Bu ölçünü sıfırdan sonsuza gətirib-çıxaran Heydər Əliyev oldu. Hətta, sovet dövründə də Heydər Əlirza oğlu öz müstəqillik (milli mənafeyə sədaqət) fəaliyyətini dondurmadı. Onun türk ağılı Siyasi Büronun vahid rus-slavyan düşüncəsində aydınca seçildi və o, bu ali rəhbər strukturda da türk-islam lideri kimi təkcə sovet məkanında yox, bütöv dünyada türklüyün mənafeyini cəsarətlə müdafiə etdi. Azərbaycanın milli mənafeyi naminə Baş katibin (L.İ.Brejnevin – Ə.Ə.) özünü düz üç dəfə Bakıya gətirdi...”[4]

Heydər Əliyev o zamankı ittifaq miqyasında görkəmli rəhbər-ideoloq və ictimai-siyasi xadim olmuşdur: “Azərbaycanın dövlətçi-

---

[1] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı: “Elm”, 2016, s.13
[2] Yenə orada, s.13
[3] Yenə orada, s.14
[4] Yenə orada, s.19-20

lik təcrübəsini bütün sovet məkanında yaymaq üçün Y.V.Andropov şəxsən Heydər Əlirza oğlu Əliyevi Moskvaya, Kremlə dəvət etmişdi”.[1] Yaşar Qarayev göstərir ki, o möhtəşəm 10 ili yox, böhranlı, ağır və çətin, lokal son beş ili bir rəhbər kimi Heydər Əliyevi öz tərcümeyi-halının və öndərlik fəaliyyətinin zirvə məqamı hesab edir.[2]

Ümummilli lider bu baxımdan Gürcüstanın Prezidenti E.A.Şevardnadre ilə özü arasında bir bənzərlik görmüş və bunu etiraf etmişdir. Eduard Şevardnadze gürcü xalqı üçün nəyi etmişdirsə, Heydər Əliyev də Azərbaycan xalqı üçün onu etmişdir.

Yaşar Qarayev Heydər Əliyevi bizə sərt həqiqətlər məcrasında təqdim edir: “Sona qədər parçalanma perspektivi yalnız Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə aradan qalxdı, milli dövlətçilik xilas edildi və beləliklə, ərazinin də bərpa olunması üçün ilkin şərait, obyektiv tarixi imkan yarandı və bu istiqamətdə miqyaslı, strateji diplomatiya başlandı”.

Müəllif Heydər Əliyev xarakterinin inam və iradə nümunəsini müxalifətin öz cəbhəsindən canlandırır: “Taleyin ən çətin anında, tarixi intixab və sınaq məqamında da tələb, cəngavər, müdrik öndəri əməldə, işdə hamı etiraf və təsdiq etdi: opponent də, həmfikir və həmkar da! Təsəvvür edin: indiki müxalifət könüllü şəkildə hakimiyyətdən əl çəkdi, əvvəl spiker kürsüsünü, sonra prezident masasını tərk etdi ki, vakansiyanı yeni lider tutsun. Bu – Heydər Əliyev şəxsiyyətinə və intellektinə inamın, etibar və ehtiramın ifadəsi idi”.[3]

Yaşar Qarayev Heydər Əliyevin əyilməz, məğlubedilməz ruhunu dəqiq, obrazlı təcəssüm etdirir: müxalif arsenala qarşı Heydər Əliyev güzəştsiz olub. “Ömründə tək bir dəfə diz çöküb: bir prezident kimi əyilib milli bayrağı öpəndə...”[4] Alim Heydər Əliyevin “Müstəqilliyimiz əbədidir” və Vasif Talıbovun “Qayıdış” kitabları üzərində geniş dayanmış,[5] onların həm də elm, sənət və ədəbiyyatla bir bütövdə olduğunun nümunəsini göstərmişdir. Yaşar Qarayev məqalədə Heydər Əliyevin qlobal siyasətdə unikal, elit şəxsiyyət olduğunun faktlarını vermiş, hesab etmişdir ki, “beş fundamental ki-

---

[1] Yaşar Vahid oğlu Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, V cild. Bakı: “Elm”, 2016, s.10
[2] Yenə orada, s.10
[3] Yenə orada, s.12
[4] Yenə orada, s.13
[5] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, “Qayıdış”, Bakı, 1997

tabda... məhz elitar peşəkarlığın və qeyri-adi, unikal təhtəlşüurun, intuisiyanın stixiyası cisimləşir və sənədləşir”.[1]

Kitablarda “müstəqillikdə dönməzliyin nəzəri təlimi, elmi-strateji əsası, intizam və icra kodeksi, bütün bunların canlı təfərrüatı, həyat təcrübəsi, gündəlik dərsləri verilir. O, Heydər Əliyevdən “müstəqil dövlətçilik tarixində haqqı olan şəxsiyyət kimi danışır.” Bu haqqın arxasında – Azərbaycanda və keçmiş sovet məkanında yarım əsrə yaxın rəhbərliyin sınaqdan çıxan tarixi təcrübəsi durur. Heydər Əliyev şəxsiyyətinin qlobal miqyası və epoxal vüsəti vəhdətdə ifadə və təsdiq edilir.

Mütəfəkkir Yaşar Qarayev mövcud beş kitabın əhatə tarixi, coğrafiyası, milli-mənəvi məkanı və dəyərləri haqqında özünəməxsus danışır, fərdi filosof özəlliyini ifadə edir. Belə: “Beş kitabda əhatə olunan dörd ildən əvvəlki dörd-beş on illiyin də, ondan sonrakı üç ilin də alt qatı və arxa planı görünür, yaxınlaşan üçüncü eranın astanasında həm ən qədim türk və islam dəyərlərini, həm də Avropa mentalitetinin ən modern siyasi dəyərlərini içinə alan miqyaslı fon, məcra və məkan müəyyənləşir”.[2]

Alim Heydər Əliyevin siyasi natiqlik məharətinin fərdiyyətini, onun cazibəsini sözün ecazkar qüdrətilə maddiləşdirməyə xüsusi səy göstərmişdir. Bir baxın: “Öz şifahi nitq üslubu, improvizasiya təbiiliyi ilə də müəllifin dili, ifadə tərzi ənənəvi rəsmi ədadan (konselyariya və profokopsiya) əsaslı şəkildə fərqlənir, fikrin dinamizmi, sözün enerjisi, kəlmənin bədii zərbə gücü – bunların hamısı tribunadan gəlir, auditoriya ilə birbaşa ünsiyyətdən gəlir”.[3]

Heydər Əliyevin natiqlik gücünün fərdilikləri, unikallığı detalları ilə nə qədər dəqiq ifadə edilmişdir: “Uçuşqabağı verilən intervülər, səfərbərlik anında xalqa xitablar, əcnəbi opponentlə təkbətək dialoqlar, dünya liderləri ilə müsahibələr məqamında mikrofona deyilmiş improvizasiyalar... Onlarda fitriliyin təbiiliyi, sözdə, tələffüzdə, ahəngdə və ritmdə etnik ilkinliyin, ozan-əcdad stixiyasının duruluğu və diriliyi var”.[4]

Yaşar Qarayev Heydər Əliyev haqqında tarixi sənəd olan “Qa-

---

[1] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, “Qayıdış”, Bakı, 1997, s.15

[2] Yenə orada, s.15

[3] Yenə orada, s.15

[4] Yenə orada, s.15-16

yıdış" kitabından da danışmış və bu qayıdışı akademik İsa Həbibbəyli, akademik Rafael Hüseynov kimi obrazlı dəyər olaraq mənalandırmışdır: "Heydər Əliyevin milli öndərlik tərcümeyi-halında "müstəqillik mərhələsi" onun Naxçıvana tarixi qayıdışı ilə başlayır. Təsadüfi deyil ki, bu dövrlə bağlı sosioloji və publisist çıxışların toplandığı kitab da "Qayıdış" adlanır... Naxçıvanda başlayan "qayıdış" Bakıda davam etdi və Azərbaycanda sosial-mədəni tərəqqi tarixində doxsanıncı illər təzədən yetmişinci illərin təbii, məntiqi davamına çevrildi. Ənənədə tarixi estafet, dövlətçilikdə irsilik probleminin həlli aradakı "böhran" və "parçalanma" mərhələsindən çıxa bilməyin yeganə mümkün və məqbul yolu kimi özünü doğrultdu. Yetmişinci və doxsanıncı illər bir-birinin davamına, Heydər Əliyev isə hər iki on ilin müştərək, ortaq liderinə çevrildi. Genetik kökə, milli "Mən"ə, tarixi yaddaşa, dünya ilə inteqrasiyaya daha miqyaslı şəkildə qayıtdı... Bütün bunların da məntiqi yekunu və nəticəsi o olacaq ki, Qarabağ Azərbaycana və Şuşa Qarabağa qayıdacaqdır".[1]

Alim Heydər Əliyevin beş kitabını (zamanında – Ə.Ə.) "Müstəqillik haqqında elm" adlandırmış və bu kitabları türk dövlətçilik tarixini dünyaya bəyan etmiş "Qutadqu-bilik"lə – xoşbəxtlik haqqında elmlə bağlamışdır.

Yaşar Qarayev Heydər Əliyev fitrətinin bir xüsusiyyətini də orijinal ifadə etmişdir. Heydər Əliyev nəzəri yazmaqdan çox, praktik-əməli hərəkət edirdi. Alim Heydər Əliyevin fitrətindəki bir məntiqi də obrazlı ifadə etmişdir: "Türk dövlət ərləri, öndərləri tarixi işlə və əməllə həyatın özündə yazmağa daha çox üstünlük verir, nəinki onu qələmlə, kağızda yazmağa. Məhz bu ənənələr də Prezident Heydər Əliyevin simasında yenidən birləşib vəhdət təşkil edir: o, tarixi əməllə həyatda, həm də qələmlə kitabda yaradır".[2] Analitik təhlilçi davam edir: "Tarixi də, tarix kitabını da yaradarkən filosof, mütəfəkkir və yazıçı Heydər Əliyev qələmə və kağıza ehtiyac hiss eləmir. Unikal hadisədir ki, bu kitablar əslində, əlyazması olmayan kitablardır".[3] "Şərqdə ərənlər, şamanlar, ozanlar... yazmağa yox, söyləməyə üstünlük veriblər".[4]

---

[1] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, "Qayıdış", Bakı, 1997, s.16
[2] Yenə orada, s.17.
[3] Yenə orada, s.17
[4] Yenə orada, s.17

Heydər Əliyevin kitabları ilə “Avesta”, “Qorqud” kitabları arasında obrazlı müqayisələrin də öz hüsnü, öz cazibəsi var: “Avesta”nın da, “Qorqud”un da avtoqrafları – əlyazmaları yoxdur. Əvəzində “gen yazmaları” var, damarda, qanda yazılan “qan yazmaları” var, hafizədə, huşda, ruhda qorunan “yaddaş yazmaları” var. Və mən burada sehrli və ibrətli bir tipologiya görürəm”.[1]

Filosof müqayisə edir: üstünə “sinif”, “inqilab”, “dövlət”, “proletar” sözləri yazılmış kitablar var. “İntibah”, “Ana vətən”, “Azadlıq”, “Millət”, “Xalq” sözləri yazılmış kitablar da! Birincidə ölüm, keçicilik, lokallıq, ikincidə – əbədi tarix, qlobal, bəşəri dünyagörüş, şüur və yaddaş vardır!

Yaşar Qarayev “Heydər Əliyev kimdir”, “Əliyevlik nədir” suallarına “Müstəqilliyə həsr edilmiş “Qayıdış” kitabı vasitəsilə cavab verir. Fikir konkretdir: Əliyevliyin ən böyük qələbəsi onun xalqla, zamanla vəhdətidir. Xalq – öndər münasibətlərinin tənasübü budur! Heydər Əliyev hasarı, səddi tarixi-milli arxetiplə ən çağdaş dünya, Avropa dövlətçilik mentaliteti arasından götürdü, onları vahid axara yönəltdi, – Yaşar Qarayev belə düşünmüşdür! Müəllif davam edir: “Heydər Əliyev – Zaman, Heydər Əliyev – Tarix münasibətlərində bir məqam da diqqəti cəlb edir. Heydər Əliyevin ideya rəqibləri həmişə və hər yerdə olub, amma ən böyük qələbəni o, Zamanla əlbəyaxada qazanıb. 75 il – zamandan fəth olunan nəhəng zirvə deməkdir. Və bu zirvədə hər şey – birinci növbədə yaddaş toxunulmaz, suveren və bütöv qalıb: bu 75 ildə zaman bu yaddaşdan bir sm. də olsa, ərazi işğal edə bilməyib!..”[2] Doğrudan da, mahiyyətlidir! Professor Yaşar Qarayev “Milli dirçəliş günü”nü (17 noyabr 1988), “Dövlət müstəqilliyi günü”nü (18 oktyabr 1991), “Qurtuluş günü”nü (15 iyun 1993) dövlət müstəqilliyinin tarixi qanunauyğunluğu kimi dəyərləndirir!

Ədəbiyyatın filosofu Heydər Əliyevin adı və xidmətləri ilə bağlı olan ədəbiyyat və incəsənət faktlarına müqayisələr əsasında böyük məna vermiş, tarixin və yaddaşın parçalanmasının nəticəsi kimi torpaq parçalanmalarından danışmışdır. O, yaddaşın parçalanmasının əsası kimi faktları nişan verir: “...Vətənin torpağının beşdə biri işğal zolağına, millətin yeddidə biri qaçqına və didərginə həmin

[1] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, “Qayıdış”, Bakı, 1997, s.18
[2] Yenə orada, s.19

mərhələdə çevrildi (1990-1998 – Ə.Ə.). Milli iflas, daxili siyasi, hüquqi, mənəvi hərc-mərclik, hərbi xəyanətlər, dövlət çevrilişi cəhdləri əbədi, əzəli dəyər və sərvətlərin qiymətdən düşməsi, mənəvi ictimai həyatın, istisnasız bütün sahələrdə "bazar dövrü" bu vaxtdan başlandı".[1]

Professor davam edir: "Qara yanvar (1990), Ermənistandan, Əsgərandan, Xankəndindən qaçqınlar, Sumqayıt, Quqark, Bağanis-Ayrım, Ağdaban, Xocalı, Şuşa tacirləri bu vaxt baş verdi. Beş ilə seçilən, lakin bir ildə duruş gətirməyən iqtidarlar, dörd il ərzində üç prezident (üç hakimiyyət) dəyişməsi mənəvi-ədəbi-bədii həyatda da qeyri-sabitliyə gətirib çıxardı. Siyasi-ictimai həyatın özündəki mürəkkəblik, rəyasətçi şizofreniya elə bir miqyas aldı ki, hətta, orta soldat təfəkkürlü və adi bez parça, yun idraklı adam da prezidentlik iddiasına düşdü. Təkcə torpaq yox, tarix də parçalandı: üzdən iraq populist "dahilər" hər şeyi yenidən, sıfırdan (bazardan, vağzaldan) başlamağın bədnam yoluna ayaq qoydular. Yüz illər boyu yaranan hər şeyə – hətta, Sabirə, Mirzə Cəlilə, Mirzə Fətəliyə əlqaldıran nankorlar meydan suladı".[2]

Alim tarixin hadisələrini, dərslərini ardıcıl izləyir. Xaos – çox keçmir ki, bu hal ümummilli hərəkata təsirini göstərir. Xalq Cıdır düzünə, Topxanaya yox, sahil meydanına axışır: "Ümummilli hərəkat – erməni ilə Qarabağ davası, Torpaq və Vətən savaşı çeşidli təbəqələr, tayfalar və qruplar arasında vəzifə və mənsəb davasına, "yuxarılarla" "aşağılar" arasında hakimiyyət və rəyasət qarşıdurmasına çevrildi. Kükrəyən kütlə Şuşa və Laçın hayında, həm köhnə, həm də təzə "rəhbərlər" vəzifə və karyera hayında! Heydər Əliyev – Moskvada, "ev dustağı" halında!"[3]

Fəqət obyektiv təhlilçi xaosdakı ahəngi də unutmur: "Bu son dövrü – 1990-1998-ci illər arasındakı zaman zolağını həm ədəbiyyatda, həm də tənqiddə bugünkü tarixi finala gətirib çıxaran qanunauyğunluq baxımından bir boşluq hesab etmək olmaz: siyasətdə də, ideologiyada da bilavasitə bugünkü mərhələnin astanası məhz bu

---

[1] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, "Qayıdış", Bakı, 1997, s.25

[2] Yenə orada, s.25

[3] Yenə orada, s.25

dövrün sosial, ictimai və ədəbi hadisələri idi..."[1] "Ədəbiyyatın milli "Mən"ə, əcdada, kökə, mənəvi suverenliyə qayıdış çağırışları artıq ilk real bəhrələrini verməyə başladı. Şəkinin, Gəncənin, Beyləqanın, Goranboyun tarixi adları özünə qaytarıldı. Latın əlifbası bərpa olundu, üçrəngli bayraq, səkkiz guşəli ulduz, ənənəvi milli dövlət simvolikası əməli, hüquqi status əldə etdi. Milli azadlıq hərəkatı real bəhrələri verdi. Bağımsız Azərbaycan bərabər hüquqla dünya səltənətləri sırasına daxil oldu. Azərbaycanın bayrağı BMT-də dalğalanmağa başladı".[2]

Ədəbiyyatşünas Yaşar Qarayev məqalə boyunca ədəbiyyatın bədii yaddaşından ibrətli örnəklər vermiş, əxlaqi böhran faktlarına bədii örnəklər əsasında diqqət yetirmiş, Anar, Elçin, Sabir Əhmədov, Zəlimxan Yaqub yaradıcılığından nümunələr gətirmiş, bu fonda Heydər Əliyevin tarixi fərmanlarını xatırlatmışdır. Artıq dövlət fərmanlarında başlamış vətəndaş yanğısı, obrazlı desək, sözün divanında, ədəbiyyatda davam etmişdi. "Bu, artıq siyasətin sənəti, Heydər Əliyevin Anarı və Sabir Əhmədovu qabaqlaması demək idi".[3]

Müəllif məqalə boyu sənətlə siyasətin qovuşan, kəsişən məqamlarına, tarixin və sənətin təcrübəsinə istinad etmiş, Bəxtiyar Vahabzadə, Xəlil Rza və Məmməd Arazın istiqlal poeziyasından, Zəlimxan Yaqub və Vaqif Səmədoğlu poeziyasından heyrətli məntiqlə, müqayisə və təşbehlərlə söz açmış, sənətin və siyasətin gücünü vəhdətdə canlandırmışdır.

Məqalə müəllifi yeni tarixi dövr üçün nəzəri təkliflər ünvanlamış, müasir humanitar elm, ədəbiyyat və incəsənətin təcrübəsini, tarixi inkişaf mənzərəsini, nəzəri problemləri öyrənməyi vacib bilmiş və hesab etmişdir ki: "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ilin əvvəlində EA əməkdaşları ilə görüşdə irəli sürdüyü cari və perspektiv vəzifələrin, konseptual problemlərin həlli də yalnız humanitar istiqamətin keyfiyyətcə yeniləşməsi zəminində axıracan gerçəkləşə bilər".[4]

Alim vacib bilmişdir ki, müstəqil dövlətçilik şəraitində qədim dövr, orta əsrlər, XIX-XX əsrlər, dil, ədəbiyyat, incəsənətin yeni ta-

---

[1] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, "Qayıdış", Bakı, 1997, s.24

[2] Yenə orada, s.24

[3] Yenə orada, s.32

[4] Yenə orada, s.60

rixi konsepsiyası işlənməlidir, klassik milli etnogenezin sənətdə əksini tapan inkişaf mərhələlərinə diqqət yetirilməlidir, Azərbaycan və türk xalqlarının mədəniyyəti, ədəbiyyat, dil, fəlsəfə, folklor, etnogenez, tarix, etnopsixologiya və siyasət problemlərinin kompleks tədqiqi başlanmalıdır, türk xalqları arasındakı elmi-mədəni və siyasi əlaqələr qüvvətləndirilməlidir, dünya türkologiya mərkəzləri ilə yeni, müasir əlaqələrin yaradılması mexanizmi işləməli, Bakı və Elmlər Akademiyası yenidən dünyanın türkologiya mərkəzinə çevrilməlidir.[1]

Heydər Əliyev Azərbaycan ədəbiyyatı və mədəniyyətini üç baxımdan qiymətləndirmişdir: 1. Mövcud ədəbiyyat və mədəniyyətimizin təşkilati və təbliği cəhətdən gücləndirilməsi; 2. Ədəbiyyat və mədəniyyətimizin kənar dünyaya tanıdılması, milli kimlik, müəyyənlik məqsədi; 3. Milli ədəbiyyat və mədəniyyətin dövlət siyasətinin tərkib hissəsini təşkil etməsi.

Bu baxımdan akademik Bəkir Nəbiyevin "Heydər Əliyev haqqında etüdlər", akademik Teymur Kərimli və professor Vilayət Quliyevin "Heydər Əliyev və klassik ədəbiyyat"[2] məqalələri əhəmiyyətlidir. Məqalələrdəki ortaq mətləblər, analitik təhlil yaxınlığı, məna və mahiyyət müəyyənliyi, qiymətləndirmə və dəyərləndirmə kimi tətbiq üsulu səciyyəvi görünür.

Məqalələr Heydər Əliyev kimliyini, Əliyevliyi yüksək səviyyədə nişan vermiş, bu fonda dövlət və xalqın milli kimliyi, müəyyənliyi əhatəli təqdim olunmuşdur.

Azərbaycan ədəbiyyatı və mədəniyyəti dövlətlə xalqın keçib gəldiyi yoldur. Biz bu irsdə mənəvi-əxlaqi güvənclərimizi bütün potensialı ilə duyur və dərk edirik. Zəngin islam təfəkkürü və islam dəyərləri Şərq intibahının bütün vüsətini, vətənpərvərlik və humanizmini bədii fikir və düşüncənin poetik qaynaqlarında tədqim etməyi bacarmış və mən Şərqəm özümlülüyü aşılamışdır.

Bu baxımdan Heydər Əliyevin tarixi obrazına işıq tutan müəlliflər hesab etmişlər ki, Ulu Öndər *mütəfəkkir insanları, şəxsiyyətləri, böyük alimləri, yazıçıları onların yaratdığı elm, ədəbiyyat və mədəniyyət xidmətinə görə* müəyyənləşdirmiş və qiymətləndirmişdir.

Heydər Əliyev klassik ədəbiyyatın bilicisi olmuş, hesab etmiş-

---

[1] Bax: Heydər Əliyev. Müstəqillimiz əbədidir. I-IV kitablar. Bakı, 1997-1998, "Qayıdış", Bakı, 1997, s.61

[2] Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, 248 s.

dir ki, ədəbiyyat qədər xalq mənəviyyatı və əxlaqına təsir edəcək ikinci bir qüvvə yoxdur. Ulu Öndər "Kitabi-Dədə Qorqud"u ana kitabımız, ulu babamız, əcdadımız adlandırmış, bu ədəbi-tarixi abidə ilə fəxr etmişdir. Məqalələrin müəllifləri bu baxımdan Heydər Əliyev fəlsəfəsinin mahiyyətinə işıq tutmuşlar. Göstərmişlər ki, parlaq şəxsiyyətin zəkasında "Kitabi-Dədə Qorqud" millətin daimi birliyinin bədii gücü olmuşdur. "Dövlət müstəqilliyi yolu ilə gedən, ölkədə hüquqi-demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər şeydən vacibdir".[1] Çağdaş zəmanəmizdə Türkdilli Dövlətlər Birliyi də bu səbəbdən yaradılmışdır.

"Kitabi-Dədə Qorqud" xalq qəhrəmanlığının bariz nümunəsi olub. Bu günümüz üçün rəmzi mənaya malikdir. Bu rəmz vətənə məhəbbət və sədaqətdir".[2] Heydər Əliyevə görə "Kitabi-Dədə Qorqud" elmi, mədəni və mənəvi fikirləri cəmləşdirən, stimullaşdıran abidədir. Məqalələrin müəlliflərinə görə, Heydər Əliyevin siyasi-ideoloji fəaliyyətinin bütün səviyyələrində klassik ədəbiyyat diqqətdə saxlanılmışdır.

Ümummilli lider bütün səviyyələrdə Azərbaycan xalqının mənafeyini, onun rifahını və azadlığını ifadə etmişdir. Bu baxımdan Teymur Kərimli və Vilayət Quliyev böyük rəhbərin obrazında onun prinsipiallığını, həyat və fəaliyyət mövqeyini önə çəkmişlər. "Elə klassik irsin, klassik ədəbiyyatın əhəmiyyətini və dəyərini də Ulu Öndər bu meyarla müəyyən edir, bu mizan-tərəzidə çəkib sanbalını ortaya qoyurdu. Klassik ədəbiyyatımızın bu cür ölməz qaynaqlarından biri – ana kitab, "Ümmül-kitabı" isə heç şübhəsiz ki, Qurani-Kərim idi".[3]

Müəlliflər klassik ədəbiyyatın mahiyyətini bu mənbə üzərində təqdim edir – fonda Ulu Öndərin işıqlı obrazı dayanır. Heydər Əliyev millətin mənəvi sifətinin göstəricisi kimi Qurani-Kərimdəki mənəvi saflıq, səmimiyyət, doğruluq və sədaqət qaynağını nişan vermişdir. "Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.95

[2] Heydər Əliyev və Azərbaycan mədəniyyəti, III c. Bakı, 2008, s.218-219

[3] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.99

dəvət edən tələblərdir, tövsiyələrdir”[1]

Heydər Əliyev ədəbiyyatımızın hamisi olmuşdur. Müəlliflər yazır: “Ümummilli liderimizin messenatlıq fəaliyyəti, ədəbi irsimizə – istər klassikamıza, istərsə də çağdaş sənətkarlara, xüsusilə, ədəbi gəncliyə və bütövlükdə dünya ədəbiyyatının ayrılmaz tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının inkişafına, nəşrinə və təbliğinə, dünyada layiqincə tanıdılmasına göstərdiyi böyük himayədarlıqdır”.[2]

Dahi rəhbər 1969-2003-cü illərdə, 35 il klassik ədəbi-mədəni irsin öyrənilməsi, təbliği, nəşri və qlobal səviyyədə tanıdılması ilə məşğul olmuşdur. Heydər Əliyev 1979-cu ildə Nizami Gəncəvinin irsinin yenidən öyrənilməsi sahəsində qərar vermiş, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yazıçılar Birliyi, Mədəniyyət Nazirliyi, respublika nəşriyyatları və kütləvi informasiya vasitələri qarşısında vəzifələr qoymuşdur. Teymur Kərimli və Vilayət Quliyev bu tarixi işin müasir, çağdaş fəlsəfəsinə işıq tutmuş, Ümummilli liderin tarixi obrazını bu fonda canlandırmışdır: “Nizami Gəncəvinin yaradıcılıq irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı irəli sürülən vəzifələr respublika elminin və mədəniyyətinin, mənəvi tərbiyə işinin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar və perspektivlər açırdı”.[3]

Bu məsuliyyətli işi Azərbaycan EA Rəyasət Heyətinin qərarı ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsi üzərinə götürmüş, görkəmli şərqşünas, professor Rüstəm Əliyev işə rəhbərlik etmişdir. Nizami əsərlərinin milli dildə və rus dilində sətri tərcüməsi, “Xəmsə”nin poetik tərcümələri yenidən başlanmış, nəticə bundan ibarət olmuşdur ki, dünya və dünya azərbaycanlıları Nizamini tanımış, “Azərbaycan rəhbərliyi və Azərbaycan elmi öz sənətkar övladına birmənalı şəkildə sahib çıxmaqla həmin dövrə qədər qonşu İranda və bir sıra digər ölkələrdə, Avropa və rus şərqşünaslığında dil faktoruna görə Nizaminin guya fars ədəbiyyatının nümayəndəsi olması barəsində irəli sürülən əsassız müddəalara son qoydu”.[4]

Bakıda nizamişünasların beynəlxalq konqresi keçirilmiş, elmi

---

[1] www.heydar-aliyev.org/index_az.jsp
[2] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.104
[3] Yenə orada, s.108
[4] Yenə orada, s.109

məruzələr dinlənilmiş, dünyanın tanınmış şərqşünasları, tarixçiləri, elm və mədəniyyət xadimləri obyektiv mövqe tutmuş, “Nizamini məhz Azərbaycan klassik ədəbiyyatının təmsilçisi, Azərbaycan xalqının dahi oğlu kimi qəbul etdiklərini göstərdi”.[1]

Teymur Kərimli və Vilayət Quliyev Nizami faktının alt qatını müasir həyatımızın işığında bəlgələyir: Tarix və müasirliyə milli-mənəvi qayıdış və Ulu Öndərin elit şəxsiyyət siması, onun əzəmətli obrazı. Müəlliflər yazır: “...Qəbul olunmuş qərar yalnız konkret bir şəxsi – Nizamini deyil, ümumən, Azərbaycanı, Azərbaycan xalqını tanıtmağa, təbliğ etməyə xidmət edən tarixi bir sənəd idi”.[2] Heydər Əliyev Nizaminin rus dilinə yüksək tərcüməsini akademik Mirzə İbrahimova həvalə etmiş və uğurlu nəticə əldə olunmuşdu.

1981-ci ildə Nizami Gəncəvinin 840 illiyi respublikamızda təntənəli surətdə qeyd olunanda o zaman Heydər Əliyevin işlətdiyi və geniş əks-səda doğurduğu “Qoy ədalət zəfər çalsın” nidasının məna və mahiyyəti böyük tarixi reallıq kəsb etmişdi. “Heydər Əliyev Nizaminin səkkiz əsr əvvəl öz əsərlərində irəli sürüb əsaslandırdığı bir çox mənəvi-əxlaqi qənaətlərin, humanizm və ədalətlilik prinsiplərinin bu gün də yaşayan olduğunu, onun yalnız öz doğma xalqına deyil, bütün bəşəriyyətə, insanlığa xidmət etdiyini göstərmişdi”.[3]

Heydər Əliyev intibah dövrünün Xaqani, Fələki, Məhsəti kimi şəxsiyyətlərinin yaradıcılığının geniş yayıldığını bilirdi, lakin Nizami, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səməd Vurğunun ədəbi irsinə xüsusi nəzərlə yanaşırdı.

“Divan”ı 1926-cı ildə Salman Mümtaz tərəfindən çap olunmuş İmadəddin Nəsimi 1970-ci ilə qədər unudulmuşdu. Səbəbi Teymur Kərimli və Vilayət Quliyev belə izah edir: “Azərbaycan ədəbiyyatşünasları ideoloji xarakterli ayrı-ayrı istisnaları çıxmaq şərti ilə orta əsr klassiklərimizin yaradıcılığına türk ədəbiyyatı kontekstində yanaşmış, Qazi Bürhanəddin, Nəsimi, Füzuli və s. kimi sənət korifeylərini yalnız milli şeirimizin deyil, ümumtürk poeziyasının görkəmli nümayəndələri kimi tədqiq edib araşdırmışlar. Lakin bununla bir sı-

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.109
[2] Yenə orada, s.111
[3] Yenə orada, s.113

rada həmin sənətkarların ilk növbədə Azərbaycan türkü olduqları, etnik, coğrafi, sosial-psixoloji və tarixi baxımdan türklüyün bu qoluna mənsubluqları da heç vaxt unudulmamışdır”.[1]

Heydər Əliyev 1970-ci ildə Suriyada olmuş, İmadəddin Nəsiminin məzarını ziyarət etmişdir. İmadəddin Nəsimi yubileyi YUNESKO-nun tədbirlər planına daxil edilmiş və keçirilmiş, Bakının mərkəzi meydanlarından birində abidəsi qoyulmuşdur. Anadilli yaradıcılığını əhatə edən üççildlik əsərlərinin elmi-tənqidi mətni hazırlanmış, əsərləri Azərbaycan və rus dillərində çapdan çıxmış, akademik Həmid Araslının “İmadəddin Nəsimi” əsəri dünya dillərinə tərcümə olunmuşdur. Qabil “Nəsimi” poemasını yazmışdır. Akademik Bəkir Nəbiyevin rus dilində məqalələr toplusu çap olunmuşdur. Müəlliflər İmadəddin Nəsiminin 600 illiyinin dünyada baş verən əks-sədasını, Azərbaycanı nə qədər tanıtdığını, hürufi şairin Hələb şəhərində məzarının tapıldığı və ziyarətgaha çevrildiyini xatırladırlar. Xatırladırlar ki, 2008-ci ildə respublika prezidenti, cənab İlham Əliyevin təşkilatçılığı ilə Hələb şəhərində beynəlxalq konfrans keçirilmiş, Nəsimini ərəb elmi dairələrində tanıtmış, onun yüksək humanist fikirləri ilə tanış olmuşlar. 2004-cü ildə Nəsimi irsinin ikicildliyi 25 min tirajla latın qrafikası ilə çap edilmişdir.

1972-ci ildə Salman Mümtazın “Divan”ı dil baxımından təkmilləşdirilərək yenidən çap edilmişdir. İmadəddin Nəsimi türkmən ədəbiyyatının klassiki kimi təqdim olunurdu. Müəlliflər yazır ki: “Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi, eləcə də yaxından qayğısı ilə Azərbaycanda keçirilən Nəsimi təntənələri böyük humanist olan filosof-şairin həm soy-kök, həm də yaradıcılıq baxımından daha qədim ədəbi-mədəni ənənələri ilə seçilən Azərbaycan xalqının yetirməsi olduğunu, bununla yanaşı, türkcə danışan bütün xalqların da ədəbiyyatının inkişafında mühüm rol oynadığını bir səslə təsdiq etdi”.[2]

Akademik Teymur Kərimli və professor Vilayət Quliyev Heydər Əliyevin Məhəmməd Füzuliyə münasibətində də ədəbi-tarixi missiya görmüşlər. Bildirmişlər ki, Ulu Öndər Məhəmməd Füzuliyə dünya miqyaslı filosof, böyük alim kimi dəyər vermişdir. Heydər Əliyev Məhəmməd Füzuli yubileyini çətin şəraitdə həyata keçirmiş-

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.116

[2] Yenə orada, s.117

dir. Bu, respublikada 1990-cı illərdə mövcud xaosla bağlı olmuşdur. 1994-cü ildən geniş hazırlıq işləri başlanmış, ədəbiyyatçılar, dilçilər, mətnşünaslar, tarixçilər və kulturoloqlardan ibarət yubiley komissiyası yaradılmışdır.

Böyük öndər Füzulinin timsalında Azərbaycan xalqının tarixi köklərə malik olduğunu, Füzulinin isə görkəmli şair və mütəfəkkir, dünya mədəniyyətinə töhfə vermiş ədəbi şəxsiyyət kimi dünyaya bəyan etmək, Yaxın və Orta Şərqdə, nadir bəşəri sənətkar səviyyəsində göstərmək məqsədi izləmişdir. Hətta, rəssamlığa böyük marağı olmuş Heydər Əliyev Məhəmməd Füzulinin portretini də çəkmişdir. Şairin əsərlərinin nəşri və təbliği sosial-siyasi və mədəni missiyaya xidmət etmişdir. Teymur Kərimli və Vilayət Quliyev yazır: "Heydər Əliyev haqlı olaraq göstərirdi ki, yubiley təntənələrində auditoriya kifayət qədər geniş olmur və burada deyilənlər bir qayda olaraq rəsmi-təntənəli xarakter daşıyır. Çap edilmiş kitab isə əsrlər boyu yaşayacaq nəsildən-nəsilə keçəcək, bir çox ölkələrdə yayılacaq və təbii ki, Füzulinin də tanınmasına, onun irsinə maraq oyanmasına ciddi təsir göstərəcək".[1] Heydər Əliyev Məhəmməd Füzuli haqqında kitabın ingilis, fransız, alman, ərəb, fars dillərində nəşrlərini, İmaddin Nəsiminin qəbrinin Hələbdən, Məhəmməd Füzulinin qəbrinin isə Kərbəladan Bakıya köçürülməsini də düşünmüşdür...

1-2 noyabr 1994-cü ildə Füzulinin Türkiyədə, Ankarada, 1996-cı ilin payızında isə Azərbaycanda, Bakıda 500 illik yubileyi keçirilmişdir. Müəlliflər yazır: "YUNESKO-nun qərarı ilə 1996-cı il dünya miqyasında Füzuli ili elan olunmuşdu. Bu qərarın qəbul edilməsinin nə kimi texniki və yaradıcılıq çətinlikləri ilə bağlı olduğu məlumdur. Azərbaycanda isə tam əminliklə demək olar ki, 1994-cü ildən 1996-cı ilə qədər, tam üç il ərzində Füzuli illəri yaşandı. Bu müddətdə şairin əsərlərinin yeni altıcildliyi və ikicildliyi çap olundu, altı dildə Füzuli irsindən seçmələr işıq üzü gördü, şair haqqında yeni tədqiqat əsərləri ədəbi ictimaiyyətə təqdim edildi".[2] AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi akademik Rafael Hüseynovun rəhbərliyi ilə "Füzuli ensiklopediyası"nı nəşrə hazırlamışdır.

1967-ci ildə Molla Pənah Vaqifin 250 illiyi keçirilmiş, 1976-cı

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.132

[2] Yenə orada, s.142-143

ildə Şuşada məqbərəsi ucaldılmış, məqalə müəlliflərinin qeyd etdiyi kimi "bu məqbərəsinin simvolunda klassik Azərbaycan poeziyasının daha bir təbliğ və tədqiq auditoriyası yaradılmışdı".[1] Görkəmli şairin 300 illik yubileyi isə 2017-ci ildə YUNESKO səviyyəsində Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin böyük təşkilatçılığı ilə təntənəli surətdə qeyd edilmişdir.

Müəlliflər məqalədə Heydər Əliyevin Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Hüseyn Cavid, Səməd Vurğun, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı ilə bağlı qərarları üzərində təfərrüatlı dayanmışlar. Nəriman Nərimanovun şəxsiyyəti üzərində geniş dayanan müəlliflər bildirmişlər ki, "Heydər Əliyevin fikrincə, Nəriman Nərimanovun faciəsi bunda idi ki, o özü də istəmədən sistemin əsirinə çevrilmişdi, lakin namuslu bir şəxsiyyət və vətənpərvər kimi hər vasitə ilə bu sistemin doğma xalqına göstərəcəyi iztirabları yüngülləşdirməyə çalışırdı. Ona görə də müdrik və uzaqgörən dövlət xadimi Heydər Əliyev Nəriman Nərimanovun günahlarından deyil, bir yaradıcı ziyalı və rəhbər xadim kimi faciəsindən danışmağı daha məqbul hesab edirdi".[2]

Heydər Əliyev millətin genefondunun qorunmasında Nəriman Nərimanovun roluna və xidmətlərinə dəyər verərək demişdir ki, "amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur. Məhəmməd Əmin Rəsulzadəni də o qoruyub saxlamışdır. Məşhur generallar Mehmandarov və Şıxlinskini həbs etmək istəyirdilər..."[3] Heydər Əliyev Nəriman Nərimanovun 125 illiyinin (1995-ci il) keçirilməsi barəsində sərəncam vermiş və yüksək səviyyədə yubiley keçirilmişdir.

Akademik Teymur Kərimli və professor Vilayət Quliyev görkəmli Azərbaycan klassiki Cəlil Məmmədquluzadə haqqında da qiymətli təhlillər aparmış və Heydər Əliyev işinin bütün hallarda ağır olan tərəflərini qaldırmaq məramını önə çəkmişlər. "1981-ci ildə Heydər Əliyev onun ev-muzeyinin yaradılması haqqında qərar qəbul etmişdi. 1994-cü ildə satirik yazıçının 125 illiyi respublikamızda geniş qeyd olunmuşdu. Ulu Öndərin təşəbbüsü ilə Bakıda Üzeyir

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.148

[2] Yenə orada, s.160

[3] Yenə orada, s.161

Hacıbəylinin, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin, Səməd Vurğunun ev-muzeyləri yaradılmış, Mirzə Ələkbər Sabirin Şamaxıdakı ev-muzeyi əsaslı şəkildə yenidən qurulmuş və zənginləşdirilmişdi. Böyük Cavidin uzun illərdən bəri başa gəlməyən ev-muzeyi, nəhayət, Heydər Əliyevin səyi və vətəndaşlıq qeyrəti nəticəsində qapılarını tamaşaçıların üzünə açmışdı”.[1]

Müəlliflər Heydər Əliyevin Mirzə Cəlil irsinə böyük hörmətinin əsasları və mahiyyəti üzərində dayanmış, görkəmli yazıçını Azərbaycan xalqının azadlığı, müstəqilliyi, dövlət suverenliyi, milli şüur və müstəqillik ideyaları, azərbaycançılıq ideologiyası, “Molla Nəsrəddin” jurnalına münasibət baxımından şərh etmişlər. Cəlil Məmmədquluzadənin 125 illiyi ilə bağlı Heydər Əliyevin çıxışından sitatda deyilir: “Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər, Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər, Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bu günkü vəziyyətdən çıxarmaqda bizə kömək edir”.[2]

Görkəmli ədəbiyyatşünasların təhlilləri ardıcıl və təfərrüatlıdır. Onlar Heydər Əliyev siyasətinin “Molla Nəsrəddin” ədəbi məktəbinə istinad edən azərbaycançılıq ideologiyasının əsasları üzərində də əhatəli dayanmış və göstərmişlər ki, “Cəlil Məmmədquluzadəni və onun banisi olduğu mollanəsrəddinçilər ədəbi məktəbini Azərbaycan xalqının Ümummilli liderinə sevdirən başlıca cəhət böyük satirikin milli oyanış və milli özünüdərk, bunların əsasında duran azərbaycançılıq ideyalarına ardıcıl və sədaqətli xidməti olmuşdur”.[3]

Müəlliflər “Cəlil Məmmədquluzadəni Heydər Əliyevə yaxınlaşdıran, doğmalaşdıran başqa bir cəhət böyük yazıçının eyni za-

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.163-164

[2] Yenə orada, s.165

[3] Yenə orada, s.166

manda həm də görkəmli ictimai xadim olması, yaxasını heç vaxt ictimai-siyasi proseslərdən, xalqın taleyi ilə bağlı məsələlərdən kənara çəkməməsi, bu baxımdan, hörmətə layiq ciddi bir vətəndaş məsuliyyətinə malik olduğunu" göstərmiş,[1] Ulu Öndərin Cəlil Məmmədquluzadə və ədəbi məktəbinin ana dilinin saflaşdırılması və inkişafı işində mübarizəsinə böyük dəyər vermişlər. Onlar yazır: "...Heydər Əliyevin Mirzə Cəlilin dili barəsindəki bu mülahizələri eyni zamanda Ümummilli liderimizin özünün də ana dilinə qayğı və münasibətinin üzərinə işıq salır. Təsadüfi deyil ki, başqa klassik yazıçı və şairlərimizlə bir sırada Cəlil Məmmədquluzadə irsi də Azərbaycan dili anlayışına yenidən vətəndaşlıq hüququ qazandırmaq prosesində Heydər Əliyevin arxalandığı mənbələrdən biri olmuşdur".[2]

Görkəmli alimlər Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının bünövrəsində klassik yazıçılarımızın yaradıcılığı dayandığını qeyd etmiş və bunu həm də Mirzə Cəlillə əlaqələndirmişlər. Çünki Heydər Əliyevin özü də: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına və yaranmasına, onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir"[3] – demişdir. Heydər Əliyev "Anamın kitabı"nı Azərbaycan üçün dahiyanə əsər hesab etmişdir. Ulu Öndər irad tuturdu ki, indiyə qədər "Ölülər"i din əleyhinə əsər kimi qiymətləndirirlər. Həmin yazıçılarımızın yaradıcılığında ateizm meyilləri axtarmışıq, "yeri gəldi-gəlmədi onları islam dininin və əxlaqının əleyhdarları kimi qələmə verməyə çalışmışıq, halbuki, klassik Azərbaycan yazıçıları ənənələri əsasında tərbiyə

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.167

[2] Yenə orada, s.168

[3] Yenə orada, s.169

olunduqları islam dininə, onun əsaslarına qarşı çıxmayıblar”,[1] onlar fanatizmə, mövhumatçılığa qarşı olmuşlar.

Akademik İsa Həbibbəyli Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra “Cəlil Məmmədquluzadə: mühiti və müasirləri” adlı qiymətli monoqrafiyasını Moskvada, rus dilində, habelə, elmi-populyar kitablarını türk, ingilis, fransız, rus və ərəb dillərində çap etdirmişdir.

Şərhçilərin Hüseyn Cavid haqqında fikirləri də əhatəlidir. Onlar yazır: “XX əsr Azərbaycan ədəbiyyatının başqa bir görkəmli nümayəndəsi – romantik şair və dramaturq, filosof Hüseyn Cavid də onilliklər boyu Heydər Əliyevin yüksək qiymətləndirdiyi, yaradıcılığına böyük ehtiram və diqqətlə yanaşdığı, daim təbliğ və təşviq etdiyi sənətkarlardan biridir”.[2]

Müəlliflər Heydər Əliyevin obrazını Hüseyn Cavidə münasibətdə türkçü və ümmətçi kimi təqdim etmişlər. Onlar davam edir: “Heydər Əliyevin fikrincə, milli özünüdərkin yeni intibah dövrü yaşadığı 1990-cı illərdə Cavidin ideyaları, bütünlükdə Cavid yaradıcılığı daha böyük əhəmiyyət və aktuallıq kəsb etmişdir”.[3] Müəlliflərin izahından aydın olur ki, Heydər Əliyev Hüseyn Cavidə əsərlərinin vüsətinə, fəlsəfi, elmi səviyyəsinə görə dəyər vermiş, onu Şekspir və Höte ilə, “İblis”i “Faust”la müqayisə etmişdir. Onlar Heydər Əliyevin haqlı iradlarını xatırladaraq: “Biz indiyə qədər klassik sənətkarlarımızı dünya ədəbiyyatı kontekstində kifayət qədər öyrənməmişik. Onların dünya ədəbiyyatından nələr aldıqları barəsində çox yazılsa da, bu ədəbiyyata gətirdikləri, onu hansı yeni təkrarsız keyfiyyətlərlə zənginləşdirdikləri araşdırılmamışdır. Bu cəhətdən, Hüseyn Cavidin fəlsəfi mahiyyətli, bəşəri keyfiyyətlərlə zəngin əsərləri həqiqətən də tədqiqatçıların qarşısında, ilk növbədə isə müqayisəli ədəbiyyatşünaslıq mütəxəssislərinin qarşısında böyük perspektivlər açır”.[4] Heydər Əliyev Hüseyn Cavid əsərlərinin Şekspir, Höte əsərləri ilə müqayisəli tədqiqini vacib hesab edir, onların fəlsəfi-psixoloji və sənətkarlıq xüsusiyyətlərinin üstün mövqeyini Qərblə müqayisədə diqqətə çatdırırdı. “Ona görə də Heydər Əliyev klassik yazıçılarımı-

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.170-171

[2] Yenə orada, s.175

[3] Yenə orada, s.177

[4] Yenə orada, s.177

zı bir tərəfdən olduqları kimi, o biri tərəfdən isə ümumdünya mədəniyyəti kontekstində öyrənməyi müstəqil dövlətçilik şəraitində Azərbaycan alimlərinin, ədəbiyyatşünaslarının qarşısında duran birinci dərəcəli vəzifələrdən sayırdı”.[1] Böyük öndər elmi dağıdanlara, mədəniyyətə biganə olanlara qarşı çıxırdı: “Bazar iqtisadiyyatına keçmək o demək deyildir ki, elmə, mədəniyyətə ayrılan vəsait azaldılmalı, bu sahələr ağır maddi vəziyyətə salınmalıdır”.[2]

23 oktyabr 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Hüseyn Cavidin 110 illiyi təntənəli qeyd edilmiş, ev-muzeyi yenidən qurulmuş, məzarı üzərində məqbərəsi tikilmiş və 1996-cı ilin oktyabrında açılışı olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi ilə dramaturqun “Külliyyatı”nın beş cildliyi Turan Cavid tərəfindən nəşr edilmiş, 2005-ci il sərəncamı ilə əsərləri latın qrafikasında buraxılmış, Cavidin Ev muzeyi “Cavidşünaslıq” seriyasından üç kitab nəşr etmiş, “Hüseyn Cavidin biblioqrafiyası” çap olunmuşdur.

Məqalə müəllifləri dahi Azərbaycan bəstəkarı, Şərqdə opera sənətinin banisi, yazıçı, publisist və ictimai xadim Üzeyir Hacıbəyliyə də əhatəli yer vermişlər. 1995-ci ildə Heydər Əliyev dahi bəstəkarın 110 illiyini təntənəli keçirmiş, onu həm də Azərbaycan Xalq Cümhuriyyəti məsələləri ilə bağlı səciyyələndirərək demişdir: “1918-ci ildə Azərbaycanda ilk demokratik Respublika yaranan zaman və yaranandan sonra Üzeyir Hacıbəyli o vaxt gedən ictimai-siyasi proseslərin fəal iştirakçısı olmuşdur. O, görkəmli bir şəxsiyyət kimi həmin proseslərin düzgün istiqamətdə getməsinə təsir göstərmiş və o ağır dövrdə, çətin dövrdə xalqımızın milli mənliyinin yüksəldilməsi üçün çox işlər görmüşdür. Azərbaycanın ilk demokratik respublikasının yaranması, inkişaf etməsi üçün çalışmış, fəaliyyət göstərmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün cəhdlər göstərmişdir. Parisə – Versal sülh konfransına gedən Azərbaycan nümayəndə heyətinə onun verdiyi tövsiyələr, məsləhətlər və göstərişlər – Üzeyir Hacıbəylinin kiçik qardaşı Ceyhun Hacıbəyli də nümayəndə heyətinin tərkibində idi – bunlara canlı sübutdur. Üzeyir Hacıbəyli ilk müstəqil Azərbaycan dövlətinin “Azərbaycan” qəzetinin redaktoru olmuş və bu qəzetin fəaliyyətində həm öz

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, “Şərq-Qərb”, 2009, s.178
[2] Yenə orada, s.178

məqalələri ilə, həm də rəhbərliyi ilə çox böyük xidmətlər göstərmişdir".[1]

1995-ci ildə Üzeiyr Hacıbəylinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetində dərc olunmuş məqalələri "Fitnələr qarşısında" adı ilə çap edilmişdir. Müəlliflər Heydər Əliyevin tezisləri əsasında ümumiləşdirirlər ki, inqilabdan əvvəl, cümhuriyyət dövrü və ondan sonra – bütün mərhələlərdə Üzeyir Hacıbəyli və yaradıcılığı xalqı ilə birlikdə olmuşdur. O dövlət himninin də, milli himnin də müəllifidir.

Teymur Kərimli və Vilayət Quliyev məqaləni belə bir qənaətlə yekunlaşdırır ki, milli-mədəni intibah və özünəqayıdışın baş memarı, ədəbiyyatımızın yaxın bilicisi və təəssübkeşi Ümummilli liderimiz Heydər Əliyev olmuşdur. "Azərbaycan Respublikasının Pirezidenti cənab İlham Əliyevin simasında sözün ülvi mənasında Əliyevlik bu gün də yaşayır, inkişaf edir, xalqa və dövlətə, sənətə, ədəbiyyata qayğı və diqqət yolunda bütün gücü ilə fəaliyyət göstərir".[2]

Akademik Rafael Hüseynov professor Tərlan Novruzovun "Müstəqillik dövründə Azərbaycan ədəbiyyatına dövlət qayğısı"[3] kitabına yazdığı "Dayaqlar" adlı ön sözdə demişdir: "Azərbaycanın 2 prezidenti – unudulmaz Heydər Əliyev və onun dövlətçilik, vətənçilik yolunun layiqli davamçısı İlham Əliyev dövlətə başçılıq etdikləri illərin hamısında sözün gerçək mənasında ədəbiyyatın, ədəbiyyat adamının qayğıkeşi olublar, Böyük Sözümüzü həm də dövlət işinin mühüm bir hissəsi sayıblar".[4]

Ədəbiyyatşünas-alimin nəzəri görüşlərində *"dayaq" anlayışı* Heydər Əliyev obrazının simvolik mənasıdır. Müəllif "dayaq" qavrayışının bir bəlgəsini belə dəyərləndirmişdir: "Hər ikisi müdrik şəxsiyyətlər olduqlarından həm ədəbi irsimizi, o sərvətləri yaratmış misilsiz dühaları qaldırıblar, çağdaşı olduqları yaradıcılara pasibana çevriliblər, həm də bu sərvəti və gücü məharətlə dövlətin, Azərbaycanın, ölkəmizin, millətimizin daha da hörmətli, şöhrətli, qüdrətli

---

[1] Teymur Kərimli, Vilayət Quliyev. Heydər Əliyev və klassik ədəbiyyat. Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.188

[2] Yenə orada, s.203

[3] Bax: Tərlan Novruzov. Müstəqillik illərində Azərbaycan ədəbiyyatına dövlət qayğısı. Bakı, "Elm və təhsil", 2015, 444 s.

[4] Yenə orada, s.4

olması səmtinə yönəldiblər”.[1]

Akademik Rafael Hüseynov yazısında daha pafoslu, emosional, estetikdir, esseist düşüncə və məntiqlə yazmış, Heydər Əliyev və İlham Əliyev dayaqlarına yüksək səviyyədə obrazlı, fəlsəfi və bədii-publisistik münasibət bildirmişdir.

Mətn təhkiyəsində İlham Əliyevi Heydər Əliyev işığında daim “hərəkətdə” göstərən müəllif “dayaq” qavrayışının məna və fəlsəfəsinə varmış, Heydər Əliyev Şah İsmayıl Xətaiyə müncər edilmişdir. İlham Əliyev isə “dayaq” olaraq Heydər Əliyevdən güc alır və bir-birini tamamlayır: “Müasir müstəqil Azərbaycan dahi Heydər Əliyevin şah əsəridirsə, müasir firavan, güclü, sabaha inamlı Azərbaycan da Prezident İlham Əliyevin şah əsəridir”.[2] Və hər ikisi olduğu yerdə – bu dayaqda “Azərbaycan əslində olduğundan daha böyük görünür”.[3]

Alimin nəzərində “dayaq” Heydər Əliyevin və xalqın varolma və irəliləmə düsturudur. İlham Əliyev bu düsturun nəticəsi, cavabıdır. Rafael Hüseynovun cənab Prezidentin seçki ilində arzuları daha təravətli səslənir: “Bu gün ona – Prezidentimizə və millətə – hamımıza bir ülvidən-ülvi arzum var – könül istər ki, həmin əziz millət bayramına imzanı Prezident İlham Əliyev öz həyatının yeni başlanan ikinci yarım əsrinin birinci ilində hamımızın ömrünün təzə başlanacaq növbəti ilində atsın”.[4] *Yeri gəlmişkən, biz də 11 aprel 2018-ci il Prezident seçkilərinin uğurlu nəticəsinə görə cənab Prezident İlham Heydər oğlu Əliyevi, dövlətimizi və xalqımızı, akademiya rəhbərliyi və əməkdaşlarını ürəkdən təbrik edir, onlara xoşbəxt sabahlar, tarixi gələcək naminə daha böyük uğurlar arzulayırıq!*

Ədəbiyyatşünas-alim dövlət-millət-rəhbər birgəliyinin dayağını da orijinal ifadə etmişdir: “Böyük Sabah Quruculuğunda Azərbaycan ədəbiyyatı, Azərbaycanın zamanının sınaqlarından ötüb gələn möhtəşəm bədii sözü və indi yaranan ədəbi sərvətləri Prezident İlham Əliyevin yenilməz dayaqlarındandır. Və bu ədəbiyyat, bu ədəbiyyatın əbədi ömürlü inciləri, bu ədəbiyyatı yaratmış və yaratmaqda davam edən istedadlar da xoşbəxtdirlər ki, onların Prezident

---

[1] Tərlan Novruzov. Müstəqillik illərində Azərbaycan ədəbiyyatına dövlət qayğısı. Bakı, “Elm və təhsil”, 2015, 444 s., s.4

[2] Yenə orada, s.15

[3] Yenə orada, s.15

[4] Yenə orada, s.19

İlham Əliyev kimi qüdrətli, canıyanan, dəqiq və ədalətli, qiymətləndirməyi, layiqincə şərəfləndirməyi bacaran Dayağı var!

Belə əzəmətli Dayaqlar vəhdətdə olduqca Azərbaycan daha da ucalacaq”.[1]

Akademik İsa Həbibbəyli, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov və professor Nizaməddin Şəmsizadənin məqalələri daha çox siyasi-ideolojidir.

Akademik Nizami Cəfərov “Azərbaycanşünaslığa giriş” adlı qiymətli tədqiqatının “Yeni dövrdən ən yeni dövrə... Etnokulturoloji özünüdərkdən milli-siyasi özünütəsdiqə” adlı IV bölümünün “Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşması” adlı yarımbaşlığını Heydər Əliyev dühasına həsr etmişdir: “Müstəqil Azərbaycan dövlətinin qurucusu, Prezidenti Heydər Əliyev dünya azərbaycanlılarının şəksiz lideridir”.[2]

Akademik Heydər Əliyevin obrazını oxucuya “*Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinin yüksəlişi sahəsində* görülmüş böyük işlər”in əhatəsində təqdim etmişdir. Böyük öndərin respublika rəhbərliyinə gəlişi müstəqil düşüncə hadisəsidir. “70-80-ci illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi”.[3]

Alim Heydər Əliyev obrazının bir məqamını da təqdim edir: “Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə malik ikinci bir şəxs olmamışdır”.[4] Nizami Cəfərov bu baxımdan 70-80-ci illər Azərbaycanını “Heydər Əliyevin Azərbaycanı” adlandırır və göstərir ki, Ümummilli liderin ikinci dəfə hakimiyyətə gəlişi “90-cı illərin ilk aylarından artıq reallıq idi. Bir-birinin ardınca baş verən hadisələr, get-gedə güclənən “xaos” “ölkənin sahibini” tələb edirdi... Heydər Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca, böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyil də güclənirdi”.[5]

---

[1] Rafael Hüseynov. Dayaqlar. Bax: Tərlan Novruzov. Müstəqillik dövründə Azərbaycan ədəbiyyatına dövlət qayğısı. Bakı, “Elm və təhsil”, 2015, s.20

[2] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, “AzAtam”, 2002, s.466

[3] Yenə orada, s.467

[4] Yenə orada, s.467

[5] Yenə orada, s.467

Heydər Əliyev Azərbaycana Tarix kimi də lazım idi – deyə Nizami Cəfərov yazır. "Həmin tarixin xronologiyası Azərbaycan Xalq Cümhuriyyətindən başlasa da, cümhuriyyətin "praktika"dan deyil, "nəzəriyyədən" ibarət olması ona əsaslanmağa imkan vermirdi".[1]

Müəllif analitik təhlillərini dinamik inkişaf etdirir: "...Azərbaycanı Heydər Əliyev xilas etdi".[2] "Heydər Əliyevin Azərbaycanın xilası üçün gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyasdır – bu fəaliyyət xalqın yalnız bu gününü müəyyən etmir, onun gələcəyinə əhəmiyyətli təsir göstərir ki, bu mənada Azərbaycanın qurtuluşu bu günlə məhdudlaşmayan, gələcəyə getdikcə tarixi məzmunu daha yaxşı dəyərləndirəcək bir hadisədir".[3] Akademikin daha bir tezisi: "Azərbaycan qurtuluşunun yekunu, yaxud nəticəsi qurtuluşun Azərbaycanıdır". Nizami Cəfərov Heydər Əliyevin Azərbaycan Respublikası MM-nin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışından misal gətirir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".[4] Akademikin tezislərindən birinin müddəası da dəqiqdir: "Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə – əbədi müstəqilliyə aparır".[5]

Azərbaycanşünas-alim Heydər Əliyevi həm də Türk məcrasında təqdim etmişdir. Bu tarixi obrazda Azərbaycançılıqla bərabər, Türkçülük məfkurəsi də birləşir: "Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir..."[6] Alim xatırladır: "Azərbaycanın müasir tarixində Hey-

---

[1] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.468
[2] Yenə orada, s.468
[3] Yenə orada, s.468
[4] Yenə orada, s.468
[5] Yenə orada, s.469
[6] Yenə orada, s.471

dər Əliyevə qədər üç görkəmli ictimai-siyasi xadimin (türkün) adı çəkilir: Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov və Mir Cəfər Bağırov... Alim Heydər Əliyevi onlarla müqayisəyə gətirməyə iqtidarlı deyil. "Çünki onların heç biri bu sahədə böyük istedada malik olmamış, bir sıra hallarda isə şəraitin birbaşa əsirinə çevrilmişdir. Və bu isə o deməkdir ki, həmin görkəmli şəxsiyyətlərin rəhbərlik təcrübəsi tamamilə başqa tipli bir rəhbər olan Heydər Əliyevə çox az şey vermişdir..."[1]

Məqalə müəllifi Heydər Əliyevin böyük dövlətçilik, idarəetmə məharətinin əsasları üzərində dayanmışdır. Heydər Əliyevin çıxdığı Naxçıvanın tarixi qədimliyini, mühitini, təbiətini xatırladır, daha sonra: "Heydər Əliyevin qısa bir zamanda qazandığı müqayisəyəgəlməz ictimai-siyasi uğurların ən mühüm şərti, heç şübhəsiz, onun qorxmazlığı, cəsarəti, qranit kimi möhkəm iradəyə malik olmasıdır".[2]

Heydər Əliyevlə bağlı əfsanələrin mahiyyətində isə bu dayanır: "Əlbəttə, məsələ bu əfsanələrin reallığa nə dərəcədə yaxın olub-olmamasında deyil, məsələ ondadır ki, cəmiyyət, ictimai şüur Heydər Əliyevi əfsanəvi şəxsiyyət kimi tanıyır".[3] Müəllif davam edir: "...Özündən əvvəlki respublika rəhbərliyinin liberallığına, mərkəzdən (Moskvadan) asılılığına, şəxsi rahatlığına meyilli olmalarına qarşı Heydər Əliyev əsil milli rəhbər obrazını qoymuş, bütün kəskinliyi ilə təsdiq etmişdir".[4]

Türkoloq-alim Heydər Əliyev fenomeninə 1920-1930-cu illərin öz reallıqlarından gəlib vəziyyəti ifadə etmiş, "türk" sözünün işləkliyindən və qadağalarından, Heydər Əliyev yeniyetməliyinin 1930-cu illərlə bağlı gələnəklərindən danışmışdır. "...30-cu illərdə (xüsusilə həmin onilliyin birinci yarısında) Azərbaycanın orta məktəblərində ana dili, ədəbiyyat, tarix fənləri türkçülükdən heç də tamamilə "xilas olmamışdı". Türkiyə ilə müqavilə əsasında Azərbaycana gəlmiş türkiyəli mütəxəssislərin 1920-ci illərdə tərtib etdikləri proqramlar, dərsliklər hələ bu və ya digər dərəcədə qüvvədə idi. Vətənini sevən müəllimlər də vardı... Və 1930-cu illərin inqilabi coşğunluğu, siyasi-ideoloji təlatümləri məktəblərdə istər-istəməz milli

---

[1] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.471
[2] Yenə orada, s.471
[3] Yenə orada, s.471
[4] Yenə orada, s.471

hisslərlə kompromisə girməli olurdu. Heydər Əliyev təhsilini belə bir məktəbdə almış, 1930-cu illərin təbəddülatlı ideyalar mühitində böyümüşdü... Heydər Əliyevdə türkçülük duyğuları gənc yaşlarında orta məktəb şagirdi ikən oyanmışdı. O zaman türkçülüyü, əsasən, Türkiyəyə – yeganə müstəqil türk dövlətinə maraq müəyyən edirdi".[1]

Akademik Nizami Cəfərov Heydər Əliyev və türkçülük məfkurəsinin tarixi zəmini və əsaslarına varmışdır. Yenə bir sitat: "Böyük türkçü sonralar xatırlayırdı ki, "cocuq ikən gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm, türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim..." Heydər Əliyev Türkiyənin ədəbiyyat xadimlərini də xatırladır... "Biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin əsərləri indi də gözümün qabağındadır. Yəni mənim gənc yaşlarımda bu təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatdır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım".[2]

Akademik bunu da xüsusi xatırlatmışdır: "Biz Türkiyə ilə Azərbaycan arasında həyat körpüsünü, ümid körpüsünü yaradanda da mən bu hissiyyatları yaşadım... O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq...".[3]

Nizami Cəfərov tarixin yolları ilə irəliləyir, 1930-cu illərin

---

[1] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.472

[2] Yenə orada, s.472

[3] Yenə orada, s.472

türkçülüyə qarşı aparılmış qırğınlarını, qaçqınlıqlarını, sürgünlərini, didərginliklərini xatırladır: "...Bütöv xalqlar yerindən-yurdundan didərgin düşdülər. Krım tatarları, Mesxeti türkləri, Şimali Qafqaz türkləri... Orta Asiya və Qazaxıstan çöllərinə, Cənubi azərbaycanlılar isə İrana sürgün olundular..."[1]

Heydər Əliyev isə taleyin onun üçün ayrılan yerini axtarmaqda idi... "İlk tapıntılar dövlət təhlükəsizliyi orqanlarından başladı... Dövlət təhlükəsizliyi orqanlarındakı işi gələcəyin böyük ictimai-siyasi və dövlət xadiminin möhkəm xarakterini, sərt məntiqini daha da cilalayırdı..."[2]

1950-1960-cı illər Heydər Əliyevin "sovet dövlətçiliyinin həm məzmunu, həm də praktikasına dərindən bələd olduğu" illər idi. Bu illər Heydər Əliyevə "kifayət qədər mürəkkəb sosial-siyasi mühitdə fəaliyyətinin strategiyası ilə taktikasını düzgün əlaqələndirmək məharəti qazandırdı..."[3]

1980-ci illərdə Heydər Əliyev sovet dövləti rəhbərliyində işləməyə aparılan yeganə türk idi. Azərbaycan rəhbərliyində də belə idi... Nizami Cəfərov uzlaşdırır: "Rus sovet dövlətçiliyinin tarixi əsasında qədim türk dövlətçiliyinin əsrlər boyu qazandığı təcrübə dayanmışdı..."[4] Hansı təcrübə? "IX-XII əsrlərdə qıpçaqlar, XIII-XVI əsrlərdə monqol-tatarlar – Avrasiya dövlətçiliyi, XVII-XVIII əsrlərdə Rusiyanın Qərbi Avropanın dünya hakimiyyətindəki iddiaları... XIX əsr gəldi... Avropa Rusiyada daha çox silahı, hərbi texnikası, inqilabi çevriliş ideyaları, üsyanları ilə görünməyə başladı... Nəhayət, Rusiya sovet dövlətinə çevrildi". Alim tezisləşdirir: "...Hansı qiyafədə təzahür edirsə-etsin, mahiyyət etibarilə bir türk dövləti olan Rusiya – SSRİ dövlətçilik təfəkkürü zəif rus-slavyan xadimləri tərəfindən heç zaman normal idarə edilə bilməmişdir".[5] Türklər isə XVII əsrdən yüksək idarəçiliyə, demək olar ki, buraxılmamışlar...

...Heydər Əliyev Azərbaycanı müsəlman-türk respublikasına çevirmişdi. Bu iqtisadi, mədəni, mənəvi yüksəlişi digər görkəmli türklər D.Ə.Kunayev və Ş.R.Rəşidov edə bilməmişdi.

---

[1] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.473
[2] Yenə orada, s.473
[3] Yenə orada, s.473
[4] Yenə orada, s.473
[5] Yenə orada, s.474

Heydər Əliyev milli tarixi təfəkkürün oyanışına xüsusi əhəmiyyət vermişdi. Özü də tarixçi idi. "Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyulurdu".[1] "Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi".

Sov.İKP MK-nın Siyasi Bürosunda o zaman (80-ci illərin əvvəlləri) üç türk – Dinmühəmməd Kunayev (qazax), Şərəf Rəşidov (özbək) və Heydər Əliyev (azərbaycanlı) təmsil olunurdu! Zaman Heydər Əliyevi ruslarla təkbaşına mübarizə mövqeyinə çıxarmışdı. 80-ci illərin ortalarında artıq Heydər Əliyev Azərbaycanın və ümumən türk-müsəlman xalqlarının lideri idi. Rus şovinizmi isə ayaqda idi...

"Etiraf edək ki, Heydər Əliyev Türküstanın dövlət başçıları Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov, Əsgər Akayev ilə görüşlərində, münasibətlərində öz ağsaqqallıq missiyasını, türk dünyasının lideri vəzifəsini məharətlə yerinə yetirirdi".[2]

İqtisadi, siyasi və mədəni cəhətdən birləşmiş türk xalqları yeni dünyanın mühüm gerçəkliyindən biri olmuşdu. Və Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisi Dünya azərbaycanlılarının həmrəylik gününün keçirilməsi üçün qərar qəbul etmişdi. 1993-cü ildə bu həmrəylik bayram kimi təntənəli surətdə qeyd olunmuşdur.

Ulu Öndər dünya ictimaiyyəti qarşısında böyük siyasi nüfuz qazanmışdır: "Heydər Əliyev yalnız Azərbaycanın, ümumən azərbaycanlıların rəhbəri deyil, dünyanın gələcəyi üçün məsuliyyət daşıyan böyük ictimai-siyasi xadimlərdəndir".[3]

Xalq yazıçısı Elçin Əfəndiyev "Tarixlə üz-üzə dayanmış insan" məqaləsində *Heydər Əliyevə qayıdışı xatirələr fonundan* təqdim etmişdir. O, Heydər Əliyevi I katib (1969), özünü isə onun sayəsində qələm sahibi kimi tapdığını (1970-ci illər) rəhbərlə ədəbiyyat arasında vəhdət, mənəvi körpü saymışdır.

Məqalə müəllifi bizə Heydər Əliyevi yaxın müşahidələri əsasında təqdim etmiş, bildirmişdir ki, Heydər Əliyev və elmi-tədqiqat,

---

[1] Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, "AzAtam", 2002, s.475
[2] Yenə orada, s.482
[3] Yenə orada, s.488

Heydər Əliyev və tarixi məsuliyyət, Heydər Əliyev və şəxsiyyət problemi həmişə aktual olacaqdır.

Elçin Heydər Əliyev *obrazının intensiv iş rejimini bir nümunə hesab edir* və canlandırır ki: "Son iki ildə mən bunun dəfələrlə şahidi olmuşam və hər dəfə də mat qalmışam ki, Heydər Əliyev deyək ki, ağır və üzücü səfərdən qayıdıb, aeroportda məlum olub ki, filan ölkənin dövlət bayramıdır, səfirlik qəbul düzəldib, ora gedib təbrik etmək lazımdır, dərhal, yəni yarımca saat da istirahət etmədən maşına minib o qəbula gedib, həmin ölkə ilə və ümumiyyətlə, xarici siyasətlə bağlı parlaq nitq söyləyib, sonra oradan çıxıb kənd təsərrüfatı işçiləri ilə görüşüb bu sahənin problemləri və həmin problemlərin həlli yollarıyla bağlı çıxış edib, sonra heç bir fasilə olmadan təhsil işçiləri ilə görüşüb, təhsilin müasir vəziyyəti və vəzifələri barədə danışıb, sonra da bir görkəmli şairin, yaxud rəssamın yubileyində iştirak edib, onun yaradıcılığı haqqında, Azərbaycan mədəniyyətində tutduğu yer barədə professional söhbət açıb... Və bu, bir istisna deyil, onun gündəlik işinin tərkib hissəsidir".[1] Bu, nümunə idi! Bütün vəzifə məsulları, ziyalı və şəxsiyyətlər üçün nümunə idi! Heydər Əliyevin yalnız özünə aid olan nümunə!

Professor Elçin Əfəndiyev Heydər Əliyevin fenomen şəxsiyyət olduğunun fərqinə varır, "bu, həqiqətən özünün də qeyd etdiyi kimi "sirri-xudadır". Yazıçı Heydər Əliyevin psixolojisi, iş üsulu, həyat tərzi və şəxsiyyətinin qeyri-adilikləri, onun siyasət adamı kimi vərdişləri, siyasi idarəetmə qabiliyyəti, bacarığı, işgüzarlığı üzərində dayanır, – bütün bunların bir məktəb nümunəsi olduğunu göstərir. Elçin siyasi rəhbərin fenomenal yaddaşı ilə bərabər, onun "qulaq asmaq bacarığını, dinləmək qabiliyyətini, səbrini" fərdiləşdirir.

Alim Heydər Əliyevin həyat yoldaşı, ata, baba nümunəsinin fərdi detallarına varmış, düşünmüşdür ki, "belə bir həyat yoldaşı, ata, baba çox mühümdür, ona görə ki, millətə, vətənə bağlılığın da kökü oradan başlayır". Elçin yazır: "Bəşəriyyətə gedən yol millətdən keçdiyi kimi, millətə, vətənə məhəbbət də ailədən gəlir və Qədim Roma imperiyasından tutmuş bu tərəfə tarix sübut eləyib ki, məhz məişətdə, şəxsi həyatda, şəxsi əxlaqda ciddi və səmimi olan

---

[1] Elçin. Tarixlə üz-üzə dayanmış insan. Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.206

dövlət başçıları öz ölkələri üçün tarixi işlər görməyi bacarıblar..."[1]

Xalq yazıçısı Heydər Əliyev nümunəsinin folklor, xalq məişəti, mənəviyyatı və ana dili olan sayğısından bəhs etmiş, o, Türkiyədə Füzulinin 500 illik yubileyi zamanı düzəldilmiş qəbulda xalq artisti Səkinə İsmayılovanın "Küçələrə su səpmişəm" mahnısından duyğulandığını, onun milli hisslərinə toxunduğunu xatırlatmışdır. Elçin hesab etmişdir ki, onun milli mühitdən uzaq düşüb 8 illik Moskva həyatında yaşaması "görünür onun iradəsinin, daxili səliqəsinin, səfərbərlik gücünün bir göstəricisidir..."[2]

Elçin Heydər Əliyev nümunəsinin Bakıdan (1982) Moskvaya köçünün hisslər aləmini də cizgiləmişdir: "O, sidq-ürəkdən kövrəlmişdi və bunu heç cür gizlədə bilmirdi və yadıma gəlir, onda mən bir heyrət içində fikirləşirdim ki, insan xisləti, doğrudan da, bir sirri-xudadır: bir tərəfdən o cür Əliyev zəhmi və sərtliyi, hətta, bəzən amansızlığı, bir tərəfdən də belə bir Əliyev kövrəkliyi, belə bir hisslər aləmi, belə bir açıqlıq".[3]

Professor Elçin Heydər Əliyevin şəxsi nümunəsindən bəhs edərkən onun vaxtilə Azərbaycanın gələcək vahidliyi haqqında danışıqlarından, ona sadiqlərdən və qeyri-sadiqlərdən, "iqtidar bülbüllərinin" daha artıq gözə girməyi və canfəşanlığından, "onların "fədakarlıqlarının" saxtalığından da danışmış", – bu psixoloji-əxlaqi hallardan epizodlar vermişdir.

Elçinin yazısı xatirədir, Heydər Əliyevə və onun əhatəsinə münasibətin, daha çox psixoloji kolliziyaların ifadəsidir. Məqalədə Heydər Əliyev xeyirlə şərin mübarizəsi təzadında verilmiş, düzlük ən böyük meyar kimi qiymətləndirilmişdir!

Professor Teymur Əhmədov bildirir ki, o çətin günlərdə "Vətən səsi" qəzetinin 25 oktyabr 1991-ci il tarixli nömrəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin o zamankı sədri Heydər Əliyevin 2 teleqramını, "Vətən səsi"nin 30 oktyabr 1991-ci il tarixli nömrəsində isə NMR Ali Məclisinin qərarını dərc etmişdir. Bu səbəbdən 6 noyabr 1991-ci il tarixli nömrəsindən qəzetin dərci dayandırılmışdır. Alim məqalələrində *Heydər Əliyevin obrazını faktoloji informasiya zəminində* canlandırmış, milli diaspor siyasətinə müna-

---

[1] Elçin. Tarixlə üz-üzə dayanmış insan. Heydər Əliyev mənim həyatımda. Bakı, 2005, s.207

[2] Yenə orada, s.208

[3] Yenə orada, s.208

sibət əsasında təqdim etmişdir.

Heydər Əliyev xarici ölkələrdə dağınıq halda yaşayan mühacirləri bir araya gətirmək, onları birləşdirmək məqsədilə 2002-ci ildə xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsini yaratmışdır ki, "xarici ölkələrdə yaşayan həmvətənlərimiz diaspor təşkilatları ətrafında birləşsin". 2001 və 2006-cı illərdə Bakıda Dünya Azərbaycanlılarının qurultayları keçirilmişdir. 2007-ci il martın 9-da isə Bakıda Azərbaycan və türk diaspor təşkilat rəhbərlərinin I Forumu çağırılmış, 48 ölkədən 513 nümayəndə iştirak etmişdir. Professor Teymur Əhmədov yazır: "Bu ali forum bütün türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsini, sosial-mədəni, ictimai-siyasi əlaqələrin daha da möhkəmlənməsi ilə sıx bağlı məsələləri müzakirə etdi. Türk dünyasının iki böyük lideri – Mustafa Kamal Atatürk və Heydər Əliyev yüz illərdən bəri arzu olunan bu ideyanın XX əsrdə reallaşması istiqamətində konkret əməli tədbirlərin təməlini qoydular. Bu ali məclis Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir", Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik" müdrik sözlərinin əyani sübutu oldu".[1]

Professor Teymur Əhmədov "Diaspor siyasətinin uğuru" ("Füyuzat" № 1, 2009, s. 2-4) məqaləsində Ümummilli lider Heydər Əliyevin bütün diaspor təşkilatlarının yaradılması, möhkəmləndirilməsi, vahid mərkəzdə birləşdirilməsi və əməli işinə qiymət vermiş, "onları həmrəyliyə çağırmaq, bu barədə təşəbbüskarlıq etmək bizim müstəqil Azərbaycan Respublikasının tarixi missiyasıdır!" – deyə Heydər Əliyevin fikir mövqeyini xatırlatmışdır.

XX əsrin 60-80-ci illərində Heydər Əliyev xarici ölkələrə axın olduğu, dissident hərəkatı hiss olunduğu vaxtlarda soydaşlarımızın təşkilatlanması, doğma vətənlə əlaqə yaratması üçün xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin yaradılmasını təmin etmiş, imperiyanın dağıdılması ərəfəsində Azərbaycanda ictimai-siyasi həyatda və ictimai şüurda milli oyanış və milli-azadlıq hərəkatı cəhdləri güclənmişdir. 1991-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisinin sessiyasında Milli Həmrəylik və Birlik gününün təsis olunması qərara alınmışdır. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində dünya Azərbaycanlılarının I qurultayı keçirilmiş,

---

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı, "Nurlar", 2015, s.220

2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır.

2002-ci il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanun qəbul olunmuş, 2004-cü ilin oktyabr ayında Ümumrusiya Azərbaycan Konqresinin II qurultayı keçirilmiş, Türkiyə, Qazaxıstan, Ukrayna, Moldova və Avropanın bir sıra ölkələrində diaspor konqresləri fəaliyyətə başlamış, H.Əliyevin azərbaycançılıq ideologiyasının əsasları cəmiyyətdə möhkəmlənmiş, "Dünya azərbaycanlılarının milli özünüdərk və ümummilli azərbaycançılıq məfkurəsi, milli dövlətçilik ətrafında sıx birləşməsi prosesinə" təkan vermişdir. Hazırda dünya ölkələrində 370-dən artıq diaspor təşkilatı yaradılmışdır.[1]

Professor Teymur Əhmədov "Qanlı Yanvar gecəsi" məqaləsində:[2] "Ümummilli lider Heydər Əliyev azərbaycanlılara qarşı çevrilmiş etnik təmizləmə siyasətinin yolverilməz qanlı cinayət, dəhşətli soyqırım olduğunu qeyd edərək demişdir ki: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamıdır və qanlı səhifəsidir".[3]

Ədəbiyyatşünas-alim Ulu Öndərin *obrazını milli tarix və siyasi xidmətlər fonunda* təqdim edir. Heydər Əliyev şəxsi təşəbbüs göstərərək Xocalı hadisəsinə siyasi qiymət vermiş və erməni şovinist – millətçilərinin törətdiyi cinayətlərin dünya dövlətləri və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təcili tədbirlər görmüşdür. Azərbaycan Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarı ilə fevralın 26-sı Xocalı soyqırımı və milli matəm günü elan olunmuşdur.

Teymur Əhmədov "Müsibətli günlərin əks-sədası" məqaləsində[4] isə Heydər Əliyevin mövqeyini – separatçı hərəkətlərin beynəlxalq ictimaiyyətə, bütün dünyaya, Qafqaz bölgəsinə böyük təhlükə olduğunu, buna etiraz və inamını xatırladaraq çıxışından sitat verir: "...Biz sülhsevər dövlət kimi sülh yolu ilə beynəlxalq hüquq normaları və prinsipləri əsasında tezliklə torpaqlarımızın düşmən tapdağından tam azad edilməsinə nail olacağıq".[5] O, "Milli müstəqilliyin

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı, "Nurlar", 2015, s.326
[2] "Füyuzat", № 1, 2009, s.2-5
[3] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı, "Nurlar", 2015, s.274-275
[4] "Füyuzat" № 1, 2010, s. 2-5
[5] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı, "Nurlar", 2015, s.305

təntənəsi" məqaləsində ("Füyuzat" № 5, 2011, s.2-4) dövlət müstəqilliyinin 20-ci ildönümünün keçirilməsi günlərində Məhəmməd Əmin Rəsulzadə və Heydər Əlirza oğlu Əliyevin bu sahədə xidmətlərinin şərhini vermişdir. Müəllif yazır ki, Heydər Əliyev 1990-cı ilin noyabrında Naxçıvanda Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsini təmin etmiş, redaktorluq etdiyim "Vətən səsi" qəzeti isə Bakının Azadlıq meydanında yüz minlərlə insanın dalğalandırılmış üçrəngli bayrağının fotoşəklini çəkib geniş planda dərc etdirmişdi. Professor bildirir ki, Ulu Öndər 1993-cü ildə liderlik missiyasını öhdəsinə götürərək xalqı xaosdan qurtarmış, xalqın iradəsini əks etdirmişdir. Siyasi xadim qaynar zəkasını, qazandığı zəngin biliyi, təcrübə-təşkilatçılıq səriştəsini və müdrikliyi öz xalqının gələcəyinə sərf etmişdir. Dövlət qurucusu 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasını qurmuş, daimi sabitlik yaratmış, dövlətçiliyin əsaslarını, möhkəm təməlini yaratmışdır. Teymur Əhmədov göstərir ki, "Əsrin müqaviləsi" Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olmuş, ölkə iqtisadiyyatında ciddi dönüş başlanmışdır. "Heydər Əliyevin neft strategiyası nəticəsində böyük layihələrinin tikilməsi ölkəmizin nəhəng addımlarla inkişafının etibarlı təməlinə çevrilmişdir".[1]

Böyük dövlət rəhbəri 20 illik müstəqillik dövründə daxili və xarici siyasətdə sürətli yüksəlişə nail olmuş, xarici ölkələrdə səfirliklərin açılmasını təmin etmiş, diaspor hərəkatını, beynəlxalq aləmdə iqtisadi və mədəni əlaqələri gücləndirmişdir. Professor Teymur Əhmədov bunu da xüsusi vurğulayır ki, "Heydər Əliyevin siyasətinin bu gün Azərbaycanda uğurla davam etdirilməsi ölkə başçısı İlham Əliyevin istedadlı dövlət xadimi, yetkin siyasətçi olması ilə yanaşı, mövcud siyasətə sədaqəti ilə bağlıdır".[2]

"Ədəbi dilə vətəndaşlıq borcu" məqaləsində professor Teymur Əhmədov Heydər Əliyevin fikir və məfkurəni dil siyasətinə doğru yönəltməsindən söz açır. Göstərir ki, Ulu Öndər yüzlərlə şagirdi xarici ölkələrdə ali təhsil almağa göndərirdi. Əmin idi ki, onlar mükəmməl təhsilli mütəxəssislər kimi doğma ölkəsinin inkişafına namusla xidmət edəcəklər. 1997-ci il avqustun 29-da Prezident sarayında daxildə və xaricdə ali məktəblərə qəbul olunmuş tələbələrlə

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı, "Nurlar", 2015, s.353
[2] Yenə orada, s.354

görüş keçirilmiş, Heydər Əliyev doğma ana dilimizi, dövlət dilimizi yaxşı bilməyi tövsiyə etmişdir. Ulu Öndər bildirirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadiminin fəaliyyəti nəticəsində mümkün olur".[1] Teymur Əhmədov xatırladır ki, Heydər Əliyev 2001-2003-cü illərdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi", "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi haqqında" fərmanlar vermişdir. Ulu Öndər demişdir: "Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".[2]

Ədəbiyyatşünas-alim "Müqəddəs əmanət" məqaləsində də Heydər Əliyevin dil siyasətinin təbliğini davam etdirmiş və yazmışdır: "Ümummilli lider Heydər Əliyev Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirirdi, ana dilimizin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Müstəqillik dövründə isə dilin taleyini diqqət mərkəzində saxlamış, ardıcıl, məqsədyönlü siyasət aparmışdır. Ana dilimizin dövlət dili statusu hüquqi baxımdan tamamilə qanuniləşdirilmişdir".[3]

Professor Teymur Əhmədov Heydər Əliyevin siyasi xadim obrazını faktlar, sənədlər əsasında maarifçi təbliğat yönündən təqdim etmiş, Heydər Əliyev fenomenini həmişə diqqətdə saxlamışdır. "Azərbaycan: imkanlı güclü ölkə" məqaləsi "Bakı–2015" I Avropa oyunlarına həsr edilmiş, məqalədə siyasi varis olaraq Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qüdrəti ifadə olunmuşdur. 2015-ci ilin yanvarında Heydər Əliyev Fondu İsveçrənin Davos şəhərində "Bakı–2015" ilk Avropa oyunlarının təqdimatı olmuş, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bakı – 2015" ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban

---

[1] Teymur Əhmədov. Seçilmiş əsərləri. 5 clddə, IV cild. Bakı, "Nurlar", 2015, s.390
[2] Yenə orada, s.393
[3] Yenə orada, s.393

Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin iştirakı ilə "Atəşgah" məbədində yandırdığı məşəlin estafeti keçirilmişdir". Oyunlar 17 gün davam etmiş, 49 ölkədən 429 medal qazanılmışdır.

Teymur Əhmədov "Füyuzat" jurnalı, "Respublika" qəzeti və başqa mətbuat orqanlarında Heydər Əliyev siyasəti və İlham Əliyev varisliyinin parlaq təcəssümü olan publisistik məqalələrini işıqlandırmış, habelə, "Heydər Əliyev və mətbuat" çoxcildliyini beş cilddə, habelə, "Heydər Əliyev və ədəbiyyat" kitabını təqdim etmişdir.

Bəxtiyar Vahabzadə, Xəlil Rza, Nəriman Həsənzadə, Elçin məqalələrində yazıçı kimi danışırlar, aydın, konkret, emosional və səmimi! Ədiblər talelərindən gəlib-keçmiş Heydər Əliyevi oxucuya hərarətli təqdim etmişlər. Ümummilli liderin sərəncamlar verdiyi böyük sənətkarların hər biri onun haqqında qiymətli fikirlər söyləmiş, onların həyatında oynadığı rolu dəyərləndirmişdir: Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Məmməd Araz, Mirvarid Dilbazi, Anar, Elçin, Yusif Səmədoğlu və başqaları.

Filologiya elmləri doktoru, şair Xəlil Rza Ulutürk *Heydər Əliyevin obrazını mədəniyyət hamisi olaraq yaratmış,* bu fonda onun şəxsiyyət və təşkilatçılıq bacarığını ifadə etmiş, sonra onun siyasi hakimiyyətinin əsaslarına diqqət yetirmişdir.

Xəlil Rza Heydər Əliyevə 1960-cı illərdən başlayaraq böyük rəğbət bəsləmişdir. Bu rəğbət həm də ana dili məsələsinə görə olmuşdur. O, 9 oktyabr 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi olmuş Heydər Əliyevə məktubla müraciət etmişdir. Həmin müraciətdə deyilirdi: "Azərbaycan dilinin təsir dairəsini genişləndirmək, milli simasını itirmişlərə qarşı amansız olmaq, qənimətçilərə, rüşvətxorlara qarşı mübarizədə əsla güzəştə getmədən döyüşmək... Sizinlə birlikdə mənim də məramımdır".[1]

Xəlil Rza elmi-tarixi memuarlarında Heydər Əliyev haqqında müxtəlif vaxtlarda fikir demiş, qeydlər aparmışdır. Onun 2 iyun 1980-ci il tarixli gündəliyində Heydər Əliyevin bir sıra Azərbaycan sənətkarının Özbəkistana səfərindən söz açılmışdır. Bu yazıda Mərkəzi Komitənin geniş salonu təsvir olunmuş, Özbəkistan səfə-

---

[1] Xəlil Rza Ulutürkün arxivi. 9 oktyabr 1969-cu il tarixli gündəliyindən

rinin məqsəd və vəzifələri ifadə edilmişdir.

Heydər Əliyev: “Görüşümüzün səbəbi aydındır, – deyir. – Sabah yola düşürsünüz. 1250 nəfər Azərbaycan elçisi orada bizim mədəniyyəti təmsil edəcək. İki anlayış, yəqin ki, heç kəsin diqqətindən yayınmayacaq: *Ləyaqət və məsuliyyət.* Ongünlüyün keçirilməsi həm Özbəkistan KP MK-nın, həm də Azərbaycan KP MK-nın təşəbbüsü ilə başlanıb. Mədəni əməkdaşlıq zəminində millətlərin bir-birinə yaxınlaşması qanunauyğunluğu hamımıza bəllidir. Biz bu qanunauyğunluğu şüurlu fəaliyyətimizlə gücləndirə bilərik, gücləndirməliyik. Azərbaycanda özbək ongünlüyünün necə yüksək səviyyədə keçməsi hamımızın yadındadır. Onlar özlərinin gözəl cəhətlərini nümayiş etdirə bildilər. Özbək mədəniyyətinin böyüklüyünü Azərbaycan ilk dəfə geniş nəzərlə gördü. Əlbəttə, elmin, mədəniyyətin, iqtisadiyyatın bütün sahələrində özbəklərin yetənəkləri böyükdür. Ancaq unutmayaq ki, inqilabın ilk illərində biz bütün Türküstan üçün örnək olmuşuq, onlara yardım etmişik”.[1]

Xəlil Rza Ulutürk göstərir ki, əslində Heydər Əliyev mədəniyyət iştirakçılarına tarixi əməkdaşlığın bərpa olunmasını tövsiyə edirdi.[2] Xəlil Rza da Nəriman Həsənzadə kimi, Heydər Əliyevi *geyiminə, görkəminə, ona olan səmimi münasibətə* qədər müşahidə etmiş və qələmə almışdır: “Natiqə göz qoyuram. Yaraşıqlıdır. Ağ manjetləri qolunun ağzından, yenlərindən azca çıxmış, yaxası Qızıl Ulduzlu, ağ köynəkli, boz kostyumlu, mixəyi qalstuklu, uca boylu Heydər Əlirza oğlu işıq saçır. Bu gün Azərbaycanca beş on kəlmə desəydi, daha da gözəlləşə bilərdi”.[3]

Xəlil Rza Ulutürk 17 iyun 1980-ci il tarixli gündəliyində də Heydər Əliyevin zahiri görkəmini təsvir etmişdir: “Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi yerləşən binadayıq. Beşinci girişdən girib yeddinci qata qalxmış, böyük salonda yer tutmuşuq. Büro üzvləri ilə birlikdə Heydər Əlirza oğlu Əliyev gələndə hamı ayağa qalxır. Əyninə abı rəngli kostyum geymiş, mixəyi qalstuk bağlamış ağ köynəkli, ucaboylu Heydər kişi ləyaqət nuru saçır”.[4]

Sənətkar 22 noyabr 1993-cü ildə Heydər Əliyevə “İnsanı qorumalı” adlı açıq məktubla da müraciət etmişdir. Məktubda deyilir:

---

[1] Xəlil Rza Ulutürkün arxivi. 2 iyun 1980-ci il tarixli gündəliyindən

[2] Yenə orada

[3] Yenə orada

[4] Xəlil Rza Ulutürkün arxivi. 17 iyun 1980-ci il tarixli gündəliyindən

“Hörmətli prezidentimiz Heydər Əlirza oğlu! Sizin xeyirxahlığınız, insana diqqətiniz və həssaslığınız xalqımıza yaxşı bəllidir. Buna görə ümidvarıq ki, respublikada hər bir kadrın özünəlayiq və xalq üçün gərəkli yeri tutmaq uğrunda apardığınız ardıcıl mübarizə bundan sonra da öz bəhrəsini verəcək və Daşqın (Firuz oğlu – Ə.Ə.) kimi oğulların, ləyaqətli kadrların gözdən salınmasını aradan qaldıracaqdır”.

*Xəlil Rza Ulutürk,*
*Xalq şairi Mikayıl Mirzə,*
*Xalq artisti Etibar Məmmədli,*
*Millət vəkili Məmməd Araz, xalq şairi*
*22.11.1993*

“Heydər Əliyev mənim həyatımda” adlı qiymətli kitabda (Bakı, 2005) “Kim ona inanarsa, onunla yüksələcək (“Xəlil Rza Ulutürkün gündəliyindən yarpaqlar”)” adlı məqalə verilmişdir. Yeri gəlmişkən, Xəlil Rza Ulutürk Heydər Əliyevə həm də şeirlər həsr etmişdir: “Ucal, yüksəl, respublikam”, “Gəlir böyük Azərbaycan”, “Heydər Dədə – Atatürk”. “Qanım bayrağımdadır” poemasında isə Ulu Öndər haqqında qiymətli poetik parçalar (hipostasalar) vermişdir. 20 ocaq 1992-ci il tarixli Naxçıvan səfərinin təəssüratı əks olunmuş məqalədə isə Xəlil Rza Ulutürk yazır: “20 ocaq 1992-ci il. Naxçıvana gəlmişəm ki, əziz bir insanı yaxından görüm. Millətinə məhəbbətində günəş kimi qızğın və bərəkətverici, düşmənə nifrətində aslan təki cəsur, qurub yaratmaq elmində memar məharətli, diplomatiya fənnində bütün dövlət xadimlərindən uzaqgörən və müdrik, dostluqda, ülfətdə hədsiz həssas, diqqətli, ülvi Heydər Əlirza oğlu Atatürkümüzü yaxından müşahidə edim, konuşum, nəfəsi ilə isinim. Keçən il qışla yaz ayrıcında onu filarmoniyada, yazıçıların qurultayında görənəm”.[1]

Xəlil Rza Ulutürk Heydər Əliyevlə görüşmüş, Naxçıvana dəvət edilmişdir. Ulu Öndər Naxçıvan, Ordubad küçəsi 4-də, Teymur Qaraş oğlu Paşasoylunun evində yaşamışdır. Şair Heydər Əliyevi “Heydər Əlirza oğlu Atatürk” kimi obrazlı təqdim edir. Belə qiymətləndirmədə isə çox mətləblər var. Sənətkar Heydər Əliyevlə

---

[1] Xəlil Rza Ulutürkün arxivi. 20 ocaq 1992-ci il tarixli gündəliyindən

“Volqa”ya əyləşib Əliabad kəndinə gəlmiş, sonra rəhbərin kabinetinə qayıtmış, 26 ocaq 1990-cı il tarixli xatirələrini Heydər Əliyevə söyləmiş və “Qanlı cəllada” adlı (Qırmızı imperiya başçısı Mixail Qarbaçova) şeirini oxumuşdur. Heydər Əliyev şeiri tarixi sənəd adlandırmışdır: “Gözəl şeirdir. Tarixi sənəddir. Bu şeirdən sonra əlbəttə, həbs olunmalı idin. Həbs olunmağın sənin poeziyana ikinci ləyaqət gətirdi. Sözünün ardında özü dayanan sənətkarı tanıtdı hamıya”.

Xəlil Rza dahi rəhbərlə birlikdə şəhid ailələrini ziyarət etmiş, Ulu Öndərə isə bu şeiri yazmışdır:

*Əyləşib öz təxtində*
*millətinin şahı tək.*
*Kim ona inanmasa,*
*gəbərəcək, öləcək,*
*Kim ona inanarsa,*
*onunla yüksələcək.*
*Şəhidlərin al qanı*
*torpağa hopmayıb, yox.*
*Onun damarlarını dolaşır*
*ildırım tək.*
*Apar Azərbaycanı*
*qürubdan sübhə doğru,*
*Ey Atatürk nəfəsli*
*Heydər Əlirza oğlu!*

Xəlil Rza Ulutürkün gündəliklərindən biri 17 ocaq 1990-cı il, biri 27 təmmuz 1993-cü il, biri də 30 təmmuz 1993-cü il tarixlidir. Bu gündəliklərdə 1990-cı illərin mürəkkəb ictimai-siyasi hadisələri, bu hadisələrin analitikləri, siyasətçiləri, ziyalıları, dövlət adamları, təşkilat rəhbərləri, deputatları, onların mövqeyi və çıxışlarının mətni ifadəsini tapmışdır.

27 təmmuz 1993-cü il tarixli gündəliyin 66-67-ci səhifələrində belə bir yer var: “...Əbülfəz Elçibəy Heydər Əlirza oğlunu hakimiyyətə gətirmədi, gətirməyə məcbur oldu. Lakin Heydər Əlirza oğlu... Azərbaycanın bəxtinə doğmuş dan ulduzudur. Mən əminəm ki, onun rəhbərliyi Azərbaycanı xilas edəcək. Dağlıq Qarabağımız da, Kəlbəcər də, Ağdam mahalı da düşmən tapdağından qurtulacaq-

dır”.[1]

Xalq şairi Xəlil Rza Ulutürk 1962-ci ildən 1975-ci ilə qədər demək olar ki, təzyiq altında olmuşdur. Heydər Əliyev tədbirlərin birində Bəxtiyar Vahabzadə və Xəlil Rza haqqında öz mövqeyini açıq ifadə etmişdir. Ulu Öndər demişdir: “1960-1970-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Hətta, mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtki kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq”.[2]

Xəlil Rza Ulutürkün mətbuatda çapı məsələsi çətin olmuş, o, ədəbi mühitdən mümkün qədər uzaqlaşdırılmışdır. Buna baxmayaraq ruhdan düşməmiş, haqq-ədalətə inanmışdır. Şair Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ona məktubla müraciət etmiş, artıq 1970-ci illərdə üç kitabını: “Yeni zirvələrə” (1971), “Ucalıq” (1973), “Doğmalıq” (1977), 1980-ci illərdə isə daha artıq sürətlə xeyli kitab: “Taparam səni” (1980), “Marallar da duz yeyərmiş” (1981), “Ömürdən uzun gecələr” (1982), “Hara gedir bu dünya” (1983), “Daşdan çıxan bulaq” (1986), “Məndən başlanır vətən” (1988) və başqalarını çap etdirmişdir. Göründüyü kimi, Heydər Əliyevin hakimiyyət illəri şair üçün ruh və qürur mənbəyi olmuşdur.

Ədəbiyyatşünas-alim Heydər Əliyevin şəxsi müdaxiləsi sayəsində 1985-ci ildə “Məqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, Heydər Əliyevin tapşırığı ilə 1986-cı ildə ona Əməkdar incəsənət xadimi adı verilmişdir. 1995-ci ildə Heydər Əliyev Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rza Ulutürkü “İstiqlal” ordeni ilə təltif etmişdir.

Heydər Əliyev 1995-ci ildə Xəlil Rza Ulutürkün xatirə gecəsini keçirmiş, 14 noyabr 2002-ci ildə xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam vermiş, 2004-cü ildə isə cənab İlham Əliyev 70 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış, iki cild-

---

[1] Xəlil Rza Ulutürkün arxivi. 27 təmmuz 1993-cü il tarixli gündəliyindən
[2] Anar. Unudulmaz görüşlər. Bakı, “Təhsil”, 2011, s.48-49

də seçilmiş əsərləri çap olunmuş, 2013-cü ildə şairin 80 illiyi dövlət səviyyəsində qeyd edilmişdir.

Xalq şairi Nəriman Həsənzadə 7 cildliyinin 6-cısını Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr etmişdir. "Mənim əbədi taleyim" adlanan *publisistik xatirələr şairin Heydər Əliyev obrazında Zamanla, Tarixlə görüşüdür.* Silsilə yazılar Heydər Əliyevə həsr edilmiş epiqrafla bağlayır: "Heydər Əliyev şairi şairdən, yazıçını yazıçıdan qoruyurdu. "Bir-birinizə xeyirxah olun" – deyirdi".

Şair etiraf edir ki, ağlına gəlməzdi ki, bu böyük tarixi şəxsiyyət onun tərcümeyi-halının ən parlaq səhifələrini təşkil edəcək. Şair onunla olan görüşü ədəbi taleyi, tarixlə, zamanla görüşü hesab etmişdir. Nəriman Həsənzadə xatırlayır: 1958-ci il idi. Yazıçılar İttifaqı yazıçını Moskvaya, Ali Ədəbiyyat kurslarında oxumağa göndərirdi. O isə Nəriman Nərimanov haqqında irihəcmli əsər yazmaq istəyir, bu məqsədlə KQB arxivində işləyə bilmək üçün sədr Semiçastnı Semyon Kuzmiç adlı rus generalına icazə məktubunu çatdırmaq istəyirdi. Onu qarşılayan Heydər Əliyev olmuş və məktubu qəbul etmişdir. Şair *onun portretini* belə təqdim edir: "Ucaboylu, şax yerişli, möhkəm bədənli, təbəssümlü, eyni zamanda çox ciddi bir insanla görüşdüm. Qara kostyum geyinmişdi. Ona çox yaraşırdı. Azərbaycan dilində danışdı. O vaxt belə idarələrdə hamını rusca qarşılayır, rusca da yola salırdılar".[1]

İkinci görüşdə Nəriman Həsənzadə Heydər Əliyevə Nəriman Nərimanovdan əsər yazdığını bildirmiş və ondan dəyərli tövsiyələr almışdır. Sənətkar poemanı yazdığı müddətdə hələ Mikoyan Moskvada, Kremldə, o biri mikoyanlar isə Bakıda sağ olmuş, vəzifə tutmuşlar. "Azərbaycanın Mərkəzi Komitəsində, nazirliklərdə, komitələrdə, bizim Yazıçılar İttifaqında, jurnal və qəzet redaksiyalarında sözün hər iki mənasında "işləyirdilər".[2]

Xalq şairinin Nəriman Nərimanova həsr edilmiş "Bütün Şərq bilsin" pyesi Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuş və tamaşada Heydər Əliyevlə birlikdə Azərbaycan KP MK-nin Büro üzvləri iştirak etmişlər. Pyes müəllifi qadağan olunmuş materialları Lenin adına Mərkəzi kitabxananın "xüsusi fond"undan, Cavid, Cavad, Müşfiq və Almas İldırımın məhkəməsi aparılmış iclasların ma-

---

[1] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə, 6-cı cild. (Publisist əsərlər). Prometey, 2012, s.12

[2] Yenə orada, s.15

teriallarını Yazıçılar İttifaqından, Mir Cəfər Bağırovun Bakı Partiya konfransındakı çıxışının mətnini əldə etmiş və onlardan faydalanmışdır. Bu mənada N.Həsənzadə dərk etmişdir ki, Heydər Əliyev təkcə Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə gəlməmiş, "həm də mənim və başqa sənət adamlarının ədəbi taleyini şər qüvvələrdən qorumağa sanki Haqdan göndərilmişdi".[1] "Heydər Əliyevin şəxsində mən Nəriman Nərimanovun portretini görürdüm. "Nəriman" poeması mənim əbədi taleyim idi".[2]

Əsər 1968-ci ildə kitab şəklində "Azərnəşr"də çap olunmuş, lakin qlavlit 1400 misrasını ixtisar etmiş, "əsərin içindən əsər götürmüşdür". Heydər Əliyev Azərbaycan KP MK-nin Büro iclaslarının birində çıxışı zamanı göstəriş vermişdir ki, "poema necə yazılıbsa, eləcə də çap edilsin".[3] Fəqət ixtisarlar qlavlitdə itmişdi.

Şair yazır: "Qədim Romada Horatsi kimi böyük şair həmişə deyirdi ki, kaş mənim şeirlərimi oxuyan dörd-beş nəfərin içindən biri də Avqust olaydı. Təbii ki, o, qədim Romada "Ata yurdun atası" sayılan imperator Oktavian Avqustu nəzərdə tuturdu. Heydər Əliyev nəinki şeirimizi oxuyur, həm də şairi şairdən, yazıçını yazıçıdan, alimi alimdən qoruyurdu".[4] Müəllif davam edir: "Azərbaycanda sənətin bütün növləri onun vaxtında çiçəkləndi. Onun dövründə yaşayan hər bir sənətkarın yaradıcılıq taleyində Heydər Əliyevin pak ruhu yaşayır".[5]

"Nəriman" poeması rus şairi Natan Zlotnikov tərəfindən rus dilinə tərcümə olunmuş və 1973-cü ildə SSRİ yazıçılarının "Sovetskiy pisatel" nəşriyyatında çapdan çıxmışdır. "Bütün Şərq bilsin" əsəri SSRİ üzrə keçirilən pyes müsabiqəsinə təqdim edilmiş, 600 pyesdən Moskvada tamaşa üçün 11-i seçilmiş, "Bütün Şərq bilsin" on bir pyesin biri olmuşdur. Əsər Vladimir Mayakovski adına Akademik Dövlət Dram Teatrında (1983) göstərilmiş, haqqında rus mətbuatı müsbət fikirlər söyləmişdir. Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" və "Atabəylər" pyesləri Dövlət mükafatına təqdim edilmiş, fəqət bir səs "çatmamışdır". Pyesin musiqi bəstəkarı isə Dövlət

[1] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə, 6-cı cild. (Publisist əsərlər). Prometey, 2012, s.18
[2] Yenə orada, s.18
[3] Yenə orada, s.19
[4] Yenə orada, s.27
[5] Yenə orada, s.27

mükafatı almışdır... Heydər Əliyev Akademik teatrda "Hamlet" tamaşasının fasiləsi zamanı çay süfrəsi arxasında səmimi söhbət zamanı demişdir ki, "Atabəylər" əsəri hər gün göstərilməyə layiqdir. Bu işi Naxçıvan Teatrı yerinə yetirmiş, "Atabəylər" "Teatrın pasportu" fəxri adını qazanmış, Heydər Əliyev isə şair taleyinin arxası, dayağı olmuşdur.

Professor Nəriman Həsənzadəni "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifəsinə Heydər Əliyev təyin etmişdir. "Ədəbiyyat və incəsənət"də baş redaktor işlədiyim müddətdə biz Heydər Əliyevin çıxışlarını qəzet səhifələrində verirdik. Onun elə çıxışı, söhbəti, müsahibəsi olmazdı ki, orada millətin tarixinə, taleyinə toxunmasın, Respublikanın mövcud həyatının canlı mənzərəsi olmasın, ədəbiyyat, mədəniyyət və incəsənət məsələlərindən danışmasın".

Heydər Əliyev Nəsimi, Füzuli, Hüseyn Cavid, Mirzə Cəlil, Nəriman Nərimanov, Cəfər Cabbarlı, Səməd Vurğun, Mehdi Hüseynzadənin heykəllərini qoydurmuş, Nəriman Nərimanovun heykəlini isə Bakının ən görkəmli yerində, hətta, Rusiyanın Ulyanovsk şəhərində də ucaltdırmışdı. İctimai xadim respublika Dövlət Mətbuat Komitəsinin sədr müavini olarkən Azərbaycanda ilk dəfə Tehran mətbəəsilə birlikdə Heydər Əliyevin "Səsli kitab"ını nəşr etdirmiş, bir neçə nüsxəsini isə özünə göndərmişdir.

Şair 1985-ci ilin avqust ayında Heydər Əliyevlə Moskvada, "Novo-deviçye" qəbiristanlığında Zərifə xanımın məzarı üstündə görüşmüş və Zərifə xanıma həsr etdiyi şeiri oxumuş və əlyazmasını ona çatdırmışdır. Görüş təsadüfən baş vermişdir. Nəriman Həsənzadə bir dəstə qızılgüllə məzarı ziyarətə getmiş, bir saat sonra Ulu Öndər də təsadüfən ora gəlmiş, gözlənilmədən görüşmüşlər.

Sənətkar 1 avqust 1991-ci ildə Bəxtiyar Vahabzadə, Rüstəm Əliyev, Qasım Qasımzadə ilə birlikdə Naxçıvanda Heydər Əliyevin görüşündə olmuş, "millət, vətən yolunda sarsıntılar keçirən bu tarixi şəxsiyyətin necə möhkəm iradəyə və ruh yüksəkliyinə sahib olduğunu görüb milli qürur hissi keçirmişlər". Nəriman Həsənzadə Heydər Əliyevlə İstanbulda da təsadüfən görüşmüşdür. O zaman o, Respublika Ali Sovetinə deputat seçilmişdi. Heydər Əliyev isə Naxçıvan-İqdır Dostluq körpüsünü çəkdirmişdi.

Heydər Əliyev xatırlatmışdır ki, XIX əsr xalqımızın həyatında maraqlı və zəngin dövr olmuş, lakin M.F.Axundzadənin "Puşkinin

ölümünə Şərq poeması"ndan başqa heç bir əsər yazılmamışdır. Şair bunu əsas tutaraq uzun müddət "Zümrüd quşu" adlı epik-dramatik poema üzərində işləmişdir. Mövzu Ulu Öndərdən gəlmişdir. Həmin əsərə görə Heydər Əliyev Nəriman Həsənzadəyə "Əməkdar incəsənət xadimi" fəxri adını vermişdir.

Xalq şairi "Kimin sualı var?" poemasını "Qoy ədalət zəfər çalsın" – Heydər Əliyevin iş prinsipindən, yaradıcılıq üslubundan ilham alaraq yazmışdır. Nəriman Həsənzadə bu əsəri "Heydər Əliyevin yubileyinə həsr etmişdir. Lakin əsər kimlərəsə xoş gəlməmiş, şairi "yoldaşlıq məhkəməsinə" vermiş, hətta həbsini lazım bilmişlər. İttiham çox ağır olmuşdu. Guya əsər Birincinin əleyhinə yazılmışdı... Lakin şairin "başına açılan bu oyunların qarşısını alan yeganə dayaq Heydər Əliyev olmuşdu..."[1] Əlbəttə, Nəriman Həsənzadənin qələm dostları da var idi. Lakin onu xilas edən respublikada böyük nüfuz və söz sahibi mərhum akademik Həsən Əliyev olmuşdur. 2 il sonra poema kitab halında nəşr edilmiş, Xəlil Rza Ulutürk mətbuatda geniş məqalə ilə çıxış etmişdir: "Kimin sualı var?" poemasını yalnız Nəriman yaradıclığının deyil, Azərbaycanın çağdaş poeziya mədəniyyətinin ən parlaq incilərindən biri adlandırmaq olar".[2]

Heydər Əliyev ilk dəfə Naxçıvandan Bakıya gəlirdi. O, Bəxtiyar Vahabzadəyə, Nəriman Həsənzadəyə və daha üç nəfərə xəbər çatdırmış, lakin bu iki şair aeroporta yola düşmüş, Heydər Əliyevlə orada görüşmüş, dahi şəxsiyyət Bəxtiyar Vahabzadənin maşınına minmiş, Nəriman Həsənzadə isə akademik Cəlal Əliyevin maşınında onun evinə gəlmişdir.

Moskva Şəhər Sovetinin Sütunlu salonunda xalq şairi Səməd Vurğunun təntənəli yubiley gecəsi keçiriləndə Nəriman Həsənzadə Heydər Əliyevdən dəvət almış, Rəyasət Heyətində əyləşmişdir...

Cəfər Cabbarlının abidəsi yeganə heykəl olmuşdur ki, bütöv qranitdən yoğrulmuşdur. Kiyev şəhərindən bütöv gətirilmişdi.

Heydər Əliyev Hüseyn Cavidin sümüklərini Sibirdən Azərbaycana gətirdikdən sonra, Füzulinin də sümüklərini Kərbəladan Azərbaycana gətirtdirmək istəmişdi. "O, böyük ideallarla yaşayan, xalqının sabahını düşünən və onunla fəxr edən şəxsiyyət idi".[3]

---

[1] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə, 6-cı cild. (Publisist əsərlər). Prometey, 2012, s.81

[2] Yenə orada, s.88

[3] Yenə orada, s.91

Nəriman Həsənzadə “Xarı bülbül” poemasını Molla Pənah Vaqifin 200 illiyi münasibətilə yazmışdır. Görkəmli şairin abidəsinin açılışına, Şuşa şəhərinə dəvət almış, abidə önündə çıxış etmişdir. Lənkərana ilk məhsul bayramına gedəndə də Heydər Əliyevdən böyük diqqət görmüş, Məclisə daxil olanda “Heydər Əliyev öz qarşısında boş olan yeri ona göstərmiş və: “- Otur çörəyini ye”, – demişdir. “Heydər Əliyev özüylə şəhərdən gətirdiyi adamların yerbəyer olunduğunu biləndən sonra süfrəyə əl uzatdı”.[1]

Xalq şairi “Ulu Öndər Heydər Əliyev xalqımızın mütəfəkkir və ziyalılarının xatirəsini həmişə uca tuturdu” məqaləsini 12 dekabr 2008-ci ildə “Azərbaycan” qəzetində dərc etdirmişdi. Məqalədə göstərilirdi ki, Heydər Əliyev “Uzaq sahillərdə”, “Yanar ürək”, “Ulduzlar sönmür”, “Nəsimi”, “İstintaq” kimi filmlərin və bədii əsərlərin yaranmasının təşəbbüskarı olmuşdur. Böyük rəhbərin təklifi ilə “Doktor Nərimanov”, “Nəsimi”, “İstintaq” filmləri Dövlət Mükafatı almışdı. Bəxtiyar Vahabzadənin, Nəriman Həsənzadənin və onların əsərlərinin “azadlığında” Ulu Öndərin əvəzsiz rolu olmuşdur.

Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra tarixi yerlərə, abidələrə, qədim tikililərə diqqət yetirmişdir. Böyük öndər demişdir: “Mən Azərbaycan Prezidenti kimi Sizə və bütün əhalimizə, bütün alimlərimizə, ziyalılarımıza bildirmək istəyirəm ki, Azərbaycanı, onun tarixini, mədəniyyətini, keçmişini dürüst, əsaslı şəkildə sübut edən hər bir əsər bəyəniləcəkdir. Bu barədə heç kəsə nə millətçi damğası vurulacaq, nə də kimsə günahlandırılacaq. Bununla bildirmək istəyirəm ki, indi müstəqil dövlət şəraitində bizim alimlərimizin böyük imkanları var”.[2]

Heydər Əliyev yarım milyondan artıq soydaşımız yaşayan qonşu Gürcüstanla əlaqələri yaxşılaşdırmağa çalışmış, azərbaycanlılara məxsus tarixi abidələri, Nəriman Nərimanov və Cəlil Məmmədquluzadənin Tiflisdəki ev-muzeylərini himayəyə götürməyə tapşırıq vermişdir. Nəticədə həmin muzeylər respublika Mədəniyyət və Turizm Nazirliyinin mülkiyyətinə verilmişdir.

1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin büstü bərpa edilmiş, Mirzə Şəfi Vazehin məzarı sahmana salınmış, qəbirüstü abidəsi düzəldilmişdir.

---

[1] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə, 6-cı cild. (Publisist əsərlər). Prometey, 2012, s.103

[2] Yenə orada, s.270-271

Azərbaycan Xalq Cümhuriyyəti qurucularından olan Fətəli xan Xoyskinin itib-batmaqda olan məzarı tapılmış, qəbrinin üstü götürülmüş, büstü ucaldılmışdır. Eləcə də Həsən bəy Ağayevin heç kimə məlum olmayan məzarı tapılmış, büstü ucaldılmış və axirət evinin ətrafında abadlıq işləri aparılmışdır. Bu barədə Heydər Əliyevi məlumatlandıranda tapşırmışdır ki, elə indidən geri qayıdıb, orada keşik çəkilsin. Səhər isə Tbilisi cümə məscidinin axundunu da götürüb müsəlman adət-ənənəsi ilə deputatlarımızın və digər ziyalılarımızın iştirakı ilə Fətəli xan Xoyskinin də qəbrinin Mirzə Fətəli Axundzadənin büstünün yanına köçürülməsini təmin etmişdir. Fətəli xan Xoyskiyə xüsusi məhəbbəti olan Ulu Öndər 1996-cı il mart ayının 9-da Gürcüstanda olarkən Fətəli xan Xoyskinin büstünün açılışında iştirak etmişdir”.[1]

Heydər Əliyev Mirzə Fətəli Axundzadənin ikimərtəbəli möhtəşəm mülkünü erməni, erməniqarışıq gürcü ailələrindən geri aldırmış, onu bərpa etdirmiş, mənzilləri məişət əşyaları və eksponatlarla zənginləşdirmiş, adına layiq ev-muzeyi yaradılmışdır. “Sonralar bu ünvan gürcüstanlı azərbaycanlıların Mədəniyyət Mərkəzinə çevrilmişdir”.[2]

Heydər Əliyevin təşəbbüsü ilə Tbilisidə teatr truppası yaradılmışdır. “Gürcüstan” qəzeti yenidən fəaliyyətə başlamışdır. “Heydər Əliyevin uzaqgörənliyi nəticəsində bərpa olunmuş tarixi abidələrimizin, yaradılmış muzeylərimizin xalqımızın mülkiyyətinə çevrilməsi hamımızı sevindirir. Bu baxımdan Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev irsinə sadiq olaraq Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və orada xiyabanın yaradılması barədə irəli sürdüyü təşəbbüs təqdirəlayiqdir”.[3]

Heydər Əliyev əməkdar elm xadimi, professor Səfərəli Babayevin “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” monoqrafiyasının çapına səbəbkar olmuş, “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin qeyd olunması haqqında fərman vermiş və bu kitabın da nəşrini plana saldırmışdır.

---

[1] Nəriman Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə, 6-cı cild. (Publisist əsərlər). Prometey, 2012, s.274

[2] Yenə orada, s.274

[3] Yenə orada, s.278-279

Göründüyü kimi, xalq şairi, filologiya üzrə fəlsəfə doktoru Nəriman Həsənzadənin yazısı xatirədir, sadə və səmimidir. Bu yazılarda Heydər Əliyevin *şəxsi obrazı real, təbii olanlardan hasil olmuş, ikili dialoqlardan, dialoji monoloqlardan* alınmışdır.

"Heydər Əliyev və Azərbaycan folkloru" məqaləsində professor Məhərrəm Qasımlı *Heydər Əliyevin folklorda olan obrazını* canlandırmışdır. Müəllif Ulu Öndərin müstəqillikdən əvvəl və sonra olan folklor sahəsində tarixi xidmətlərini ümumiləşdirmişdir. Məhərrəm Qasımlı yazır: "1969-cu ildə baş verən tarixi dəyişiklik – Heydər Əliyevin Azərbaycan Respublikasının siyasi rəhbəri vəzifəsinə gəlməsi bir çox başqa sahələrlə yanaşı, mənəvi-humanitar istiqamətin, o cümlədən də milli mədəniyyətimizlə bağlı elmi və mədəni-təşkilati fəaliyyətin canlanmasına səbəb oldu".[1] Bu mənada alimin məqaləsində həm milli-mənəvi dəyərlərimizin kompleksi, həm də Ulu Öndərin memarlıq, xalçaçılıq, xalq musiqisi, folklor və etnoqrafiya sahəsində həyata keçirdiyi vəzifələrin şahidi oluruq.

Alim folklor sahəsində Heydər Əliyevin tarixən gördüyü işlərin xəritəsini cızmış və dahi rəhbərin bu fonda obrazını canlandırmağa çalışmışdır. Bu baxımdan folklorşünas Heydər Əliyevin "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi sahəsində böyük işlərini ardıcıllıqla, mərhələlər üzrə xatırlatmış, təsvir-informasiya görüntüsü vermişdir. 1970-ci illərdən start götürən Dədə Qorqud hərəkatı elm-təhsil, yazıçılar, rəssamlar, heykəltəraşlar, kinematoqrafçılar sahəsini mövzu və motivləri ilə əhatə etməyə başlamışdır. "Bütün bunlar elm və sənət aləminin Qorqudla – xalqın folklor yaddaşı, soykökü, milli varlıq dünyası ilə nəfəs aldığının, yaşadığının əyani təzahürü idi".[2]

Məhərrəm Qasımlının faktlar əsasında qurulmuş fikirləri təsvir təhkiyəsində olub mahiyyəti – Heydər Əliyev fədakarlığını və onun xalqçılıq, dövlətçilik ruhunu, yüksək və sabit mənəvi-əxlaqi göstəricilərini ifadə etmişdir. Bu baxımdan Ulu Öndərin folklor və folklorşünaslıq sahəsində tarixi xidmətlərini fakt bolluğu ilə, xronoloji ardıcıllıqla izləmişdir.

Müəllif göstərmişdir ki, "Dədə Qorqud", "Oğuz", "Oğuz yurdu", "Ozan", "Türk mədəniyyəti", "Qan yaddaşı" kimi ifadələr ilk

[1] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, 148 s., s.73
[2] Yenə orada, s.77

dəfə böyük şəxsiyyətin təşəbbüsləri sayəsində elmi toplulara, ədəbi-mədəni yığıncaqlara, kitablara, mətbuata, radio-televiziya verilişlərinə gedib çıxmışdır. "Mənəvi yaddaşın və milli özümlülüyün bərpası İçərişəhər, Şuşa, Ordubad, Gəncə memarlıq komplekslərinin milli qoruq elan edilməsindən, qədim xalçaların muzey-qoruğa ("Xalça muzeyinə") cəmləşdirilməsindən, sazı-sözü, muğam sənətini, xalq mahnıları və rəqs-oyun mədəniyyətimizi himayə edən rəsmi qurumların (Azərbaycan Aşıqlar Birliyi, "Aşıq Pəri məclisi", "İrs", "Atəşgah", "Gülüstan", "Yallı" və s. kimi xalq kollektivləri, "Muğam teatrı", "Dastan teatrı", "Ozan-Aşıq muzeyi" və s.) yaradılmasından, kütləvi folklor nəşrlərindən, folklorun geniş miqyasda təbliğindən (folklor festivalları, saz bayramları, "Bulaq" və "Ozan" verilişləri, qəzet və jurnallarda folklor səhifələri və s.) başladı və az sonra öz uğurlu nəticələrini göstərdi".[1]

Əməkdar elm xadimi faktları xatırlatmış, təzahürü göstərmiş və mahiyyəti nişan vermişdir: 1978-ci ildə akademik Həmid Araslının "Kitabi-Dədə Qorqud", habelə, kütləvi folklor nəşrləri ("Koroğlu", "Azərbaycan dastanları", "Aşıq Ələsgər"), aşıqların qurultaylarının çağırılması, Respublika Sarayında ozan-aşıq tədbirləri, dastan axşamları, el sənətkarlarının yubileyləri, "Xarı bülbül" müsabiqəsi, "Kitabi-Dədə Qorqud"un elmi müzakirələri, toplu nəşrləri, eposun elmi-tənqidi mətninin hazırlanması, Həmid Araslı, Məmməd Hüseyn Təhmasib, Mirəli Seyidov, Fərhad Zeynalov, Samət Əlizadə, Şamil Cəmşidov, Elməddin Əlibəyzadə, Bəhlul Abdulla və başqalarının elmi fəaliyyəti, "Qobustan", "Azərbaycan", "Ulduz" jurnallarında, "Azərbaycan filologiyası", "Filologiya məsələləri" məcmuəsində folklor və etnoqrafiya mədəniyyətinin inkişafı (türk mifoloji düşüncə sistemi, tarixi-etnik yaddaş, soykökə qayıdış, milli kimlik müəyyənliyi), Qorqudçuluğun elm və təhsildə təbliği, Dədə Qorqud mövzusu və motivlərinin yazıçı, rəssam, heykəltəraş, kinematoqrafçılar düşüncəsində yeri, Qorqud xalçaları, "Dədə Qorqud" filmi (Anarın ssenarisi əsasında), M.Abdullayev, T.Əliyev və M.Avşarın rəsmlərində Dədə Qorqud motivləri, heykəltəraşlıqda Qorqud motivləri, İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, İsa Hüseynov, Anar, Elçin, Mövlud Süleymanlı, Fərman Kərimzadə, Əhmədağa Muğanlı, Sara Oğuz, Vaqif Nəsib, Məmməd Oruc və başqalarının yaradıcılığında Qorqud motivləri, şairlərdən Rə-

---

[1] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, 148 s., s.74

sul Rza, Osman Sarıvəlli, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Məmməd Araz, Məstan Günər, Məmməd İsmayıl, Musa Yaqub, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Dilsuz, Arif Abdullazadənin poeziyasında Qorqud obrazı və motivləri, Cənubi Azərbaycanda Məhəmmədhüseyn Şəhriyar, Bulud Qaraçorlu Səhənd, Səməd Behrəngi, Savalan, Sönməz və başqalarının yaradıcılığında folklor ruhu, "Varlıq" dərgisində "Dədə Qorqud" mövzusu, Xəzər dənizində "Dədə Qorqud" adlı qazma qurğusunun fəaliyyəti, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin fərmanı, onun Azərbaycan Respublikası adından Prezident Heydər Əlyevin təşəbbüsü ilə YUNESKO tərəfindən keçirilməsi, "Kitabi-Dədə Qorqud" eposunun elmi-tənqidi mətni, rus, ingilis, alman, gürcü, eston, litva, qazax, yapon dillərinə tərcüməsi, tədqiq və təbliği məqsədilə Dədə Qorqud–1300 Beynəlxalq Elmi Simpoziumunun keçirilməsi, Azərbaycan MEA, BDU və ADPU-da "Qorqudşünaslıq" elmi laboratoriyalarının yaradılması, "Dədə Qorqud" elmi jurnalının fəaliyyəti, "Kitabi-Dədə Qorqud" ensiklopediyasının nəşri, el sənətkarlarının (A.Ələsgər, Aşıq Alı) yubileyləri, saz-söz adamlarının beynəlxalq festivallarda iştirakı, "Qurbani saz bayramı", "Bayatı bayramı", "Dastan gecəsi", "Ozan-Aşıq muzeyi"n, Folklor Elmi-Mədəni Mərkəzinin yaradılması və onun müstəqil elmi-tədqiqat qurumuna – Folkor İnstitutuna çevrilməsi, 2002-ci ildə Azərbaycan Respublikası Milli Məclisində "Folklor haqqında Qanun"un qəbulu və Heydər Əliyev tərəfindən təsdiqi, "Folklor və etnoqrafiya" beynəlxalq elmi jurnalın nəşri, Azərbaycan "Muğam"ının YUNESKO tərəfindən qeydə alınması, "Novruz" mərasimləri, "Alpamış"ın, "Manas"ın, "Koroğlu"nun yubileylərinin keçirilməsi – bütün hallarda təzahür mahiyyəti bəlgələyir. Mahiyyət budur ki, bütün bunlar üçün Heydər Əliyevin özü ruh sahibi olmuşdur: Vətən sevgisi və xalq qəhrəmanlığı, şəxsiyyət və qətiyyət sahibi olmaq, zəngin mentalitet və mənəvi-əxlaqi dəyər sahibi olmaq! Heydər Əliyevin ruhunu qidalandıran özünün də bildirdiyi kimi, məsələn, "Küçələrə su səpmişəm", yaxud "Bala Nərgiz" kimi xalq-aşıq musiqiləri, "kəklikotu" çay, dişləmə çay kimi qədim el adətləri və s. olub, belə misalları çox-çox çəkmək olar. Milli ruh və zəngin xalq yaradıcılığı! Bu mahiyyətin özü də başqa bir mahiyyəti doğurmuşdur. Heydər Əliyev bütün hallarda ədəbiyyat və incəsənətə dövlət siyasətinin tərkib hissəsi kimi baxmış, dövlətin-xalqın fiziki və mənəvi gücünü Avropaya, Qərbə, dünyaya bəyan etmişdir.

Heydər Əliyev nümunəsi xalqın tarixi keçmişi, klassik ədəbi qaynaqlar, ana dili, milli-mənəvi sərvətlərə qayğı, milli ruh, vətənçilik və azərbaycançılıq ideyaları, siyasi himayədarlıq, öndərlik, mübarizə və mücadilə, Azərbaycan ziyalılığı və xalqın strateji qayəsi deməkdir!

Professor Nizaməddin Şəmsizadə "Heydər Əliyev və azərbaycançılıq" məqaləsində[1] Ümummilli liderin müasir mərhələdə azərbaycançılıq ideologiyası təliminin əsaslarına münasibət bildirmişdir. Müəllif *Ulu Öndərin tarixi obrazını həm ideoloji-siyasi, həm də mədəniyyət planında* canlandırmışdır. Ədəbiyyatşünas-alim Heydər Əliyevin sonsuz mənəvi keyfiyyətlərini: onun boy-buxunu, siması, natiqlik məharəti, siyasi iradə, dövlətçilik təfəkkürü, idarəetmə bacarığı və xalq qüdrətinə inamını xatırlatmış, böyük rəhbərin azərbaycançılığını türkçülük zəminində təqdim etmiş, onun milli birlik təlimi dünya azərbaycanlılarının da ideologiyası olduğunun şərhini vermişdir. Nizaməddin Şəmsizadə milli ideologiyamızın əsasında Azərbaycan Xalq Cümhuriyyətinin tarixi dövlətçilik ənənələrinin dayandığını, ana dili uğrunda fikir mücadiləsinin çağdaş davamını ifadə etmişdir.

Alim Heydər Əlyevin çıxışlarına istinad edərək Ulu Öndərin azərbaycançılıq və ana dili barəsində məfkurəsini ardıcıl şərh edərək göstərmişdir ki, Heydər Əliyev azərbaycançılıq nəzəriyyəsini dövlətçiliyə tətbiq etdi, dövlət yaratdı və xalqın dövlətçilik hissini formalaşdırdı. Heydər Əliyev azərbaycançılıq təliminin əsasında dayanan "Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni – azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı".[2] "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" (18 iyun 2001), "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" (9 avqust 2001) fərmanlar imzaladı.

Nizaməddin Şəmsizadə azərbaycançılıq ideologiyasının əsasları kimi Heydər Əliyevin mədəniyyət sahəsində konsepsiyasının tarix və müasirlik qavrayışına toxunmuş, şəxsiyyətlərin və bədii əsərlərin yubiley tədbirlərinin keçirilməsində dövlət və millət siyasətinin dayandığını şərh etmişdir. Professor Nizaməddin Şəmsizadə Heydər Əliyevin təlimi əsasında "Azərbaycançılıq ideologiyası" və "Azərbaycançılıq" monoqrafiyalarını çap etdirmişdir.[3] Nizaməddin Şəmsizadənin ideoloji təhlillərinin ardıcıl təkamülündə Azərbaycan Xalq

---

[1] Bax: Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, s.227-244
[2] Yenə orada, s.231
[3] Bax: Nizaməddin Şəmsizadə. Azərbaycançılıq ideologiyası. Bakı, "Nurlar", 2006

Cümhuriyyəti ənənəsi, Azərbaycan qayəsi və Ümummilli liderin məfkurəsinə istinad edən qaynaqlar əsas olmuşdur.[1]

Bu il Azərbaycan Xalq Cümhuriyyəti, milli dövlət müstəqilliyimizin 100 ili tamam olur. 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti ilidir. Bu il həm də mövcud tarixi mərhələdə görkəmli dövlət qurucusu, Ümummilli lider, dünya sivilzasiyasında elit insan Heydər Əlirza oğlu Əliyevin 95 illik yubileyidir.

Heydər Əliyev tarixin böyük şəxsiyyətidir. Dünyanın dövlət və siyasi xadimlərinə qədər hamı onu qəbul etmiş, Ulu Öndərdən yazmış, haqqında qiymətli fikirlər söyləmişdir. Dünya sivilizasiyasında elit şəxsiyyət kimi dəyərli ad qazanmış Heydər Əlirza oğlu Əliyev ictimai-humanitar sahənin fikir və düşüncə adamlarının elmi-tədqiqat obyekti, Kütləvi İnformasiya Vasitələrinin qüdrətli təbliğat mənbəyi olmuşdur. Ümumən, publisistika və jurnalistika məktəbinin görkəmli nümayəndələri bu böyük rəhbərdən qürurla söz açmış, haqqında fəxarətlə yazmışlar.

Məqalədə ədəbi-filoloji fikrimizin görkəmli nümayəndələrinin qələmində Heydər Əliyevin *tarixi obrazı filoloji fikir zəminində* canlandırılmışdır. Elm Heydər Əliyev fenomenini nə qədər sübutlu, dəlilli təqdim edirsə, ədəbiyyat da ulu şəxsiyyəti bir o qədər bədii, obrazlı təcəssüm etdirir. Heydər Əliyev tarixi Azərbaycanın, əbədi istiqlalımızın yol yoldaşı, müasir və çağdaş zəmanəmizin ali vətəndaşıdır.

*Azadlıq Allahı tək əyləşib öz yerində,*
*Yerin, göyün nuru var peyğəmbər gözlərində,*
*Sadəliyi nur saçır, əzəməti dərində...*
*Gedir, polad çiynində Kəpəz, Qoşqar boyda yük.*
*Heydər Dədə – Atatürk!*

---

[1] Bu barədə bax: Heydər Əlirza oğlu Əliyev. Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitqi. "Respublika" qəzeti, 24 noyabr 1998; Heydər Əlirza oğlu Əliyev. Dünya azərbaycanlılarının birinci qurultayındakı çıxışı. "Azərbaycan" qəzeti, 10 noyabr 2001; "Azərbaycan" qəzeti, 1918-ci ilin materialları. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, "Elm", 1990; Ramiz Mehdiyev. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001; S.Xəlilov. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, 2002.

## BƏLƏDÇİ

Giriş: Ədəbiyyatın yüksək amalı və böyük borcu (akademik İsa Həbibbəyli) .................................................................... 3

Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz (akademik İsa Həbibbəyli) ........................................................................ 7

Poeziyada Heydər Əliyev idealı (filologiya üzrə elmlər doktoru, dosent Elnarə Akimova) ............................................. 37

Folklorda və bədii nəsrdə Heydər Əliyev obrazı (AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu) ............................................. 142

Dahiyə layiq bədii-sənədli epopeya (filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Həsənova) .......................................... 261

Uşaq ədəbiyyatında Heydər Əliyev mövzusu (filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı) ................................ 297

Heydər Əliyevin ədəbi-filoloji portreti (filologiya üzrə elmlər doktoru, professor Əlizadə Əsgərli) ..................................... 311

"Elm və təhsil" nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Nəşriyyat redaktorları: **Töhfə Talıbova**
**Maral Poladova**
**Mehparə Axundova**

Texniki redaktor: **Rəşid Kərimli**

Korrektor: **Səbinə Məhərrəmova**
Operator: **Nuranə Əliyeva**

Çapa imzalanmış: 4 may 2018.
Şərti çap vərəqi: 25 Sifariş № .....
Kağız formatı: 70x100 1/16. Tiraj: 300

====================================

Kitab **Kərimov Rüfət Nurəddin oğlu,**
sahibkar VOEN:1302813432, sifarişi ilə
"Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən şap olunmuşdur.

***E-mail:*** elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
***Ünvan:*** Baki, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.